**MƏMMƏD RZAYEV**

# MÜASİR ŞƏXSİYYƏT
# (SOSİAL-FƏLSƏFİ TƏHLİL)

**BAKI – 2015**

**Biz mənəviyyatsız, ideyasız yaşaya bilmərik. İndiki ideyamız isə milli, tarixi ənənələrimiz, millətimizin keçdiyi tarixi yol, ulu babalarımızın yaratdığı ümumbəşəri dəyərlər əsasında – Nizami Gəncəvinin, Xaqaninin, Fələkinin, Nəsirəddin Tusinin, Bəhmənyarın, Nəsiminin, Füzulinin, Vaqifin, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Cəfər Cabbarlının, Səməd Vurğunun, Mirəsədulla Mirqasımovun, Yusif Məmmədəliyevin, Mustafa bəy Topçubaşovun və tarix boyu bir çox digər alimlərimizin, ədəbiyyatçılarımızın, filosoflarımızın yaratdıqları mənəvi dəyərlər əsasında formalaşdırılmalı və inkişaf etdirilməlidir. Əgər biz bu tarixi yaxşı təhlil edə bilsək, gənclərimiz onunla yaxşı tanış olsalar, adlarını çəkdiyim şəxslərin və yüzlərlə başqalarının əsərlərindən mənəviyyata dair fikirləri mənimsəsələr, həyatlarında rəhbər tutsalar, Azərbaycan xalqı düz yolla gedəcəkdir.**

***Heydər Əliyev***

***(Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr) I cild. Bakı, Azərnəşr, 1997, s. 174-175)***

**Elmi redaktor**: **Əlikram Mirhəsən oğlu Tağıyev**
Fəlsəfə elmləri doktoru, professor

**Rəyçilər:** **İmran Bayram oğlu Cəfərzadə**
Fəlsəfə elmləri doktoru, professor

**Əlisa İsa oğlu Əhmədov**
Fəlsəfə elmləri doktoru, professor

*Monoqrafiyada şəxsiyyət probleminin kompleks sosial fəlsəfi təhlili verilir, onun müasir xarakterinin səciyyəvi cəhətləri araşdırılır. Ölkəmizdə milli müstəqillik şəraitində gedən sosial proseslərin müasir şəxsiyyətin formalaşmasına və inkişafına göstərdiyi təsirin əsas istiqamətləri açıqlanır, vətəndaş cəmiyyəti və hüquqi dövlətin yaradılması prosesində şəxsiyyətin siyasi, iqtisadi və mənəvi fəallığının artdığı, onun azadlıq və məsuliyyətinin yeni səviyyəyə yüksəldiyi fikri əsaslandırılır.*

*Kitab ali məktəb tələbələri, elmi işçilər və bütövlükdə şəxsiyyət fəlsəfəsi ilə maraqlanan oxucular üçün nəzərdə tutulmuşdur.*

## MÜNDƏRİCAT

**Giriş** ....................................................................................4
**I Fəsil. Tədqiqatın nəzəri-metodoloji prinsipləri.**
1.1. «Fərd», «fərdiyyət» və «şəxsiyyət» anlayışlarının qarşılıqlı münasibəti ....................................................................13
1.2. Şəxsiyyət ilə sosial mühitin qarşılıqlı təsirinin metodoloji aspekti...................................................................................47
1.3. Şəxsiyyətin sistemli-struktur təhlilinin metodoloji əsasları....69
1.4. Müasir dövrdə şəxsiyyətin sosial-fəlsəfi təhlilinin əsas metodoloji prinsipləri.........................................................89
**II fəsil. Müasir dövrün əsas sosial prosesləri və şəxsiyyət**
2.1. Müasir şəxsiyyət siyasi fəaliyyətin subyekti kimi................113
2.2. İqtisadi münasibətlər sisteminin transformasiyası və şəxsiyyət................................................................... 167
2.3. Şəxsiyyət hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu kontekstində.........................................................................204
2.4. Şəxsiyyət müasir milli-etniki münasibətlər prizmasında.....238
2.5. Şəxsiyyət müasir mədəniyyət sistemində............................270
2.6. Müasir şəxsiyyətin özgələşməsi və humanizmi...................302
**III fəsil. Müasir şəxsiyyət aksioloji təhlilin obyekti kimi**
3.1. Dəyərlərin mahiyyəti və ontoloji əsasları............................338
3.2. Şəxsiyyətin aksioloji təşkili və strukturu............................360
3.3. Müasir şəxsiyyətin formalaşması və sosiallaşmasında dəyərlərin rolu.........................................................................370
**IV Fəsil. Şəxsiyyətin azadlığı və məsuliyyəti**
4.1 Şəxsiyyət azadlığı anlayışı müasir dövrün prizmasında.......399
4.2 Müasir şəxsiyyət və azad seçim...........................................431
4.3Şəxsiyyətin azadlığı və məsuliyyətinin vəhdəti......................454
**NƏTİCƏ**..................................................................................473
**İstifadə edilmiş ədəbiyyat**.........................................................481

# GİRİŞ

Şəxsiyyətin mahiyyəti, cəmiyyətdə yeri və rolu, fəallığı, mədəniyyəti və şüurluluq səviyyəsi ilə bağlı məsələlər bütün dövrlərdə fəlsəfi fikrin diqqət mərkəzində dursa da, müasir dövrdə onları tədqiq etməyin aktuallığı daha çox artır. Bu, hər şeydən əvvəl onunla izah edilir ki, postsovet məkanında yaranmış digər müstəqil dövlətlərdə olduğu kimi, Azərbaycanda da müasir şərait totalitar recimdən demokratik quruluşa, inzibati-amirlik sisteminə arxalanan iqtisadiyyatdan bazar iqtisadiyyatına, cəmiyyət üzərində inhisarçılıq rolu yerinə yetirən dövlətdən hüquqi dövlətə keçid və vətəndaş cəmiyyətinin qurulması ilə səciyyələnir. Hazırda cəmiyyətimizdə gedən proseslərin əsas istiqamətlərini göstərərək xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: «Respublika hüquqi, sivilizasiyalı, demokratik dövlət qurmaq yolu ilə gedir. Azərbaycanda siyasi plüralizm, şəxsiyyət azadlığı, insan hüquqlarının qorunması, söz azadlığı, mətbuat azadlığı bərqərar olubdur, çoxpartiyalı sistem artıq fəaliyyət göstərir» (1, s.2).

İctimai həyatın bütün sferalarında əsaslı dəyişikliklər, sosial institutların fəaliyyətində, ictimai şüurda, insanların dünya görüşü və düşüncəsində prinsipial yeniləşmələr ilə müşaiyət olunur. Bütün bu transformasiya prosesləri hər bir insanın, fərdin və şəxsiyyətin sosial statusu, rolu və davranışı problemləri ilə ayrılmaz surətdə əlaqədardır.

Müasir dövrdə gedən sosial proseslər təkcə yeni keyfiyyətə malik olması ilə deyil, həm də yüksək dinamizmi və çoxcəhətliliyi ilə səciyyələnir ki, bu insanın mahiyyətinə, cəmiyyətdə subyektiv amilin rolunun artmasına, şəxsiyyətin hərtərəfli inkişafı ilə bağlı məsələlərə yeni tərzdə yanaşmağı tələb edir.

Bildiyimiz kimi, 29 noyabr 2011-ci il tarixində "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı verilmişdir. Bu Sərəncamla müvafiq dövlət orqanlarına ölkəmizin gələcək inkişafının əsaslarını müəyyənləşdirəcək Konsepsiyasının hazırlanması tapşırılmışdır. Sənətdə yeni inkişaf mərhələsinin əsas hədəfləri kimi bunlar göstərilir: çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunması.

Öz həllini gözləyən nəzəri məsələlər sırasına aşağıdakını da aid etmək olar: ümumi ictimai sistemin və şəxsiyyətin formalaşması və inkişafı haqqıda əzəli biliklərin bir-birilə əlaqələrini konkret mexanizmi necədir, yəni cəmiyyətin dəyişilməsi və transformasiyası məntiqi şəxsiyyət prizmasıda necə əks olunur. Marksist metodologiya cəmiyyət-şəxsiyyət münasibətlərini izah edərkən üstünlüyü birmənalı şəkildə sosial sistemə, cəmiyyətə verirdi. Beləliklə də ikinci tərəfin rolu və nisbi müstəqilliyi lazımi dərəcədə qiymətləndirilmirdi. Buradan aydındır ki, hər şeydən əvvəl şəxsiyyət probleminin təhlili metodologiyasının yeni, daha dürüst əsaslar və prinsiplər üzərində qurulmasına kəskin ehtiyac hiss olunur. Bu istiqamətdə həll edilməli olan digər mühüm vəzifə cəmiyyətin və burada baş verən köklü dəyişikliklərin, radikal irəliləyişlərin obyektiv elmi mənalandırılması əsasında, onların şəxsiyyətin formalaşması və inkişafına göstərdiyi təsirin mexanizmini açmaqdır. Sonra, müasir şəxsiyyətin hazırkı cəmiyyətdə gedən sosial proseslərdə iştirakının istiqamətlərinin,

yollarının və vasitələrinin araşdırılması, bütövlükdə açıq cəmiyyət quruculuğu gedişində onun artmaqda olan rolunun və əhəmiyyətinin tədqiq olunması son dərəcə zəruridir. Deməli, müasir dövr şəxsiyyətin mahiyyətində və cəmiyyəti ilə münasibətlərində bir çox yeni xüsusiyyətlər, məna çalarları və tərəflər yaradır ki, onların təhlil edilib ümumiləşdirilməsi sosial fəlsəfənin ən aktual istiqamətlərindəndir. Həm də nəzərdə tutmaq lazımdır ki, sosiohumanitar elmlər sistemində şəxsiyyətə dair bu günə qədər vahid konseptual təlim yaradılmadığından, onun müxtəlif tərəfləri haqqında fəlsəfi, psixoloji və sosioloji ədəbiyyatda nəzəri mübahisələr və diskusiyalar getməkdədir. Bu, həm də mövzunun mühümlüyünün anlaşılmasından, onun nəzəri səviyyədə mənalandırılmasına keçid prosesinin dialektikası ilə bağlıdır: problem mürəkkəb və çoxtərəfli olduğu üçün onun araşdırılması ilə bağlı metodoloji və konkret nəzəri məsələlərdə fikir ayrılıqları özünü göstərir. Nəzəri mübahisələrin əsas predmetini aşağıdakı məsələlər təşkil edir:

a) Müasir dövrdə problemin qoyuluşu və həllində yaranan yeniliklərin mahiyyəti;

b) şəxsiyyət probleminin bitkin nəzəriyyə formasında mənalandırılması;

c) problemin nəzəri səviyyəsi ilə onun praktiki həllinin əlaqəliliyi və onun perspektivləri.

Digər tərəfdən hazırda şəxsiyyəti öyrənən konkret sosiohumanitar elmlər qarşısında nəzəri metodoloji xarakterli bir sıra çətinliklər meydana çıxır ki, onların aradan qaldırılımasında vahid fəlsəfi şəxsiyyət konsepsiyasının işlənib hazırlanması müstəsna dərəcədə böyük əhəmiyyətə malikdir.

Şəxsiyyət fenominin çoxölçülülüyü ona müxtəlif elmlər tərəfindən verilən təriflərdə də öz əksini tapır. Hazırda onların sayının yüzlərlə olmasına baxmayaraq əksəriyyətində şəxsiyyətin sözügedən keyfiyyəti vurğulanır. Çoxölçülük şəxsiyyətin fəlsəfi anlaşılmasının aşağıdakı əsas xüsusiyyətlərinin müəyyənləşdirilməsində də başlıca meyar rolunu oynayır: təbiətin, cəmiyyətin və insan həyatının təkamülündə şəxsiyyətin rolu; şəxsiyyət probleminin fənlərarası obyekt statusunu kəsb etməsi; hər bir konkret tarixi mərhələdə şəxsiyyətin anlaşılması məsələlərinin o dövrün dünyagörüşü səviyyəsindən, təfəkkür üslubundan, elmdə və mədəniyyətdə əsas yer tutan standartlar və dəyərlər sistemindən asılılığı, insanı təkrarolunmaz özgürlüyə malik subyekt kimi araşdıran biogenetik, sosiogenetik və personogenetik tədqiqatlarda onun fərd, fərdiyyət və şəxsiyyət kimi təzahürlərinin, qarşılıqlı münasibətlərinin araşdırılması, təbiətdə və cəmiyyətdə şəxsiyyətin inkişafı qanunauyğunluqlarının tədqiq olunması; şəxsiyyətin formalaşması və inkişafına məqsədyönlü, idarəedici və tənzimləyici təsirin elmi cəhətdən əsaslandırılması.

Müasir şəxsiyyətin sosial-fəlsəfi təhlili həm də praktiki baxımdan çox vacibdir, çünki həyata keçirilməkdə olan əsaslı islahatların müvəffəqiyyəti hər bir insanın bu prosesə fəal cəlb olunmasından, onun yeniləşməkdə olan cəmiyyətdə öz yeri və rolunu nə dərəcədə başa düşməsindən, formalaşmaqda olan yeni tipli sosial münasibətlərin subyekti kimi çıxış etməyə hazırlığından və qabiliyyətindən çox asılıdır. Deməli, açıq cəmiyyətin formalaşmasını səciyyələndirən bütün radikal islahatlar təkcə ümumictimai və sosial strukturlar miqyasında deyil, həm də fərd və şəxsiyyət səviyyəsində həyata keçirilməlidir. Sonuncu amil vacib olduğu qədər də çətindir, çünki bu hər bir fərdin və şəxsiyyətin

unikal, özgür, təkrarolunmaz və əvəzedilməz keyfiyyətlərini nəzərə almağı tələb edir.

Digər tərəfdən açıq cəmiyyət yaratmağa yönələn strateji vəzifələrin uğurlu həlli üçün hər bir insanın yaradıcı potensialını fəallaşdırmaq, onun təşəbbüskarlığını və məsuliyyətini gücləndirmək zəruridir.

Deyilənlər sübut edir ki, milli müstəqillik və demokratik, hüquqi dövlət quruculuğu yolunda atılan addımlar şəxsiyyətin ictimai həyatda rolu və əhəmiyyətinin daha da artması ilə əlamətdardır. Bununla əlaqədar olaraq çağdaş Azərbaycan cəmiyyətində hərtərəfli inkişaf etmiş şəxsiyyətin yetişdirilməsinə həmişəkindən daha çox ehtiyac duyulur. Bu, çox mühüm taleyüklü prosesi özbaşına buraxmaq olmaz, onun elmi idarə olunması son dərəcə zəruridir. Söhbət öz «mən»ini dərk edən, şüurlu, fəal vətəndaş mövqeyinə malik olan şəxsiyyətin formalaşmasına yönəlmiş elmi əsaslandırılmış dövlət siyasətinin işlənib hazırlanmasından və həyata keçirilməsindən gedir ki, burada konkret sosial fəlsəfi tədqiqatların nəticələrindən istifadə olunması müstəsna əhəmiyyətə malikdir. Bu, həm də yetişməkdə olan gənc nəslin təlim və tərbiyəsi ilə bağlı problemlərin uğurlu həlli baxımından da vacibdir.

Şəxsiyyət probleminə aid mövcud çoxsaylı fəlsəfi ədəbiyyatın təhlili göstərir ki, insanın müxtəlif cəhətlərini ifadə edən fərd, fərdiyyət (fərdilik) və şəxsiyyət anlayışlarının qarşılıqlı münasibətləri problemi hələ də kifayət qədər işlənməmişdir, onun ətrafında fikir ayrılıqları və mübahisələr hələ də davam etməkdədir. Həmin anlayışların konkret nisbətinə dair elmi axtarışların aparılması zəruriliyi həm də bununla izah edilir ki,

müasir  dövr onların hər birinin məzmununda və deməli qarşılıqlı münasibətlərində də mühüm yeniliklər yaradır.

Müasir şəxsiyyətin kompleks sosial-fəlsəfi təhlili həm də ona görə çox aktualdır ki, yaxın keçmişə qədər nəzəri fikirdə hökmranlıq etmiş marksist fəlsəfənin ehkamçı və ideoloji müddəaları şəxsiyyət probleminin elmi araşdırılmasında da müəyyən nöqsan və məhdudluqları şərtləndirmişdir. İndi cəmiyyətimizdə qərarlaşmış olan sərbəst elmi yaradıcılıq və azad düşünmək mühiti başqa məsələlərdə olduğu kimi şəxsiyyət probleminin hərtərəfli və obyektiv elmi təhlilini vermək üçün real imkanlar açır.

Lakin qeyd etmək lazımdır ki, şəxsiyyət probleminin yuxarıda göstərilən aktual məqamlarının öyrənliməsi sahəsində sovet dövründə yazılmış əsərlər xeyli dərəcədə lazımlı və mühümdür. Bu mənada onların rolunu heçə yendirmək elmi ədalətsizlik olardı. Belə ki, şəxsiyyət probleminin araşdırılması üçün vacib olan bir sıra müddəalar məhz həmin dövrün nəzəri fikrinin məhsuludur. Bunlara misal olaraq şəxsiyyət kateqoriyasının məzmununda insanın sosial  keyfiyyətinin əsas götürülməsini, şəxsiyyət ilə cəmiyyət arasındakı münasibətlərin konkret tarixi xarakterini, şəxsiyyətin fəallığını şərtləndirən sosial amillərin rolunun xüsusi qeyd olunmasını və başqalarını göstərmək olar. Bununla belə yuxarıda göstərildiyi kimi, həmin dövrdə aparılmış tədqiqatların əksəriyyətində kommunist ideologiyasının güclü  təsiri özünü göstərmişdir. Bunun nəticəsində o dövrdə yazılmış kitablarda və məqalələrdə şəxsiyyətin izahında sosial-iqtisadi amillərin rolunun şişirdilməsi, onun fəaliyyətində sosiomədəni mühitin, mədəniyyətin və mənəvi dəyərlərin rolunun kifayət qədər qiymətləndirilməməsi, ən

başlıcası isə şəxsiyyətin sosial determinasiyasının şişirdilməsi, onun subyektiv, daxili mənəvi dünyasının əhəmiyyətinin lazımi səviyyədə qiymətləndirilməməsi kimi nöqsaqlar özünü göstərirdi.

Sovet dövründə yazılmış əsərlərin digər bir nöqsanı fikrimizcə bundan ibarətdir ki, onlarda şəxsiyyət ilə cəmiyyət münasibətləri birtərəfli izah olunurdu, göstərilirdi ki, sosial mühitin, xüsusilə də iqtisadi şəraitin şəxsiyyətə təsiri əsas yer tutur. Beləliklə, şəxsiyyətin sosial şəraitə, sosial münasibətlərə fəal əks təsiri kölgədə qalırdı. Əslində isə qarşılıqlı təsirin sözügedən istiqaməti də çox mühümdür və şəxsiyyətin sosial-tarixi inkişafın subyekti kimi daim artmaqda olan rolunu, onun çoxşaxəli yaradıcılığını və fəallığını səciyyələndirir. Bundan əlavə həmin əsərlərdə insanların fəaliyyətinin obyektiv amillərlə şərtlənməsi əsas götürülür, şəxsiyyətin özünün fəallığına, yaradıcılığına lazımi diqqət yetirilmirdi. Şəxsiyyətin keyfiyyətlərini mövcud varlıq formalarına (iqtisadi, sosial, mədəni və s.) müncər edən təfəkkür stereotipi qərarlaşmışdı. Şəxsiyyət bir halda istehlakçı və yaxud işçi funksiyaları ilə, digər halda isə sinif və sosial qrup ilə eyniləşdirilir, üçüncü halda isə o mədəni mühitin məhsulu hesab olunurdu. Qeyd olunan hər üç hal üçün ümumi cəhət isə bu idi ki, şəxsiyyət maddi amillərin passiv mənimsəyicisi kimi təsəvvür olunurdu, o cəmiyyət içərisində bir növ əridilirdi. Belə bir əsas məsələyə məhəl qoyulmurdu ki, şəxsiyyət sosial mühitin və mədəniyyətin passiv məhsulu deyil, həm də onların fəal yaradıcısıdır.

Şəxsiyyət probleminin metodoloji təhlilində qarşıya çıxan ən böyük çətinlik fikrimizcə, bütövlükdə cəmiyyət, ictimai həyat haqqında ümumi sosial-fəlsəfi müddəalardan və prinsiplərdən

ayrıca götürülmüş konkret insan varlığının təhlilinə keçilməsinin mürəkkəb olmasında özünü göstərir.

Təqdim olunmuş kitabda biz müasir şəxsiyyət haqqında mülahizələrimizi işləyib hazırlayarkən, mövcud elmi ədəbiyyatda bu sahədə əldə olunmuş nəzəri səviyyəyə arxalanmaqla yanaşı, əsas diqqəti problemin məzmununa və fəlsəfi-tarixi səpkisinə dair ümumi məlum məsələlərə deyil, bu və ya digər dərəcədə zəif işlənilmiş, müəyyən mənada diqqət mərkəzindən kənarda qalan cəhətlərə yönəltməyə çalışmışıq. Bununla əlaqədar belə bir metodoloji orientiri əldə rəhbər tutmuşuq ki, sosial gerçəklik zənginləşdikcə, ictimai həyat praktikası inkişaf etdikcə şəxsiyyət konsepsiyasında da ilk nəzərdə aydın görünən və mübahisə doğurmayan, hamı tərəfindən qəbul olunmuş məsələlərin özündə də yeni-yeni çalarlar üzə çıxır ki, onların izahında polemika və fikir ayrılıqları, mübahisələr özünün göstərir və deməli həmin istiqamətdə elmi axtarışları davam etdirmək zəruridir.

Şəxsiyyət probleminə metodoloji planda yanaşdıqda qarşıya çıxan digər bir məsələ onun qiymətverici anlamı ilə bağlıdır. Bəzən bu kateqoriya seçim aksioloji xarakterli izah olunur, yəni onun məzmununa yalnız müəyyən tələblərə və normalara cavab verən insanlar daxil edilir. Beləliklə də hər bir insanın konkret varlığının şəxsiyyət hesab edilməsi sual altına alınır. Qeyd olunan mövqenin tərəfdarları və onların gətirdikləri arqumentlər kifayət qədərdir. Biz hər bir insanı şəxsiyyət kimi qəbul edən xətti müdafiə edirik. Eyni zamanda unudulmamalıdır ki, hər bir insan şəxsiyyət olsa da, sonuncu keyfiyyət hamıda eyni səviyyədə ifadə olunmur.

Ümumilikdə götürdükdə elmi ədəbiyyatda şəxsiyyət probleminin izahında üç əsas yanaşma özünü göstərir:

a) Təbii-elmi, biololoji baxışdır ki, o bilavasitə şəxsiyyət konsepsiyası yaratmaq məqsədi güdmür. Onun əsas vəzifəsi adi şüur səviyyəsindən çıxış etməklə şəxsiyyətə naturalist baxışı əsaslandırmaqdır;

b) Ümumi məntiqi yanaşma, bu yol ilə cəmiyyətdə insanların tutduğu yeri müəyyənləşdirmək və buradan çıxış edərək ayrıca bir insanın varlığının ümumi cəhətlərini əsaslandırmağa çalışır;

c) Şəxsiyyəti məhdud psixoloji çərçivədə götürür, onun təhlilində ictimai münasibətlərin yerinə və roluna lazımi dərəcədə diqqət yetirmir (117, s.6-7)

İnsan cəmiyyətdə fərdiləşmə prosesi gedişində müstəqil şəxsiyyət kimi təşəkkül tapır. Deməli, insanı dərindən öyrənmək üçün ona təkcə sosial varlıq kimi yanaşmaq kifayət deyildir, onu həm də fərdi mövcudat kimi götürmək lazımdır. Müasir dövrdə sözügedən məqama diqqət yetirmək daha çox zəruri olur. Burada insan fərdiyyəti probleminin xüsusi aktuallıq kəsb etməsi, insan varlığının dərin əsaslarını bilavasitə əhatə edən obyektiv meyillər ilə izah edilir. İndi cəmiyyətdə və beynəlxalq miqyasda baş verən köklü sosial, siyasi, elmi-texniki və mənəvi dəyişikliklər hər bir fərdi öz əhatə dairəsinə cəlb edir, onun davranışı və fəaliyyətinə xüsusi tələblər, həyat standartları diktə edir. bununla ayrılmaz əlaqədə cəmiyyətdə müəyyən kütləviləşləmə meyli, şəxsi fərdi həyatın tədricən əriyib itməsi müşahidə olunmaqdadır. Belə şəraitdə insan şəxsiyyətinin özəlliyini və unikallağını qoruyub saxlamaq və inkişaf etdirmək zəmanəmizin ən önəmli problemlərindəndir. Digər tərəfdən nəzərdə tutulmalıdır ki, müasir dövrdə qarşıda duran məsələlərin həllində cəmiyyətin hər bir üzvünün, hər bir fərdin töhfəsi durmadan artmaqdadır. Bunsuz

demokratikləşdirməni genişləndirmək, vətəndaş cəmiyyəti və hüquqi dövlət qurmaq boş arzu olaraq qalar. Buraya onu da əlavə etmək lazımdır ki, açıq cəmiyyətin əsaslarının yaradılması prosesində cəmiyyətin hər bir üzvünün, fərdiyyətin məsuliyyəti də durmadan artır.

Bütün bunlar müasir sosial-fəlsəfi fikir qarşısında aşağıdakı nəzəri məsələlərin həlli zəruriliyini irəlir sürür:

İnsanın həyatında fərdi və sosial tərəflərin nisbəti; şəxsiyyətin formalaşmasında və inkişafında sosiallaşma və individiuallaşmanın rolu; fərdinin sosiala qovuşması prosesinin ümumi mexanizmi və onun müasir dövrdə özünəməxsusluğu; ictimai həyatın bu və ya digər sahəsində fərdi ilə sosialın dialektikasının təzahürü xüsusiyyətləri; bütövlükdə cəmiyyətin, o cümlədən, müxtəlif sosial strukturların və birliklərin fəaliyyətində fərdi əsasların rolu; fərd, fərdiyyət və şəxsiyyət arasında qarşılıqlı münasibətlərin müasir səviyyəsi və onların təkmilləşdirilməsi perspektivləri; şəxsiyyətin sosial idarə olunmasında, təlim və tərbiyəsində fərdi yanaşma metodunun mahiyyəti və üstünlükləri və s. Biz bu kitabda həmin vəzifələri qismən də olsa, həll etməyə çalışmışıq.

Şəxsiyyət anlayışını konseptual baxımdan mənalandırarkən aşağıdakı iki mühüm məqamı nəzərə almaq son dərəcə vacibdir:

1) Şəxsiyyətin başqa insanlar ilə əlaqələrdə formalaşması, fəaliyyəti və inkişafı prosesi sadəcə olaraq həmin əlaqələrin çulğalaşması demək olmayıb, öz mahiyyətinə görə yeni keyfiyyətli və dərin prosesdir. Yəni bu proses həm də başqa insanların öz varlığını müxtəlif sosial əlaqələr və birlik formaları vasitəsilə reallaşdırdığını ifadə edir. Sonuncu qəbildən olan əlaqələr şəxsiyyətin varlığında bilavasitə təzahür etməsə də, onlar

şəxsiyyətin təşəkkülü və dəyişilməsinin mühüm şərti rolunu oynayır;

1) Şəxsiyyət haqqında nəzəri təsəvvürlər buna əsaslanmalıdır ki, şəxsiyyət öz konkret varlığında digər insanları və ictimai münasibətlər kompleksini təzahür etdirməklə yanaşı, həm də özünün, yəni, yalnız ona xas olan həyat fəaliyyətini reallaşdırır. Bu iki məqamın vəhdəti aşağıdakı cəhətlərdə əks olunur: bir tərəfdən ictimai əlaqələrin növləri şəxsiyyətin formalaşması və inkişafının müxtəlif formaları kimi çıxış edirlər, digər tərəfdən şəxsiyyətin özünün təşəkkülü, mövcudluğu və inkişafı həmin ictimai əlaqə və münasibətlərin dolayı vasitələrlə yenidən canlandırılması deməkdir [117, s.202-203].

Yuxarıda deyilənlər sübut edir ki, müasir dövr şəxsiyyətini kompleks şəkildə, monoqrafik tədqiq etmək nəzəri və praktiki baxımdan son dərəcə vacibdir. Bütün bunları nəzərə alaraq biz bu monoqrafiyada həmin elmi boşluğu doldurmağı qarşımıza məqsəd qoymuşuq. Təhlil predmetinin son dərəcə mürəkkəb, çoxşaxəli və çətin olması, kitabda irəli sürülən bir sıra məsələlərin nəzəri baxımdan mübahisəli olmasını şərtləndirir. Ona görə də bu barədə olan iradları və təklifləri yüksək səmimiyyət və razılıq hissi ilə qarşılamağa hazırıq.

# I FƏSİL
# TƏDQİQATIN NƏZƏRİ–METODOLOJİ PRİNSİPLƏRİ

## 1.1.«Fərd», «fərdiyyət» və «şəxsiyyət» anlayışlarının qarşılıqlı münasibəti

Müasir şəxsiyyətin mahiyyətini, strukturunu, səciyyəvi cəhətlərini və cəmiyyətdə rolunu adekvat elmi araşdırmaq üçün ilk növbədə bu problemin tədqiqinin nəzəri-metodoloji prinsiplərini nəzərdən keçirmək tələb olunur. Sonuncuların sırasında birinci yeri şəxsiyyət anlayışının ona ən yaxın olan «fərd» və «fərdiyyət» anlayışları ilə qarşılıqlı münasibətlərinin açılması tutur. Sözügedən problemə xüsusi diqqət yetirmək zərurəti həm də aşağıdakı iki amildən irəli gəlir. Əvvəla, həmin anlayışların əlaqələri son dərəcə mürəkkəb və dinamik məzmun kəsb edir. Sosial idrakın və praktikanın hər bir növbəti mərhələsi onun mahiyyətinə daha dərindən varmaq və yeni-yeni çalarlarını aşkara çıxarmaq imkanı verir. Bu mənada müasir insanşünaslıq elmi və yaşadığımız dövrün sosial reallığı əvvəlki dövrlər ilə müqayisədə daha yüksək və prinsipcə yeni keyfiyyətə malikdir. Digər tərəfdən həmin anlayışların qarşılıqlı münasibətləri bir çox tədqiqatçıların diqqətini cəlb etməsinə baxmayaraq, bu barədə elmi ədəbiyyatda vahid rəy yoxdur, mübahisələr və fikir ayrılıqları özünü göstərir ki, bu, problemin tükənmədiyini sübut edir və onun təhlilinə yönələn elmi axtarışları davam etdirməyin zəruriliyini əsaslandırır.

«Fərd», «fərdiyyət» və «şəxsiyyət» anlayışlarının sosial-fəlsəfi təhlilində hər şeydən əvvəl aşağıdakı metodoloji prinsip əldə rəhbər tutulmalıdır: onların hər biri və bütövlükdə hamısı insanın cəmiyyətdə və ümumiyyətlə dünyada varlığının konkret üsulları və yaxud formalarıdır.

İnsan çoxtərəfli, çoxölçülü və çoxkeyfiyyətli fenomendir. Onu ictimai münasibətlərin məhsulu kimi, təbii-bioloji mövcudat kimi, ictimai-tarixi fəaliyyətin və mədəniyyətin subyekti kimi və nəhayət öz həyatının yaradıcısı kimi götürüb təhlil etmək olar. Həmin müxtəlif xususiyyətlər müvafiq olaraq «insan», «fərd», «fərdiyyət» və «şəxsiyyət» anlayışları vasitəsilə ifadə olunur.

Elmi mənada götürülən insan anlayışı – Homos Sapiens (zəkalı mövcudat) bioloji növünə məxsus ümumi keyfiyyətləri əks etdirir. Onun məzmununa həm keçmişdə yaşamış və həm də hazırda yaşayan yer kürəsinin sakinləri daxildir. Həmin anlayış insanın ümumi nəsli əlamətlərini və xassələrini (onun bioloji təşkilini, şüurunu, dilini, əmək qabiliyyətini, ümumimədəni səviyyəsini və sairi) ifadə edir. O, hələ insanın konkret təsvirini vermir, onu yalnız ümumi və mücərrəd səviyyədə səciyyələndirir. Buna görə təkcə həmin anlayış ilə məhdudlaşmaq olmaz, onu «fərd», «fərdiyyət» və «şəxsiyyət» anlayışları silsiləsi ilə konkretləşdirmək və tamamlamaq tələb olunur.

«Fərd» anlayışı ümumi bəşəriyyətin, insan bioloji növünün bir subyektini, konkret şəxsi bildirir. Onda ümumilikdə insan nəslinə xas olan əlamətlər əsas yer tutur. Onlar insanın bioloji və fərdi simasını əks etdirir. Fərddə ümumi insani keyfiyyətlər ilə yanaşı, həm də sırf özünəməxsus xarakterli xassələr və əlamətlər (təbii imkanların rəngarəngliyi, psixi xassələrin, hafizə, təxəyyül, temperament və xarakterin müxtəlifliyi, təfəkkür tərzinin xüsusiyyətləri – baxışları, mühakiməsi, rəyləri, habelə, tələbat və maraqları və s.) də özünü göstərir. Başqa sözlə deyilsə, fərd hər bir insanı başqalarından ayıran, təkrarolunmaz və yalnız ona xas olan cəhətlərin məcmusunu əhatə edir. Vaxtilə K.Marks və F.Engels insanın fərdi varlığına onun real həyatı kimi yanaşaraq

göstərirdilər ki, bu real həyat nəticə etibarilə təbiətin və cəmiyyətin inkişafı ilə şərtlənir. «Hər cür insan tarixinin ilkin şərtini əlbəttə ki, canlı insan fərdlərinin olması təşkil edir. Buna görə də hər şeydən öncə bu fərdlərin bədənlərinin təşkili və onu şərtləndirən təbiətə münasibətləri qeyd olunmalıdır (33, s.22-23). Onlar həm də fərdi ictimai həyat ilə sıx vəhdətdə götürərək yazırdılar: «Fərd ictimai mövcudatdır. Buna görə də onun həyatının hər cür təzahürü… ictimai həyatın təzahürü və bərqərar olması deməkdir» (174, s.119).

İnsanı fərd kimi səciyyələndirən göstəricilər aşağıdakılardır:

1. Onun anatomik-fizioloji əlamətləri (bədən quruluşunun və əsəb sistemi tipinin xüsusiyyətləri);

2. Psixiki göstəricilər (hər bir fərdin psixikası bir çox cəhətdən genotipik amillərlə şərtlənir). Buna görə insanın fərd kimi götürülməsi bir tərəfdən genotip məzmun daşıyır (buraya həm də irsiyyət qanunları və mutasiya dəyişiklikləri daxildir), digər tərəfdən isə fenotip xarakterlidir (ontogenez nəticəsində bəzi imkanların inkişafı və digərlərinin məhdudlaşdırılması).

«Fərd» anlayışının məzmununa dərindən diqqət yetirdikdə, burada müəyyən sosial mənanın özünü göstərdiyini yəqin etmək olur. Fərd yalnız cəmiyyətdə mövcud ola bilir. Ondan təcrid olunmuş şəkildə atom kimi götürülən fərd yalnız naturalist fenomen (fiziki, bioloji və psixoloji) kimi çıxış edir (134, s.65).

Fərdin valığının dialektikası aşağıdakı kimi ifadə olunur: onun keyfiyyətlər sistemi bir tərəfdən fəaliyyət prosesində təzahür edir, digər tərəfdən isə həmin keyfiyyətlər bu fəaliyyətin gedişində təşəkkül tapır və formalaşır. Fərd anlayışının insan sistemində əsas rolu bundadır ki, o, insanın sosiallaşması prosesinin özülündə, əsasında durur, məhz sonuncunun nəticəsində insan sözün əsl

mənasında sosial varlığa çevrilir. Bu məqama xüsusi diqqət yetirərək K.Marks yazırdı:

«Biz, məndən, yəni empirik, cismani fərddən çıxış etməliyik. Lakin bunu ona görə etməliyik ki, bu mərhələdə donub qalmayaq, oradan «insana» doğru yüksələk» (175, s.12).

Burada Marks dırnaq arası insan dedikdə şəxsiyyəti başa düşürdü. Məhz şəxsiyyət ontogenez prosesində fərdin sosiallaşmasının nəticəsi kimi çıxış etməklə, insanın sosial mahiyyətini göstərirdi.

İnsanın fərddən şəxsiyyətə doğru yüksəlişində «fərdiyyət» (fərdilik) çox mühüm yer tutur.

«Fərdiyyət», insanın fərdiliyi həmişə elmin və praktikanın diqqət mərkəzində duran problemlərdəndir. Bununla belə, o, fəlsəfi ədəbiyyatda müxtəlif şəkildə (gah fərd ilə, gah da şəxsiyyət ilə eyniləşdirilmiş halda) izah olunur.

Bu anlayış təkcə sosial idrakda, ictimai hadisələrin və proseslərin dərk olunmasında, ictimai qanunların fəaliyyəti mexanizminin aşkar edilməsində deyil, həm də insan həyatının təbii-elmi və bioloji tərəflərinin araşdırılmasında müstəsna rol oynayır. Odur ki, müasir elm və praktika fərdiliyi idrakın və fəaliyyətin mühüm metodoloji prinsipi kimi araşdırmağı təkidlə tələb edir.

Əvvəla onu qeyd edək ki, «fərdiyyət» latın mənşəli individium sözündən olub, hərfi mənası ayrıca, fərdi, xüsusi deməkdir. Fərdiyyətin, fərdiliyin yaranması universal xarakterli prinsip olan fərdiləşmə prosesinin nəticəsi kimi çıxış edir. Bu prinsip maddi aləmin bütün sahələrində özünü göstərir. Sosial həyatda onun ən yüksək pilləsi – insanın fərdiləşməsi mövcuddur.

İnsanın fərdiliyini müəyyən etmək əslində konkret bir subyektin yalnız ona xas olan göstəricilərinə əsaslanmaqla, onun bütöv təsəvvürünü vermək deməkdir. Buna görə də insanı dərindən araşdırarkən bu anlayışı təhlil etmədən keçinmək olmaz. Qeyd edilməlidir ki, hər bir fərdiyyəti səciyyələndirən spesifik keyfiyyətləri müəyyən etmək son dərəcə çətin məsələdir. Söhbət ayrıca bir insanın sadəcə olaraq seçilib götürülməsindən başlayaraq, onun təkrarolunmazlığının və unikallığının formalaşması və inkişafı kimi çoxcəhətli problemə qədər bir çox mürəkkəb məsələlər kompleksinin həll edilməsindən gedir. Çətinlik bir də bundadır ki, belə təhlil apararkən, həm də insanın ümumi xassələri və əlamətləri daim diqqət mərkəzində saxlanılmalıdır.

Ümumilikdə götürdükdə fərdiyyət anlayışını müəyyən bir fərdi digər insanlar kütləsindən fərqləndirən xassələrin və qabiliyyətlərin məcmusu kimi səciyyələndirmək olar (158, s.282). Elmi ədəbiyyatda fərdiyyət anlayışının fəlsəfi təhlilinin bu və ya digər tərəflərini əks etdirən xeyli miqdarda əsərlər vardır (250, 96, 61, 78, 79, 150, 56, 57, 139, 140, 192, 221, 71, 46).

Yuxarıda qeyd olunduğu kimi bu əsərlərin ümumən çox faydalı olması ilə yanaşı, onlarda müasir şəxsiyyət müstəqil tədqiqat obyekti kimi götürülmədiyindən, bu problem kompleks tədqiq olunmamış, yalnız onun ayrı-ayrı tərəfləri təhlil edilmişdir. Nəticədə belə bir vəziyyət özünü göstərir: insan ancaq sosial mövcudat kimi araşdırılır, onun fərdi varlığı və xüsusiyyətləri arxa plana keçirilir. Digər tərəfdən bu əsərlərin əksəriyyəti marksizm metodologiyası mövqeyindən yazıldığından, aparılan təhlil, şəxsiyyətin ictimai münasibətlərin və sosial mühitin nəticəsi kimi qələmə verilməsi prinsipinə əsaslanır.

Nəhayət bu da əlavə olunmalıdır ki, yuxarıda adı çəkilən kitablar sovet dövründə meydana çıxmışdır və totalitar recimin faktiki materiallarının ümumiləşdirilməsinə arxalanır və təbiidir ki, müasir dövrün, yaşadığımız milli müstəqillik və açıq cəmiyyətə keçidin reallığını əks etdirmir.

Fərdiyyət probleminə dair fəlsəfi ədəbiyyatın özündə isə bu anlayış birmənalı izah olunmur. Bəzi müəlliflər hətta onun fəlsəfi əhəmiyyətini inkar edir və göstərirlər ki, fərdiyyət insan haqqında heç bir elmin predmetinə daxil deyildir, o yalnız incəsənət üçün predmet rolunu oynayır. Digər tədqiqatçıların fikrincə, fərdiyyət fəlsəfi mənaya malikdir, lakin bu məna insanın təkcəliyindən və yaxud onun təkrarolunmazlığından ibarətdir. Məsələn, V.P.Tuqarınov insan anlayışının mahiyyətini açarkən göstərir ki, burada onun özünün fərdi cəhətləri yəni, bütün insanlar arasında təkcə ona məxsus cəhətlər əsas yer tutur. Bu onda təkcənin (ayrıcanın) ifadə olunması deməkdir» (250, s.12). Təxminən buna bənzər mövqe Q.Qak tərəfindən ifadə olunur. Onun fikrincə, fərdiyyət ümuminin təzahüründə unikallıq, təkrarolunmazlıq, bir fərdi digərlərindən fərqləndirən cəhətlərdir» (96, s.20).

Bununla əlaqədar qeyd edək ki, unikallıq (təkrarolunmazlıq) fərdiyyətin çox mühüm əlaməti olsa da, yeganə əsas keyfiyyəti deyildir.

Bəzən insan fərdiliyini birmənalı şəkildə, onun qabiliyyət və istedadının rəngarəngliyi ilə izah edirlər. Bu fikirlə də razılaşmaq çətindir, çünki təkcə rəngarəngliyin qeyd olunması məsələnin bir tərəfidir (özünün bütün əhəmiyyətliliyi ilə yanaşı). Elə hallar olur ki, fərd özünün yalnız bir sahədə yüksək istedada və qabiliyyətə malik olması ilə başqalarından seçilir. Hətta eyni bir fərddə müxtəlif qabiliyyətlər olduğu halda belə, onlardan bu və ya digəri

daha parlaq şəkildə özünü göstərir. Deməli, fərdiyyət və fərdilik təkcə bu qeyd olunan amil ilə izah edilə bilməz. Əslində fərdiliyin kökləri insanın təbii-genetik və sosial keyfiyyətlərinə söykənir. Birinci tərəf onda təzahür edir ki, təbiətin özü hər bir fərddə ümumi növ əlamətləri ilə yanaşı özünəməxsus və təkrarolunmaz keyfiyyətlərin olmasını şərtləndirir. Belə ki, hər bir insan orqanizminə genetik baxımdan yanaşdıqda, onun bioloji təkrarsızlığa malik olduğu aşkara çıxır. Bu keyfiyyət həmin şəxsin genotipik proqramı ilə müəyyənləşdirilir və ətraf mühitin bütün dəyişmələrində sabit qalır. Qeyd olunan vəziyyət təsadüfi olmayıb, təbii-bioloji qanunauyğunluğu ifadə edir – növlər bioloji cəhətdən nə qədər çox rəngarəng olursa, onların mövcudluğu da bir o qədər sabit və möhkəm olur.

Fərdilik ikinci bir tərəfdən sosial amillər ilə şərtlənir. Belə ki, cəmiyyətin mövcudluğu və inkişafı onun üzvləri olan insanların müxtəlif səviyyəyə malik olmasını nəzərdə tutur. Çünki məhz bu göstərici hər bir cəmiyyətin ümumi zənginlik dərəcəsini əks etdirir, onun mədəniyyətinin inkişafının hansı səviyyədə olduğunu göstərir.

Deyilənlərdən aydın olur ki, insanların fərdi özünəməxsusluqlara malik olması, çox mühüm sosial qanunauyğunluq kimi çıxış edir. Bu münasibətdə yanaşdıqda sosial həyatda aşağıdakı paradoks özünü göstərir. Bir tərəfdən cəmiyyət öz üzvlərinin davranış və fəaliyyətinin müəyyən qədər unifikasiyasını tələb edir (məsələn, peşə baxımından). Digər tərəfdən isə o, öz üzvlərinin fərdi xüsusiyyətlərini qorumadan və inkişaf etdirmədən fəaliyyət göstərə bilməz. Deməli, fərdilik (fərdiyyət) bir növ insanın mövcudluğunun ictimai üsulu kimi çıxış edir.

Qeyd edək ki, fərdlərə məxsus ayrıca və təkrarolunmaz əlamətlərin seçilib götürülməsi fərdiyyət anlayışının mahiyyətinin açılmasında mühüm əhəmiyyət kəsb edir, çünki hər bir fərdiyyət birinci növbədə nə isə bir ayrıca mövcudat kimi çıxış edir. Bununla belə «fərdiyyət» və «ayrıca mövcudat» anlayışları eyni deyildir. Məsələ burasındadır ki, sonuncu anlayış sadəcə olaraq fərdiyyətin mövcudluğunu, onun varlığını bildirir. Lakin bu hələ fərdiyyətin keyfiyyət müəyyənləyini ifadə etmir. Buna görə də İ.İ.Rezvitski haqlı olaraq göstərirdi ki, fərdiyyətin ayrıca mövcudat vasitəsilə səciyyələndirilməsi formal xarakter daşıyır, bu hələ həmin anlayışın məzmununu tam açmır (221, s.25).

Doğrudan da ayrıca mövcudat dedikdə biz müəyyən növə daxil olan bir konkret varlığı, onun bir nüsxəsini başa düşürük. Əslində, bu fərd anlayışında ifadə olunur. Bu halda söhbət reallığın konkret vahidindən – təbii bioloji və ya sosial fərddən gedir. İnsana münasibətdə tətbiq olunduqda fərd anlayışı ümumi bioloji insan növünün ayrıca bir nümayəndəsini, konkret bir təzahürünü ifadə edir. Lakin fərd anlayışı xeyli dərəcədə mücərrəd xarakter daşıyır, yəni bizə hələ konkret ayrıca mövcudatın necəliyi haqqında, onun növ və cins əlaqələri haqqında ətraflı məlumat vermir. Bu qəbildən olan məlumatları biz məhz «fərdiyyət» anlayışında əldə edirik. Həmin anlayış ayrıca halında mövcud olan obyektlərin öz şəxsi simasını açmaq imkanı verir.

Fərdiyyət anlayışının mahiyyətinə dərindən nəzər saldıqda burada həm təbiətə, həm də cəmiyyətə aid tərəflərin «fərddə» olduğuna nisbətən daha sıx birləşdiyi aşkara çıxır. Belə ki, hər bir fərddə ümumi növ əlamətləri ilə yanaşı, unikal və təkrarolunmaz cəhətlərin olması daha çox təbii amillərlə izah olunur, yəni hələ genetik səviyyədə özünü göstərir. Başqa sözlə deyilsə, orqanizmin

bütün hüceyrələrində genetik cəhətdən nəzarətdə saxlanılan spesifik molekullar vardır ki, bunlar həmin hüceyrəyə bioloji cəhətdən təkrarolunmazlıq verir. Orqanizmin bu xüsusiyyətləri genetik proqramlaşdırılır və ətraf mühit dəyişildikdə də sabit qalır. Bunlarla yanaşı orqanizmlərdə digər qrup xüsusiyyətlər – yəni xarici mühitə uyğunlaşma ilə şərtlənən xüsusiyyətlər də vardır. Bu iki qrup xassələr vəhdətdə çıxış edərək ayrıca mövcud olan orqanizmlərin (cəmiyyətə münasibətdə isə insanın) fərdi özünəməxsusluqlarını əmələ gətirirlər. Qeyd olunmalıdır ki, bu nə isə təsadüfi yaranan və müvəqqəti xarakter daşıyan proses olmayıb, orqanizmin mövcudluğu və inkişafının çox vacib tərəfidir. Xüsusilə də insan cəmiyyəti kimi mürəkkəb orqanizmin uğurlu inkişafı üçün sosial subyektlərin fərdi özünəməxsusluğunun olması zəruri şərtdir.

Deyilənlər göstərir ki, fərdin təkrarsızlığı onun fərdi varlığının çox vacib göstəricisini təşkil edir. Lakin hələ o da ayırıcalıq kimi fərdiyyəti müəyyən edən amil deyildir. Belə ki, sonuncu anlayışın əsas göstəricisi fərdlərin bilavasitə müxtəlifliyindən irəli gəlmir və deməli insanların təkrarolunmazlığı demək deyildir. Fərdiyyətin analoci anlamının əsassız olduğunu göstərərək Hegel yazırdı:

«Ayrı-ayrı ruhlar bir-birindən sonsuz saylı təsadüfi-modifikasilara malik olması ilə fərqlənir. Lakin bu sonsuzluq axmaq sonsuzluğun bir növüdür. Buna görə də insanın özünəməxsusluğuna həddən artıq əhəmiyyət vermək lazım deyildir» (101, s.74).

Müasir dövrün filosoflarından olan L.Seyv də bu fikri davam etdirərək yazır:

«… fərdi özünəməxsusluq ümumi və sosial faktdır. Lakin bu sosial fakt əzəldən fərdlərin rəngarəngliyindən ibarətdir. Belə ki,

hər bir fərd yalnız özünəməxsus olduğu dərəcədə fərddir, özünəməxsusluq fərdiyyətin ayrılmaz şərtini təşkil edir. Bununla belə fərdiyyət ümumi və sosial fakt olduğu üçün fərdin özünəməxsusluğu o qədər də mühüm deyildir» (226, s.367-368).

Beləliklə, fərdin təkrarolunmazlığı hələ fərdiyyət demək olmayıb, onun mühüm əlamətlərindən yalnız birini ifadə edir. Əlbəttə fərdiliyi onun bu və ya digər əlamətləri (ayırıcalığı, təkrarsızlığı və s.) vasitəsilə ifadə etmək zəruridir, çünki onun bu və ya digər xassələrini aşkar etməyə imkan verir. Lakin bu öz-özlüyündə fərdiyyətin bütöv strukturunu açmır və fəaliyyət mexanizmini aşkarlamır, fərdiyyətin yalnız bir tərəfini ifadə edir.

Fərdilik (fərdiyyət) anlayışının əsas mahiyyəti bundadır ki, o bütöv səciyyə daşıyır, yəni fərd haqqında vahid, çoxsəviyyəli və hərtərəfli təsəvvür yaradır. Bu anlayış vasitəsilə vahid sistem kimi götürülən konkret insanın daxili, bir-birilə qarşılıqlı asılılıqda olan xassələri bütöv bir tam kimi açılır. Fərdiliyə vahid sistem kimi yanaşdıqda, məlum olur ki, həmin anlayışın məzmununda təkcə ilə ümumi, təbii və sosial tərəflər sadəcə mövcud olmaqla məhdudlaşmır, onlar bir-birilə sıx qarşılıqlı təsirdə və vəhdətdə çıxış edərək, bütöv bir tamı əmələ gətirirlər. Odur ki, fərdilik anlayışına sistemli bütövlük kimi yanaşmaq, onun müxtəlif cəhətlərini sadalamaqla məhdudlaşmır. Əsas məqsəd bu bütövlüyün başlıca sistemyaradıcı keyfiyyətini aşkar etmək və onun inteqrativ rolunu üzə çıxarmaqdır. Fərdiliyin belə keyfiyyəti və əlaməti fikrimizcə, konkret fərdin özgürlüyü, onun özəllik qabiliyyəti, təbii sosial və mədəni proseslərdə müstəqil mövcudat kimi çıxış etməsidir. Bununla əlaqədar sual oluna bilər ki, nəyə görə fərdiliyin meyarını ayrıcalıq və təkrarolunmazlıq deyil, məhz yuxarıda göstərilən əlamət təşkil edir? Məsələ burasındadır ki, bu

xassələr fərdilik üçün mühüm əhəmiyyətə malik olsalar da, onun bütövlüyünü və azadlığını bilavasitə və dolğun surətdə ifadə etmir. Bundan fərqli olaraq məhz sözügedən əlamət fərdiliyin daxili strukturunu, fəaliyyətini və inkişafı mexanizmini açmaq imkanı verir. Sonra, həmin meyara əsaslanmaqla fərdiliyin digər sistemlər ilə əlaqələrini, daxil olduğu daha geniş məzmunlu sistemdə yerini və rolunu araşdırmaq mümkün olur. Deməli, o bütövlükdə fərdilik anlayışının ümumi sosial proseslər ilə münasibətlərini təhlil etmək baxımından da mühüm əhəmiyyət kəsb edir. Bu həm də ona görə vacibdir ki, o fərdilik anlayışının məzmununda unikallıq və özünəməxsusluq ilə insanın ümumi tipik xassələrinin necə birləşdiyini açmaq imkanı verir. Sonuncu məqamın böyük rolu bununla izah edilir ki, fərdilik ümumilikdən tam təcrid olunmuş halda deyil, onunla sıx əlaqələrdə mövcuddur. Lakin bu tərəfin rolunu həddən artıq şişirtmək doğru deyildir, əks halda fərdiliyin unikal xarakteri kifayət dərəcədə qiymətləndirilmir və o, ümumi içərisində əridilir.

Beləliklə, fərdiyyət, fərdilik anlayışı özündə konkret insanın malik olduğu təkcə və ayrıcanı, yəni yalnız ona məxsus olan əlamətləri ümumi xassələr ilə vəhdətdə götürür və onun bütöv bir tam kimi səciyyəsini verir. Fərd özü-özlüyündə deyil, yalnız öz varlığının avtonomluğunu qəbul etdikdə, fərdilik keyfiyyətinə malik olur. Bu o deməkdir ki, bütün fərdlər vahid cəmiyyət daxilində mövcud olmalarına baxmayaraq, onların hər biri öz fərdi həyatını yaşayır, yəni nisbi müstəqil fəaliyyət göstərirlər. Məhz bu keyfiyyətə malik olması nəticəsində fərd onu əhatə edən mühitdə aktiv və yaradıcı mövcudat kimi çıxış edə bilir.

Yuxarıda deyilənlər göstərir ki, fərdilik insanın cəmiyyətdə varlığının xüsusi bir formasıdır. O, fərdin sosiallıq keyfiyyətinə

malik olmaqla yanaşı, həm də cəmiyyətdə ümumi içərisində əridilməməsi, öz ayrıcalığını və avtonomluğunu qoruyub saxlaması deməkdir. Nəzərdə tutulmalıdır ki, fərdilik insana hazır şəkildə verilmir, onu ümumbəşəri təcrübənin standart nəticəsi hesab etmək də doğru deyildir. Bu elə bir keyfiyyətdir ki, onu insan sosial mühitdə, lakin öz qabiliyyət və bacarığı sayəsində qazanır. Başqa sözlə deyilsə, hər bir fərd sosial həyatda və ünsiyyət prosesində özünün sırf fərdi xarakterini ifadə edən üsul və priyomları, ümumilikdə fərdi davranış və fəaliyyət üslubunu formalaşdırır. Bu, təsadüfi olmayıb, insanın fərdi müstəqilliyinin və fəallığının zəruriliyi ilə izah olunur. Nəticədə sosial varlığın spesifik və özünəməxsus səviyyəsi – fərdi varlıq səviyyəsi mövcud olur.

Fərdiyyətin insanın cəmiyyətdəki varlığının xüsusi forması kimi səciyyələndirilməsi metodoloji baxımdan çox vacibdir. Belə ki, o, insanın birtərəfli biolojiləşdirici və psixolojiləşdirici anlamının əsassızlığını sübut edir. Birinci mövqeni müasir dövrdə sosiobiologiya təliminin tərəfdarları müdafiə edirlər. Onların fikrincə fərdilik insana təbiətən verilən keyfiyyətdir, cəmiyyətdə o, sadəcə olaraq sosiallaşır, yəni sosial məzmunla tamamlanır. İkinci yanlış xətt olan psixologizm isə iddia edir ki, insanın fərdiliyi yalnız şüur sferasında fəaliyyət göstərir, o insanın psixoloji xüsusiyyətlərini ifadə edir. Bu baxışların hər ikisi birtərəfli və məhdud xarakter daşıyır. Əslində fərdilik konkret insanın xüsusi formalaşmış olan keyfiyyətləri sistemini ifadə edir. O, insanın təbii-bioloji, psixoloji, sosial xassələrinin vəhdəti, şüurunun və fəaliyyətinin birgə məhsuludur.

Qeyd etmək lazımdır ki, fərdilik daxilən mürəkkəb məzmuna malik olub, üç sahədə (predmet dünyasında, bioloji aləmdə və

sosial həyatda) çıxış edir. Bu formaların hər birinə məxsus olan spesifik əlamətlər vardır. Sonuncular varlığın təşkilinin yuxarıda qeyd olunan səviyyələrinin özünəməxsusluğu ilə bağlıdır. Bununla yanaşı fərdiliyin hər üç formasına (predmet, bioloji və sosial) xas olan ümumi əlamətlər də mövcuddur ki, onlardan ən mühümləri aşağıdakılardır: əlahiddəlik, bütövlük, özəllik (özgürlük), təkrarolunmazlıq və fəallıq. Əlbəttə, onlar ümumi olsa da, bütün formalarda eyni səviyyədə ifadə olunmurlar. Məsələn, predmet fərdiliyində digər formalar ilə ümumi olan əlamətlər onun keyfiyyət müəyyənliyi və təkrarolunmazlığı, həmin predmetin daxili strukturu ilə əlaqəlidir. Lakin o, ilk növbədə bu predmetin mövcudluğu faktı ilə bağlıdır və buna görə də onunla birlikdə müvafiq dəyişikliklərə məruz qalır. Həmin formada fərdilik nisbətən zəif şəkildə özünü göstərir və başlıca olaraq müxtəlif əşyaların qarşılıqlı təsiretmə qabiliyyətində ifadə olunur. Bu baxımdan təbiət obyektlərində özgürlük sadə xarakter daşıyır, onların aktivliyi ətraf mühitin təsirlərinə cavab reaksiyası verilməsi ilə məhdudlaşır.

Üzvi aləmdə fərdilik özünün nisbətən yüksək səviyyəli olması ilə seçilir. Artıq burada bioloji fərdin əlahiddəliyi, müstəqil həyat qabiliyyəti, fəallığı nəzərə çarpacaq dərəcədə güclü olur. Bunlardan əlavə bioloji formada həm də fərdiliyin zaman etibarilə varisliyi və eləcə də iyerarxiyalılığı kimi keyfiyyətlər özünü göstərir (218, s.141). Bütövlükdə götürüldükdə bioloji fərdilik forması öz-özünü tənzim etmə keyfiyyətinə malik sistem kimi çıxış edir. Bu sistemdə ona daxil olan ünsürlər ilə müqayisədə bütövlük xassəsi üstün yer tutur. O həm də özgürlüyün xeyli dərəcədə inkişaf etməsi ilə seçilir. Sonuncu öz ifadəsini, orqanizmin xarici mühit ilə dinamik münasibətləri goruyub saxlaya bilməsində tapır.

Sözügedən qabiliyyət bir qayda olaraq inkişaf etmiş bioloji növlərə məxsusdur, aşağı səviyyəli bioloji orqanizmlərdə o, demək olar ki, müşahidə olunmur. Bu münasibətdə F.Engelsin aşağıdakı fikri səciyyəvidir: «İbtidai səviyyəli heyvanlarda fərd anlayışını qəti şəkildə müəyyən etmək qeyri-mümkündür. Təkcə həmin heyvanın müstəqil fərd və yaxud asılı vəziyyətdə olub-olmaması mənasında deyil, həm də bu mənada ki, inkişaf prosesində bir fərdin harada qurtarıb, digərinin harada başlandığını müəyyən etmək mümkün olmur» (173, s.527).

Fərdiyyətin (fərdiliyin) ən yüksək forması sosial həyatda, insan cəmiyyətində mövcud olur. Bu səviyyədə o yeni keyfiyyət kəsb edir. Belə ki, insan fərdiliyi öz həyat fəaliyyətinin daxili mexanizmlər vasitəsilə tənzimolunmasına əsaslanan mürəkkəb, inkişaf etmiş sistemdir. Bioloji formadan fərqli olaraq, burada fərdin fəaliyyəti insan tərəfindən təbiətin, cəmiyyətin və özünün dəyişdirilməsinə yönəlir. Bu prosesdə onun sırf fərdi məzmunu daha da zənginləşir, özgürlüyü durmadan genişlənir. İnsan fərdiliyi həm də yüksək yaradıcı xarakter daşıması ilə səciyyələnir. Bu o deməkdir ki, o yönəldiyi hər bir sahədə insanın mahiyyət qüvvələrini reallaşdırır, onun qabiliyyət və istedadını, azad iradəsini və şüurunu təzahür etdirir.

Fərdiliyin formalarının qısa səciyyəsinin verilməsi sübut edir ki, onların hər biri müəyyən özünəməxsus cəhətlərə malikdir. Bütövlükdə fərdilik anlayışının mahiyyətini müəyyən edərkən, onlar nəzərə alınmalıdır. Bu, xüsusilə də ən yüksək forma olan sosial (insan) fərdiliyə aiddir.

Fərdiyyətin əsl mahiyyətini açmaq üçün fərdin bütün xassə və əlamətlərini vəhdətdə götürmək, ona bütöv bir tam kimi yanaşmaq tələb olunur. Təsadüfi deyildir ki, «fərdiyyət»

termininin özü də rəngarəngliyin vəhdəti deməkdir. Bu münasibətdə B.Q.Ananyevin aşağıdakı fikri səciyyəvidir: «fərdiyyətə fərd, şəxsiyyət və fəaliyyətin subyekti kimi götürülən insanın bütün xassələrinin inteqrasiyası halında yanaşmaq lazımdır» (61, s.111). Fərdiyyət anlayışı insanda bioloji və sosial tərəflərin ayrılmaz vəhdətini ifadə etdiyi üçün insanın kompleks öyrənilməsində mühüm metodoloji prinsipdir. Həmin prinsipin inteqrativ əhəmiyyətə malik olduğunu göstərərək, bəzi müəlliflər qeyd edirlər ki, fərdiyyət nəzəriyyəsi əsasında insanın kompleks öyrənilməsi ən perspektivli istiqamətdir (62, s.28).

Fərdiyyəti bütöv bir tam, sistem kimi səciyyələndirərkən onun müəyyən mənada qapalı, bağlı xarakter daşıdığı unudulmamalıdır. Elmi ədəbiyyatda haqlı olaraq göstərilir ki, «fərdiyyət» probleminə bütövlük nöqteyi nəzərindən yanaşmaq üçün, insanı təkcə açıq sistem kimi deyil, həm də «qapalı» sistem kimi təsəvvür etmək lazımdır (61, s.327).

Əlbəttə, söhbət insandan getdikdə, «qapalılıq» məqamını mütləqləşdirmək doğru olmazdı. Onun fəaliyyətində həm açıq və həm də qapalı sistemlərə məxsus cəhətlər birlikdə çıxış edir. İnsanın nisbi qapalı sistem keyfiyyətinə malik olması, yəni onun xarici mühitin hər cür təsirlərinə məruz qalmaması, sabit fəaliyyət göstərə bilməsinin çox vacib şərtidir. Bütöv sistem kimi götürülən fərdiyyət özündə aşağıdakı tərəfləri əhatə edir: birincisi, bioloji növün və insan cəmiyyətinin nümayəndəsi kimi götürülən fərdə xas olan ümumi cəhətlər, ikincisi, müəyyən ictimai-iqtisadi formasiyanın, dövrün üzvü kimi götürülən fərdə xas olan xüsusi əlamətlər, üçüncüsü, fərdin bioloji təşkili və sosial mikromühitin spesifikliyi ilə şərtlənən ayrıca əlamətlər (221, s.29).

Nəzərdə tutmaq lazımdır ki, fərdiyyət yuxarıda göstərilən xassələrin mexaniki məcmusu olmayıb, onların daxili qarşılıqlı əlaqələrinin və bütövlüyünün məhsulu kimi çıxış edir. Bu münasibətdə vaxtilə Feyerbaxın söylədiyi aşağıdakı fikir səciyyəvidir:

«Fərdiyyət bölünməzlik, vəhdət, bütövlük və sonsuzluq deməkdir. Mən başdan ayağa qədər, ən əvvəlinci atomdan sonuncu atoma qədər, bütün tərəflərimlə fərdi mövcudatam» (258, s.496).

Deyilənlərdən aydın olur ki, fərdiyyəti ümumiyə qarşı duran nə isə sırf ayrıca bir fenomen kimi göstərmək doğru deyildir, halbuki, belə iddialar bəzən özünü göstərməkdədir. Məsələn, müasir alman filosofu Q.Berqman hesab edir ki, fərdiyyəti ayrıca götürülən təkcə kimi, öz növü daxilində yeganə nüsxə kimi müəyyənləşdirmək lazımdır» (290, s.13).

Bu fikirlə ona görə razılaşmaq olmaz ki, o, fərdiyyəti mütləq mənada unikallıq kimi təsəvvür edir. Belə götürüldükdə fərdiyyət özünün növ xassələrini itirir və ayrıcaya müncər olunur. Əslində isə fərdiyyətin unikallığı və təkrarsızlığı, insana xas olan ümumi, tipik xassələrin əlaqələndirilməsi yolu ilə əmələ gəlir. Buna görə də ümumi ilə əlaqədən kənarda fərdiyyət yoxdur və ola da bilməz.

Fərdiyyətin izahında digər iflat hədd də yol verilməzdir. Söhbət fərdiyyəti bütövlükdə fərdin ümumi xassələrinə muncər etməkdən gedir.

Hər iki ifrat mövqe ona görə əsassızdır ki, fərdiyyətin sırf ona xas olan mahiyyətini açıb göstərmir. Əgər birinci baxış onu unikallığa və təsadüflərə muncər edirsə, ikinci onu universal olanın içərisində əridir. Əslində isə fərdiyyətin əsl mahiyyəti təkcə ilə ümuminin dialektik əlaqəliliyi baxımından açılmalıdır.

Fərdiyyət anlayışı ayrıca və ümumi xassələri vəhdətdə götürərək, insan haqqında bütöv təsəvvür verir, onu konkret mövcudat kimi səciyyələndirir.

Fərdiyyət anlayışı həm də fərdiləşmə ilə sıx əlaqəlidir. Bu anlayışların münasibəti onunla səciyyələnir ki, əgər birinci sabit mənanı ifadə edirsə, ikinci dinamik tərəfə daha çox diqqət yetirir, yəni fərdiliyi formalaşmaqda və inkişaf etməkdə olan proses kimi ifadə edir. Fərdiləşmə prosesinin məzmununda iki bir-biri ilə sıx əlaqəli meyil (differensiasiya və inteqrasiya) vardır. Birinci meyil fərdlərin əlahiddələşməsini, onların ümumidən sözün müəyyən mənada ayrılmasını və nəticədə öz müstəqil varlığını əldə etməsini göstərir. Qeyd etmək lazımdır ki, bu, insanın fərdiyyət kimi yetişməsinin çox mühüm şərtini təşkil edir. Əks halda, yəni hər bir konkret fərd cismani və subyektiv baxımdan ətraf aləmdəki digər obyektlərdən ayrılmazsa və əlahiddələşməzsə, onun fərdiyyət səviyyəsinə yüksəlməsi qeyri – mümkündür. Cəmiyyətdə müxtəlif amillər, birinci növbədə isə əmək bölgüsü, fərdlərin differensiasiya yolu ilə fərdləşməsi prosesinə stimullaşdırıcı təsir göstərir. Fərdiləşmə prosesinin ikinci meyli – inteqrasiya da çox vacib yer tutur. Məsələ bundadır ki, fərdiləşmə təkcə bu və digər insanın ümumidən ayrılaraq, öz əlahiddə varlığını kəsb etməsi ilə məhdudlaşmır. Bu prosesin ayrılmaz tərkib hissəsini hər bir fərdin ümumi əlaqələr və münasibətlər sisteminə getdikcə daha fəal cəlb olunması təşkil edir. İlk nəzərdə paradoksal görünən bu hal onunla izah edilir ki, hər bir fərd məhz cəmiyyətdə ümumi yerini və digər insanlar ilə qarşılıqlı münasibətlərini mütabiq və dərindən anlaması gedişində, həm də tədricən öz fərdiliyinə nail olur və onu dərk edir. Deyilənlərdən aydın olur ki, differensiasiya və inteqrasiya bir-birilə düzgün və normal həddlər daxilində əlaqələn-

dirildikdə, vahid fərdiləşmə prosesinin iki ayrılmaz tərəfi kimi çıxış edir.

Fərdiləşmə prosesi həm də insanın şəxsi bütövlüyünün və inkişafının təmin olunması üçün vacibdir. Bu prosesdə onun subyekt kimi strukturu kamilləşir, fəaliyyəti azad və yaradıcı xarakter alır, bütövlükdə inkişafı baş verir. B.Q.Ananyev haqlı olaraq qeyd edir ki, «fərdiləşmənin yaranması və onunla şərtlənən insanın ümumi strukturunda fərdin, şəxsiyyətin və subyektin inkişafı, bu strukturu sabitləşdirir, onun yüksək həyat qabiliyyətinin və uzunömürlülüyünün mühüm amili rolunu oynayır» (61, s.111).

Fərdiləşmə prinsipinin əldə rəhbər tutulması həm də mühüm ontoloji məna kəsb edir: varlığın ümumidən fərdiyə doğru gedişi istiqamətini göstərməklə, onu daha da konkretləşdirir və dəqiqləşdirir. Bununla yanaşı, həmin prinsip qnoseoloci baxımdan da əhəmiyyətlidir. Belə ki, dünyanın dərk olunmasını asanlaşdırır, gersəklik hadisələrinin keyfiyyət rəngarəngliyi haqqında təsəvvürləri genişləndirir, sosial proseslərin mahiyyətinin aşkar olunmasına köməklik göstərir.

Beləliklə, fərdiyyət, fərdilik anlayışının əsas mahiyyəti aşağıdakılardan ibarətdir: o insanın təkrarolunmaz və ümumi xassələrini, təbii və sosial keyfiyyətlərini bütöv bir tam kimi vəhdət halında birləşdirir, onu insan varlığının dərin qatlarında gizlənən xüsusiyyətləri ifadə edən konkret mövcudat kimi səciyyələndirir.

Qeyd etmək lazımdır ki, insanın fərdiliyi problemi müasir keçid cəmiyyəti prizmasında xüsusilə böyük əhəmiyyət kəsb edir. Belə ki, hazırda ictimai həyatda baş verən hərtərəfli və əsaslı transformasiya prosesləri cəmiyyətin hər bir üzvünü ümumi əlaqələr, münasibətlər və ünsiyyət burulğanına cəlb edir. Nəticədə onun davranışına, fəaliyyətinə və bütövlükdə həyat tərzinə ümumi

standartlar, nümunələr və normalar geniş miqyasda nüfuz edir. Həmin vəziyyət isə istər istəməz fərdiliyin ümumi içərisində əriyib yoxa çıxması təhlükəsini şərtləndirir. Buna görə də indi ölkə daxilində və beynəlxalq miqyasda gedən dərin proseslər-qloballaşma, standartlaşma, insanın kütləviləşməsi meylləri artdıqca, fərdin öz varlığını, özgürlüyünü və özəlliyini, fərdi həyat stilini qoruyub saxlaya bilməsi və inkişaf etdirməsi ən zəruri tələbatlardan biri kimi çıxış edir. Bu, təkcə insanın özünəməxsus keyfiyyətlərinin ümumi içərisində əridilməsinə yol verməmək baxımından deyil, həm də bu mənada vacibdir ki, indi ictimai həyatın bütün sferalarında və tərəflərində hər bir fərdin verdiyi töhfənin miqyası sürətlə artır, eyni zamanda onun öz hərəkət və əməlləri üçün cəmiyyət və bəşəriyyət qarşısında, habelə, öz vicdanı qarşısında cavabdehlik hissi və məsuliyyəti də durmadan çoxalır.

Fərdiyyət anlayışı həm də şəxsiyyət anlayışı ilə sıx qarşılıqlı münasibətdə çıxış edir. Lakin o, sonuncu ilə yanaşı şəkildə mövcud olmayıb, şəxsiyyətin çox mühüm xassəsini təşkil edir. Ümumiyyətlə götürdükdə həmin anlayışlar bir-birilə kifayət qədər mürəkkəb və çətin anlaşılan xarakterli münasibətlərdədir. Bu, bir də onunla şərtlənir ki, fərdiyyətdən fərqli olaraq şəxsiyyət anlayışı hələ kifayət qədər dərindən araşdırılmadığından, onun izahında müxtəlif konsepsiyalar vardır. Qeyd etmək vacibdir ki, şəxsiyyət anlayışı çoxtərəfli və çoxölçülü olduğu üçün fəlsəfə ilə yanaşı digər elmlərin (həm humanitar, həm də texniki) obyektini təşkil edir. Bu halda hər bir elm ona öz predmeti nöqteyi-nəzərindən yanaşır, əsas hesab etdiyi priyom və vasitələrlə tədqiq edir. Şəxsiyyət anlayışının izahında müxtəlif mövqelərin özünü göstərməsi hər şeydən əvvəl bu obyektiv əsas ilə izah edilməlidir. Belə ki, onların hər biri şəxsiyyətə öz baxımından yanaşaraq aşkar etdiyi bu və ya

digər tərəfi onun əsas mahiyyət göstəricisi hesab edir. Lakin nəzərdə tutmaq lazımdır ki, ayrı-ayrı konkret elmlər ən yaxşı halda şəxsiyyətin psixoloji, sosioloji və başqa xarakterli mühüm cəhətlərini aşkar edir, onu bütöv, çoxplanlı, çoxsəviyyəli və çoxkeyfiyyətli fenomen kimi hərtərəfli səciyyələndirə bilmir. Bu vəzifənin öhdəsindən yalnız inteqrativ funksiya daşıyan fəlsəfə elmi gələ bilir.

Müasir elmi ədəbiyyatda birmənalı və hamı tərəfindən qəbul olunmuş vahid şəxsiyyət anlayışı demək olar ki, yoxdur. Lakin qeyd olunmalıdır ki, bu istiqamətdə uğurlu elmi axtarışlar davam etməkdədir və elmin bu günki səviyyəsi həmin anlayış haqqında xeyli dərəcədə geniş və dərin təsəvvür yaratmağa qadirdir.

Müasir dövrün şəxsiyyət konsepsiyaları kifayət qədər çoxdur (naturalist, sosiolojiləşdirici, kosmik və s.). Lakin onların əksəriyyəti şəxsiyyət anlayışında sosial keyfiyyətlərin ön planda çıxış etdiyini göstərir (xüsusən də şəxsiyyəti sosial fenomen kimi izah edən baxışlar). Şəxsiyyətin sosial keyfiyyətləri fərdiyyət anlayışı ilə sıx bağlıdır. Sonuncu inteqrativ keyfiyyətə malik olmaqla fərd ilə şəxsiyyət arasında əlaqə və vəhdət yaradır. Bu baxımdan yanaşdıqda V.Q.Ananyevin aşağıdakı fikri ilə razılaşmaq olar:

«Ayrıca bir insani fərdiyyət kimi götürdükdə onu, malik olduğu şəxsiyyət əlamətlərinin və fəaliyyət subyekti xassələrinin vəhdəti və qarşılıqlı əlaqəsi kimi anlamaq olar, onun strukturunda insanı fərd kimi səciyyələndirən təbii keyfiyyətlər də mövcuddur» (61, s.334).

Şəxsiyyət anlayışı ayrıca fərd kimi götürülən insana məxsus sosial əhəmiyyətli cəhətlərə əsas diqqət yetirir. Bu mənada K.Marksın aşağıdakı fikri ilə razılaşmaq olar ki, «şəxsiyyətin mahiyyətini onun saqqalı, qanı və yaxud mücərrəd fiziki təbiəti deyil, onun sosial keyfiyyəti təşkil edir» (172, s.242).

Şəxsiyyətin mənalandırılmasında mühüm rol oynayan bu məqam «Fəlsəfə lüğəti»ndə də öz əksini tapmışdır: «Şəxsiyyətin təbii əsasını onun bioloji xüsusiyyətləri təşkil etməsinə baxmayaraq, şəxsiyyətin inkişafının (onun mahiyyətinin əsasını) həlledici amilləri onun təbii keyfiyyətləri (məsələn, ali əsəb fəaliyyətinin bu və ya digər tipi) deyil, sosial əhəmiyyət kəsb edən keyfiyyətləri – baxışları, qabiliyyəti, tələbatları, mənafeləri, əxlaqı və s. təşkil edir» (264, s.235).

Şəxsiyyətə seçim, qiymətləndirici mövqedən yanaşanlar göstərirlər ki, müasir, yetkin yaşlı və normal psixikaya malik olan hər adamı şəxsiyyət hesab etmək olmaz. «Şəxsiyyət sadəcə olaraq konkret tarixi ictimai münasibətlərin daşıyıcısı demək deyildir, o öz fərdi qabiliyyət və istəyinə, şüurluluğuna və mütəşəkkiliyinə, əmək və ictimai-siyasi fəallığına müvafiq surətdə həmin münasibətlərə aktiv təsir göstərən adamdır» (158, s.283-284). Bu xəttin tərəfdarları iddia edirlər ki, hər bir fərd öz ictimai əlaqələrində və davranışında şəxsiyyət kimi çıxış edə bilmir. Onlar şəxsiyyət anlayışında sosial tərəfin əsas yer tutması faktından belə bir yanlış nəticə çıxarırlar ki, fərdi, şəxsiyyət hesab etmək üçün o müəyyən subyektin qiymətverici tələblərini ödəməlidir. Bu halda belə bir yanlış təsəvvür yaranır ki, şəxsiyyət kimin üçünsə lazımlı olan, mühüm hesab edilən və onun tərəfindən məqbul sayılan fərddir. Həmin xətti ardıcıl davam etdirdikdə istənilən adamı müəyyən göstəriciyə görə şəxsiyyət anlayışından kənar etmək və ya bu anlayışa daxil etmək olar. Belə yanaşmanın tarixdə çox ağır nəticələr törədə bildiyi haqqında kifayət qədər faktlar vardır (197, s.203).

Deyilənlər sübut edir ki, şəxsiyyət anlayışının daxili məzmununu açarkən ilk növbədə onun sosial həyatda əks olunan, ümumi

əhəmiyyət kəsb edən, hamı tərəfindən qəbul olunan və obyektiv xarakter daşıyan göstəriciləri əsas götürülməlidir.

Şəxsiyyət anlayışında sosial keyfiyyətlərin ön plana çəkilməsi isə o deməkdir ki, insanları bir-birindən ayıran xüsusiyyətlər deyil, əksinə onları müəyyən mənada birləşdirən ümumbəşəri göstəricilər əsas götürülür. Yalnız bu yol ilə insan varlığının konkret fərdi həyat fəaliyyəti ilə müqayisədə daha çox əhəmiyyət kəsb edən ümumi sosial tərəfi seçib ayırmaq və ona xüsusi diqqət yetirmək mümkündür. Deməli, şəxsiyyət anlayışı ayrıca bir fərd kimi götürülən insana məxsus sosial əhəmiyyətli cəhətləri, onun ictimai münasibətlər sisteminə daxil olduğunu səciyyələndirən göstəriciləri əhatə edir. Nəzərdə tutmaq lazımdır ki, şəxsiyyət anlayışı da fərdiyyət kimi insanın çoxsaylı və rəngarəng həyat fəaliyyətinin çox mühüm səpkisini təşkil edir və insan mahiyyətinin bütövlüyü ilə ayrılmaz əlaqədədir.

Fəlsəfi təhlil göstərir ki, şəxsiyyət və fərdiyyət anlayışları məzmunca çox yaxındırlar. Belə ki, fərdiyyət şəxsiyyətin çox mühüm cəhətini ifadə edir və onun məzmununa tərkib hissə kimi daxil olur. Eynilə də şəxsiyyətin bir sıra göstəriciləri fərdiliyin məzmunundan kənarda mövcud deyildir. Onlar müəyyən mənada biri digərinin xassəsi rolunu oynayır. Bu, həmin anlayışların məzmunun bir-birilə çulqalaşdığını və qarşılıqlı surətdə nüfuz etdiyini göstərir. Onların yaxınlığı həm də aşağıdakı məqamda aşkara çıxır: şəxsiyyət öz sosiallıq keyfiyyətini konkret olaraq fərdilik formasında ifadə edir. Məhz bu forma onun müstəqil fəaliyyət subyekti kimi mövcudluq üsulunu bildirir. Buna görə də şəxsiyyət yalnız fərdiyyət (fərdilik) kimi öz spesifik obrazını yaradır, öz əməllərini idarə edir. Bu halda fərdi «Mən» şəxsiyyətin mərkəzi nüvəsi rolunu oynayır. Deyilənlərdən aydın olur ki,

özünün varlıq üsulu kimi çıxış edən fərdilikdən kənarda götürülən şəxsiyyət anlayışı reallıqda deyil, yalnız abstraksiyada mövcud olur.

Şəxsiyyət ilə fərdiyyət arasındakı ümumi əlaqələrin olması heç də onların fərqliliyini istisna etmir. Bu iki anlayışın başlıca fərqi ondadır ki, şəxsiyyət dedikdə ilk növbədə insanın sosial şərtlənməsi, onun sosial mövqeyi və oriyentirləri nəzərə gəlir. Bundan fərqli olaraq fərdiyyət anlayışı fərdin varlığının formasını, mövcudluq üsulunu açır, onu konkret şəkildə müəyyənləşdirir.

Qeyd olunmalıdır ki, fərdin təbii qabiliyyətləri öz-özlüyündə fərdiliyi yaratmır, eynilə də sosiallıq öz-özlüyündə onu ictimai inkişafın subyektinə çevirmir. Hər iki proses özünün mürəkkəb xarakteri ilə seçilən formalaşma və inkişaf dövrünü yaşayır. Məsələn, anadan yenicə doğulmuş uşaq artıq fərd kimi, yəni insan nəslinin bir nümayəndəsi kimi çıxış edir. Onun fərdiyyət kimi formalaşması ilə sonradan, yəni onun cəmiyyətdə öz nisbi müstəqil varlığını əldə etdiyi zaman baş verir. Deyilənlərdən aydın olur ki, insanın fərdi varlığı ona əvvəldən verilmir, o tədricən, onun tərəfindən sosial təcrübənin mənimsənilməsi gedişində formalaşır. Eynilə də şəxsiyyətin varlığının mahiyyəti sosial həyatdan birbaşa və bilavasitə hasil edilmir, o həmişə, özündə insanın müəyyən fərdi və özünəməxsus axtarışlarının nəticəsini əhatə edir. Ayrıca bir şəxsiyyətdə fərdilik nə qədər çox yer tutursa, onun şəxsiyyət kimi fəaliyyət miqyasları da bir o qədər geniş olur (tarixi şəxsiyyətlər səviyyəsinə yüksəlməyə qədər). Deməli, fərdiyyət fərdin mövcudluğunun ictimai üsuludur, şəxsiyyət isə insanın, insan varlığının fərdiləşdirilmiş üsuludur (163, s.208). Buradan aydındır ki, fərdiyyət və şəxsiyyət anlayışları bir-birilə tam eyni deyildir. İkinci anlayış insanı onu sosial məzmunu və

şərtlənmə baxımından səciyyələndirir və əsas diqqəti şəxsiyyətin sosial mövqeyinə və oriyentasiyasına yönəldir. Bundan fərqli olaraq fərdiyyət anlayışı insanın öz varlığının üsul və formalarını açıb göstərir. Onlar arasında bu fərqlilik məqamını hələ Hegel qeyd edərək yazırdı: «... şəxsiyyət hüququn əsas müəyyənliyi deməkdir: o daha çox mülkiyyətdə öz mövcud varlığını əldə edir, lakin şəxsiyyət canlı ruhun konkret ifadəsi demək olan fərdiyyətə biganə münasibətdədir» (100, s.263-264).

Bu fikirlə razılaşmaq olar, çünki fərd sonradan, yəni yalnız insan nəslinin ayrıca bir vahidi və nüsxəsi olmaq vəziyyətindən çıxması gedişində fərdiyyətə çevrilir və cəmiyyətdə öz varlığının nisbi müstəqilliyini kəsb edir. Bu proses onun şəxsiyyətə çevrilməsindən ayrılmazdır. Odur ki, insan yalnız sosial inkişaf səviyyəsində öz fərdiliyini əldə edir.

«Fərdiyyət» və «şəxsiyyət» anlayışları vahid insan mahiyyətinin iki müxtəlif, eyni zamanda bir-birilə sıx əlaqəli proyeksiyasını təşkil edir. Onların fərqi əsas etibarilə real insan fəaliyyətinə hansı nöqteyi-nəzərdən yanaşılmasından asılı olaraq təzahür edir. Bu baxımdan fərdiliyin avtonomluğu insanın həyatına, müdaxilə etməyin, şəxsiyyətə məqsədyönlü təsir göstərməyin mümkün olan hədlərini ifadə edir. Eynilə də şəxsiyyət anlayışının avtonomluğu subyektin özünün bilavasitə malik olduğu varlığın hüdudlarından kənara çıxmasının zəruriliyini, insanın sosial həyata verdiyi (maddi və mənəvi mədəniyyətin inkişaf etdirilməsinə) töhfənin böyük əhəmiyyətliliyini göstərir. Deməli, fərdiyyət və şəxsiyyət anlayışları bir-birilə üzvi vəhdətdə çıxış edərək insan mövcudluğunun bütövlüyü mənzərəsini hərtərəfli açmaq imkanı verir.

Fərdiyyət kimi götürülən şəxsiyyət özünün yalnız ona məxsus obrazını yaradır və öz əməllərinin bilavasitə müəllifi kimi çıxış edir. Fərdi «Mən» həm də şəxsiyyətin mərkəzində durur, onun daxili özəyini təşkil edir. Fərdiyyət ilə şəxsiyyətin bu ayrılmazlığını ifadə edərək B.Q.Ananyev doğru olaraq yazır:

«Əgər şəxsiyyət bütün insan xassələri strukturunun «zirvəsidirsə», fərdiyyət şəxsiyyətin və fəaliyyət subyektinin «dərinliyi» deməkdir (61, s.329).

Beləliklə, fərdilikdən, öz varlıq üsulundan kənarda götürülən şəxsiyyət real mövcud deyildir. Əgər insan fərdi, öz sosial mahiyyətini mənimsəmirsə, o, şəxsiyyət ola bilməz. Digər tərəfdən şəxsiyyətin həm də fərdiyyət olmadan öz müstəqil varlığını əldə etməsi qeyri mümkündür. Bu mənada İ.İ.Rezvitskinin aşağıdakı fikri ilə razılaşmaq olar:

«Şəxsiyyət öz mahiyyətinə görə sosial, öz mövcudluq üsuluna görə isə fərdidir. O, sosial ilə fərdinin, mahiyyət ilə mövcudluğun vəhdətidir» (222, s.34).

Fərdilik ilə şəxsiyyətin əsas keyfiyyətini təşkil edən sosiallığın sıx əlaqəliliyi onlara tarixi planda yanaşdıqda özünü daha aydın göstərir. V.V.İlin onların bu münasibətlərinin üç əsas tarixi mərhələsini seçib ayırır: birinci mərhələ fərdinin və sosialın təşəkkülü dövrüdür. Bu, insanın və cəmiyyətin antropogenetik olaraq heyvanat aləmindən ayrılması ilə səciyyələnir. İkinci mərhələ –fərdiliyin rolunun azalması və onun bir növ sosiallıq tərəfindən əridilməsi ilə səciyyələnir. Üçüncü mərhələ Yeni dövrdən başlanır ki, burada fərdiliyin sosiallıqdan ayrılaraq avtonomlaşması özünü göstərir. Bu mərhələ həm də humanizmin inkişafı ilə səciyyələnir (133, s.531-532).

Deyilənlər sübut edir ki, fərdiyyət şəxsiyyət ilə nəinki təkcə əlaqəlidir, həm də onun çox mühüm səciyyəvi cəhətini təşkil edir, buna görə də şəxsiyyət anlayışının mahiyyətini müəyyən edərkən onu mütləq bu anlayışın məzmununa daxil etmək lazımdır. Halbuki, mövcud fəlsəfi ədəbiyyatda bu məqam kifayət dərəcədə nəzərə alınmır, şəxsiyyətin varlığının fərdi səviyyəsinə, onun həyat fəaliyyətinin təhlilində fərdi yanaşmanın roluna lazımi diqqət yetirlmir (221, s.34).

Şəxsiyyət anlayışı insanın müəyyən bir sosial birlik formasına mənsubiyyətinin müəyyənləşdirilməsi baxımından da əhəmiyyətlidir. Belə ki, bu göstərici şəxsiyyətin sosial rolu və funksiyalarına, hüquq və vəzifələrinə çox mühüm təsir edir. Sonra, həmin məqam şəxsiyyətin sosial tiplərə təsnifatında da əhəmiyyətli yer tutur. Q.L.Smirnov haqlı olaraq qeyd edirdi ki, şəxsiyyət anlayışı dildə, insanın simasında və davranışında tipik və sosial əhəmiyyətli tərəfləri ifadə etməyə olan tələbatın nəticəsi kimi yaranmışdır (234, s.57).

Əvvəldə deyildiyi kimi, fərdiyyət və şəxsiyyət anlayışları arasında müəyyən ümumi cəhətlər vardır. Onlardan ən başlıcası budur ki, hər iki mövcudluq formasında təzahür edən insan üçün aşağıdaki ümumi keyfiyyət xasdır: o fasiləsiz olaraq öz vacibliyinin və özünüqiymətləndirməsinin artırılmasına cəhd göstərir. Sonra, fərdiyyət və şəxsiyyət anlayışlarının hər ikisi həm də aksioloji, qiymətləndirici cəhətə malikdir. Onlardan fərqli olaraq «fərd» anlayışı bu baxımdan neytraldır.

Yuxarıda qeyd etmişdik ki, fərd anlayışında ümumi tərəf əks olunur, bu eynilə də şəxsiyyət anlayışında özünü göstərir. Lakin fərddə və şəxsiyyətdə ifadə olunan ümumilik eyni deyildir, çünki

birinci mücərrəd xarakter daşıyır, ikincisi isə artıq konkret ümumi olması ilə səciyyələnir.

İnsanı fərd kimi səciyyələndirən xassələr şəxsiyyətin formalaşmasının müqəddəm şərtlərini təşkil edir. Psixoloji ədəbiyyatda belə xassələrin (əsəb sisteminin tipi, bədən quruluşu, təbii imkanlar, ekstraversiya və intraversiya, hissiyat, emosionallıq və s.) şəxsiyyətin davranışının tənzim olunmasına aşağıdakı istiqamətlərdə təsiri geniş araşdırılır:

1. Şəxsiyyətin davranışının formal – dinamik xüsusiyyətlərinin, psixi proseslərin getməsinin energetik xüsusiyyətlərində;
2. Bu və ya digər fəaliyyətin seçim imkanları diapazonunun müəyyənləşdirilməsində;
3. Kommunikasiya prosesində həmin xassələrin signifikasiya və simvolizasiyasında;
4. Fərdin davranışının özünəməxsus üslubunun formalaşmasında və onun müxtəlif peşələrə yiyələnməsində (69, s.223-232).

Ümumilikdə götürüldükdə insan yalnız fərd, fərdiyyət və şəxsiyyət kimi çıxış edə bilir. O, fərdiyyət rolunu oynadıqda, onda fərdlik olmur. Şəxsiyyət kimi çıxış etdikdə, onda həm fərd keyfiyyətləri, həm də fərdiyyət xassələri iştirak etsə də, əsas rol oynamır. Lakin şəxsiyyətin elə atributları vardır ki, onlar həm fərddə, həm də fərdiyyətdə mövcuddur, şəxsiyyətdə isə onlar daha yüksək və inkişaf etmiş formada olur.

İnsanın fərddən şəxsiyyət pilləsinə yüksəlməsi onun ümumi inkişafını və «Mən»inin təkmilləşməsi prosesini əks etdirir. Fəlsəfi ədəbiyyatda haqlı olaraq göstərilir ki, insanın «Mən» obrazı öz inkişafında aşağıdakı dörd mərhələdən keçir:

1. «Mən»in insanın fərdi cismani-psixi təşkili ilə identifikasiyası;

2. «Mən»in öz-özünü ifadə etməsi, insanın özünü psixofiziki müəyyənlik kimi dərk etməsi;
3. «Mən»in inkişafında eqosentrik konkretlik dövrü. Bu mərhələdə insan dünyanın özünəməxsus izahı və özünün oradakı yerini müəyyən etmək əsasında əsas diqqətini şəxsi perspektivinə yönəldir;
4. Ən yüksək mərhələ olub, «Mən»in reflektivlik qabiliyyətini ifadə edir. Bu mərhələdə o dünya anlamını özünün ekzistensial təcrübəsi ilə müqayisə edir (133, s.563).

«Fərd», «fərdiyyət» və «şəxsiyyət» anlayışlarının hər biri nisbi müstəqilliyə malik bütöv sistem kimi çıxış edir. Onların özünə məxsus strukturu, bu struktur daxilində elementlərin əlaqə üsulu və qarşılıqlı münasibətləri vardır. Bununla yanaşı onlar vahid insan varlığının formaları (üsulları) olduğu üçün, bir-birilə ayrılmaz əlaqədə və qarşılıqlı təsirdə çıxış edir.

Elmi idrakın çox mühüm metodlarından olan mücərrəddən konkretə doğru yüksəlmə metodu tələb edir ki, həmin anlayışların nisbəti onların real məzmunu ilə ayrılmaz əlaqədə təhlil edilsin. Bu baxımdan yanaşdıqda göstərilməlidir ki, «fərd» anlayışı ayrıca bir insan varlığını ifadə edir. Burada hələ sosial göstəricilər demək olar ki, əks olunmur (bəzi ümumi əlamətlər – cins və yaş istisna edilməklə). Odur ki, fərd anlayışı dialektik məntiqi planda insanın konkret deyil, mücərrəd mənasını ifadə edir. Nəzəri təhlil fərddən fərdiyyətə və şəxsiyyətə doğru yüksəldikcə, insan varlığının ifadəsi üsulu da konkretləşir və mənaca zənginləşir.

Şəxsiyyətin sosial-fəlsəfi təhlilinin çox mühüm metodoloji prinsipini təkcə ilə sosialın dialektik vəhdətdə götürülməsi təşkil edir. İnsan şüurlu varlıq olmaqla öz həyat fəaliyyətində bu tərəfləri üzvi surətdə əlaqələndirməyi bacarır. Abulxanova-

Slavskaya haqlı olaraq göstərir ki, insan psixikasının funksiyası onun varlığının ictimai və fərdi tərəflərinin nisbətini tənzim etməkdən ibarətdir (58, s.79-80).

«Fərd», «fərdiyyət» və «şəxsiyyət» anlayışlarının müqayisəli təhlili aşağıdakı nəticələrə gətirib çıxarır:

Onlar vahid və bütöv insan mahiyyətinin müxtəlif təzahür üsulları olduğu üçün, onların qarşılıqlı nisbəti təkcə, xüsusi və ümuminin münasibətləri kimidir. Sonuncular arasındakı dialektik vəhdət və qarşılıqlı surətdə bir-birinə nüfuz etmə, burada da özünü göstərir. Bu sxemdə ən ümumi olan insandır, o, sözügedən xüsusi formalarda (fərd, fərdiyyət və şəxsiyyət) təzahür edir. Həmin formaların hər birinə nisbi müstəqil, bütöv sistem kimi yanaşdıqda, onlar təkcə kimi çıxış edir.

1. Əsas məsələ bundadır ki, insanın həmin xüsusi formalarda təzahürü özünəməxsus, spesifik xarakter daşıyır, onlardan birini digərinə müncər etmək doğru olmazdı. Eyni zamanda nəzərdə tutulmalıdır ki, bir xüsusinin, digər xüsusidən və ümumidən fərqi onda müəyyən təkcə əlamətlərin (yəni unikallığın) olması ilə ölçülür. Sonra, qeyd olunmalıdır ki, ümumi ilə təkcənin nisbəti bu və ya digər xüsusidə eyni səviyyədə olmur, yəni bəzi xüsusidə ümumi tərəf, digərində isə ayrıca (təkcə) üstünlük təşkil edə bilir. Bu ümumi dialektik prinsipdən çıxış etməklə göstərmək olar ki, insan fərdi, xüsusi olmaq etibarilə özündə ümumini və təkcəni bir növ birləşdirir. Belə ki, bu anlayış insanı konkret ifadə etmir, sadəcə bunu əsas tutur ki, bir fərd digərindən onunla fərqlənir ki, o ayrıca (təkcə) kimi çıxış edir. Lakin bu ayrıcaya nəzər diqqəti bir qədər dərinləşdirdikdə məlum olur ki, o elə belə ayrıca deyil, məhz unikal və təkrarolunmaz ayrıcadır. Artıq bu məqamda fərd anlayışında ümumi deyil, təkcənin üstünlük təşkil etdiyi aşkara

çıxır. O həm də bizi fərdiyyət anlayışının məzmununa gətirib çıxarır. Sonuncu öz mahiyyətinə görə ümumi ilə (insan) təkcə (fərd) arasında əlaqələndirici vəsilə (xüsusi) rolunu oynayır. Əgər unikallıq keyfiyyəti müvəqqəti və təsadüfi xarakter daşımırsa, yəni o artıq fərdin zəruri əlamətidirsə, onda fərdiyyətin mahiyyətini ifadə edir. Əks halda, yəni unikallıq digər xassələrlə yanaşı və onlara bir əlavə kimi çıxış edirsə, onda o sadəcə təkcəliyi bildirir, və «fərdi» səciyyələndirir. unikallıq yalnız fərdiyyət anlayışı səviyyəsində özünün adekvat mənasını alır. Bu halda necə deyərlər, ağırlıq mərkəzi fərddən fərdiyyətə keçir.

2. Fərddə təbii və sosial tərəflər sinkretik şəkildə çıxış edir, onlar hələ qəti diferensiasiyaya uğramamışdır. Bütün fərdlər bir-biri ilə oxşardır, lakin onlar həm də fərqlənirlər. İnsanın fərd kimi səciyyələndirilməsində sonuncu məqamın qeyd edilməsi xüsusilə vacibdir. Çünki fərdlərin ümumiliyi deyil, məhz aralarındakı fərq fərdiyyətin əsasını, bünövrəsini təşkil edir. Deməli, fərqlilik təkcə fərdin deyil, həm də fərdiyyətin spesifik əlamətidir. Lakin bunun özü də bu varlıq üsullarında, eyni rol oynamır. Belə ki, fərdiyyətin fərqliliyi, fərdin fərqliliyi ilə eyni deyildir, birincidə əsas yeri bir fərdin sadəcə başqalarından ayrılması deyil, məhz əksəriyyətdən seçilməsi və nəticə etibarilə hamıdan seçilməsi əsas götürülür. Həmin fərqli əlamət unikallıq və ya təkrarolunmazlıq adlanır. Əgər fərd üçün unikallıq sadəcə olaraq digər xassələrlə yanaşı duran bir əlamət kimi çıxış edirsə, fərdiyyət üçün o əsas rolunu oynayır. Fərdiyyət öz başlanğıcını unikallıqdan götürür və onu sistem kimi səciyyələndirən digər əlamətlər məhz bu keyfiyyətin inkişaf etmiş formaları rolunu oynayırlar.

3. «Fərdiyyət» anlayışında unikallıq və təkrarolunmazlığın həlledici yer tutmasına baxmayaraq, ona sistem kimi yanaşdıqda

digər əlamətləri də qeyd etmək vacibdir. Bunlara misal olaraq özünəməxsusluğu, özgürlüyü (özəlliyi), müstəqilliyi, azadlığı, insanın əsas məqsəd kimi götürülməsini və sairi göstərmək olar. Onlar bir-birilə sıx əlaqədə və qarşılıqlı təsirdə çıxış edərək, fərdiyyət anlayışının tamlığını və bütövlüyünü təmin edir. Bu sırada ilkin yeri özünəməxsusluq tutur, o, öz məzmununa görə unikallıq ilə çox yaxındır, lakin eyni deyildir. Belə ki, birinci anlayış daha dərin xarakter daşıyır, sadəcə unikallığın, mövcud olması faktını qeydə almaqla məhdudlaşmır, onu bütövlük keyfiyyətinə malik fenomen kimi ifadə edir. Odur ki, özünəməxsusluq insanın sırf özünün simasının və obrazının olmasını bildirir və fərdiyyətin başlıca əlamətlərindən biri rolunu oynayır. Fərdiyyət anlayışının strukturunda çox mühüm yer tutan xassələrdən biri də özgürlükdür (özəllik). O, obrazlı şəkildə deyilsə, insan fərdinin fərdiyyətdən keçərək şəxsiyyətə doğru yüksəlməsində çox vacib yer tutur. Özünəməxsusluq, unikallığı inkişaf etdirib tamamladığı kimi özgürlük də bu prosesdə analoci rol oynayır. Özgür (özəl) insan elə bir fərdiyyətdir ki, onun nəinki təkcə unikal və təkrarolunmaz, özünəməxsus obrazı vardır, o həm də, sırf özünün varlığına, mövcudluğuna malikdir. Fərdilik anlayışının məzmununu ifadə edən keyfiyyətlərdən biri də onun müstəqilliyidir. Müstəqillik insan şüurunun və fəaliyyətinin daim can atdığı keyfiyyətdir. Fərdiyyətin müstəqilliyini bəsit mənada anlamaq, yəni onun heç nədən və heç kimdən asılı olmaması kimi təsəvvür etmək doğru olmazdı. Bu əlamətin əsas məğzi onda ifadə olunur ki, insan fərdiyyəti öz fəaliyyəti və davranışında ümumi qanunlara və qaydalara tabe olmaqla və onlara əməl etməklə məhdudlaşmır. Bu prosesdə onun sırf özünə aid qaydalar və prinsiplər də əldə rəhbər tutulur. Başqa sözlə deyilsə, fərdiyyət

formasında çıxış edən insan müəyyən çərçivə və ölçü daxilində özünün nisbi müstəqilliyinə, avtonomluğuna və azadlığına malik olur. Fərdiyyətin səciyyəvi əlamətləri sırasında özünəməqsəd kimi yanaşma əhəmiyyətli yer tutur. O, fərdyyətin digər daxilən zəruri xassələrinin bir növ tamamlanması və inkişafı kimi çıxış edir. Əlbəttə, bu anlamın əsassız eqoizm və fərdiyyətçilik ilə heç bir əlaqəsi yoxdur. Onun qayəsini fərdiyyətin öz mövcudluğu və fəaliyyətini müəyyən əsas məqsədə yönəltməsi təşkil edir.

4. «Fərd» «fərdiyyət» və «şəxsiyyət» anlayışlarının aralarındakı məzmun münasibətləri sadədən mürəkkəbə doğru yönələn çoxpilləli xarakter daşıyır. Başqa sözlə deyilsə, ən aşağı, ilkin səviyyədə fərd durur, ondan sonra fərdiyyət və nəhayət şəxsiyyət gəlir. Bu o deməkdir ki, fərd səviyyəsində olan insan hələ fərdiyyət və şəxsiyyət olmaya bilər, eləcə də fərdiyyət fərddir, lakin o şəxsiyyət olmaya bilər. Şəxsiyyət kimi götürülən insan isə özündə həm fərdə, həm də fərdiyyətə aid olan əlamətləri birləşdirir (əlbəttə, tamamilə deyil, bərtərəf olunmuş qaydada). Həmin anlayışların məna düzülüşündə subyektlilik dərəcəsi çox mühüm meyar rolunu oynayır. Fərd səviyyəsində subyektiklilik çox zəif şəkildə özünü göstərir və yaxud da heç mövcud olmur, o sadəcə sosial rolun daşıyıcısı kimi çıxış edir. Ondan fərqli olaraq fərdiyyət pilləsində insan artıq subyektdir, həm də bu subyeklilik müsbət və mənfi istiqamətdə təzahür edə bilir. Şəxsiyyətin simasında isə subyektlilik özünün ən yüksək zirvəsinə çatır. Şəxsiyyət həmişə subyekt kimi, özü də mütərəqqi mənada subyekt kimi mövcuddur. Deməli, şəxsiyyət hər cür fərdiyyət deyil, insanın yalnız müsbət fərdiyyət kimi inkişaf etmiş formasıdır.

## 1.2. Şəxsiyyət ilə sosial mühitin qarşılıqlı təsirinin metodoloji aspekti

Şəxsiyyətin fəlsəfi təhlilinin çox mühüm metodoloji səpkisini onunla sosial mühit arasındakı münasibətlərin düzgün mənalandırılması təşkil edir. Bu problemi xüsusi qeyd etməyin zəruriliyi aşağıdakı səbəblərlə izah olunur. Əvvəla, hər bir dövrün şəxsiyyəti, yaşadığı və fəaliyyət göstərdiyi sosial münasibətlər sistemi ilə son dərəcə mürəkkəb, çoxtərəfli və dinamik qarşılıqlı əlaqələrdə çıxış edir ki, onları təhlil etmədən şəxsiyyəti hərtərəfli öyrənmək qeyri-mümkündür. İkinci, həmin əlaqələrin təbiəti və məzmunu heç də həmişə düzgün dərk edilmir, fəlsəfi ədəbiyyatda mübahisəlidir. Məsələn, yaxın vaxtlara qədər nəzəri fikirdə hökmranlıq etmiş marksizm fəlsəfəsi bu münasibətləri birtərəfli izah edərək, şəxsiyyəti mövcud ictimai münasibətlər sisteminin, sosial mühitin məhsulu hesab edirdi. Beləliklə, şəxsiyyət – sosial mühit münasibətləri bəsit mənalandırılır, burada şəxsiyyətin fəal rolu lazımi səviyyədə qiymətləndirilmirdi. Marksizmin şəxsiyyətə ictimai münasibətlərin passiv məhsulu kimi yanaşması öz ifadəsini sovet dövründə şəxsiyyətə verilən təriflərdə də tapmışdır. Məsələn, «Fəlsəfə ensiklopediyasın»da şəxsiyyət sosial rolların məcmusu kimi səciyyələndirilir və göstərilir ki, şəxsiyyət ilə cəmiyyətin əlaqəsi hər şeydən əvvəl bu sosial rolda təzahür edir» (261, s.196).

Əslində isə sözügedən münasibətlər qarşılıqlı təsirə əsaslanır, onların subyektləri bir-birini tamamlayır.

Ümumiyyətlə götürdükdə şəxsiyyətlə sosial mühit arasında geniş və müxtəlif istiqamətli münasibətlər mövcuddur. Bu münasibətlər öz xarakteri üzündən çətin anlaşılandır. Belə ki, onlar bir-birinə yaxın olan çoxlu istiqamətlər ilə yanaşı, müəyyən mənada həm də bir-birinə qarşı yönələn istiqamətləri əhatə edir.

Digər tərəfdən şəxsiyyət ilə ictimai mühit arasındakı əlaqələrin mütəhərrik səciyyə daşıması da onların araşdırılmasında müəyyən çətinlikləri şərtləndirir. Bununla belə, aparılan elmi tədqiqatlar nəticəsində sözügedən problemin elmi həllində yeni-yeni üfüqlər açılır.

Şəxsiyyət ilə sosial mühit arasındakı münasibətlərin təhlilinə həmin anlayışların şərhindən başlamaq məqsədəuyğundur. Əvvəlki bölmədə şəxsiyyət anlayışı haqqında kifayət qədər ətraflı bəhs olunduğundan, onları burada bir daha təkrar etməyə lüzum yoxdur. Həm də nəzərdə tutaq ki, bu anlayışın məzmununa növbəti bölmələrdə də müraciət olunacaqdır. Buna görə də biz burada əsas diqqəti sosial mühit anlayışına yönəldirik.

Əvvəlcədən qeyd edək ki. sosial mühit anlayışının məzmununun müəyyən olunmasında tədqiqatçılar arasında vahid rəy yoxdur. Sosial–fəlsəfi ədəbiyyatda geniş yayılmış rəyə görə sosial mühit dedikdə hər şeydən əvvəl mövcud ictimai münasibətlər sistemi başa düşülür. Sonuncu isə öz növbəsində ayrı-ayrı şəxsiyyətlərin fəaliyyət növlərinə, ictimai funksiyaları və onları yerinə yetirmə şəraitinə görə əlaqələrini və birləşmə üsulunu ifadə edir (78, s.81). Məhz ictimai münasibətlərin məcmusu sosial sistemə bütövlük verir, onun mövcudluğu və inkişafını təmin edir. Digər tərəfdən, sosial mühit insanların müxtəlif növlü fəaliyyətləri əsasında yaranır və onların qüvvə və qabiliyyətlərinin obyektivləşməsi kimi çıxış edir. Sosial mühit anlayışının məzmununa həm də şəxsiyyətin maddi və mənəvi fəaliyyətinin üsulları, formaları və vasitələri, habelə mədəniyyət, ünsiyyət, sosial struktur, birlik formaları, onun fəaliyyətini və bütövlükdə sosial həyatını tənzimləyən təşkilatlar və müəssisələr sistemi daxildir. Deyilənlərdən

əlavə sosial mühit sözün müəyyən mənasında götürülən mənəvi həyatı, ictimai şüur formalarını da əhatə edir.

Şəxsiyyət ilə sosial mühit arasında əlaqələrin mexanizminin açıqlanması başlıca metodoloji prinsiplərdən biridir. Bu mexanizmin həyata keçirilməsində tələbatlar və onların ödənilməsi müstəsna yeri tutur. Belə ki, hər bir konkret tarixi mərhələdə şəxsiyyət ilə sosial mühit arasındakı əlaqələr ilk növbədə şəxsiyyətin tələbatlarından keçərək özünü göstərir. Tələbatlar şəxsiyyətin mövcudluğu və inkişafının obyektiv şəraiti ilə olan maddi əlaqələrin göstəricisidir. Lakin bu əlaqələrin subyektiv tərəfi də vardır. Sonuncu bunda ifadə olunur ki, hər bir şəxsiyyət öz tələbatlarını dərk edir və onları ödəmək üçün müəyyən fəaliyyətə başlayır. Doğrudur bu fəaliyyət mövcud cəmiyyətin inkişafını tənzim edən ictimai qanunlar əsasında baş verir. Məhz onlar şəxsiyyətlərin fəaliyyətinin müxtəlif sahələrində onunla sosial mühit arasında qərarlaşan mühüm əlaqə və münasibətləri ifadə edir.

Şəxsiyyət ilə sosial mühitin əlaqələrini izah edərkən bəsitləşdirməyə yol verilməməlidir. Yəni nəzərdə tutulmalıdır ki, öz-özlüyündə obyektiv şərait, sosial mühit şəxsiyyəti avtomatik surətdə yetişdirmir, yalnız onun formalaşması və inkişafı üçün imkanlar yaradır. Həmin imkanlar isə şüura və iradəyə malik olan, öz cəhdlərinə, arzu və ehtiraslarına müvafiq fəaliyyət göstərən şəxsiyyətlər tərəfindən reallaşdırılır. Şəxsiyyət tərəfindən sosial mühitin şərtlərinin, imkanlarının və tələblərinin nə dərəcədə adekvat başa düşməsi və hərəkət etməsi vaxtında və düzgün qərarlar qəbul edə bilməsi və həyata keçirməsi aktivliyi ictimai inkişafının xarakteri və sürətinin çox mühüm göstəricisidir.

Şəxsiyyətin mahiyyəti müəyyən ictimai münasibətlər mühitində təzahür edir. Bu proses özündə obyektiv və subyektiv cəhətləri əhatə edir ki, onları seçib ayırmaq vacibdir. Şəxsiyyətin təhlilində belə bir metodoloji tələb daim əldə rəhbər tutulmalıdır: şəxsiyyət, fəaliyyətin və münasibətlərin subyektidir. Şəxsiyyətin sosial mühit ilə münasibətlərinin obyektiv tərəfi onun varlığı ilə həyat fəaliyyəti arasındakı əlaqələrdə üzə çıxır. Bu obyektiv əlaqələr sistemi şəxsiyyətin cəmiyyətdəki konkret yeri, onun hansı sosial birliyə mənsub olması (sinfi, milli etniki və peşə mənsubiyyəti, demoqrafik səciyyəsi) və onlardan irəli gələn nəticələr ilə müəyyən edilir. Burada ailə, əmək kollektivi və sair də əhəmiyyətli rol oynayır.

İnsanların öz fəaliyyətində istifadə etdikləri əmək alətləri və predmetləri bu sistemin ayrılmaz tərəfidir. Əslində dinamik halda götürülən insan - əmək alətləri (texnika) – əmək predmetləri sxemi şəxsiyyətin formalaşması və inkişafının obyektiv məntiqinin əsasında durur. Şəxsiyyətlər müəyyən bir məhsul (maddi və ya mənəvi) hazırlayarkən öz qabiliyyətlərini və biliklərini başqalarındakı bu göstəricilər ilə mübadilə edirlər. Bu prosesdə həm də onların hər birinin malik olduğu bilik və qabiliyyətlər digər insanlarda olan müvafiq göstəricilər hesabına tamamlanır və zənginləşir.

Sosial mühitin əsasını təşkil edən ictimai münasibətlər öz mahiyyəti etibarilə, hər bir cəmiyyətdə şəxsiyyət ilə cəmiyyətin əsas struktur elementləri arasındakı münasibətlərin spesifik üsullarla əks etdirilməsi deməkdir. Onların özünəməxsusluğu hər şeydən əvvəl insan (şəxsiyyət) ilə onun fəaliyyət şəraiti arasında, digər insanlar və birlik formaları arasında mülkiyyət tipi, mübadilə,

bölgü və istehlak göstəricilərində ifadə olunan birləşmə, əlaqə üsulunda aşkara çıxır.

İctimai münasibətlər bir növ şəxssiz təbiətə malikdir, çünki onlarda bir adamın deyil, çoxlu insanların həyat fəaliyyəti sferalarında müxtəlif əmək və ünsiyyət formalarında özünü göstərən mühüm sosial əlaqələr ifadə olunur. Odur ki, obyektiv ictimai qanunauyğunluqlar, bir-birilə müxtəlif əlaqələrə və ünsiyyətə daxil olan ayrı-ayrı fərdlərdən asılı deyildir. İctimai münasibətlərin qeyri-şəxsi mahiyyəti əmək sferasında daha aydın görünür: professional elmi işçi, müəllim, həkim, mühəndis, sürücü, çilingər və başqalari öz fəaliyyətinin nəticələrini mütləq mübadilə etməli olurlar (79, s.121). Bu fakt həmin professional rolda hansı konkret şəxsiyyətin olmasından asılı deyildir. Əlbəttə, bu o demək deyildir ki, hər bir şəxsiyyətin öz peşəsi sahəsində gördüyü işin keyfiyyəti, buraxdığı məhsulun səviyyəsi heç bir əhəmiyyət kəsb etmir. Əslində, sözügedən göstəricilər də çox vacibdir, çünki, şəxsiyyətin fərdi bilik və qabiliyyətləri, öz-özünə münasibəti məhz onlarda ifadə olunur.

Bununla yanaşı qeyd edilməlidir ki, hər bir şəxsiyyətin öz varlığı və fəaliyyət şəraitinə görə daxil olduğu obyektiv münasibətlər qismən onun özünün azad seçiminin nəticəsidir (məsələn, peşə seçimi). Bu fakt onların obyektiv xarakterini inkar etmir. Sözügedən məsələdə seçim azadlığının dərəcəsi isə bir çox cəhətdən real tarixi şəraitdən (konkret olaraq hansı ölkədə və hansı dövrdə yaşamasından, oradakı tərbiyə prosesinin təşkilindən və sair), asılı olur.

Nəzərdə tutulmalıdır ki, şəxsiyyət cəmiyyətdə öz mövqeyini dəyişdirə bilir. Məsələn, o, əvvəldə mənsub olduğundan başqa təbəqəyə, sosial qrupa keçə bilər. Lakin onun ilkin mövqeyi ilə

bağlı olan əvvəlki obyektiv şərait və münasibətlər həmin şəxsiyyət tərəfindən mənimsənilmiş olur və buna görə də onun sosial keyfiyyətlərində ifadə olunur və sosial davranışının mühüm determinantı kimi özünü göstərməkdə davam edir.

Şəxsiyyətin mahiyyətinin subyektiv cəhəti də çox mühümdür. Bu tərəf onun özvarlığının obyektiv şəraitinə, fəaliyyət situasiyasına qarşı şəxsi, daxili münasibətlərində üzə çıxır. Həmin münasibətlərdə bir tərəfdən fərdin şəxsi keyfiyyətlərinin, onun cəmiyyətdə tutduğu yerə və oynadığı rola, yerinə yetirdiyi funksiyalara nə dərəcədə uyğun gəldiyi aşkara çıxır. Digər tərəfdən isə şəxsiyyətin bu göstəricilərdən razılıq səviyyəsi ifadə olunur. Deyilənlər sözügedən münasibətlərin psixoloji, şəxsi tərəfinin son dərəcə mürəkkəbliyini sübut edir. Burada intellektual, emosional və iradi reaksiyaların bütöv bir kompleksi özünü göstərir. Şəxsiyyətin cəmiyyətdə tutduğu yerinə, fəaliyyət formalarına və əlaqələrinə bəslədiyi daxili münasibət onun öz ictimai funksiyalarını yerinə yetirməsinin xarakterinə və reallaşma səviyyəsinə mühüm dərəcədə təsir göstərir.

Doğrudan da şəxsiyyət bir tərəfdən öz varlığının şəraitini onu təmin edən kimi qəbul edə və onunla razılaşa bilər. Lakin o eynilə də qərarlaşmış mövcud vəziyyəti müəyyən aktivlik dərəcəsi ilə rədd edə bilər.

Şəxsiyyətin öz mövcudluq şəraitinə subyektiv və daxilən başa düşülmüş münasibət bəsləməsi, onu düzgün qiymətləndirməsi, onun tərəfindən özü ilə sosial mühit arasındakı əlaqələri dəyişdirməyin zəruri ilkin şərti kimi çıxış edir. Ola bilər ki, sözügedən şərait şəxsiyyət üçün heç də həmişə əlverişli olmasın. Bu halda o, ya onlarla razılaşmalı və barışmalı, ya da onları öz

tələbatları, məqsədi və ideallarına müvafiq surətdə dəyişdirməyə cəhd göstərməlidir.

Nəzərdə tutmaq lazımdır ki, şəxsiyyətin varlığı təkcə onu insan nəsli kimi səciyyələndirən ümumi keyfiyyətlər ilə müəyyən olunmur, həm də xeyli dərəcədə fərdi xarakter daşıyır. Bu iki tərəf arasındakı münasibətlər isə mövcud cəmiyyətin sosial strukturundan, burada tarixən qərarlaşmış olan konkret birlik formalarından keçərək baş verir. Həm də qeyd olunmalıdır ki, ümumilikdə insan nəslinə aid olan keyfiyyətlərin özü də bu və ya digər şəxsiyyətdə xeyli dərəcədə özünəməxsus şəkildə, bir növ şəxsləşmiş tərzdə ifadə olunur. Bu proses, yəni ümumi insan mahiyyətinin hər bir adamda reallaşması və inkişafı dərəcəsi, mövcud ictimai quruluşdan, konkret sosial münasibətlər sistemindən çox asılı olur. Sosial mühitin məğzini təşkil edən həmin amillər, şəxsiyyətin konkret fəaliyyətinə, onun ictimai əmək prosesində iştirak etməsi formasına, motivlərinə və stimullarına, qabiliyyətlərinin xarakterinə və reallaşması səciyyəsinə, onun sosial davranışının məzmunu və formalarına, bütövlükdə həyat tərzinə və təfəkkür stilinə güclü təsir göstərir.

Qeyd olunmalıdır ki, ayrılıqda götürülən hər bir şəxsiyyət, fərd sosial münasibətlərin məcmusunu (sosial-siyasi, iqtisadi, hüquqi, mənəvi, estetik və sair) nə dərəcədə mənimsəyirsə, bir o dərəcədə də onların daşıyıcısı və ifadəçisi kimi çıxış edir. Sözügedən ölçünün göstəricisi hər bir şəxsiyyətdə sosial-tipik və fərdi keyfiyyətlərin nisbətini, onun inkişaf səviyyəsini əks etdirir. Buradan aydın olur ki, şəxsiyyətin mahiyyəti, bioloji şəkildə irsən keçmir, o fərdin keçdiyi həyat prosesində formalaşır. Digər tərəfdən hər bir şəxsiyyət ümumilikdə insanların və bəşəriyyətin malik olduğu təcrübəni mənimsəmə prosesində öz mahiyyət

qüvvələrini və qabiliyyətlərini bir daha sanki yenidən və həm də özünəməxsus şəkildə formalaşdırır. Beləliklə, bir tərəfdən interiorızasiya, yəni ictimai keyfiyyətlərin fərdə keçməsi, hopması prosesi baş verir. Digər tərəfdən onun əksi olan proses – şəxsiyyətin öz qüvvəsini və qabiliyyətini ictimai fəaliyyətdə və münasibətlər sistemində obyektivləşdirməsi özünü göstərir. Əslində onlar bir-birindən ayrılmaz olub, vahid bir prosesin iki istiqaməti kimi çıxış edir. Onların vəhdəti şəraitində şəxsiyyətin mahiyyəti ifadə olunur və inkişaf edir. Bununla belə ayrı-ayrı şəxsiyyətlərin tarixi prosesə cəlb olunması dərəcəsi, onların şəxsi maraqları və tələbatlarının ümumilikdə cəmiyyətin müvafiq göstəriciləri ilə uyğunluq səviyyəsi eyni olmur. Çünki, həmin göstəricilər təkcə ictimai şəraitdən deyil, həm də fərdin malik olduğu şəxsi keyfiyyətlərdən asılıdır.

Deyilənlər sübut edir ki, insanı səciyyələndirən keyfiyyətlər ilə, konkret şəxsiyyət arasında münasibətlər, onların səviyyəsi və inkişafı da son dərəcə mürəkkəb xarakter daşıyır. Odur ki, şəxsiyyətin fərdi taleyinin aparıcı ictimai meyllər tərəfindən total şəkildə müəyyənləşdirildiyini iddia etmək metodoloji baxımdan doğru deyildir. Hər bir ayrıca şəxsiyyət ümumilikdə insana xas olan mahiyyət qüvvələrini müəyyən konkret ölçüdə mənimsəyir və reallaşdırır. Həmin ölçü şəxsiyyətin qabiliyyətlərinin və tələbatlarının çox mühüm göstəricisidir.

Bəzən elmi ədəbiyyatda şəxsiyyətin, onun fəaliyyətinin ictimai münasibətlər sistemindən təcrid olunmuş şəkildə nəzərdən keçirilməsi halları özünü göstərir (129, s.7). Bu, şəxsiyyət ilə cəmiyyətin qarşılıqlı əlaqələrinin konkret tarixi formalarını anlamaqda, ümumi insan mahiyyətinin ayrıca bir şəxsiyyətdə formalaşması və inkişaı prosesini araşdırmaqda müəyyən

çətinliklər törədir. Öz növbəsində sosial mühiti, ictimai münasibətlər sistemini, onların konkret subyekti olan şəxsiyyətdən, onun fəaliyyətindən kənarda təhlil etmək istənilən nəticəni verə bilməz. Belə yanaşdıqda ictimai münasibətlərin spesifikliyini və inkişaf qanunauyğunluqlarını açmaq qeyri-mümkündür.

İctimai münasibətlərin subyekti kimi anlaşılan şəxsiyyət yaşadığı cəmiyyətin xarakterinə uyğun formalaşır. Amma bu o demək deyildir ki, şəxsiyyət sosial mühitin passiv əlavəsidir. Əslində o yaradıcı və aktiv mövcudat olub, öz varlığı və inkişafı üçün şərait yaradır. Buna görə də onun fəaliyyəti mövcud sosial mühitə uyğunlaşmaqla məhdudlaşmır, onu yaradıcı surətdə dəyişdirməsi və yeniləşdirməsi ilə səciyyələnir. Şəxsiyyət bu istiqamətdəki fəaliyyəti prosesində həm də əvvəldə mövcud olan şəraiti təkrar istehsal edir. Lakin bu müəyyənedici yer tutmur, onun inkişafının bir məqamı və şərti kimi çıxış edir. Əsas yeri şəxsiyyətin yaradıcılığı, yeniləşdirici tərəfi tutur. Bütövlükdə şəxsiyyətin sosial mühit ilə qarşılıqlı əlaqəli fəaliyyətində reproduktiv və yaradıcı tərəflər vəhdətdə olur, onun xarakteri və real məzmunu isə hər bir şəxsiyyət üçün konkret şəkildə özünü göstərir.

Yuxarıda qeyd olunduğu kimi, şəxsiyyət ilə sosial mühit arasındakı əlaqələr birtərəfli deyil, qarşılıqlı xarakter daşıyır. Yəni təkcə sosial mühit şəxsiyyətin formalaşmasına və inkişafına güclü təsir göstərmir, həm də şəxsiyyətin dinamik və çoxtərəfli fəaliyyəti sosial münasibətlər sisteminin təkmilləşməsində mühüm yer tutur. Lakin bu iki qarşılıqlı təsir istiqamətləri bərabər səviyyəli deyildir, birinci üstün yer tutur.

Hər bir ictimai quruluşda qərarlaşan ictimai əmək bölgüsü və mövcud sosial birliklərin xarakterinə müvafiq olaraq şəxsiyyətlərin sosial-funksional və yaxud rola görə müəyyən strukturu da

formalaşır. Bu struktur həm də insanların ictimai münasibətlər sistemində yeri ilə müəyyən olunan tipik və zəruri fəaliyyət növlərindən, sosial funksiyalarından və davranış üsullarından asılı olur. Eyni zamanda həmin struktur ümumilikdə hər bir insana (şəxsiyyətə) münasibətdə müəyyən fəaliyyət üsulu və davranış qaydaları irəli sürür (bu və ya digər dərəcədə sərtiliklə). Cəmiyyətdə qərarlaşan ümumi rol – strukturu hər şeydən əvvəl insanların praktiki fəaliyyətinin rəngarəngliyi, yerinə yetirdikləri funksiyaların bölünməsi və koperasiyası nəticəsində obyektiv xarakter kəsb edir. O, hər bir nəslin və hər bir insanın obyektiv fəaliyyət şəraiti məcmusuna daxil olur və cəmiyyətin əksəriyyətini təşkil edən fərdlər tərəfindən yaradılır və təkrar istehsal olunur.

Fəlsəfi ədəbiyyatda haqlı olaraq göstərilir ki, insan tərəfindən ictimai təcrübənin mənimsənilməsi və «sırf özünəməxsus olan mahiyyətin reallaşdırılması, onun fəaliyyət prosesində oynadığı bu və ya digər rol vasitəsilə həyata keçirilir. Şəxsiyyət yalnız öz rolunu yerinə yetirərək ictimai münasibətlər sisteminə daxil olur, onların daşıyıcısı və yaradıcısı kimi, ictimai münasibətlərin qovşağında duran qüvvə kimi çıxış edir (234, s.43).

Lakin şəxsiyyətin müxtəlif növlü fəaliyyət sistemini ifadə etmək üçün «sosial-rol (funksional) strukturu» anlayışını işlədər-kən nəzərdə tutulmalıdır ki, həmin anlayış xeyli dərəcədə şərtidir və tam dəqiq deyildir. Buna görə də həmin anlayışa müraciət edərkən aşağıdakı iki məqam nəzərə alınmalıdır. Birincisi, bu anlayışın məzmunu ictimai əmək bölgüsü sistemi və cəmiyyətin sosial strukturu ilə əlaqədə götürülməlidir. İkincisi, nəzərdə tutmaq lazımdır ki, konkret fərdin öz sosial rolunu yerinə yetirməsi şəxsiyyətin ictimai fəaliyyət növlərində və ictimai münasibətlər sistemində özünü təmsil etməsi deməkdir. Buna görə

də şəxsiyyətin sosial rolunu ictimai quruluşun xarakterindən və sosial mühitdən kənarda təsəvvür etmək doğru deyildir. Əgər şəxsiyyət yaşadığı cəmiyyətdə ikili mövqeyə malikdirsə, yəni onun obyektiv vəziyyəti, yerinə yetirdiyi sosial funksiyalar, onun öz ustanovkaları, məqsədləri, həyati momentləri və həqiqi inkişafının imkanları ilə ziddiyyət təşkil edirsə və şəxsiyyətin subyektiv münasibətləri onun zorla cəlb olunduğu ictimai əlaqələrə və münasibətlərə uyğun gəlmirsə, onda ictimai həyat, sosial mühit onun üçün nə isə yad bir şey kimi çıxış edir. Bu halda şəxsiyyətin ictimai mühitdən özgələşməsi kəskin halda özünü göstərir. Aydındır ki, hər bir şəxsiyyət cəmiyyətdə müxtəlif sosial funksiyalar yerinə yetirir. Məsələnin mahiyyəti onların sayında deyil, bundadır ki, həmin funksiyalar şəxsiyyətin özünün həyat fəaliyyəti üsullarına çevrilir, yoxsa ona kənardan, öz rollarına uyğun olmayaraq, zorla qəbul etdirilir. Birinci halda onun sosial rolu öz mənafelərini, məqsəd və istəklərini adekvat ifadə edir, ikinci halda isə şəxsiyyətin yerinə yetirdiyi sosial funksiyalar onun real subyektiv göstəriciləri ilə ziddiyyət təşkil edir. Sonuncu vəziyyət şəxsiyyətin inkişafı prosesinə zəiflədici təsir göstərir.

Şəxsiyyət ilə cəmiyyətin sosial-rol strukturu arasındakı münasibətləri təhlil edərkən aşağıdakı məqama da diqqət yetirilməlidir. Söhbət bundan gedir ki, cəmiyyətin sosial strukturu daimi və dəyişilməz deyildir. O, ictimai münasibətlər sisteminin və cəmiyyətin sosial strukturunun ifadəsi kimi fasiləsiz olaraq təkmilləşir və inkişaf edir. Məsələ bundadır ki, tarixi prosesdə həyata qədəm qoyan hər bir yeni nəsil ictimai və şəxsi tələbatlarını ödəmək üçün cəmiyyətin sosial strukturunu yaradıcı surətdə dəyişdirir və təkmilləşdirir. Buna görə də hər bir fərdin (şəxsiyyətin) ictimai zəruri fəaliyyətə qovuşması, onun müəyyən

ictimai münabətlərə daxil olması, heç də şəxsiyyətin kor-koranə mövcud sosial mühitə uyğunlaşması, zor gücünə standart ictimai fəaliyyət, münasibətlər və şüur qəliblərinə salınması demək deyildir.

Əks halda, yəni şəxsiyyətin sosiallaşması prosesi sadəcə olaraq onun mövcud sosial mühitə birləşməsi kimi səhv təsəvvür olunardı. Bu halda ictimai tərbiyə sisteminin məqsədi mövcud sosial normalara müti surətdə əməl edən itaətkar şəxsiyyət yetişdirmək kimi qələmə verilir. Nəticədə şəxsiyyətin sosiallaşması prosesinin və tərbiyə sisteminin konformist izahı özünü göstərə bilir ki, bu da doğru deyildir. Çünki o, şəxsiyyətin sosial statusuna və roluna mücərrəd yanaşır, onları mövcud ictimai əmək bölgüsü və sosial strukturdan, bir sözlə sosial mühitdən təcrid olunmuş halda, mücərrəd səviyyədə götürür. Bu cür yanaşma metodoloji baxımdan yanlış olub, ictimai tərbiyə prosesinin mahiyyəti və məqsədini fərdi, mövcud normalar üzrə hərəkət etməyə məcbur etməkdə görür, insan şəxsiyyətini isə passiv manipulyasiya obyekti kimi götürür.

Problemin həqiqi elmi həlli şəxsiyyəti ictimai inkişafın həm obyekti və həm də subyekti kimi anlamaqda, mövcud ictimai təcrübənin mənimsənilməsinə isə cəmiyyətin və habelə insanın özünün inkişafının təbii ilkin şərti kimi yanaşılmasındadır. Bu həm də ona görə zəruridir ki, şəxsiyyət tərəfindən mövcud normaların, prinsiplərin və ictimai şüur dəyərlərinin mənimsənilməsi prosesi məzmun etibarilə müxtəlif ola bilir. Daha dəqiq desək, həmin proses bir halda şəxsiyyətin mahiyyətinin təhrif olunması, onun millətçi və yaxud faşist ruhda yetişməsi ilə nəticələnə bilər. Digər halda isə ictimai təcrübənin mənimsənilməsi şəx-

siyyətin müsbət istiqamətdə formalaşması və inkişafının zəruri şərti kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, cəmiyyət və şəxsiyyət münasibətlərini araşdırarkən ictimai münasibətlər sisteminin, əmək bölgüsünün və sosial strukturun obyektiv məzmunu xüsusi qeyd olunmalıdır. Lakin təkcə bu kifayət deyildir. Hərtərəfli təhlilə nail olmaq üçün mütləq şəxsiyyətin sosial tipologiyası, real fərdlərin öz inkişafı prosesində təzahür edən tipik meyillər, cəhətlər və keyfiyyətlər nəzərə alınmalı, sosial-tipik proseslərin sonsuz sayda fərdi variasiyalara malik olduğuna diqqət yetirilməlidir. Unutmaq olmaz ki, hər bir cəmiyyət üçün özünəməxsus xarakter daşıyan «şəxsiyyət strukturu» sözün müəyyən mənasında ictimai münasibətlərin və institutların təkrar istehsalının dəyişilməsi və inkişaf etdirilməsinin mühüm şərtidir. Bu onunla izah edilir ki, bütün ictimai proseslər, burada fəaliyyət göstərən ictimai qanunlar konkret insanların, şəxsiyyətlərin fəaliyyətində təzahür edir. Doğrudur, heç bir şəxsiyyət mövcud ictimai münasibətlərin məzmununu tam dolğunluğu ilə ifadə edə bilmir. Digər tərəfdən nəzərdə tutmaq lazımdır ki, bu və ya digər ictimai münasibətlərin, qanunauyğunluqların səciyyəsi də o vaxta qədər qeyri-bitkin və natamam olacaqdır ki, bu səciyyə həmin münasibətləri və qanunauyğunluqları təmsil edən cəmiyyətin müəyyən şəxsiyyət strukturunun, şəxsiyyətlər tipinin mahiyyətinin açılması ilə tamamlanmasın (234, s.63).

Deməli, şəxsiyyətin fəaliyyət və ünsiyyəti bütövlükdə onun sosial rolu və funksiyaları, onu əhatə edən ictimai münasibətlər sistemi, əmək bölgüsü, sosial struktur ilə, bir sözlə, sosial mühit ilə çoxtərəfli və çoxsəviyyəli mürəkkəb qarşılıqlı təsirdə və vəhdətdə çıxış edir.

Buradan aydındır ki, şəxsiyyətin cəmiyyətdən asılı olması məsələnin bir tərəfidir. Digər tərəfdən ümumilikdə cəmiyyət ayrı-ayrı fərdlərdən, cəmiyyətin üzvlərindən asılıdır. Fikrimizcə, müasir ekzistensializmin də gəldiyi bu nəticə ilə razılaşmaq olar. Belə ki, cəmiyyət üzvlərinin (təbii ki, onu təşkil edən şəxsiyyətlərin) səviyyəsi, azadlığı və fəaliyyəti nə qədər yüksək olursa, bütövlükdə cəmiyyət və ictimai münasibətlər sistemi də bir o qədər çox inkişaf etmiş və mükəmməl səviyyəli olur. Əks halda, yəni cəmiyyət aşağı səviyyəli fərdlərdən ibarətdirsə, onda bu vəziyyət cəmiyyətin öz həqiqi mənasından tədricən sürüyə çevrilməkdə olduğunu ifadə edir. Cəmiyyətin inkişafının çox mühüm göstəricisi burada fərdlərin öz ictimai mahiyyətini reallaşdırması üçün yaratdığı real imkanlardır. Doğrudur, vaxtilə Marks yazırdı: «İnsanın mahiyyəti ayrıca bir fərdə məxsus mücərrəd bir şey deyildir. Öz həqiqiliyində o bütün ictimai münasibətlərin məcmusudur» (174, s.265).

Lakin nəzərdə tutmaq lazımdır ki, ictimai münasibətlərin özü də müxtəlif subyektlərdən, «Mən»lərdən təşəkkül tapır. Deməli, insanın, şəxsiyyətin əsl mahiyyətini «Mən» ilə qeyri «Mən»lərin – ictimai münasibətlər məcmusunun sintezi kimi səciyyələndirmək daha düzgündür. Həm də unudulmamalıdır ki, «Mən» insanın fəaliyyətinin özşərtlənməsi (daxili determinasiyası) mexanizminin əsası olmaqla, hər şeydən əvvəl sosial xarakter daşıyır. Onda sosiallığın strukturunun özü bir növ ideal, subyektiv və fərdi formada şəxsləşir və təcəssüm olunur. Bu cür sosial şərtlənmə, subyekti onun azadlığından uzaqlaşdırmır, çünki təbii olandan fərqli olaraq, azadlıq onun varlıq forması, özünü reallaşdırmasının üsuludur (190, s.92).

Şübhəsiz ki, «Mən» sosial xarakter daşıyır, lakin qeyri «Mən»lər də bu cürdür, yəni sosial şərtlənir. Deməli, onlar arasın-

da müəyyən oxşarlıq vardır və onları vahid bir tamın çərçivəsi daxilində nəzərdən keçirmək özünü doğruldur.

Odur ki, psixoloji ədəbiyyatda ifadə olunan belə bir fikirlə razılaşmaq olar ki, «subyektin öz əlahiddəli, yəni müstəqilliyini, başqa fərdlərdən fərqliliyini ifadə edən «Mən» fenomenində iki bir-birilə paralel mövcud olan meyli müşahidə etmək olar. Onlardan biri fərdin digər insanlar ilə emosional ümumiliyə cəhd göstərməsi, digəri isə öz unikallığını qoruyub saxlamaq arzusu, müstəqilliyə, azadlığa can atmaq, öz şəxsi ləyaqətini qoruyub saxlamaqda ifadə olunur (83, s.322).

Hər bir tarixi mərhələdə şəxsiyyətin özünüreallaşdırması, eləcə də, özünütəsdiq etməsinin ictimai əhəmiyyəti bununla müəyyən olunur ki, şəxsiyyət cəmiyyətin inkişafına hansı töhfəni verir, o öz qabiliyyətlərini cəmiyyətin xeyrinə sərf edir, yoxsa ondan yalnız öz faydası üçün istifadə edir (238, s.80).

Ümumfəlsəfi mövqedən yanaşdıqda mühitin şəxsiyyət anlayışının, fərdin sosial mövcudluq formasını ifadə edən son dərəcə zəngin məzmuna malik olduğu aşkara çıxır. Bu anlayış fərdin mövcud sosial mühitdə müəyyən daxili bütövlüyə və nisbi müstəqilliyə malik olmaqla, özünü yaradıcı surətdə təzahür etdirmə imkanlarını əks etdirir. Həmin anlayış sübut edir ki, hər bir fərd öz təbii imkanları və qabiliyyətlərinə arxalanmaqla qarşısında duran sosial vəzifələri necə həyata keçirir. Ümumilikdə götürdükdə şəxsiyyəti ictimai şüurun və fəaliyyətin müstəqil və yaradıcı subyekti kimi səciyyələndirmək olar. Bu subyekt özünümüəyyənləşdirmə, özünütənzimetmə və özünütəkmilləşdirmə qabiliyyəti kimi qeyri-adi və yüksək keyfiyyətlərə malik olması ilə seçilir.

Şəxsiyyətin sosial fəlsəfi təhlilinin digər çox mühüm cəhətini onun zəngin daxili aləmə malik olduğunu nəzərə çarpdırmaq təşkil

edir. Şəxsiyyətin, onu digər canlılardan və cansız obyektlərdən fərqləndirən göstəricilər sırasında müstəsna dərəcədə yüksək yer tutan bu keyfiyyətinə də sosial mühit əhəmiyyətli təsir edir. Şəxsiyyətin daxili aləmi son dərəcə mürəkkəb məzmuna malik olan bir sistemdir. Fəlsəfi ədəbiyyatda haqlı olaraq göstərilir ki, bu anlayış insan tərəfindən fərdi surətdə izah olunan, şəxsi emosiyalar ilə zənginləşmiş, real və ideal həmsöhbətlər ilə dialoqda mənalandırılan xarici dünyanın bütün mümkün variantlarda və proyeksiyalarda əks olunması deməkdir (197, s.204-205).

Bu anlayışda insan tərəfindən onun düşdüyü bütün situasiyalar, ona göstərilən bütün təsirlər subyektiv şəkildə yenidən işlənilir və mənalandırılır. O, həm də subyektin bu və ya digər sosial situasiyanı necə dərk etməsini və izah etməsini, onun baş verməkdə olan sosial proseslərə hansı şəkildə daxil olunduğunu əks etdirir. Bununla əlaqədar qeyd edilməlidir ki, fərdin emosionallığı və qarşılıqlı təsirdə olduğu dünyaya yaradıcı münasibəti nə qədər yüksəkdirsə, şəxsiyyətin onu əhatə edən sosial mühitə nüfuz etmə göstəriciləri də bir o qədər yüksək olur. Eynilə də onun daxil aləmi daha zəngin və rəngarəng xarakter daşıyır, şəxsiyyət ilə onu əhatə edən mühit arasında psixoloji yaxınlıq durmadan artır.

Həm də nəzərdə tutulmalıdır ki, şəxsiyyətin fərdi inkişafı onun daxili aləminin təkmilləşməsi ilə ayrılmaz əlaqədə baş verir. Bu mənada sonuncuya şəxsiyyətin bütün bioloji, sosial və psixiki yaş növləri boyu fasiləsiz surətdə tərəqqi edən mürəkkəb sistem kimi yanaşılmalıdır. Əgər bioloji «yaş» bədəndə maddələr mübadiləsi və orqanizmin funksiyalarının səviyyəsi vasitəsilə həmin prosesə təsir göstərirsə, psixiki «yaş dövrü» insanın əqli və emosional səviyyəsi baxımından onu stimullaşdırır. Nəhayət,

sosial yaş dövrü şəxsiyyətin daxili aləminin zənginləşməsinə daha güclü və bilavasitə təsir edə bilməsi ilə səciyyələnir. Bu onunla izah edilir ki, həmin göstərici insanın sosial inkişafını, onun sosial rolunun artmasını əks etdirir. Deyilənlərdən əlavə hər bir fərdin özünün daxili şəxsi, subyektiv yaş göstəricisi də vardır ki, o da daxili aləmi inkişaf etdirən çox mühüm amil rolunu oynayır. Sonuncu amili təhlil edərkən qeyd olunmalıdır ki, insanın özünün özünə münasibətini formalaşdıra bilmək və lazım gəldikdə onu dəyişdirə bilmək qabiliyyəti, öz həyat təcrübəsinə yenidən nəzər salmaq və onu yenidən qiymətləndirə bilmək məharəti, necə deyərlər, özünə başqalarının gözü ilə baxa bilməsi son dərəcə vacib keyfiyyət olmaqla şəxsiyyətin inkişafının mühüm mənbəyini təşkil edir. Onun bu istiqamətdə yerinə yetirdiyi işin ümumiləşdirlmiş nəticəsi (yəni onun özünü dərk etmək cəhdləri, özünə münasibətini və həyatda yerini anlamaq istiqamətində atdığı addımları) onun formalaşdırdığı «Mən» obrazında təmərküzləşmiş şəkildə ifadə olunur. Məhz həmin «Mən» obrazında fərdin öz vəziyyətini hiss etməsi, yasantıları və əməlləri təcəssüm edir, onun özbütövlüyü əks olunur. Burada həm də şəxsiyyət tərəfindən öz keçmişinin, indiki vəziyyətinin və eləcə də gələcəyinin necə mənalandırması əks olunur. Qeyd edilməlidir ki, şəxsiyyətin malik olduğu «Mən» ümumiləşmiş obrazı bir yerdə dayanıb durmur, donuq və sabit deyildir. Xüsusilə də fərdin həyatında dönüş məqamları baş verdikdə, onun sosial rolunu dəyişməsinə gətirib çıxaran şərait yarandıqda, onunla qarşılıqlı təsirdə olanların əhatə dairəsi ciddi surətdə yeniləşdikdə, həll etməli olduğu problemlər və qərar qəbul etmə imkanları dəyişildikdə, bir sözlə həyat tərzində və özü haqqında təsəvvürlərində ciddi dəyişikliklər baş verdikdə, həmin «Mən» obrazının dəyişməsinə daha çox tələbat yaranır və o

dəyişilir. Bu proses çox vaxt sosial mühit ilə sıx əlaqədə baş verir. Göstərilməlidir ki, həmin proses asan getmir və şəxsiyyət tərəfindən çox ağır və ağrılı şəkildə həyata keçirilir. Bu, mövcud olan «Mən»in dəyişdirilməsi və yeni «Mən»in formalaşmasının öz xarakteri ilə bağlıdır. Söhbət şəxsiyyətin simasında və psixikasında artıq qərarlaşmış olan və möhkəm yer tutan cəhətlərin dəyişdirilməsindən (deməli bəzi məqamların itirilməsi və yenilərinin yaradılmasından) gedir. Öz təbiətinə və məzmununa görə «Mən» şəxsiyyətin intellektual və emosional inkişaf səviyyəsini əks etdirən mürəkkəb sistemdir. Burada həm də ayrı-ayrı tərəflər arasında təmin olunmuş ahəngdarlığın səviyyəsi (eləcə də mövcud ayrılıqlar və ziddiyyətlər) əks olunur. Bu iki tərəf bir-birilə ayrılmaz vəhdətdə çıxış edərək, şəxsiyyətin sabit xarakterini, hər cür dəyişikliklərə o qədər də ciddi şəkildə reaksiya verməməsi keyfiyyətini göstərir. Sözügedən keyfiyyət, yəni şəxsiyyətin sabitlik dərəcəsi, onun həyat fəaliyyəti üçün çox zəruri məqamların məcmusunu əks etdirir. Şəxsiyyətin malik olduğu nisbi sabit «Mən» obrazı, çox vaxt onda əvvəlki nəsillərdən və valideynlərindən əxz olunmuş modellər üzrə formalaşır. Bu vəziyyətdə onun yerinə yetirdiyi rol ciddi şəkildə irəlicədən reqlamentləşdirilir, onun inkişaf qanunauyğunluğu və dəyişdirilməsinin xarakteri az-çox qəti şəkildə əvvəlcədən müəyyən edilir. Həmin mərhələdə şəxsiyyətin davranış stereotipləri və bütövlükdə formalaşdırdığı «Mən» obrazı tərkibindəki hisslərin və ideyaların nisbətən sadə olması, daxili ahəngdarlığı və yüksək dərəcədə sabit olması ilə səciyyələnir.

Lakin şəxsiyyətin həyatında ciddi dəyişikliklər baş verdikdə onun əvvəlki qayda üzrə fəaliyyət göstərməsi və özünün malik olduğu sabit xarakterli «Mən» sistemini qoruyub saxlaması qeyri-

mümkün olur. Yeni yaranmış şəraitin güclü təsiri altında həmin sistem dəyişilməli və yeniləşməli olur. Bu prosesdə şəxsiyyət öz yeni «Mən»ini yaratmaq üçün gərgin axtarışlar aparır və öz daxilində baş qaldıran ziddiyyətli məqamları aradan qaldırır. Təsadüfi deyildir ki, belə vəziyyətlərdə şəxsiyyətin tezliklə yeni şəraitə adaptasiya etməsi halları ilə yanaşı bəzən onun tərəddüdləri də çoxalır, onda durğunluq və hətta tənəzzül baş verə bilir.

Nəticə etibarilə bütün bu proseslər şəxsiyyətin dəyişilmiş şərait və mühitə uyğun olaraq genişlənməsi ilə başa çatır. Bu zaman qəribə paradoks özünü göstərir: şəxsiyyət öz sabitliyini və özünü qoruyub saxlamaq naminə öz-özünü dəyişikliklərə uğratmalı olur.

Beləliklə, sosial mühit ilə şəxsiyyətin münasibətlərinin bu paraqrafda aparılmış təhlili aşağıdakıları sübut edir:

Hər şeydən əvvəl bu münasibətlər son dərəcə mürəkkəb və müxtəlif istiqamətli xarakter daşıması ilə səciyyələnir. Belə ki, o bir tərəfdən çox mühüm və mütərəqqi əhəmiyyət kəsb edir – insanın şəxsiyyət kimi formalaşması və inkişafının mənbəyi rolunu oynayır. Digər tərəfdən sosial ilə fərdinin münasibətlərində ayrılıq halları, müəyyən çətinliklər və hətta ziddiyyətlər də özünü göstərə bilir. Bu münasibətdə Q.Q.Diligenskinin aşağıdakı fikri ilə razılaşmaq olar: «Sosial ilə fərdinin dialektikası – insan inkişafının mənbəyini təşkil edir, lakin o həm də fərdi cəhdlər ilə sosial məqsədlər, normalar, təcrübə, bu təcrübəni ümumiləşdirməklə məşğul olan institutlar və biliklər sistemi arasında rasional nisbətin yaradılmasında çətinliklərə müncər olunan faciəvi kolliziyalar üçün zəmin yaradır» (120, s.35).

İnsan daim cəmiyyətdə fəaliyyət göstərdiyi üçün, sosial münasibətlər və institutlar şəbəkəsi ilə sıx əhatə olunduğu üçün

təbiidir ki, onda ictimai tərəf daha qabarıq nəzərə çarpır. Lakin unudulmamalıdır ki, şəxsiyyətin başlıca keyfiyyəti onun sosial münasibətlərin passiv daşıyıcı olmasında deyil, fəal yaradıcı subyekt kimi çıxış etməsindədir. Şəxsiyyət kimi götürülən insan təkcə sosial mahiyyət ifadə etməklə məhdudlaşmır, o həmin sosiallığın özünü genişləndirir və inkişaf etdirir. Buna görə şəxsiyyət anlayışında yaradıcı başlanğıc, subyektlilik əsas yer tutur.

Şəxsiyyətin mahiyyəti mövcud sosial mühitin, ictimai münasibətlərin bir növ personifikasiyası deməkdir. Digər tərəfdən hər hansı konkret şəxsiyyət fərdi formada özünün ictimai mahiyyətini ifadə edə bilir. Həmin forma onun müstəqil fəaliyyət subyekti kimi varlığının ifadə üsulunu ifadə etməklə konkret şəxsiyyətin mühüm səciyyəsini təşkil edir.

Yuxarıda aparılmış təhlil metodoloji baxımdan mühüm əhəmiyyət kəsb edən bir sıra ümumiləşdirmələr etməyə imkan verir:

1. Şəxsiyyət – sosial mühit münasibətləri son dərəcə mürəkkəb, çoxtərəfli və dinamik xarakter daşıdığı üçün, onları metafizikcəsinə bir-birindən ayırmaq və yaxud ictimai həyatın avtomatik olaraq şəxsiyyətin həyat tərzini müəyyən etdiyini irəli sürmək doğru deyildir. Bu iki tərəf sıx qarşılıqlı təsirdə və ayrılmaz vəhdətdə çıxış edir. Onların qarşılıqlı əlaqələrində aparıcı istiqamət budur ki, sosial fərdin şəxsiyyət kimi təşəkkül tapması, yəni onun ictimai təcrübəni mənimsəməsi gedişində o, həmin təcrübəni, sosial gerçəkliyi bir növ özünün daxili aləminə, öz arzularına, biliklərinə və məharətinə çevirir. Nəticədə o təkcə fərd kimi çıxış etmir, cəmiyyətdəki ictimai münasibətlərin və ondakı dəyişikliklərin canlı subyekti, fəal şəxsiyyət statusu alır.

2. Şəxsiyyət problemini onun yaşadığı və həyat fəaliyyətinin qanunauyğunluqlarını müəyyən etdiyi real cəmiyyətdən kənarda təhlil etmək qeyri-mümkündür. Əslində cəmiyətin özü də ayrı-ayrı insanların fəaliyyəti nəticəsində yaranır, onların qarşılıqlı təsirinin məhsuludur. Odur ki, şəxsiyyət ilə cəmiyyət bir-birilə çoxsaylı ayrılmaz əlaqələrdə və dialektik vəhdətdə mövcuddur. Belə ki, bir tərəfdən cəmiyyət şəxsiyyətlərin qarşılıqlı təsiri nəticəsində formalaşır, digər tərəfdən ayrıca bir şəxsiyyətin özü ictimai mühitin və ictimai mahiyyətin fərdiləşmiş təzahürü deməkdir.

3. Mücərrəd və mistik şəxsiyyət yoxdur, o həmişə müəyyən konkret cəmiyyətin vətəndaşıdır. Bu konkret şəxsiyyət öz varlığının real ictimai şəraitini yaratmaqla, həm də öz təbiətini dəyişdirir. Onun mahiyyəti mənsub olduğu sinfin və ya sosial qrupun real vəziyyətinə uyğun surətdə, habelə, öz şəxsi həyat fəaliyyəti əsasında formalaşır və inkişaf edir. Şəxsiyyət ilə cəmiyyətin ayrılmaz əlaqəliliyindən danışarkən belə bir metodoloji əhəmiyyətli məqamı da unutmaq olmaz: mövcud cəmiyyətin əsas və səciyyəvi cəhətləri hər bir şəxsiyyətdə eyni dolğunluq və tamlıq ilə təzahür etmir. Digər bir nəzərə alınmalı cəhət bundan ibarətdir ki, tarixən sosial mühit inkişaf etdikcə onunla şəxsiyyət arasında münasibətlər optimal razılığın əldə olunması istiqamətində təkmilləşir.

4. Şəxsiyyət ilə sosial mühit sadəcə qarşılıqlı əlaqədə olmayıb, həm də qarşılıqlı surətdə biri digərini şərtləndirir. İnsanın şəxsi keyfiyyətlərinin formalaşması, onun fərdi mənlik şüurunun inkişafı ilə sıx bağlıdır. Sonuncuya isə mövcud sosial şərait güclü təsir göstərir. Çünki sözügedən proses təkcə fərdin cəmiyyətdə tutduğu yerdən deyil, həm də onun buradakı öz vəziyyətinə bəslədiyi fərdi münasibətdən asılıdır. Buna görə də eyni bir sosial

mühitdə müxtəlif şəxsiyyət tipləri mövcud ola bilir. Cəmiyyətin hər hansı bir konkret üzvünün davranışı, bu davranışın həmin insanın sosial rolu və funksiyalarına nə dərəcədə uyğun gəlməsi, onun fərdi şüur səviyyəsindən, onun reallaşdırılması özünəməxsusluqlarından çox asılıdır. Məsələyə bu baxımdan yanaşdıqda qeyd olunmalıdır ki, totalitar rejimin hökmranlığı şəraitində insanın fərdi xüsusiyyətlərinin təzahür etməsi imkanları kəskin şəkildə məhdudlaşdırılırdı. Bunun nəticəsində şəxsiyyətin təzahürünün adekvat formaları deyil, təhrif olunmuş rəngarəngliyi əsas yer tuturdu. Demokratikləşmə dövründə bu vəziyyət əsaslı surətdə dəyişilir. Açıq cəmiyyətin siyasi, iqtisadi, sosial və mənəvi sferalarda dayaqları möhkəmləndikcə, şəxsiyyətin real sosial vəziyyəti prinsipcə yeniləşir, onun öz fərdi qabiliyyətlərini reallaşdırması və inkişaf etdirməsi üçün daha geniş imkanlar açılır.

## 1.3. Şəxsiyyətin sistemli – struktur təhlilinin metodoloji əsasları

Fəlsəfi fikirdə şəxsiyyət probleminin qoyuluşu və araşdırılmasının çox mühüm istiqaməti burada sistemli təhlil metodologiyasının geniş miqyasda tətbiqi ilə bağlıdır. Təbii-elmi biliklər sahəsində əhəmiyyətli nəticələrə gətirib çıxaran sistemli yanaşma metoduna şəxsiyyət probleminin öyrənilməsində də marağın artması təsadüfi deyildir. Bu onunla şərtlənir ki, həmin metod şəxsiyyət – sosial həyat – insan sxeminə tətbiq edildikdə mühüm uğurlar gətirir. Sonra, o, tədqiqatı təbii elmi yönümdən sosial humanitar istiqamətə keçirmək üçün imkanlar açır, beləliklə də birinci tərəfin malik olduğu məhdudluqları aradan qaldırmaq mümkün olur. Məsələnin mahiyyəti bundadır ki, sosial fərdin formalaşması və inkişafı proqramı öz mahiyyətinə görə bioloji, cismani çərçivəyə sığışmır. Cəmiyyət öz tarixi gedişində özünəməxsus «varislik» proqramı işləyib hazırlayır ki, onlar bioloji izahın hüdudlarından kənara çıxır (121, s.2).

Qeyd edək ki, fəlsəfədə mürəkkəb hadisələrin öyrənilməsinə sistem kimi yanaşılması o qədər də yeni məsələ deyildir. Lakin XX əsrin 40-cı illərindən etibarən ümumi sistem nəzəriyyəsinin təsiri altında sistemli təhlil xüsusi növlü metanəzəriyyə statusu aldı və ümumelmi metodologiya səviyyəsinə yüksəldi. Fəlsəfi ədəbiyyatda sistem dedikdə mütəşəkkilliyə və struktura malik qarşılıqlı əlaqəli elementlər məcmusu başa düşülür. Sistemli obyektlər aşağıdakı xassələrə malikdir: bütövlülük, strukturluq, ətraf mühit ilə qarşılıqlı əlaqəlilik, iyearxiyalılıq (çoxpillələlilik) və çoxlu təsir imkanlılığı.

Ümumilikdə sistemi və sistemli yanaşmanı səciyyələndirən bu xüsusiyyətlər şəxsiyyət probleminin öyrənilməsində də (əlbəttə,

müəyyən özünəməxsusluqla) tətbiq olunmalıdır. Təsadüfi deyildir ki, şəxsiyyəti tədqiq edən müəlliflərin demək olar ki, hamısı onun bütövlüyünü xüsusi qeyd edirlər. Yaxud da elə bir tədqiqatçı olmaz ki, o şəxsiyyətin ətraf mühit ilə sıx qarşılıqlı təsirdə fəaliyyət göstərdiyini qəbul etməsin. Növbəti keyfiyyət şəxsiyyətin fəlsəfi strukturunun (çoxsəviyyəli) xarakteri, onun mürəkkəbliyi ilə şərtlənir. Sözügedən cəhət hələ Freydin psixoanaliz nəzəriyyəsində irəli sürülmüş, sonra isə daha da genişlənərək, şəxsiyyətin əsas göstəricilərindən birinə çevrilmişdir. Şəxsiyyətin sistemli təhlilində həm də çoxtərəfli təsir imkanlarının olması mühüm yer tutur. Sistemliliyin bu xassəsi ğöstərir ki, insan orqanizmi çoxtərəfli səciyyə daşıyır, özü də bütövlükdə orqanizm ilə onun ayrı-ayrı ünsürləri arasında mexaniki deyil, məhz üzvi əlaqələr mövcuddur. Buna görə də onu təsvir etməyin imkanları da çox genişdir.

Ümumilikdə götürdükdə insanşünaslıqda sistemlilik metodologiyası aşağıdakı ideyaya əsaslanır. Şəxsiyyətin öyrənilməsində çıxış nöqtəsi rolunu onun bədən quruluşuna malik olan obyekt kimi götürülməsi deyil, onun həyatını ifadə edən müxtəlif sistemlər oynayır. Bununla da ənənəvi fəlsəfədə və psixologiyada uzun müddət əsas yer tutmuş antroposentrizm meyli aradan qaldırıldı. Həmin yanaşmaya görə fərd insanın bioloji növündən, şəxsiyyət cəmiyyətdən, fərdilik insan nəslinin özünəməxsusluğundan hasil edilirdi. Sonra isə fərdlər arasındakı fərqlər mümkün qədər dəqiq qeyd olunur və individ növün əlavəsi kimi təsvir edilir, şəxsiyyət cəmiyyətə yenidən «qaytarılırdı», bioloji və sosial aləm arasındakı fərqlər isə fərdi xüsusiyyətlər baxımından izah edilirdi.

Müasir elmi ədəbiyyatda şəxsiyyətin tədqiqinin sistemli təhlili metodologiyasının əsas müddəaları işlənib hazırlanmışdır. Onlar aşağıdakılardır:

1. İnsan müxtəlif sistemlərə daxil olub, onların ünsürü kimi çıxış edir, o həmin sistemlərə məxsus olan müxtəlif keyfiyyətləri mənimsəyir və ifadə edir;
2. Şəxsiyyəti yalnız fiziki, bioloji və sosial sistemlərin təkamülü prosesində götürməklə düzgün öyrənmək və anlamaq olar;
3. Müxtəlif sistemlərin məqsədli deferminasiyasının təhlil edilməsi, o cümlədən, məqsədyönlülük sistemlərinin yaranması, fəaliyyəti və inkişafının tədqiq olunması insanın anlaşılmasının zəruri məqamını təşkil edir;
4. Sistemli metodologiya şəxsiyyət fenomeninin yaranması zəruriliyini, təbiətin və cəmiyyətin inkişafı prosesində onun rolunu araşdırmağı tədqiqatın əsas vəzifəsi kimi götürür;
5. Sistemli təhlil labüddən sistemlərin elə əsaslarını arayır ki, insanın təbiətlə, cəmiyyətlə və özü-özü ilə qarşılıqlı təsiri onların vasitəsilə həyata keçirilir (69, s.76),

İdrak tarixində və adi həyatda şəxsiyyətin anlaşılmasına dair çoxlu baxışların mövcudluğu zəminində çoxölçülülük şəxsiyyətin həqiqi mahiyyət xarakteristikası kimi çıxış edir. Şəxsiyyətin anlaşılmasında çıxış nöqtəsi rolunu oynayan çoxölçülü yanaşma fəlsəfi fikir tarixində hələ qədimdə təşəkkül tapmış və sonralar böyük təkamül yolu keçmişdir. Gerçəkliyin hansı tərəfinin öyrənilməsinə yönəlməsindən asılı olmayaraq idrak, özünün bütün tarixi mərhələlərində, insan şəxsiyyəti fenomeninə xüsusi diqqət yetirmiş, onunla bağlı olan aşağıdakı məsələləri həll etməyə çalışmışdır: insanın dünyada yeri, onun mənşəyi, amalı, ləyaqəti, həyatının mənası, tarixdə rolu, onun unikallığı və tipikliyi, azad seçiminin hüdudları və məsuliyyəti, insanın həyat fəaliyyətində keçmişin, indinin və gələcəyin əlaqələndirilməsi.

Şəxsiyyətin çoxölçülü xarakter daşıması üzündən ayrı-ayrı dövrlərdə mütəffəkirlər bir qayda olaraq onun varlığının bu və ya digər tərəfini ön plana çəkmişlər, nəticədə digər səpkilər ya kölgədə qalmış, ya da onlara ümumiyyətlə diqqət yetirilməmişdir. Tarixi-fəlsəfi təhlil sübut edir ki, şəxsiyyət probleminin formalaşması və təkamülü prosesində aşağıdakı əsas istiqamətlər özünü göstərmişdir:

1. Şəxsiyyətin obyekt-subyekt baxımından izah edilməsi. Bu mövqedəen çıxış edən filosoflar insanın əşyalar aləmində spesifik yer tutan əşya kimi təbiətdə və cəmiyyətdə yarandığını israr etmişlər (metafizik materializmin, nozitivizmin və praqmatizmin nümayəndələri). Onların bir qismi şəxsiyyəti dünyanı yaradan, gercəkliyi və gələcəyi müəyyənləşdirən yaradıcı qüvvə kimi nəzərdən keçirmişlər (Xristianlıq, həyat fəlsəfəsi, fəlsəfi antropologiya, ekzistensializm, personalizm).
2. Determinist – indeterminist orientasiya. Birinci, şəxsiyyəti təbii və ya sosial səbəblər əsasında dərk edərək göstərir ki, onun fəaliyyəti xarici və daxili amillərlə şərtlənir. Bu xəttin, ifrat tərəfdarları insanda hər şeyin irəlicədən müəyyənləşdiyini israr edən fatalizm mövqeyinə gəlib çıxırlar (antik dövrün materialistləri, yeni dövrün bir çox mütəffəkkirləri, karteziançılıq, pozitivizim). İndeterministlər isə sübut etməyə çalışırdılar ki, insanın fəaliyyəti avtonom və spontan xarakter daşıyır. Onun hərəkət və əməlləri iradə ilə müəyyən olunur, şəxsiyyətin taleyinin seçilməsində onun yetişdiyi mühit və yaxud irsiyyət göstəriciləri deyil, məhz özü məsuliyyət daşıyır (həyat fəlsəfəsinin bəzi nümayəndələri, ekzitensializm, neopozitivizm).

3. Monoloji – dialoji orientasiya. Monoloji izahın tərəfdarları insan ilə dünyanı bir-birindən ayrı götürür, antroposentrizm mövqeyindən çıxış edirdilər (monadologiya, fəlsəfi antropologiya və pozitivizmin bəzi nümayəndələri). İkinci baxışı müdafiə edənlər isə şəxsiyyəti kommunikasiya ilə əlaqəli, şəxsiyyətlərarası və şəxsiyyətdaxili ünsiyyətdə və dialoqda götürür, ona subyektin başqa insanlarda varlığının xüsusi forması kimi, obyekt və subyekt formalarında çıxış edən varlıq kimi yanaşırdılar (Feyerbax, M.Buberin ekzistensializmi, İ.Laka-nin şəxsiyyətin strukturalist konsepsiyası, humanitar idrakın dialoqu konsepsiyası və s.).

Deyilənlərlə yanaşı, şəxsiyyətin öyrənilməsində struktur funksionalizm (funksionalizm, strukturalizm), tarixi-genetik istiqamət (klassik alman fəlsəfəsi, marksizm, yenikantçılıq cərəyanın nümayəndələri), ssiyentik (nozitivizm) və hermenevtik istiqamət (E.Qusserlin fenomenologiyası, anlayan sosiologiya və s.) də özünü göstərmişdir. Müasir dövrün fəlsəfi fikrində yuxarıda qeyd olunan cərəyanlar bu və ya digər dərəcədə davam etməkdədir. Onlarla yanaşı, şəxsiyyətin anlaşılmasında modernist istiqamətlər də əsas yer tutmaqdadır. Sonunculara misal olaraq antropolojiləşməyə, humanistləşməyə və praqmatik fəlsəfəyə olan meyilləri göstərmək olar.

Şəxsiyyət fenomeninin çoxtərəflili və mürəkkəb xarakteri cəmiyyətin və eləcə də ayrılıqda götürülmüş hər bir insanın inki-şafında müxtəlif və rəngarəng obyektiv amillərin mövcudluğu ilə şərtlənir. Buradan da şəxsiyyət probleminin fənnlərarası tədqiqat obyekti statusu və onun təhlilində fəlsəfənin inteqrativ funksiyasının əsas yer tutduğu müddəası irəli gəlir. Şəxsiyyəti, in-sanı öyrənən ənənəvi elmlər (psixologiya, sosiologiya, antropo-

logiya, etnoqrafiya, tarix və s.) sistemində fəlsəfənin artmaqda olan rolu hər şeydən əvvəl onunla şərtlənir ki, o yuxarıda adı çəkilən elmləri düzgün metodologiya ilə silahlandırır, şəxsiyyətin anlaşılmasında onların hər birinə ayrı-ayrılıqda xas olan birtərəfliliyi və məhdudluqları aradan qaldırır, vahid inteqrativ şəxsiyyət konspesiyasını işləyib hazırlamağı özünün başlıca amalı hesab edir.

Şəxsiyyətə tarixi-təkamül baxımından yanaşma prosesində istifadə olunan ümumsistem xarakterli prinsiplər sırasında bunlar xüsusilə mühümdür: proqressiv təkamülün meyarı kimi götürülən sistemin elementlərinin variativliyinin artması; təkamülə uğrayan sistemlərin inkişafını, onların adaptasiyasını və dəyişkənliyini təmin edən vacib şərt kimi onlarda özünü göstərən sabitlik və dəyişkənlik meyillərinin qarşılıqlı təsiri, təkamül yolu keçən sistemlərin mövcudluğunun qeyri-müəyyən böhranlı situasiyalarında onların variativliyini və ehtiyatlarını təmin edə bilən yenidən adaptasiyaedici artıq elementlərin yaranması prinsipi; təkamül edən sistemin artıq elementlərinin adaptasiyaedici aktivliyinin həmin sistemin adaptiv aktivliyinə çevrilməsi prinsipi; təkamül edən sistemin yenidən adaptasiyaedici artıq elementlərinin qeyri müəyyən xarakterli böhranlı situasiyalarda sistemin inkişafının gələcək istiqamətinin seçilməsinə təsirinin artması prinsipi (8, s.96-105).

İnsanın mürəkkəb və çoxtərəfli səciyyə daşıdığı haqda fikir fəlsəfədə o qədər də təzə məsələ olmasa da keçmiş təlimlərin bir çoxunda şəxsiyyəti təşkil edən tərkib hissələrinin təsviri əsas yeri tuturdu, beləliklə də onun strukturluğu bir növ kölgədə qalırdı. Belə təsəvvür olunurdu ki, şəxsiyyət müxtəlif keyfiyyətlərin və əlamətlərin mexaniki məcmusu, konqlomeratıdır.

Digər obyektlərdə olduğu kimi şəxsiyyətin öyrənilməsində də sistemli təhlil metodologiyası aşağıdakı üç cəhəti əhatə edir: predmet, funksional və tarixi. Birinci cəhət bir-biri ilə əlaqəli iki vəzifəni həll etməyi nəzərdə tutur: a) sistem kimi götürülən şəxsiyyətin əsas komponentlərinin (yarım sistemlərinin) müəyyən edilməsi; b) bu komponentlərin qarşılıqlı əlaqələrinin aşkarlanması.

Funksional cəhət, sistemi təşkil edən elementlərin sahmanlı düzülüş qaydasını və onların qarşılıqlı funksional münasibətlərini əsas götürür. Tarixi cəhət isə başlıca diqqəti sistemin təşəkkülü və inkişafı mərhələlərini araşdırmağa yönəlir.

Şəxsiyyətin sistemli-struktur təhlili metodologiyası aşağıdakı tələbləri irəli sürür:

1)Şəxsiyyətə sistem kimi yanaşılması onun sosial-keyfiyyətlərinin (fəaliyyətinin, şüurunun, ünsiyyətinin, daxili mənəvi fəallığının və s.) sadalanmasına müncər olunmur. Əsas məsələ onların bütöv bir vəhdət halında çıxış edərək şəxsiyyət sistemini necə səciyyələndirdiyini müəyyənləşdirməkdir. Sonuncu vəzifənin həlli öncə onun daxili təşkilini, strukturunu təhlil etməyi nəzərdə tutur. Struktur təhlil öz növbəsində aşağıdakı üç tərəfi əhatə edir: 1) Şəxsiyyətə bütövlük keyfiyyəti verən və beləliklə də onu öz tərkib hissələrinin mexaniki məcmusundan fərqləndirən sistem komponentlərinin daxili qarşılıqlı əlaqələrinin qanynauyğunluqlarının aşkara çıxarılması. Bu ona görə zəruridir ki, məhz öyrənilən obyektin (bu halda şəxsiyyətin) strukturu onun daxili sahmanlı düzülüşünü ifadə edir. Deməli, şəxsiyyətin sistemli bütövlük olmasının şərti məhz onunla bağlıdır. Bu sirri açdıqda isə obyekt sadəcə elementlər məcmusu kimi təsəvvür olunur.

2) Tədqiq olunan obyektin mürəkkəblik səviyyəsini müəyyənləşdirmək, başqa sözlə sistemi təşkil edən komponentlərin (yarımsistemlərin) hansı səviyyədə çıxış etdiyini araşdırmaq. Əgər həmin tərkib hissələri bir səviyyəni əhatə edirsə, onda onlar arasındakı əlaqələr koordinasiya xarakteri kəsb edir. İki və daha çox səviyyələrdə olduqda isə subordinasiya (tabeliilk) tipli əlaqələr özünü göstərir. Bəzən bu iki əlaqə birləşmiş şəkildə çıxış edir. Sonuncu halda obyektin strukturu daha mürəkkəb olur. Burada həm «üfüqi» və həm də «şaquli» amillər çulğalaşır. Şəxsiyyət son dərəcə mürəkkəb obyektlərdən olduğu üçün onun strukturunda bu keyfiyyət özünü göstərir (12, s.15-20).

3) Sözügedən sistemin digər ona yaxın sistemlərlə müqayisə edilməsi. Şəxsiyyət üçün belə sistemlər kimi «insan», «fərd» və «fərdiyyət» çıxış edir.

Məlumdur ki, insanın öyrənilməsində bir-birilə əlaqəli məzmuna malik olan həmin anlayışlardan geniş istifadə olunur. Yuxarıda qeyd edildiyi kimi şəxsiyyət anlayışı insanın məhz cəmiyyətdə yerini,onun sosial keyfiyyətini ifadə edir.

Fəlsəfi ədəbiyyatda şəxsiyyətin ən ümumi və əsas ünsürləri subyekt, obyekt, aktivlik (subyekt tərəfindən obyektə yiyələnmə və yaxud digər obyektlər ilə kommunikativ qarşılıqlı təsiri bərqərar etmə üsulu) kimi səciyyələndirilir (140, s. 51, 149, s.38-39).

Şəxsiyyətin sistemli – struktur təhlilində «fəaliyyət» və «ünsiyyət» kateqoriyaları müstəsna dərəcədə böyük rol oynayır. Məhz onlar şəxsiyyətin mahiyyətini ifadə edən əsas struktur komponentlər kimi çıxış edirlər.

Şəxsiyyət sistemində fəaliyyətin həlledici rolu aşagıdakı ilə izah olunur. Subyekt kimi götürülən şəxsiyyət öz işi və əməlləri ilə yanaşı və onlardan kənarda deyil, məhz onların özündə çıxış edir.

Subyekt öz fəaliyyətini müəyyənləşdirməklə, həm də öz-özünü müəyyənləşdirir.

Şəxsiyyət ilə onun fəaliyyətinin yönəldiyi predmetlər həm praktiki, həm də mənəvi xarakterə malikdir. Yəni bir tərəfdən şəxsiyyətin fəaliyyətinin predmetləri idrakın obyekti kimi çıxış edir, digər tərəfdən isə onlar obyektiv reallıgın dərk olunması səviyyəsinin, insanın maddi və mənəvi qabiliyyətlərinin inkişaf göstəricisidir.

Şəxsiyyətin fəaliyyəti subyektiv ilə obyektiv tərəflərin ayrılmaz vəhdətini və özünəməxsus şəkildə çulğalaşmasını ifadə edir. Akademik T.Oyzerman göstərirdi ki, sosial reallığın spesifikliyi bundadır ki, o təkcə obyektiv olmayıb, subyektiv ilə obyektivin vəhdətidir, başqa sözlə, subyekt-obyekt reallıqdır. Bu əksliklərin vəhdəti, onların qarşılıqlı surətdə bir-birinə keçməsini nəzərdə tutur (196, s. 4).

Ümumi mənada fəaliyyət dedikdə ictimai subyektlərin müxtəlif növləri tərəfindən öz mövcudluğu və inkişafını təmin edən şərait yaratmaq naminə sosial reallığı yeniləşdirməsi başa düşülür. Vaxtı çatmış ictimai tələbatları, müvafiq məqsəd və vəzifələri əks etdirən bu mürəkkəb proses ümumsosioloji qanunlar üzrə baş verir, insanın ictimai mahiyyətini, onun rəngarəng və çoxfunksiyalı təbiətini ifadə edir. Öz məzmununa görə yaradıcı xarakter daşıyan fəaliyyət cəmiyyətdəki bütün obyektiv və subyektiv amillər sisteminin, ictimai münasibətlərin və sosial institutların, onların iş mexanizminin, habelə şəxsiyyətin şüurunun və bütövlükdə təfəkkür tərzinin inkişafının hərəkətverici qüvvəsi rolunu oynayır.

Elmi ədəbiyyatda fəaliyyətə müxtəlif təriflər verilir. Məsələn, psixologiyada aşağıdakı tərif geniş yayılmışdır. Fəaliyyət subyekt ilə dünyanın qarşılıqlı təsirinin elə bir dinamik, özüinkişaf edən

iyerarxik sistemidir ki, bu prosesdə psixiki obraz yaranır və həmin psixiki obraz subyektin predmet gerçəkliyindəki münasibətlərinin yaranmasını, dəyişdirilməsini və təcəssümünü vasitələndirir (69, s.112).

Filosoflar arasında da fəaliyyətin müəyyənləşdirilməsində birmənalılıq, demək olar ki, yoxdur. Ayrı-ayrı müəlliflər fəaliyyətin bu və ya digər tərəfini ön plana çəkir və onu müəyyənedici amil kimi qiymətləndirirlər. Fəlsəfi ədəbiyyatda fəaliyyətin aşağıdakı tərifi geniş yer tutur. „Fəaliyyət cəmiyyətin və insanın mövcudluğu və inkişaf üsulu olmaqla, onun tərəfindən təbii və sosial reallığın (özü də daxil olmaqla) öz tələbatları, məqsədi və vəzifələrinə müvafiq surətdə ümumi dəyişdirilməsi prosesidir" (79, s.63).

Deyilənlər sübut edir ki, şəxsiyyəti yalnız subyekt – dünya qarşılıqlı münasibətləri kontekstində düzgün anlamaq olar. Bu mövqedən hər cür kənara çıxmaq cəhdləri labüddən uğursuzluğa məhkumdur və şəxsiyyətin təşəkkülü, fəaliyyəti və inkişafı proseslərinin mexanizmini və qanunauyğunluqlarını açmaqda acizdir.

Qeyd etmək lazımdır ki, şəxsiyyətə fəaliyyət mövqeyindən yanaşılması, onun öyrənilməsinin digər metodoloji prinsiplərini bir kənara atmır, onlardakı müsbət cəhətləri götürüb inkişaf etdirir.

Öz məzmunu etibarilə son dərəcə mürəkkəb xarakter daşıyan şəxsiyyəti fəaliyyət mövqeyindən izahetmə metodologiyası bir sıra prinsipləri əhatə edir. Müasir psixoloji ədəbiyyatda, onlar aşağıdakı kimi qruplaşdırılır: fəaliyyətin obyektli və predmetli determinasiyası, onun reaktiv və aktiv təşkili prinsipi; adaptiv və qeyri-adaptiv tiplərin əlaqələndirilməsinin şəxsiyyətin fəaliyyətinin inkişafının zəruri şərti olması prinsipi; interiorizasiyanın (eksteriorizasiyanın) şəxsiyyət tərəfindən ictimai-tarixi təcrübənin

mənimsənilməsi mexanizmi olması prinsipi; vasitələnmə və siqnifikasiyanın (işarələrin yaradılması və işlədilməsi) insanın davranışının idarə olunması və özünütənzimi mexanizmləri kimi götürülməsi prinsipi; psixiki obrazın fəaliyyət strukturunda inikas etdirilən obyektin yerindən asılılığı və motivlərlə bağlılığı; elementlər üzrə təhlilin vahidlər üzrə təhlil ilə əvəzlənməsi prinsipi (66, s.114-157).

Son dövrlərin fəlsəfi, psixoloji və sosioloji ədəbiyyatında bəzən belə bir fikrə rast gəlinir ki, sosial hadisələrin öyrənilməsinə fəaliyyət mövqeyindən yanaşılması metodoloji prinsipi artıq özünü doğrultmur. Əslində bu qəbildən olan cəhdlər marksizmin fəaliyyət nəzəriyyəsinə qarşı yönəlmişdir. Lakin «Voprosı filosofii» jurnalının filosoflar və psixoloqlar arasında keçirdiyi elmi müzakirələrin (164, s.60) nəticələri sübut etmişdir ki, fəaliyyət mövqeyindən təhlil prinsipi bu gün də öz əhəmiyyətini itirməmişdir. Əsas məsələ bu anlayışdan birdəfəlik imtina etməkdə deyildir. Bundadır ki, fəaliyyətin marksist izahına xas olan birtərəflilik və nöqsanlar aradan qaldırılmalı, onun müsbət cəhətləri və üstünlüklərindən istifadə edilməlidir. Sosial hadisələrin araşdırılmasında fəalliyyət anlayışının yaratdığı belə müsbət cəhətlər və üstünlüklər isə kifayət qədərdir. Xüsusilə də cəmiyyətin əsaslı və hərtərəfli dəyişikliklərə uğradığı indiki şəraitdə sosial həyat hadisələrinin anlaşılmasında fəaliyyət anlayışı mühüm yer tutur. Söhbət şəxsiyyət kimi mürəkkəb fenomenin təhlilindən getdikdə isə fəaliyyət kateqoriyasının metodoloji əhəmiyyəti birə on qat artır.

Şəxsiyyətin fəaliyyətinin daxili məzmunu xeyli dərəcədə mürəkkəb olub, aşağıdakı əsas yarımsistemlərdən ibarətdir: a) fəaliyyətin konkret subyekti və obyekti; b) onun həyata keçiril-

məsinin üsulları və vasitələri; q) fəaliyyətin törətdiyi nəticələr; d) fəaliyyətin konkret məzmununu və istiqamətlərini, onun subyektlərinin əlaqəsi üsulunu şərtləndirən sosial mühit; e) ayrı-ayrı fəaliyyət növlərinin məhsullarının qarşılıqlı mübadiləsi sistemi; f) fəaliyyətin idarəedilməsi mexanizmi, ictimai və fərdi şüurda onun sövqedici motivlərinin düzgün istiqamətdə formalaşdırılması və s.

Marksist fəlsəfənin hökmranlığı dövründə belə bir birtərəfli təsəvvür formalaşmışdı ki, şəxsiyyətin maddi-istehsal fəaliyyəti həlledici əsasdır, qalan fəaliyyət növləri isə bununla müəyyən olunur və ona xidmət edir. Əslində isə insan fəaliyyətinin məzmunu təkcə əşya və maddi nemətlər istehsalı ilə məhdudlaşmır. O, geniş əhatə dairəsinə malik olub, sosial reallığın digər sahə və formalarını (ictimai münasibətləri və həyat fəaliyyəti formalarını, müxtəlif qəbildən olan təşkilatların və institutların fəaliyyətinin tənzim olunması mexanizmini, ictimai şüuru, bilikləri, əsas dəyərlər sistemini və s. də əhatə edir. Səciyyəvi cəhət həm də budur ki, müasir dövrdə fəaliyyətin subyektlərinin bütün səviyyələrində (ayrıca bir fərd, sosial birlik forması və bütövlükdə cəmiyyət və bəşəriyyət miqyasında) yuxarıda qeyd olunan tərəflərin xüsusi çəkisi və əhəmiyyəti artmaqdadır.

Məqsədyönlü xarakter daşıyan fəaliyyət prosesində təkcə şəxsiyyətin tələbatları ödənilmir. O, həm də aşağıdakı mühüm sosial funksiyanı yerinə yetirir: özündə keçmiş nəsillərin praktikasının nəticələrini və gələcək nəsillərin görəcəyi işin əsas istiqamətlərini ifadə etməklə, sözün geniş mənasında götürülən sosial təcrübəni və vərdişləri nəsldən-nəslə ötürür, beləliklə də, nəsillərarası sosial varisliyi həyata keçirir.

Müasir fəlsəfi-sosioloji ədəbiyyatda şəxsiyyətin fəaliyyətinin təhlilinə müxtəlif aspektlərdən yanaşılır ki, bu həmin anlayışın son

dərəcə geniş məzmuna və çoxpilləli səviyyələrə malik olması ilə şərtlənir: fəaliyyətin ictimai həyat sferalarına görə təsnifatı, cəmiyyətin sosial strukturunun əsas göstəriciləri baxımından fəaliyyətin bölgüsü; fəaliyyətin ictimai münasibətlər sistemi və sosial institutların şəbəkəsi baxımından təsnifatı; insan nəslinin istehsalı və təkrar istehsalı göstəriciləri (doğum, əhali artımı, tələbatların ödənilməsi, elm, təhsil, tərbiyə, səhiyyə və s.) üzrə fəaliyyətin təsnif olunması və sair. Sözün məhdud mənasında götürülən sosial fəaliyyət dedikdə müxtəlif sosial qruplarda, milli-etniki birliklərdə, habelə, çoxnövlü siyasi təşkilatlarda və institutlarda təmsil olunmuş şəxsiyyətin öz müvafiq kollektivlərinin tələbat və mənafelərini, məqsədlərini ödəməyə yönələn aktiv dəyişdirici və yeniləşdirici hərəkətlərinin və əməllərinin məcmusu başa düşülür. Şəxsiyyətin fəaliyyətinin effektivliyi, onun nəticələrinin miqyası və əhəmiyyəti bir sıra amillər kompleksi ilə müəyyən olunur. Onların sırasında konkret obyektiv şərait, fərdlərin professionallıq səviyyəsi və məharəti, onların şüurluluq göstəriciləri, öz maraq, məqsəd və vəzifələrini dərk etmə səviyyəsi xüsusi yer tutur. İnsanın çoxtərəfli sosial fəaliyyəti gedişində bir tərəfdən yeni sosial reallıq yaranır, digər tərəfdən isə şüurun qabaqlayıcı funksiyası yerinə yetirilir, yəni bu günkü həyatda olmayan, gələcək, ideal ictimai formalar müəyyənləşdirilir. Bu prosesdə təkcə ictimai münasibətlər sistemi yeniləşmir, həm də yeni birgə yaşayış qaydaları, normalar və dəyərlər sistemi qərarlaşır, insanın özü şəxsiyyət kimi inkişaf edir.

Şəxsiyyəti sistem kimi öyrənərkən onun mahiyyətini ifadə edən bütün tərəflərə diqqət yetirmək tələb olunur. Əks halda natamamlıq və birtərəflilik özünü göstərə bilər. Bu mənada göstərilməlidir ki, fəaliyyət onun mahiyyətini anlamaqda nə qədər

böyük rol oynasa belə, şəxsiyyəti təkcə fəaliyyətdən ibarət hesab etmək olmaz. Müasir elmi ədəbiyyatda haqlı olaraq şəxsiyyətin fəaliyyəti və ünsiyyətinin sıx vəhdətdə və qarşılıqlı təsirdə olduğu göstərilir. Məsələn, V.Rozin qeyd edir ki, onların qarşılıqlı təsiri fəaliyyət vasitəsilə olur, unsiyyət isə fəaliyyətə qovuşur, müəyyən hallarda hətta onun özü də fəaliyyətə çevrilir (202, s.97).

Şəxsiyyətin daimi cəlb olunduğu ünsiyyət prosesi bir növ ictimai münasibətlərin fərdiləşmiş forması, şəxsi-psixoloji prizmada konkretləşməsi kimi çıxış edir. Buna görə də ictimai münasibətlərin ünsiyyət təzahürünün məzmunu bir çox cəhətdən şəxsiyyətin xarakteri, sosial təcrübəsi və xüsusiyyətləri ilə müəyyən olunur. Müxtəlif şəxsiyyətlərin öz sosial rolunu yerinə yetirməsi, onlar tərəfindən ictimai vəzifələrin düzgün başa düşülməsindən, onların həllində öz yeri və rolunu anlamasından, fərdi keyfiyyətlərə uyğun olaraq onların həllinə bəslədikləri münasibətdən, konkret situasiyadan, bir sözlə obyektiv və subyektiv amillərin bütöv bir kompleksindən asılıdır.

İstənilən sosial birlik götürülürsə, götürülsün, onun tərkibi həmin birliyin ümumi mənafelərini müxtəlif səviyyədə başa düşən ayrı-ayrı şəxsiyyətlərdən ibarətdir. Ayrıca bir şəxsiyyət tərəfindən və yaxud bütövlükdə birlik tərəfindən ictimai, sinfi, kollektiv xarakterli dəyərlərin, məqsədlərin, vəzifələrin və idealların başa düşülməsi səviyyəsi məhz real ünsiyyət prosesində təzahür edir. Nəzərdə tutmaq lazımdır ki, şəxsiyyət – cəmiyyət münasibətlərinin təhlilində həmin prosesin müxtəlif formalarında şəxsiyyətin, ayrı-ayrı müvafiq tərəfləri aktivləşdirilir və inkişaf etdirilir. Göstərilməlidir ki, bu tərəflər cəmiyyət və şəxsiyyət baxımından eyni əhəmiyyət kəsb etməyə bilər. Bu münasibətdə şəxsiyyətin inkişafı üçün ən mühüm olanı müxtəlif fəaliyyət proseslərində,

birinci növbədə əməkdə, həyata keçirilən ünsiyyət hesab olunmalıdır. Sözügedən vəziyyətdə ünsiyyətin zəruriliyi insanlar arasında funksional əlaqələrin yaranması vacibliyi ilə şərtlənir və şəxsiyyətin əsas mahiyyət keyfiyyətlərini (qabiliyyətini, biliyini, bacarıq və vərdişlərini, fəaliyyət motivini, dəyərlər orientasiyasını ustanovkalarını və sair) maksimum şəkildə özündə əhatə edir.

Ünsiyyət öz məzmunu və strukturuna görə çox mürəkkəb kateqoriyalardan biridir. Onu psixologiya, sosial psixologiya, mədəniyyətşünaslıq və başqa elmlər də öyrənir. Ünsiyyətin fəlsəfi anlamı onu bir subyekt ilə digər subyekt arasında qarşılıqlı təsirin və qarşılıqlı münasibətlərin çox mühüm forması kimi nəzərdən keçirir. Şəxsiyyətin ünsiyyətinin daxili məzmununda bir-birilə əlaqəli olan, eyni zamanda müəyyən özünəməxsusluğu ilə seçilən aşağıdakı əsas tiplərini göstərmək olar: maddi-praktiki ünsiyyət, mədəni-informasiya xarakterli ünsiyyət və mənəvi-praktiki ünsiyyət. Birinci tip, şəxsiyyətin həyat fəaliyyətində çox mühüm rol oynayır. Burada ünsiyyət prosesində iştirak edənlərin ümumi məqsədi və fəaliyyəti ilə bağlı real hərəkətlər əhatə olunur. Lakin ünsiyyətin bu tipi təkcə maddi tərəflə məhdudlaşmır, həm də mənəvi keyfiyyət daşıyır. Bu onda təzahür edir ki, heyvanlardan fərqli olaraq insanların birgə fəaliyyəti instiktiv xarakterli proses deyil, şüurlu məqsədyönlü prosesdir. Maddi praktiki ünsiyyətin mənəvi təbəqəsi tələbatların müəyyən olunmasından başlayaraq, bir sıra psixoloji mexanizmləri əhatə edir (məqsəd, mənafe, ustanovkalar və s.).

Eynilə də mənəvi ünsiyyət daxilən çoxtərəflidir. Burada informasiya xarakterli təbəqə ilə psixoloji təbəqə çox sıx əlaqəlidir. Ünsiyyətin mənəvi-praktiki növü daha çox bədii və qini ünsiyyət formalarında təzahür edir.

Bəzən fəlsəfi və psixoloji ədəbiyyatda ünsiyyət və kommunikasiya anlayışları sinonim kimi işlənilir. Bu, onların mənaca çox yaxın olmasından irəli gəlir. Belə ki, kommunikasiya sözü də latın mənşəli olub, «əlaqə» mənasını verir. Lakin kommunikasiya və ünsiyyət anlayışları nə qədər yaxın olsalar da onlar arasında müəyyən fərqlər nəzərə çarpır. Hər şeydən əvvəl ünsiyyət daha geniş anlayış olub, praktiki, maddi, mənəvi, informasiya xarakterli sahələri əhatə edir. Kommunikasiya isə əsas etibarilə bu və ya digər məlumatların ötürülməsini ifadə edən xalis informasiya xarakterli proses kimi çıxış edir. O, subyektin bu və ya digər obyektlərlə (insan, maşın, heyvan və s.) informasiya əlaqəsidir. Bu əlaqənin məzmunu aşağıdakı kimidir: subyekt müəyyən informasiyanı (bilik, ideya, işgüzar məlumatlar, faktiki göstəricilər, əmrlər və sair) onu qəbul edən obyektə ötürür. Sonuncu bu halda bir növ passiv qəbuledici rolunu oynayır. Beləliklə, kommunikasiya bir istiqamətli, bir xətt üzrə gedən prosesdir. Ünsiyyət isə bundan fərqli olaraq subyektlər arasında çoxtərəfli, qarşılıqlı əlaqə və təsirləri ifadə edir. Başqa sözlə, ünsiyyət subyektlərarası qarşılıqlı təsirin simmetrliyinə əsaslanır. Buradan aydın olur ki, ünsiyyət burada iştirak edən insanlar üçün ümumi olan yeni informasiyanın işlənib hazırlanması prosesidir (139, s.149).

Ünsiyyət çoxtərəfli və mürəkkəb xarakter daşımaqla, özündə aşağıdakı prosesləri ehtiva edir: fərdlərin qarşılıqlı təsiri prosesi; informasiya prosesi; insanların bir-birinə münasibəti; insanların bir-birini hiss etməsi və qarşılıqlı surətdə bir-birini anlaması prosesi (200, s.178).

Ünsiyyət prosesinin aşağıdakı tərkib hissələri vardır: ünsiyyətin predmeti; ünsiyyətə olan tələbat; ünsiyyətin kommunikativ

motivləri; ünsiyyəti ifadə edən əməl və hərəkətlər; ünsiyyətin vəzifələri; ünsiyyətin həyata keçirilməsi vasitələri və ünsiyyətin nəticələri və məhsulları (167, s.13).

Fəaliyyət kimi ünsiyyət də həm cəmiyyətin, həm də şəxsiyyətin mövcudluğu və inkişafının ən ümumi və zəruri şərtidir. Hər cür fəaliyyət insanın müəyyən ünsiyyət formalarına daxil olmasını nəzərdə tutur. Öz daxili məzmunu baxımından ünsiyyət təkcə mənəvi proses olmayıb, həm də insanların fəaliyyət nəticələrinin, təcrübəsinin, vərdiş və bacarıqlarının mübadiləsini əhatə edən çoxtərəfli sosial prosesdir. Maddi və mənəvi mədəniyyət nümunələri hər cür ünsiyyət formalarının (özü də təkcə yetkin şəxsiyyətlərin deyil, habelə yetişməkdə olan gəncin) vasitəsi rolunu oynayır. Şəxsiyyətlərin ünsiyyəti mənəvi fəaliyyətin nəticələrini (ideyalar, rəylər, dəyərlər, ideallar) əhatə etməklə məhdudlaşmır, həm də maddi əşyalar (əmək alətlərini, predmetləri və vasitələri) əks etdirir.

Ünsiyyətin sosial-praktiki aspektinin çox mühüm tərəfini fəaliyyət subyekti kimi şəxsiyyətin formalaşmasında oynadığı böyük rol təşkil edir. Ünsiyyət prosesində şəxsiyyətlərin rasional, emosional və iradi göstəricilərinin qarşılıqlı təsiri baş verir, onların əhvali-ruhiyyələrinin, fikir və baxışlarının ümumiliyi formalaşır, qarşılıqlı anlaşması və həmrəyliyi yaranır. Ünsiyyət həm də şəxsiyyətin davranışının sosial determinasiyası kimi mürəkkəb prosesin çox mühüm amilidir. Bundan əlavə o, şəxsiyyətin şüurunun və mənlik şüurunun formalaşmasının ən mühüm şərtlərindən biri, bütövlükdə onun inkişafının stimulyatorudur.

Ünsiyyət, ictimai münasibətlərin bir növ fərdiləşmiş forması, onların şəxsi – psixoloji konkretləşməsi kimi çıxış etdiyindən, həm də müəyyən nisbi müstəqilliyə malikdir. Belə ki, ictimai

münasibətlərin ünsiyyət dairəsində təzahürünün spesifikliyi, şəxsiyyətin xarakteri, sosial təcrübəsi və xüsusiyyətləri ilə müəyyən olunur. Müxtəlif şəxsiyyətlərin öz sosial rollarını yerinə yetirməsi isə onlar tərəfindən öz ictimai vəzifələrini, cəmiyyətdə yerini anlamaları səviyyəsindən, onlara bəslədiyi şəxsi münasibətlərdən, konkret şəraitdən, obyektiv və subyektiv amillər məcmusundan asılıdır.

Beləliklə, ünsiyyətin sosial məzmunu şəxsiyyətin və kollektivin fəaliyyətinin sosial istiqamətliliyi predmet-funksional əlaqələri, dəyər orientasiyaları, onların münasibətlərini tənzim edən formalar ilə müəyyən olunur. Bu tamamilə təbiidir, çünki şəxsiyyəti onun hərəkət və əməllərindən, fəaliyyətindən süni surətdə təcrid etmək olmaz. Şəxsiyyət şəxsiyyətlərarası kommunikasiya prosesində müxtəlif fəaliyyət formalarının əlaqələndirilməsi prosesində yetişir (55, s.66). Kitabin bu bölməsində verilən təhlilin əsas nəticələrini aşağıdakı kimi göstərmək olar:

1. Şəxsiyyət fenomeninin son dərəcə mürəkkəb və çoxölçülü xarakter daşıması onun araşdırılmasında sistemli-struktur təhlil metodologiyasının tətbiqini zəruri edir. Əks halda onun kompleks və hərtərəfli tədqiq olunması xoş arzudan başqa bir şey deyildir.

2. Şəxsiyyətə sistem kimi yanaşılması nəticəsində alınan məlumatlar onu araşdırmağın funksional səpkisinə keçməyə imkan verir. Bu halda sözügedən sistem daha geniş həcmli metasistemin nisbi müstəqil yarımsistemi kimi götürülür. Funksional səviyyədə aparılan təhlil daxili və xarici formalara malik olur. Birinci forma sistemin daxili komponent tərkibi və strukturu ilə qarşılıqlı şərtlənməsini öyrənir, yəni bu halda onun elementlərinin «qarşılıqlı birgə təsirinin araşdırılması» əsas yeri tutur. Xarici funksional təhlil isə sistemin mühit ilə birbaşa və əks

əlaqələrini, onlar arasındakı maddələr və enerci mübadiləsini açıqlayır. Sistem ilə mühit arasında əlaqələr qarşılıqlı determinasiya ilə səciyyələnir,yəni sistemin adaptasiyaya uğrayıcı və adaptasiya edici fəallığını vəhdətdə ğötürür.

3. Digər mürəkkəb sosial hadisələrdə olduğu kimi şəxsiyyətin öyrənilməsində də sistemli yanaşma həm də tarixi amili ehtiva edir. Sonuncunun əhəmiyyəti bundadır ki, o komponent – struktur təhlilə xas olan mücərrədliyi aradan qaldırır, ona konkretlik və reallıq məzmunu verir. O, sosial və inkişaf etməkdə olan sistemlərin təhlilində xüsusilə vacibdir. Şəxsiyyət sisteminə tarixi müstəvidə yanaşılması bir-birilə əlaqəli iki tərəfi (genetik və proqnostik)əhatə edir. Birincisi onun yaranması, formalaşması və tədqiqat obyekti kimi seçildiyi dövrə qədər keçdiyi yolu öyrənir. Şəxsiyyətə proqnostik mövqedən yanaşmaq, onun mümkün olan, nəzərdə tutulan və irəlicədən gözlənilən inkişaf perspektivlərinin aşkar edilməsi ilə bağlıdır.

4. Fəaliyyət anlayışı şəxsiyyət ilə cəmiyyət arasındakı çoxsəviyyəli və çoxtərəfli əlaqələrin vəziyyətinin elmi təhlilində və onun perspektivlərinin düzgün proqnozlaşdırılmasında, ictimai həyatın əsas tərəfləri arasında subordinasiya, koordinasiya və korelyasiya əlaqələrinin aşkarlanmasında misilsiz rol oynayır.

5. Müasir cəmiyyətdə ictimai mülkiyyətin ləğv edilməsi, mülkiyyətin yeni və bərabərhüquqlu formalarının yaranması, xüsusi mülkiyyətin rolu və əhəmiyyətinin artması nəticəsində fəaliyyətin ictimai və fərdi formalarının nisbəti əhəmiyyətli dərəcədə dəyişilir. Şəxsiyyətin strukturunda fəaliyyətin yeri və rolunu elmi-nəzəri planda mənalandırarkən bu məqamı nəzərə almaq vacibdir. Daha dəqiq deyilsə, yuxarıda göstərilən proseslər intensivləşdikcə, fəaliyyətin fərdi və qrup formalarının, müxtəlif

səhmdar cəmiyyətlərinin birlik və şirkətlərin ümumi məhsul istehsalında xüsusi çəkisi çoxalır. Digər tərəfdən onlarda çalışan şəxsiyyətlər arasındakı münasibətlər durmadan təkmilləşir.

6. Müasir dövrdə şəxsiyyətin fəaliyyətində baş verən dəyişikliklərin əsas istiqaməti budur ki, indi fəaliyyət getdikcə daha çox bilik və informasiya ilə yaxınlaşır. Buna görə də hazırda fəaliyyət ilə kommunikasiyanı (ünsiyyəti) bir-birinə qarşı qoymaq doğru olmaz. Bu həm də ona görə mümkün deyildir ki, sözün müəyyən mənasında ünsiyyətin özünü də fəaliyyətin bir növü kimi göstərmək olar. Müasir şəxsiyyətin kollektivdəki fəaliyyəti öz iş yoldaşlarının fəaliyyəti ilə ayrılmaz əlaqələrdə çıxış edir. Odur ki, onu həm də kommunikasiya kimi anlamaq mümkündür. Belə şəraitdə kollektivin bütün üzvləri daim bir-birilə ünsiyyətdə olur, özlərinə necə deyərlər, başqalarının gözü ilə baxmağa öyrənirlər (164, s.60).

Bu metodolji prinsipləri əldə rəhbər tutaraq növbəti bölmədə müasir şəxsiyyətin mahiyyəti və səciyyəvi cəhətləri təhlil olunur.

## 1.4. Şəxsiyyətinin sosial-fəlsəfi təhlilinin əsas metodoloji prinsipləri

Müasir dövr şəxsiyyət probleminin müxitəlif istiqamətlərinin elmi sintezi yolu ilə vahid şəxsiyyət nəzəriyyəsinin yaradılmasını təkidlə tələb edir. Bu, hər şeydən əvvəl onunla izah edilir ki, açıq cəmiyyət qurulması vəzifələrini uğurlu həll etmək üçün hər bir şəxsiyyətin malik olduğu potensialı tam dolğunluğu ilə və hərtərəfli surətdə hərəkətə gətirmək zərurətə çevrilir. Şəxsiyyət nəzəriyyəsinin yaradılması istiqamətində elmi tədqiqatlar aparılması həm də nəzəri metodoloji baxımdan çox vacibdir. Belə ki, yalnız bu yol ilə sosial-humanitar biliyin aktiv inteqrasiyasını stimullaşdırmaq, müasir şəxsiyyətin həyatı və fəaliyyətini kompleks şəkildə nəzəri təsvir etmək mümkündür.

Şəxsiyyətin subyektiv keyfiyyətləri, cəmiyyətdə rolu, fəallığı, dəyərlər sistemi, mədəniyyəti və şüurluluq səviyyəsi bütün dövrlər üçün ümumi cəhətlərə malik olsa da, hər bir konkret tarixi mərhələdə spesifik xarakter daşıyır. Bu baxımdan müasir cəmiyyətin yaşadığı açıq cəmiyyətə keçid mərhələsi daha səciyyəvidir, çünki, ictimai həyatın bütün sahələrində və tərəflərində baş verən əsaslı dəyişikliklər özünün müvafiq ifadəsini bu dövrün şəxsiyyətində də tapır. Nəticədə o əvvəlki dövrlərin şəxsiyyət tiplərindən prinsipcə fərqli mahiyyətə və səciyyəyə malik olur. Buradan aydındır ki, müasir tarixi mərhələdə şəxsiyyətin dərin və hərtərəfli sosial-fəlsəfi təhlilini vermək üçün öncə bu təhlilin ilkin metodoloji prinsipləri tədqiq olunmalıdır. Məsələ burasındadır ki, indiki dövrün xarakterini səciyyələndirən prinsipial yeniliklər, burada baş verən iqtisadi, texniki və kommunikativ çevrilişlər, həyat fəaliyyəti şəraitinin yüksək dinamizmi, beynəlxalq miqyasda gedən qloballaşma və

standartlaşma meyilləri şəxsiyyət probleminin tədqiqinə yeni tərzdə yanaşmağı tələb edir.

Müasir elmi idrakın metodologiyasının malik olduğu yüksək zənginlik və dəqiqlik səviyyəsi, şəxsiyyət fenomeninin çoxtərəfli və mürəkkəb məzmununu açmaq, onunla mövcud cəmiyyət arasında müxtəlif və rəngarəng əlaqələri hərtərəfli araşdırmaq imkanı verir. İndi şəxsiyyət hər hansı bir elmin (məsələn, fəlsəfənin, sosiologiyanın, psixologiyanın və sair) hüdudlarından kənara çıxaraq fənlərarası təhlil obyekti statusu kəsb edir və ümumi insanşünaslıq elmi formalaşır. Fəlsəfi-psixoloji ədəbiyyatda həmin elmin aşağıdakı üç mühüm xüsusiyyəti əsaslandırılır: birincisi, insan problemi texniki və dəqiq elmlər də daxil olmaqla, bütün elmlərin məşğul olduğu ümumi problemə çevrilir; ikincisi, müasir elmi idrakda baş verən differensiasiya meyli şəxsiyyəti öyrənən elmlərdə də öz müvafiq ifadəsini tapır, yəni onların məna və obyekt çalarları çoxşaxəliləşir; üçüncü xüsusiyyət budur ki, insanı tədqiq edən ayrı-ayrı elmlərin, forma və metodların müxtəlif kompleks sistemlərdə birləşməsi nəticəsində insanın inkişafının sintetik səciyyələri yaranır (62, s.6-7).

Yuxarıda göstərilən hər üç xüsusiyyət müasir fəlsəfi biliyin inkişafının ümumi strategiyasından ayrılmazdır. Bu strategiyanın əsaslarını təşkil edən fəlsəfi metodologiyanın tətbiqi insanşünaslığın və şəxsiyyətşünaslığın tərəqqisinin vacib və zəruri şərtidir.

XX əsrin sonlarından etibarın elmdə şəxsiyyət probleminə geniş miqyaslı maraq müşahidə edilir. Bu təsadüfi olmayıb, bir sıra amillərlə şərtlənir. Hər şeydən əvvəl sovetlər ittifaqı dağıldıqdan sonra, onun ərazisində yaranan müstəqil milli dövlətlər (o cümlədən də Azərbaycan) açıq cəmiyyətin yaranması yoluna

qədəm qoydular. Həmin dövrdə ictimai həyatın bütün sferalarında həyata keçirilən islahatlar şəxsiyyətin həyat tərzini, dünyagörüşünü ciddi şəkildə yeniləşdirir, onun öz mahiyyət qüvvələrini reallaşdıra bilməsi üçün misilsiz imkanlar açır. Digər tərəfdən, müasir şəxsiyyət tipinin formalaşmasına dünyanın elmi mənzərəsinin təkamülü, genişmiqyaslı qloballaşma prosesləri də özünün güclü təsirini göstərir. Sonra, cəmiyyətdə ictimai həyat formalarının təzələnməsi və təkmilləşməsi, şəxsiyyətin dəyərlərini və dəyərlər orientasiyasını, onun sosial ideal, həyatın mənası və ədalətlilik haqqında təsəvvürlərini də əsaslı surətdə yeniləşdirir. Nəhayət, insanın gələcəyini təhlükə altına alan müasir qlobal problemlərin kəskinləşməsi də bu prosesdə az rol oynamır.

Müasir şəxsiyyətin yaşadığı sosial şəraitin əsaslı surətdə yeniləşməsi, həm də şəxsiyyətin elmi anlaşılmasında öz müvafiq əksini tapır. Bunun nəticəsidir ki, hazırda insanın varlığını bütöv bir tam kimi götürən, onun maddi və mənəvi həyatına ayrılmaz vəhdətdə yanaşan nəzəriyyələr yaranır. Bu isə şəxsiyyətin bütün canlılar aləminin özünəməxsus fenomeni kimi elmi mənalandırılması problemini fundamental əsaslar üzərinə keçirir.

Həm də nəzərə alınmalıdır ki, yaxın vaxtlara qədər şəxsiyyət probleminin təhlili marksist metodologiya əsasında aparılırdı. İnsanın mahiyyətini yalnız ictimai münasibətlərin məcmusunda görən bu konsepsiya bioloji amillərin rolunu lazımi səviyyədə qiymətləndirmirdi. Onun digər bir nöqsanı şəxsiyyətin fərdi rəngarəngliyinə məhəl qoyulmaması, onun ümuminin, ictimainin içərisində əridilməsi meyli təşkil edir. Marksizm həm də, şəxsiyyətin bütün keyfiyyətlərini insanın nəsli mahiyyətində görürdü. Sonra, bu təlim fərdini ictimaiyə, sosial qrupa və ya sinfə muncər etməklə səciyyələnir. Şəxsiyyətin müasir anlamı bu

məhdudluğu aradan qaldıraraq göstərir ki, şəxsiyyət, onun sosial davranışı hansı sosial qrupa mənsub olmasından daha çox, onun fərdi-şəxsi keyfiyyətləri (intellektual, mənəvi-əxlaqi, psixiki, fizioloji və digər keyfiyyətləri) ilə səciyyələnir. Şəxsiyyətin fəlsəfi təhlili digər elmlərdən (sosiologiya, psixologiya, pedaqogika və s.) fərqli olaraq onu müstəqil bir bütövlük kimi götürərək, onun dünyaya, cəmiyyətə, müasir dövrdə baş verən proseslərə və nəhayət özünün özünə olan müxtəlif münasibətlərini araşdırır. Buna görə də şəxsiyyətin fəlsəfi anlamı onun konkret elmlər tərəfindən öyrənilməsinin əsası, özülü rolunu oynayır (66, s.7). Əlbəttə, müasir sosial-fəlsəfi idrak şəxsiyyət problemini təhlil edərkən əvvəlki dövrlərdə işlənib hazırlanmış metodoloji prinsipləri bir kənara atmır, oradakı mütərəqqi cəhətləri götürüb inkişaf etdirir. Bu prosesdə təzahür edən digər səciyyəvi cəhət budur ki, ənənəvi metodoloji postulatların bir qismi müasir dövrün şəraitindən irəli gələn yeni məzmunla tamamlanır.

Şəxsiyyətin bütöv bir tam olması aşağıdakı üç tərəfin qarşılıqlı təsiri və sıx vəhdətində özünü göstərir: şüur, fəaliyyət və sosial münasibətlər sistemi. Müasir dövrün şəxsiyyəti də buradakı ictimai münasibətlərin, insanların müxtəlif və çoxtərəfli fəaliyyət növlərinin kəsişmə nöqtəsini təşkil edir. O, eyni zamanda müxtəlif sosial birlik formalarının (millətin, sinfin, əmək kollektivinin, ailənin və s.) üzvüdür. Şəxsiyyətin fəaliyyəti təkcə onu əhatə edən mikromühit ilə deyil, bütövlükdə ictimai həyat ilə, onun keçmişi və gələcəyi ilə müəyyən olunur. Həm də cəmiyyət inkişaf etdikcə şəxsi və ictimai mənafelər arasında əlaqələr daha da möhkəmlənir, digər tərəfdən isə şəxsiyyət ümumsosial əhəmiyyətli dəyərləri öz əməllərinə daha dərindən hopdurur. Buradan aydındır ki, müasir cəmiyyətin və bütövlükdə bəşəriyyətin topladığı tarixi təcrübə və

ictimai inkişafın gələcək meylləri onun formalaşmasında müstəsna dəpəcədə böyük rol oynayır. Lakin bu rol həmişə eyni səviyyəli deyildir. Başqa sözlə deyilsə, şəxsiyyət nə qədər yüksək inkişaf səviyyəsinə malikdirsə, onun ətraf mühitdən asılılığı da bir o qədər az olur və əksinə.

Müasir şəxsiyyət tipinin mahiyyətinin açılmasında ona aşağıdakı üç istiqamətdən yanaşmaq metodoloji baxımdan zəruridir:

a) insanın çoxölçülü mövcudat olması. Bu onda təzahür edir ki, o eyni vaxtda tarixi-təkamül prosesinin iştiraksısıdır; sosial rolların və sosiotipik davranışın daşıyıcısıdır; elə bir fərdi həyat yolu seçiminin subyektidir ki, onun gedişində təbiət, cəmiyyət və həm də şəxsiyyətin özü dəyişir; b) insan ehtiraslı və dialoq xarakterili polifəaliyyət göstərən mövcudatdır. Onun bu mahiyyəti dünyada digər insanlarla münasibətlərində və eləcə də şəxsi həyatında yaranır, yeniləşir və daim qorunub saxlanılır; c) insan azad, məsuliyyətli və məqsədyönlü davranışın subyektidir. O, başqa insanlar tərəfindən, o cümlədən, özü tərəfindən dəyər kimi qavranılır. Bu subyekt nisbi müstəqil dayanıqlı və bütöv xarakter daşıyan müxtəlif fərdi keyfiyyətlər sisteminə yiyələnir ki, onlar, dəyişilməkdə olan müasir dünyada şəxsiyyətin özgürlüyünü və təkrarolunmazlığını səciyyələndirir (69, s.6).

Yuxarıda ətraflı bəhs olunan sistemli təhlil həm də muasir dövr şəxsiyyətinin araşdırılmasında istifadə olunan fəlsəfi metodologiyanın ayrılmaz tərkib hissəsini təşkil edir. Bu metodologiya şəxsiyyəti müxtəlif sistemlərə (biosfera, orqanizm və cəmiyyət və s.) daxil olunmuş halda araşdırır.

Belə sistemlər sırasında birinci yeri biosfera tutur. Başqa sözlə deyilsə, şəxsiyyətin həyatı bütün dövrlərdə olduğu kimi indi də ən geniş sistem olan biosferanın daxilində baş verir. Yəni insan daim

biosferin mühüm bioenergetik elementlərindən biri kimi çıxış edir. Hazırda biosferada insanların həyat fəaliyyəti nəticəsində bioenergetik proseslər və maddələr mübadiləsi daha geniş miqyaslar alır. Buna görə də sonuncular biosferada çox mühüm yer tutur, onun sistemyaradıcı komponentləri rolunu oynayır. Deyilənlərdən aydın olur ki, şəxsiyyətin bütün varlığı (bədənindən tutmuş hər bir fəaliyyət sahəsinə qədər) təkcə Yer kürəsi ilə deyil, həm də səma ilə, kosmosla bağlıdır. Burada gedən proseslər (Günəşin aktivliyindəki dəyişikliklər, müxtəlif maqnit dalğaları və sair pozuntular) yerdəki insanların həyatında son dərəcə müxtəlif nəticələr törədir (qəfil ölüm, epidemiya, epileptik tutmalar, əsəb sistemlərinin şok vəziyyətinə düşməsi və digər bədbəxt hadisələr) (277, s.33).

İnsanın malik olduğu bioenergetik keyfiyyətlər onun adı gündəlik həyatında əhval ruhiyyəsinin pisləşməsi, qəmginlik və müxtəlif depresiya vəziyyətləri formasında ifadə olunur.

Müasir şəxsiyyət, həm də orqanizm sistemi kimi çıxış edir. Onun bu sistem daxilindəki fəaliyyəti bioloji populyasiya növü kimi öz həyatını təkrar istehsal edən və davam etdirən bütövlük vahidi olmasında təzahür edir. Şəxsiyyəti bu baxımdan səciyyələndirən keyfiyyətlər onun genetik kodu və orqanizminin tərkibinə daxil olan yarımsistemlərin (endokrin, humoral və s.) inteqrasiyası ilə sıx bağlıdır. Sonra, şəxsiyyət insan bioloji növünə daxil olan fərddir: o məhz fərdi həyatı gedişində Homo Sapiens bioloji sisteminin xassələrini özünəməxsus şəkildə reallaşdırır. Belə ki, şəxsiyyətin həyat fəaliyyətinin spesifik təşkili insan bioloji növünün əsas sistemyaradıcı əlaməti kimi özünü göstərir. Burada şəxsiyyət bioloji fərd kimi irsən malik olduğu xassələri öz növünün həyat fəaliyyəti ilə üzvi şəkildə əlaqələndirir.

Şəxsiyyətin daxil olduğu sistemlər sırasında cəmiyyət xüsusi yer tutur. O, daim ictimai sistemi səciyyələndirən sosial keyfiyyətlərin məcmu şəkildə daşıyıcısı kimi çıxış edir. Sonuncular insanın təbii keyfiyyətlərindən prinsipcə fərqlidir, çünki həm də ictimai-tarixi mahiyyət kəsb edir. İnsan özünün əmək fəaliyyəti prosesində sosial münasibətlər məkanına daxil olur və təbiət obyektlərinə insani sima verir. İnsanın bütün sosial keyfiyyətləri məhz cəmiyyətdə yaranır və inkişaf edir. Onlar əsasən iki yarımqrupu əhatə edir: 1) utilitar, funksional xarakterli keyfiyyətlər. Bunlar onda ifadə olunur ki, insan təbiət obyektlərinə dəyişdirici təsir göstərib, onları öz istifadəsi üçün lazım olan formaya salır və nəticədə bu obyektlər sosial məna kəsb edir, mədəniyyət hadisələrinə çevrilirlər; 2) şəxsiyyətin fövqəlhissi sistem keyfiyyətləridir ki, onlar bilavasitə sosial münasibətlərin məhsulu kimi çıxış edir. Onları şəxsiyyət özünün sosial qruplar və etniki birlik formaları daxilindəki fəaliyyəti prosesində və ailədə qazanır.

Bununla əlaqədar belə bir cəhəti də yadda saxlamaq vacibdir: şəxsiyyət müxtəlif sosial yarımsistemlərə daxil olması üzündən, onunla başqa insanlar, sosial qruplar arasında və hətta özü ilə özü arasında münaqişə halları baş verə bilir. Buna görə də şəxsiyyətin bu qruplara və birlik formalarına daxil olması faktı ondan tələb edir ki, o, buradakı vəziyyəti dəqiq müəyyənləşdirə bilsin və ondan öz mənlik şüurunun inkişafında istifadə etsin. Çunki məhz yüksək mənlik şüuru, şəxsiyyətin müxtəlif xarakter daşıyan və məqsəd ustanovkalarına malik olan sistemlər şəraitində düzgün səmtləşməsini təmin edir.

Buradan aydın olur ki, şəxsiyyət tərəfindən onun müxtəlif sosial birliklərlə bağlı olan mümkün münaqisə hallarını, risk zonalarını müəyyən edə bilmək məharəti, onun həyat fəaliyyətində

(hansı peşənin və ixtisasın sahibi olmasından asılı olmayaraq) çox mühüm yer tutur.

Qeyd olunmalıdır ki, şəxsiyyət müəyyən sistemin elementi olmaqla yanaşı, həm də adi element deyil, xüsusi xarakterli elementdir. Belə ki, bu element müəyyən tarixi şəraitdə daxil olduğu bütün sistemi özünə tabe edə və onu dəyişdirə bilir. Beləliklə də sistemli təfəkkürə məxsus olan paradoks –sistem daxilində element və yaxud «element daxilində sistem» paradoksu özünü göstərir. Həmin paradoksdan çıxış yolu tapılmasında akademik M.A.Markovun şəxsiyyət ilə mikroskopik hissə arasında apardığı analogiya diqqəti cəlb edir. O bunu məşhur kosmoloq, genişlənən kainat nəzəriyyəsinin banisi A.A.Fridmanin şərəfinə «fridmon» adlandıraraq göstərir ki, «fridmon» mikroskopik kiçik ölçülərə malik olmasına baxmayaraq, onda yığılmış şəkildə bütöv qalaktikaları yerləşdirmək mümkündür. Fridmonda yerləşən dünya çoxlu ölçülərə malik olur. Bu bənzətmə sübut edir ki, prinsipcə özündə bütöv və iri həcmli sistemləri yerləşdirə bilən mikroskopik elementlər mövcud ola bilir (69, s.85-87).

Həmin fikri şəxsiyyət ilə cəmiyyət arasındakı münasibətlərə tətbiq edərək söyləmək olar ki, şəxsiyyət sosial münasibətlərin bir elementi olmasına baxmayaraq, özündə bütövlükdə bu sistemi yığılmış formada əks etdirir. Həm də şəxsiyyətin inkişafı prosesində geniş məkana və əhatə dairəsinə malik olan sosial dünyanın, şəxsiyyətin məkan etibarilə məhdud çərçivəsində yerləşməsi özünəməxsusluğu da artır.

Müasir elmi idrakda geniş istifadə edilməkdə olan sinergetik metod da şəxsiyyətin öyrənilməsində uğurlar gətirir. Bu metod sübut edir ki, qeyri-müvazinətli mürəkkəb sistemlərdə bifurkasiya mexanizimləri fəaliyyət göstərir. Onun mahiyyəti bundadır ki,

mühitdə kəskin dəyişikliklər baş verdikdə sistemin inkişafı yeni forma alır. Yəni, əgər adaptasiya tipli mexanizmlər fəaliyyət göstərərkən sistemdə gələcəkdə baş verəcək dəyişiklikləri irəlicədən görmək və proqnozlaşdırmaq mümkün olursa, bundan fərqli olaraq bifurkasiya tipli mexanizmlərdə sistemin inkişafında qeyri-müəyyənlik özünü göstərir. Yəni onda baş verən dəyişiklikləri irəlicədən görmək mümkün olmur. Sinergetika təliminin banilərindən biri olan İ.Priqojin göstərir ki, sistemin həyatının qeyri-sabit, qeyri-müvazinətli və keçid məqamlarında onun gələcəyi qeyri-müəyyən xarakter alır. Belə ki, adi vəziyyətdə o qədər də əhəmiyyət kəsb etməyən hər hansı bir hadisə və ya hərəkət belə şəraitdə bütün sistemi dəyişdirə bilir və onu tamam başqa yol ilə getməyə məcbur etməyə qadirdir (217, s.130).

Cəmiyyət də qeyri-müvazinət tipli açıq sistemlərdən olduğu üçün, qeyd olunan prinsip burada da fəaliyyət göstərir. Bu isə o deməkdir ki, cəmiyyətin inkişafının keçid dövrlərində və dönüş məqamlarında ayrı-ayrı şəxsiyyətlərin bu və ya digər hərəkətlərinin sosial sistemin təkamülü istiqamətini dəyişdirə bilmək ehtimalı artır. Belə ki, sosial sistemin adı inkişafı vəziyyətlərində adaptasiya mexanizimləri şəxsiyyətin sabit fəaliyyətini təmin edir, onun sosial qrup daxilində tipik davranışı əvvəlcədən (təxmini də olsa) məlum olur. Bifurkasiya mexanizmləri isə şəxsiyyətin fərdi xüsusiyyətlərə malik olan spesifik varlıq kimi münaqişəli-problem situasiya şəraitində özünü aparmasını ifadə edir. Buna görə də şəxsiyyətin adi vaxtda elə bir əhəmiyyət kəsb etməyən hərəkəti və davranışı ictimai sistemin müasir dönüş məqamında cəmiyyəti dəyişdirmək imkanlarına, mədəniyyətin inkişafında irəlicədən nəzərdə tutulmayan vəziyyətə gətirib çıxarmaq gücünə malik olur.

Şəxsiyyətin, nəticəsi irəlicədən görünməyən situasiyalarda təzahür edən və stereotipik davranış standartlarından kənara çıxan sistemli-inteqrativ keyfiyyətlərini şəxsiyyətin individuallığı anlayışı daha dəqiq ifadə edir. Bu anlayışın tətbiq edilməsi müxtəlif inkişaf edən sistemlərin elementi kimi götürülən insanın həyat fəaliyyətinə məxsus olan sabitlik və dəyişkənlik meyllərini vəhdətdə götürməyə imkan verir. Digər tərəfdən, insanın sosiotipik təzahürlərini onun daxil olduğu sosial birlik forması üçün tipik olan nəsli əxz olunmuş proqramla əlaqələndirmək, şəxsiyyətin nəticə etibarilə həmin birliyin tarixi dəyişkənliyini təmin edən təkrarolunmaz cəhətlərini seçib ayırmaq mümkün olur. Nəhayət, şəxsiyyətin individuallığı anlayışı onun təkamül xarakterini açmağa kömək edir, göstərir ki, individuallığın müxtəlif təzahürləri arxasında yaradıcı təkamül məzmununa malik həyat prosesinin sonsuz saylı potensial inkişaf istiqamətləri durur.

İnsanın inkişaf edən sistemin müxtəlif səviyyələrində (yəni biogenez və antropogenezdə çıxış edən fərd səviyyəsində və yaxud sosiogenezdə fərdiliyə məxsus şəxsiyyət kimi götürülməsi səviyyəsində) onun aktuallığının yenidən adaptasiya edici əlavə formaları təzahür edir. Onların dəyişikliyə olan meyli göstərir və bununla da həmin sistemlərin təkamülü prosesinin zəruri momenti kimi çıxış edir. İnkişaf etməkdə olan sistemlərin həyatında dönüş dövrlərində (bioloji kataklizmlər, sosial böhranlar) bu sistemə daxil olan elementlərin yenidən adaptasiya edici aktivliyinin rolu artır və təkamül baxımından mənası daha da genişlənir.

Müxtəlif növlü sistemlərdə ilkin proqramı reallaşdırmağa yönələn adaptiv aktivlik formaları ilə özündə elementlərin fərdi dəyişkənliyini daşıyan aktivliyin təzahürləri arasında ziddiyyətin, münaqişənin və yaxud harmonik qarşılıqlı təsirin olması, həmin

sistemlərin inkişafının zəruri şərti rolunu oynayır. Bu müddəanın qəbul edilməsi aşağıdakı nəticələrə gətirib çıxarır: 1) individuallığın fəaliyyət motivləri ilə onun daxil olduğu sosial birliyin idealları və normaları arasında ziddiyyət baş verərsə, onu ya sosial birliyin ilkin proqramını dəyişdirən əməl və hərəkətlər etmək və yaxud da sosial birlik ilə qarşılıqlı təsir prosesində təzahür edən individuallıq motivlərini yenidən qurmaq yolu ilə həll etmək mümkündür. Sözügedən tərəflər arasındakı münasibətlər harmonik qarşılıqlı təsir xarakteri daşıyırsa, onda individuallıq hərəkətləri sosial birlik formasının daha da tərəqqi etməsinə köməklik göstərir. Əgər həmin tərəflər arasında münaqişə vəziyyəti mövcuddursa, onda individuallığın aktivliyi ya bu sosial birliyin ilkin proqramının yenidən qurulmasına və sistemin təkamül prosesinin başqa istiqamətdə getməsinə gətirib çıxara bilir, ya da bu vəziyyət individuallığın neytrallaşması, onun sosial sistemdən təcrid olunması və zərərsizləşdirilməsi ilə nəticələnir; 2) insanın öz motiv və dəyərləri üzərində israr etməsi fəaliyyət prosesində individuallığın özünü reallaşdırması kimi çıxış edir ki, bu da ya mövcud mədəniyyətin daha da inkişafına gətirib çıxarır, ya da gerçəkliyin dəyişdirilməsi gedişində başqa mədəniyyət formalarının yaranması ilə nəticələnir; 3) individuallığın qeyri-adaptiv aktivliyi həmin birlik formasının adaptiv aktivliyinə o vaxt çevrilir ki, özünü reallaşdırma prosesində həmin aktivliyin yaratdığı norma və dəyərlər müvafiq mədəniyyətin norma və dəyərləri olurlar. Bu halda individuallığın aktivliyi həmin sistemin dəyişdirilməsi funksiyasını dayandırır və onun qorunub saxlanılmasına, sabitləşdirilməsinə xidmət edir. Məsələn, yeni inanc və etiqad yayan tarixi şəxsiyyətlərin əməlləri öz dövrünün mədəniyyətində qarmaqarışıqlıq və qeyri-müəyyənlik yaratdığı

üçün əvvəlcə müəyyən təqiblərə məruz qalır. Sonradan isə onların baxışları, mədəniyyətin təkamülünə dair irəli sürdükləri alternativ variantlar stereotiplərə çevrilir. Nəticədə onlar təkamülün başqa variantlarını ifadə edən digər individuallıq aktivliyi təzahürlərini dəyişdirmək və rasionallaşdırmaqla, mövcud sistemin qorunmasına yönələn funksiya yerinə yetirməyə başlayırlar.

Yuxarıda deyilənləri ümumiləşdirməklə göstərmək olar ki, insanın bu və ya digər sistemin elementi kimi nəzərdən keçirilməsi müasir cəmiyyətin inkişafı prosesində şəxsiyyət fenomeninin rolunun təhlilində böyük metodoloji əhəmiyyətə malikdir. Cəmiyyətdə insanın fərdi təzahürlərinin təkamül baxımından əsas əhəmiyyəti bundadır ki, onlar sistemin mövcudluğu və gələcək inkişafına mühüm təsir göstərirlər.

Ötən bölmədə geniş bəhs olunan şəxsiyyətə fəaliyyət mövqeyindən yanaşılması metodologiyası öz böyük rolunu müasir şəxsiyyətin tədqiqində də saxlayır. Son illərdə fəlsəfi-psixoloji ədəbiyyatda bu mövqeni K.Marksın adına çıxmaq əsasında bəzən ondan imtina etmək haqqında çağırışlar səslənməkdədir. Lakin həyat sübut edir ki, şəxsiyyətin anlaşılmasına fəaliyyət mövqeyindən yanaşılmasının idrakı və metodoloji imkanları heç də tükənməmişdir. Buna görə də bu yanaşmanın marksizmə xas olan məhdudluqlarını aradan qaldırmaqla, ondan bu günkü elmi-nəzəri təhlildə də istifadə etmək faydalıdır. Sözügedən metodologiya müasir şəxsiyyətin təhlilində, onun həyat yolunun inkişafı prosesində biogenez, sosiogenez və ontogenez amillərinin bir-birinə keçməsi mexanizmini, şəxsiyyətin inkişafının determinasiyası sistemini aşkar etməyə imkan verir. Həmin mexanizmdə insanın fərdi xassələri şəxsiyyətin inkişafının ilkin müqəddəm şərtləri kimi qiymətləndirilir, sosial mühit şəxsiyyətin

inkişafının mənbəyi kimi götürülür. Ən başlıcası isə budur ki, həmin mövqe məqsədyönlü fəaliyyəti şəxsiyyətin inkişafının əsası və hərəkətverici qüvvəsi kimi mənalandıraraq göstərir ki, məhz fəaliyyət vasitəsi ilə insan təbiəti, mədəniyyəti və özünü dəyişdirir və yeniləşdirir.

Bəzən elmi ədəbiyyatda şəxsiyyətin fəaliyyətinin müxtəlif növlərinin öyrənilməsi bir-birindən təcrid olunmuş halda aparılır. Hətta bir sıra hallarda onlar bir-birinə qarşı qoyulur. Nəticədə nəzəri idrakın inkişafı üçün təbii hal hesab olunan şəxsiyyətin müxtəlif səpkilərinin sadəcə seçilib ayrılması deyil, onların bir-birindən təcrid edilməsi və şəxsiyyətin varlığının ayrı-ayrı xassələrinin fetişləşdirilməsi baş verir (150, s.188).

İnsanın məcmu fəaliyyəti haqqında ideya müasir dövrdə şəxsiyyətin fəlsəfi araşdırılmasında aşağıdakı üç mühüm nəticəyə gətirib çıxarır: 1) Şəxsiyyətin inkişafının köklərini təkcə insan şüurunun subyektiv təzahürlərində, onun tələbatlarında və ona xarici mühitin təsirində deyil, məqsədyönlü, çoxtərəfli fəaliyyət prosesində axtarmağın zəruriliyini əsaslandırır. Göstərir ki, «insan öz fəaliyyətində subyektiv və obyektiv momentləri birləşdirərək bütünlükdə təbiəti yüksək səviyyədə insaniləşdirməyə qadirdir. İnsanın fəaliyyəti nə dərəcə çox universaldırsa, o insan kimi bir o qədər də çox spesifik olur» (128, s.44); 2) İnsanın fəaliyyəti sisteminin öyrənilməsi, bu fəaliyyətin yaradıcı, məqsədyönlü xarakterini üzə çıxarır. Bununla da nəzəri fikir insanın nə üçün yaşadığını və çalışdığını anlamaq imkanı əldə edir (90, s.197); 3) Bu mövqedən aparılan təhlil müasir insanın dünyasını yalnız tələbatların ödənilməsinə müncər edən baxışların birtərəfliliyini aradan qaldırmağa kömək edir.

Fəlsəfi metodologiyanın növbəti prinsipi, onun yerinə yetirdiyi dünyagörüşü funksiyası ilə bağlıdır. Məsələn, şəxsiyyətə dair konkret elmi tədqiqatlarda ümumi dünyagörüşü cəhətinə məhəl qoyulmazsa, onda insanın təbiətən «yaxşı» və «pis» növlərə bölündüyü haqqında illuziya yaranır.

Sovet rejimi dağıldıqdan sonra digər respublikalar kimi Azərbaycanın da qədəm qoyduğu totalitar quruluşdan yeni cəmiyyətə keçid mərhələsi öz xarakter və məzmun etibarilə son dərəcə mürəkkəb olub, aşağıdakı istiqamətlərdə əsaslı dəyişikliklərin baş verməsi ilə səciyyələnir: müstəmləkə vəziyyətindən müstəqil milli dövlətçiliyə keçid; müasir anlamda suverenliyini daha da dolğunlaşdıraraq bərabərhüquqlu əsaslarla dünya birliyi ölkələrinə inteqrasiya; bir ictimai – iqtisadi sistemdən mahiyyətcə yeni ictimai-iqtisadi sistemə, vahid dövlət mülkiyyətindən müxtəlif və bərabər hüquqlu mülkiyyət formalarına keçid (o cümlədən cəmiyyətdə xüsusi mülkiyyətin rolu və təsirinin artmasına keçid); ateist dünyagörüşündən vicdan azadlığına, kommunist ideologiyası və kosmopolit mənəviyyatdan milli mənəviyyata keçid; totalitarizmdən demokratik siyasi rejimə, hüquqi dövlətə keçid; qapalı cəmiyyət tipindən açıq, vətəndaş cəmiyyətinə, çoxpartiyalılığa və fikir plüralizminə keçid və s. (26, s.310).

Yuxarıda götərilənlər sübut edir ki, çoxşaxəli və çoxmərhələli proses olan müasir dövr ictimai həyatın bütün sferalarını və tərəflərini əsaslı surətdə dəyişdirməyi və yeniləşdirməyi nəzərdə tutur. Respublikamızda o, XX əsrin 90-cı illərinin əvvəllərindən milli müstəqillik uğrunda ümumxalq hərəkatının qələbəsi ilə başlanmışdır. O vaxtdan keçən təxminən on ildən bir qədər artıq müddətdə Azərbaycanda cəmiyyətin bütün sahələrində radikal

islahatlar həyata keçirilir, ardıcıl və hərtərəfli demokratikləşmə xətti yeridilir, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda mühüm addımlar atılır.

Müasir dövrdə sosial reallığın prinsipcə yeni əsaslar üzərində qurulması, həm də şəxsiyyətin sosial varlığını tamamilə yeni sosial zəmin üzərinə keçirmişdir. Büna müvafiq surətdə şəxsiyyətin sosial statusu, vəziyyəti və rolu, yerinə yetirdiyi ictimai funksiyalar əsaslı surətdə dəyişilir. Onun fəaliyyəti və ünsiyyəti prosesində, dünyagörüşündə, şüurunda, dəyərlər sistemində və orientasiyasında əvvəlki dövrlərin şəxsiyyəti ilə müqayisədə bir çox yeni cəhətlər və keyfiyyətlər yaranır. Bütün bunlar sübut edir ki, müasir dövrdə şəxsiyyət tipi formalaşır və inkişaf edir.

Fəlsəfi ədəbiyyatda müasir dövrün bir sıra xarakterik xüsusiyyətlərə malik olduğu göstərilir: əvvəla müasir dövr qlobal xarakter daşıyır, yəni biz eyni vaxtda bir çox ölkələrdə əsaslı sosial, siyasi və iqtisadi dəyişikliklərin baş verdiyini müşahidə edirik. Əgər əvvəllərdə belə dəyişikliklər dünyanın yalnız bir hissəsində (deyək ki, Qərbi Avropada və yaxud ABŞ-da) baş verirdisə, indi onlar bir çox ölkələrdə həyata keçirilməkdədir. İkincisi, bəşəriyyətitn indiki inkişaf mərhələsində təkcə siyasi və sosial-iqtisadi amillər kifayət etmir, həm də «insan – təbiət» münasibətlərində yeni modellərin tətbiqinə zərurət yaranır. Başqa sözlə deyilsə, bəşəriyyətin gələcəyinin qorunub saxlanmasında və sosial təkamülündə neosfer ölçülərinin rolu və əhəmiyyəti durmadan artmaqdadır. Üçüncüsü, müasir dövrdə bəşəriyyəti təhdid edən sosial və siyasi bəlalar, ekoloji təhlükələr müxtəlif ölkələri, xalqları, millətləri və submədəniyyətləri məcbur edir ki, onları aradan qaldırmaq üçün öz səylərini birləşdirsinlər, yeni

universal əxlaqi imperativlər işləyib hazırlasınlar, qarşılıqlı fayda gətirən əməkdaşlığa cəlb olunsunlar.

Bütün bu və digər xüsusiyyətlər bu gün şəxsiyyətin formalaşmasına, onun sosial statusuna və roluna, fəaliyyət və ünsiyyəti proseslərinə, şüuruna, bütövlükdə həyat tərzinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Müasir şəxsiyyətin sosial simasının çox mühüm yeni keyfiyyətini onun fəallığının qeyri-adi dərəcədə yüksəlməsi təşkil edir. Bu proses milli dövlətçiliyin yaradılması və möhkəmləndirilməsi, ölkənin siyasi həyatının sabitləşməsi, siyasi sferada fikir plüralizminin bərqərar olması, azad sahibkarlığa və işgüzar rəqabətə geniş meydan verilməsi, mənəvi həyatda demokratikləşmənin genişlənməsi, şəxsiyyətin sərbəst yaradıcılığı üçün zəruri olan mühitin təmin edilməsinin nəticəsi kimi çıxış edir.

Müstəqil milli dövlətlərdə açıq cəmiyyətin yaranması prosesində qazandığı uğurlar və problemlər, nəinki təkcə şəxsiyyətin cəmiyyətdə yerini və rolunu dəyişdirir, həm də onun öz mahiyyət qüvvələrini reallaşdıra bilməsi üçün əvvəlki dövrlər ilə müqayisəyəgəlməz dərəcədə böyük imkanlar açır.

Müasir dövrdə şəxsiyyət tipinin xarakteri və davranışının araşdırılmasında milli-etniki münasibətlərin müasir səviyyəsi, onu səciyyələndirən cəhətlər mütləq nəzərə alınmalıdır. Həmin münasibətlər isə indiki müstəqil milli dövlətçilik və demokratikləşmə şəraitində keyfiyyətcə zənginləşir. Digər tərəfdən burada müxtəlif ziddiyyətli meyillər özünü göstərir. Məsələnin mahiyyəti bundadır ki, SSRİ dağıldıqdan sonra yaranan müstəqil respublikalarda milli şüur, milli mənafelərin dərk olunması əsasında sözün əsl mənasında milli dirçəliş baş verdi. Bu zəmində bir tərəfdən milli münasibətlər sahəsində keçmişdən çoxsaylı problem-

lərin miras qaldığı aşkara çıxır, digər tərəfdən isə milli-etniki münaqişələr baş verir, etniki birliklərin birinin digərinə qarşı ərazi iddiaları, onlar arasında münasibətləri silahlı toqquşmalar səviyyəsinə gətirib çıxarır (məsələn, Dağlıq Qarabağın erməni icmasının Ermənistanın himayədarlığı ilə Azərbaycan ərazisinin beşdə birini işğal etməsi, Gurcu-Abxaz münaqişələri, Dnestrboyu vilayətlərdə və Pribaltikada millətlərarası gərginliyin artması və s.).

Müasir dövrdə gedən milli proseslərin şəxsiyyətin həyat fəaliyyətinə təsirinin mexanizmi onda ifadə olunur ki, şəxsiyyətin sosial davranışında təzahür edən funksional rolu etniki xarakter kəsb edir, yəni burada etniki stereotiplərin təsir dairəsi genişlənir. Həmin prosesin milli mənlik şüurunun inkişafı və milli özünüdərk, milli dəyərlərə, tarixi keçmişə qayıdış, milli mədəni irsin və dilin qorunmasına qayğı ilə bağlı tərəfləri heç şübhəsiz şəxsiyyətin yüksəlişinə, onun daxili aləminin zənginləşməsinə təkan verir. Bununla yanaşı, milli oyanış həm də müəyyən neqativ məqamları da potensial vəziyyətdə əhatə edir (milli əlahiddəlik, mənsub olduğu millətin və ya etniki qrupun başqalarından üstün olması haqqında təsəvvürlər, öz normal hüdudlarını aşmış millətçilik ideyaları, milli şovinizm və s.). Deyilənlər sübut edir ki, etniki stereotiplər müəyyən milli-etniki birlik formasına daxil olan şəxsiyyətin bir növ funksional rolu ilə bağlı keyfiyyətləri, onun sosiotipik davranışında özünəməxsusluğu şərtləndirir (286, s.137). Buradan aydın olur ki, şəxsiyyətin fəaliyyətinin etnopsixoloji baxımdan təkmilləşdirilməsi ilə bağlı problemlərə diqqəti artırmaq lazımdır. Belə problemlər sırasında çoxmillətli əmək kollektivlərində şəxsiyyətlərarası münasibətlərin optimallaşdırılması, tədris müəssisələrində ifrat millətçiliyi istisna edən tədbirlərin həyata

keçirilməsi; ölkə üzrə əmək resurslarının bölünməsində şəxsiyyətin etnotipik xüsusiyyətlərinin nəzərə alınması; rəhbər kadrların seçilib yerləşdirilməsində milli göstəricilərə diqqət yetirilməsi və sair əsas yeri tutur.

Müasir şəxsiyyəti nəzəri planda təhlil edərkən onun subyektlilik keyfiyyətlərinin və fəallığının artması xüsusi qeyd olunmalıdır. Şəxsiyyətin subyektliliyi bir-birilə sıx əlaqəli olan iki formada çıxış edir:

1. Fərdi subyektlilik anlayışı şəxsiyyətin fərdiliyini ifadə edən tələbat – motivasiya sxemində təzahür edən özünəməxsus xassələrin (anatomofizioloji, psixoloji və sosial) məcmusudur. Bu səviyyə insanın anadan gəlmə bioloji xüsusiyyətləri əsasında formalaşsa da, o həm də sosiallaşma prosesinin məhsuludur. Belə ki, burada gündəlik həyat təcrübəsində qazanılan adi biliklər ilə elmi xarakterli informasiyalar inteqrasiya olunmuş şəkildə çıxış edir.

2. Sosial subyektlilik dedikdə fərdin ümumictimai əhəmiyyət kəsb edən vəzifələri həll etmək, sosial məqsədlərə nail olmaq məharəti, sosial-təşkilatı formalardan, ictimai institutlardan öz məqsədləri naminə səmərəli istifadə etmək qabiliyyəti başa düşülür. O, subyektin sosiallaşma dərəcəsini, öz sosial rolunu mənimsəməsi səviyyəsini və sosial aktivliyini ifadə edir.

Subyektliliyin fərdi və sosial formaları bir-birilə vəhdətdədir, lakin onlar arasında müəyyən fərqlər də vardır. Belə ki, birinci, subyektin müəyyən məqamda bütöv səciyyəsini vermək üçün zəruridirsə, ikincisi onun həyat yolunun xüsusiyyətlərini və dəyişilməsi dinamizmini açır. Buna görə də yalnız onları vəhdətdə götürməklə, konkret sosial şəraitdə insanın mahiyyət qüvvələrinin formalaşması, reallaşması və yenidən bərpası proseslərinin

xüsusiyyətlərini araşdırmaq mümkündür. Digər tərəfdən, bu, subyektliliyin bütün həyat sferalarında təzahürlərini düzgün mənalandırmaq imkanı verir. Nəhayət, belə yanaşma sözügedən problemin müasir səviyyəsini, onun keçmişi və gələcək perspektivi ilə vəhdətdə və dərindən öyrənmək üçün də zəruridir.

Müasir şəxsiyyətin sosial subyektlilik göstəriciləri məzmunca mürəkkəb olub, iki səviyyəni əhatə edir. Birincisi, onun tələbatları, sosial rolunun spesifikliyi, malik olduğu dəyərlər və əldə rəhbər tutduğu normalar vasitəsi ilə təzahür edir. İkinci səviyyə daha yüksək olub, şəxsiyyətin azadlığı, məsuliyyəti, həyatının mənası, refleksiyaları, mənəvi dünyası və öz tarixi təyinatını dərk etməsi ilə sıx bağlıdır.

Müasir şəxsiyyətin sosial-fəlsəfi təhlili həm də onun sosial rolunda baş verən əsaslı dəyişiklikləri nəzərə almağı tələb edir. Çünki məhz şəxsiyyətin sosial rolu onun konkret şəraitdə davranışı üsullarını şərtləndirir, beləliklə də onun əhatəsində olan insanların bu barədə ümidlərini formalaşdırır. Müasir şəxsiyyətin sosial rolu sabit deyildir, daim yeniləşməkdə olan sosial şəraitin təsiri altında dəyişilir. Sosial rolun digər bir xüsusiyyəti bundadır ki, o özündə həm tipik və ümumiləşmiş, həm də individual, fərdi tərəfləri əhatə edir.

Müasir şəxsiyyətin sosial rolunun formalaşması və reallaşması prosesləri sosial normalarla sıx əlaqədə baş verir. Sonuncular müasir cəmiyyətdə çox mühüm yer tutmaqla, şəxsiyyətin konkret vəziyyətdə hərəkət yollarını və qaydalarını göstərir. Cəmiyyətin hər bir inkişaf mərhələsində olduğu kimi, müasir dövrdə də bir tərəfdən ümumi xarakterli normalar fəaliyyət göstərir, digər tərəfdən isə hər bir sosial birlik forması öz üzvləri üçün spesifik normalar sistemi işləyib hazırlayır.Şəxsiyyət özünün həyat

fəaliyyətində həm ümumi normaları, həm də mənsub olduğu birliyin və ya qrupun özünəməxsus spesifik normalarını yerinə yetirir. Bu tərəflər şəxsiyyətə bir-birinə zidd tələblər verdikdə isə şəxsiyyətin rol münaqişəsi adlanan vəziyyət özünü göstərir.

Qeyd edək ki, müasir şəxsiyyətin izahında normativ aksioloji baxış böyük əhəmiyyət kəsb edir. Belə ki, həmin baxış əvvəla şəxsiyyətin həyat fəaliyyətinin müxtəlif tərəflərini ümumi qəbul olunmuş normalar və dəyərlər mövqeyindən qiymətləndirir, digər tərəfdən göstərir ki, mədəniyyət sistemində yaradılan müsbət insan obrazı real həyatda ona uyğun şəxsiyyət tipini formalaşdırmağın mühüm vasitəsidir. Lakin bu məsələdə çalışmaq lazımdır ki, ayrı-ayrı elmlərdə və mədəniyyət növlərində şəxsiyyətin həqiqi obrazı yaradılsın. Əks halda insanın bu və ya digər keyfiyyətləri (müasir elmi-texniki tərəqqi ilə əlaqədar olaraq çox vaxt texniki keyfiyyətləri) şişirdilir, digər insani keyfiyyətlərə isə lazımi diqqət yetirilmir. Bu cəhətə xüsusi əhəmiyyət verərək sistem nəzəriyyəsinin banilərindən biri olan L.fon Bertalanfi təəssüflə qeyd edirdi ki, hazırda insan-robot obrazının geniş yayılması buna gətirib çıxarmışdır ki, insan əqli cəhətdən inkişaf etməmiş idiota çevrilmişdir, yəni o, öz peşəsi üzrə yüksək ixtisaslı mütəxəssisdir. Lakin bütün başqa münasibətlərdən yanaşdıqda isə yalnız maşın hissəsini xatırladır (163, s.139).

Müasir şəxsiyyətin çox mühüm keyfiyyətini onun tərəfindən dəyərlərin yenidən mənalandırılması prosesinin həyata keçirilməsi təşkil edir. Dəyərlər sisteminin və dəyərlər orientasiyasındakı dəyişikliklərin böyük rolu bundadır ki, insanın daxili aləmi məhz onların vasitəsilə bütövlükdə cəmiyyət ilə, habelə, buradakı ayrı-ayrı sosial qruplar ilə əlaqələr yaradır. Bununla əlaqədar qeyd edək ki, müasir dövrdə baş verən bir sıra proseslər, xüsusilə də

bazar münasibətlərinin və azad sahibkarlığın formalaşması gedişində şəxsiyyətin dəyərlər sistemində çox ciddi dəyişikliklər baş verir. Bunları səciyyələndirərkən E.From hazırda şəxsiyyətin yeni – «bazar» tipinin formalaşdığını qeyd edir. Belə şəxsiyyət üçün gəlir əldə etmək, uğurlu sövdələşmələrə daxil olmaq məqsədi ön plana keçir. Nəticədə şəxsiyyətin ənənəvi mənəvi dəyərlərinin təsir dairəsi zəifləyir, onların yerini maddi mülahizələri ifadə edən dəyərlər tutur (268, s.27).

Qeyd olunmalıdır ki, müasir dövrdə ictimai həyatdakı ümumi dəyərlərin bu və ya digər fərdin şəxsi dəyərinə çevrilməsi prosesi sürətlənir. Bu proses şəxsiyyətin ümumi dəyərlərinin praktiki həyata keçirilməsində bilavasitə iştirakının genişlənməsi ilə izah olunur. Həmin yol ilə şəxsiyyətin daxilinə hopan dəyərlər onun həyat fəaliyyətini istiqamətləndirir, tənzim edir və mənalandırır. Sözügedən məqamı yüksək qiymətləndirərək V.Frankl yazırdı ki, mənalandırıcı, tənzimedici mexanizm şəxsiyyətin daxili aləminin nüvəsini təşkil edir (265, s.154).

Hazırda şəxsiyyətin daxili aləmi çox zəngin məzmuna malikdir. Burada onun tələbatları arzu, istək və cəhdlər formasında şəxsiyyətin dəyərləri ilə ideal şəkildə ifadə olunur.

İndiki dövrün şəxsiyyətini səciyyələndirərkən, burada şüurluluq amilinin artmaqda olan rolu qeyd olunmalıdır. Xüsusən də şüurun yüksək səviyyəsi olan mənlik şüuru insanın varlığının, onun həyat fəaliyyətinin mövcudluq üsulu kimi çıxış edir (232, s.51).

Müasir dövrdə şəxsiyyətin həyat fəaliyyətində baş verən digər bir əhəmiyyətli yenilik odur ki, bu proses biliklərlə və informasiya ilə getdikcə daha çox yaxınlaşır. İndi praktiki fəaliyyət ilə kommunikativ fəaliyyəti bir-birinə qarşı qoymaq olmaz, hətta

sonuncunu müstəqil fəaliyyət növü kimi ayırmaq olar. Müəyyən sosial birlik formasına məxsus kollektivdə şəxsiyyətin fəaliyyəti, onun yoldaşları ilə ayrılmaz əlaqələrdə baş verir, buna görə də həmin fəaliyyəti kommunikativ xarakter daşıyır.

Nəhayət, müasir şəxsiyyətin subyektliliyinin inkişafı onun «refleksiyası» ilə sıx bağlıdır. Refleksiya insan psixikasının öz vəziyyətini, münasibətlərini, yaşantılarını əks etdirmək qabiliyyəti, şəxsiyyətin öz dəyərlərini idarə edə bilmək məharəti deməkdir. O, insanın şüurunu onun öz daxili dünyasını dərk etməyə yönəldir. Bu isə şəxsiyyətə nəinki təkcə öz əməllərini, başqaları ilə münasibətlərini, dəyərlərini başa düşməkdə köməklik edir, həm də lazım gəldikdə onları dəyişdirərək, yeni əsaslar üzrə yaratmaq qabiliyyəti verir.

Qeyd olunmalıdır ki, refleksiya təkcə özünüanlama və özünü dərketmə demək deyildir. Onun tərkibinə həm də başqalarını başa düşmək və qiymətləndirmək ilə bağlı proseslər daxildir. Məhz refleksiyaların köməyilə şəxsiyyət öz şüurunu, dəyərlərini və rəylərini, öz əhatəsində olan insanların, sosial qrupların, bütövlükdə götürülən cəmiyyətin və ümumi sivilizasiyanın malik olduğu analoci göstəricilər ilə müqayisə edə və qiymətləndirə bilir.

Hər bir insan şəxsiyyətinin refleksiyalar dünyası rəngarəng və zəngindir, eyni zamanda fərdi xarakter daşıyır. Məhz refleksiya qabiliyyəti şəxsiyyətə səmərəli və mənalı həyat obrazları və hərəkətlər formalaşdırmaq, mənfi keyfiyyətlərdən qaçmaq imkanı verir.

Refleksiyanın mühüm bir xüsusiyyəti bundadır ki, o şəxsiyyətin öz dəyərləri və mətləblərinə müvafiq surətdə aktivliyini idarə etmək qabiliyyətini ifadə edir. Dəyişilən şəraitə, məqsədlərə və

fəaliyyət vəzifələrinə uyğun olaraq onları yeniləşdirmək məharətini göstərir.

Bütün yuxarıda təhlil olunan anlayışlar ümumilikdə müasir şəxsiyyətin həyat fəaliyyəti subyekti kimi daxili mənəvi dünyasının bir-birilə bağlı müxtəlif və zəruri tərəflərini əks etdirir. Məşhur psixoloq A.N.Leontyev göstərirdi ki, şəxsiyyət yalnız belə zəngin mənəvi dünyaya əsaslanmaqla özünün aşağıdakı əsas inkişaf formulunu əldə edir: əvvəlcə insan öz mövcudluğunu qoruyub saxlamaq üçün fəaliyyət göstərir, sonra isə öz mövcudluğunu fəaliyyət göstərmək, öz həyatını yaratmaq naminə qoruyub saxlayır (166, s.122).

Şəxsiyyətin sözün geniş mənasında anlaşılan mənəviliyi, daxili dünyası onun bütün həyatı ərzində qərarlaşır. Bu prosesin ümumi istiqamətlərindən birini fərdi şəxsi dəyərlərin yerini tədricən ümumbəşəri və ümummədəni dəyərlərə verməsi təşkil edir. Müasir dövrdə intensiv getməkdə olan qloballaşma prosesləri sözügedən meylin daha da sürətlənməsi üçün real şərait yaradır.

Müasir cəmiyyət hər bir insandan öz həyat yolunu düzgün müəyyənləşdirməyi və hərəkətləri üçün şəxsi, məsuliyyət hissi tələb edir. Əgər onun dəqiq müəyyən olunmuş həyat planı yoxdursa, onda şəxsiyyətin nəzərdə tutduğu perspektivi özünün əsas funksiyasından, yəni sosial prosesləri uzaqgörənliklə qiymətləndirmək əsasında öz davranışlarını məqsədyönlü tənzim etmək funksiyasından məhrum olur. Bununla yanaşı müasir dövrdə sosial gerçəklik sürətlə dəyişildiyi üçün nəzərdə tutulmuş perspektivlərin reallaşmasında müəyyən imkan – iddia ziddiyyətləri də özünü göstərə bilir. Təbiidir ki, analoji hallar şəxsiyyətin həyat fəaliyyətinə xeyli dərəcədə mənfi təsir göstərir. Buradan aydın olur ki, şəxsiyyətin öz perspektivini düzgün müəyyənləşdirmək

qabiliyyəti indi həmişəkindən daha vacibdir. Çünki, şəxsiyyətin perspektivliyi insanın təkcə öz gələcəyini irəlicədən görmək qabiliyyəti deyildir, o həm də indidən gələcəyə hazırlıq deməkdir (57, s.144-145).

Bu paraqrafda aparılan təhlil əsasında aşağıdakı nəticələrə gəlmək olar:

1. Müasir şəxsiyyətin həyatı prinsipcə yeni şəraitdə baş verir. Bu, indiki şəxsiyyət tipini keçmiş tarixi tiplərdən fərqləndirən özünəməxsus cəhətləri nəzərə almağı tələb edir. Şəxsiyyətin formalaşdığı müasir şərait özünün qlobal miqyasda və əsaslı surətdə yeniləşməsi ilə səciyyələnir. Bu keyfiyyət yeniliyi sosial həyatda aşağıdakı əsas amillərdə ifadə olunur: müstəqillik əldə olunduqdan sonra digər postsovet respublikalarında olduğu kimi Azərbaycanda da totalitar rejimin qalıqlarının aradan qaldırılmasını və açıq cəmiyyətə keçidi səciyyələndirən strateji xarakterli əsaslı dəyişikliklərin baş verməsi; ictimai həyatın bütün sahələrində əsaslı demokratikləşdirilmə xəttinin ardıcıl surətdə həyata keçirilməsi, köklü iqtisadi islahatlar nəticəsində mülkiyyət formalarının müxtəlifliyinə rəvac verilməsi və xüsusi mülkiyyətin rolunun artırılması; azad sahibkarlığın və bazar münasibətlərinin formalaşması; siyasi və mənəvi həyat sferalarında fikir və fəaliyyət azadlığına, plüralizmə və tolerantliğa geniş yer verilməsi; əhalinin mədəniyyət və şüurluluq səviyyəsinin yüksəlməsi; insanlarda mənlik şüurunun formalaşması və milli özünüdərk yolunda atılan mühüm addımlar və sair. Müstəqil dövlətimizin xarici siyasət sahəsində qazandığı böyük uğurları, neft strategiyasının qələbələri, ölkəmizin beynəlxalq miqyasda nüfuzunun möhkəmlənməsi və dünya birliyi ölkələri ilə daim artmaqda olan hərtərəfli inteqrasiyası prosesləri də mütləq bu siyahıya əlavə olunmalıdır.

2. Müasir şəxsiyyətin spesifik tipliliyini səciyyələndirən yeni şəraitin digər qrup amilləri insanın təbiətlə və ətraf mühit ilə olan münasibətlərinə aiddir. Hazırda sivilizasiya miqyasında və eləcə də ayrıca bir ölkə və şəxsiyyət səviyyəsində belə bir fikir qəti qərarlaşmışdır ki, insan özünün təbiətə münasibətini tamamilə yeniləşdirməli, onunla ağıllı və harmonik əlaqələr yaratmalıdır, əks təqdirdə bəşəriyyətin başının üstünü almış böyük ekoloji təhlükə onun gələcəyini öz təbii əsasından məhrum edə bilər. Ona görə də müasir ekoloji böhranı aradan qaldırmaq üçün bütün ölkələr və xalqlar, bütün insanlar birlikdə fəaliyyət göstərməlidirlər.

3. Yuxarıda göstərilən amillər bir-birilə qarşılıqlı təsirdə və vəhdətdə çıxış edərək, müasir şəxsiyyətin aşağıdakı əsas keyfiyyətlərini şərtləndirir: onun həyat və fəaliyyətində azadlığa doğru geniş imkanlar açılır; şəxsiyyətin davranış və hərəkətlərində daxili öztənzimləyici amillərin rolu artır; bu proseslərdə onun dövlət məcburiyyət və ümumi sosiomədəni normalardan asılılığı azalır; onun fəaliyyətinin bütün tərəflərində, həm strateci, həm də taktiki məqsədlərin irəli sürülməsi və həyata keçirilməsində şəxsi seçimin üfüqləri genişlənir; şəxsiyyətin öz sosial fəaliyyəti, fərdi, şəxsi əməlləri və eləcə də ekoloji hərəkətləri üçün məsuliyyəti çoxalır. Sonuncu məqam ilə bağlı qeyd edək ki, bu sahədə müstəqil, şəxsi amillərlə şərtlənmiş seçim qabiliyyəti çox mühüm rol oynamaqla, müasir şəxsiyyətin şüurunu keçmiş şəxsiyyət tiplərinin şüurundan fərqləndirən əsaslı fərq kimi çıxış edir.

4. Müasir şəxsiyyət tipi ümumilikdə cəmiyyətin tələbləri və vəzifələrinə, onların məzmununa və başlıca inkişaf istiqamətlərinə əsasən uyğun gəlir. Lakin müəyyən hallarda bu ümumi standartlardan kənara çıxma meyilləri də özünü göstərə bilir.

Sonuncu halda onlar idarəedici orqanlar tərəfindən diqqətlə araşdırılmalı, müsbət tərəflər təqdir olunub yayılmalı, mənfi tərəflər isə vaxtında aşkar edilib, tənzim olunmalıdır.

# II FƏSİL
# ŞƏXSİYYƏT MÜASİR TRANSFORMASİYA ŞƏRAİTİNDƏ

## 2.1 Müasir şəxsiyyət siyasi fəaliyyətin subyekti kimi

Milli müstəqillik əldə etdikdən sonra dövlət hakimiyyətinin xarakterinin əsaslı surətdə yeniləşməsi cəmiyyətin siyasi təşkilində şəxsiyyətin yerini və rolunu, onun siyasətə münasibətini tamamilə dəyişdi. Bu dövrdən etibarən demokratiya institutlarının məzmunu və onların şəxsiyyət ilə qarşılıqlı təsirinin mexanizmi prinsipcə yeni mahiyyət kəsb edir. Şəxsiyyət siyasi həyatın və siyasi fəaliyyətin subyektinə çevrilməyə başlayır. Bu prosesin əsas istiqamətlərini və yollarını açmazdan əvvəl qeyd olunmalıdır ki, siyasi fəaliyyət anlayışı çox mürəkkəb məzmuna malik olan spesifik fəaliyyət sahəsidir. Ümumiyyətlə götürdükdə «siyasi» anlayışı insanın təfəkkürünün və hərəkətlərinin əxlaqi, estetik və iqtisadi sahələrindən fərqlənən nisbi müstəqil sahəsini ifadə edir. Onun öz meyarları və göstəriciləri vardır (283, s.39).

Siyasət və siyasi münasibətlər son dərəcə mürəkkəb sahə olmaqla müəyyən fəaliyyətə əsaslanır və bu fəaliyyət gedişində qərarlaşan münasibətləri əhatə edir. Sözün ümumi mənasında siyasəti siyasi hakimiyyətin və bu hakimiyyətlə bağlı olan münasibətlərin reallaşdırılması kimi səciyyələndirmək olar.

Özünün müstəqil dövlətçiliyini quran bütün postsovet respublikaları üçün cəmiyyətin siyasi təşkili, siyasi proseslərə şəxsiyyətin fəal cəlb olunması ilə əlaqəli bütün məsələlər birinci dərəcəli əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası üçün isə bu problemin zəruriliyi birə on qat artır. Bu, ölkəmizin yerli şəraiti, tarixi ənənələri, dövlətçilik təcrübəsinin azlığı və burada yeni cəmiyyət quruculuğu proseslərinin lap əvvəldən millətlərarası

münaqişə ilə, Ermənistanın ərazi iddiaları və onun törətdiyi ağır nəticələr ilə izah edilir.

Nəzərdə tutmaq lazımdır ki, siyasi həyata məxsus olan çoxölçülülük keyfiyyəti özünü həm də şəxsiyyətin fəaliyyətində təzahür etdirir, yəni burada sırf siyasi xarakterli ölçülər ilə yanaşı, həm də müəyyən sosial-iqtisadi, struktur, funksional, sosial mədəni, tarixi və başqa göstəricilər də çox mühüm yer tutur.

Qeyd edək ki, elmi-nəzəri ədəbiyyatda siyasətin subyektlərinin birmənalı təsnifatı demək olar ki, yoxdur. Mütəxəssislərin bir qismi (E.Anutriyev, D.Zerkin və başqaları) göstərirlər ki, siyasətin ilkin subyektini böyük sosial qruplar, milli-etniki birliklər və bütünlükdə xalq təşkil edir, ikinci pillə siyasi partiyalar, ictimai-siyasi təşkilatlar və digər siyasi təsisatlar vasitəsilə təmsil olunur. Üçüncü pillə isə fərdi liderlər, ayrı-ayrı şəxsiyyətlərdir (125, s.82)

Digər qrup alimlər isə cəmiyyətin siyasi subyektlərinin ardıcıllığını müəyyən edərkən ilkin subyekt kimi ayrı-ayrı şəxsiyyətlərdən çıxış etməyi təklif edirlər (İ. Borisov, M.Əfəndiyev və başqaları) (75, s.99; 15, s.187)

Bizim fikrimizcə ikinci nöqteyi-nəzərin öz məntiqi vardır. Belə ki, həm ümumilikdə cəmiyyət miqyasında, həm də müxtəlif sosial birliklər səviyyəsində götürülən siyasi subyektlər nə isə bir mücərrəd varlıq olmayıb, onlarda təmsil olunan ayrı-ayrı konkret şəxsiyyətlərdir. Buna görə də siyasi subyektlərin təsnifatında şəxsiyyətdən çıxış edərək ümumiyə doğru getmək məqsədə uyğundur. Həm də nəzərdə tutmaq lazımdır ki, əsas məsələ sıra ardıcılığının ifadə olunmasında deyil, ümumi mahiyyətin aşkarlanmasındadır. Sonuncu mövqedən yanaşdıqda göstərilməlidir ki, cəmiyyət (xalq) sosial birliklər, siyasi təsisatlar

və şəxsiyyət siyasətin subyektləri olmaq etibarilə bir birilə ayrılmaz əlaqədə və sıx qarşılıqlı təsirdə fəaliyyət göstərirlər.

Şəxsiyyətin müasir cəmiyyətin siyasi həyatında iştirakı son dərəcə geniş və çoxtərəfli məzmuna malikdir. Bu prosesdə təkcə, mövcud siyasi reallıq deyil, həm də şəxsiyyətin özü subyekt kimi ciddi yeniləşməyə məruz qalır. Əvvəla, siyasi həyatda fəal iştirak etməklə o, özünün malik olduğu potensial imkanları üzə çıxarır, yaradıcı varlıq kimi siyasi həyatda özünü təsdiq edir. Digər tərəfdən şəxsiyyət siyasi fəaliyyət prosesində siyasi strukturlar ilə hərtərəfli əlaqələrini möhkəmləndirə və lazım gəldikdə onların fəaliyyəti üzərində nəzarət həyata keçirə bilir. Nəhayət, öz siyasi fəaliyyəti ilə şəxsiyyət, dövlət və ictimai işlərin idarə olunmasına yaranan demokratik tələbatı ödəyir, ünsiyyət mədəniyyətini yüksəldir, idarəçilik vərdişlərini daha da zənginləşdirir.

Şəxsiyyəti siyasi subyekt kimi səciyyələndirən üç başlıca keyfiyyət vardır: siyasi şüur, siyasi təşkilatçılığ və siyasi fəallıq. Şəxsiyyətin siyasi şüuru onun öz siyasi mənafelərini dərk etmə səviyyəsini, siyasi münasibətlər sistemində yeri və rolunu necə başa düşdüyünü, onun mənlik şüuru və siyasi mənlik şüurunu, nəhayət siyasi fəaliyyətinin nəticələrini anlamasını – siyasi məsuliyyətini əhatə edir. Siyasi təşkilatçılıq şəxsiyyəti siyasi fəaliyyətdə özünü necə təşkil və səfərbər edə bilməsini, siyasi mənafelərini siyasi fəaliyyətdə hansı səviyyədə reallaşdıra bilməsini səciyyələndirir. Nəhayət, siyasi fəallıq şəxsiyyətin siyasi fəaliyyətinin intensivlik dərəcəsini, onun aktivliyini və məqsədyönlülüyünü ifadə edir.

Bütövlükdə şəxsiyyətin subyektivlik keyfiyyətini əks etdirən bu göstəricilər bir-birilə sıx əlaqədə və qarşılıqlı təsirdə çıxış edir.

Elmi ədəbiyyatda şəxsiyyətin siyasi subyektivliyinin aşağıdakı əsas meyarlara malik olduğu göstərilir:

- Şəxsiyyətin müəyyən şüurluluğa və mütəşəkkillik səviyyəsinə malik olmaqla, həyata keçirdiyi siyasi fəaliyyət qabiliyyəti, siyasi qərarların qəbul edilməsində və yerinə yetirilməsində iştirakının imkanları;

- Şəxsiyyətin müxtəlif sosial birliklərə və qruplara ideoloji, təşkilatı və tərbiyəvi təsirinin səviyyəsi;

- Siyasi fəaliyyəti müstəqil və sərbəst həyata keçirmək, onu tənzim etmək məharəti;

- Şəxsiyyətin öz siyasi fəaliyyətinin törədə biləcəyi mühüm ictimai nəticələri irəlicədən görə bilməsi və lazım gəldikdə bu fəaliyyətdən imtina etmək bacarığı. (16, s.185)

Müasir şəxsiyyətin siyasi fəaliyyətinin başlıca obyektlərini cəmiyyətin siyasi və hüquqi münasibətləri və təsisatları təşkil edir. O öz siyasi mənafelərini reallaşdırmaq üçün ya onları möhkəmləndirməyə çalışır, ya da onları yeniləşdirmək uğrunda mübarizə aparır.

Fəlsəfi ədəbiyyatda şəxsiyyətin fəaliyyətini şərtləndirən amillərin tələbat, mənafe və məqsəd olduğu fikri geniş yayılmışdır (67, s.184). Bu eynilə də onun siyasi fəaliyyət növünə aiddir. Yeganə fərq burasındadır ki, siyasi fəaliyyətdə bu amillər konkretləşmiş şəkildə, yəni siyasi tələbatlar, siyasi mənafelər və siyasi məqsədlər formasında çıxış edir. Lakin nəzərdə tutmaq lazımdır ki, şəxsiyyətin mənafeyi onun şüurunda heç də həmişə adekvat əks olunmur. Müxtəlif səbəblər (cəmiyyətin ümumi yetkinlik səviyyəsinin aşağı olması, konkret şəxsiyyətin kifayət qədər inkişaf etməməsi, ona göstərilən ideoloji təzyiqin güclü olması və s.) üzündən mənafe şəxsiyyətin şüurunda təhrif olunmuş formada və ya illiziyalı şəkildə də inikas edə bilir. Sonuncu vəziyyət şəxsiyyətin nəzəri şüurundan daha çox onun adi, empirik səviyyəsində

müşahidə olunur. Açıq cəmiyyətə keçid dövründə şəxsiyyətin yuxarıda qeyd olunan göstəricilərində ciddi irəliləyişlər baş verir. Totalitarizm rejimi nəinki təkcə siyasi həyatda kor-koranə itaət təlqin edirdi, həm də özünün spesifik psixologiyasını və təfəkkür stilini yaradırdı ki, burada hakimiyyətə pərəstiş, insan hüquqlarına hörmətsizlik, sadə yollarla, düşünmədən qərar qəbul etmək əsas yer tutur (110, s.122).

Müasir dövrdə şəxsiyyətin siyasi fəaliyyətinin strukturu da xeyli dərəcədə mürəkkəbdir. Burada ilk öncə yaxın (taktiki) və perspektiv (strateji) siyasi məqsədləri düzgün müəyyənləşdirmək məharəti (cəmiyyətdə real siyasi qüvvələrin yerləşmə vəziyyəti və onların nisbətindən çıxış etməklə) qeyd olunmalıdır.

Siyasi fəaliyyətin ikinci mühüm struktur ünsürü şəxsiyyət tərəfindən öz siyasi məqsədini həyata keçirmək üçün səmərəli metodların, vasitələrin və formaların seçilməsidir.

Siyasi cəhətdən yetkin şəxsiyyət öz fəaliyyətində geniş dünyagörüşü, müdrikliyi və siyasi təcrübəni düzgün əlaqələndirməklə, nəinki təkcə siyasi vəziyyəti düzgün təhlil etməyi bacarır, o həm də siyasi prosesləri əvvəlcədən xeyli dərəcədə dəqiqliklə proqnazlaşdırmaq qabiliyyətinə malik olur. Bu keyfiyyət onun siyasi fəallğını daha yaradıcı və geniş miqyaslı edir.

Şəxsiyyətin siyasi fəalığının inkişafı yeni cəmiyyətin yaranması dövrünün zəruri şərti və ayrılmaz tərkib hissəsidir. Hazırda ictimai həyatın bütün sferalarında özünü göstərən əsaslı və dərin dəyişikliklər, demokratikləşmənin ardıcıl və hərtərəfli həyata keçirilməsi, şəxsiyyətin siyasi fəallığının artması ilə bilavasitə bağlıdır. Bu təsadüfi olmayıb, açıq cəmiyyət quruculuğunda iqtisadi, sosial və mənəvi sahələrdə olduğu kimi siyasi həyatda da insan amilini fəallaşdırılmağın müstəsna də-

rəcədə böyük əhəmiyyəti ilə izah olunur. İndi siyasi fəallığın artırılması cəmiyyətimizin qarşısında duran geniş miqyaslı və mürəkkəb vəzifələr kompleksinin həllinin əsas amillərindən birinə çevrildiyi üçün, onun real vəziyyətinin təhlili, gələcək inkişafının yolları və vasitələrinin axtarıb tapılması, təkcə nəzəri baxımdan deyil, eləcə də praktiki mənada son dərəcə zəruridir.

Həm də nəzərdə tutmaq lazımdır ki, müasir şəraitdə baş verən demokratikləşmə prosesləri şəxsiyyətin siyasi fəallığının təzahürünü, habelə onun real tətbiqi sahələrinin miqyasını ciddi surətdə genişləndirir. Nəticədə bir tərəfdən şəxsiyyətin həyat fəaliyyətinin spesifik forması kimi siyasi fəallığın özü inkişaf edir və yeni məzmunla tamamlanır, digər tərəfdən isə onun sosial fəallığın başqa növlərini birləşdirici özək olması funksiyası daha da güclənir.

Müasir cəmiyyətin siyasi sistemində həyata keçirilən əsaslı islahatlar, şəxsiyyətin siyasi fəaliyyətini, siyasi münasibətlər sferasına daxil olmasının xarakterini və üsullarını əsaslı surətdə yeniləşdirir ki, bu da öz növbəsində onun siyasi fəallığı qarşısında əvvəllərdə görünməmiş yeni üfüqlər açır. Digər tərəfdən, siyasi fəallığın artması insanın şəxsiyyət kimi yetişməsində çox mühüm rol oynayır.

Deyilənlərdən aydın olur ki, siyasi fəallıq müasir şəxsiyyətin strukturunda müstəsna dərəcədə ciddi rola malik komponentdir və «yalnız onun ümumi mahiyyətini və konkret təzahür formalarını, onu sosial keyfiyyət kimi səciyyələndirən cəhətləri və xüsusiyyətləri dərindən təhlil etməklə onu məqsədyönlü şəkildə formalaşdırmaq və inkişaf etdirmək olar».

Şəxsiyyətin siyasi fəallığının mahiyyəti və konkret təzahür formalarını araşdırmaqdan əvvəl öncə bu anlayışın məzmununu

açmaq tələb olunur. Bununla əlaqədar qeyd edək ki, fəlsəfi-sosioloji ədəbiyyatda şəxsiyyətin siyasi fəallığının mahiyyəti, xüsusiyyətləri və funksiyaları haqqında vahid rəy demək olar ki, yoxdur. Bəzi tədqiqatçılar onu əsas iş vaxtından əlavə və ondan sonra baş verən fəaliyyət kimi səciyyələndirirlər ki, bununla razılaşmaq çətindir (153, s.7)

Siyasi fəallıq anlayışının məzmunu çox geniş olub, şəxsiyyətin siyasətdə iştirakının müxtəlif formalarının məcmusunu ifadə edir. Siyasi fəallıq, əmək fəallığı və mənəvi fəallıqla yanaşı sosial fəallığın çox mühüm növü olmaqla, onun siyasi münasibətlər sisteminə cəlb olunması dərəcəsini, ölçüsünü və səviyyəsini əks etdirir, şəxsiyyətin ictimai vəzifələrin həllində iştirakının göstəricisidir (63, s.220)

Müasir şəraitdə şəxsiyyət aktiv siyasi fəaliyyətin subyekti kimi cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrinin inkişafının müəyyənedici amillərindən birinə çevrilir. Hazırda siyasi fəallıq şəxsiyyətin təkcə siyasi və ictimai institutların formalaşmasında və fəaliyyətində bilavasitə və yaxından iştirakı ilə məhdudlaşmır, həm də şəxsiyyətin işgüzarlığını və öz iş yerində səlahiyyətliliyinin, özünütərbiyə və özünütəkmilləşdirməsinin qüdrətli vasitəsi kimi çıxış edir.

Deyilənlər sübut edir ki, şəxsiyyətin siyasi fəallığına onun həyat fəaliyyətinin spesifik forması kimi yanaşmaqla, onu inteqrativ və polifunksional xarakter daşıyan bütöv proses kimi araşdırmaq tələb olunur.

Müasir şəxsiyyət tipinin siyasi fəallığının məzmununda yaranan yeni keyfiyyət hər şeydən əvvəl bunda təzahür edir ki, ardıcıl və hərtərəfli demokratikləşmə şəraitində bir tərəfdən şəxsiyyətin siyasi hakimiyyətin reallaşdırılmasında iştirakının

dərəcəsi qeyri-adi dərəcədə artır, onun ənənəvi təzahur formaları yeniləri ilə zənginləşir, digər tərəfdən, şəxsiyyətin həyat fəaliyyətinin başqa sahələri ilə onun qarşılıqlı əlaqələri daha da möhkəmlənir, siyasi fəallığın həmin sahələrə nüfuz etməsi prosesi sürətlənir.

Şəxsiyyətin siyasi fəallığı mövcud ictimai münasibətlərin xarakteri, məzmunu və inkişafı istiqamətləri, real əmək bölgüsü formaları əsasında formalaşsa da, bu prosesdə şəxsiyyətin öz fəaliyyətində yerinə yetirdiyi konkret ictimai funksiyalar da çox mühüm rol oynayır. Onun mahiyyəti cəmiyyətdə real siyasət və siyasi münasibətlərdən törəyir və şəxsiyyətin dövlətə, onun müxtəlif strukturlarına, habelə ictimai siyasi təşkilatlara və birliklərə münasibətində təzahur edir. Şəxsiyyətin siyasi fəallığının nəzəri təhlilində aşkara çıxan ilk məqamlardan biri onun polifunksional xarakter daşımasıdır, yəni siyasi fəallıq müxtəlif çoxsaylı funksiyalar (yaradıcı-idarəedici, icraedici və ideya-tərbiyəvi) yerinə yetirir. O eyni zamanda şəxsiyyətin sosial-siyasi həyatda praktiki iştirakı səviyyəsini müəyyən edən mühüm göstəricidir. Siyasi fəallıq hər şeydən əvvəl siyasi sferada təzahür edir, cəmiyyətin siyasi sisteminin mövcudluğu və inkişafının güclü vasitəsi rolunu oynayır. Lakin siyasi fəallığın mühüm bir xüsusiyyəti odur ki, o təkcə yönəldiyi obyektin dəyişilməsi ilə məhdudlaşmır, həm də onun daşıyıcısı olan subyektin – şəxsiyyətin özünü də dəyişdirir. Sonuncu baxımdan yanaşdıqda siyasi fəallıq şəxsiyyətin ideoloji, mənəvi-intellektual və əxlaqi keyfiyyətlərini əhatə edən dinamik və yaradıcı proses kimi çıxış edir. Buna görə də siyasi fəallıq şəxsiyyəti təkcə şüurlu vətəndaş kimi deyil, həm də öz qüvvə və biliklərini cəmiyyətin təkmilləşməsinə yönəldən yaradıcı subyekt kimi səciyyələndirir.

Müasir cəmiyyətdə şəxsiyyətin siyasi fəallıqı ilə digər fəallıq növləri arasında qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq durmadan çoxalır ki, bu da insanların açıq cəmiyyət quruculuğuna yönəlmiş sosial-siyasi yaradıcılığını əks etdirir.

Şəxsiyyətin siyasi fəallığını araşdırarkən onun daxili tərkibinin mürəkkəb və təhlilə çətin məruz qalan xarakterini də qeyd etmək lazımdır. Hər şeydən əvvəl siyasi fəallığın meyarlarını və göstəricilərini müəyyənləşdirmək tələb olunur. Ən böyük çətinlik isə həmin göstəricilərin şəxsiyyətin əsl daxili yaradıcılıq mahiyyətini əks etdirdiyini, yoxsa zahiri, səthi empirik məna daşıdığını bir-birindən ayırmaqdır. Sonra, şəxsiyyətin siyasi fəallığının konkret məzmununa nüfuz etmək tələb olunur, yəni onun həmin şəxsin öz mənafelərini yerinə yetirməklə yanaşı, həm də cəmiyyətin ümumi maraqları ilə ziddiyyət təşkil etmədiyi açıqlanmalıdır.

Deyilənlər sübut edir ki, müasir dövrdə şəxsiyyətin siyasi fəallığını şərtləndirən amillər kompleksindən əsas determinantları seçib ayırmaq və təhlili onların əsasında aparmaq zəruridir. Sözügedən amillər obyektiv və subyektiv səpkiləri əhatə etməklə, geniş məzmuna malikdir. Əsas etibarilə şəxsiyyətin iqtisadi, sosial, demoqratik və sosial psixoloji səciyyələrini ifadə edir. İqtisadi amillər qrupunda əməyin xarakteri və məzmunu əsas yer tutur, onu ifadə edən ixtisas dərəcəsi, mədəni-texniki səviyyə, təhsil və sair göstəricilər qarşılıqlı təsirdə çıxış edərək şəxsiyyətin fəallığında çox mühüm rol oynayır. Sözügedən amillər qrupunun şəxsiyyətin siyasi fəallığına təsiri həm də onların işçinin asudə vaxtının həcmi vasitəsilə özünü göstərir. Yəni şəxsiyyətin çalışdığı konkret əmək növü onun məzmunu nə qədər çox asudə vaxt yaradırsa, həmin

işçinin bir şəxsiyyət kimi siyasi fəallıq göstərməsi üçün daha çox imkanlar açılır.

Siyasi fəallıq səviyyəsinə sosial-demoqrafik amillər də əhəmiyyətli təsir göstərir. Təhlil sübut edir ki, bir qayda olaraq siyasi fəallıq kişilərdə qadınlara nisbətən yüksək olur. Eynilə də gənclər yaşlılara nisbətən siyasi proseslərə daha dərindən müdaxilə etməyə həvəs göstərirlər.

Nəhayət, şəxsiyyətin fəallığında sosial-psixoloji xarakterli amillər (tələbat, maraq, məqsəd, motiv, dəyər oriyentasiyaları və s.) böyük rol oynayır. Onlar həm siyasi fəallığın stumullaşdırılmasında, həm də onun şəxsiyyət baxımından dəyərliliyinin müəyyən edilməsində müstəsna dərəcədə mühüm yer tutur.

Şəxsiyyətin siyasi fəallığı, onun fəaliyyətinin daha mütəşəkkil və səmərəli təşkil edilməsi üçün vasitələr və yollar axtarmağa yönəlir. Onun düzgün təşkil və tənzim edilməsi cəmiyyətdə baş verən əsaslı yeniləşmə proseslərinin çox mühüm subyektiv dayağı rolunu oynayır.

Müasir Azərbaycan cəmiyyətində şəxsiyyətin formalaşdığı və inkişaf etdiyi ümumi siyasi şəraiti aşağıdakı kimi səciyyələndirmək olar: onun həyat fəaliyyətinin bütün sahələrinin əsaslı surətdə dəyişilməsi və keyfiyyətcə yeni sosial zəmin üzərinə qoyulması; onun təbiətində, sosial statusunda, rolunda, funksiyalarında müasir dövrün xarakterinin şərtləndirdiyi cəhətlərin təzahur etməsi (stabilliyin əldə olunmasının çətinlikləri, bəzi hallarda sosial patalogiya əlamətləri ilə müşayiət olunan qeyri-sabitlik ünsürlərinin özünü göstərməsi, baş verən dəyişikliklərin qeyri-adekvat mənalandırılması nəticəsində yaranan qeyri-müəyyənlik və hətta ümidsizlik əhval ruhiyyəsinin özünü göstərməsi); ictimai həyatın bütün sahələrində ümumi nəzarətdən vaxtaşırı çıxma

hallarının təzahürü; özünü tənzimetmə və ictimai tənzimetmə arasındakı nisbətin ikinci tərəfin xeyrinə dəyişilməsi; dövrün ziddiyyətlərinin və çətinliklərinin şəxsiyyətdə öz müvafiq ifadəsini tapması; sosiumun ilkin özəyi olan şəxsiyyətin sosial özünü hiss etməsində nasazlıqlar; müasir dövrdə özünü göstərən digər çətinliklər – istehsalın zəif sürətlə inkişafı və çox vaxt isə öz yerində sayması, yaşayış səviyyəsinin aşağı olması, bazar münasibətlərinin törətdiyi işsizliyin qalması, əhalinin sosial təbəqələşməsinin güclənməsi və yoxsulluq, milli etnik münaqişələr nəticəsində minlərlə insanın çəkdiyi əzab-əziyyətlər və sair. Bütün bunların nəticəsində bəzən şəxsiyyətdə frusturasiya halları özünü göstərir. Bununla əlaqədar qeyd edək ki, yaradılmaqda olan bazar iqtisadiyyatı və hüquqi dövlət quruculuğu yolunda atılan addımlar şəxsiyyətə göstərdiyi təsir baxımından çox önəmlidir. Lakin nəzərdə tutmaq lazımdır ki, onlar yenicə formalaşır və buna görə də şəxsiyyətin yeni keyfiyyət modelinin yaranmasına hələlik o qədər də effektiv təsir göstərə bilmir. Həmin prosesin uğuru bir qədər tarixi müddət keçməsini tələb edir.

Şəxsiyyətin siyasi fəallığı cəmiyyətimizdə gedən sosial və siyasi proseslərin ayrılmaz vəhdətini ifadə edir. Onun daxili məzmununa yanaşdıqda aşağıdakı iki tərəf aydın görünür: a) polifunksionallığı və b) şəxsiyyət ilə cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrinə spesifik təsiri.

Qeyd olunan münasibətdə hazırda Azərbaycanda böyük uğurlar əldə olunmasına baxmayaraq, bu sahədə görüləsi iş çoxdur. İctimai inkişafın gedişi və həyata keçirilməkdə olan vəzifələrin genişmiqyaslılığı və mürəkkəbliliyi şəxsiyyətlərin sosial-siyasi həyata cəlb olunmasını yaxşılaşdırmağı, bu işin formalarını, metodlarını, vasitələrini daha da təkmilləşdirməyi, ona xidmət

edən yeni-yeni yollar axtarıb tapmağı və həyata keçirməyi tələb edir.

Demokratik prinsiplərə əsaslanan cəmiyyətdə şəxsiyyətin siyasi fəallığını tam gücü ilə hərəkətə gətirmək üçün indi fəaliyyət göstərən çoxsaylı ictimai təşkilatların və birliklərin yaradıcı işini daha da dolğunlaşdırmaq tələb olunur (onların ümumi yönümünün iqtidar və yaxud müxalifət istiqamətliliyindən asılı olmayaraq). Bu onunla şərtlənir ki, demokratik cəmiyyət yaratmağın çox mühüm şərti və vəzifəsi vətəndaşların dövlət və ictimai idarəçiliyə kütləvi surətdə cəlb olunması ilə kifayətlənməyərək, onların hamısının bu işə cəlb olunmasını təmin etməkdir. Sözügedən məqsədə nail olmaq üçün ictimai təşkilatlar ilə dövlət orqanları arasında qarşılıqlı təsirin effektiv mexanizmini işləyib hazırlamaq və həyata keçirmək çox zəruridir. Onun reallaşması ictimai – siyasi təşkilatların siyasi həyatda və eləcə də ictimai həyatın digər sferalarında fəaliyyətini və təsir gücünü artırır, digər tərəfdən isə onlarda təmsil olunan şəxsiyyətlərin siyasi fəallığını daha yüksək və səmərəli edir.

İnsan şəxsiyyətinin siyasi fəallığının yönəldiyi konkret istiqamətlər sırasında əsas yeri onun dövlət hakimiyyətinin həyata keçirilməsində real iştirak göstəriciləri tutur.

Müasir Azərbaycan cəmiyyətinin siyasi təşkilini səciyyələndirən başlıca prinsipi milli, suveren dövlətin möhkəmləndirilməsi təşkil edir. Milli suverenlik millətin (xalqın) öz sosial və siyasi quruluşunu seçim azadlığı, ərazi bütövlüyünün qorunması və iqtisadi müstəqilliyi deməkdir (231, s.478)

Lakin dövlət o vaxt sözün əsl mənasında milli suveren maraqları qoruya və inkişaf etdirə bilir ki, onun vətəndaşları onun daxili və xarici siyasətini bəyənib müdafiə etsinlər və onun

reallaşdırılmasında siyasi fəallıq göstərərək yaxından iştirak etsinlər.

Beləliklə dövlətin milli suverenliyi təkcə beynəlxalq miqyasda hüquq normalarına əməl etməklə məhdudlaşmır, həm də ölkə daxilində iqtisadi, mədəni və xüsusilə də siyasi sferada normal münasibətlərin yaradılmasını nəzərdə tutur. Dövlət suverenliyinin daxili siyasi münasibətlər ilə sıx əlaqəsi həm də bunda təzahür edir ki, o daxildə xalqın azadlığının, digər, siyasi dəyərlərin qarantı kimi çıxış edir: «yalnız dövləti olan xalq daim ali marağa əməl edərək azadlığına, ərazi bütövlüyünə, müstəqilliyinə ən öncül siyasi dəyərlər kimi qayğı göstərir, onları müdafiə edir» (137, s.305-306). Təsadüfi deyildir ki, müasir siyasi hüquqi ədəbiyyatda siyasi hakimiyyətin mürəkkəb məzmununu ifadə edən amillər sırasında insanlar arasında sosialmədəni və sosialsiyasi münasibətlərin müxtəlif vasitələrlə (hüquq, nüfuz, iradə, məcburiyyət və s.) tənzim olunması xüsusi olaraq seçilib götürülür (242, s.82-84). Deyilənlər sübut edir ki, dövlət, siyasi hakimiyyət olmaqla sosiumun müxtəlif təbəqələri, o cümlədən də, onların təmsil olunduqları müxtəlif birliklər və partiyalar arasında münasibətləri tənzim edən başlıca sosial institutlardan biridir. Bu tənzimləmə ictimai razılığın əldə edilməsinə və müxtəlif qruplar arasındakı gərginliyin aradan qaldırılmasına yönəlmişdir (115, s.108-112).

Müasir cəmiyyətimizin siyasi sisteminin inteqrativ keyfiyyətini və özəyini təşkil edən milli müstəqil dövlətin əsasları çox yaxın müddət ərzində qoyulmasına baxmayaraq, əhəmiyyətli uğurlar qazanmaqdadır. Bunun mühüm bir səbəbi Azərbaycanın əvvəlki inkişaf dövrlərində toplanmış milli dövlətçilik ənənələrindən və təcrübəsindən səmərəli istifadə olunmasıdır. Müstəqil milli dövlət ölkəmizdə siyasi hakimiyyətin başlıca mənbəyi və

təcəssümüdür. Buradan aydındır ki, şəxsiyyətin siyasi fəaliyyəti də onunla sıx bağlı şəkildə baş verir. Dövlətin mahiyyətinin, tarixi təyinatının, idarəçilik formalarının bir çox cəhətdən onun şəxsiyyət ilə yaratdığı münasibətlərdən asılı olduğu haqqında ümumi müddəa müasir milli dövlətə də tam dolğunluğu ilə tətbiq oluna bilər.

Milli müstəqil dövlətin əhalinin siyasi konsolidasiyası və idarə olunması istiqamətində göstərdiyi fəaliyyətin mexanizmi təbiidir ki, özündə müəyyən zorakılığı da əhatə edir və etməlidir. Nə qədər ki, bizdə vətəndaş cəmiyyəti tam qərarlaşmamışdır, burada özünütəşkil və idarə etmə mexanizimləri üstünlük təşkil etmir, əsas yeri dövlət idarəçiliyi metodları tutur.

Dövlətin tərkibinə inzibati-idarəedici aparat, qanunverici və icraedici orqanlar daxildir. Onlar insanların idarə olunmasının hakimiyyətə arxalanan xüsusi fəaliyyət növünü əks etdirir. Onun obyekti dövlətin vətəndaşları, onların qabiliyyətləri, əmək prosesində istifadə etdiyi vasitələr, insanların bilikləri, qanunlar və ünsiyyət vasitələridir. Bu, idarəçilik vasitələri, hüququn və siyasi ideologiyanın qanunları və qaydaları, mülki idarəçiliyi tənzim edən normativlər və xüsusi silahlı dəstələrdir. Onun subyekti idarəçilik işini həyata keçirən işçilərdir.

Siyasi hakimiyyət geniş məzmunlu və çoxtərəfli mexanizmi əhatə edən bütöv bir sistemdir. O özündə dövlətdən əlavə aşağıdakı əsas ünsürləri birləşdirir: siyasi partiyalar və hərəkatlar, həmkarlar təşkilatı və müxtəlif ictimai təşkilatlar. Bütün bunlar siyasi hakimiyyətin cəmiyyət tərəfindən rəsmi tanınmış icraçıları kimi çıxış edirlər. Bununla əlaqədar olaraq A.Spirkinin aşağıdakı fikri ilə razılaşmaq olar ki, «demokratik dövlət şəxsiyyəti müstəqil ali dəyər kimi qiymətləndirmək və onun ləyaqətinə qayğı ilə

yanaşmağı, onun təşəbbüskarlığını və seçim azadlığını nəzərdə tutur. İnsanın zəkasına və azadlığına inam demokratiyanın çox mühüm prinsipidir» (237, s.688).

Hakimiyyət ilə siyasi münasibətlər, cəmiyyətin siyasi təşkili bir-birilə ayrılmaz əlaqədədir. Bir tərəfdən hakimiyyəti ələ almaq və onu qoruyub saxlamaq siyasi həyatın və siyasətin başlıca məqsədidir. Digər tərəfdən isə hakimiyyətin ümumi olması onun insanların fəaliyyətinin bütün sahələrinə (və birinci növbədə siyasi fəaliyyətə) nüfuz etməsini şərtləndirir, eynilə də siyasət ilə münasibətdə ilkin rol oynadığını göstərir.

Siyasi hakimiyyətin subyekti olmaq etibarilə şəxsiyyət onun sərəncamında olan bütün müxtəlif vasitələrə müvafiq surətdə və onlardan istifadə etməklə öz iradəsini həyata keçirir. Lakin nəzərdə tutulmalıdır ki, şəxsiyyətin bu qəbildən yerinə yetirdiyi funksiyalar real və potensial formada çıxış edir. Birinci onu ifadə edir ki, bu və ya digər şəxsiyyət mövcud hakimiyyət strukturlarının hər hansı birində fəaliyyət göstərir və onun malik olduğu qanunlardan, normalardan, tələblərdən, yasaqlardan, digər iradi və emosional təsir vasitələrindən istifadə edir. Şəxsiyyətin hakimiyyətdən istifadəsinin potensial vəziyyəti isə o deməkdir ki, bu və ya digər şəxsiyyət müxtəlif səbəblər üzündən hakimiyyət orqanlarında onun icraedici, qanunverici və məhkəmə qollarında bu gün iştirak etmir, lakin gələcəkdə o buna tam nail ola bilər. Xüsusilə də müasir cəmiyyətdə demokratik qaydaların və prinsiplərin tətbiqi, şəxsiyyətin bu potensial imkanlarını reallaşdırmaq üçün lazım olan bütün real şəraiti yaradır.

Dövlət siyasi hakimiyyətin xarakteri və siyasi idarəetmə formasından asılı olaraq rəsmi və qeyri-rəsmi təşkilatlar və orqanlar yaradır və hakimiyyət funksiyalarını həyata keçirir.

Hakimiyyətin institusionallaşması adlanan bu proses demokratik prinsiplərə əsaslandıqda şəxsiyyətin siyasi fəaliyyəti üçün daha əlverişli şərait yaradır. Əks təqdirdə, yəni siyasi hakimiyyət totalitarizmə arxalandıqda, yuxarıda sözügedən strukturlar adekvat rolunu yerinə yetirə bilmir, nəticədə şəxsiyyətin siyasi fəaliyyət dairəsi məhdudlaşır və onun fəallığı zəifləyir. Demokratik prinsiplərə söykənən hakimiyyət xalq tərəfindən rəğbətlə qarşılanır, xalq ona tabe olur və onu legitim hesab edir. Legitim hakimiyyət isə insanlar tərəfindən ədalətli və qanuni hakimiyyət kimi qəbul olunur (169, s.228).

Müasir cəmiyyətin siyasi sistemi şəxsiyyətə siyasi proseslərdə özünü göstərə bilməsi üçün geniş imkanlar spektri verir. Bu bütövlükdə cəmiyyətimizin siyasi sisteminin yeni məzmun və xarakteri kəsb etməsi ilə izah olunur. Totalitar recimdə şəxsiyyət ilə mövcud siyasi sistem bir-birindən tam aralanmış vəziyyətdə idi, daha dəqiq desək, dövlətin sərt rejimi şəxsiyyətin bu münasibətdə olan imkanlarını boğur və onların gerçəkləşməsinə şərait yaratmırdı. Bundan fərqli olaraq müasir dövrdə qərarlaşan siyasi sistem özündə açıq cəmiyyətə xas olan keyfiyyətləri getdikcə daha çox biruzə verməklə, şəxsiyyətin siyasi fəaliyyətinə əlverişli şərait yaradır. Burada dövlət və ayrı-ayrı siyasi institutlar, şəxsiyyətə siyasi proseslərdə iştirak etmək üçün çoxlu formalar, üsullar və yollar təklif edir, onun bu baxımdan olan funksiyalarını son dərəcə genişləndirir.

Bununla əlaqədar qeyd edək ki, şəxsiyyətin cəmiyyətdə oynadığı siyasi rol iki növdə (formal və qeyri formal) çıxış edir. Birinci əsasən qanunlar, müxtəlif qaydalar, vəzifə təlimatları və sair vasitəsilə özünü göstərir. İkinci isə şəxsiyyətin qeyri-formal siyasi rolunu ifadə edir. Sonuncu halda şəxsiyyət daha çox özünün

siyasi proseslərdə yeri və əhəmiyyəti haqqında təsəvvüründən çıxış edərək siyasətə qoşulur və burada öz siyasi rolunu oynayır. Bunlarla yanaşı şəxsiyyət rəsmi rola da malik olur (deputat, siyasi hakimiyyətin müxtəlif pillələrinin məmuru, hakim və sair). Siyasət sferasında qərarlaşan aşağıdakı iki tip münasibətlər: a) şaquli-subyekt və obyekt münasibətləri, b) üfüqi istiqamətdə özünü göstərən subyekt-subyekt və obyekt-obyekt münasibətləri şəxsiyyətin siyasi fəallığına və bütövlükdə siyasi fəaliyyətinə çox güclü təsir göstərir.

Hər bir cəmiyyətdə olduğu kimi, müasir dövrdə də cəmiyyətin siyasi həyatı və sistemi insanların fəaliyyəti nəticəsində formalaşır. Məhz onlar (təbii ki, şəxsiyyətlər) siyasi prosesə daxil olmaqla mövcud siyasi sistemin imkanlarını reallaşdırmağa çalışırlar. Siyasi prosesə cəlb olunmuş hər bir şəxsiyyət real gercəklikdən çıxış edərək və ictimai şüurda siyasi fəaliyyətlə bağlı stereotiplərin təsiri altında, mədəni səviyyəsinə arxalanmaqla siyasi baxımdan fikirləşir və hərəkət edir. Şəxsiyyət özünün malik olduğu mənafe və tələbatlarını yuxarıdakı amillər ilə həm intuitiv və həm də zəka səviyyəsində müqayisə edir, ölçüb-biçir və sonra siyasi fəaliyyətə başlayır. Deyilənlər sübut edir ki, siyasət sferasında şəxsiyyətin mənafeləri ilə onun hərəkətləri arasında qarşılıqlı əlaqələr birbaşa və bilavasitə deyil, dolayısı ilə, yəni yuxarıda qeyd olunan göstəricilərdən keçərək baş verir.

Şəxsiyyətin siyasətdə iştirakı onun mənafeləri, imkanları, psixikasının fərdi xüsusiyyətləri və siyasi mədəniyyət səviyyəsini əhatə edən amillər məcmusunun təsiriilə baş verir. Məhz bu amillər kompleksi konkret şəxsiyyətin siyasi davranışının hüdudlarını ifadə edir. Lakin bu məsələdə əsas yeri şəxsiyyətin istəyi və imkanları deyil, ümumilikdə cəmiyyətdə vətəndaşların

siyasi fəaliyyəti üçün yaradılmış şərait tutur. Həm də nəzərdə tutulmalıdır ki, onların yalnız müəyyən hissəsi hakimiyyət ilə bağlı münasibətlərə daxil olur, qalan tərəf isə qeyri-siyasi xarakter daşıyır. Odur ki, hər bir insan özündə eyni zamanda dövlət idarəçiliyinin, vətəndaş cəmiyyətinin ünsürlərini ifadə etdiyi kimi, siyasi və həm də qeyri-siyasi komponentləri də birləşdirir (130, s.123)

Şəxsiyyətin siyasi fəallığının inkişafı cəmiyyətimizdə gedən siyasi proseslər, burada sabitliyin bərqərar olması və demokratik islahatların həyata keçirilməsi ilə bilavasitə bağlıdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra sözügedən istiqamətlərin hər birində əhəmiyyətli irəliləyişlər əldə etmişdir. 90-cı illərin əvvələrində Azərbaycanda siyasi proseslər nəzarətdən çıxmış, hüquqa və qanunçuluğa zidd məcraya yönəlmişdi ki, bu da siyasi həyatda qeyri-sabitlik yaradırdı. Xarici qüvvələrin təhriki ilə iqtidarda və müxalifətdə təmsil olunan qüvvələr arasında qarşıdurmanın kəskinləşməsi də bu prosesə gücləndirici təsir göstərmişdi. Cəmiyyətimizin üzvlərinin bir hissəsi siyasi şüurunun aşağı olması və siyasi mübarizə təcrübəsinin azlığı üzündən belə təsirlərə daha güclü məruz qalırdı. Ayrı-ayrı bölgələrdə siyasi qüvvələr öz şəxsi ambisiyalarını yerinə yetirmək üçün silahlı dəstələr yaradırdılar. Bütün bunlar 1993-cı ilin iyulunda, 1994-cü ilin oktyabrında, və1995-ci ilin martında siyasi hakimiyyəti qanunsuz yolla ələ almaq cəhdləri və qiyamlarla nəticələnmişdi. Bir sıra regionlarda separatçı qüvvələr baş qaldıraraq milli münasibətləri qızışdırır və müstəqil milli dövlətlər yaratmaq çağırışı ilə çıxış edirdilər. Ölkə daxilində yaranmış siyasi sabitsizlikdən məharətlə istifadə edən Ermənistan bir-birinin ardınca yeddi rayonu ələ keçirmişdi. Lakin Azərbaycan xalqı öz tarixinin bütün dövrlərində olduğu kimi bu dəfə də öz qüvvələrini səfərbər edərək siyasi sabitliyinin təmin

edilməsi yolunda olan çətinlikləri tədricən aradan qaldıra bildi. Bu məqsədin əldə olunmasında ölkəmizdə həyata keçirilən əsaslı iqtisadi islahatlar, siyasi həyatın demokratikləşmə prosesləri, əhalinin siyasi fəallığının artması, düşünülmüş ağıllı xarici siyasət strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi müstəsna dərəcədə böyük rol oynadı. Artıq 90-cı illərin ortalarına doğru burada siyasi sabitlik bərpa olundu, nəticədə siyasi proseslər öz demokratik məcrası üzrə inkişafa başladı, əhalinin milli mənlik şüuru tədricən yüksəldi, ölkəmizin beynəlxalq nüfuzu artdı və buraya xarici sərmayə qoyuluşu geniş miqyas aldı.

Sonrakı dövrdə demokratikləşmə genişləndikcə, insanların siyasi fəallığı da artdı. Mövcud fəlsəfi ədəbiyyatda haqlı olaraq demokratikləşmə əhalinin siyasi fəallığını şərtləndirən ən mühüm amil kimi səciyyələndirilir (65, s.47; 148, s.27; 168, s.11).

Demokratiyanın genişlənməsi və dərinləşməsi, onun prinsiplərinin dolğun şəkildə reallaşması mövcud seçki sistemini təkmilləşdirir, əhalinin hüquq və azadlıqlarının daha geniş miqyasda həyata keçirilməsi üçün obyektiv zəmin yaradır. Bu yolla da o şəxsiyyətin siyasi fəallığının yüksəlməsinə şərait yaradır və onun yüksəlməsinə təkan verir.

Şəxsiyyətin siyasi fəallığı baxımından demokratiyanın böyük rolunu müstəqil dövlətimizin qəbul etdiyi Konstitusiyanın bir çox müddəaları da sübut edir. Əsas Qanunun birinci mətnində təsbit olunmuş demokratik prinsiplər, ona edilən sonrakı düzəlişlərdə daha da inkişaf etdirilmişdir. Bunu ondan görmək olar ki, Konstitusiyanın məzmununu əhatə edən 158 maddədən 111–i birbaşa və dolayısı ilə insanların hüquq və azadlıqlarına aiddir. Bunlardan şəxsi hüquq və azadlıqlar (27, 28, 31-35; 44-49 və 50-ci maddələr); siyasi hüquq və azadlıqlar (49, 52-58; 69, və 70-ci

maddələr); sosial-iqtisadi hüquq və azadlıqlar (29, 30,35-43; 51 və 59-cu maddələr); hüquq və azadlıqların konstitusiyon təminatı (26, 60-68 və 71-ci maddələr) və hər bir şəxs üçün hüquq və azadlıqlardan irəli gələn vəzifələri (72-80-cı maddələri) göstərmək olar.

İndi siyasi fəlsəfi leksikonda belə bir fikir geniş yayılmışdır ki, «konstitusiya ilk növbədə insanın və vətəndaşın hakimiyyət tərəfindən təminatı verilən hüquqlarını müdafiə etmək məqsədi güdür» (85, s.94). Bu tamamilə təbiidir, çünki konstitusiyanın əsasında duran hüquq yaradıcılığı normaları insanın cəmiyyətdə və siyasi sistemdə qərarlaşmış obyektiv vəziyyətindən çıxış edir (134, s.234). Müasir Azərbaycan Respublikasının Konstitusiyası da bu əsas prinsipin tələblərinə cavab verir. Burada «başlıca məqsəd vətəndaşların hüquq və azadlıqlarını müdafiə edən, siyasi və iqtisadi sistemin rəvan inkişafını, siyasi proseslərin ardıcıl və ağrısız gedişini təmin edən effektiv sistem yaratmaqdır» (181, s.1).

Ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının qorunmasına real nəzarəti təşkil etmək üçün ombudsman institutu fəaliyyət göstərir. O, ayrı-ayrı şəxslərə münasibətdə hüquq pozuntuları haqqında şikayətləri araşdırır və parlamentdə insan hüquqlarının qorunması işini yaxşılaşdırmağa yönələn təkliflərlə çıxış edir. Beləliklə də o dövlət idrarəçiliyinin ədalətliliyinin və qanuniliyinin mühüm təminatçısı rolunu oynayır.

Keçmiş SSRİ-nin təcrübəsi sübut edir ki, totalitar sistem, inzibati amirlik metodlarını və ümumburokratik mühiti formalaşdırır ki, bunlar şəxsiyyətin siyasi fəallığını məhdudlaşdırır, onu asılılıq vəziyyətinə salır və ümumi sosial mexanizmin adi icraçısına çevirir. Öz növbəsində fərdlərin siyasi fəaliyyətinin və mədəniyyətinin aşağı səviyyədə olması bu sferaya, bütövlükdə

cəmiyyətin həyatına ciddi zəiflədici təsir göstərir, süstlük və mütilik şəraiti yaradır, müxtəlif pozuntuları və deformasiyaları törədir. Bürokratizm, idarəetmənin həddən artıq mərkəzləşdiyinin göstəricisi olmaqla, yerli təşəbbüsləri boğur, ən kicik müəssisə və təşkilatlarda belə işlərin yuxarıdan verilmiş əmrlər və sərəncamlarla sərt qaydada reqlamentləşdirilən inzibati dəftərxana metodları ilə aparılmasına gətirib çıxarır. Bu şəraitdə şəxsiyyət ümumdövlət amirlik sisteminin əlavəsinə çevrilir, onun müstəqilliyi və özfəaliyyəti söndürülür.

Müstəqillik dövründə ölkəmizdə siyasi həyatın demokratikləşməsi özünün ən parlaq ifadəsini ölkədə siyasi partiyaların sayının çoxalmasında və çoxpartiyalı sistemin qərarlaşmasında tapdı. 1992-ci ildə qəbul olunmuş «Siyasi partiyalar haqqında» qanun siyasi həyatda fikir və fəaliyyət plüralizmini, fərdlərin siyasi təşkilatlarda birləşmək azadlığının hüquqi əsaslarını müəyyənləşdirdi. Artıq 1997-ci ildə burada 7 siyasi partiya fəaliyyət göstərirdi, bu gün isə rəsmi dövlət qeydiyyatından keçən siyasi partiyaların sayı 40-ı ötmüşdür. Bu partiyalarda yüz minlərlə üzv əhatə olunmuşdur və fəal surətdə siyasətlə məşğul olurlar.

Demokratik cəmiyyətdə dövlət ilə vətəndaşların siyasi fəaliyyətini əlaqələndirməyin səmərəli forması olan çoxpartiyalılıq, siyasi proseslərdə artmaqda olan rol oynayır. Cəmiyyət üzvlərinin siyasi fəallığının yüksəldilməsində, demokratik seçkilərin həyata keçirilməsində, qanunçuluğun möhkəmləndirilməsində, vətəndaşların hüquqlarının müdafiə olunmasında onlar misilsiz əhəmiyyətə malikdir. Son illərin ən mühüm siyasi hadisələri Milli Məclisdə keçirilən deputat seçkisi, 2002-ci ilin 24 avqustunda Konstitusiyaya dəyişikliklər edilməsi üzrə keçirilən referendum və

2003, 2008, 2013-cü illərdə keçirilən prezident seçkisi cəmiyyət üzvlərinin yüksək siyasi fəallığının və vətəndaş həmrəyliyinin kütləvi nümayişi oldu.

Hazırda ölkəmizdə vətəndaşların siyasi fəaliyyətini həyata keçirmək üçün çoxlu vasitələr vardır və onlar durmadan artır.

Şəxsiyyətin siyasi fəaliyyətinin vasitələri dedikdə əsas etibarilə onun bu baxımdan istifadə etdiyi ictimai institutlar şəbəkəsi nəzərə gəlir. Belə institutlar çox müxtəlif olub, öz yaranma üsulundakı fərqliliyə görə təşkilatlara və müəssisələrə ayrılır. Təşkilatlar bu və digər məqsədi həyata keçirmək üçün insanların könüllü yaratdıqları birliklərdir. Bundan fərqli olaraq müəssisələr könüllü yaradılmır. İctimai institutları siyasi münasibətlər sistemində oynadığı rola görə də təsnif etmək olar. Bu cür yanaşdıqda, siyasi müəssisələr (dövlət orqanları sistemi) və təşkilatlar (siyasi partiyalar və birliklər), hüquq müəssisələri (məhkəmə, prokurorluq, hüquq normalarını qoruyan digər təsisatlar) və təşkilatlar (könüllülük əsasında təşkil olunan hüquqla bağlı təşkilatlar) bir-birindən fərqləndirilir.

Şəxsiyyətin siyasi fəaliyyətində məsuliyyətlilik, yəni siyasi məqsədlərini həyata keçirmək üçün seçdiyi siyasi vasitələrin adekvat və məqbul olması, siyasi hərəkətlərinin törədə biləcəyi nəticələr (həm bilavasitə, həm də dolayı nəticələr) üçün məsuliyyət daşıması çox mühüm yer tutur. Bu baxımdan təssüflə qeyd etməliyik ki, müasir cəmiyyətimizdə həmin prinsip bəzən pozulur. Bir çox hallarda (xüsusən də mühüm siyasi seçkilərə hazırlıq dövründə) bu və ya digər siyasi partiyanın rəhbərləri və adi üzvləri öz opponentlərini hörmətdən salmaq və kütlə qarşısında öz siyasi reytinqini yüksəltmək üçün hər cür üsullardan və vasitələrdən (böhtandan tutmuş şəxsi ləyaqətin təhqir olunmasına qədər)

istifadə edirlər. Bu, nəinki demokratik prinsiplərə, hətta siyasi mübarizənin elementar qaydalarına hörmətsizlikdir və insanlıq etikasının tələblərinə ziddir.

Müasir dövrdə cəmiyyətdə şəxsiyyətin siyasi fəaliyyətinin və siyasi fəallığının yüksəlməsini rəvan və asan proses kimi təsəvvür etmək sadəlövhlük olardı. Bu dövrün xarakterindən irəli gələn çətinliklər və nöqsanlar öz ifadəsini həm də bu sahədə tapır.

Amerikan politoloqu C.Hantinqton göstərir ki, nostsovet dövlətlərinin müasir şəraiti dünya siyasi sisteminin demokratikləşməsinin XX əsrin sonlarında baş verən üçüncü dalğası dövrünə təsadüf edir. Onun fikrincə həmin ölkələr öz siyasi sistemlərini demokratikləşdirərkən aşağıdakı ciddi problemlər ilə üzləşirlər: Birinci qrup problemlər müasir dövrün xarakterindən irəli gəlir. Yəni bu dövrdə yeni konstitusiya, seçki qanunları işlənib hazırlanır, köhnə qanunlar, avtoritar və totalitar institutlar ləğv edilir, mülkiyyət hüquqi ilə bağlı məsələlər yenidən mənalandırılır, çoxpartiyalılıq qərarlaşır, hakimiyyət bölgüsü prinsipi həyata keçirilir, dövlət ilə cəmiyyət arasında yeni münasibətlər yaranmağa başlayır. İkinci qrup problemlər konkret olaraq həmin ölkələrdə iqtisadi inkişaf səviyyəsinin aşağı olması, etnomilli münaqişələr, müharibələr və sair ilə bağlıdır. Üçüncü qrup problemlər demokratik idarəçiliyin yaradılmasına yönəlmiş prosesin sistemlilik xarakterindən irəli gəlir. Bununla əlaqədar olaraq əvvəlki dövrdə diktaturaya qarşı birgə mübarizə aparan siyasi qüvvələrin konsolidasiyası zəifləyir, hər bir partiya hakimiyyət uğrunda və cəmiyyətdə öz təsirini gücləndirmək naminə müstəqil mübarizə aparmağa başlayır. Bir çox məsələlərin həll olunmaması, demokratik siyasi sistemin özünün malik olduğu bəzi nöqsanların dərk olunması cəmiyyətdə siyasi süstlük və

məyusluq hissi yaradır. Bütövlükdə mənəvi-siyasi mühit dəyişilir. Əgər əvvəllər demokratiya uğrunda mübarizə son dərəcədə vacib, zəruri və mənəvi cəhətdən yüksək səviyyədə bəraət qazandırılan bir iş kimi qəbul olunurdusa və aftoritar rejimin süqutu yüksək ruh coşqunluğu və eyforiya yaradırdısa, bundan fərqli olaraq demokratik recimin qərarlaşdığı şəraitdə siyasi mübarizəyə çoxları qeyri-əxlaqi, primitiv və xırda bir şey kimi baxırlar. «Avtoritar nostalji» deyilən fenomen özünü göstərir. Bütün bunlar həmin ölkələrdə gənc demokratiyanın uzunömürlü olub olmaması məsələsini kəskin şəkildə qarşıya qoyur (59, s.15).

Yuxarıda sadalanan problemlər həm də müasir Azərbaycan cəmiyyətinin siyasi sistemi və bütövlükdə bu günki sosial durumu üçün səciyyəvidir. Burada həmin problemlərə əlavə olaraq tarixi ənənələr, milli xüsusiyyətlər və demokratikləşmə prosesinin ilk günlərindən ölkə ərazisinə erməni işğalçıları tərəfindən təcavüz edilməsi və ərazimizin beşdə birindən çoxunun zəbt edilməsi, bir milyondan artıq qaçqının və məcburi köçkünün öz dədə-baba torpaqlarından qovularaq, respublikamızın ayrı-ayrı regionlarında səpələnmiş vəziyyətdə və ağır şəraitdə yaşaması faktından irəli gələn problemlər və çətinliklər də özünü göstərir. Bütün bunlar Azərbaycanda siyasi sferanın və siyasi sistemin demokratik əsaslar üzrə transformasiyası prosesinə, bütövlükdə əhalinin, ayrı-ayrı sosial qrupların və şəxsiyyətlərin siyasi fəaliyyətinə və siyasi aktivlik səviyyəsinin yüksəlməsinə ciddi ləngidici təsir göstərir.

Sonra, siyasi həyatda ümumi tərəfindən qəbul olunma və məcburilik başlıca yer tutduğundan, burada çox tez-tez özünü göstərən mübahisə və münaqişə vəziyyətləri şəxsiyyətin siyasi fəaliyyəti və fəallığına da sirayət edir. Lakin nəzərdə tutmaq lazımdır ki, münaqişələri həll edərkən qarşıdurmanı kəskinləşdirən

metod, vasitə və yollardan deyil, siyasi konsensusa gətirən çoxtərəfli və işgüzar dialoqlardan istifadə etmək daha vacib və faydalıdır. Xüsusən də totalitarizmi istisna edən demokratik rejimdə dövlət, cəmiyyətin siyasi strukturunu təşkil edən ünsürlər, siyasi partiyaların, təşkilatların və ayrı-ayrı şəxsiyyətlərin maraq və iradələrini barışdırmağa və uzlaşdırmağa çalışmalı, ictimai-siyasi quruluşun əsas məsələləri üzrə onlar arasında konsensusa cəhd göstərməlidir (97, s.56).

Şəxsiyyətin siyasi fəallığından danışarkən aşağıdakı məqama da mütləq diqqət yetirilməlidir. Söhbət siyasi fəallığın mövcud qanunlar şəklində reallaşdırılmasından, başqa sözlə deyilsə, qanuna itaət prinsipinin yerinə yetirilməsindən gedir. Demokratiyanın genişləndiyi, şəxsiyyətin hüquqları və azadlıqlarını reallaşdırmaq üçün böyük imkanlar açıldığı indiki şəraitdə məsələnin bu cəhəti xüsusi əhəmiyyət kəsb edir. Çünki cəmiyyətimizdəki insanlar arasında hələ də elələri vardır ki, onlar fəaliyyət azadlığını özbaşinaliq və anarxiya ilə qarışdırırlar. Əslində siyasi fəaliyyət müəyyən olunmuş qanuni normalar çərçivəsində həyata keçirilməlidir. Əlbəttə, qanuna itaət, mütilik və yaxud konformizm demək deyildir, o şəxsiyyətin fəal yaradıcılığı qarşısında sədd yaratmır, sadəcə ondan özünü cəmiyyətin üzvü, vətəndaş kimi aparmağı tələb edir.

Şəxsiyyətin fəal siyasi subyekt kimi özünü göstərməsini təmin edən əsas amillər kompleksi təkcə əlverişli siyasi mexanizimlərin və demokratiyanın mövcudluğu, kütləvi informasiya vasitələrinə lazımı şərait yaradılması ilə məhdudlaşmır. Burada şəxsiyyətin siyasi keyfiyyətləri (siyasi bilikləri, siyasi şüur səviyyəsi, təhsili, siyasi mədəniyyəti və sair) çox böyük rol oynayır. Bu təsadüfi deyildir, çünki, siyasi sistemin xarakteri bir çox cəmiyyət

üzvlərinin əsas kütləsini təşkil edən insanların siyasi davranışı və siyasi mədəniyyət səviyyəsi ilə müəyyən olunur. Xüsusən də sonuncu göstərici siyasi həyatda demokratik dəyişikliklərin miqyasının genişlənməsində və özünüidarə formalarının yaranmasında böyük əhəmiyyətə malikdir. Buna görə də onun geniş təhlilini vermək və siyasi fəallıq ilə əlaqələrini açmaq məqsədəuyğundur.

Ümumilikdə götürdükdə siyasi mədəniyyət anlayışı geniş və mürəkkəb məzmuna malik olub aşağıdakı əsas məsələləri əhatə edir: şəxsiyyətin siyasi sosiallaşması; siyasi dəyərlərin, normaların, simvolların və mənaların məcmusu; nəsildən-nəslə keçən tarixi siyasi təcrübə və vərdişlər.

Siyasi mədəniyyət siyasi sistem ilə yanaşı siyasi həyatın çox mühüm yarımsistemini təşkil etməklə, cəmiyyətin siyasi, iqtisadi və mənəvi inkişaf səviyyəsi ilə müəyyən olunur. Bununla yanaşı onun özü də həmin tərəflərə və bütövlükdə sosial tərəqqiyə fəal gücləndirici təsir göstərir.

Şəxsiyyətin siyasi mədəniyyətinin onun siyasi fəallıqında mühüm rolu bundadır ki, o siyasətin və siyasi proseslərin subyekt tərəfindən mənimsənilməsi, anlaşılması və dərk olunması ilə bağlıdır. Bu məqama xüsusi diqqət yetirərək siyasi mədəniyyət nəzəriyyəsinin baniləri Q.Almond və S.Verba yazırdılar: «Biz cəmiyyətin siyasi mədəniyyəti dedikdə onun əhalinin biliklərinə, hisslərinə və dəyərləndirici münasibətlərinə hopmuş siyasi sistemini başa düşürük» (256, s.104).

Siyasi mədəniyyətin məzmununda şəxsiyyətin ənənələri, ustanovkaları, dəyərləri, davranış aktları və oriyentasiyaları, malik olduğu siyasi biliklərin səviyyəsi sintetik halda ifadə olunur. Şəxsiyyətin siyasi mədəniyyəti onun obyektiv siyasi proseslərdə

iştirakının subyektivlik dərəcəsinin aşkar edilməsində misilsiz rol oynayır. Bu anlayış təkcə siyasi və mədəni sərvətlərin sintezini ifadə etməklə məhdudlaşmır, həm də cəmiyyətin siyasi sisteminin fəaliyyətinə tarixi, milli və psixoloji özünəməxsusluqların göstərdiyi təsirin spesifikliyini açmaq baxımından mühüm rol oynayır.

Elmi ədəbiyyatda siyasi mədəniyyətin cəmiyyətin siyasi həyatında yerinə yetirdiyi funksiyalar aşağıdakı kimi qruplaşdırılır: şəxsiyyətin müəyyən birlik forması və mənafe ilə identifikasiyası funksiyası; siyasi məkanda oriyentasiya; siyasi mühitə uyğunlaşma funksiyası; şəxsiyyətin hüquq və azadlıqlarını reallaşdırmaq imkanı verən sosiallaşma funksiyası; oxşar və ümumi maraqlar üzrə insanların müxtəlif sosial qruplarda inteqrasiyası funksiyası, yəni ümumi siyasi simvollar və dil əsasında sosial institutların və insanların qarşılıqlı təsirinin vahid sisteminin yaradılması funksiyası (215, s. 241-242).

Yuxarıda göstərilən funksiyaların hər biri ayrılıqda, habelə onlar bütünlükdə siyasi mədəniyyətin şəxsiyyətin siyasi fəaliyyəti ilə ayrılmaz vəhdətdə olduğunu sübut edir.

Siyasi mədəniyyətin daxili strukturunda aşağıdakı üç səviyyəni fərqləndirmək lazımdır: koqnitiv (siyasi biliklər), emosional (siyasi hisslər) və dəyərləndirici (siyasi qiymətvermənin əsasını təşkil edən siyasi dəyərlər və siyasi ideallar) (164, s.224).

Siyasi mədəniyyət mövcud sosialmədəni sistemin inteqral səciyyə daşıyan tərkib hissəsidir, çünki hər bir şəxsiyyət siyasi mədəniyyətə yiyələnməklə, siyasi hakimiyyət münasibətlərinin iştirakçısına çevrilir, siyasi-mədəni mövcudat kimi öz-özünü təşkil edir. O həm də formal siyasi institutların fəaliyyətini canlandıran ruha bənzəyir (94, s.336-337).

Siyasi mədəniyyət hər şeydən əvvəl hər bir vətəndaş (şəxsiyyət) ilə siyasi hakimiyyətin qarşılıqlı münasibətlərini müəyyənləşdirir. Onların bir qismi qanunvericilik aktlarında öz əksini tapır. Lakin yerdə qalan əksər hissəsi isə siyasi mədəniyyətin tərkibinə daxil olan ünsürlərdə (siyasi ənənələrdə, mərasim və ayinlərdə) ifadə olunur. Digər tərəfdən siyasi mədəniyyət ümumi tərəfindən qəbul olunmuş siyasi-mədəni dəyərlər, siyasi ideallar və prinsiplər əsasında cəmiyyətdə siyasi qüvvələrin birləşməsində və beləliklə də siyasi sistemin bütövlüyünün təmin edilməsində böyük rol oynayır. Sonra, siyasi həyatda varisliyin qorunması da siyasi mədəniyyətin mühüm bir funksiyasıdır. O, xalqın siyasi tarixi yaddaşı rolunu yerinə yetirməklə siyasi recimlərin və sistemlərin dəyişilməsi şəraitində əsas siyasi dəyərləri məhv olmaqdan qoruyur, onların saxlanılmasını və inkişafını təmin edir. Nəhayət, bu da qeyd edilməlidir ki, siyasi mədəniyyətin məğzini təşkil edən dəyərlər, orientirlər və ustanovkalar siyasi qüvvələr arasında razılığın əldə olunmasına və beləliklə də siyasi sistemin sabitliyinin təmin olunmasına kömək edir.

Siyasi mədəniyyət bir yerdə dayanıb durmur. Onun dəyişilməsi siyasi sosiallaşma prosesi hüdudları daxilində baş verir. Məhz bu proses cəmiyyətin sosiomədəni dinamikasının necə getdiyini göstərir. Həm də nəzərdə tutmaq lazımdır ki, hər bir millətin siyasi mədəniyyəti daxili inkişaf səviyyəsi baxımından yekcins deyildir. Burada elitar və kütləvi səviyyələr bir-birindən fərqlənir. Bu tamamilə təbiidir, çünki insanlar arasında fəal siyasi qərarlar qəbul edən hissə ilə yanaşı, həm də aşağı fəallıq səviyyəsinə malik olanlar vardır (115, s.88).

Şəxsiyyətin siyasi mədəniyyətinin əsasını təşkil edən siyasi dünyagörüşü cəmiyyətin siyasi sisteminin xarakterinə uyğun

olaraq formalaşır. Bu mənada demokratizmə əsaslanan siyasi sistem daha böyük üstünlüklərə malik olur. Müasir cəmiyyətin siyasi həyatının demokratik əsaslar üzrə transformasiyası prosesində bütövlükdə insanların, o cümlədən də hər bir şəxsiyyətin siyasi dünyagörüşü və deməli siyasi mədəniyyəti də məzmunca zənginləşir. Lakin müasir dövrdə siyasi mədəniyyətin kollektiv və fərdi subyektləri baxımından ayrılığı və fərqliliyi də mütləq nəzərə alınmalıdır. Bu onunla şərtlənir ki, sovet rejiminin hökmranlıq etdiyi yetmiş ildən artıq bir dövrdə kollektivçiliyə uymaq, onun rolunu şişirtmək, fərdinin və şəxsinin əhəmiyyətini azaltmaq meyli özünü göstərmişdi. Buna görə də açıq cəmiyyətin yaranmasının başlıca vəzifələrindən biri «ümumi» ilə «şəxsi» arasındakı münasibətlərin (o cümlədən də siyasi sferada) birtərəfli və məhdud anlaşılmasına son qoymaq, şəxsiyyətin siyasi münasibətlərinin subyekti kimi cəmiyyətdə artmaqda olan rolunu təsbit etməkdir.

Siyasi mədəniyyətin inkişafı sosial tərəqqidə əhəmiyyətli rol oynayır. Bunu həm də ondan görmək olar ki, hər bir cəmiyyətdə qərarlaşmış siyasi sistem bir çox cəhətdən xalqın siyasi mədəni inkişafının nəticəsi kimi çıxış edir. Belə ki, ictimai rəydə siyasi hakimiyyətin təşkili və fəaliyyəti, nəyin qanuni və nəyin isə hüquqa zidd olduğu, siyasi münasibətlərdə hansı tərəfin üstün rol oynamasının zəruriliyi haqqında mövcud təsəvvürlər real siyasi rejimin xarakterinə, onun totalitar, avtokratik və ya demokratik məzmunda olmasına əhəmiyyətli təsir göstərir.

Siyasi mədəniyyətə daxil olan ünsürləri (siyasi bilik və əqidə, siyasi oriyentasiyalar və ustanovkalar, siyasi ənənələr,siyasi simvollar və vərdişlər) həm ayrı-ayrılıqda, həm də bütövlükdə bir sistem kimi mövcud siyasi rejimi müdafiə etməyə cəhd göstərir.

Lakin bu məqamı həddən artıq şişirtmək olmaz, çünki siyasi mədəniyyətin məzmununda bəzən mövcud siyasi rejimin dəyişdirilməsi və yeniləşdirilməsini irəli sürən meyillər də ifadə oluna bilir (29, s.122).

Qeyd etmək lazımdır ki, cəmiyyətdə, xüsusən də onun mühüm inkişaf mərhələlərində, siyasi mədəniyyətin məzmununda müxtəlif, rəngarəng və bəzən də bir-birinə zidd tərəflər özünü göstərir. Bu, müxtəlif siyasi qüvvələrin (xüsusilə də müxalifət mövqeyində duran qüvvələrin) mövcud siyasi hakimiyyətə, iqtidar recimine, onun siyasi institutlarına, əldə rəhbər tutduğu rəsmi siyasi dəyərlərə bəslədikləri münasibətdə təzahür edir. Sözügedən vəziyyət müasir Azərbaycan cəmiyyətinin siyasi həyatı üçün daha çox xarakterikdir. Məsələn, əhalinin müəyyən hissəsi belə fikirdədir ki, mövcud dövlət idarəçilikdə daha fəal rol oynamalı, iqtisadi və sosial proseslərə dərindən və birbaşa müdaxilə etməlidir. Digərlərinin rəyinə görə isə dövlətin rolunun güclənməsi təbii iqtisadi və sosial gedişata, bazar münasibətlərinin inkişafına mane olur. Bu qəbildən olan müxtəlifliyi konkret siyasi hadisələrə (onların bu gün üçün lazım olub olmaması ilə bağlı), siyasi seçkilərdə iştirak məsələlərinə münasibətdə və həyata keçirilməkdə olan demokratik islahatlara münasibətdə özünü göstərir.

Bununla əlaqədar qeyd edək ki, cəmiyyət üzvlərinin ümumi şüurluluq səviyyəsi və mədəniyyəti yüksəldikcə, bu məsələdə də mütərəqqi meyil özünü göstərir. Yəni bir tərəfdən insanların şüurunun emosional-psixoloji məzmunu zənginləşir, digər tərəfdən isə o yüksək səviyyəli siyasi biliklər, elmi dünyagörüşü prinsipləri və siyasi ideologiyanın meyarları ilə tamamlanır. Nəticədə ictimai şüurda siyasi proseslərə, siyasi hakimiyyət və demokratikləşməyə adekvat münasibət və mənalandırma çoxalır.

Bununla əlaqədar qeyd edək ki, cəmiyyət üzvlərinin ümumi şüurluluq qabiliyyəti və mədəniyyəti yüksəldikcə, bu məsələdə də mütərəqqi meyl özünü göstərir. Yəni, bir tərəfdən insanların şüurunun emosional-psixoloji məzmunu zənginləşir, digər tərəfdən isə o, yüksək səviyyəli siyasi biliklər, elmi dünyagörüşü prinsipləri və siyasi ideologiyanın meyarları ilə tamamlanır. Nəticədə ictimai şüurda siyasi proseslərə, siyasi hakimiyyətə və demokratikləşməyə adekvat münasibət və mənalandırma çoxalır.

Müasir şəxsiyyətin siyasi fəallığına cəmiyyətin siyasi mədəniyyətinin təsirini araşdırarkən indi geniş yer tutmaqda olan qərb və şərq siyasi oriyentasiyasına münasibət məsələsinə də diqqət yetirilməlidir. Hazırda ölkəmizdə iqtidarın dövlət strukturlarında çalışan siyasi qüvvələr arasında, habelə digər sosial və siyasi qrupların nümayəndələri arasında hansı siyasi oriyentasiyaya, dəyərlərə (Qərbin, yoxsa Şərqin) üstünlük verilməsi məsələsində mübahisələr və fikir ayrılıqları mövcuddur. Nəzərdə tutmaq lazımdır ki, Azərbaycan Qərb ilə Şərqin qovuşuğunda yerləşən ölkə olduğu üçün hər iki regiona xas olan müsbət siyasi ənənələri, dəyərləri və ustanovkaları özündə səmərəli şəkildə (əlbəttə, yerli şəraiti və tarixi milli ənənələri nəzərə almaqla) əlaqələndirməyi bacarmalıdır.

Metodoloji baxımdan yanaşdıqda, Qərbə və ya Şərqə oriyentasiya təkcə Azərbaycan üçün deyil, bütün postsovet respublikaları üçün xarakterik haldır. Bu, təsadüfi olmayıb, onunla izah edilir ki, həmin respublikalar uzun müddət ərzində totalitar rejimin hökmranlığı altında, qapalı cəmiyyətdə olmuşlar. Odur ki, SSRİ dağıldıqdan sonra onlar milli müstəqil dövlətlər kimi inkişafa başlayarkən təbii olaraq yuxarıda sözügedən seçim ilə qarşılaşırlar (257, s. 26-27)

Bununla əlaqədar göstərilməlidir ki, hazırda cəmiyyətimizin bir sıra sosioloq filosof və ziyalıları haqlı olaraq bu məsələdə azərbaycanlıların siyasi mentalitetini nəzərə almağın zəruriliyini irəli sürürlər. Yeri gəlmişkən qeyd edək ki, min ildən artıq siyasi dövlətçilik ənənəsinə malik olan və tarixi şərait üzündən əsrlərlə öz siyasi azadlığı və müstəqilliyi uğrunda mübarizə aparmış Azərbaycan xalqının milli siyasi mentaliteti məzmun etibarilə çox zəngindir. Burada insanların tarixən formalaşan siyasi təsəvvürləri, hissləri, rəğbəti və nifrəti, siyasi nümunələri və etalonları cəmləşmişdir. Özü də bu göstəricilər həm ictimai şüurda, onun yüksək pilləsi olan nəzəriyyə və baxışlarda, həm də şüuraltı və emosional səviyyələrdə ifadə olunmuşdur. Çünki başqa millətlərdə olduğu kimi, Azərbaycan xalqının siyasi mentalitetində də ən aşağı pillədən – kollektiv qeyri-şüuri sferadan tutmuş yüksək səviyyəyə – şəxsiyyətin milli mənlik şüuruna qədər olan bütün iyerarxiyalılıq təmsil olunmuşdur. Azərbaycan xalqının siyasi mentaliteti üçün səciyyəvi olan bir cəhət də budur ki, xalqımız çətin məqamlarda, ölüm- dirim məsələsi qarşıya çıxdıqda tez bir vaxtda birləşə bilmək və öz qüvvələrini səfərbər edərək qarşıdakı səddi dəf etmək qabiliyyətinə malikdir. Bu cəhət müxtəlif tarixi dövrlərdə yadelli işğalçılara qarşı aparılan mübarizələrin nümunəsində dəfələrlə təsdiq olunmuşdur və bu gün də öz qüvvəsini itirməmişdir.

Yuxarıda deyilənlər sübut edir ki, bütövlükdə siyasət, mədəniyyət, eləcə də onu təşkil edən hər bir ünsür şəxsiyyətin siyasi fəallığının yüksəldilməsi baxımından tükənməz potensial imkanlara malikdir, əsas məsələ onları tam dolğunluğu ilə reallaşdırmaqdadır. Belə ki, cəmiyyətin siyasi mədəniyyəti özündə siyasi və mədəni keyfiyyətləri sintez edərək insanların siyasi

səviyyəsini, onların demokratik cəmiyyətdə yaşamağa və fəaliyyət göstərməyə nə dərəcədə hazır olduqlarını əks etdirir.

Şəxsiyyətin siyasi fəaliyyəti və fəallığı onun siyasi şüuru ilə sıx vəhdətdə çıxış edir. Şəxsiyyətin siyasi şüuru mövcud siyasi münasibətlərin və siyasi institutların fəaliyyətinin, bütövlükdə siyasi sistemin inikası olmaqla, onun siyasi davranışı və hərəkətlərinin çox mühüm tənzimləyicisi kimi çıxış edir.

Müasir şəxsiyyətin siyasi şüuru ölkə daxilində və beynəlxalq aləmdə gedən aşağıdakı siyasi proseslərin güclü təsiri altında formalaşır:

- keçmiş SSRİ-nin dağılması nəticəsində müstəqil postsovet respublikalarının yaranması və onların üzləşdiyi müxtəlif problemlər:

- geniş xalq kütlələrinin siyasi fəallığının artması, kütləvi hərəkatların, ictimai təşkilatların və qeyri-hökumət təşkilatlarının fəaliyyətinin genişlənməsi, onların siyasi proseslərə daha dərin cəlb olunması;

- dövlətlərarası siyasi, iqtisadi, sosial və mədəni münasibətlərin qloballaşması və intensivləşməsi bu münasibətlərdəki dəyərlərin və dəblərin (hətta zövqlərin də) oxşar və ümumi cəhətlərinin çoxalması;

- bütün dünya miqyasında əhalinin ən geniş təbəqələrinin müasir qlobal problemlər ilə bağlı narahatçılığının çoxalması və onlar tərəfindən qlobalizmə qarşı cavab reaksiyası kimi yaranan lokallaşma meyli və yeni standartları qəbul etməmək cəhdləri;

- ümumilikdə bəşəriyyətin mövcudluğu, inkişafı və taleyi ilə əlaqədar məsələlərə münasibətdə müxtəlif ideya və baxışların toquşması;

- müsəlman dünyasının modernləşməsi və burada Qərbə doğru meylin güclənməsi ilə əlaqədar olaraq, İslam dinində radikalzm meyllərinin artması;

- elmin və texnikanını inkişafı, kompüterləşmənin geniş vüsət alması, daxili və beynəlxalq miqyasda informasiya axınının qeyri-adi səviyyədə artması nəticəsində dövlətlərin və onların başçılarının siyasi proseslərə təsir göstərmək imkanlarının görünməmiş dərəcədə genişlənməsi;

- dünya miqyasında terrorçuluğun və ekstremizmin son dərəcə təhlükəli olduğunun anlaşılması və dövlətlərin beynəlxalq miqyasda antiterror əməliyyatları cəbhəsində birləşməsi meyli və s. (180, s. 383)

Müasir siyasi aləmdə gedən yuxarıda qeyd olunan və başqa proseslər, digər sferalarda olan dərin dəyişikliklər ilə sıx qarşılıqlı təsirdə və vəhdətdə çıxış edərək şəxsiyyətin siyasi amalı və həyat yolunun müəyyənləşməsinə, onun seçim azadlığına və fəaliyyətinə güclü təsir göstərir. Bu şəraitdə hər şeydən əvvəl şəxsiyyətin sosial proseslərə marağı artır, o burada daha fəal və dərindən iştirak etməyə başlayır. Nəticədə şəxsiyyətin total siyasiləşməsi deyilən meyl özünü göstərir. O təkcə öz ölkəsinin siyasi həyatına nüfuz etməklə məhdudlaşmır, getdikcə daha artıq dərəcədə bütövlükdə dünyada və ayrı-ayrı regionlarda yaranmış siyasi situasiyanı təhlil edir, ona qiymət verir və onların gələcəyini proqnazlaşdırır. Bütün bunlar sübut edir ki, müasir dövrdə şəxsiyyətin siyasi şüurunun yüksək inkişafı üçün əlverişli şərait yaranır. Nəticədə şəxsiyyətdə, onunla siyasi hakimiyyət institutları arasında əlaqələrin xarakteri və məzmunu, ictimai işlərdə və dövlətin idarə olunmasında iştirak haqqında təsəvvürlər daha da dərinləşir. Özü də bu dərinləşmə siyasi şüurun hər iki istiqaməti (dəyərləndirici və normativ

xarakterli) üzrə gedir. Eyni zamanda şəxsiyyətin siyasi şüurunun nəzəri və adi səviyyələri ciddi dəyişiklərə məruz qalır. Başqa sözlə deyilsə, o bir tərəfdən ideoloqların və siyasətçilərin işləyib hazırladığı siyasi konsepsiyalara dərindən maraq göstərir, digər tərəfdən isə o bu və ya digər siyasi partiyanın, qeyri-hökumət təşkilatının işində və yaxud siyasi yönümlü ictimai-siyasi hərəkatda iştirak etməklə, cari siyasi xəttin formalaşmasında və siyasi qərarların qəbul edilməsində aktiv iştirak edir.

Doğrudur, şəxsiyyətin siyasi şüurunun birinci pilləsi öz yetkinliyinə görə ilkin səviyyədir, o çox vaxt süst və dağınıq xarakter daşıyır, siyasi reallığın emosional-hissi qavranılmasını əhatə edir. Burada şəxsiyyət öz siyasi məqsədlərini və mənafelərini tam aydınlıqla təsəvvür etmir o daha çox öz fərdi düşüncəsi, dünyagörüşü stereotipləri, hakim siyasi doktrınaların təsiri altında formalaşır. Siyasi şüurun ikinci ən yüksək pilləsi olan nəzəri siyasi şüur elmi baxışları əhatə edən, bitgin siyasi ideologiya formasıdır. Burada şəxsiyyətin daxil olduğu qrupun və ya birliyin, habelə onun özünün mənafe və məqsədləri adekvat və daha dolğun şəkildə əks olunur.

Siyasi ideologiyanın aşağıdakı struktur ünsürləri, onun şəxsiyyətin fəallığı ilə ayrılmazlığını təmin edir: dövrün ümumi dünyagörüşü sistemi ilə sıx əlaqəliliyi; bu sistem əsasında siyasi fəaliyyətin proqram xarakterli ustanovkalarının işlənib hazırlanması; həmin proqramın reallaşdırılması strategiyasının müəyyənləşdirilməsi; proqramın reallaşdırılması üçün təbliğatdan, digər yollardan və vasitələrdən istifadə edilməsi (259, s. 244-245).

Siyasi ideologiya şəxsiyyətlər arasındakı münasibətləri siyasətin subyektləri arasındakı münasibətlər məcrasına salır, onlara dövrün siyasi reallıqlarını izah edir, bu reallıqların

əsaslandırılmalı olduğunu və yaxud da rədd edilməsi zəruriliyini müəyyənləşdirir. Buna görə də cəmiyyətin ideoloji həyati, xüsusən də açıq cəmiyyətə keçid şəraitində demokratikləşmənin yaratdığı geniş imkanlarla bağlı olaraq, müxtəlif ideologiyaların mövcudluğu, ideoloji sistemlərin mübarizəsi ilə müşayət olunur. Siyasi arenada uğur qazanmağı qarşısına məqsəd qoyan hər bir partiya öz ideoloji platformasını işləyib hazırlayır, onun digərlərindən üstün və faydalı olduğunu sübut etməyə çalışır, əvvəlcə öz üzvləri arasında, sonra isə bütövlükdə cəmiyyətdə onu geniş təbliğ edir. Buna nail olmaqa cəhd göstərir ki, şəxsiyyətlərin getdikcə daha çox hissəsi öz siyasi fəaliyyətini və fəallığını məhz həmin ideologiyanın müddəaları üzərində qursun.

Mövcud cəmiyyətdəki siyasi proseslərdə «mümkün olanı yerinə yetirmək məharəti» rolunu oynayan siyasi ideologiya ikitərəfli funksiya yerinə yetirir. O bir tərəfdən öz məsləkdaşlarını, yəni onu qəbul edən və onun əsasında siyasi fəaliyyət göstərən partiya və təşkilatların üzvlərini birləşdirir və vahid məqsəd uğrunda səfərbər edir. Digər tərəfdən siyasi ideologiya muəyyən ayırıcı funksiya yerinə yetirir. Sonuncu bunda təzahür edir ki, o öz platformasını qəbul edənləri digərlərindən ayırır və fərqləndirir. Deyilənlər göstərir ki, şəxsiyyətin siyasi fəaliyyətində siyasi ideologiya müstəsna dərəcədə böyük əhəmiyyət kəsb edir. Bu baxımdan A.Demidov haqlı olaraq qeyd edir ki, «siyasətin hər cür subyektinin ideologiyaya ehtiyacı vardır. Sonuncu siyasi münasibətlər sferasında insanların davranışını istiqamətləndirir, onları iradi cəhətdən formalaşdırır, aktivliyini səfərbər edir, siyasi fəaliyyətə cəlb olunmuş və yaxud cəlb olunmağa hazırlaşan sosial qrupların inteqrasiyasına kömək edir» (117, s.113).

Müasir şəxsiyyətin siyasi fəaliyyəti və mövqeyinə təsir edən amillər sırasında ideologiyanın yeri və rolu durmadan artır. Lakin nəzərdə tutulmalıdır ki, müasir dövr son dərəcə müxtəlif istiqamətli ideologiyaların çoxluğu ilə səciyələnir. Bu, bir tərəfdən şəxsiyyətin ideologiyanı seçmə imkanlarını genişləndirir, digər tərəfdən onlardan hansına üstünlük vermək məsələsində müəyyən tərəddüd və çətinliklər yarada bilir. Sonuncu məqam həm də ideologiyalarda zahiri cəzbedici əlamətlərin və vədlərin olması ilə bağlıdır.

Fəlsəfi-sosioloji ədəbiyyatda tez-tez belə bir fikrə rast gəlinir ki, müasir cəmiyyətdə baş verən texniki və kommunikativ xarakterli sıçrayışlar ayrı-ayrı şəxsiyyətlərin, eləcə də sosial qrupların və institutların əqidə və inanclarının tez-tez dəyişməsinə gətirib çıxarır. Bu şəraitdə cəmiyyətdə deideologizasiya meyli özünü göstərir. Həmin meylə qida verən digər amil hazırda ideoloji yönümündən asılı olmayaraq hamının qlobal problemlərin həllində ümumi marağının artması faktıdır. Qeyd olunan baxışın tərəfdarları öz mövqelərini əsaslandırmaq üçün həm də aşağıdakı arqumentə istinad edirlər: müasir dövrdə ümumbəşəri mənafelər və dəyərlər ayrı-ayrı fərdlərin, sosial qrupların və təbəqələrin mənafeləri və dəyərləri (o cümlədən də ideoloji) ilə müqayisədə üstünlük təşkil edir və onlara prioritet əhəmiyyət verilməlidir. Digər bir mövqe isə ideologiyanın labüd olduğunu israr edir. Onun tərəfdarları göstərirlər ki, ideologiyasız heç bir millətin normal fəaliyyəti mümkün deyildir, ideologiyadan azad olmaq çağırışlarının özü də bir növ ideologiya deməkdir.

Qeyd edək ki, müasir Azərbaycan reallığında yuxarıda gətirilən hər iki xəttin tərəfdarları mövcuddur. Buna görə də tez-tez milli ideologiya yaradılmasının zəruriliyi haqqında və yaxud

başdan-başa ideolojidərilmiş totalitar recim dağıdıldıqdan sonra yenidən ideologiyaya ehtiyac olmadığı barədə geniş diskussiyalar getməkdədir. Bu məsələlərlə əlaqədar son qərar vermək iddiasından uzaq olmaqla, deyə bilərik ki, müasir Azərbaycana milli ideologiya lazım idi. Lakin onu birdən birə yaratmaq və ya yuxarıdan süni şəkildə əhaliyə qəbul etdirmək doğru olmazdı. Bu ideologiya özündə dövlət idarəciliyinin çoxillik təcrübəsini əks etdirməli və xalqın böyük əksəriyyəti tərəfindən qəbul edilməli idi. Milli ideologiyaya verilən yuxarıdakı tələblər prizmasından yanaşdıqda belə güman etmək məntiqi olar ki, geniş yayılmaqda olan azərbaycançılıq ideyası və onun əhatə etdiyi ümumbəşəri, milli sosial-psixoloji və mədəni ustanovkalar və prinsiplər belə bir ideologiyanın təməl daşı rolunu oynaya bilər. «Azərbaycançılıq» ideyası hazırda cəmiyyətimizdə milli ideologiyanın əsası kimi qəbul olunur. O, iqtisadi və siyasi müstəqilliyin möhkəmləndirilməsini, dövlətin ərazisinin vahidliyi və bütövlüyü prinsipini, siyasi azadlıqların təmin olunmasını, mənəvi sahədə sərbəst düşüncə axtarışlarına meydan verilməsni nəzərdə tutur (24, s.82).

Professor Əbülhəsən Abbasov haqlı olaraq qeyd edir ki, azərbaycançılıq ideyası, bəzi tədqiqatçıların qeyd etdiyi kimi, milli ideologiya ilə eyniləşdirilməməli və yaxud onun nümunəsi timsalı kimi nəzərdən keçirilməməlidir. Azərbaycançılıq milli ideologiyanın zəruri və mühüm tərkib hissəsidir. Belə ki, ümumi bir məfkurə sistemi kimi milli ideologiya başqa ideya və prinsipləri də özündə ehtiva edir. Əhəmiyyətindən asılı olmayaraq heç bir "hissə" ümumi bütövlüyün, "tam"ın məzmun-mahiyyətinə, onun roluna iddia edə bilməz. (5, s.94).

Azərbaycançılıq ideyası elmi-fəlsəfi dairələrdə fəal

sürətdə tədqiq olunur və müstəqil Azərbaycanın bir çox siyasi xadimləri tərəfindən hərtərəfli müdafiə edilir. Belə ki, Azərbaycan Respublikasının müstəqilliyinin onuncu ildönümü münasibətilə çıxışında Heydər Əliyev dövlət siyasətini səciyyələndirərkən onun aparıcı ideyasını xüsusi fərqləndirmişdir: «Müstəqil Azərbaycanın əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyəti ilə fəxr etməlidir; biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərin, adət və ənənlərini inkişaf etdirməliyik».

Akademik R.Mehdiyev yazır: «Azərbaycançılıq milli-dövlət ideologiyası kimi bu gün qarşımızda özünün dəqiq ifadə olunmuş formasında durur, elə bir düzümündə ki, eyni bir ərazidə onlarla millətlərin, etnik qrupların birgəyaşayış təcrübəsi və ümumi tarixi ilə, onların psixoloji cəhətlərinin yaxınlığı və ümumi mental xarakteristikaları ilə müəyyənləşir: Ölkənin inkişafı və ictimai-siyasi tərəqqisi ilə bağlı maraqları bu misilsiz sərvəti qorumağı və çoxaltmağı tələb edir». O, daha sonra yazır: «Azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyini yaratmaq maraqlarının, demokratiyanın, liberal iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizə məqsədlərinin ümumiliyi əks olunmuşdur. Azərbaycançılıq bir ideologiya kimi müstəqil Azərbaycanın fəlsəfi-sosioloji doktrinasının sosial-mədəni, etnik-geosiyasi aspektlərini özündə birləşdirmişdir. Azərbaycançılıq qarşılıqlı yardımın, əməkdaşlıq və bərabərhüquqluluğun mühüm əsasıdır». (R.Mehdiyev. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı, Şərq-Qərb, 2008, s. 124).

«Azərbaycançılığ» Azərbaycan xalqı tərəfindən mübarizədə

qazanılmış dəyər, real müstəqilliyin əldə edilməsi, vahid Azərbaycanın saxlanılması və möhkəmləndirilməsi üçün açar, milli həyat harmoniyasının ənənəsi, etniklərarası tolerantlığın təməlidir.

Azərbaycançılıq millilik prinsiplərinin konkret ifadəsidir və bu keyfiyyətdə milli ideologiyanın mühüm və zəruri tərkib hissəsidir, lakin milli ideologiya «azərbaycançılığa» nisbətən daha geniş məfhumdur, çünki heç də əhəmiyyəti olmayan digər elementləri (ideya və prinsipləri) özündə birləşdirir. Məsələn, ictimai mənafe, ədalət, demokratiya, açıqlıq, dinamik inkişaf, tolerantlıq, millilik ideyaları, zəruri məhdudiyyət (qadağa), respublikaçılıq, qanunçuluq, hüququn aliliyi, hakimiyyətin bölünməsi və vahidliyi, sinergizm prinsipləri və s. Bütün bu elementlər «azərbaycançılıq»la az və ya çox dərəcədə müştərəklik təşkil edir, çarpazlaşır". (5, s. 95).

Azərbaycan xalqı bütün tarixi boyu milli birlik və həmrəylik arzuları ilə yaşamışdır. Bu baxımdan dünya azərbaycanlılarının təşkilatlanması, onların milli birlik və həmrəyliyinin güclənməsi müstəqil Azərbaycan Respublikası, onun ümummilli lideri Heydər Əliyevin adı ilə daha sıx bağlıdır.

1991-ci ildə möhtərəm Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən 1991-ci il dekabrın 16-da ilk dəfə rəsmi olaraq, «31 dekabr gününün Dünya azərbaycanlılarının həmrəylik və birlik günü» kimi elan edilməsi haqqında qərar qəbul etmişdir. Qərarda həmrəylik və birlik gününün bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilməsi xüsusi vurğulanmışdı. Bundan sonra 25 dekabr 1991-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası da 31 dekabrı «Dünyada yaşayan

azərbaycanlıların həmrəylik günü» kimi elan edən qərar qəbul etdi. 1993-cü ilin yayında Heydər Əliyev xalqın arzusu və tələbi ilə yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra bu qərarın həyata keçməsi mümkün oldu.

1993-cü ilin iyun ayında tarixi zərurət və xalqın tələbi ilə ümummilli lider Heydər Əliyev yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra ölkəmizin ictimai həyatının bütün sahələrində, o cümlədən dünya azərbaycanlıları ilə əməkdaşlıq istiqamətində keyfiyyət və mahiyyətcə yeni mərhələ başlanmışdır.

Ulu öndər çoxşaxəli fəaliyyətində daha bir tarixi missiyanı – dünya azərbaycanlılarının milli birliyinin ideoloqu, təbliğatçısı və təşkilatçısı olmaq missiyasını öz üzərinə götürmüş və böyük uğurla həyata keçirmişdir. Onun müdrik siyasəti nəticəsində dünya azərbaycanlıları ilə iş dövlət əhəmiyyətli strateji məsələyə çevrilmişdir. Bu mühüm işin konsepsiyası – dünya azərbaycanlılarının xalqımızın ayrılmaz hissəsi kimi qəbul edilməsi, Azərbaycan Respublikasının bütün azərbaycanlıların Vətəni sayılması, həmvətənlərimizin əqidə və əməl birliyi zəminində elmi şəkildə formalaşması, lobbiçilik perspektivi, Azərbaycançılıq ideyasının dövlət siyasəti səviyyəsinə qaldırılması da məhz Heydər Əliyev tərəfindən irəli sürülmüşdür.

Ümummilli liderimizin xarici səfərlərinin proqramına azərbaycanlılarla görüşlərin daxil edilməsi, diaspor quruculuğu sahəsində mühüm qərarların qəbulu və onların icrası dünya azərbaycanlılarının mütəşəkkiliyini, siyasi-mənəvi inteqrasiyasını, ən nəhayət, təşkilatlanmasını sürətləndirmişdir. Heydər Əliyevin uğurlu daxili və xarici siyasətinin doğurduğu reallıqlar Azərbaycan diasporunun formalaşması prosesinə əlavə təkan vermişdir. Gərgin əmək, dözüm və qətiyyət, daxildən doğan

məsuliyyət və xalqın inamından gələn səlahiyyət, zəngin təcrübə və müdriklik, siyasi məharət az bir zamanda ümummilli liderimizə ölkədəki hərc-mərcliyi aradan qaldırmağa, vətəndaş birliyini və sabitliyi bərqərar etməyə, müstəqil dövlət quruculuğunu həyata keçirməyə imkan vermişdir. Azərbaycanda qarşıdurmalara, xaosa son qoyulmuş, bir neçə ildə onilliklərə sığmayan inkişaf yolu keçilmiş, ən əsası isə milli ruh və milli mənlik hissi dirçəlmişdi. Heydər Əliyev böyük qürur və təəssübkeşliklə milli mənliyin prioritet məsələ olduğunu dövlət rəhbəri kimi bütün xalqa bəyan etmişdir: «Biz gərək milli mənliyimizi həmişə yüksək saxlayaq. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə milli mənliyimizi gərək itirməyək!»

«Fəxr edirəm ki, mən Azərbaycanlıyam» - deyən Heydər Əliyev şəxsiyyətinin möhtəşəmliyi həm də onda təzahür etmişdir ki, o, diaspora ilə işi yalnız ölkəmizin siyasi-iqtisadi maraqlarının tərkib hissəsi olaraq deyil, ilk növbədə milli-mənəvi məsələ kimi irəli sürürdü. Ümummilli liderimizin dünya azərbaycanlıları tərəfindən böyük nüfuz və etimada malik şəksiz milli lider kimi qəbul edilməsi soydaşlarımızın Heydər Əliyev şəxsiyyəti və idealı, onun təcəssüm və təbliğ etdiyi Azərbaycançılıq məfkurəsi ətrafında ümummilli birliyə, əqidə və əməli birliyinə zəmin olmuşdur.

Məhz ümummilli liderin sərəncamı ilə 2001-ci ilin 9-10 noyabrında Bakı şəhərində Dünya Azərbaycanlılarının I qurultayı dünyanın 36 xarici dövlətindən 406 nümayəndə və 63 qonağın iştirakı ilə keçirilmişdir. Azərbaycan Respublikasından qurultayda

130-dan çox müxtəlif dövlət qurumlarını elm, təhsil, mədəniyyət təşkilatlarını, yaradıcılıq birliklərini təmsil edən 702 nümayəndə və 844 qonaq iştirak edirdi. Bu qurultayda ümummilli liderimiz təkcə milli birliyə necə nail olmağın yolunu deyil, eyni zamanda onu qorumağın yollarını da göstərirdi. Heydər Əliyev Dünya Azərbaycanlılarının I Qurultayındakı nitqində bildirmişdir: «Siz unutmamalısınız ki, dünyada Müstəqil Azərbaycan dövləti var. Unutmamalısınız ki, bu torpaq bütün azərbaycanlıların doğma torpağıdır. Unutmamalısınız ki, Azərbaycan dövləti mümkün olan çərçivədə hər birinizin hüquqlarınızın qorunması üçün lazımi işlər görəcəkdir və bilməlisiniz ki, biz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar haqqında daim düşünürük, maraqlanırıq, hər bir həmvətənlərimizin yaxşı, firavan yaşamasını istəyirik, yaşadığı ölkədə özünəlayiq yer tutmasını istəyirik. Azərbaycanlı həmvətənlərimiz, həmyerlilərimiz gərək yaşadığı hər yerdə digər xalqlara, millətlərə, yaşadıqları ölkənin vətəndaşlarına daim çatdırsınlar ki, bu gün Azərbaycan nədir, Azərbaycanın keçmişi nə olubdur, Azərbaycanın bu günü nədir, Azərbaycanın gələcəyi nədir?!» Dahi rəhbərin bu fikirləri dünya azərbaycanlılarının təşkilatlanması prosesinin tarixi zərurət olduğunu göstərirdi.

«Gərək biz hamımız birlikdə çalışaq ki, Müstəqil Azərbaycan dövləti, onun daxili siyasəti, Azərbaycanda gedən demokratik proseslər, Azərbaycanda gedən iqtisadi islahatlar, Azərbaycanda həyata keçirilən hüquqi islahatlar, insan hüquqlarının təmin olunması, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlətin yaranması və inkişaf etməsi bütün dünyaya çatsın və tanınsın» - deyən Heydər Əliyev bununla dünya azərbaycanlılarının vahid bir güc mərkəzi kimi formalaşmasının əsasını qoymağa çağırmışdır.

Dünya Azərbaycanlılarının II qurultayı 16 mart 2006-cı ildə Bakı şəhərində keçirildi. Qurultayda çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultayı böyük tarixi hadisə hesab edərək qurultaydan qurultaya keçilən şərəfli yola nəzər saldı.

«Mənim müxtəlif ölkələrə çoxsaylı səfərlərim çərçivəsində, demək olar ki, həmişə Azərbaycan diasporu ilə görüşlərim, açıq söhbətlərim olubdur. Mən həmişə qeyd etmişəm, bu gün də demək istəyirəm ki, Azərbaycan dövlətinin möhkəm olması dünyada yaşayan azərbaycanlıların da mövqeyini möhkəmləndirir» - deyən ölkə prezidenti dünya azərbaycanlılarını doğma vətənə xidmət edən mütəşəkkil qüvvəyə çevirmək yolunda mühüm işlər görüldüyünü qeyd etdi.

«Eyni zamanda, xaricdə yaşayan azərbaycanlılar bizim üçün də dayaqdır. Çünki Azərbaycan gənc müstəqil dövlətdir. Biz yalnız 15 ildir müstəqillik şəraitində yaşayırıq və təəssüflər olsun ki, bu günədək bir çox ölkələrdə Azərbaycan haqqında kifayət qədər dolğun məlumat yoxdur. Bu məlumatı, Azərbaycan həqiqətlərini, Azərbaycanın problemlərini, eyni zamanda ölkəmizin artan nüfuzunu, önəmini dünya ictimaiyyətinə çatdırmaq, əlbəttə ki, bizim ümumi işimizə çox böyük töhfə olacaqdır» - deyən ölkə prezidenti dünyanın müxtəlif ölkələrində artıq Azərbaycanın haqq səsinin eşidildiyini, artıq dünyanın Azərbaycan həqiqətlərindən məlumatlandırıldığını göstərdi. O artıq Azərbaycanın dünya birliyində nüfuzlu yer tutduğunu, Heydər Əliyev siyasətinin hər bir sahədə müvəffəqiyyətlə davam etdirildiyini, xarici siyasətin çox fəal və uğurla aparıldığını qeyd etdi.

«Azərbaycanlıları yaşadıqları ölkələrin siyasi həyatında fəal iştiraka çağıran Prezident qeyd etdi ki, «mən çox istəyirəm ki, azərbaycanlılar yaşadıqları bütün ölkələrin siyasi həyatında daha fəal rol oynasınlar. Siyasi partiyalara üzv olsunlar. Çalışsınlar ki, o ölkələrin qanunvericilik orqanlarına seçilsinlər. Bu, bizim mövqelərimizi möhkəmləndirir».

Qurultayda «Azərbaycan xalqı böyük xalqdır. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Bizim hamımızın bir Vətəni var – Azərbaycan. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək» - sözləri ilə çıxışını yekunlaşdıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi hamıda yüksək iftixar, gələcəyə böyük inamla baxmaq hissləri aşılamaqla yanaşı, dövlətimizin qüdrətli olması üçün hər bir azərbaycanlının öz fəaliyyətində bütün səy və bacarığını əsirgəməyəcəyinə, dünya azərbaycanlılarının birliyi ideyasının həyata keçirilməsi üçün öz qüvvəsini birləşdirəcəyinə, Azərbaycan dövlətinin milli maraqlarını ləyaqətlə müdafiə edəcəyi əminliyi yaradırdı.

Qurultay bir daha göstərdi ki, qazanılan uğurlar ölkədə milli birliyin təmin olunmasına öz töhvəsini vermiş, dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizin daxili inamını və qürur hissini gücləndirmiş, tarixi vətənin maraqları naminə daha sıx birləşərək fəaliyyət göstərmələri üçün zəmin yaratmışdır.

Bu gün özünün bütün imkanlarından istifadə edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ümummilli liderimiz tərəfindən müəyyənləşdirilmiş siyasi xəttə sadiq qalaraq, güclü Azərbaycan diasporunun və lobbisinin yaradılması məsələlərinə böyük diqqət yetirir, bu mühüm prosesin təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlərin görülməsini

təmin edir. Bu gün hamı azərbaycançılıq ideyasının uğurla davam etdirildiyini və uğurla həyata keçirildiyini təsdiq edir. Bəli, indi dünya azərbaycanlılarının həmrəyliyinin və mütəşəkkilliyinin güclənməsi, onların ümummilli ideyalar ətrafında sıx birləşməsi üçün daha geniş imkanlar yaranmışdır. Azərbaycan Respublikası beynəlxalq münasibətlər sistemində layiqli yer tutur, dünya birliyinə qəti şəkildə inteqrasiya olunur, həyatın bütün sahələrində dünya meyarlarına uyğunlaşır.

Milli müstəqillik əldə etdikdən sonra həyata keçirilməkdə olan demokratik islahatlar, şəxsiyyəti onun düşdüyü mənəvi siyasi iflic vəziyyətindən çıxarmağa, onun siyasi şüuru və fəaliyyətini gücləndirməyə yönəlir. Bütünlükdə cəmiyyətdə baş verən siyasi proseslərə onun öz şəxsi siyasi mövqeyini ifadə etməsinə real imkanlar açır. Sonuncu məqam xüsusi ilə mühüm olub, şəxsiyyətin siyasi şüurunun inkişaf etdiyini, onun müxtəlif siyasi problemlərlə bağlı formalaşan ictimai rəydə müstəqil iştirakını və özünəməxsus yer tutduğunu göstərir. Sözügedən məqam cəmiyyətimizin yaşadığı indiki dövrdə xüsusilə önəmlidir, çünki bu gün həll edilməkdə olan vəzifələrin genişmiqyaslılığı, qarşıda duran problemlərin xeyli dərəcədə çətin olması, cəmiyyətin hər bir üzvünün siyasi fəallığının, eyni zamanda şəxsi siyasi məsuliyyət hissinin fasiləsiz olaraq yüksəlməsini tələb edir.

Müasir şəxsiyyətin siyasi fəallığının yüksəlməsində siyasi mədəniyyət və siyasi ideologiya ayrılmaz vəhdətdə çıxış edir və çox vaxt birgə təsir göstərir. Bununla yanaşı siyasi mədəniyyət və siyasi ideologiya anlayışlarını eyniləşdirmək də doğru olmazdı. Sözügedən məsələ ilə bağlı elmi ədəbiyyatda müxtəlif fikirlər səslənməkdədir. Tədqiqatçıların bir qrupu «siyasi mədəniyyəti»,

digərləri isə «siyasi ideologiyanı» daha geniş anlayış hesab edirlər (198, s.238).

Bizim fikrimizcə, bu anlayışların mənasını müqayisə edərkən, məsələyə konkret yanaşılmalıdır. Yəni hər şey «siyasi mədəniyyət» və «siyasi ideologiya» anlayışlarına hansı məna yükü verilməsindən asılıdır. Bu baxımdan yanaşdıqda göstərilməlidir ki, siyasi mədəniyyəti geniş mənada götürdükdə eyni bir siyasi mədəniyyət şəraitində bir-birilə rəqabət aparan bir neçə ideologiya və ideya – siyasi cərəyanlar mövcud ola bilər. Bu halda göründüyü kimi siyasi mədəniyyət anlayışı həcmcə daha geniş olub, özündə həm də siyasi ideologiyaları ehtiva edir. Bununla belə, siyasi ideologiya dövlət hakimiyyəti və insanların siyasi şüuru ilə daha sıx əlaqəli olduğundan o, siyasi mədəniyyət üzərində üstünlük təşkil edə və onu öz tabeliyinə keçirə bilir.

Şəxsiyyətin siyasi fəallığının artmasını ifadə edən prosesləri araşdırarkən aşağıdakı məqama da diqqət yetirmək tələb olunur. Söhbət dövlət strukturlarında və siyasi təşkilat və birliklərdə çalışan insanların gündəlik həyatda qarşıya çıxan bu və ya digər problemə diqqət yetirməyə səsləyən ictimai təşəbbüslərindən gedir. Belə təşəbbüslər öz məzmununa görə son dərəcə rəngarəng olub müxtəlif sosial, iqtisadi, ekoloji, tarixi-mədəni, milli mənəviyyat və başqa məsələləri əhatə etsə də, onların hamısı üçün ümumi cəhət vardır. Bu ondan ibarətdir ki, şəxsiyyətin bu qəbildən olan bütün ictimai təşəbbüsləri çox əhəmiyyətli olub, onun sözün əsl mənasında vətəndaş fəallığının nümayiş etdirdiyinin göstəricisi rolunu oynayır. Şəxsiyyətin belə vətəndaş fəallığı isə cəmiyyətin gündəlik həyatında müxtəlif obyektiv və subyektiv səbəblər, aidiyyətli orqanların bürokratizmindən irəli gələn və cəmiyyəti

narahat edən problemlərə diqqət yönəldilməsi və onların həll edilməsi baxımından çox önəmlidir.

Müasir cəmiyyətdə informasiya əldə etməyin üsul və vəzifələri müqayisə olunmaz dərəcədə zəngindir. İnformasiya texnologiyaları durmadan təkmilləşir, dünya üzrə vahid kompüter şəbəkəsi-internet fəaliyyət göstərir. Bu fakt şəxsiyyətin siyasi fəaliyyətinə operativ, dəqiq və hərtərəfli informasiya təminatı verir. Hazırda hər bir insan hansı regionda və coğrafi məkanda yaşamasından asılı olmayaraq, internet vasitəsilə siyasi proseslərə dair dolğun və mötəbər informasiyanı tez bir zamanda əldə edə bilir. Digər tərəfdən, hər bir şəxsiyyət başqa ölkələrin vətəndaşları, dövlət və ictimai strukturları ilə bir an ərzində əlaqə yarada və fikir mübadiləsi həyata keçirə bilir. Beləliklə, müasir informasiya texnologiyalarının tətbiqi nəticəsində dövlətlər və xalqlar arasında informasiya şəbəkəsində qeopolitik sərhədləri aşmaq mümkün olur.

İnformasiya texnologiyalarının təkmilləşdirilməsi və tətbiqinin genişləndirilməsi istiqamətində son dövrlərdə Azərbaycanda da çox mühüm irəliləyişlər əldə edilmişdir. Bunlar sübut edir ki, artıq burada da tədricən informasiya cəmiyyəti yaranmaqdadır. Bu cəmiyyət isə siyasi proseslərin müşahidə edilməsi və onlara nəzarət edilməsi işində misilsiz imkanlar açır. Bütün bunların nəticəsində informasiya cəmiyyəti şəxsiyyətin siyasi fəallığının durmadan yüksəlməsinə güclü təsir göstərir.

Şəxsiyyətin siyasi fəallığı təkcə onun siyasi proseslərdə fəal iştirakı, siyasi yüksəlişi göstəricisi deyildir. O həm də bütövlükdə götürülən sosial yetkinlik səviyyəsinə müsbət təsir edir. Təsadüfi deyildir ki, siyasi cəhətdən yüksək fəallığa malik olan şəxslərin bir

qayda olaraq şüurluluq səviyyəsi və mənəvi zənginliyi də yüksək olur (46, s.83).

Şəxsiyyətin siyasi fəaliyyətinin artması onun sosiallaşmasının mühüm istiqaməti olan siyasi sosialaşması ilə ayrılmaz əlaqədə baş verir. Öz məzmununa görə şəxsiyyətin siyasi sosiallaşması ikitərəfli prosesdir. O, bir tərəfdən şəxsiyyəti siyasi proseslərə daha dərindən qovuşdurur. Onun siyasi informasiyaya, biliklərə və yeni siyasi dəyərlərə yiyələnməsini təmin edir. O, bu prosesdə sosial-siyasi təcrübəni, vərdişləri və normaları (özü də təkcə bugünki siyasi göstəriciləri deyil, həm də keçmiş nəsillərdən əxz olunan göstəriciləri) daha dərindən mənimsəyir. Digər tərəfdən, siyasi sosiallaşma yolu ilə irəliləyən şəxsiyyət  mövcüd siyasi proseslərə və siyasi strukturlara yaradıcı təsir göstərərək, onların təkmilləşməsində mühüm rol oynayır (16, s. 32-133).

Lakin demokratikləşmə şəraitində də cəmiyyətin bütün üzvlərinin siyasi fəallıq dərəcəsi eyni deyildir. Burada dövlət hakimiyyəti özünün ümumiliyi və şəxssiz xarakter daşımasına baxmayaraq, əsas etibarilə siyasi elita tərəfindən həyata keçirilir. Müasir Azərbaycan cəmiyyətində də siyasi elita bu və ya digər səviyyədə mövcüddur. Onun zəruriliyini şərtləndirən amillər sırasında aşağıdakılar xüsusi yer tutur: insanların psixoloji və sosial cəhətdən bərabər olmaması; ictimai əmək bölgüsü, siyasi və idarəçilik fəaliyyətinin stumullaşdırılması ilə bağlı məsələlər; siyasi rəhbərlərin fəaliyyəti üzərində tam nəzarəti həyata keçirməyin çətin olması; əhalinin, geniş xalq kütlələrinin siyasi cəhətdən tam aktiv olmaması (215, s.108).

Siyasi elita cəmiyyətin siyasi cəhətdən mütəşəkkil hissəsi olmaqla, buradakı müxtəlif təbəqələrin mənafelərinin əlaqələndirilməsində, onlar arasında razılığın təmin olunmasında

çox mühüm vasitəçi rolunu oynayır. Deyilənlərdən aydın olur ki, müasir Azərbaycan cəmiyyətində siyasi elitanın yaradılması çox zəruridir, həm də ona görə ki, milli siyasi elita siyasi proseslərə və insanların şüuruna güclü dəyişdirici təsir göstərmək qabiliyyətinə malikdir. Doğrudur, siyasi elita özü ilə yanaşı hakimiyyətdə öz səlahiyyətlərini daim genişləndirməyə çalışan bürokratiyanı törədir. Lakin bu fakt onun siyasi münasibətlərdə və proseslərdə müsbət rolunu inkar etmir. Belə ki, həqiqi siyasi elitaya cəmiyyət üzvləri bir növ siyasi fəaliyyət etalonu kimi yanaşırlar. Buradan da onun şəxsiyyəti siyasi fəaliyyətə sövqedici və stumullaşdırıcı rolu irəli gəlir.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanda milli siyasi elitanın formalaşması çox mürəkkəb tarixi şəraitdə gedən prosesdir. Onun böyük bir dövrü əvvəlcə Rusiya imperiyasının, sonra isə kommunist hakimiyyətinin sərt nəzarəti altında baş vermişdir. Digər tərəfdən, burada elitanın formalaşması vətəndaş cəmiyyətinin inkişafı ilə bir vaxtda olmamışdır. Nəhayət, bu prosesə milli ziyalılarımızın böyük bir hissəsinə qarşı yönəlmiş kütləvi repressiyaların da güclü pozucu təsir etdiyi nəzərdə tutulmalıdır (210, s.107).

Deyilənlərdən aydın olur ki, cəmiyyətin demokratikləşməsi, siyasi həyatda fikir azadlığı və plüralizmin bərqərar olması şəxsiyyətin azadlığı, hüquqları, vəzifələri və ləyaqətinin qanunvericilikdə təsbit olunması, onun siyasi fəallığının yüksəlməsinə təminat yaradır. Şəxsiyyət isə bunlardan istifadə edərək, əvvəlcə lazım olan sosial-siyasi təcrübə qazanır və sonra isə öz gücünü, bilik və qabiliyyətlərini cəmləşdirərək siyasi proseslərdə iştirak etməklə siyasi fəaliyyətin mövcud formalarını yaradıcı surətdə dəyişdirir və yeniləşdirir. Şəxsiyyətin siyasi

fəallığının məğzi bundan ibarətdir. Göründüyü kimi bu prosesdə obyektiv və subyektiv amillər, ictimai və fərdi tərəflər qarşılıqlı surətdə bir-birinə təsir və nüfuz edir. Buradan aydın olur ki, şəxsiyyətin siyasi fəallığının gələcək perspektivini, obyektiv sosial şəraitin təkmilləşməsi, hərtərəfli demokratikləşmə, dövlət tərəfindən effektiv sosial siyasət yeridilməsi, şəxsiyyətin tələbat və mənafelərinin, yüksək siyasi şüurunun və mədəniyyətinin inkişaf etdirilməsi müəyyən edir. Öz növbəsində şəxsiyyətin siyasi fəallığının hər bir yeni səviyyəsi, bütövlükdə cəmiyyətin siyasi sisteminin təkmilləşdirilməsində mühüm rol oynayır. Bu həm də onda təzahür edir ki, o özünüidarənin formalaşmasına müsbət təsir göstərir. Bununla əlaqədar qeyd edək ki, sosializm dövründə rəsmi sənədlərdə və ictimai şüurda özünüidarə haqqında təhrif olunmuş təsəvvürlər mövcud idi. O kommunizmin yüksək fazasında qərarlaşacaq utopik ideal kimi göstərilirdi. Eyni zamanda qeyd olunurdu ki, sosializimdə özünüidarənin qərarlaşması dövlət idarəçiliyini sıxışdırıb aradan çıxaran formadır. Əslində özünüidarə cəmiyyətin və dövlət işlərinin idarə olunmasında bütün əhalinin yaxından və fəal iştirakı deməkdir. Onun həyata keçirilməsi uzun və çətin proses olub, cəmiyyət üzvlərinin siyasi fəallığının və şüurluğunun, siyasi mədəniyyətinin, hüquqi təfəkürünün yüksəldilməsinin, onların idarəçilik biliklərinə və vərdişlərinə dolğun surətdə yiyələnməsinin nəticəsidir. Özünüidarənin mahiyyətini aydınlaşdırarkən, onun iki yanlış izahi qeyd olunmalıdır. Birinci onu demokratiyanın bir forması kimi təsəvvür edir. Bu anlam ona görə yanlışdır ki, özünü idarəetməni, cəmiyyətin və dövlət işlərini idarə etməyin digər çoxsaylı formalarına qarşı qoyur. Özünüidarənin digər yanlış anlamı onu siyasi sistemlə, dövlətçiliklə eyniləşdirir. Bu halda özünüidarəçilik

öz spesifikliyini itirir, onun vəzifələri süni şəkildə asanlaşdırılır (10, s.178).

Əslində özünüidarəciliyin əsasını ictimai və dövlət idarəciliyinin bütün vəsilələrində ictimai-siyasi birliklərin və təşkilatların rolunun artırılması, iqtisadi, siyasi, sosial və mədəni məsələlərin həllində əmək kollektivlərinin müstəqilliyinin çoxaldılması təşkil edir.

Müasir şəxsiyyətin siyasi fəaliyyətinin təhlili əsasında aşağıdakı nəticələrə gəlmək olar:

1. Milli müstəqillik dövründə siyasi sistemdə və siyasi həyatda baş verən əsaslı dəyişikliklər şəxsiyyətin siyasi fəaliyyəti və şüurunun yüksəlişində keyfiyyətcə yeni mərhələ deməkdir. Bu prosesdə şəxsiyyət sözün əsl mənasında siyasi münasibətlərin və fəaliyyətin subyektinə çevrilir. Onun siyasi fəallığı və şüuru durmadan artır, siyasi mədəniyyət səviyyəsi yüksəlir, davranış və hərəkətlərində ümummilli ideologiyanın – azərbaycançılığın əsasları daha da möhkəmlənir. Cəmiyyətimizin ardıcıl surətdə və hərtərəfli demokratikləşdirilməsi buna real zəmin yaradır.

2. Şəxsiyyətin siyasi fəallığının inkişafı kortəbii baş vermir, dövlət və siyasi institutlar onun tənzim olunmasına mühüm diqqət yetirir. Bu mürəkkəb prosesdə digər kibernetik idaretmə sistemləri üçün xarakterik olan əks əlaqə prinsipi çox mühüm rol oynayır. Lakin nəzərdə tutulmalıdır ki, burada həmin prinsip konkret və spesifik formada çıxış edərək «siyasi əks əlaqə» anlayışında ifadə olunur. Söhbət siyasi fəallığı müxtəlif vasitələr və yollar ilə normalaşdıran və tənzim edən idarəedici orqanların qərar və göstərişlərinə şəxsiyyətin verdiyi reaksiyadan gedir. Həmin reaksiyanın məzmunu və xarakteri şəxsiyyətin siyasi fəallığının idarə olunması prosesinin gələcək təkmilləşdirilməsi üçün misilsiz

əhəmiyyətə malikdir. Buradan aydın olur ki, indiki şəraitdə şəxsiyyətin siyasi fəallığını elmi idarə etmək, onu tənzim etməyin istiqamətlərini, üsullarını və yollarını fasiləsiz olaraq təkmilləşdirmək son dərəcə zəruridir. Demokratikləşmə dərinləşdikcə siyasi proseslərə cəlb olunan insanların sayı da sürətlə çoxalır və bununla əlaqədar olaraq həmin vəzifənin rolu və əhəmiyyəti də artır. Onun reallaşmasında həm də şəxsiyyətin özü, onun daxili yetkinliyinin və məsuliyyətinin artması çox mühüm yer tutur. Çünki «fərdin hərtərfli inkişafı yalnız o vaxt idealdan reallığa çevriləcəkdir ki, şəxsiyyətin imkanlarını inkişaf etdirən xarici mühitin təsirinə fərdin özü nəzarət edəcəkdir…» (33, s.282).

3. Şəxsiyyətin siyasi fəallığının yüksəlişi prosesinin məqsədyönlü və elmi əsaslar üzrə tənzim olunması həm də şəxsiyyəti müxtəlif qəbildən olan manipulyasiyalardan qoruyur. Hazırda cəmiyyətimiz açıq xarakter daşıdığı üçün, burada müxtəlif xarici ölkələri təmsil edən təşkilatlar, işgüzar şirkətlər və turizm gediş-gəlişi çox genişlənmişdir. Onların sırasında xüsusi tapşırıq yerinə yetirənlər, müxtəlif missioner və dini məqsəd güdənlər xeyli dərəcədə çoxdur. Bu vəziyyət, ölkəmizdə şəxsiyyətin manipulyasiyası üçün real təhlükə yaradır.

4. Totalitar rejimdən fərqli olaraq demokratik cəmiyyətdə insan müstəqil şəxsiyyət və əsl siyasi subyekt kimi çıxış etdiyi üçün onun siyasi fəallığı, şüurlu və müstəqil xarakter daşıyır, öz spesifik məqsədini, habelə bütövlükdə cəmiyyətin ümummilli maraqlarını reallaşdırmağa yönəlir. Digər tərəfdən bu proses intensivləşdikcə, demokratikləşmənin miqyasları daha da genişlənir və dərinləşir, çünki o cəmiyyəti təkmilləşdirməyin və inkişaf etdirməyin zəruri şərti kimi çıxış edir. Şəxsiyyətin siyasi

fəalığının yüksəlməsi deyilənlərlə yanaşı, həm də onun statusu və rolunun möhkəmlənməsinə güclü təsir göstərir.

## 2.2 İqtisadi münasibətlər sisteminin transformasiyası və şəxsiyyət

Bütün tarixi mərhələlərdə olduğu kimi, müasir dövrdə də mürəkkəb xarakter daşıyan iqtisadi münasibətlər sistemi şəxsiyyətin formalaşmasına və inkişafına çox güclü təsir göstərir. Buradan aydındır ki, müasir cəmiyyətin iqtisadi münasibətlər sistemində şəxsiyyətin tutduğu yeri və oynadığı rolu, son dövrdə burada həyata keçirilən iqtisadi islahatların şəxsiyyətə təsir mexanizmini açmadan, bu günün şəxsiyyətinin hərtərəfli və dolğun təhlilini vermək qeyri-mümkündür.

Marksizm cəmiyyətin (o cümlədən də şəxsiyyətin) inkişafında iqtisadi münasibətlərin rolunu həddən artıq şişirdir və göstərirdi ki, iqtisadiyyat ictimai həyat fəaliyyətində baş verən bütün prosesləri müəyyən edir. Təbiidir ki, bu mövqeyə haqq qazandırmaq olmaz. Lakin digər ifrat hədd də, yəni iqtisadi həyatın çox mühüm rolunu danmaq da yol verilməzdir. Maddi istehsal insan üçün zəruri olan nemətləri yaradır, cəmiyyətdə mövcud olan əmək bölgüsü və mülkiyyət münasibətləri, onun sosial-siyasi və mənəvi həyatı, iqtisadi göstəricilərin güclü təsiri altında formalaşır və inkişaf edir. Eyni fikri şəxsiyyətə münasibətdə də söyləmək olar: iqtisadiyyat şəxsiyyətin ictimai fəaliyyətinin bütün sahələrində misilsiz rol oynayır, daha dəqiq desək, o şəxsiyyətin normal həyat fəaliyyəti göstərə bilməsini maddi, iqtisadi cəhətdən təmin edir.

İqtisadi münasibətlərin əsasını iqtisadi tələbatlar və onların ödənilməsinə yönələn iqtisadi fəaliyyət təşkil edir. Əmək prosesinin nüvəsi rolunu oynayan tələbatların ödənilməsi şəxsiyyətin və bütövlükdə cəmiyyətin inkişafının əsas mənbəyi və hərəkətverici qüvvəsidir. İqtisadi tələbatlar sosial subyekt

tərəfindən dərk olunaraq iqtisadi mənafelər kimi ifadə olunur. Sonuncuların şəxsiyyətin formalaşması və inkişafı baxımından böyük rolu bundadır ki, onlar insanı istehsal fəaliyyətinə sövq edən çox güclü amillərdir. Hər bir şəxsiyyət ayrılıqda, habelə sosial birliklərin tərkibindəki fəaliyyətində öz iqtisadi mənafelərini reallaşdırmağa, tələbatlarını ödəməyə çalışır. Başqa sözlə deyilsə, bu və digər şəxsiyyət subyekt kimi öz iqtisadi mənafelərini həyata keçirərək, tələbatlarını mümkün qədər səmərəli və optimal üsullarla yerinə yetirməyə cəhd edir. Həmin üsulların tətbiqi və onun törətdiyi nəticələr mahiyyət etibarilə şəxsiyyətin mövcud ictimai münasibətlər sistemində yerini və rolunu müəyyən edən həlledici amillərdən biridir.

Qeyd etmək lazımdır ki, iqtisadi münasibətlər sistemindəki dəyişikliklərin şəxsiyyətin inkişafında oynadığı rol təkcə onun utilitar tələbatlarının reallaşması ilə məhdudlaşmır. Digər tərəfdən, daim artmaqda olan iqtisadi biliklərə yiyələnməklə öz iqtisadi təfəkkürünü zənginləşdirən şəxsiyyətin şüuru yüksəlir, idarəçilik vərdişləri inkişaf edir və təkmilləşir. Göstərilməlidir ki, «varlıq şüuru müəyyən edir» prinsipinə əsaslanan marksist fəlsəfənin hökmranlığı dövründə məsələnin sözügedən cəhətinə lazımı əhəmiyyət verilmirdi. Əslində isə insanın (şəxsiyyətin) şüuru lap əvvəldən iqtisadi münasibətlər sisteminin bütün əsas ünsürləri ilə üzvü vəhdətdədir. Bu onunla izah edilir ki, bütün iqtisadi münasibətlərin, onların hər bir tərəfinin subyekti məhz şüura malik olan insandır, şəxsiyyətdir. Onun bu sahədəki bütün hərəkətləri və fəaliyyəti şüur amilləri ilə (dərk olunmuş tələbatlar, məqsədyönlülük, iradi hərəkətlər, məsuliyyət hissi və sair) ayrılmaz surətdə əlaqəlidir. Bu mənada cəmiyyətin iqtisadi həyatı sosial proses kimi çıxış edir. Həmin prosesdə ayrı-ayrı şəxsiyyətlər

konkret bu və ya digər təsərrüfatın bilavasitə yaradıcıları kimi, dolayısı ilə isə bütövlükdə cəmiyyət miqyasını əhatə edən ümumtəsərrüfat orqanizminin tərkib hissələri kimi çıxış edirlər.

Müasir cəmiyyətin insanları arasında bilavasitə istehsal, bölgü, mübadilə və istehlak sferalarında qərarlaşan münasibətlər mürəkkəb struktur – funksional və çoxpilləli tabeçilik xarakterli sistemi yaradır. Bütövlükdə istehsal münasibətləri adlanan bu sistem əsasında mülkiyyət və onunla bağlı məsələlər durur. Onlar həm əmək bölgüsü formalarına, sosial sferada əməkdaşlığın və ya tabeçiliyin bərqərar olmasına, idarəçiliyə, habelə insanların daxil olduğu bütün digər münasibətlər növlərinə çox güclü təsir göstərir. Müasir istehsalda idaretmə sistemi, kadrların qabiliyyəti, təcrübəsi, bilik və vərdişlərini nəzərə almaqla seçilməsi və yerləşdirilməsi məsələləri də şəxsiyyətin formalaşması və inkişafı ilə sıx bağlıdır.

Deyilənlərdən aydın olur ki, iqtisadi münasibətlər sisteminin şəxsiyyət ilə qarşılıqlı əlaqələri çox geniş diapazona malikdir. O, ayrı-ayrı istehsalçılar arasındakı fərdi münasibətlərdən tutmuş, istehsal vasitələrinə (mülkiyyətə qədər) olan münasibətləri əhatə edir.

Əvvəla onu qeyd edək ki, müasir dövrdə iqtisadi münasibətlərin dərindən və hərtərəfli transformasiyasını ifadə edən əsaslı islahatların aparılması tarixi zərurətdir. Belə ki, onsuz müstəqil və demokratik cəmiyyət quruculuğu vəzifəsi xoş arzudan başqa bir şey deyildir. Sonra, ölkənin milli təhlükəsizliyinin təmin edilməsi, cəmiyyətin malik olduğu təbii, iqtisadi və intellektual resurslardan səmərəli istifadə edilməsi də azad və müstəqil iqtisadiyyat yaradılmasını şərtləndirir. Nəhayət, bu da nəzərə alınmalıdır ki, iqtisadiyyatı əsaslı surətdə yeniləşdirmədən, müasir

dövrün siyasi, sosial və mənəvi sahələrdə qarşıya qoyduğu məsələləri uğurla həll etmək qeyri-mümkündür.

Ölkənin müstəqilliyinə əbədi xarakter verən çox mühüm amillərdən biri kimi milli iqtisadiyyatın yaradılması aşağıdakı vəzifələri həyata keçirməyi nəzərdə tutur: 1) yetkin milli bazarın və bu bazarın tələblərinə cavab verən iqtisadi strukturun qərarlaşması; 2) öz iqtisadi dayaqları üzərində inkişaf etmək qabiliyyəti; 3) müstəqil, möhkəm valyuta, maliyyə, kredit, bank sisteminin yaradılması; 4) formalaşmış istehsal, bazar və sosial infrastrukturların təşkil edilməsi; 5) sahmanlı və çevik təsərrüfat mexanizminin formalaşması; 6) iqtisadiyyatda dövlət idarəçiliyinin təmin olunması (8, s.14-15).

Qeyd edək ki, milli müstəqilliyin əldə olunması ərəfəsində və müstəqilliyin ilk çağlarında Azərbaycana böhran vəziyyətinə düşmüş və dağılmaq üzrə olan iqtisadi sistem miras qalmışdı. Odur ki, ölkəmiz çox böyük iqtisadi çətinliklərlə üzləşməli oldu. Əvvəla, köhnə iqtisadi sistemin dağıldığı və yenisinin hələ yaranmaması üzündən həyat fəaliyyətinin bu vacib sahəsində müəyyən boşluq hiss olunurdu. Bu isə sabitliyin pozulmasına, sosial gərginliyin və iqtisadi özbaşınalığın artmasına şərait yaradırdı. Sonra, sosial ədalət prinsipinin pozulması nəticəsində əhalinin müxtəlif kateqoriyalarının qütbləşməsi, ifrat təbəqələşməsi, işsizliyin baş alıb getməsi özünü göstərirdi. Nəhayət, Ermənistanın işğal etdiyi ərazilərimizdən bir milyondan çox qaçqın və məcburi köçkünün qovulması da qeyd edilməlidir.

Belə bir şəraitdə Azərbaycanda cəmiyyət – iqtisadiyyat – insan münasibətlərini əsaslı surətdə dəyişdirmək və faktiki olaraq yeni iqtisadi münasibətlər sistemi və həyat tərzi yaratmaq kimi mürəkkəb və çox çətin strateji xəttin reallaşdırılmasına başlanıldı.

Ötən illərin təcrübəsinin təhlili sübut edir ki, ölkəmiz müstəqil milli iqtisadiyyatın yaradılması yolunda uğurla irəliləməkdədir.

İqtisadi münasibətlərin ilkin əsası əmək prosesində yaradılır. O həm də şəxsiyyətin yaradıcı fəaliyyətinin çox mühüm forması kimi çıxış edir. Bu prosesdə insan təkcə özünün rəngarəng fərdi tələbatlarını reallaşdırmaqla məhdudlaşmır, həm də insanlar arasında müəyyən qarşılıqlı münasibətlər şəbəkəsi yaranır. Bütövlükdə insanın mahiyyət qüvvələrinin ifadəsi olan əməkdən kənarda nə ayrıca bir şəxsiyyətin, nə də cəmiyyətin mövcudluğu qeyri-mümkündür. Məhz əmək şəxsiyyəti formalaşdırır və inkişaf etdirir. Digər tərəfdən şəxsiyyətin subyektiv keyfiyyətləri (məharəti, məsuliyyəti, motivlərinin xarakteri və sair) əməyin səmərəliliyinə güclü təsir göstərir. İnsan əmək prosesində əvvəlki nəsillərin qazanmış olduğu təcrübədən və özünün yaratdığı istehsal alətləri və vasitələrindən istifadə etməklə, öz insani mahiyyətinin qüvvələrini reallaşdırır. Beləliklə, cəmiyyətin iqtisadi binasının iki möhkəm sütunu (əmək və texnika) qərarlaşır. Texnika insanın əmək prosesində istifadə etmək üçün yaratdığı alət və vasitələrin, üsul və əməliyyatların, məharət və qabiliyyətlərinin məcmusudur. İnsanın məhsuldar qüvvəsinin qüdrətli tərkib hissəsi olan müasir texnikanın inkişafı öz növbəsində şəxsiyyətə, onun bilik və vərdişlərinə, əxlaqi keyfiyyətlərinə daim artmaqda olan tələblər verir. Müasir dövrdə elmi-texniki inkişaf misli görünməmiş miqsas alaraq, nəhəng dərəcədə qüdrətli potensiala çevrilmişdir. Bununla əlaqədar olaraq, indi insan ilə texnika arasında münasibətlər son dərəcə mürəkkəb, bir sıra hallarda isə təhlükəli xarakter kəsb etməkdədir. Müasir insan nəinki təkcə bilavasitə istehsal əməliyyatlarını, habelə özünün əqli fəaliyyəti funksiyalarını həyata keçirən robotlar, kibernetik qurğular

sistemi, bilgisayar, zəngin informasiya texnologiyaları kəşf etməklə, sanki özünün intellektual-informasiya analoqunu, psevdosubyektini yaradır (236, s.610).

Yeni və möhtəşəm texniki vasitələr bir tərəfdən işçi şəxsiyyətinin keyfiyyətlərinin formalaşmasına güclü təsir edir, digər tərəfdən isə onun özü insanın dərin təsirinə məruz qalır.

Müasir dövrdə iqtisadi sferada həyata keçirilən əsaslı islahatların və konkret tədbirlərin ümumi mərkəzləşmiş nəticəsini bazar iqtisadiyyatının yaradılması təşkil edir. Bu proses hazırda şəxsiyyətin formalaşması və inkişafı baxımından böyük əhəmiyyət kəsb etdiyi üçün, onun üzərində geniş dayanmağa ehtiyac vardır. Həm də nəzərdə tutulmalıdır ki, bazar iqtisadiyyatının şəxsiyyətə təsirinin xarakteri, mexanizmi, yolları və törətdiyi nəticələr fəlsəfi planda lazımı dərəcədə işlənilməmişdir.

Əvvəlcə onu qeyd edək ki, bazar, cəmiyyətin sosial iqtisadi həyatını müəyyənləşdirən və tənzim edən təbii, tarixi və obyektiv bir fenomendir. O cəmiyyətin inkişafının müəyyən mərhələsində yaranan sosial hadisə olmaqla, tarixi prosesdə inkişaf edir və ictimai tərəqqiyə kömək edir. Göstərilməlidir ki, müasir elmi ədəbiyyatda bazar anlayışına müxtəlif təriflər verilir: onu «iqtisadi münasibətlərdə tələblə-təklifin məcmusu», «ayrı-ayrı əmtəələr və xidmətlər üzrə satıcılarla alıcılarn birgə fəaliyyət mexanizmi», «ticarət aparmaq üçün adamların bir-birilə hər cür qarşılıqlı fəaliyyəti», «əmtəə istehsalı və pul tədavülü qanunları üzrə təşəkkül tapan mübadilə» kimi səciyyələndirən və digər təriflərə rast gəlmək mümkündür (30, s.138). Bu təriflərdə bazar fenomeninə daxil olan bu və digər əsas keyfiyyət ön plana çəkilir.

Bazarın başlıca məzmununu təşkil edən alqı-satqı əməliyyatları pul vasitəsilə həyata keçirilir. Müasir iqtisadi

ədəbiyyatda pul dəyər ölçüsü, mübadilə vasitəsi, sərvət toplamaq, ödənc vasitəsi funksiyalarını yerinə yetirən xüsusi əmtəə kimi səciyyələndirilir (77, s.58).

Pulun rolu və təsir dairəsi genişləndikcə, bazarın yeni-yeni növləri (istehsal vasitələri, istehlak şeyləri, iş qüvvəsi bazarı, kapital, qiymətli kağızlar, xammal, fondlar bazarı və sair.) yaranır. Onların ümumi cəhəti budur ki, hamısında əmtəə-pul münasibətlərini tənzim edən iqtisadi qanunlar fəaliyyət göstərir (53, s.56).

Dünya ölkələrinin təcrübəsi göstərir ki, bazar mövcud tələbatların aşkar olunmasını və ödənilməsini təmin edən, istehsalçı ilə istehlakçı arasında münasibətləri tələb və təklif qanunları əsasında tənzimləyən qüdrətli mexanizm kimi çıxış edir. Bazar əsas etibarilə iqtisadiyyatda təzahür etsə də, onun təsir dairəsi bu sahə ilə məhdudlaşmır, o ictimai həyatın bütün tərəflərinə dərindən nüfuz edir, onları necə deyərlər, öz güclü burulğanına cəlb edir. Sərt və amansız bazar iqtisadiyyatı qanunları həm də şəxsiyyətə və şəxsiyyətlərarası münasibətlərə ciddi dəyişdirici təsir göstərir. Bu hər şeydən əvvəl onunla izah edilməlidir ki, bazar mexanizminin fəaliyyətinin əsasını təşkil edən iqtisadi motivasiya və sövqedicilər, əlverişli sövdələşmə, yüksək gəlir və maksimum qazanc götürmək məqsədi, şəxsiyyətin mənafe və tələbatları, sosial rolu, fəallığı və bütövlükdə fəaliyyəti ilə ayrılmaz əlaqədədir.

İqtisadi həyatın transformasiyası və modernizasiyası prosesində bazar münasibətlərinin formalaşması ümumi qanunauyğunluqdur. Lakin o, hər bir ölkənin konkret şəraiti prizmasından baxdıqda, özünəməxsus şəkildə reallaşır. Bu mənada Azərbaycanda bazar iqtisadiyyatının formalaşması

prinsipinin aşağıdakı spesifik xüsusiyyətlərini göstərmək olar: 1) burada bazar iqtisadiyyatının yaradılması ilk gündən uydurma Dağlıq Qarabağ probleminin törətdiyi ağır nəticələr (ölkəmizin ərazisinin beşdə birindən çoxunun işğal edilməsi nəticəsində həmin ərazilərdəki təbii və iqtisadi resurslardan istifadə etməyin qeyri-mümkün olması, yüz minlərlə qaçqının və məcburi köçkünün mövcudluğu, onların respublika ərazisində qeyribərabər məskunlaşması və əksəriyyətinin iri şəhərlərdə cəmlənməsi və sair) əvvəldən olan sosial-iqtisadi çətinliklərlə çulğalaşmış şəkildə baş verirdi; 2) bu proses sosialist ictimai münasibətlərinin birdən-birə, sürətlə və tam inkar edildiyi, yeni münasibətlərin isə hələ tam qərarlaşmadığı (aydındır ki, bu köhnəni dağıtmaqdan çox çətindir və uzun müddət tələb edir) şəraitdə həyata keçirilirdi; 3) bazar iqtisadiyyatının yaranması daxilən çoxtərəfli proses olduğundan və özündə müxtəlif və eyni zamanda çətin istiqamətləri əhatə etdiyindən bir sıra hallarda cəmiyyətdə əvvəldən mövcud olan sosial gərginlik və narazılıq ünsürlərinin artması ilə müşaiyət olunurdu; 4) xalqımızın şüurunu psixologiyasını, xarakterini və milli mentalitetini yeni iqtisadi tələblərə uyğunlaşdırmaq, hər şeyin «bizim olandan» mənim «olana» çevrilməsi istiqamətində dəyişdirilməsi ilə bağlı özünəməxsusluqlar da əhəmiyyətli yer tutur (7, s.804).

Ümumiyyətlə götürdükdə bazar münasibətləri şəraitində şəxsiyyətin malik olduğu həyat qüvvələrindən səmərəli istifadə edilməsi kəskin problem kimi qarşıya çıxır. Məsələ bundadır ki, sərbəst rəqabətin hökmranlıq etdiyi bu dövrdə şəxsiyyətin həyat qüvvələrindən səmərəli istifadə edilməsi əmək məhsuldarlığının yüksəldilməsinin və istehsal xərclərinin azaldılmasının ilkin şərtlərindən biridir. Bu da öz növbəsində istehsalın ümumi

artımına, onun strukturunun optimallaşmasına, istehsal olunan məhsulun və xidmət növlərinin çoxalmasına, bir sözlə əhalinin həyat səviyyəsinin yüksəlməsini təmin edən makroiqtisadi şəraitin formalaşmasına gətirib çıxarır. İnsan öz hərəkət və əməlləri sistemi vasitəsilə iqtisadiyyatın sosial mexanizimlərinin özünəməxsus hərəkətverici qüvvəsi, mühərriki rolunu oynayır. Buna görə də insanın mahiyyət qüvvələrinin formalaşması mexanizmi və reallaşması haqqında biliklərə malik olmaq, sosial–iqtisadi proseslərin əsaslarını dərk etmək və onları səmərəli idarə etmək üçün mühüm əhəmiyyətə malikdir.

Deməli, müasir cəmiyyətin sosial–iqtisadi sferasını inkişaf etdirmək üçün şəxsiyyətin zəngin potensialının reallaşdırılması yollarını və sosial texnologiyalarını araşdırmaq, onların mexanizmlərini və vasitələrini axtarıb tapmaq, eləcə də mövcud imkanları keyfiyyətcə təhlil etmək, onların tam istifadə olunmamasının səbəblərini açıb göstərmək son dərəcə zəruridir.

Dünyanın qabaqcıl ölkələrinin sosial-iqtisadi inkişaf təcrübəsinin ümumiləşdirilməsi sübut edir ki, yalnız hər bir konkret insanın həyat qüvvələrinin tam həcmdə formalaşması və optimal tətbiqi üçün şərait yaradıldıqda, onun fərdi keyfiyyətləri yüksək qiymətləndirildikdə böyük uğurlar qazanmaq mümkündür.

Sosial-iqtisadi sferada şəxsiyyətin mahiyyət qüvvələri dedikdə insanın burada tətbiq olunan fərdi və ictimai vasitələrlə öz həyatını təkrar istehsal etmək üçün lazım olan potensialı və faktiki qabiliyyəti başa düşülür. Bu halda sosial-iqtisadi münasibətlər insanlar arasında istehsal, bölgü, mübadilə və istehlak sferalarında qərarlaşan münasibətlər sistemini əhatə edir.

İqtisadi sferada şəxsiyyətin həyat qüvvələri onların təsiri və qarşılıqlı təsirində, fəaliyyəti və davranışında, tələbatları və motivlərində, rəylərində, üstünlük verdiyi dəyərlərdə, emosiyaları və hisslərində təzahür edir. Burada insanın davranışı və fəaliyyəti təcrid olunmuş ayrıca bir fərdin hüdudları ilə məhdudlaşmır, onun mənsub olduğu sosial qruplar və digər birlik formaları ilə vəhdətdə götürülür. Buna görə də iqtisadi kateqoriya olan «işçi qüvvəsi» anlayışından fərqli olaraq «insanın həyat qüvvələri anlayışı» sosioloji mahiyyət kəsb edir. İşçinin sosial-iqtisadi münasibətlər sferasındakı hərəkət və əməllərini ölçməklə həm onun həyat qüvvələrinin psixofizioloji komponentlərini (iş qabiliyyəti, dözümlülüyü, sağlamlıq səviyyəsi və s.), həm də adaptasiya prosesinə daxil olan tərəflərini (aktivliyi, təşəbbüskarlığı, mobillik dərəcəsi, yetkinlik səviyyəsi, özünkişaf mexanizmi və s.) düzgün qiymətləndirmək olar.

Şəxsiyyətin həyat qüvvələri ictimai münasibətlər sferasında o cümlədən ayrıca bir ailə və sosial birlik forması səviyyəsində həyata keçirilən maddi və mənəvi istehlak gedişində formalaşır. Həmin proses cəmiyyətin bütün əsas sahələri (iqtisadiyyat, təhsil, mədəniyyət və incəsənət, ticarət və iaşə, mənzil təsərrüfatı, nəqliyyat, rabitə və sosial təminat) ilə sıx bağlı surətdə gedir.

İnsanın həyat qüvvələrinin formalaşmasının sosial-iqtisadi səciyyəsində əhalinin gəlirləri sosial rifah və xidmət səviyyəsi çox mühüm yer tutur.

Yuxarıda deyildiyi kimi sosial–iqtisadi sferada insanın həyat qüvvələrinin formalaşması ilə yanaşı, ondan istifadə olunması da çox mühüm yer tutur. Sonuncu amilin əsas formasını iqtisadiyyatda, sosial-əmək münasibətləri sferasında və sahibkarlıqda, ticarət və biznesdə məşğuliyyət təşkil edir. Məhz bu

sahələrdəki əmək məşğuliyyəti insanın müxtəlif tələbatlarının ödənilməsinin, onun qüvvə və imkanlarının bərpa edilməsinin əsas mənbəyi rolunu oynayır. Şəxsiyyət əmək prosesində əməyin əşyavi amillərini canlandırır, özünün həyat enerjisini, o cümlədən işçi qüvvəsini sərf edir. Digər tərəfdən, o bu prosesdə həmin göstəriciləri yenidən, özü də daha yüksək səviyyədə təkrar istehsal edir.

Bununla əlaqədar qeyd edək ki, müasir elmdə şəxsiyyətin həyat qüvvələrindən istifadə olunması prosesləri əmək resurslarından istifadə edilməsinin köhnə təsviri konsepsiyasından prinsipcə fərqlənir. Ənənəvi konsepsiya yalnız insanın istehsalda yerini deyil, daha çox, yerinə yetirdiyi funksiyaları (əmək, iş vaxtı məsrəfləri və əmək haqqı ilə müəyyən olunan funksiyaları) təsvir edirdi. Bundan fərqli olaraq müasir konsepsiya aşağıdakı iki postulatın vəhdətinə əsaslanır: insan pesurslarının idarə olunması və insanın özünün idarə olunması. Özü də sonuncu, insanı bir tərəfdən bərpa olunmayan resurs kimi, digər tərəfdən isə aşağıdakı üç komponentin (əmək funksiyalarının, sosial münasibətlərin və işçinin vəziyyətinin) vəhdətini sosial cəhətdən təşkil edən subyekt kimi götürür.

Qeyd etmək vacibdir ki, insanın həyat qüvvələrindən istifadə olunmasının xarakteri iqtisadiyyatın öz daxilində eyni deyildir. Bu münasibətdə sferalar arasında (maddi və qeyri-maddi istehsal) sektorlar arasında (dövlət, xüsusi, bələdiyyə və səhmdar), sahələr arasında (sənaye, kənd təsərrüfatı, nəqliyyat və s) əhəmiyyətli fərqlər özünü göstərir. Təhlil sübut edir ki, son dövrdə əməkdən istifadənin səmərəliliyi və təşəbbüskarlıq fəallığının səviyyəsi xüsusi bölmədə dövlət bölməsində olduğundan daha yüksəkdir.

İqtisadiyyatda insanın həyat qüvvələrinin istifadəsinin yuxarıda nəzərdən keçirilən bilavasitə formaları ilə yanaşı həm də bu problemin dolayı formalarına (ev təsərrüfatı və şəxsi yardımçı təsərrüfatda təzahür edən formalarına) da diqqət yetirmək zəruridir. Bununla əlaqədar qeyd edək ki, keçmişdə ev təsərrüfatı bir qayda olaraq istehlak sferasına aid edilirdi. Son dövrlərin iqtisadi nəzəriyəsində belə bir fikir əsas yer tutur ki, ev əməyi mühüm fəaliyyət formalarındandır və onu bazar münasibətləri sferasındakı məşğuliyyət ilə əlaqələndirmək mümkündür. Ev təsərrüfatı isə insanın rifah halını iki əsas göstərici (pul büdcəsi və vaxt büdcəsi) baxımından maksimallaşdıran vahid kimi çıxış edir (220, s.19).

Cəmiyyətin iqtisadi həyatının əsaslı dəyişikliklərə uğradığı və bazar münasibətlərinin formalaşdığı indiki şəraitdə xüsusən də iqtisadiyyatda sosial – əmək münasibətlərində gərginliyin özünü göstərdiyi hallarda, sözügedən formaların rolu və əhəmiyyəti daha da artır. Belə ki, bazar iqtisadiyyatına keçilməsi ilə əlaqədar olaraq ev təsərrüfatında və şəxsi yardımçı təsərrüfatda məşğul olanların sayı sürətlə artmaqdadır.

Sonra, sosial məişət xidmətləri daha çox əhalinin özü tərəfindən yerinə yetirilir. Bunu ictimai iaşə və məişət xidməti növlərinin həcminin ixtisara düşməsində – xüsusən də paltar və ayaqqabının fərdi tikilişi və təmiri sahəsində, hamam-camaşırxanalardan istifadə olunmasında – daha yəqin etmək mümkündür. Faktlar göstərir ki, son dövrlərdə həm də şəxsi yardımçı təsərrüfatlardan kənd təsərrüfatı məhsulları formasında əldə edilən gəlir xeyli artmışdır. Bu meyl digər postsovet respublikaları üçün də səciyyəvidir. Məsələn, Rusiyada 1990-ci illərin ikinci yarısında əhalinin ümumi məcmu gəlirinin həcmində

şəxsi yardımçı təsərrüfatlardan əldə olunan gəlirin xüsusi çəkisi 25% olmuşdur (245, s.180). Müasir ev təsərrüfatlarında bütün tərəvəzin, ərzaq məhsullarının üçdə birinə qədəri bəzi məhsullar (məsələn kartof üzrə daha çox məhsul), məhz şəxsi həyətyani təsərrüfatlarda hasil edilir. Bu amil Azərbaycanda ona görə daha mühüm yer tutur ki, digər postsovet respublikalarının bir çoxundan fərqli olaraq burada dərin aqrar islahatların həyata keçirilməsi sayəsində torpaq sahələri özəlləşdirilmiş və kəndlinin öz ixtiyarına verilmişdir. Burada 1992-ci ildən bu tərəfə həyata keçirilən reformalar nəticəsində ev təsərrüfatının və şəxsi həyətyanı təsərrüfatın cəmiyyətin sosial–iqtisadi təkrar istehsalında rolu durmadan artmaqdadır. Bu prosesin konkret təzahür formaları aşağıdakılarda öz ifadəsini tapır: bağ təsərrüfatı və bostan sahələri ilə məşğul olanların sayı artır, şəhərlərdə yaşayan keçmiş kəndlilərin kəndə qayıdan hissəsi çoxalır, fermerler kimi yeni sosial qrup formalaşır. Ev işlərinin yerinə yetirilməsində (yemək hazırlanması, paltar yuyulması, ayaqqabı, paltar və mənzillərin təmirində) ailə üzvlərinin rolu artır. Azərbaycan cəmiyyətində son onillikdə bu qəbildən olan meyillərin təhlili sübut edir ki, kəndlilərin mənəvi əxlaqi iqtisadiyyat nəzəriyyəsinin görkəmli nümayəndəsi C.Skottun «yaşayış etikası» adlandırdığı müddəa burada öz praktiki tətbiqini tapır (230, s.118).

Ev təsərrüfatının və şəxsi həyətyani təsərrüfatların sosial iqtisadi baxımdan rol və əhəmiyyətinin artması, bütünlükdə şəxsiyyətin iqtisadi fəallığı və imkanlarının genişlənməsində xüsusi yer tutur. Bununla yanaşı, həmin meyl müəyyən mənfi nəticələr də törədə bilir. Məsələn, indiki şəraitdə iqtisadi cəhətdən aktiv əhalinin getdikcə daha çox hissəsinin həmin sferalara axınının həddən artıq güclənməsi arzuolunmaz nəticələrə gətirib çıxara bilir (işçi

qüvvəsinin sferalar üzrə bölgüsündə normal nisbətlərin pozulması, gizli iqtisadiyyata meylin çoxalması və s).

Cəmiyyətimizin yaşadığı müasir dövr, sosial iqtisadi münasibətlərin bazar rəqabətinə əsaslanan prinsiplər üzrə transformasiyası şəraitində insanların, o cümlədən ayrı-ayrı şəxsiyyətlərin həyat qüvvələrinin xeyli hissəsinin yeni şəraitə adaptasiya olunmaq üçün sərf edilməsini tələb edir. Məsələn, məşhur aqrar nəzəriyyəçisi Q.Zimmelin «differensiasiyanın qüvvələrə qənaət etməyin mühüm prinsipi olması» barəsindəki konsepsiyasına əsasən sahibkar öz rəqibinə qarşı qüvvəsini həm müəyyən məhsul istehsalına qədərki dövrdə, həm də bilavaistə məhsul istehsalı ilə məşğul olduğu dövrdə sərf etməlidir.

Buradan aydın olur ki, sahibkar və ya müəyyən müəssisəyə rəhbərlik edən şəxsiyyət bazar rəqabəti şəraitində, inhisara əsaslanan iqtisadiyyat dövründə olduğundan daha çox enerci sərf edir. Əlbəttə, bu o demək deyildir ki, iqtisadiyyatda dövlət inhisarının hökm sürdüyü sovet dövründə həmin vəzifədə olan şəxslər az enerji sərf edirdilər. Məsələnin mahiyyəti bundadır ki, keçmiş SSRİ-də planlı təsərrüfat hökmran idi. Onun törətdiyi mənfi nəticələr, habelə sosializm yarışları adlanan forma, insanların iş qüvvəsinin qeyri-rasional şəkildə sərf etməsini şərtləndirirdi.

Digər postsovet respublikaları kimi Azərbaycan cəmiyyəti də müasir dövrdə şəxsiyyətin öz tələbatlarında və mənafelərində, oriyentasiyalarında və davranış motivlərində «iki sosial–iqtisadi sistemin – yaxın keçmişdə olduqları və ondan uzaqlaşmaqda olduqları totalitar recimin və yenicə daxil olmağa başladıqları açıq cəmiyyətin cəhətlərini özündə saxlaması ilə səciyyələnir» (224, s.248-249).

Təbiidir ki, sözügedən müxtəlif sistemləri səciyyələndirən bir-birinə əks olan cəhətlər müasir şəxsiyyətin sosial təbiətində və simasında müəyyən ziddiyyətliliyi və tərədüdləri şərtləndirir. Lakin nəzərdə tutulmalıdır ki, bu müvəqqəti meyldir və gələcəkdə aradan qalxacaqdır. Amma bu müddət ərzində şəxsiyyətin daxilində həmin əks cəhətlərin bir-birilə mübarizəsi və bir-birini neytrallaşdırmaq cəhdləri də labüddən özünü göstərəcəkdir və bu ikili vəziyyət şəxsiyyətin ümumi inkişaf səviyyəsinə öz mənfi təsirini göstərməyə bilməz. Bu baxımdan Q.Zimmelin aşağıdakı fikri diqqəti cəlb edir: «Əks istiqamətli cəhdlərin» bir-birilə toqquşması və qüvvələrin bir-birini zəiflətmək cəhdləri nisbətən qısa müddəti əhatə edən keçid dövründə, yəni köhnənin hələ tam ölməmiş olduğu və yeninin isə hələ tam qələbə çalmamış olduğu dövrdə, özünü göstərir. Buna görə də həmin dövrdə qüvvələrin inkişaf səviyyəsi daim aşağı olur» (126, s.429).

Deməli, müasir Aəzərbaycan cəmiyyətində bazar münasibətlərinin, sərt rəqabət qaydalarının fəaliyyəti insanın, şəxsiyyətin digər insanlarla işlədiyi müəssisə və ya təşkilatın kollektivi ilə, habelə bütövlükdə cəmiyyət ilə münasibətlərində yaranan sosial–iqtisadi keyfiyyətlər bütövlükdə bu gün şəxsiyyətə özünün güclü təsirini göstərir. Həm də nəzərdə tutulmalıdır ki, bazar münasibətlərinin qərarlaşması işçidən öz qüvvələrini daha dolğun istifadə etməyi tələb edir. Bu şəraitdə uğur qazanmaq üçün onun bilik və qabiliyyətləri daha dərindən ixtisaslaşmalı və diferensiasiayaya uğramalıdır. Çoxtərəfli və müxtəlif mənafelərin və vərdişlərin inkişafı nəinki bazarın qanunlarına zidd deyildir, əksinə, onlarla daha çox uzlaşır. Deməli, bazar münasibətlərinin formalaşması şəxsiyyətdə ikili xarakterli meyilin inkişafına kömək edir: bir tərəfdən işçinin dar çərçivədə ixtisaslaşmasının

dərinləşməsini tələb edir və bu birtərəflilik bahasına iş qüvvəsinə müəyyən qənaət özünü göstərir. Digər tərəfdən isə şəxsiyyətin öz qüvvələrini müxtəlif istiqamətlərdə və hərtərəfli surətdə inkişaf etdirə bilməsi üçün şərait yaranır. Bu cür hərtərəflilik həyat tələb etdikdə ona asanlıqla bir fəaliyyət sahəsindən digərinə keçmək imkanı verir.

Şəxsiyyət öz qüvvələrindən əmək sferasında, gəlirlərin əldə edilməsində və digər məşğuliyyət növlərində istifadə edə bilər. Bu, bütövlükdə onun «iqtisadi davranışı» anlayışının məzmununu əhatə edir. Elmi ədəbiyyatda müasir şəxsiyyətin iqtisadi davranışının xarakteri və məzmununa görə aşağıdakı tipləri bir birindən fərqləndirilir: 1) «ələ baxımlılıq» tipli şəxsiyyət, o hər cür əməkdən imtina edərək başqalarının himayəsi altında gününü keçirməyə cəhd göstərir; 2) əməyini minimallaşdırmaqa və iş gününü qısaltmaqa, yüngül əməyə və o qədər də çox olmayan əmək haqqı almağa cəhd göstərən şəxsiyyət tipi; 3) öz əməyini maksimum səviyyəyə çatdırmağa, uzun müddətli iş gününə malik olmaqla və əməyinin intensivliyini artırmaqla yüksək əmək haqqı almaq istəyənlər; 4) öz iş qüvvəsinin sərfini maksimallaşdırmaq, ağır, zərərli və hətta həyat üçün təhlükəli sahələrdə işləmək bahasına yüksək əmək haqqı almağa səy göstərən şəxsiyyət tipi; 5) əməyində perspektivli strategiyadan çıxış edərək yüksək profesionalizm və inkişaf tələb edən sahələrdə işləməyə çalışan şəxsiyyət tipi (onlar indi az əmək haqqı almağa dözərək onun gələcəkdə yüksələcəyi ümidi ilə yaşayırlar); 6) kriminal tipli şəxsiyyətlər, bunlar hər cür əməkdən boyun qaçıraraq qeyri-normal deviant davranışa meyil göstərirlər (211, s. 57).

Azərbaycan cəmiyyətində son dövrlərdə bu qəbildən olan proseslərin müşahidəsi əsasında belə bir qənaətə gəlmək olar ki,

burada birinci, üçüncü, dördüncü tipli şəxsiyyətlərin sayı çoxalmağa, ikinci, beşinci və altıncı tiplərin təmsilçiləri azalmağa doğru meyl edir.

Qeyd etmək lazımdır ki, ayrı-ayrı fərdlərin müəyyən səviyyəli həyat qüvvələrinə malik olması hələ o demək deyildir ki, onlar bunu optimal dərəcədə istifadə etməyə çalışırlar. Müasir elmi ədəbiyyatda bu problemin ölçüləri və dərəcəsi ilə bağlı məsələlərə münasibətdə müxtəlif fikirlər mövcüddür. Məsələn N.V.Polyakova əmək prosesində iş qüvvəsinin sərf olunmasının dörd dərəcəsini qeyd edir: 1) «sıfır» səviyyəsi (bu, yuxarıda göstərilən ələbaxanlar tipinə və kriminallara aiddir) 2) aşağı səviyyə (əməyin minimallaşdırılması strategiyasının tərəfdarları, 3) yüksək səviyyə, əməyin maksimallaşdırılmasına cəhd göstərənlər və perspektivdə daha yaxşı əmək sahələrində çalışacaqlarına ümid edənlər; 4) ən yüksək səviyyədə iş qüvvəsini sərf edənlər (211, s.58).

N.İ.Şatalova isə işçinin əmək potensialının reallaşmasına subyektivliyin dərəcəsi baxımından yanaşmağın vacibliyindən çıxış edərək, bu məsələdə cəmi iki səviyyənin olduğunu göstərməklə kifayətlənir (tam dolğunluğu ilə reallaşdırılan səviyyə və natamam dolğunluqla istifadə olunan səviyyə). Onun fikrincə birinci, özü də onu əhatə edən mühitin komponentləri ilə vəhdət halında iş prosesinə cəlb olunur. İkinci səviyyədə isə peşə qabiliyyətlərindən və əmək vərdişlərindən yarımçıq istifadə olunur (279, s.46).

Şəxsiyyət öz qüvvələrini bir tərəfdən ayrı-ayrı fərdlər arasında sosial-iqtisadi münasibətlər yaratmaq işində reallaşdırır (ailə üzvləri arasında, əmək kollektivində, müəyyən biznes sahəsində çalışan partnyorlar arasında). Bu prosesin digər istiqaməti özü ilə sosial qrup, müəyyən birlik forması, sosial təşkilat və bütövlükdə

cəmiyyət arasında sosial–iqtisadi münasibətlərin yaradılmasında öz qüvvələrini sərf etməsidir. Həm də nəzərdə tutulmalıdır ki, bu iki növ bir-birindən ciddi surətdə fərqlənir. Belə ki, fərdin sosial qrup ilə, birlik forması və bütövlükdə cəmiyyət ilə qarşılıqlı təsir naminə öz qüvvələrindən istifadə etməsi, həmin qüvvələrin ayrı-ayrı fərdlər arasında qarşılıqlı təsirdə istifadə edildiyi hallardan keyfiyyətcə ayrı nəticələrə malik olur. Belə ki, Q. Zimmelin haqlı olaraq qeyd etdiyi kimi, «fərdlər öz aralarındakı qarşılıqlı təsir hissini, onun nə qədər güclü olmasından asılı olmayaraq, daha yüksək səviyyəyə qaldırmağa cəhd göstərir, qarşılıqlı təsirin ikinci forması, yəni fərdlər arasında mənafelərin və hisslərin ümumiliyinə əsaslanan qarşılıqlı təsir onların ümumi kütləsini «son dərəcə böyük kəmiyyətə gətirib çıxardır», elə bir səviyyəyə yüksəldir ki, hətta fərdlərin özü buna təəccüb edirlər» (126, s.391).

Beləliklə təhlil göstərir ki, muasir dövrdə cəmiyyətin sosial iqtisadi sferasında şəxsiyyətin subyektlilik keyfiyyətləri çox mühüm rol oynayır. Bununla yanaşı o özündə müasir dövrün xarakterindən irəli gələn və praktiki olaraq bir-birinə əks məzmunlu olan cəhətləri birləşdirə bilir. Onlardan ən əsasları aşağıdakılardır:

1.Bir tərəfdən təmənnasızlıq (xeyirxahlıq, səxavətlilik) göstərilməsi və digər tərəfdən başqalarının işinə, vəzifəsinə və mövqeyinə paxıllıq edilməsi. Bu keyfiyyətlərin birinci tərəfindən danışarkən onu sovet dövründə geniş tətbiq olunan planların artıqlaması ilə yerinə yetirilməsi ilə eyniləşdirmək doğru olmazdı. Çünki həmin dövrdə bu hadisə heç də həmişə özünün müvafiq qiymətini almırdı, digər tərəfdən isə bu qəbildən olan fəaliyyət işçinin öz ailəsinə diqqətinin azalması hesabına başa gəlirdi. Bundan fərqli olaraq bazar münasibətləri şəraitində şəxsiyyətin bu

subyektlilik keyfiyyətləri yeni məzmun kəsb edir. Bu yenilik həm də xeyriyyəçilik işinin geniş vüsət almasında, sosial müdafiə xidmətinin inkişafında, budcədə işləyənlərin kadr tərkibinin qorunub saxlanılmasına qayğı göstərilməsində ifadə olunur. Sonuncu tərəflə bağlı bu faktı qeyd etmək kifayətdir ki, Azərbaycanda büdcə təşkilatlarında işləyən işçilərin aylıq vəzifə maaşları son on ildə 50 dəfəyə qədər artmışdır.

2. Əməksevərlik və tənbəllik. Əməksevərlik əksər azərbaycanlıların təbii keyfiyyətidir. Onlarda tarixən formalaşmış olan bu cəhət indi də özünü göstərir. Onun əsas təzahür formaları bunlardır: təsərrüfathesablı müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi, kənd əhalisinin böyük əksəriyyətinin və şəhərlilərin də getdikcə artmaqda olan hisssəsinin şəxsi yardımçı təsərrüfata marağının sürətlə artması və sair. Qeyd edilməlidir ki, sonuncu meyil təkcə ailənin gəlir səviyyəsini yüksəltmək məqsədi güdmür, o həm də torpağa bağlılıq hissinin güclənməsini və öz əməyinin nəticələrindən əyani həzz almağın ləzzətinin duyulmasını ifadə edir. Tənbəllik adlanan keyfiyyətə gəlincə göstərilməlidir ki, təəssüf ki, o hələlik şəxsiyyətlərin xeyli hissəsində özünə yer tapır. Doğrudur, tənbəllik ürəyə yatan iş sahəsinin, əmək haqqının kifayət dərəcədə yüksək olmaması, qismən də bazar münasibətləri şəraitində iş yerlərinin ixtisara düşməsi nəticəsində işsizliyin çoxalması ilə bağlı olur. Bu qəbildən olan neqativ göstəriciləri Azərbaycanın Ermənistan tərəfindən işğala məruz qalması nəticəsində bir milyondan artıq əhalinin öz dədə-baba torpaqlarını tərk edərək, qaçqın vəziyyətinə düşməsi və respublikanın müxtəlif ərazilərinə səpələnərək ağır şəraitdə yaşaması faktı daha da gücləndirir.

3. Qanuna hörmət ilə intizamsızlığın əlaqələnməsi. Birinci tərəf bunda təzahür edir ki, ümumən götürdükdə Azərbaycan xalqı tarixən mütəşəkkil olaraq həmişə qanun qarşısında öz öhdəliklərini yerinə yetirməyə çalışan insanları əhatə edir. Sozün yaxşı mənasında qanundan qorxmaq hissi və məsulliyət hissi burada çulğalaşmış halda çıxış etmişdir. Hətta son on illikdə baş verən hadisələrin özünə nəzər saldıqda görünür ki, Azərbaycanda digər postsovet respublikaları ilə müqayisədə tətil, mitinq və nümayişlər çox az olmuşdur.

Bununla yanaşı şəxsiyyətlərin müəyyən qismində əmək intizamının aşağı olması, işlədiyi müəssisənin və ya təşkilatın ümumi qaydalarına tam riyayət etməməsi, əmək məhsuldarlığı və istehsalın səmərəlilik göstəricilərinin azlığı halları da özünü göstərir. Yeri gəlmişkən deyək ki, son dövrdə ölkəmizin iqtisadiyyatına xarici sərmayələrin qoyulması miqyası genişləndikcə, burada əcnəbi iş adamlarının başçılıq etdiyi müəssisələrin sayı da çoxalmaqdadır. Təbiidir ki, onlar öz işçilərindən daha ciddi intizam, iş recimi qaydalarına, qoyulmuş standartlara cavab verməyi tələb edirlər. Belə şəraitdə bu və ya digər işçinin tənbəllik, yaxud da intizamsızlıq nümayiş etdirməsi onlar tərəfindən bağışlanılmır və bu hərəkətlərə yol verən şəxslər qısa bir zamanda iş yerlərindən məhrum edilirlər.

4. Kollektivizm və fərdiyyətçilik cəhdlərinin birləşdirilməsi də müasir şəxsiyyətin səciyyəvi keyfiyyətidir. Bununla əlaqədar qeyd edək ki, kollektivizm, birlikdə əmək fəaliyyəti göstərmək özü-özlüyündə mühüm və zəruridir. Lakin sovet dövründə bu anlayış çox vaxt təhrif olunaraq, özünün əsas mənasından uzaqlaşdırılmışdı. Müasir dövrdə qarşıda duran vəzifələrin geniş miqyaslılığı və mürəkkəbliyi işçilərin səylərinin birləşdirilməsini,

sağlam prinsiplərə arxalanan kollektivizmi zəruri edir. Bu fikir kənd təsərrüfatı sahələrinə daha çox aiddir, çünki burada istehsal geniş məkanda aparılır, ağır zəhmət, çoxlu miqdarda texnika və işçi qüvvəsi tələb edir. Odur ki, müasir kənd təsərrüfatının normal inkişafını təmin etmək üçün işçinin sözügedən şəxsiyyətlilik göstəricisi son dərəcə zəruridir. Məhz onun sayəsində aqrar istehsalı ekstremal təbii və iqtisadi situasiyaların vurduğu ağır ziyanlardan qorumaq mümkündür.

Müasir şəxsiyyətin simasında kollektivçiliklə yanaşı fərdiyyətçilik keyfiyyəti də özünü göstərir. Nəzərdə tutmaq lazımdır ki, bu əlamət müəyyən hüdudlar daxilində biruzə verildikdə elə bir təhlükə yaratmır, əksinə fərdin konkret özünəməxsusluğunun, təkrar olunmazlılığının göstəricisi kimi çıxış edir. Lakin öz həddini aşmış fərdiyyətçilik, şəxsiyyətin ümumi təbiətinə mənfi təsir göstərir. Çox vaxt əlahiddəlik və eqoizm ilə nəticələnir.

5. Öz işinə, çalışdığı müəssisənin mənafelərinə sədaqətlilik, eyni zamanda bəzən ondan zü döndərmək meyli baş verir. Birinci tərəf müasir şəxsiyyətdə daha üstün yer tutur. Bu həm də bazar münasibətləri şəraitində iş yerini itirmək təhlükəsi ilə bağlıdır. İkinci tərəf isə çox vaxt pul əldə etmək və yaxşı yaşamaq hərisliyi ilə əlaqədar ifadə olunur.

6. İşə və əmək şəraitinə münasibətdə şıltaqlıq etməmək və bəzən lüzumsuz olaraq özünü çəkmə halları, lovğalıq təzahürləri. Birinci keyfiyyət sadə zəhmetkeş insanın əzəli xassələrindəndir. Bizim dədə-babalarımız çox vaxt işə başlayarkən onun nüfuzu və ya aşağı hörmətə malik olmasına o qədər də məhəl qoymamışlar. Yəni onları işə, müəyyən peşələrə üstünlük vermək, digərlərinə saymaz yanaşmaq yox, ən çox halal zəhmət maraqlandırmışdır.

Bununla yanaşı,bəzi peşələrə yuxarıdan yanaşmaq hallarına da rast gəlinir. Doğrudur, müasir demokratikləşmə və bazar iqtisadiyyatının qərarlaşması gedişində belə münasibət demək olar ki, çox azalmışdır. Bu fakt bir tərəfdən həmin sahələrdə çalışanların əmək haqqının yüksəlməsi və bu peşələrin cəmiyyətdə nüfuzunun çoxalması ilə, digər tərəfdən isə «yaxşı» hesab olunan peşələrin və iş yerlərinin sayının kifayət qədər olmaması ilə izah olunur.

7. Şəxsiyyətlərin əksəriyyətində əhatə dairəsinin genişliyi, perspektivi görmək məharəti, gələcəyə optimist baxış hakimdir ki, bu onların təhsil səviyyəsi və şüurluluğunun artması ilə izah edilir. Digər tərəfdən onların müəyyən qismində həyata məhdud baxışlarla yanaşmaq, yeni texnikanı və texnologiyaları öyrənməyə həvəssizlik və onlara biganə münasibət bəsləmək, bəzi peşələrə və orada çalışan işçilərə həqarətlə yanaşmaq halları da özünü göstərir.

Müasir şəxsiyyətin iqtisadi münasibətlər sistemində yeri və rolunu müəyyən edən amillər sırasında mülkiyyət məsələləri öncül yerlərindən birini tutur. Bu təsadüfi deyildir çünki öz mahiyyəti etibarilə mülkiyyət şəxsiyyətin özünütəsdiqinin ən mühüm formalarındandır. Vaxtilə Hegel mülkiyyətin şəxsiyyət üçün böyük rol oynadığını göstərərək yazırdı:

«Şəxsiyyətin mövcud varlığı kimi götürülən mülkiyyət üçün, nəyinsə mənim olacağı barədə daxili təsəvvürünün və iradənin olması kifayət deyildir. Bu mövcud varlıq həm də onun başqaları tərəfindən tanınmasını nəzərdə tutur. Nəyinsə mənimki olması barədə daxili iradənin aktı başqaları tərəfindən də tanınmalıdır» (102, s.230).

Mülkiyyət və şəxsiyyət arasındakı münasibətlər o qədər sıx bağlıdır ki, bəzi müəlliflərin fikrincə «mülkiyyət şəxsiyyətin əşyalarda ideal davamı və yaxud onun əşyalara keçməsi deməkdir» (237, s.622).

Mülkiyyət institutunun əsas məzmunu insanın müəyyən obyektə sahib olması, ondan istifadə etməsi və üzərində sərəncam verməsi anlayışları vasitəsilə açılır. Qeyd edək ki, cəmiyyətin və şəxsiyyətin normal inkişafını təmin etmək baxımından müxtəlif mülkiyyət formalarının mövcud olması daha faydalıdır. Müasir dövrdə ölkəmizdə mülkiyyətin aşağıdakı bərabərhüquqlu formaları mövcuddur: dövlət mülkiyyəti, xüsusi mülkiyyət, səhmdar cəmiyyətlərinin və birliklərin mülkiyyəti, bələdiyyə mülkiyyəti. Bunların içərisində perspektivlilik və şəxsiyyətə göstərdiyi təsir baxımından xüsusi mülkiyyət müstəsna yer tutur.

Marksizim xüsusi mülkiyyətə düşmən mövqe tutaraq, onun ləğvini və ictimai mülkiyyətin yaradılmasını cəmiyyətdəki bütün sosial bəlaları aradan qaldırmağın açarı hesab edirdi. Bu təlimə görə əmək məhsuldarlığını yüksəltməyin və ictimai sərvət bolluğunu yaratmağın yeganə yolu ictimai mülkiyyətdir, guya xüsusi mülkiyyət əməkçini passivləşdirir və onu tənbəlliyə öyrədir. Bu yanlış fikrin həyata keçirilməsi gedişində ölkəmizdə on minlərlə adam güllələnmiş, sürgünə göndərilmiş və qolçomaq elan olunaraq başqa yollarla məhv edilmişdir.

Sosializm şəraitində ictimai (dövlət) mülkiyyət hökmran yer tuturdu, lakin sözdə və rəsmi bəyanatlarda bildirilirdi ki, o ümumi xalqın mülkiyyətidir. Bu belə bir xoş niyyətlə edilirdi ki, guya xüsusi mülkiyyət insanın insan tərəfindən istismarına şərait yaradır, ictimai mülkiyyət isə buna yol vermir. Əslində nəzərdən qaçrılırdı ki, sosializimdə dövlət insanları daha sərt və güclü

səviyyədə istismar edirdi. Ölkəmizdə yetmiş ildən artıq müddətdə fəaliyyət göstərən sovet reciminin acı taleyi bu qəbildən olan baxışların əsassız olduğunu sübut edir. Xüsusi mülkiyyət insanın təbiəti, cismani və ruhu təşkili ilə, onun vacib tələbatları və dəyər oriyentasiyaları ilə, insani əmək fəaliyyəti göstərməyə vadar edən motivlər ilə sıx bağlıdır. O, şəxsiyyətin özünütəsdiqetmə sahəsi, onun həyatının mühüm məqsədidir. Xüsusi mülkiyyət məhsuldar əməyin və azad təsərrüfat təşəbbüskarlığının qüdrətli mənbəyidir, xüsusi mülkiyyət şəxsiyyətin fiziki və mənəvi qüvvələrinin özünü reallaşdırmasına kömək edir. Xüsusi mülkiyyət və bazar münasibətləri insanlara əmlak müstəqilliyi verir, şəxsi təşəbbüskarlığı artırır, onların özfəaliyyətini, sahibkarlıq vərdişlərini stumullaşdırır, onlarda öz işində, ümumiyyətlə həyatda məsuliyyət hissi tərbiyə edir. Nəhayət, xüsusi mülkiyyət insanların hüquqi şüurunu, qanuna itaət etmə mədəniyyətini möhkəmləndirir. Xüsusi mülkiyyəti rədd edən adam, eyni zamanda şəxsiyyətdə şəxsi əsasları, özfəaliyyəti, yaradıcı başlanğıcın özdəyərliliyini, şəxsiyyətin axtarışlarını və risk etmə qabiliyyətini azaldır. Bununla da o, cəmiyyətin, dövlətin və şəxsiyyətin mənafelərini pozur.

Milli müstəqillik əldə olunduqdan sonra həyata keçirilməyə başlayan əsaslı iqtisadi islahatların ilk addımlarından biri mülkiyyət üzərində dövlətin inhisarına son qoyulması, ictimai mülkiyyətin özəlləşdirilməsi, bərabərhüquqlu müxtəlif mülkiyyət formalarının yaradılması, xüsusi mülkiyyətin inkişafına şərait yaradılması, onun rolu və əhəmiyyətinin artırılması oldu. Azərbaycanda təxminən son illər ərzində bu istiqamətdə məqsədyönlü və geniş miqyaslı proqram işlənib hazırlanmışdır və o tədricən həyata keçirilir. Burada reallaşdırılan çoxpilləli

özəlləşdirmə tədbirləri gedişində kiçik və orta müəssisələr (sonradan isə iri müəssisələr) xüsusi mülkiyyətə çevrilməkdədir. Nəticədə müasir iqtisadi həyatda kiçik müəssisələrin rolunun artması meyli özünü göstərir. Bu onların aşağıdakı üstünlüklərə malik olması ilə izah edilir: elmi-texniki tələblərə çevik uyğunlaşa bilmək məharəti; ixtisaslaşmanın dərinləşməsinə şərait yaratması; əhalinin dəyişilməkdə olan tələbatları ilə ayaqlaşa bilməsi; müxtəlif regionlarda sosial vəzifələrin həllinə fəal köməklik göstərməsi; təkrar xammaldan və istehsal tullantılarından səmərəli istifadə olunmasına şərait yaratması və sair. Həmin üstünlüklərin hər biri şəxsiyyətin iqtisadi göstəricilərinin yaxşılaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Müasir dünyanın ən inkişaf etmiş ölkəsi olan ABŞ-in iqtisadiyyatında kiçik müəsssisələrin və sahibkarlığın nə dərəcədə böyük rol oynadığını aşağıdakı rəqəmlərdən görmək olar: burada fəaliyyət göstərən 19 milyon müxtəlif müstəqil firmaların 90 %-ni kiçik müəssisələr təşkil edir. Onlar iş təklif edən sahibkarların 99 %-ni, xüsusi sektorda çalışan işçilərin 52%-ini özündə birləşdirir (18, s.3).

Azərbaycanda həyata keçirilən müvafiq tədbirlər bu baxımdan özünəməxsus inkişafı təmin etmişdir. Belə ki, 1999-cu ilin sonuna olan məlumata görə burada kiçik müəssisələrin sayı 16504-ə çatmışdır. Burada respublika iqtisadiyyatında məşğul olanların cəmi 3,9%-nin əhatə olunmasına baxmayaraq, ümumi daxili məhsulun 18,9%-i istehsal edilmişdir (36, s.5).

2013-cü ildə isə ölkənin kiçik müəssisələrində çalışanların sayı 108945 nəfər təşkil etmişdir ki, bu da 2007-ci ilin göstəricisindən 18,3% çoxdur. Bu müəssisələr tərəfindən 3139,8 milyon manatlıq məhsul istehsal olunmuşdur ki, bu da 2007-ci ilin göstəricisindən

4,8 dəfə çoxdur. Ölkə üzrə 2013-cü ildə 57708,2 milyon manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur. Burada kiçik müəssisələrin payı 5,4%-dir. Həmin müəssisələr tərəfindən 2013-cü ildə 165437,5 min manatlıq mənfəət əldə olunmuşdur ki, bu da 2007-ci illə müqayisədə 4 dəfə çoxdur.(www.stat.gov.az)

Elmi ədəbiyyatda haqlı olaraq göstərilir ki, bəşər sivilizasiyasının yaratdığı xüsusi mülkiyyət kimi müqəddəs dəyəri inkişaf etdirib, təkmilləşdirmədən bugünkü dünya iqtisadi daxil olmaq qovuşmaq qeyri mümkündür (73, s.7-8)

Yuxarıda deyilənlərdən heç də belə nəticə çıxarılmamalıdır ki, guya xüsusi mülkiyyət avtomatik olaraq şəxsiyyətin inkişafını təmin edir və onun miqdarı şəxsiyyətin yetkinlik səviyyəsinin başlıca göstəricisidir. Bu əsla belə deyildir.

Xüsusi mülkiyyət ilə şəxsiyyətin inkişafı arasında qarşılıqlı təsir birbaşa və bilavasitə deyildir. Başqa sözlə deyilsə, şəxsiyyətin malik olduğu xüsusi mülkiyyətin miqdarının çox olması, onun şəxsi keyfiyyətlərinin yüksək səviyyəliliyinə dəlalət etmir. Qeyd olunan vəziyyət bununla izah edilir ki, xüsusi mülkiyyət, onun həcmi və miqdarı şəxsiyyətə təkcə müsbət istiqamətdə deyil, həm də mənfi istiqamətdə təsir göstərə bilir. Buna görə də xüsusi mülkiyyət sahibi onun miqdarı çoxaldıqca, özündə şəxsiyyət keyfiyyətlərini saxlamaq istəyirsə, o mütləq hər gün hər saat çalışmalıdır ki, var-dövlət onda inkarı meyillər oyatmasın. Odur ki, həmin şəxs malik olduğu mülkiyyət və sərvətdən özünün və yaxınlarının, sonra isə cəmiyyətin mənəvi inkişafı, fiziki və əxlaqi sağlamlığını qorumaq üçün istifadə etməlidir. Bu baxımdan müasir Azərbaycan cəmiyyətində genişlənməkdə olan xeyriyyəçilik fəaliyyətləri mühüm əhəmiyyət kəsb edir. Belə ki, o şəxsiyyəti xüsusi mülkiyyətin, var-dövlətin quluna çevrilməkdən qoruyur.

Xeyriyyəçi öz malından ehtiyacı olan soydaşlarına pay verməklə xeyirxahlıq nümayiş etdirir və həqiqi şəxsiyyət kimi yüksək mənəvi keyfiyyətlərə malik olduğunu göstərir.

Lakin şəxsiyyətin mülkiyyətçi kimi təkmilləşməsində neqativ tərəf də özünü büruzə verə bilir. Buna görə də əsas məsələ xüsusi mülkiyyətin və qazanılan pulun hansı yolla əldə edilməsində (belə ki, o hüquqi və əxlaqi cəhətdən bəraət qazandırılmayan vasitələrlə də qazanıla bilər, buna çirkl pul deyilir), onun hansı məqsədlərə və necə sərf olunmasındadır. Təəssüf ki, kütləvi informasiya vasitələrinin və rəsmi dövlət orqanlarının verdiyi məlumatlar göstərir ki, cəmiyyətimizdə xüsusi mülkiyyətindən və malik olduğu sərvətdən qeyri-əxlaqi formalara və yollara sərf edənlər də vardır. Belələrini sözün həqiqi mənasında şəxsiyyət adlandırmaq şübhəlidir.

Xüsusi mülkiyyətin rolunun artması ilə yanaşı insanların bərabərliyi məsələsi də qarşıya çıxır. Bununla əlaqədar göstərilməlidir ki, insanlar təbiətən bərabər deyildirlər, buna görə də onların mülkiyyətdə də bərabər olması qeyri-mümkündür. Odur ki, bu yolda atılan hər cür cəhdlər süni xarakter daşıyır və uğursuzluğa məhkumdur. Sözün əsl mənasında götürülən ədalət prinsipinin qorunması da cəmiyyətdə insanların mülkiyyət baxımından bərabər olmasını tələb etmir. Hegel bu münasibətlə yazırdı: «Guya ədalətin adamların mülkiyyətlərinin bərabər olmasını tələb etdiyini söyləmək yalandır, çünki, ədalət yalnız hər bir adamın, müəyyən mülkiyyətinin olmasını tələb edir» (103, s.108).

Bazar iqtisadiyyatının şəxsiyyətin inkişafına təsirinin mühüm bir istiqaməti budur ki, o, şəxsiyyətlin dövlətdən asılılığını aradan qaldırır, onun sərbəst və müstəqil iqtisadi fəaliyyət göstərməsini

təmin edir. Bu mənada bazar iqtisadiyyatı həm də geniş demokratik məzmuna malik olduğunu sübut edir (74, s.31).

Bazar münasibətlərinin formalaşması şəraitində şəxsiyyətin iqtisadi fəallığının artmasına maneçilik göstərən amillər tədricən aradan qaldırılmaqdadır. Totalitar recimdən miras qalmış, bu amillər sırasında aşağıdakılar xüsusi yer tutur: mülkiyyət üzərində dövlətin inhisarı, əməkçi insanın mülkiyyətdən uzaqlaşdırılması; mülkiyyətin müxtəlif formalarının olmaması üzündən iqtisadi inkişaf mənbələrinin məhdud miqyas alması; rəqabət olmadığı üçün iqtisadi təşəbbüskarlığın və maddi marağın stimullaşdırılmaması; konkret sahibinin olmaması nəticəsində iqtisadi resurslara israfçı münasibət bəslənilməsi; planı ödəmək naminə istehsal göstəricilərinin süni surətdə şişirdilməsi, zərərlə işləyən müəssisələrə qabaqcıl müəssisələrin təmənnasız köməyi pərdəsi altında onlarda ələbaxımlılıq əhvalının yaradılması və sair (6, s.36-38).

Bazar iqtisadiyyatının şəxsiyyətə təsiri o qədər güclü olur ki, zəmanəmizin görkəmli filosofu E.From onun hətta xüsusi şəxsiyyət tipini – «bazar tipli şəxsiyyəti» yaratdığını göstərir. O həmin şəxsiyyət tipinin əsas səciyyəsini aşağıdakı kimi göstərir: «özünə və başqa insanlara münasibətləri əmtəəyə olan münasibəti xatırladan, qiyməti mübadilə dəyəri ilə müəyyən olunan şəxsiyyət oriyentasiyasını, mən bazar oriyentasiyalı şəxsiyyət adlandırıram» (269, s.66).

E.From bazar tipli şəxsiyyətin xarakterik cəhətlərini daha müfəssəl təsvir edərək göstərir ki, bu şəxsiyyət hər şeyi əmtəə kimi qavrayır. Təkcə əşya və predmetlər deyil, şəxsiyyətin özü də, onun fiziki enercisi, vərdişləri, biliyi, rəyləri, hissləri, hətta gülümsəməyi də əmtəə kimi qəbul olunur. Hər cür şəraitdə əlverişli

sövdələşməyə nail olmaq insanın başlıca məqsədinə çevrilir (268, s.27).

From qeyd edirdi ki, bazar münasibətləri şəraitində uğur qazanmaq üçün şəxsiyyət ona edilən hər hansı bir təklifi yerinıə yetirərkən, öz qabiliyyətlərini satmağa məcburdur. Buna görə də o özünü əmtəə və yaxud satıcı kimi hiss edir. Belə şəraitdə insanı öz şəxsi həyatda xoşbəxtliyi maraqlandırmır, o daha çox satılmaq iqtidarına malik olan qabiliyyətlərini itirməmək qayğısına qalır.

Səciyyəvi cəhət burasıdır ki, From bu vəziyyət üçün şəxsiyyəti günahlandırmır, çünki şəxsiyyətə bazar xarakteri verən situasiya ayrı-ayrı fərdlərin nəzarətindən kənardadır. Hətta fərd müəyyən həddədək belə şəraitə müqavimət də göstərə bilir. Lakin bu önəmli olmur, əsas məsələ cəmiyyətin bu şəraitə necə münasibət bəsləməsindədir. Bununla əlaqədar From haqlı olaraq göstərirdi ki, normal cəmiyyət öz təbəələrinin şəxsi ləyaqətinin, özünəhörmət hissinin və müstəqilliyinin itirilməsinə yol verməməlidir. Onun bu ibrətamiz fikri bazar iqtisadiyyatı yoluna düşmüş bütün postsovet respublikaları, o cümlədən də Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb edir. Bu baxımdan yanaşdıqda respublikamızda da sözügedən qəbildən problemlər az deyildir. Burada bazar iqtisadiyyatının müasir şəxsiyyət üçün yaratdığı problemlər sırasında aşağıdakılar əsas yer tutur: işsizliyin artması, əhalinin həyat səviyyəsinə görə kəskin qütbləşməsi; yoxsuluğun geniş yer tutması, sosial dəyərlərə laqeyd münasibət bəslənilməsi, həqiqi əxlaqi dəyərlərin destruksiyası və sair (6, s.28).

Bazara oriyentasiyalılığın şəxsiyyət üçün törətdiyi digər bir neqativ nəticə də onun yaradıcılıq potensialının və meylinin zəifləməsidir. İlk nəzərdə adi görünən bu hal cəmiyyət üçün ağır nəticələrə gətirib çıxara bilir (ümumi məhsul istehsalı azalır,

xidmət sahələrinin işi məhdudlaşır, başlıcası isə mədəniyyətin inkişafı ləngiyir.)

Bazar iqtisadiyyatı normal məcrada təşkil olunmadıqda hətta ölkənin iqtisadi müstəqiliyi üçün təhlükə törədə bilir. Belə ki, ölkəyə xarici kapital və sərmayə qoyuluşunun həcmi artdıqca, yerli əhali ucuz işçi qüvvəsi rolunu yerinə yetirməli olur, onun hüqüqları və azadlığı pozulur. Sonra, bazara keçid nəticəsində əhalinin bir qismi həddindən artıq varlanır, digər qismi isə daha da kasıblaşır: qanunların zəif gücündən istifadə edən bəzi işbazlar və dələduzlar özgə əməyini mənimsəmək hesabına hədsiz sərvət toplaya bilirlər, ədalətsizlik və özbaşnalıq halları xeyli yer tutur.

Bazar iqtisadiyyatının şəxsiyyətə göstərdiyi təsirin mühüm bir istiqaməti onun dəyərlər sistemi və dəyərlər oriyentasiya sferasında təzahür edir. Bu prosesin ətraflı təhlili xüsusi mövzunun predmetidir. Burada isə ümumi şəkildə qeyd edək ki, formalaşmaqda olan bazar mexanizimləri, iqtisadi liberalizm, sərbəst rəqabət, daha çox gəlir etmək cəhdləri şəxsiyyətin malik olduğu dəyərlər sisteminin və dəyər oriyentasiyalarının strukturunu ciddi surətdə dəyişdirir, burada maddi dəyərlərin rolu və təsir dairəsi genişlənir, mənəvi dəyərlərin xüsusi çəkisi isə xeyli azalır.

Bazar münasibətlərinin şəxsiyyətə təsiri mexanizmini araşdırarkən təkcə iqtisadi, sosial, siyasi və mədəni dəyər xarakterli amillərlə kifayətlənmək olmaz. Bu prosesin mühüm bir istiqaməti şəxsiyyətin mənəvi psixoloji keyfiyyətləri ilə bağlıdır. Söhbət bazarın sərt qanunları şəraitində fəaliyyət göstərən insan şəxsiyyətinin psixoloji dözümlülüyündən gedir. Məsələnin mahiyyəti bundadır ki, azad rəqabət şəraitində iqtisadi fəaliyyətin nəticələrini irələcədən bütün dəqiqliyi ilə müəyyənləşdirmək

mümkün deyildir. Başqa sözlə deyilsə, şəxsiyyətin fəaliyyətinin digər sahələrində olduğu kimi burada da (bəlkə də başqa sahələrdən daha çox) gözlənilməyən nəticələr əldə etmək, böyük miqdarda itkiyə məruz qalmaq riski mövcuddur. Şəxsiyyətin psixoloji hazırlığı və dözümlülüyünün mənası odur ki, o bu qəbildən olan arzuolunmaz nəticələr baş verdikdə özünü sarsıtmasın, psixoloji gərginliyə və stress vəziyyətinə düçar olmasın. Mülkiyyətçi şəxsiyyət digər insanlarla müxtəlif sövdələşmələrə daxil olarkən unutmamalıdır ki, onu təkcə iqttisadi mənfəət və yüksək gəlir gözləmir. Müəyyən obyektiv və subyektiv amillər üzündən uğursuzluq halları da baş verə bilər. Buna görə də o (xüsusən də professional surətdə sahibkarlıqla məşğul olursa) hər cür arzuolunmaz hallara qarşı psixoloji cəhətdən hazır olmalı, bazarın sərt qanunlarının doğurduğu mənəvi – psixoloji zərbələri dəf etməyi bacarmalıdır. Çox təəsüf ki, bəzən belə olmur, müxtəlif sahibkarlıq əməliyyatlarında işləyən şəxs gözlənilmədən müflişləşdikdə və uğursuzluğa düçar olduqda özünü itirir, ağır psixoloji sarsıntılar keçirir. Bu isə bir çox hallarda fəlakətli nəticələr törədir.

Deyilənlər sübut edir ki, bazar mexanizimlərinə əsaslanan müasir cəmiyyətin fəaliyyətinin bütün forma və sahələrində mənəvi – psixoloji amillərin rolu və əhəmiyyəti durmadan artmaqdadır. Bununla əlaqədar olaraq cəmiyyətdə psixoloji xidməti yaxşılaşdırmaq, insanların psixoloji tərbiyəsini və hazırlığını yaxşılaşdırmaq son dərəcə zəruridir. Eyni fikir həm də şəxsiyyətin subyektiv mənəvi – psixoloji keyfiyyətlərinin təkmilləşdirilməsinə aiddir.

Hazırda ölkəmizdə aparılan əsaslı iqtisadi islahatlar əhalinin iqtisadi fəallığının yüksəlməsinə və onlar üçün iş yerlərinin sayının

çoxalmasına müsbət təsir göstərir. Bununla yanaşı həmin prosesdə işçinin əsas səciyyəsində də bir sıra çətinliklər və ziddiyətlər də özünü göstərir. Sosial-fəlsəfi təhlil onların aşağıdakı növlərini aşkar etmək imkanı verir:

1. Dövlət tərəfindən əsas funksiyaların və istehsal vasitələrinin mülkiyyətçisi hüququnun ilkin təsərrüfat səviyyələrinə ötürülməsi nəticəsində əməyin təhlükəsizliyinin qorunması üstündə və eləcə də müxtəlif peşə riskləri ilə bağlı məsuliyyətlərin xarakteri və bölüşdürülməsində müəyyən təhlükəli vəziyyətə gətirib çıxarmışdır. Bu məsələlərdə həqiqi sığortaedici tənzimləmə formalarının olmaması üzündən indi dövlətin işverənlərin bu münasibətdə öz öhdəliklərini hansı səviyyədə yerinə yetirdikləri üzərində nəzarət funksiyası zəifləyir. Bu xüsusən də qeyri dövlət bölməsində fəaliyyət göstərən işəgötürənlərə aiddir. Çünki onlar bir çox hallarda təhlükəsizlik texnikasını və əməyin gigiyenası qaydalırını, habelə hüquqi qanunvericilikdə müəyyən olunmuş normaları pozurlar.

Müəssisələrdə öz vaxtını keçirmiş və mənəvi cəhətdən köhnəlmiş əsas fondlardan hələ də geniş istifadə olunması, daxili sərmayə qoyuluşunun aşağı olması, cihaz və avadanlıqların azlığı, əməyin mühafizəsi ilə bağlı tədbirlərin zəif həyata keçirilməsi və sair noqsanlar hələ də davam etməkdədir və bunlar bir sıra hallarda əmək məhsuldarlığının aşağı düşməsinə, peşə xəstəliklərinin çoxalmasına, zərərli iş yerlərində çalışanların və müxtəlif peşə zədələrinin sayının artmasına gətirib çıxarır. Xarici sərmayədarlar ilə şərikli fəaliyyət göstərən müəssisələrdə əmək şəraiti və onun haqqının ödənilməsi ilə bağlı əmək qanunvericiliyinin və sosial təminatların pozulması hallarına hələ də tez-tez rast gəlinir. Belə müəssisələrdə işəgötürənlər iş yerlərində

təhlükəsizlik tədbirlərini tam yerinə yetirməkdən boyun qaçırır, istehsalatda baş vermiş bədbəxt hadisələrin sayını ört-basdır edir, həddən artıq çox iş günü saatı müəyyənləşdirir, əmək haqqı və kompensasiyaların verilməsi ilə bağlı qanun pozuntularına yol verirlər.

2. Əmək sferasında və məşğulluluq səviyyəsində baş verən əsas dəyişikliklərin bir istiqaməti budur ki, bazar münasibətlərinin formalaşması şəraitində məşğulluq səviyyəsi aşağı düşür. Bu daha çox dövlət bölməsində özünü göstərir. Nəticədə ölkədə işsizlərin sayı artır və təzahür formaları çoxalır (gizli, real, qeydə alınmamış və sair), əhalinin aztəminatlı təbəqələrinin xüsusi çəkisi yüksəlir və ümumi yaşayış səviyyəsi pisləşir. Kiçik və orta biznesdə çalışanların sayı artır və dövlət sektorunda çalışanların sayı azalır. Bütün bunların nəticəsində əmək mobilliyi prosesləri arzuolunmaz istiqamətlər alır, yüksək keyfiyyətli işçi qüvvəsinin, xüsusən də elm və incəsənət xadimlərinin xarici ölkələrə miqrasiyası güclənir, yaxud da onların gizli iqtisadiyyatla məşğul olmağa meyli çoxalır.

3. Əhalinin gəlirlərinin strukturunda dəyişikliklər baş verir və bəzi hallarda iş qüvvəsi üzrə olan məsrəflərin azalması müşahidə olunur. Heç kimə sırr deyildir ki, son dövrdə işçilərin əmək haqqı ilə yanaşı, müxtəlif alqı-satqı xarakterli fəaliyyətdən, digər mülkiyyət və maliyyə əməliyyatlarından əldə etdikləri gəlirlərin xüsusi çəkisi və miqdarı durmadan artmaqdadır. Bu meyillər müəyyən qədər keçid dövrü adamlarının bazar mexanizmlərinə, yeni sosial–iqtisadi münasibətlərə adapdasiya prosesini əks etdirir və buna görə də müvəqqəti xarakter daşıyır. Bununla belə, onların arzuolunmaz nəticələr törədə biləcəyi təhlükəsi də göz qabağındadır.

4. İşçilərin sosial müdafiəsi sistemində müəyyən pozuntular özünü göstərməkdədir. Həyata keçirilən islahatların bazar qanunlarına uyğunlaşdırılması heç də işçilərin və onların ailə üzvlərinin sosial müdafiəsinə qayğının ləğvi demək olmamalıdır. Əlbəttə, dövlət bu sahədə müəyyən sosial istiqamətlənmiş tədbirlər görür və onların sayı çoxalmaqdadır. Söhbət, bilavasitə müəssisələrdə və təşkilatlarda yerinə yetirilən müxtəlif növ ayırmalardan (dövlət sosial müdafiə fondlarına məcburi ayırmalar, pensiya təminatı, səhiyyə üzrə ayırmalar, işçilərin sosial müdafiəsi və sığortası ilə bağlı digər məsələlər) gedir. Bütün bunlar həyata keçirilməkdədir və işçilərin iqtisadi baxımdan normal şəxsiyyət kimi formalaşmasında müstəsna dərəcədə böyük rol oynayır. Lakin bununla yanaşı, həmin məsələlərə bəzən səhlənkar yanaşılması və lazımı diqqət yetirilməməsi faktları da özünü göstərir.

Deyilənlərlə yanaşı bazar iqtisadi münasibətlərinin törətdiyi aşağıdakı nəticələr də işçilərin şəxsiyyətinin formalaşmasına mənfi təsir edir: əhalinin aztəminatlı və yoxsul təbəqələrinin sayının artması (doğrudur respublikamızda yoxsulluğun azaldılması üzrə qəbul edilmiş dövlət proqramı və onun yerinə yetirilməsi özünün bəhrələrini verməkdədir); əhalinin yaşayış səviyyəsi baxımından əsassız dərəcədə qütbləşməsi, işçilərin gəlirlərinin əməyin tətbiq olunduğu sahənin, müəssisənin xarakterindən asılılığının lazımsız həddədək artması (yəni gəlirlər peşə və ixtisas dərəcəsi ilə deyil, daha çox konkret müəssisənin maliyyə vəziyyəti ilə müəyyən olunur); gəlirlərin səviyyəsinə görə regionlararası fərqlərin güclənməsi; əhalinin sağlamlığının təminatı və ona səhiyyə xidməti göstərilməsi sahəsində yaranan nöqsanlar və çətinliklər; müxtəlif sosial anomaliya hallarının (cinayətkarlıq, oğurluq, narkotizm və sair) artması.

Deyilənlər sübut edir ki, bazar qanunlarına əsaslanan iqtisadi münasibətlər sisteminin şəxsiyyətə təsiri öz məzmununua görə son dərəcə geniş, çoxtərəfli, müxtəlif istiqamətli və mürəkkəb xarakterə malikdir. Buna görə də onu birmənalı və bəsit qiymətləndirmək olmaz, bu prosesin mexanizmini aşkar etmək, onun konkret istiqamətlərini və şəxsiyyət baxımından törətdiyi nəticələri dəqiqliklə təhlil etmək tələb olunur. Sözügedən prosesin mexanizminə ümumi şəkildə nəzər saldıqda burada iki istiqaməti (müsbət,proqresiv və mənfi neqativ) ayırmaq olar.

Müasir iqtisadi və fəlsəfi ədəbiyyatda bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın tənzimlənməsində dövlətin iştirak edib, etməməsi geniş mübahisə və müzakirə olunur. Mütəxəssislərin bu münasibətdə söylədikləri mülahizələr iki qismə bölünür: 1) dövlət tərəfindən iqtisadiyyatın tənzim olunmasını zəruri hesab edənlər; 2) dövlətin iqtisadi həyata müdaxiləsini vacib hesab etməyənlər (21, s.527, 236, s.651).

Bu məsələnin bizim tədqiqat obyektimiz ilə xeyli dərəcədə yaxın olduğunu nəzərə alaraq, biz də ona müəyyən münasibət bildirməyi məqsədəuyğun hesab edirik. Bizə elə gəlir ki, müasir şəraitdə dövlət ilə iqtisadiyyat arasında tənzimləmə baxımından olan münasibətləri sxematik alternativ formada ifadə etmək doğru deyildir. Yəni məsələni yalnız qütblülük baxımından götürmək və belə qoymaq ki, dövlət bazar mexanizimlərinin fəaliyyətinə müdaxilə etməlidir, yoxsa yox, çox mücərrəd və ümumidir. Buna görə də dövlətin iqtisadiyyata müdaxiləsinin konkret məzmununun nədən ibarət olduğu, onun hansı vasitələr və yollarla həyata keçirilməli olduğu dəqiq və konkret açıqlanmalıdır. Bu mövqedən çıxış etməklə yuxarıda irəli sürülən suala ümumi şəkildə iqrari cavab vermək doğrudur. Çünki, yalnız bu yolla bazar

mexanizimlərinin və qanunlarının ümumi cəmiyyət miqyasında, o cümlədən də şəxsiyyətə münasibətdə törətdiyi neqativ meyilləri və arzuolunmaz nəticələri irəlicədən görmək, onlar baş verdikdə isə tezliklə aradan qaldırmaq mümkündür. Təsadüfi deyildir ki, müasir dövrün ən nəhəng iqtisadçıları (C.M.Keyns və başqaları) dövlətin iqtisadiyyatı tənzimləməyə yönələn mühüm funksiyalar yerinə yetirməsini zəruri hesab edirlər. Söhbət bazar iqtisadiyyatı yoluna yenicə qədəm qoymuş və bu sahədə lazımı təcrübəsi olmayan ölkələrdən (o cümlədən də Azərbaycandan) getdikdə isə dövlətin bazar iqtisadiyyatına tənzimləyici təsir göstərməsinin vacibliyi daha aydın görünür. Çünki yuxarıda göstərilən səbəblər üzündən bu ölkələrdə bazar iqtisadiyyatının törətdiyi mənfi nəticələr, onun sosial, siyasi və psixoloji baxımdan yaratdığı gərginlik və nasazlıqlar daha çox olur. Odur ki, dövlətin «görünməz əli və iti gözü» (A. Smit) bu ölkələrdə bazar iqtisadiyyatının yaratdığı çoxsaylı fəsadları aşkar edib, aradan qaldırmaqda misilsiz rol oynayır. Dövrümüzün görkəmli filosofu K.Popper yazırdı: «... bazar münasibətlərinə əsaslanan və müəyyən qədər seçim azadlığına malik olan sənaye cəmiyyəti, hüquqi sistem və qanunun hakimiyyəti olmadan ağlasığmazdır» (213, s.8).

Bu qəbildən olan rəylər Azərbaycanın iqtisadi fikrində də genişlənir. Professor T.Quliyev haqlı olaraq göstərirdi ki, artıq iqtisadiyyatın dövlət tənzimlənməsinin ümumi nəzəriyyəsini yaratmaq və həyata keçirmək zərurət halını almışdır (159, s.171, 8, s.14). Dövlət tərəfindən bazar iqtisadiyyatına müxtəlif vasitələr və yollar ilə tənzimləyici təsir, həm də buna görə zəruridir ki, o bazar fundamentalizmi meylinin qarşısını alır. Sözügedən məqam böyük əhəmiyyət kəsb edir. Müasir dünya biznesinin görkəmli lideri,

tanınmış maliyyəçi C.Soros qeyd edir ki, «açıq cəmityyət üçün bazar fundamentalizmi totalitar ideologiyadan daha çox təhlükəlidir» (244, s.19).

Dövlətin bazar iqtisadiyyatına tənzimləyici təsiri özünü aşağıdakı konkret tərəflərdə tapır: dövlət bazar münasibətlərinin iştirakçılarının (istehsalçıların və istehlakçıların) müxtəlif hüquqlarını qoruyan qanunlar və digər normativ sənədlər qəbul edir və onların həyata keçirilməsinə nəzarət edir; inhisarçılığın müxtəlif təzahür formalarına qarşı mübarizə aparır, biznesin düzgün təşkilinə nəzarət edir, iqtisadi hüquq pozuntularının qarşısını alır, əmək bazarına və əmək haqqı səviyyəsinə tənzimləyici təsir göstərir, məşğulluğun yaxşılaşdırılmasına və işsizliyin ixtisara salınmasına çalışır, işsizlərə müəyyən miqdarda müavinət verir; müxtəlif maliyyə təsiri vasitələri ilə iqtisadiyyatın tənzimlənməsində fəal iştirak edir və sair.

Bu paraqrafda aparılan təhlillər aşağıdakı nəticələri irəli sürməyə əsas verir:

1. Müasir dövrdə iqtisadi münasibətlər sisteminin dərin transformasiyası şəxsiyyətin formalaşması və inkişafının çox mühüm amili kimi çıxış edir. Bu tamamilə təbii olub, cəmiyyətin iqtisadi həyatının sosial xarakter kəsb etməsi ilə şərtlənir. Belə ki, əsaslı iqtisadi dəyişikliklər gedişində ayrı-ayrı şəxsiyyətlərin və bütövlükdə cəmiyyətin iqtisadi həyatın əsl subyektinə çevrilməsi prosesi baş verir.

2. Bazar münasibətlərinin formalaşması müasir şəxsiyyətin iqtisadi təbiətinə çox güclü təsir göstərir, onun mexanizmi mürəkkəb olub, çoxtərəfli xarakter daşıyır. Bazar iqtisadiyyatı bir tərəfdən şəxsiyyətin təşəbbüskarlığının və fəallığının inkişafına, işgüzarlığının və iqtisadi məharətinin reallaşmasına əlverişli şərait

yaradır. Digər tərəfdən bazarın əsasında duran daha çox fayda götürmək, maddi qazanc əldə etmək məqsədi bir çox hallarda şəxsiyyətin mənəvi kasadlaşması, insan üçün çox vacib olan keyfiyyətlərin arxa plana keçməsi və itirilməsi ilə müşayiət olunur. Azərbaycanın spesifik şəraiti və tarixi-milli xüsusiyyətlərinin qorunub saxlanılması baxımından sonuncu səpkinin tənzim olunmasına daha çox diqqət yetirmək tələb olunur.

3. Qabaqcıl ölkələrin sosial-iqtisadi inkişaf təcrübəsinin təhlili sübut edir ki, yalnız hər bir konkret şəxsiyyətin mahiyyət qüvvələrinin tam həcmdə formalaşması və ondan dolğun şəkildə istifadə olunması üçün şərait yaratdıqda böyük uğurlar qazanmaq olur. Bu baxımdan ölkəmizdə özəlləşdirmə proqramı, mülkiyyətin bərabərhüquqlu formalarının yaradılması, xüsusi mülkiyyətin rolunun artırılması, sahibkarlığın inkişafına geniş meydan verilməsi, yoxsulluğun azaldılması proqramının həyata keçirilməsi çox önəmlidir.

4. Bazar yolu ilə inkişaf edən ölkələrin nümunəsi göstərir ki, ölkələrin nümunəsi iqtisadiyyatın yüksək effektivliyini və inkişafı dinamikasını, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasını təmin edən real sistem sosial yönümlü bazar iqtisadiyyatıdır. O, bazar iqtisadiyyatının xüsusi tipi olmaqla, dövlət tərəfindən bazarın effektivliyi ilə sosial ədalət arasında tarazlıq yaradır.

5. Sosial yönümlü bazar iqtisadiyyatı müxtəlif ölkələr üçün ümumi cəhətlərə malik olmasına baxmayaraq hər bir ölkədə yerli şəraitdən və tarixi-milli ənənələrdən irəli gələn özünəməxsusluqla çıxış edir. Müasir Azərbaycan cəmiyyətində bu prosesin aşağıdakı istiqamətlərinin reallaşdırılması şəxsiyyətin formalaşması və inkişafı baxımından xüsusilə mühümdür: işçilərin ümumi təhsil səviyyəsinin yüksəldilməsi və iqtisadi biliklərinin artırılması;

iqtisadi sahədə şəxsiyyətin fəaliyyət azadlığını təmin edən şərait yaradılması və onun yaradıcı potensialının gücləndirilməsi; müxtəlif sosial qruplar arasında əməkdaşlığın möhkəmləndirilməsi, yeni iş yerlərinin açılması, əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi, yoxsulluğun aradan qaldırılması və sair.

## 2.3. Şəxsiyyət hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu kontekstində

Vətəndaş cəmiyyəti və hüquqi dövlət, müasir demokratikləşmə şəraitində şəxsiyyətin yeni tipli keyfiyyətinin müəyyən olunmasında çox mühüm yer tutur. Buna görə də onların formalaşması prosesi ilə şəxsiyyətin inkişafı arasındakı münasibətləri təhlil etmək son dərəcə zəruridir.

Hər şeydən əvvəl göstərilməlidir ki, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu demokratiya ilə ayrılmaz əlaqədə çıxış edir. Əslində onlar demokratiyanın əsasında durur və onun dinamiklik səviyyəsini göstərir. Təsadüfi deyildir ki, son dövrdə demokratiya ilə bağlı tədqiqatlarda vətəndaş cəmiyyəti və hüquqi dövlət anlayışlarının məzmunundan və onların qarşılıqlı əlaqələrindən geniş bəhs olunur (169, 137, 190, 60, 94, 65).

Hazırda vətəndaş cəmiyyəti və hüquqi dövlət haqqında yazılan əsərlərin sayının sürətlə artmasına baxmayaraq bir sıra nəzəri məsələlərin həllində mübahisə və fikir ayrılığı qalmaqda davam edir. Belə ki, postsovet şəraitində vətəndaş cəmiyyəti və hüquqi dövlət anlayışlarının təbiəti, məzmunu və əsas funksiyaları ilə bağlı məsələlər birmənalı izah olunmur. Xüsusilə də bu iki institutun inkişafının «qərb» və «şərq» modelləri ətrafında, demokratik inkişafın spesifik «milli» formasının olub olmaması barədə elmi mübahisələr səngimək bilmir. Doğrudur, bu qəbildən olan diskusiyalar bəzən ideoloji səpki kəsb edir, yəni cəmiyyətin inkişafında millətçilik meyillərinin əsas göstəricisinə çevrilir. Bununla yanaşı onlarda demokratik inkişaf ilə bu iki institut arasındakı qarşılıqlı münasibətlərin anlaşılması ilə bağlı məsələlər də diqqət mərkəzində durur. Deyilənlərdən aydın olur ki, müasir şəraitdə şəxsiyyətin formalaşması və inkişafı problemlərinin

təhlilini həm də vətəndaş cəmiyyəti və hüquqi dövlət konsepsiyaları fonunda araşdırmaq vacibdir. Əks halda bu təhlilin hərtərəfliliyini iddia etmək mümkün olmaz.

Ümumillikdə götürdükdə vətəndaş cəmiyyəti və hüquqi dövlət, siyasi sistemin inkişaf səviyyəsini ifadə edən çox mühüm ictimai formalardır. Buna görə də təsadüfi deyildir ki, müstəqillik əldə etdikdən sonra bütün postsovet respublikaları onları yaratmağı öz konstitusiyalarında əsas və perspektiv məqsəd, strateci xətt kimi elan etdilər.

Qeyd edək ki, vətəndaş cəmiyyətinə və hüquqi dövlətə dair təsəvvürlər qərbin və şərqin fəlsəfə fikir tarixində hələ qədimdə formalaşmışdır. Lakin bu institutlar haqqında bitkin konseptual baxışlar nisbətən sonralar meydana cəlmişdir, onlar kapitalizm cəmiyyətinin yaranması dövrünün məhsuludur. Bu tamamilə qanunauyğundur və onunla izah edilir ki, məhz həmin dövrün tələbatı insanları və siyasi mütəfəkkirləri dövlətin ictimai proseslərdə yerini və rolunu daha dərindən mənalandırmağa sövq edir. Yaranmaqda olan burjuaziya sinfi cəmiyyətdə mülkiyyətçilərin nüfuzunu qoruyub saxlamaqı və müdafiə etməyi özünün əsas məqsədi elan etmişdi. Odur ki, həmin dövrün mütəfəkkirləri, ilk növbədə N.Makiavelli və Y.Boden hamının qanun qarşısında bərabər olduğunu elan edir və göstərirdilər ki, dövlət hakimiyyəti bir şəxsin və yaxud hakimiyyətdə olan qrupun inhisarına çevrilməməlidir. Hakimiyyət institutları da ayrı-ayrı fərdlər kimi hüquqa, qanuna tabe olmalıdır. Beləliklə də həmin dövrdə dövlət qarşısında cəmiyyətdə baş verən mütərəqqi sosial – siyasi dəyişikliklərin müdafiəçisi olmaq vəzifəsi irəli sürülürdü. Bu vəzifəni N.Makiavelli mülkiyyətdən azad surətdə istifadə olunmasına şərait yaradılmasında görürdü. Y.Boden isə dövləti

mülkiyyətdə və qanuna hörmət prinsipləri əsasında birləşən ailələr məcmusu kimi təsəvür edirdi.

Dövlətin fəaliyyətini qanunlara tabe etmək yolunda atılan bu addımlar yeni dövrün mütəfəkkirləri T.Hobbs, C.Lokk, C.Russo, D.Didro, Ş.Monteskye, İ.Kant, G.Heğel və başqaları tərəfindən daha da inkişaf etdirildi. Onların əsərlərində hüquqi dövlət ideyaları hərtərəfli əsaslandırıldı. Buna görə də məhz onlar hüquqi dövlət və vətəndaş cəmiyyətinin müasir konsepsiyasının baniləri hesab olunurlar. Bu filosof və mütəfəkkirlər öz təlimlərində dövlət tərəfindən şəxsiyyətin mülkiyyətinin, digər hüquq və azadlıqlarının təmin olunmasının zəruriliyini əsaslandırır və göstərirdilər ki, onları heç bir hakimiyyət orqanı pozmamalıdır. Yeri gəlmişkən qeyd edək ki, yeni dövr mütəfəkkirlərinin sözügedən məzmunlu çağırışları və tələbləri bu gün də öz əhəmiyyətini itirməmişdir. Bu aşağıdakı iki istiqamətdə özünü göstərir: a) onlar ilk dəfə olaraq mütləqiyyətçi feodal dövlət quruluşuna, onun şəxsiyyətin hüquqlarını məhdudlaşdırılmasına qarşı çıxaraq göstərdilər ki, dövlətin səlahiyyətləri hüquq və qanun çərçivəsində müəyyənləşdirilməlidir; b) hüquqi dövlətin başlıca prinsiplərindən biri olan dövlət ilə şəxsiyyətin qarşılıqlı münasibətlərinin konkret tərəfləri (məsələn, qanunun aliliyi prinsipi, demokratiyaya ardıcıl sürətdə əməl olunması, şəxsiyyətin hüquq və azadlıqlarının qorunması, onun ləyaqətinin toxunulmazlığı və sair) haqqında irəli sürdükləri fikirlər vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu yoluna qədəm qoymuş müasir Azərbaycan üçün böyük nümunə gücünə malikdir. Xüsusilə də sonuncu məqamı nəzərə alaraq həmin mütəfəkkirlərin təlimlərinin bəzi cəhətləri üzərində bir qədər ətraflı dayanmağa ehtiyac hiss olunur.

Məsələn, hüquqi dövlət və vətəndaş cəmiyyəti ideyasının «atası» hesab olunan İ.Kant göstərirdi ki, qanunların mənəvi və hüquqi mənbəyini hakimiyyətin ilahi mənşəli olması ideyası deyil, insanların hüquqda təcəssüm edən ümumi ədalətin bərqərar olunmasına yönəlmiş azad iradəsi təşkil edir. Bu mənada yanaşdıqda hüquq insanlar arasındakı ədalətli, sivil münasibətləri təmin etmək məqsədi güdür, dövlət isə bu hüquq və insanların inamı əsasında ali ümumi hüququn təntənəsini təmin edən qanunlar yaratmalıdır (187, s. 226).

İ.Kant həm də hüquqi dövlətdə hakimiyyət bölgüsünün həyata keçirilməsini zəruri hesab edirdi. O həmin məsələdə fikir söyləyərək, bildirirdi ki, ağıllı prinsiplər üzrə təşkil olunmuş hər bir dövlətdə hakimiyyətin üç qolu vardır: a) qanunverici hakimiyyət (qanunlar verir); v) icraedici hakimiyyət (qəbul olunmuş qanunlar əsasında idarəciliyi yerinə yetirir) c) məhkəmə hakimiyyəti (qanunların qorunmasına nəzarət edir və ədalət məhkəməsi həyata keçirir). Bu hakimiyyət qollarından hər birinin digərlərindən kifayət dərəcədə müstəqilliyi təmin olunmadıqda despotizm özünü göstərir. Qanunverici həm də idarəedici ola bilməz, çünki, birinci qanun verir, ikinci isə ona tabedir. Öz növbəsində nə qanunverici nə də idarəedici, məhkəmənin fəaliyyətini yerinə yetirə bilməz, onlar yalnız hakim təyin edirlər (237, s.678).

Böyük fransız maarifçisi Ş.Monteskyo isə haqlı olaraq hakimiyyət bölgüsünün klassik nəzəriyyəsinin banisi hesab edilir. O göstərirdi ki, hakimiyyətin yuxarıda sözü gedən üç qanadı bir birilə harmoniya təşkil etməlidir, lakin onlar arasında fərqlər də vardır. Əgər qanunverici və icraedici hakimiyyət bir şəxsin əlində və ya bir təsisatda mərkəzləşərsə, onda azadlıq olmayacaqdır.

Azadlıq həm də o vaxt mümkün olmür ki, məhkəmə hakimiyyəti qanunverici və icra edici hakimiyyətdən ayrılmır. Əgər o qanunverici hakimiyyət ilə birləşirsə, onda vətəndaşların həyatı və azadlığı özbaşınalığın hökmranlığına məruz qalır, çünki hakim qanunverici kimi çıxış edir. Əgər məhkəmə hakimiyyəti icra hakimiyyəti ilə birləşirsə, onda hakim zülmkar olmaq imkanı əldə edir» (184, s.290).

Hər iki mütəfəkkirin fikrincə qanunverici hakimiyyət dövlətin ümumi iradəsinin ifadəsi, icraedici hakimiyyət isə həmin iradəni həyata keçirən mexanizm rolunu oynamalıdır. Qanunverici hakimiyyətin, onun qəbul etdiyi qanunların icrası üzərində nəzarət etmək hüququ vardır və o bunu yerinə yetirməlidir. İcraedici hakimiyyət lazım gəldikdə qanunverici orqanın qəbul etdiyi qanunların fəaliyyətini dayandırmaq hüququna malik olmalıdır. Məhkəmə hakimiyyəti isə elə fəaliyyət göstərməlidir ki, vətəndaşlar ondan qorxmasın, əksinə özünün qanuni hüquqlarının və azadlıqlarının müdafiəçisi və təminatçısı kimi qəbul etsinlər. Bütövlükdə hakimiyyətin bu üç müstəqil istiqamətinin fəaliyyəti əməkdaşlıq və harmoniyaya əsaslanırsa, onda cəmiyyətdə, onunla şəxsiyyət arasındakı münasibətlərdə mükəmməl səviyyədə ədalətlilik təmin olunur.

Hegelin fəlsəfi təlimində vətəndaş cəmiyyəti və hüquqi dövlət haqqında baxışlar konseptual baxımdan daha yüksək səviyyəyə qaldırılır. O həmin institutları müstəqil, eyni zamanda bir-birilə sıx qarşılıqlı əlaqədə götürərək qeyd edirdi ki, onların hər ikisi şəxsiyyət üçün çox mühümdür: əgər dövlət vətəndaş kimi şəxsiyyətin keşiyində durursa, vətəndaş cəmiyyəti şəxsiyyətə fərdi insan kimi yanaşır, onun hüquq və azadlıqlarını dövlətin mümkün özbaşnalıqlarından qorunmasını zəruri edir. Beləliklə bu

konsepsiyada ayrıca fərdin (şəxsiyyətin) iki müstəvidə çıxış etdiyi (dövlətin təbəəsi olan vətəndaş kimi və ayrıca şəxs-vətəndaş cəmiyyətinin üzvü kimi səciyyələndirilir) (187, s.227).

Hüquqi dövlətin yaradılması, demokratikləşmə şəraitində şəxsiyyət ilə dövlət arasındakı qarşılıqlı münasibətlər probleminin düzgün həllinin əsas yolu kimi çıxış edir. Məhz hüquqi dövlət şəxsiyyətin cəmiyyətdə statusunu yüksəldir, onun əsas hüquq və azadlıqlarını müdafiə edir və həyata keçirir.

Hüquqi dövləti səciyyələndirən aşağıdakı keyfiyyətlər onun şəxsiyyətin inkişafına göstərdiyi qayğı baxımından daha önəmlidir: siyasi proseslərdə hamının iştirak etmək hüquqi; siyasi partiyalar və müxtəlif maraq qrupları arasındakı münasibətlərdə sivil qaydalara əməl olunması; hakimiyyətin demək olar ki, bütün pillələrinin seçkililiyi; parlamentarizmin və plüralist demokratiyanın müxtəlif norma və prinsiplərinin mövcudluğu (10, s.200).

Hüquqi dövlətin şəxsiyyətin inkişafı baxımından yaratdığı böyük üstünlüklər onun totalitar dövlət tipi ilə müqayisəsində daha aydın üzə çıxır. Ölkəmizdə 70 ildən artıq davam etmiş totalitar dövlət tipi şəxsiyyəti ümumi cəmiyyət içərisində əridir, onun fərdiyyətini, hüquq və azadlıqlarını əlindən alırdı. Həmin dövrdə şəxsiyyət büsbütün avtoritar-bürokratik hakimiyyətin törətdiyi özbaşınalıqların əsirinə çevrilmişdi. Bunun tam əksinə olaraq hüquqi dövlət şəxsiyyətin inkişafına real şərait yaradır, onun hüquqlarının müdafiəçisi və təminatçısı rolunu oynayır. Burada ictimai idarə sistemi vahid qanunlar sistemi əsasında həyata keçirilir. Onlar həm də siyasi hakimiyyət ilə şəxsiyyət arasında qarşılıqlı münasibətləri, onların bir-birinə nəzərən yerinə yetirilməli olduqları vəzifələri və öhdəlikləri müəyyənləşdirir.

Hüquqi dövlətdə hakimiyyət yalnız qanun əsasında həyata keçirilir və dövlətin hüquqilik dərəcəsi onun tərəfindən şəxsiyyətin maraqları və huququnu təmin etmə səviyyəsi ilə ölçülür. Bütövlükdə cəmiyyət dövlətə deyil, dövlət cəmiyyətə xidmət göstərir. Hüquqi dövlətin şəxsiyyətin formalaşması və inkişafına təsirinin mühüm bir istiqaməti idarəçiliyin bütün pillələrində demokratik prinsiplərin tətbiqinin genişləndirilməsi yolu ilə baş verir. Söhbət ilk növbədə hakimiyyət bölgüsünü həyata keçirən instututların işinin qanun əsasında tənzim olunmasından, ümumi və bərabər seçki hüququnun tətbiq olunmasından, taleyüklü məsələlər barəsində ümümxalq referendumunun keçirilməsindən gedir. Hüquqi dövlətdə cəmiyyətin yüksək demokratizmi təmin olunur, siyasi hakimiyyətin bütün vəsilələri seçkilər yolu ilə formalaşdırılır. Bundan əlavə şəxsiyyətin qanunda nəzərdə tutulmuş bütün hüquq və azadlıqları çərçivəsində (söz azadlığı, vicdan azadlığı, tolerantlıq, dini dözümlülük, birliklərdə və təşkilatlarda könüllü birləşmək hüququ, toxunulmazlıq, təqsirsizlik prezumpsiyası və sair) öz ictimai və fərdi fəaliyyətini tam dolğunluğu ilə həyata keçirməsi üçün real şərait yaranır. Burada şəxsiyyətin fəaliyyəti aşağıdakı prinsip üzrə qurulur: «qanunun qadağan etmədiyi hər işi görməyə icazə verilir». Bu isə onun fəallığını və təşəbbüskarlığını yüksəldir, öz yaradıcı potensialını daha dolğun reallaşdırmağa imkan açır. Hüquqi dövlətin gücü öz vətəndaşlarını siyasi hakimiyyətin özbaşınalığı qarşısında gücsüz vəziyyətə salmasında deyildir. Əksinə onun gücü bundadır ki, o cəmiyyəti və şəxsiyyətin hüquqlarını hər cür qəsdlərdən və müdaxilədən (kim tərəfindən baş verməsindən asılı olmayaraq) qorumağa qadirdir. Buna görə də hüquqi dövlətin zorakılıq və cəzaverici hakimiyyət orqanlarından daha çox, şəxsiy-

yətin sözün əsl mənasında suverinliyini qoruyan hüquq-mühafizə orqanlarına ehtiyacı yaranır. Hüquqi dövlətin humanist xarakterı şəxsiyyətin cəmiyyətdəki mənəvi, intellektual və fəallıq statusunun yüksəlməsində təcəssüm olunur (87, s.575).

Qeyd edək ki, «hüquqi dövlət» anlayışı elmi-nəzəri ədəbiyyatda birmənalı izah olunmur. Lakin buna baxmayaraq əksər tədqiqatçılar belə bir fikirlə razılaşırlar ki, hüquqi dövlət kütləvi xarakter daşıyır. Bu dövlət özünün ictimai strukturlar, ayrı-ayrı insanlar və kollektivlər ilə qarşılıqlı münasibətlərini bərabər hüquqlu subyektləri ifadə edən prinsiplər əsasında qurur. Həmin münasibətlərin bütün formaları konstitusiya əsasında verilmiş qanunların müəyyən etdiyi hüquqi səlahiyyətlər çərçivəsində həyata keçirilir. Hüquqi dövlətin fəaliyyətinin bütün əsas prinsiplərini konstitusiya müəyyənləşdirir. Burada şəxsiyyət ilə siyasi hakimiyyət arasındakı münasibətlərin əsas prinsipləri siyasi hakimiyyətin şəxsiyyətə münasibətdə həyata keçirməli olan funksiyalar, habelə şəxsiyyətin hüquq və azadlıqları qanunvericilik qaydasında təsbit olunur. Bunu əsas götürərək hətta tədqiqatçılar hüquqi dövləti, həm də konstitusion dövlət kimi səciyyələndirirlər (baxmayaraq ki, onlar arasında bərabərlik işarəsi qoyulmur) (94, s.196).

Konstitusionalizmin ideya və prinsiplərinin təcəssümü kimi çıxış edən hüquqi dövlət, həm də şəxsiyyət baxımından böyük əhəmiyyət kəsb edir. Belə ki, onun fəaliyyəti insanı hər cür terrordan, vicdan üzərində zorakılıqdan və hakimiyyət orqanları tərəfindən xırda himayəçilikdən qorumağa yönəlir. Bu elə bir dövlətdir ki, şəxsiyyətin azadlığını, təhlükəsizliyini təmin edir və ləyaqətini qoruyur (227, s.195-196).

Hüquqi dövlətin fəaliyyətinin konstitusiya əsasında qurulduğu fikri «Politoloji lüğət»də də vurğulanır. Burada göstərilir ki, hüquqi dövlətdə konstitusiya idarəçilik rejimi fəaliyyət göstərir, mükəmməl və ziddiyyətsiz hüquq və səmərəli məhkəmə sistemləri mövcud olur, hakimiyyətin bölünməsi prinsipi həyata keçirilir, siyasət və hakimiyyət üzərində yüksək səviyyəli nəzarət yerinə yetirilir (208, s.314).

Hüquqi dövlətin prinsiplərindən biri hakimiyyət bölgüsünün həyata keçirilməsini təmin etməkdir. Söhbət qanunvericilik (parlament, Milli Məclis və s.) icraedici (hökümət, prezident aparatı və s.) və məhkəmə hakimiyyəti (müxtəlif instansiyalı məhkəmələrin hakimləri) kimi üç əsas qolunun səlahiyyəti və vəzifələrinin, aralarındakı funksional əlaqələrin dəqiq müəyyənləşdirilməsindən gedir. Uzun müddət ərzində ölkəmizdə bütün hakimiyyət Sovetlərin əlində cəmlənmişdi. Onlar həm qanunverici və icraedici hakimiyyət funksiyalarını yerinə yetirir, həm də məhkəmə orqanları üzərində nəzarət edirdilər. Bu vəziyyətdə icraedici orqanlar, daha çox isə məhkəmə hakimiyyəti zərər çəkirdi. Əslində sonuncu, qanunverici və icraedici orqanların bir növ əlavəsinə çevrilmişdi.

Müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycan hüquqi dövlət qurmaq strateji məqsədini elan etdi. Bu yolda atılan addımlar həmin dövlətin hüquqi, siyasi, iqtisadi və mənəvi-əxlaqi bazasını yaratmağa yönəlmişdir. Son illərdə ölkəmizdə həyata keçirilən siyasi, hüquqi və məhkəmə islahatları bu baxımdan xüsusilə əhəmiyyət kəsb edir. Şərq ölkələri icərisində ilk dəfə olaraq Azərbaycanda ölüm hökmünün ləğv edilməsi də burada hüquqi dövlətin əsaslarının yaradılmasında mühüm addım kimi qiymətləndirilməlidir. Hazırda ölkəmizdə vətəndaşların hüquq və

azadlıqlarının qorunmasına nəzarət edən insan hüquqları üzrə müvəkillik institutu – Ombudsman fəaliyyət göstərir. Onun əsas funksiyası şəxsiyyətin konstitusiya hüquqlarını qorumaqdır.

Hüquqi dövlət bir tərəfdən hamının qanuna tabe olmasını, digər tərəfdən isə vətəndaşların hüquqlarının müdafiəsini nəzərdə tutur. Burada hamı üçün eyni və məcburi olan qaydalar vardır, sosial, irqi və digər imtiyazlar ləğv olunur. Hüquqi dövlət aşağıdakıları həyata keçirir: müxtəlif siyasi partiyalar və təşkilatlar vasitəsilə yaradılan nümayəndəlik; ümumi və demokratik seçki sistemi; parlamentarizm, konstitusiyalı idarəçilik və hakimiyyətin bölünməsi; dinin dövlətdən ayrıldıqda fəaliyyət göstərməsi; ideologiyanın dövlətdən kənar edilməsi; azadlığın bərabərlik üzərində üstünlüyü (16, s.331).

Hüquqi dövlətdə dövlət hüquqla ayrılmaz surətdə bağlı olub, onun həyata keçirilməsinə xidmət edir. Hüquq isə öz növbəsində şəxsiyyətin həqiqi azadlığının təminatçısı rolunu oynayır. Hər bir fərdin istədiyi yerdə yaşamaq, könüllu surətdə özünə fəaliyyət növü və həyat tərzi seçmək hüququ vardır. Onun mülkiyyəti, mənzili, ləyaqəti və mənəvi azadlıqları toxunulmaz elan olunur. Qanunun hökmranlıq etdiyi cəmiyyətdə dövlətin başlıca funksiyası şəxsiyyət ilə dövlət arasında və vətəndaşların öz aralarındakı münasibətləri hüquqi yollarla tənzim etməkdir. Burada hakimiyyət orqanlarının şəxsiyyətə münasibətdə baş verə biləcək sui istifadə hallarını aşkar edib, aradan qaldırılmağın səmərəli mexanizmi fəaliyyət göstərir. Hüquqi dövlət, vəzifəsindən, fəaliyyət növündən, nüfuzundan, əmlak senzindən, dinindən asılı olmayaraq, bütün vətəndaşların qanun qarşısında bərabərliyini elan edir və onun pozulması üçün hamıdan müvafiq məsuliyyət tələb edir.

Müasir hüquqi ədəbiyyatda hüquqi dövlətin başlıca məzmununu yuridik baxımdan ifadə cəhdləri çoxdur. Onların sırasında fikrimizcə M.Çetvernin hüquqi dövlət anlamı daha önəmli yer tutur. O yazır: «hüquqi dövlət hüquqi və öz-özünü tənzimləyən cəmiyyətin tələbatlarını ödəməyə xidmət edən dövlətdir, o hüququn hökmranlığı recimini təmin edir, cəmiyyətin həyat fəaliyyətinin özünütənzimləmə proseslərini inzibati müdaxilədən qoruyan etibarlı təminat yaradır, istehsalçıların və sosial nemətlərin istehlakçılarının maraqlarını, mübahisəli məsələləri həll etməyin ümumi qəbul olunmuş hüquqi prosedurlar çərçivəsində müdafiə edir» (276, s.61).

Hüquqi dövlət ayrı-ayrı fərdlərin və onların təmsil olunduğu birliklərin mülkiyyətinin azadlığına, müstəqilliyinə və hüquqlarına formal-yuridik təminat verir. Habelə onları qanunvericilik aktları sistemi şəklində institusionallaşdırır (276, s.61-62). Həm də nəzərdə tutulmalıdır ki, hüquqi dövlət şəraitində dövlət ilə vətəndaşların münasibətləri qarşılıqlı məsuliyyət, demokratik qanunlar və hamının qanun qarşısında bərabərliyi prinsipləri üzərində qurulur (169, s.322).

Beləliklə, hüquqi dövləti səmərəlilik baxımından üstün edən cəhətlər sırasında aşağıdakılar mühüm yer tutur: hamının qanuna tabe olması, dövlətin deyil, məhz şəxsiyyətin hüququn mənbəyi kimi çıxış etməsi (dövlət isə qanunun mənbəyi kimi çıxış edir), cəmiyyətdə təkcə hüquq və azadlıqlar hesabına deyil, həm də məsuliyyət hissi əsasında dəqiq qayda-qanun yaradılması, hüquqi dövlətin beynəlxalq hüquq normalarına müvafiq fəaliyyət göstərməsi.

Hüquqi dövlət formalaşmaqda olan bazar iqtisadiyyatının şəxsiyyətin inkişafı baxımından yaratdığı böyük üstünlükləri

reallaşdırmaq imkanı yaradır, eynilə də onun törətdiyi neqativ nəticələrin qarşısını alır, şəxsiyyəti bazarın sərt qanunlarından qoruyan qüvvə kimi çıxış edir. Sonra, o, cəmiyyətin sosial strukturunu hüquqi tələblərə tam müvafiq surətdə inkişaf etdirir. Yəni fərdlər getdikcə daha geniş şəkildə sosial institutlar və təşkilatlarda təmsil olunurlar ki, bu onlara bir şəxsiyyət kimi öz yaradıcı potensialını hərtərəfli reallaşdırmaq imkanı verir. Belə şəraitdə şəxsiyyətin hüquq və azadlıqları da çoxalır, digər tərəfdən isə onun məsuliyyəti, yəni öz hərəkətləri üçün cəmiyyət qarşısında və öz vicdanı qarşısında cavabdehliyi güclənir. Bu onunla əlaqədardır ki, hüquqi dövlətin mühüm cəhətlərindən birini burada dövlət hakimiyyətinin vətəndaşlar ilə, habelə onların təmsil olunduğu birliklər ilə qarşılıqlı münasibətlərinin hüquq normaları əsasında qurulması təşkil edir.

Müasir şəraitdə hüquqi dövlətin şəxsiyyətin formalaşmasında və inkişafında böyük rolu vətəndaş cəmiyyətinin yaradılması ilə ayrılmaz əlaqəlidir.

Vətəndaş cəmiyyəti dedikdə sözün ümumi mənasında vətəndaşların spesifik maraqlarını müdafiə edən və reallaşdıran ictimai institutlar və təşkilatlar sistemi başa düşülür ki, onlar dövlətdən asılı olmayaraq, nisbi müstəqil fəaliyyət göstərirlər. Bu münasibətdə K.S.Hacıyevin vətəndaş cəmiyyətinə verdiyi aşağıdakı tərifi uğurlu hesab etmək olar: «vətəndaş cəmiyyəti elə bir özünəməxsus sosial məkandır ki, burada insanlar həm bir-birindən, həm də dövlətdən asılı olmadan bir-birilə əlaqədə və qarşılıqlı təsirdə olurlar. O, ayrı-ayrı fərdlərin və kollektivlərin özünü reallaşdırması üçün şərait yaratmağa, onların xüsusi maraqlarını və tələbatlarını reallaşdırmağa xidmət edən müstəqil

və dövlətdən asılı olmayan ictimai inistitutlar və təşkilatlar sistemidir» (94, s.74).

Öz mahiyyəti və əsas məzmununa görə vətəndaş cəmiyyəti insanların sosial, sosiomədəni və mənəvi sferalarda səmərəli fəaliyyətini təmin edən müstəqil ictimai institutlarının və birliklərin məcmusu deməkdir. Onların əsas vəzifəsi ayrı-ayrı şəxsiyyətlərin və kollektivlərin əsas maraqlarını və tələbatlarını ödəməkdir.

Vətəndaş cəmiyyəti idarəçilikdə dövlətin deyil, vətəndaşların təşkilatları və birliklərinin iştirakını nəzərdə tutur. «Politoloji lüğət»də yazilir:

«Vətəndaş cəmiyyəti dövlətdən asılı olmayaraq, lakin onunla əlaqədə çıxış edir, burada cəmiyyət üzvləri arasında mükəmməl iqtisadi, mədəni, hüquqi və siyasi prinsiplər qərarlaşır» (208, s.196). Bu cəmiyyət şəxsiyyətin formalaşması və inkişafı baxımından böyük rol oynayır. Çünki «azad və bərabər hüquqlu fərdlərin bazar və demokratik hüquqi dövlətçilik şəraitində yaranan münasibətlərinin dövlət tərəfindən tənzimlənməyən çoxtərəfli rəngarəngliyi deməkdir» (215, s.196). Burada ictimai həyatın müxtəlif sferalarında vətəndaşların könüllü yaratdıqları qeyri-dövlət təşkilatları (birliklər, assosiasiyalar, ittifaqlar, mərkəzlər, klublar, fondlar və sair) əsas yer tutur. Vətəndaş cəmiyyəti insanlar arasındakı iqtisadi, siyasi, sosial, mənəvi, dini və digər qeyri-dövlət münasibətlərinin məcmusunu ifadə edir (207, s.156).

Bütövlükdə götürdükdə vətəndaş cəmiyyəti aşağıdakı cəhətləri ilə səciyyələnir:

1) O, ölkə vətəndaşlarının çoxsaylı birlikləri və təsisatlarını özündə əhatə edən vahid ictimai «şəbəkədir», 2) Vətəndaş

cəmiyyətini təşkil edən birliklər vətəndaşların iqtisadi, hüquqi, mədəni, ailə və digər sahələrindəki mənafelərini təmin etmək məqsədi ilə yaradılır: 3) Həmin təşkilatlar və birliklər dövlət vasitəsilə deyil, vətəndaşların özləri, yaxud onların təsisatları tərəfindən yaradılır, onlar dövlətə münasibətdə müəyyən avtonomluqa malik olur (qanun çərçivəsində). 4) vətəndaş cəmiyyəti bütövlükdə ictimai rəyin ifadəçisi kimi çıxış edir və özünün spesifik formada təzahür edən hakimiyyətinə xidmət göstərir (16, s.337).

Beləliklə vətəndaş cəmiyyəti, vətəndaşlar arasında öz-özünü təşkil edən və öz-özünü idarə edən (dövlət hakimiyyəti institutları ilə vasitələnmədən) münasibətlər sistemi kimi çıxış edir. Vətəndaş cəmiyyətinin əsasını sivilizasiyalı, özü fəalliyyət göstərən, tam hüquqi fərdlər və tolerant birgə yaşayış mühiti təşkil edir (60, s.15).

Totalitar və demokratik cəmiyyətləri bir birindən fərqləndirərək K.Popper onları müvafiq surətdə «qapalı cəmiyyət» və «açıq cəmiyyət» kimi səciyyələndirir.Onun fikrincə sonuncu öz mahiyyətinə görə vətəndaş cəmiyyətidir, burada vətəndaşlar şəxsi qərarlar qəbul etmək və öz iradələrini ifadə etmək imkanına malik olurlar (213, s.217-218). Totalitar recimdə isə dövlət öz iradəsini insanın həyat fəaliyyətinin bütün sferalarında həyata keçirir və vətəndaş cəmiyyəti prinsiplərini ayaq altına salır (5, s.51).

Təhlil göstərir ki, vətəndaş cəmiyyətinin əsas dayaqları bunlardır: iqtisadi sahədə – kiçik xüsusi müəssisələr və kooperativlər, aksioner cəmiyyətləri və vətəndaşların könüllü yaratdıqları digər istehsal özəkləri; sosial sahədə – özünüidarə orqanları, siyasi partiyalar, digər ictimai təşkilatlar və ailə; mənəvi sferada – vətəndaşların söz, vicdan və fikir azadlığını

reallaşdırmağa xidmət edən qeyri-dövlət institutları və kütləvi informasiya vasitələri, digər könüllü yaradıcılıq birlikləri. Vətəndaş cəmiyyətinin mühüm bir xüsusiyyəti ondadır ki, burada şəxsiyyət bir qayda olaraq dövlət ilə özünün daxil olduğu sosial institut vasitəsilə əlaqələr saxlayır.

Vətəndaş cəmiyyətinin əsas əlamətləri sırasında aşağıdakılar xüsusi yer tutur: özünütəşkil və özünüidarə; onu təşkil edən strukturlar və insanlar arasında sağlam rəqabətin təmin olunması; azad surətdə formalaşan ictimai rəy və fikir plüralizmi; bütün insanlar üçün informasiyanın əlçatar olması; mövcud strukturların fəaliyyətinin səmərəli surətdə əlaqələndirilməsi; insanlar arasında münaqişə hallarının vaxtında aşkar edilməsi və onların kəskinləşməsinə yol verilməməsi; mövcud assosiasıyaların və vətəndaşların təmsil olunduğu birliklərin müstəqilliyinin qorunması; onların spesifik mənafelərinin ictimai həyatda reallaşdırılması və sair (107, s.271).

Təsadüfi deyildir ki, postsovet məkanında baş verən demokratik prosesləri və sosial siyasi dəyişiklikləri tədqiq edən müəlliflərin əksəriyyəti haqlı olaraq belə bir ümumi fikir söyləyir ki, həmin irəliləyişlər kütlələrin vətəndaşlıq fəallığının inkişafı, vətəndaş cəmiyyətinin müvafiq institutlarının və strukturlarının formalaşması, habelə cəmiyyətdə özözünü təşkil edən, özözünüidarə edən sinerqetik əsasların yüksəlməsi ilə bilavasitə şərtlənir (60, s.4).

Müasir Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, mülkiyyətin müxtəlif və bərabər hüquqlu formalarının rolunun artırılması, sosial tənzimlənən bazar iqtisadiyyatının yaradılması, hüquqi dövlətin formalaşması, ictimai həyatın bütün sahələrində plüralizmin və aşkarlığın qəti möhkəmləndirilməsi, cəmiyyətin

dövlət üzərində nəzarətinin daha səmərəli mexanizimlərinin yaradılması istiqamətləri üzrə gedir. Bu baxımdan son dövrlərdə həyata keçirilən hüquqi və siyasi islahatların, o cümlədən də yerli özünüidarə orqanlarının işinin təkmilləşdirilməsi misilsiz əhəmiyyətə malikdir. Məsələ burasındadır ki, bütün digər postsovet dövlətlərində olduğu kimi Azərbaycanda da yerli özünüidarənin inkişaf etdirilməsi bir tərəfdən mərkəzi orqanların yerlərdə lazımsız müdaxiləsini aradan qaldırır, digər tərəfdən isə vətəndaşların daha geniş təbəqələrinin siyasi və iqtisadi həyatda, mədəni proseslərdə real iştirakına, onların öz yaradıcılıq imkanları və təşəbbüskarlığının artırılmasına və reallaşdırılmasına lazımı şərait yaradır. Sözügedən məsələ vətəndaş cəmiyyətinin formalaşması konteksində o qədər böyük rol oynayır ki, bəzi tədqiqatçılar haqlı olaraq göstərirlər ki, sosial idarə və özünüidarə olmadan vətəndaş cəmiyyəti qeyri mümkündür (76, s.24)

Burada sosial idarəçilik ictimai həyatın bütün sferalarında (iqtisadiyyatda, siyasi həyatda, mənəvi sahədə və sair) çox mühüm tənzimləyici funksiyalar həyata keçirir ki, onlar həm də şəxsiyyətin ümumi inkişafına güclü müsbət təsir göstərir. Əslində sosial idaretmə bu sferaların hər birində şəxsiyyətlərin tələbat və mənafelərini, dəyərlər sistemini analoci qəbildən olan ümumi göstəricilər ilə əlaqələrini sahmana salır.

Bununla əlaqədar qeyd edək ki, ölkəmizdə vətəndaş cəmiyyətinin formalaşmasının əsas ruşeymləri kimi qeyri-hökümət təşkilatlarının sayının və fəaliyyətinin genişlənməsi çox böyük əhəmiyyət kəsb edir. Hazırda Azərbaycanda bu təşkilatlar ölkənin siyasi, sosial və mədəni həyatında, beynəlxalq həyat ilə bağlı məsələlərin həllində artan rol oynayırlar. Vətəndaş cəmiyyətinin mahiyyət səciyyəsi bundadır ki, o dövlət idarəçiliyindən prinsipcə

fərqlidir. Buna görə də vətəndaş cəmiyyəti, ayrı-ayrı fərdlərin özünəməxsus spesifik və xüsusi mənafelərinin reallaşması sferasını təşkil edir. Vətəndaş cəmiyyəti sivilizasiyasının əldə etdiyi mühüm dəyər olmaqla, fərdləri müxtəlif əsaslar üzrə birləşdirir və bununla da ikitərəfli sivilizasyon funksiya yerinə yetirir: bir tərəfdən fərdləri əlavə olaraq bir daha sosiallaşdırır; digər tərəfdən bütövlükdə cəmiyyətin daha möhkəm birləşməsinə kömək edir (158, s.209).

Göründüyü kimi vətəndaş cəmiyyətinin mahiyyəti və məzmunu şəxsiyyətdən, onun formalaşması və inkişafı üçün optimal şərait yaratmaqdan ayrılmazdır. Məhz bu cəmiyyətin bərqərar olduğu şəraitdə şəxsiyyət özünün potensial imkanlarını tam reallaşdırmaq, özünütəsdiq etmək, spesifik mənafe və maraqlarını həyata keçirmək üçün lazım olan əsl şəraiti əldə edə bilir. Vətəndaş cəmiyyəti elə bir sosial sistemdir ki, şəxsiyyətin siyasi, iqtisadi, mədəni və mənəvi sferalarda həyat fəaliyyətinin istehsalı və təkrar istehsalına real imkanlar yaradır. İctimai həyatın vətəndaş cəmiyyəti formasında sosial təşkili şəxsiyyətin bütün sahələrdə həqiqi azad fəaliyyətini təmin edir və onu ali dəyər kimi qiymətləndirir. Məhz onun sayəsində şəxsiyyət özünün spesifik və ümumi dövlət maraqlarından müəyyən qədər kənarda yerləşən, lakin onun özü üçün həyati əhəmiyyət kəsb edən bir sıra mühüm mənəvi və mədəni ənənələri, normaları və dəyərləri qoruyub saxlayır, inkişaf etdirərək gələcək nəslə ötürə bilir. Hegel göstərirdi ki, vətəndaş cəmiyyəti ayrıca şəxsiyyətin xüsusi məqsəd və mənafelərinin reallaşması sferasıdır, o, xüsusilə ən ümuminin qarşılıqlı əlaqəsi və qarşılıqlı şərtlənməsi olmaqla, mütləq ruhun və ümumdünya tarixinin inkişafında zəruri mərhələdir (103, s.278).

Şəxsiyyətə göstərdiyi təsir baxımından vətəndaş cəmiyyətinin aşağıdakı keyfiyyətləri daha önəmlidir: onun legitimliyi, yəni xalq tərəfindən tanınması və seçicilərin əsl mandatına malik olması; demokratiyanı daha dolğun şəkildə həyata keçirmək imkanları; hakimiyyətin səmərəli şəkildə reallaşdırılması üçün malik olduğu üstünlüklər (o cümlədən də fərdlərin maraqlarının nəzərə alınması və mənafelərinin ödənilməsi baxıiından).

Vətəndaş cəmiyyətinin şəxsiyyətə müsbət təsirinin çox mühüm istiqaməti odur ki, burada şəxsiyyətin siyasi özgələşməsi məhdudlaşdırılır və demək olar ki, aradan qaldırılır, çünki onun fəaliyyətinin müxtəlif tərəflərində sırf siyasi təsirin rolu azalır, onun əvəzində sosial cəhət ön plana keçir. Sonra, vətəndaş cəmiyyəti şəxsiyyətin təhlükəsizliyini qorumağı özünün başlıca məqsədlərindən biri hesab edir. Özü də söhbət təkcə sosial-iqtisadi təhlükəsizlikdən (mülkiyyət hüququnun müdafiəsi, azad iqtisadi yaradıcılığa və təşəbüskarlığa meydan verilməsi və sair) deyil, habelə şəxsi təhlükəsizliyin müxtəlif tərəflərindən (sağlamlığın müdafiəsinin rəngarəng formalarının tətbiqi, təhsil və mədəniyyətin inkişafına qayğı, şəxsiyyətin həyatına hər cür zorakı formalarda müdaxilənin qadağan olunması və sair) gedir.

Yuxarıda deyilənlərdən aydın olur ki, vətəndaş cəmiyyəti şəxsiyyətin inkişafı, onun siyasi, iqtisadi, sosial və mənəvi təkmilləşməsi baxımından xüsusilə böyük əhəmiyyət kəsb edir, çünki o fərdlər arasında həmin sferaların hər birində normal əməkdaşlıq və dialoq yaradır.

Qeyd olunmalıdır ki, vətəndaş cəmiyyəti birdən-birə yaranmır, uzun bir təkamül prosesinin nəticəsi kimi özünü göstərir. Bu posesdə həm mövcud sosial və siyasi təşkil strukturları, həm də əhalinin şüur və təfəkkürünün inkişafı çox

mühüm rol oynayır. Unudulmamalıdır ki, vətəndaş cəmiyyətinin formalaşması köhnə sistemin hələ də tam aradan qaldırılmamış qaydaları və sfereotipləri ilə yanaşı və bəzi hallarda isə onlarla toqquşma şəraitində qərarlaşır. Belə ki, totalitar recimin hökmran olduğu dövrdə insanların şüurunda kollektivçilik, yəni ümumiliyə aludəçilik hökm sürürdü. Demokratik cəmiyyətə keçidi ifadə edən indiki dövrdə isə şəxsiyyətin inkişafı, ona öz hüquq və vəzifələri olan müstəqil subyekt kimi yanaşılması əsas yer tutur. Bununla əlaqədar qeyd edək ki, şəxsiyyətin inkişafının əsas göstəricilərindən biri olmaq etibarilə onun mülkiyyət sahibi olmasının rolu artır. Məhz şəxsiyyət mülkiyyətçi olduqda onun müxtəlif növlü hakimiyyət strukturlarından asılılığı aradan qalxır. Sovet rejimi dövründə fərd iqtisadi cəhətdən azad ola bilməzdi, çünki əsas mülkiyyətçi rolunda dövlət çıxış edirdi. Ondan tam fərqli olaraq indi mülkiyyətin müxtəlif bərabərhüquqlu formaları fəaliyyət göstərir, cəmiyyətdə xüsusi mülkiyyətin xüsusi çəkisi və rolu durmadan artır. Bu, cəmiyyətdə şəxsiyyətlərin mənafe müxtəlifliyi və rəngarəngliyini nəzərə almaq və əlaqələndirmək imkanı verir.

Vətəndaş cəmiyyəti özünün bir çox sahələrində dövlət hakimiyyəti ilə sıx əlaqədə və sözün müəyyən mənasında paralel şəkildə çıxış edir (bu xüsusən də vətəndaş cəmiyyətinin yenicə formalaşmağa başladığı müasir dövr üçün səciyyəvidir). Onların bu yaxınlığı və əməkdaşlığı həm də şəxsiyyətin inkişafına göstərdiyi təsir istiqamətində ifadə olunur. Nəzərdə tutmaq lazımdır ki, müasir demokratikləşmə şəraitində vətəndaş cəmiyyəti tədricən dövlət ilə şəxsiyyət arasında bir növ vasitəçi kimi, əlaqələndirici vəsilə kimi çıxış etməyə başlayır. Vətəndaş cəmiyyətinin yüksək inkişaf etdiyi qərb ölkələrində və ABŞ-da

onun mexanizimləri dövlət ilə daha sıx təmasda fəaliyyət göstərir. Onların bu yaxınlığı ayrı-ayrı fərdlərə və şəxslərə öz mənafelərini daha dolğun reallaşdırmağa şərait yaradır. Onlar tam hüquqa malik subyekt kimi dövlət ilə qarşılıqlı münasibətlərə daxil olurlar. Nəticədə bir tərəfdən şəxsiyyətin inkişafına şərait yaranır, digər tərəfdən dövlət hakimiyyətinin və bütövlükdə siyasi sistemin sabitliyi artır. Bununla yanaşı onlar arasında müəyyən fərqlər də vardır və hətta bu fərqlər bəzən dialektik ziddiyyətlər səviyyəsinə yüksələ bilir. Xüsusilə də siyasi sistemin tranformasiyası şəraitində belə ziddiyatlər daha aydın şəkildə özünü göstərir. Sözügedən vəziyyət təbiidir ki, şəxsiyyətə münasibətdə də, onun həyat fəaliyyəti üçün yaradılan şəraitin səciyyəsi baxımından da özünün mənfi əks – sədasını tapır. Buradan aydındır ki, müasir cəmiyyətdə şəxsiyyətin hərtərəfli inkişafı yolunda özünü göstərən məhdudluqlar, qarşıya çıxan maneələr və çətinliklər bir çox cəhətdən yaranmaqda olan vətəndaş cəmiyyəti ilə dövlət arasındakı ziddiyyətlərdən törəyir. Bu ziddiyyətlər əsasən sivill formalarda (bəzən isə qeyri-sivil qaydada) həll olunur. Əgər bütövlükdə sosial həyatda demokratik recim hökm sürürsə, onda vətəndaş cəmiyyəti dövlət ilə qarşılıqlı təsirdə fəaliyyət göstərir, totalitar quruluşda isə o dövlətə münasibətdə ya passiv, ya da aktiv müxalifət mövqeyində durur (169, s.327).

Şəxsiyyətə göstərdiyi təsir baxımından vətəndaş cəmiyyəti ilə hüquqi dövlətin vəhdəti məsələsi xüsusi əhəmiyyət kəsb edir. Əvvəla göstərilməlidir ki, bunların münasibətləri və əlaqələri barəsində fəlsəfi politoloji ədəbiyyatda uzun müddətdir ki, nəzəri mübahisələr davam edir. Mütəxəssislərin bir qrupu vətəndaş cəmiyyətinə, digərləri isə hüquqi dövlətə üstünlük verirlər. Bunlarla yanaşı onları eyniləşdirən rəylərə də rast gəlinir. Əslində

vətəndaş cəmiyyəti ilə hüquqi dövlət bir-birinə çox yaxın olsalar da, eyni anlayışlar deyildir. Bu mənada K.S.Hacıyevin aşağıdakı fikri ilə razılaşmaq olar: «... vətəndaş cəmiyyəti və hüquqi dövlət bir-birini şərtləndirir və biri digəri üçün həyat qabiliyyəti şəraiti yaradır, lakin onlar bir-birini əvəz etmir» (95, s.164-165).

Vətəndaş cəmiyyəti ilə hüquqi dövlətin sıx vəhdətini və hər birinin özünəməxsusluğunu konseptual baxımdan aşağıdakı kimi müəyyənləşdirmək olar:

1) bu anlayışlar müxtəlif səciyyə daşımasına baxmayaraq vahid cəmiyyət orqanizminin bir-birilə daxilən əlaqədə çıxış edən və biri – digərini tamamlayan tərəfləridir. 2) onlar arasında müəyyən həddlər qoyulması qanunauyğun olub sosial–iqtisadi və mədəni sfera ilə siyasi sfera arasındakı münasibətlərin öz inkişafında bir-birindən nisbi müstəqilliyə malik olması ilə şərtlənir; 3) vətəndaş cəmiyyəti siyasi sistemin ilkin əsasıdır, dövlət onunla şərtlənir və müəyyən olunur, öz növbəsində dövlət siyasi təsisat olmaqla, vətəndaş cəmiyyətinin varlığı və fəaliyyəti üçün şərait yaradır. 4) vətəndaş cəmiyyəti fərdlərin müxtəlif birlikləri və təşkilatlarının məcmusu kimi onların birgə maddi və mənəvi həyatını təmin edir, tələbat və mənafelərini ödəmək məqsədi güdür. Dövlət, vətəndaş cəmiyyətinin rəsmi ifadəsi, onun siyasi varlığının inikasıdır. Vətəndaş cəmiyyəti fərdlərin, qrupların maraqlarının və regional mənafelərin təzahür sferasıdır, onun əsas tələbləri dövlətin iradəsi sayəsində reallaşır. 5) vətəndaş cəmiyyəti nə qədər çox inkişaf edirsə (öz üzvlərinin fəallığı və təşəbbüskarlığı baxımından), dövlətin demokratikliyi üçün bir o qədər geniş meydan açılır, çünki o fərdlər və qruplar arasında dövlət vasitəsilə şərtlənməyən müxtəlif münasibətlər məcmusudur (157, s.136).

Qeyd edək ki, hüquqi dövlət ilə vətəndaş cəmiyyətinin vəhdətini ifadə edən prinsiplərin nəzəri səviyyədə nisbətən asan əks olunmasına baxmayaraq, onların həyatda yerinə yetirilməsi xeyli dərəcədə çətin prosesdir. Real həyatda bu iki sosial institut arasında müvazinətin bu və ya digər tərəfin xeyrinə dəyişilməsi, fərqlər və bəzən də zidiyyətlilik özünü göstərə bilir. Sonuncu, cəmiyyətin keçid və tərəqqi xarakterli dönüş məqamlarında daha tez-tez özünü göstərir. Bu fikir xüsusilə də müasir cəmiyyətə aiddir. Burada totalitar idarəçilik formaları ləğv olunur və yeni formalar yaranır, demokratik prinsiplər ictimai həyatın bütün sferalarında ardıcıl surətdə bərqərar edilməkdədir. Totalitar rejimdən açıq cəmiyyətə keçidi ifadə edən bu mürəkkəb, geniş məzmunlu, çətin və həll edilməsi üçün kifayət qədər uzun müddət tələb edən vəzifələrin reallaşdırılması gedişində şəxsiyyətin həyat fəaliyyətinə təsir aspektində sözügedən institutlar arasında, habelə çətinliklər və hətta ziddiyətlər də özünü göstərir. Lakin cəmiyyətimiz demokratikləşmənin genişlənməsi istiqamətində irəlilədikcə, onlar aradan qalxmağa meyl edir. Nəticədə hüquqi dövlət ilə vətəndaş cəmiyyəti yaradılması proseslərinin əməkdaşlığı daha da möhkəmlənir. Bu, müasir şəxsiyyət tipinin formalaşması və inkişafı baxımından müstəsna dərəcədə böyük əhəmiyyət kəsb edir.

Müasir Azərbaycanda baş vermiş hərtərəfli transformasiya prosesləri, burada vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunun uğurla getdiyini sübut edir. Həmin institutlar üçün səciyyəvi olan cəhətlər – hakimiyyətin qəti surətdə qanunverici, icraedici və məhkəmə növlərinə ayrılması, hüquqi qanunun aliliyi, demokratik prinsiplərin daha da genişlənməsi, sosial və siyasi proseslərin hüquqi yollarla tənzimlənməsi və sair, getdikcə daha

möhkəm bərqərar olur ki, bütün bunlar şəxsiyyətin hüquq və azadlıqlarının genişlənməsi, onların həyata keçirilməsinə real təminat yaradılması ilə müşaiyət olunur. Ardıcıl sürətdə həyata keçirilən köklü islahatlar bütövlükdə cəmiyyətin, habelə ayrılıqda götürülən hər bir fərdin (şəxsiyyətin) həyat fəaliyyətinin bütün sahələrində əsaslı irəliləyişləri şərtləndirir. Ölkədə siyasi sabitliyin bərqərar olması və möhkəmlənməsi, iqtisadiyyatda özəlləşdirmə proqramının həyata keçirilməsi, xüsusi mülkiyyətə, azad sahibkarlığa və sağlam rəqabətə geniş meydan verilməsi nəticəsində iqtisadiyyatda bazar münasibətlərinin formalaşması, çoxpartiyalılığın və fikir plüralizminin yaranması, əhalinin təhsil və mədəni səviyyəsinin, şüurunun yüksəlməsi, insanlar arasında münasibətlərin yaxşılaşdırılması, onların dəyərlər sistemində və oriyentasiyasında baş verən irəliləyişlər, burada azad vətəndaş cəmiyyətinin və hüquqi dövlətin özülünün yaradıldığını sübut edir. Ölkəmizdə son illərdə iqtisadi və sosial sahədə böyük irəliləyişlər baş verdiyini aşağıdakı rəqəmlərdən də görmək olur. 1996-2002-ci illərdə Azərbaycanda daxili ümumi məhsul istehsalı 1,7 dəfə, iqtisadiyyatda kapital qoyuluşu – 7,8 dəfə, əhalinin pul gəlirləri – 3 dəfə, orta aylıq əmək haqqı və təqaüdün miqdarı – 5 dəfə artmışdır (92, s.3). Ölkə üzrə ümumi daxili məhsul 2013-cü ilin nəticələrinə görə 57708,2 mln manat təşkil etmişdir ki, bu da 2003-cü illə müqayisədə ümumi olaraq - 8,1 dəfə, adambaşına isə - 7,1 dəfə çoxdur. Ölkədə olan iqtisadi fəal əhalinin sayı 2013-cü ildə 4757,8 min nəfər təşkil etmişdir ki, bu da 2003-cü illə müqayisədə 8,8% çoxdur.

Respublikada 2013-cü il üçün orta aylıq nominal əmək haqqı 425,1 manat təşkil etmişdir ki, bu da 2003-cü ilin qiymətindən (77,4 manat) 5,5 dəfə çoxdur. Əhalinin nominal pul

gəlirləri də 2013-cü ildə 37555,5 milyon manat təşkil etmişdir ki, bu da 2000-ci ilə nisbətən 9,3 dəfə, 2008-ci ilə nisbətən 81% çoxdur. (www.stat.gov.az)

Ölkəmiz daha çox açıq xarakter kəsb edir, onun beynəlxalq aləmdə nüfuzu ilbəil artır, dünya birliyi ölkələrinə inteqrasiyası möhkəmlənir. Bu işdə bir çox Beynəlxalq layihələrdə Azərbaycanın iştirakı, Böyük İpək Yolunun bərpası, Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft kəmərinin çəkilməsi bu zaman dünyanın 20-dən artıq qabaqcıl neft şirkətləri ilə imzalanan müqavilələr, onların yerinə yetirilməsi yolunda atılan addımlar mustəsna dərəcədə böyük əhəmiyyət kəsb etmişdir.

Daxili həyatda və xarici siyasət sahəsində qazandığımız nailiyyətlər ümumilikdə götürdükdə vətəndaş cəmiyyətinin və hüquqi dövlətin formalaşması prosesinin uğurla getdiyini ifadə edir. Bütün bunlar şəxsiyyətin həyat tərzini və dünyagörüşünü əsaslı surətdə yeniləşdirir, onun təsəvvürlərində vətəndaş cəmiyyəti və hüquqi dövləti səciyyələndirən cəhətlər və anlayışlar daha möhkəm yer tutur. Eynilə də şəxsiyyət ilə cəmiyyət və şəxsiyyət ilə dövlət arasındakı münasibətlər mütərəqqi istiqamətdə təkmilləşir.

Əlbəttə deyilənlərdən belə bir nəticə çıxarılmamalıdır ki, artıq bu gün Azərbaycanda vətəndaş cəmiyyəti və hüquqi dövlət tam şəkildə bərqərar olmuşdur və onlar şəxsiyyətin formalaşmasına və inkişafına tam gücü ilə öz təsirini göstərir. Belə düşünmək sadəlövhlük olardı və reallığa uyğun deyildir. Cəmiyyətimiz müstəqillik yoluna demək olar ki, yaxın vaxtlarda qədəm qoymuşdur. İctimai həyatın bütün sahələrində 70 ildən artıq hakim mövqe tutmuş formalar ləğv edilir və yeniləri ilə əvəz olunur. Bu isə son dərəcə mürəkkəb, çətin, kifayət qədər vaxt tələb edən prosesdir. Sovet rejimi dövründən yığılıb qalmış bir çox

problemlər və xalqımızın zorla təhrik olunduğu uydurma Dağlıq Qarabağ müharibəsi və bunun nəticəsində ərazimizin beşdə birindən çox hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması (Rusiyanın bəzi dairələrinin fəal iştirakı ilə) bir milyondan artıq adamın öz dədə-baba torpaqlarından qovularaq qaçqın və məcburi köçkün vəziyyətində respublikanın müxtəlif rayonlarına səpələnərək ağır şəraitdə yaşaması və sair də onun həyata keçirilməsinə ləngidici təsir göstərir.

Lakin xalqımız özünün bütün qüvvələrini səfərbər etməklə və müdrik idarəçilik ənənələrini əldə rəhbər tutmaqla bu və digər problemləri tədricən aradan qaldırmaqdadır. Əsas diqqət mərkəzində öncül sosial–iqtisadi vəzifə – əhalinin yoxsulluğunun aradan qaldırılması durur. Dünya Bankının köməyilə Azərbaycanda yoxsulluğa qarşı mübarizəyə dair BMT-nin proqramının həyata keçirilməsinə başlanılmışdır. 2001-ci ilin dekabrında respublikanın Nazirlər Kabineti bu sahədə işçi qrupların təklif və tövsiyələrini nəzərə almaqla «Məcburi köçkünlərə və müvəqqəti yaşayış yerini dəyişmiş şəxslərə kömək göstərilməsi tədbirləri haqqında» qərar qəbul etdi. Bu sənəddə nəzərdə tutulan müddəalar əsas götürülməklə 2002-ci ildə ölkə Prezidenti tərəfindən 2002-2007-ci illəri əhatə edən proqram – «Azərbaycanda yoxsulluğun azaldılması sahəsində Dövlət Proqramı» qəbul olundu. O vaxtdan keçən dövrdə həmin proqramda əks olunmuş müddəalar və tədbirlər uğurla həyata keçirilmişdir.

Hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşması obyektiv xarakter daşıyan təbii tarixi prosesdir. Lakin onun özbaşına axın kimi baş verdiyini təsəvvür etmək doğru deyildir. Bu proses cəmiyyətdəki sosial və siyasi təşkilatların, strukturların

və idarəçilik orqanlarının məqsədyönlü tənzimləyici təsiri altında baş verir. Yuxarıda qeyd olunan amillər insanların şüurunda və təfəkkür tərzində, psixologiyasında sözügedən istiqamətə yönəlmiş mütərəqqi irəliləyişlərlə vəhdətdə çıxış edərək, həmin prosesə güclü sürətləndirici təsir göstərir.

Həm də qeyd olunmalıdır ki, ölkəmizdə bu proses xeyli dərəcədə çətin, mürəkkəb və ziddiyyətli şəraitdə gedir. Sözügedən əlamətlər totalitarizimdən yenicə azad olaraq açıq, demokratik cəmiyyətə üz tutmuş postsovet respublikalarında nəzərə çarpır. Bu məqam həm də Azərbaycana aiddir. Burada hüquqi dövlət və vətəndaş cəmiyyəti ictimai həyatın bütün sahələrində bu və ya digər şəkildə təzahür edən köhnə stereotiplər və vərdişlər ilə mürəkkəb qarşıdurma şəraitində tədricən irəliləməkdədir. Həmin prosesə ləngidici təsir göstərən amillər sırasında insanların şüuru və psixologiyasının yeniləşdirilməsi ilə bağlı məsələlər daha önəmlidir. Çünki bu sahədə yeniliklər cəmiyyət həyatının digər sahələrindən sonra, özü də xeyli dərəcədə uzun bir dövr ərzində baş verir (255, s.55).

Söhbət ondan gedir ki, bir çox onilliklər ərzində mövcud olmuş sosializm rejimi cəmiyyət üzvlərinin şüuru və psixologiyasını kollektivçilik ruhu, hamının hər kəs və hər kəsin hamı üçün məsuliyyət daşıması ruhunda kökləmişdi, burada şəxsiyyətin fərdiliyi və özünəməxsusluğu faktiki olaraq inkar edilirdi. Buna görə də müstəqillik qazandıqdan sonra keçən az müddət ərzində həmin ehkamları birdən-birən dəyişdirilmək qeyri-mumkün olur, bunun üçün müəyyən vaxt və təkidli təşkilati, tərbiyəvi iş aparmaq lazım gəlir. Odur ki, demokratik cəmiyyətin formalaşdırılması hər bir insanın (şəxsiyyətin) konstitusiya əsasında geniş hüquq və azadlıqlara malik olduğunu bəyan

etməklə və şəxsiyyətə hüququn subyekti kimi yanaşmaqla yekunlaşmır. Əsas məsələ cəmiyyətin hər bir üzvünün iqtisadi, sosial, siyasi və mənəvi sahələrdə öz hüquq və azadlıqlarını real anlamalarına nail olmaq, onların bu sahələrin hər birində reallaşdırılmasını təmin etməkdir. Doğrudan da əgər vətəndaşa sözdə sosial–iqtisadi sahədə mülkiyyət hüquqi verilirsə və o real təmin olunmursa (sovet dövründə vəziyyət belə idi), onda hüquqi dövlətin və vətəndaş cəmiyyətinin iqtisadi əsasının yaranması xoş arzu olaraq qalacaqdır. Buna görə də ölkəmizdə açıq cəmiyyətə keçidin ilk dövrlərindən etibarən şəxsiyyətin mülkiyyət hüququnun qorunmasına, mülkiyyət üzərində dövlət inhisarının ləğv edilməsinə, bərabərhüquqlu çoxsaylı mülkiyyət formalarının yaradılmasına, xüsusi mülkiyyətin yeri və rolunun artırılmasına yönələn tədbirlər həyata keçirilməyə başlanıldı. İqtisadiyyatda, siyasi və mənəvi sahələrdə real plüralizmə şərait yaradıldı ki, bu da əhalinin müxtəliv təbəqələri və qruplarının, habelə onlarda təmsil olunmuş ayrı-ayrı şəxsiyyətlərin maraq və mənafelərinin rəngarəngliyini və özünəməxsusluğunu nəzərə almağa və onları bir-birilə əlaqələndirməyə real imkanlar açır.

Hüquqi dövlət və vətəndaş cəmiyyəti yaradılması real həyatda eyni vaxtda baş verən və bir-birilə sıx qarşılıqlı əlaqədə çıxış edən proseslərdir. Hüquqi dövlət özündə vətəndaş cəmiyyətinin əsas keyfiyyətlərini bir növ təmərküzləşmiş şəkildə ifadə etdiyindən, onun formalaşmasının əsas mərhələləri də vətəndaş cəmiyyətinin yaranmasında özünü göstərən analoci dövrlər ilə üst-üstə düşür. Bununla yanaşı, onların qərarlaşmasında hər birinə aid spesifik cəhətlərin olduğu da danılmazdır. Müasir dövrdə hüquqi dövlət ilə vətəndaş cəmiyyəti arasında ümumilik hər şeydən əvvəl bunda ifadə olunur ki, onların hər ikisi bazar iqtisadiyyatının

formalaşmasını, azad sahibkarlığa rəvac verilməsini, kütləvi informasiya vasitələrinin fəaliyyətinin sərbəstləşdirilməsini, vətəndaşların sosial müdafiəsinin həyata keçirilməsini özlərinin başlıca məqsədi elan edir və onları reallaşdırmağa çalışırlar. Bütün bu məsələlər hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasının hər iki mərhələsində – təşəkkül tapma və qəti qərarlaşma mərhələlərində həyata keçirilir (152, s.231-233).

Vətəndaş cəmiyyəti və hüquqi dövlətin şəxsiyyətin inkişafı üçün yaratdığı üstünlükləri və misilsiz imkanları araşdırarkən, təkcə ölkənin daxili miqyası ilə kifayətlənmək olmaz. Həm də məsələnin beynəlxalq cəhətlərinə xüsusi diqqət yetirilməlidir. Nəzərdə tutmaq lazımdır ki, hazırda şəxsiyyətin hüquq və azadlıqlarının qorunması ilə bağlı məsələlər bir çox nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən də Azərbaycanın üzv olduğu Avropa Şurasının diqqət mərkəzində durur. Buna görə də ölkəmizdə milli qanunvericiliyin və real praktiki tədbirlərin insan hüquqları haqqında beynəlxalq standartlara uyğunlaşdırılmasının zəruriliyi problemi qarşıya çıxır. Qeyd edək ki, Azərbaycanda son illərdə bu istiqamətdə xeyli işlər görülmüşdür. Bu baxımdan vətəndaşlara Konstutusiya Məhkəməsinə müraciət etmək hüququnun verilməsi, onların hüquqlarını müdafiə edən xüsusi təşkilatın – ombusmanın yaradılması, burada şərq ölkələri içərisində ilk dəfə olaraq ölüm hökmünün cəza növü kimi ləğv olunması və sair müstəsna əhəmiyyətə malikdir. Bu qəbildən olan tədbirlər sübut edir ki, Azərbaycan dövləti öz Konstitusiyasında bəyan etdiyi demokratik və hüquqi dövlət hakimiyyəti və vətəndaş cəmiyyəti qurmaq haqqında vədlərinə sadiqdir və onları ardıcıl olaraq yerinə yetirir.

Vətəndaş cəmiyyətinin və hüquqi dövlətin şəxsiyyətin formalaşması və inkişafı mənasında müsbət rol oynayan mühüm bir amili də ölkə üzrə çevik və dəqiq informasiya şəbəkəsinin yaradılmasıdır. İnformasiya cəmiyyəti anlayışı XX əsrin 90-cı illərinin ortalarında yaranmasına baxmayaraq, bu münasibətdə Qərbin demokratik dövlətləri kifayət qədər təcrübə toplamışlar və onlar Azərbaycanda informasiyalı cəmiyyətin yaradılmasına böyük köməklik göstərirlər. Adından göründüyü kimi informasiyalı cəmiyyət ictimai həyatın bütün sahələrində, cəmiyyətin və şəxsiyyətin həyat fəaliyyətində informasiyanın rolunun durmadan artırılmasını nəzərdə tutur. İnformasiya dedikdə ümumi mənada insan tərəfindən siqnallar vasitəsilə ötürülən və qəbul edildikdən sonra işlənilən və istifadə olunan bilik və məlumatlar başa düşülür. İnformasiyalı cəmiyyət elə bir mürəkkəb sosial orqanizmdir ki, burada cəmiyyət həyatında informasiyanın rolu sürətlə artır. İnformasiyanın yaranması, toplanması, emalı və ötürülməsi təkcə bilavasitə istehsalda deyil, habelə siyasi və mənəvi həyatda, idarəçilik funksiyalarının yerinə yetirilməsində də uğurla tətbiq olunur. Yüksək informasiyaya əsaslanan müasir cəmiyyətdə şəxsiyyət hansı coğrafi məkanda yaşamasından asılı olmayaraq internet vasitəsilə istənilən dövlətdən qısa müddət ərzində dolğun və səhih informasiya ala bilir. Digər tərəfdən şəxsiyyət praktiki olaraq bir neçə dəqiqə ərzində öz ölkəsinin və başqa ölkələrin vətəndaşları ilə, dövlət və ictimai strukturları ilə dialoqa daxil ola bilir. Bu, faktiki olaraq coğrafi sərhədlərin və qapalılığın şəxsiyyətin inkişafına göstərdiyi məhdudlaşdırıcı təsiri aradan qaldırır. İndi tətbiq olunan mütərəqqi informasiya texnologiyaları, dünya informasiya (internet) şəbəkəsi şəxsiyyətin dünyagörüşü və əhatə dairəsini

sürətlə genişləndirir. Təsadüfi deyildir ki, son dövrlərdə bir çox ölkələr informasiya kommunikasiyaları texnologiyalarından geniş istifadə etmək əsasında böyük uğurlar qazanmışlar. Onların təcrübəsini yaymaq sahəsində Azərbaycanda da bir çox işlər görülməkdədir. İndi ölkəmiz vahid dünya informasiya məkanına daxil olmuşdur. 2002-ci ilin fevralından başlayraq Azərbaycan hökuməti BMT-nin inkişaf proqramı ilə birgə işlənib hazırlanmış «Azərbaycan Respublikasında informasiyon – kommunikativ texnologiyaların tətbiqi və inkişafı üzrə Milli Srategiya» adlı layihə yerinə yetirməkdədir. Bu sənəddə ölkəmizdə mütərəqqi kommunikativ texnologiyaların tətbiqinin başlıca istiqamətləri, əsas vəzifələri və prioritetləri müəyyənləşdirilmişdir. Bu gün birmənalı şəkildə söyləmək olar ki, Azərbaycan müasir qloballaşma şəraitində informasiya cəmiyyəti yaradılması yoluna uğurla qədəm qoymuşdur.

Beləliklə, aparılan təhlillər aşağıdakı nəticələrin doğruluğunu sübut edir:

1. Hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu demokratikləşmə şəraitində şəxsiyyətin formalaşması və inkişafının çox mühüm amilidir. Şəxsiyyətə göstərdiyi təsir baxımından hüquqi dövlətin aşağıdakı keyfiyyətləri daha önəmlidir: siyai proseslərdə hamının iştirakı hüququnun təmin olunması; siyai hakimiyyətin bütün pillələrinin seçkililiyi; siyai partiyalar və digər təşkilatlar arasında münasibətlərdə sivil qaydalara əməl edilməsi; parlamentarizmin və demokratik prinsiplərin bərqərar edilməsi; şəxsiyyətin hüquq və azadlıqlarının reallaşması, onun təhlükəizliyinin qorunması. Şəxsiyyətin cəmiyyətdə vəzyyəti, mənəvi və intellektual səviyyəsi, fəallıq dərəcəsi hüquqi dövlətin humanist xarakterinin əsas göstəriciləri rolunu oynayır.

2. Formalaşmaqda olan vətəndaş cəmiyyəti şəxsiyyətin sosial, sosiomədəni və mənəvi sferalarda müstəqil, yəni dövlətdən asılı olmayan ictimai birliklər və institutlar sistemini əhatə edən özünəməxsus sosial məkanı, ayrı-ayrı fərdlərin spesifik mənafelərinin reallaşması sferasıdır. Onun əsaslarının möhkəmlənməsi gedişində şəxsiyyətlər arasındakı iqtisadi, sosial və mədəni-mənəvi münasibətlər təkmilləşir və qeyri-dövlət formaları ilə tənzim olunur. Öz-özünü təşkil edən və özünüidarə prinsipi həyata keçirən bu cəmiyyət şəxsiyyətlər üçün müstəqil, sivil və tolerantbirgə yaşayış mühiti yaradır. Şəxsyyətin inkişafına təsir baxımından vətəndaş cəmiyyətinin aşağıdakı keyfiyyətləri də çox mühüm əhəmiyyətə malikdir: onun legitimliyi, yəni xalq tərəfndən tanınması və seçicilərin əsl mandatına malik olması; demokratiyanı və özünüidarəçiliyi daha dolğun həyata keçirmək imkanları; fərdlərin özünəməxsus maraq və mənafelərini ödəmək üçün yaratdığı üstünlüklər; şəxsiyyətin sosial müdafiəsinin bütün istiqamətlərini və formalarını reallaşdırmaqda açdığı geniş imkanlar.

3. Müasir demokratikləşmə şəraitində vətəndaş cəmiyyəti dövlət ilə şəxsiyyət arasındakı münasibətlərin səmərəli vasitəçisi və əlaqələndiricisi vəsiləsi kimi çıxış edir. Hüquqi dövlət və vətəndaş cəmiyyəti bir-birilə sıx vəhdətdə fəaliyyət gösərir ki, bu, onların şəxsiyyətin müasir tipinin formalaşması və inkişafı prosesində rolunu daha da gücləndirir.

5. Digər postsovet respublikalarında olduğu kimi müasir Azərbaycan cəmiyyətində də müasir dövrün mürəkkəb prosesləri baş verməkdədir. Onlar həm də demokratiya, dövlət hakimiyyəti və şəxsiyyət arasındakı münasibətləri əhatə edir. Bu tərəflər arasında müəyyən fərqliliyin və ayrılığın olmasına

baxmayaraq, onların vəhdəti daha da güclənir. Həmin fikir birinci növbədə demokratikləşməyə aiddir. Məhz demokratiya vətəndaş cəmiyyətinin və hüquqi dövlətin mənafelərini şəxsiyyətin maraqları ilə uzlaşdıran forma kimi, cəmiyyətdə özünü göstərən sosial entropiya meyillərini aradan qaldırmağa və bütün sosial qüvvələri inteqrasiya etməyə qadirdir.

## 2.4. Şəxsiyyət müasir milli-etnik münasibətlər prizmasında

Müasir şəxsiyyət tipinin xarakteri və davranışının araşdırılmasında milli-etnik münasibətlərin müasir səviyyəsi və onu səciyyələndirən cəhətlər mütləq nəzərə alınmalıdır. Həmin münasibətlər isə müasir müstəqil milli dövlətçilik və demokratikləşmə şəraitində keyfiyyətcə zənginləşir və yeni məzmun kəsb etmişdir. Digər tərəfdən burada müxtəlif ziddiyyətli meyllər də özünü göstərir. Məsələnin mahiyyəti bundadır ki, SSRİ dağıldıqdan sonra yaranan müstəqil respublikalarda milli şüur, milli mənafelərin dərk olunması əsasında sözün əsl mənasında milli dirçəliş baş vermişdir. Bu zəmində bir tərəfdən milli münasibətlər sahəsində keçmişdən çoxsaylı problemlərin miras qaldığı aşkara çıxır, digər tərəfdən isə milli-etnik zəmində münaqişələr baş vermiş, etnik birliklərin birinin digərinə qarşı ərazi iddiaları, onlar arasında münasibətləri bəzən silahlı toqquşmalar səviyyəsinə gətirib çıxarmışdır. (Məsələn, Dağlıq Qarabağın erməni icmasının Ermənistanın himayədarlığı ilə Azərbaycanın ərazisinin beşdə birini işğal etməsi, gürcü-abxaz və gürcü-acar münaqişələri, Dnestrboyu vilayətlərdə və Pribaltikada millətlərarası gərginliyin artması və s.).

Buradan aydındır ki, şəxsiyyətin fəaliyyətinin etnopsixoloji baxımdan təkmilləşdirilməsi ilə bağlı problemlərə diqqəti daha da artırmaq lazımdır. Belə problemlər sırasında çoxmillətli əmək kollektivlərində şəxsiyyətlərarası münasibətlərin optimallaşdırılması, tədris müəssisələrində ifrat millətçiliyi istisna edən tədbirlərin həyata keçirilməsi; ölkə üzrə əmək resuslarının bölünməsində şəxsiyyətin etnotipik xüsusiyyətlərinin nəzərə alınması; rəhbər kadrların seçilib yerləşdirilməsində milli göstəricilərə diqqət yetirilməsi və başqa amillər əsas yeri tutur.

Marksizm fəlsəfəsi cəmiyyətin sosial sferasında sinfi münasibətlərin rolunu şişirdərək, onun aparıcı rol oynadığını qeyd edirdi. Belə təlqin olunurdu ki, milli-etniki münasibətlər onlara tabedir, buna görə də sosial həyatda ikinci dərəcəli əhəmiyyət kəsb edir. Son 15-20 il ərzində baş verən əsaslı sosial proseslər bu baxışın məhdud xarakterini üzə çıxartdı. Milli münasibətlər və bu zəmində özünü göstərən problemlər, ziddiyyətlər və münaqişələr Sovetlər birliyinin dağılmasında böyük rol oynayan amil oldu. Postsovet respublikalarının həyatında gedən dərin sosial dəyişikliklərdə də milli-etnik səpki öz güclü təsirini göstərməkdədir. Ümumiyyətlə, milli-etniki amillər müasir ictimai inkişafın əsas hərəkətverici amillərindəndir.

Müasir dövrdə gedən milli proseslər şəxsiyyətin həyat fəaliyyətinin bütün sahələrinə dərin təsir edir. Bu təsirin mexanizmi onda ifadə olunur ki, şəxsiyyətin sosial davranışında təzahür edən funksional rolu etniki xarakter kəsb edir, yəni burada etnik stereotiplərin təsir dairəsi genişlənir. Həmin prosesin milli mənlik şüurunun inkişafı və milli özünüdərk, milli dəyərlərə, tarixi keçmişə qayıdış, milli mədəni irsin və dilin qorunmasına qayğı ilə bağlı tərəfləri, heç şübhəsiz, şəxsiyyətin ümumi yüksəlişinə, onun daxili aləminin zənginləşməsinə təkan verir. Bununla yanaşı milli oyanış həm də müəyyən neqativ məqamları potensial vəziyyətdə əhatə edir (milli əlahiddəlik, mənsub olduğu millətin və ya etnik qrupun başqalarından üstün olması haqqında təsəvvürlər, öz normal hüdudlarını aşmış millətçilik ideyaları, milli şovinizm və s.)

Deyilənlər sübut edir ki, etnik stereotiplər müəyyən milli-etnik birlik formasına daxil olan şəxsiyyətin funksional rolu ilə

bağlı bütün keyfiyyətlərə sirayət edir, onun sosiotipik davranışında özünəməxsusluğu şərtləndirir (286, s.137).

Müasir şəxsiyyətə milli prizma baxımından yanaşılması və onun bu mövqedən adekvat mənalandırılması çox mühüm əhəmiyyətə malikdir. Əhalisinin onlarla millətlərdən və etnik qruplardan ibarət olduğu Azərbaycan üçün bu problem daha yüksək aktuallıq kəsb edir. Əvvəla, ona görə ki, yaxın keçmişə qədər davam etmiş olan sovet rejimi dövründə sözdə və rəsmi bəyanatlarda milli məsələnin həll edildiyi, guya millətlər arasında dostluq və qarşılıqlı əməkdaşlıq şəraitinin yaradıldığının və beynəlmiləlçiliyin elan olunmasına baxmayaraq, ictimai həyatın digər sferalarında olduğu kimi burada da çoxlu problemlər yığılıb qalmışdı. Digər tərəfdən, müstəqillik əldə etdikdən sonra ölkəmizdə milli şüurun və milli mənlik şüurunun sözün əsl mənasında dirçəlişi baş verdi. Hər cür milli təəssübkeşliyi millətçilik kimi qələmə verən totalitar rejimdən fərqli olaraq açıq cəmiyyətin yaranması milli mədəniyyətə dərin hörmət, xalqımızın əsrlərdən bəri qoruyub saxladığı və inkişaf etdirdiyi milli dəyərlərə qayğı göstərmək və onları inkişaf etdirmək üçün, bir sözlə millətimizin sözün tam mənasında özünə qayıdışı üçün real şərait yaradır. Bununla yanaşı milli ruhun inkişafı həm də bir sıra ciddi problemlər doğurur: əhalinin əksəriyyətini təşkil edən millət (bu mənada götürülən Azərbaycanlılar) ilə digər milli-etnik birliklər, xüsusən də onların «azlıqda qalan» adlanan qrupları arasında normal münasibətlər yaradılması; sayca azlıq təşkil edən xalqların dilinə, mədəniyyətinə, adət-ənənələrinə və tarixi keçmişinə hörmətlə yanaşılması; milli əlahiddəlik və separatçılıq cəhdlərinin qarşısının alınması və sair.

Müstəqilliyin ilk illərində ölkədə mövcud olan siyasi sabitsizlik, əhalinin həyat səviyyəsinin pisləşməsi nəticəsində yerli milləti təmsil edən onlarla istedadlı şəxsiyyətlərin qonşu ölkələrə miqrasiyası baş vermişdi. Elmin müxtəlif sahələrində çalışan istedadlı alimlərin, görkəmli mədəniyyət xadimlərinin və musiqiçilərin xaricə köçüb getməsi genişlənmişdi. Kommunist ideologiyasının təsiri altında nəzəri fikirdə əsas yer tutan milli-etnik fərqlərin tədricən silinməkdə olduğu və vahid sosialist millətinin, yeni tarixi bilik forması olan sovet xalqının formalaşdığı haqda doktrinalar da millətlərin milli mənəviyyatının inkişafına güclü zərbə vurmuşdu.

Qeyd olunmalıdır ki, son dövrdə Azərbaycan cəmiyyətində bu problemlərin həllində böyük uğurlar qazanılmışdır. Belə ki, ölkədə siyasi sabitliyin bərqərar olması nəticəsində həm də onun mühüm bir istiqaməti olan millətlərarası münasibətlərdə də normal vəziyyət, əməkdaşlıq etimad və dostluq şəraiti yaranmışdır Respublika rəhbərliyi tərəfindən azlıqda qalan xalqların milli mədəniyyətlərini və dilini inkişaf etdirməyə yönələn qərarların və göstərişlərin yerinə yetirilməsi bu prosesdə müstəsna rol oynayır. Bununla yanaşı özlərini milli lider kimi qələmə verməyə çalışan separatçı meyillərin (müstəqil talış, ləzgi və kürd dövlət qurumları yaratmaq cəhdlərinin) qarşısının qətiyyətlə alınması da sözügedən münasibətdə əhəmiyyətli yer tutur.

Qeyd olunan milli proseslər həm də şəxsiyyət ölçüləri baxımından özünün müvafiq inikasını tapır.

Hər bir şəxsiyyətin sosiotipik davranışında onun mənsub olduğu etnik birlik üçün ümumilikdə səciyyəvi olan nümunələr əsas yeri tutur. Onları fərd özünün sosiallaşma prosesində tədricən və şüurlu surətdə mənimsəyir. Bununla yanaşı şəxsiyyətin

fəaliyyəti və davranışına təsir edən elə amillər də vardır ki, onların təsiri dərk olunmur və nəzarətə alınmır. Buna misal olaraq etniki stereotipləri göstərmək olar. Sosiallaşmanın konkret mexanizmləri olan təqlidetmə və identifikasiya (özünü başqasının yerində hiss etmə) vasitəsilə mənimsənilən bu nümunələr, subyekti onu məhz bu birliyin nümayəndəsi kimi səciyyələndirən davranış xüsusiyyətlərini müəyyənləşdirir. Şəxsiyyət daxil olduğu milli birliyin digər üzvləri ilə münasibətlərini başlıca olaraq bu nümunələr əsasında qurur. Bu onu sübut edir ki, şəxsiyyət və onun mənsub olduğu milli-etnik birlik forması bir-birilə ayrılmaz əlaqədə olan bütöv bir tam kimi çıxış edir .

Sözügedən etniki stereotiplərə misal olaraq alman millətinin pedantlığını və dəqiqliyini, italyanların tez qızışan xarakterini, Azərbaycanlıların yumşaq həlim təbiətini, qonaqpərvərliyini və s. göstərmək olar.

Şəxsiyyətin milli-etnik əlamətlərinin özünəməxsusluğu, onun mənsub olduğu xalqın spesifik həyat tərzinə və mədəniyyətinə malik olması ilə şərtlənir. Sonuncu göstəricilər üzrə müxtəlif millətlər və xalqlar arasında özünəməxsusluqların nə qədər rəngarəng olduğunu XX əsrin görkəmli rus filosofu Y.A.İlinin aşağıdakı fikrindən də görmək olar:

«Hər bir xalq özünəməxsus şəkildə nikaha daxil olur, doğur, xəstələnir və ölür; özünəməxsus şəkildə əməkdə çalışır, tənbəllik göstərir, təsərrüfatçılıq aparır və istirahət edir. Özünəməxsus şəkildə kədərlənir, ağlayır və bədbinliyə qapılır, özünəməxsus şəkildə təbəssümə malik olur, gülür və şənlənir, özünəməxsus şəkildə yeriyir və rəqs edir, özünəməxsus şəkildə şairlik edir və musiqi bəstələyir, özünəməxsus şəkildə danışır, deklamasiya söyləyir və natiqlik edir; özünəməxsus şəkildə müşahidə edir və

rəssamlıq nümunələri yaradır; özünəməxsus şəkildə tədqiq edir, dərk edir, mühakimə yürüdür və sübut edir, özünəməxsus şəkildə dilənir, xeyriyyəçilik ilə məşğul olur və qonaq qəbul edir, özünəməxsus şəkildə ibadət edir, qəhrəmanlıq göstərir və döyüşür. Hər bir xalqın özünün hüquq və ədalət hissi, xarakteri, intizamı, mənəvi idealı, siyasi arzusu və dövlət instikti vardır. Bir sözlə, hər bir xalqı başqalarından fərqlənən öz daxili dünyası və mənəvi-yaradıcı potensialı vardır (136, s.324).

Vaxtilə İ.Kant qərbi avropalıların bəzi spesifik etnik xüsusiyyətlərə malik olduğunu açıb göstərmişdir. Məsələn, fransızların milli xarakterini təsvir edərkən o, bu xalqın nəzakətlilik, həyatilik və azadlığı sevmək kimi əlamətlərini xüsusi qeyd edirdi. İngilislər isə, onun fikrincə, başqa cəhətlərinə görə seçilir: onlar inadkardır, qeyri-ünsiyyətçildir, öz ləyaqətini qoruyandır ki, bu da çox vaxt başqalarına münasibətdə biganəliklə müşayiət olunur. «İngilis öz həmyerlisi üçün çox geniş miqyaslı xeyriyyəçilik tədbirləri görür ki, bu başqa heç bir xalqda yoxdur. Amma taleyin ucbatından İngiltərə şəratinıə düşmüş başqa ölkənin vətəndaşı böyük ehtiyaca düçar olduqda, o zibillikdə və peyin ambarında ölə bilər, çünki o ingilis olmadığından heç kim onu insan hesab etmir» (147, s.567).

Bununla əlaqədar Azərbaycan xalqının milli xarakterində aşağıdakı özünəməxsus keyfiyyətləri seçib ayırmaq olar: qocalara, qadınlara və uşaqlara hörmət, qonşularla dinc şəraitdə yaşamaq istəyi; dərin qonaqpərvərlik hissi; başqasının halına acımaq və ona qayğı göstərmək; vətənə və elə bağlılıq hissinin möhkəm olması; həyatın diktə etdiyi mümkün variantlarda iki ifrat həddən hər hansı birinə meyil göstərmək və sair.

Erməni millətinin xarakteri isə başqasını aldatmaq, biclik işlətmək, böyük imperiya yaratmaq xülyasını həyata keçirmək naminə qonşuların torpaqlarına ərazi iddiaları və sair mənfi əlamətlər ilə səciyyəvidir. Erməni xislətini, onun iç üzünü uydurma Qarabağ problemi və Ermənistan tərəfindən ölkəmizin beşdə birinin işğal edilməsi və bir milyondan artıq Azərbaycanlının öz dədə-baba torpaqlarından qovularaq, qaçqın və məcburi köçkün vəziyyətinə salınması faktı əyani şəkildə əks etdirir.

Xalqın həyat fəaliyyətinin bütün tərəflərində təzahür edən bu fərqlilik özünün müvafiq, təmərküzləşmiş ifadəsini onun nümayəndəsi olan şəxsiyyətdə də tapır. Bu isə o deməkdir ki, şəxsiyyətin milli-etnik səpkisi çox mühümdür və onu nəzərə almaq son dərəcə vacibdir. Müxtəlif millətləri təmsil edən şəxsiyyətlər arasında həyat tərzinin bütün təzahürləri üzrə müəyyən spesifiklik və başqalarından fərqli cəhətlər vardır.

Əlbəttə, hər bir şəxsiyyətin davranışının, onun mənsub olduğu etnik birlik forması üçün xas olan ümumi cəhətlər ilə vəhdətdə olduğu fikrini bəsit anlamaq doğru olmazdı. Belə ki, real həyatda şəxsiyyətin davranışında milli etnik nümunələrdən və etalonlardan kənara çıxma halları da özünü göstərir. Məsələn, ümumilikdə Azərbaycan milləti üçün qadına, yaşlılarla və körpə uşaqlara hörmətlə yanaşmaq, onlara nəqliyyatda yer göstərmək səciyyəvidir. Lakin bu hələ o demək deyildir ki, millətimizin bütün nümayəndələri onlara tam əməl edirlər. Hələ də avtobusda və metroda onları görməməzliyə vuran və yerini güzəştə getməyən şəxslərə rast gəlmək olur.

Bununla əlaqədar olaraq milli etnik xarakter anlayışına diqqət yetirmək tələb olunur. Doğrudur bu anlayışın sosial fəlsəfi mahiyyəti hələ çox zəif araşdırılmışdır. Buna baxmayaraq sosial

xarakteri açan tədqiqatlardan istifadə etməklə onun bəzi məqamlarını araşdırmaq mümkündür. Belə tədqiqatlara misal olaraq E.Fromun apardığı təhlilləri göstərmək olar. O belə bir mühüm Nəticəyə cəlmişdi: «Müxtəlif cəmiyyətlərin, habelə bir cəmiyyətin daxilindəki siniflərin öz xüsusi sosial xarakteri vardır». Əgər sosial xarakterə onun sosial prosesdə oynadığı funksiyalar baxımından nəzər salsaq, onda görərik ki, sosial şəraitə uyğunlaşaraq, insan özündə elə cəhətləri inkişaf etdirir ki, onlar həmin şəxsi onun etməli olduğu hərəkətləri, onun öz arzusuna çevirməyə məcbur edir. Əgər sosial xarakter fərdin cəmiyyətdə həll etməli olduğu obyektiv vəzifələrə uyğunlaşmışdırsa, onda insanın enercisi həmin cəmiyyətin mövcudluğu üçün zəruri olan məhsuldar qüvvəyə çevrilməsi yoluna istiqamətlənir (270, s.49-51).

Bu müddəanı müəyyən özünəməxsusluqları nəzərə almaqla, milli xarakterə də aid etmək olar. Başqa sözlə deyilsə, şəxsiyyətin fəaliyyəti mənsub olduğu millətin və ya etnik birliyin həyata keçirdiyi obyektiv vəzifələrə müvafiq gəlirsə, onda onun fəaliyyəti həmin prosesi sürətləndirən güclü amilə çevrilir. Əks təqdirdə şəxsiyyət sosial-milli proseslərə etinasız münasibət bəsləyir. Fikrimizcə, A.Asmolov haqlı olaraq qeyd edirdi ki, «həm etniki xarakter həm də sosial xarakter şəxsiyyətin sosiotipik davranışında, yəni şəxsiyyətin sosial birlik ilə qovuşmuş davranışında təzahür edən funksional rol keyfiyyətlərini ifadə edir» (69, s.302).

Şəxsiyyətin etniki stereotipləri aşağıdakı iki mühüm keyfiyyəti ilə səciyyələnir: a) onlar müəyyən sosial birliyin fərdiliyini ifadə edən problemlərin həllinin qeyri-refleksiv fərdi üsulları kimi özünü göstərə bilir; b) bu stereotiplər həmin qrupdan olan şəxsiyyət üçün

onun funksional rol keyfiyyəti, sosiotipik səciyyə kimi çıxış edir (286, s. 128).

Deyilənlər etniki stereotiplərin şəxsiyyətin davranışında çox mühüm yer tutması ilə yanaşı, onların xeyli dərəcədə mürəkkəb, çevik və incə təbiətə malik olduğunu sübut edir. Buradan aydın olur ki, müasir cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrində (çoxmillətli kollektivlərdə atmosferin optimallaşdırılmasında, məktəblərdə təlim və tərbiyənin təşkilində, planlaşdırma və memarlıqda, hətta təbii resursların bölünməsində) şəxsiyyətin etnotipik xüsusiyyətlərini nəzərə almaq son dərəcə vacibdir.

Şəxsiyyəti milli-etnik münasibətlər prizmasında araşdırarkən aşağıdakı metodoloji məqam da daim nəzərdə tutulmalıdır. İnsanın etnik və milli keyfiyyəti onun zahiri tərəfinə deyil, daxili mahiyyət xarakteristikasına aiddir. Bununla birlikdə özü-özlüyündə götürülən insan fərdiliyi, onun ümumi təbiəti və mahiyyəti hər hansı etnik və ya milli spesitikliyə malik deyildir. Lakin nə qədər ki, hər bir etnik və milli mədəniyyət özgürlüyə və özəlliyə malikdir, deməli, fərdiliyin bu ümumi mahiyyəti, öz real mövcudluğunda müvafiq spesifikliklə çıxış edir. Buradan aydındır ki, fərdiyyətin və fərdiləşmə prosesinin etnik və milli özünəməxsusluğu onun məzmunundan daha çox formasına aid olur. Həm də nəzərdə tutulmalıdır ki, özünəməxsusluq millətdaxili və etnik qrupdaxili münasibətlərdən daha çox etnik qruplararası və millətlərarası münasibətlərdə özünü göstərir (192, s.11-12).

Sosial-fəlsəfi ədəbiyyatda belə bir fikir geniş yayılmışdır ki, əvvəlcə etnos, sonra isə millət (bir neçə etnosun birləşməsi nəticəsində) yaranmışdır. Deməli, buna müvafiq olaraq şəxsiyyət də əvvəlcə etnik xarakter kəsb edir, sonra isə milli səviyyəyə yüksəlir.

Əgər bu və ya digər milli mədəniyyətə nisbi qapalı qurum kimi yanaşsaq, onun daxilində fərdin individuallığı, digər bütün mədəniyyətdəki mahiyyət xassələrinə malik olduğu aşkara çıxır. Əgər milli mədəniyyət şəxsi asılılıq münasibətləri üzərində qurulursa, onda individuallığın introvertləşmiş tipi üstünlük təşkil edəcəkdir. Milli mədəniyyətin əşya asılılığına malik olduğu halda isə burada individuallığın ekstravertirə olunmuş tipi əsas yer tutur.

Nəzərdə tutulmalıdır ki, milli mədəniyyətlər qapalı xarakter daşımır, onlar daim bir-birilə qarşılıqlı təsirdə və ünsiyyətdə çıxış edirlər. Şəxsiyyətin individuallığının milli çaları da məhz müxtəlif millətlərin nümayəndələrinin bu ünsiyyətində aşkara çıxır. Hər bir millət özünün adətlərini, mərasimlərini, ənənələrini, davranış stereotiplərini, etiketini işləyib hazırlayır və onları müəyyən işarələr vasitəsilə ifadə edir. Sosiallaşma prosesində onları mənimsəyən fərd bu mənimsəmənin hüdudları daxilində həm də onların unikallığına və təkrar olunmazlığına, bu və ya digər xüsusiyyətlərin təzahüründə özəlliyə yiyələnə bilir, başqa sözlə deyilsə, həmin şəxs sosiallaşma gedişində individual subyektə çevrilir. Bu prosesə aşağıdakı məqam da sürətləndirici təsir göstərir: hər bir etnik birlik forması, onun nümayəndələri olan şəxsiyyətlərin həyat fəaliyyətini nə qədər sərt şəkildə reqlamentləşdirsə və ümumi stereotiplərin reallaşdırılmasına yönəltsə belə, bu məsələdə şəxsiyyətin azad seçimi, variasiyaları üçün müəyyən yer qalır. Bu onunla izah edilir ki, şəxsiyyətin fəaliyyəti mexaniki qurğu və ya sxem deyildir, buna görə də onu kənardan tam proqramlaşdırmaq qeyri-mümkündür. Digər tərəfdən etnik, milli normativlər və stereotiplər yalnız ümumi davranış sxemini və modelini müəyyənləşdirir. Onlarda konkret təfərrüatlar, təsadüflər, real situasiyalar nəzərə alınmır. Bu fakt da

şəxsiyyətin öz davranışında ümumi etnik çərçivədən kənara çıxma hallarını asanlaşdırır. Ümumilikdə götürdükdə bir daha qeyd olunmalıdır ki, şəxsiyyətin davranışı bütövlükdə onun mənsub olduğu etnik birliyin ümumi qəbul olunmuş nümunələrinə uyğun gəlir.

Belə bir cəhətə də diqqət yetirilməlidir ki, müxtəlif millətlərin nümayəndələrinin ünsiyyəti prosesində onların adətləri və davranış standartlarının fərqliliyi aydın surətdə özünü göstərir. Odur ki, əgər şəxsiyyət yalnız öz millətinin bu qəbildən olan göstəricilərini qiymətləndirir, digər millətlərinkinə məhəl qoymursa, onda həmin şəxsiyyət digər millətin mədəniyyətinə və onun üzvlərinin daxili dünyasına nüfuz edə bilmir. Buna görə də milli mədəniyyətlərin qarşılıqlı təsiri prosesində şəxsiyyətin individuallığı səviyyəsi, onun digər milli mədəniyyətlər ilə tanışlıq dərəcəsindən çox asılı olur. Bu tanışlıq gedişində şəxsiyyət özünü həmin milli-etnik birliyin mədəni nailiyyətləri ilə zənginləşdirir və bir növ onun nümayəndəsinə çevrilir.

Bununla əlaqədar qeyd edək ki, 70 ildən artıq davam etmiş Sovet rejimi dövründə millətlərə və xalqlara vahid iqtisadi münasibətlər, vahid kommunist ideologiyası və ümumi sosialist həyat tərzi təlqin edilirdi. Bu şəraitdə hər cür etnik və milli xüsusiyyətlər yalnız formaya aid edilir və göstərilirdi ki, «sosialist məzmunu» bütün millət və xalqların nümayəndələrində eynidir. Beləliklə də totalitar dövlət, milli spesifikliyi və özünəməxsusluqları faktiki olaraq heçə endirir və hamını vahid və şəxssiz «sovet xalqına» çevirirdi. Buna baxmayaraq, sovet recimi insanların etnik və milli keyfiyyətlərini, burada təzahür edən özünəməxsusluqları tamamilə ləğv edə bilmədi. Bu onunla izah edilir ki, insanların əsrlər boyu formalaşdırdığı və qoruyub

saxladığı milli ənənələr və davranış normaları güclü nisbi müstəqilliyə malikdir. Onlar şüurlarda və şüuraltı qatlarda özünə möhkəm yet tutur və uzun müddət yaşayır. Buna görə də sovet həyat tərzi və kommunist ideologiyası əhalinin etnik və milli özünəməxsus çalarlarını sıxışdırıb çıxara bilmədi. Onlar şüurun dərinliklərinə, ənənələrə və məişət sferasına sıxışdırılsalar da, orada öz həyatını qoruyub saxlaya bildi.

Bununla əlaqədar qeyd edək ki, bazar münasibətləri şəraitində şəxsiyyətin milli-etnik keyfiyyətləri tamamilə başqa formada çıxış edir. Məsələ bundadır ki, əşya asılılığı münasibətləri sistemində, yəni bazar münasibətlərinin hökm sürdüyü şəraitdə şəxsiyyətin etnik, milli və konfesional əlamətlərinə o qədər də məhəl qoyulmur. Belə ki, mübadilədə iştirak edən subyektlərin apardığı əmtəə-pul əməliyyatları bu göstəricilərə demək olar ki, biganədirlər, onları yalnız əlverişli sövdə, çoxlu qazanc və gəlir maraqlandırır. Çünki insanlar arasındakı əşya asılılığı münasibətləri fərdlərin necə deyərlər, «atomlaşmasına», yəni insanlar arasındakı münasibətlərin məzmununun parçalanmasına əsaslanır. Bu halda ictimai bütövlük də öz adekvat mənasını – üzvü bütövlüyünü itirərək mexaniki tipli tam şəkli alır. Başqa sözlə deyilsə, bazarın qeyri-şəxsi mexanizimləri şəxsiyyətin etnik və milli spesifikliyini arxa plana sıxışdırır.

Şəxsiyyətin etnik və milli xüsusiyyətlərinə güclü dağıdıcı təsir göstərən amillərdən biri də kütləvi mədəniyyətin geniş yayılmasıdır. Buna görə də dünyada qərarlaşmış olan müasir şəraitdə mütərəqqi qüvvələr və bütövlükdə bəşəriyyət insanı səxssizləşdirən meyillərə qarşı daha qətiyyətlə mübarizə aparmalıdır.

Müasir dövrdə şəxsiyyəti milli münasibətlər kontekstində təhlil edərkən, aşağıdakı məqamları da nəzərə almaq vacibdir. Hər

şeydən əvvəl, Azərbaycan kimi çoxmillətli ölkədə müxtəlif millətlərin və etnik qrupların mənafeyini və cəmiyyətdə təsirini müdafiə edən və həyata keçirən müəyyən ünsürlər və qüvvələr (milli-mədəni mərkəzlər, xeyriyyə cəmiyyətləri, qarşılıqlı yardım təşkilatları və sair) vardır. Onların müvafiq surətdə həmirn qurumlara daxil olan insanların müasir reallığın ab-havasına uyğun şəxsiyyət kimi formalaşmasında rolu böyükdür.

Şəxsiyyətin milli tipinin (sözün nisbi mənasında) yetişməsinin digər bir mühüm amili budur ki, hər bir millətin və yaxud etnik qrupun öz ümummədəni, hüquqi, siyasi, sosial-iqtisadi, və məişət həyat konteksti mövcüddür. O eynilə də digər milli-etnik birliklər ilə, birinci növbədə ərazi etibarilə ona yaxın olan və qonşuluqda yaşayan təşkilatlar və işgüzar dairələrlə uzun illər ərzində formalaşmış qarşılıqlı münasibətlər və qarşılıqlı təsir formaları sisteminə malikdir.

Ölkədə milli-etnik münasibətlərin hüquqi əsaslarının səviyyəsi də şəxsiyyətin milli göstəricilərinin inkişafında çox mühüm əhəmiyyətə malikdir. Bu əsaslar birinci növbədə Konstitusiyada və digər normativ aktlarda təsbit olunur. Bu mənada Azərbaycanın indiki Konstitusiyasındakı bir sıra maddələr diqqəti cəlb edir. Əsas Qanunun 44-cü maddəsində deyilir: «Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz». Konstitusiyanın 25-ci maddəsində isə göstərilir ki, «dövlət, milliyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını milli mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır» (Azərbaycan Respublikasının Konsitutiyası: Bakı, Azər nəşr, 2003).

Bütövlükdə Konstitusiya sözügedən münasibətdə çox vacib olan aşağıdakı məsələləri tənzimləyir: 1) bu və ya digər millətin (millətlərin) ümumidövlət orqanlarının formalaşmasında rolunu və statusunu müəyyənləşdirir. 2) əhalinin böyük əksəriyyətini təşkil edən yerli millətin (xalqın) hüquqlarını əks etdirir. 3) azlıqda qalan xalqların hüquq və azadlıqlarına təminat verir.

Bu üç qrupa daxil olan normalar insanın və şəxsiyyətin beynəlxalq hüquq səviyyəsində müəyyənləşdirilmiş göstəriciləri ilə uyğunlaşdırılır. Onlar həm də ölkənin milli tərkibinin xüsusiyyətlərini, tarixən qərarlaşmış özünəməxsusluqlarını, millətlərarası münasibətlərin real səviyyəsini, əhalinin sosial strukturunun milli-etnik bölgüsü səpgisini və s. nəzərə alır. Qeyd olunan məsələlərin həll olunması səviyyəsini əks etdirən göstəricilər, həm də onların ünvanlandığı hər bir insanın və şəxsiyyətin milli baxımdan yetkinlik səviyyəsinə güclü təsir edir.

Hüquqi aktlar həm də dövlətin icraedici, qanunverici və məhkəmə hakimiyyəti orqanlarında milli-etnik tərəflərin düzgün nisbətlərdə təmsil olunması işini tənzimləyir. Bundan əlavə, cəmiyyətin həyat fəaliyyətinin digər sahələrində – sosial-peşə məşğuliyyətində, ixtisas qruplarının formalaşmasında bütün milli qurumların təmsil olunmasına xüsusi əhəmiyyət verir.

Şəxsiyyətin formalaşması və inkişafında milli etnik səpkinin artmaqda olan rolu, onun milli mənlik şüurunun yüksəlişində özünün ən təmərküzləşmiş ifadəsini tapır.

Milli müstəqillik dövrünün tarixi təcrübəsi inandırıcı surətdə sübut edir ki, cəmiyyətdə baş verən əsaslı yeniləşmələr yalnız o vaxt öz adekvat mənasını kəsb edir ki, ölkə əhalisini təşkil edən millətlərin və xalqların nümayəndələri həmin proseslərdə şüurlu surətdə və bilavasitə iştirak edirlər. Başqa sözlə deyilsə, ictimai

həyatın bütün sferalarında gedən transformasiya prosesləri onların, müvafiq surətdə milli şüurda və psixologiyada da əks olunmasını tələb edir. Qeyd olunan münasibətdə milli şüurun yüksək pilləsini təşkil edən milli mənlik şüuru (milli özünüdərk) xüsusilə mühüm əhəmiyyətə malikdir. Söhbət milləti təmsil edən insanların öz millətinin həqiqi varlığını hərtərəfli və dərindən anlamasından gedir.

İnzibati-amirlik idarəetmə sisteminə əsaslanan totalitar cəmiyyətdə şəxsiyyətin bütövlükdə mənlik şüuru kimi, onun milli forması da məhdudlaşdırılır və təzyiqlərə məruz qalırdı. İmperiyanın başında oturan dairələr belə hesab edirdilər ki, SSRİ ərazisində məskunlaşmış bütün millətlərin və xalqların nümayəndələri yuxarıdan gələn göstəriş və əmrlərin avtomatik icraçısı olmalıdırlar. Milli mənlik şüuru etnik sferada bu qəbildən olan stereotiplərin qərarlaşdırılmasında əsas maneələrdən biri kimi qələmə verilir və buna görə də onun inkişafı hər vəchlə sıxışdırılırdı. Digər postsovet respublikalarında olduğu kimi Azərbaycanda da şəxsiyyətin milli mənlik şüurununun formalaşması və inkişafı müstəqillik əldə edildikdən sonra yeni sosial zəmin üzərində baş verdi. Əlbəttə, bu fakt əvvəlki dövrlərdə həmin sahədə əldə edilmiş ənənələrin və formaların rolunu heçə endirmir. Söhbət ondan gedir ki, xalqımızın XX əsrin sonlarından etibarən bu sahədə qazandığı təcrübə milli müstəqillik əldə edildikdən sonra daha da inkişaf edərək, zənginləşdi, prinsipcə yeni miqyaslar kəsb etdi.

Əvvəlcə onu qeyd edək ki, şəxsiyyətin milli mənlik şüuru dedikdə onun mənsub olduğu millətin müasir varldığını dərk etməsi, tarixi ənənələrini anlaması və dünya xalqları sistemində

gələcək perspektivlərini adekvat mənalandırmaq məharəti başa düşülür.

Nəzərdə tutulmalıdır ki, mövcud fəlsəfi-sosioloji ədəbiyyatda şəxsiyyətin milli mənlik şüuru yenicə işlənməyə başlamışdır. Buna görə də onun mahiyyəti və məzmunu haqqında dəqiq müəyyən olunmuş fikir demək olar ki, formalaşmamışdır. Bu istiqamətdə müəyyən axtarışlar aparılsa və onların nəticəsində bəzi naliyyətlər qazanılsa da, diskussiya və mübahisələr də davam etməkdədir. Bununla əlaqədar göstərilməlidir ki, şəxsiyyətin milli mənlik şüuru çox geniş məzmuna və mürəkkəb daxili struktura malik xüsusi mənəvi hadisədir. Onu təhlil edərkən bu məqam mütləq nəzərə alınmalı və göstərilməlidir ki, onun mahiyyətini milli göstəricilərin empirik məcmusuna müncər etmək doğru olmazdı. Eynilə də digər ifrat hədd, yəni şəxsiyyətin milli mənlik şüurunu milli varlığın mücərrəd və ümumnəzəri sxematik səviyyədə əks olunması kimi mənalandırmaq yolverilməzdir. Ona elmi yanaşmaq bu fenomeni şəxsiyyətin milli həyatın inkişaf qanunauyğunluqları haqqında nəzəri biliklərinin, təcrübəsinin və gündəlik həyatda əldə etdiyi adi milli-psixoloji keyfiyyətlərin və təsəvvürlərin üzvü sintezi kimi nəzərdən keçirməyi tələb edir.

Şəxsiyyətin milli mənlik şüuru bir çox amillər sisteminin birgə təsiri altında formalaşır. Onların sırasında şəxsiyyətin öz fərdi keyfiyyətləri, peşə fəaliyyəti, təhsil və şüurluluq səviyyəsi, fəallıq dərəcəsi ilə yanaşı, onun mənsub olduğu millətin inkişaf xüsusiyyətləri, onun həyatı, ənənələri, mədəniyyəti çox mühüm yer tutur.

Şəxsiyyətin milli mənlik şüuru mürəkkəb və çoxstrukturlu təsisatdır. Onun məzmununda şəxsiyyətin elementar milli hissləri və əhval-ruhiyyəsi, emosional-psixoloji səviyyəsi öz millətinin

həqiqi varlığını, onun milli münasibətlər sistemində və bütövlükdə cəmiyyətdə yerini, milli ləyaqətini adekvat mənalandırmasını ifadə edən nəzəri biliklər, onun mənəvi əsaslarını açan baxışlar üzvi vəhdət halında birləşir. Bu mənada milli mənlik şüurunu millətin öz sosial təcrübəsini, malik olduğu bütün milli xüsusiyyətləri ilə birlikdə dərk etməsi kimi səciyyələndirən müəlliflərlə razılaşmaq olar (179, s.25).

Şəxsiyyətin milli mənlik şüuru onun həyat fəaliyyətinin yüksək səviyyəli şüurlu tənzimləyicisi olmaqla, bu fəaliyyətin bütün sahələrində daim artmaqda olan rol oynayır. Belə ki, bu fenomen şəxsiyyət tərəfindən onun mənsub olduğu millətin spesifik milli mənafelərinin və maraqlarının nə dərəcədə dərk olunduğunu, öz dünyagörüşündə, dəyərlər sistemində və real davranışında onlara nə dərəcədə əməl etdiyinin çox mühüm göstəricisidir. Bu göstəricidə şəxsiyyətin öz şəxsi varlığı ilə milli varlığı arasında qarşılıqlı münasibətlərin anlaşılması səviyyəsi və buna uyğun formalaşan həyat mövqeyi özünün ən təmərküzləşmiş ifadəsini tapır. O, bütövlükdə şəxsiyyətin mənəvi dünyasının təkmilləşmə səviyyəsini ifadə edir, millətin mütəşəkkilliyinin və birliyinin artmasına və ümumilikdə öz potensialını dolğun şəkildə reallaşdırılmasına güclü müsbət təsir göstərir.

Mövcud sosial praktika və tarixi təcrübə sübut edir ki, ictimai inkişafın dönüş məqamlarında ayrı-ayrı şəxslər çox vaxt konkret şəraitin təsiri altında öz yaxın mənafelərini həyata keçirməyə üstünlük verirlər. Bu prosesdə onlar bəzən hisslərin, emosiya və ehtirasların diktəsi altında hərəkət edirlər. Bu vəziyyət şəxsiyyətdə dəqiq müəyyən olunmuş milli mənlik şüurunun olmamasından, özünün, milləti ilə olan münasibətlərini, habelə bu millətin sosial münasibətlər ilə əlaqələrini sadəlövhlüklə qavramasından irəli gəlir

və bəzən mənfi, arzuolunmaz nəticələrə gətirib çıxarır. Bu, təkcə konkret şəxsiyyətin deyil, həm də belə şəxsiyyətlərin məcmusu olan millətin konkret vəziyyətdə davranışına mənfi təsir edir, onun gücünü və enerjisini yaradıcı istiqamətə deyil, dağıdıcılıqa yönəldə bilir. Məsələn, 90-cı illərin əvvələrində Azərbaycanda analoji vəziyyət qərarlaşmışdı və bütövlükdə ictimai həyatda sabitsizlik hökm sürürdü. Ayrı-ayrı liderlər öz populist şüarları ilə millətin rəğbətini qazanmağa çalışır və onun nəhəng enerjisindən öz şəxsi ambisiyalarını reallaşdırmaq üçün istifadə etməyə cəhd göstərirdilər.

Sözügedən faktın təhlili bir daha sübut edir ki, fərdlər öz millətinin əsl mahiyyətini, onun həqiqi varlığını, sosiumda yerini və ləyaqətini yalnız öz milli mənlik şüurunun inkişafı sayəsində adekvat dərk edə bilərlər. Odur ki, bu keyfiyyət onların tarixi prosesin əsl şüurlu subyekti kimi fəaliyyətini təmin edən amillər sistemində müstəsna dərəcədə böyük rol oynayır.

Şəxsiyyətin milli mənlik şüuru onun mənsub olduğu millətin tarixi ənənələrindən və milli mədəniyyətindən ayrılmazdır. Bu mənada göstərilməlidir ki, Azərbaycan xalqının qədim və zəngin tarixi, orijinal mədəni irsi onun nümayəndələri olan şəxsiyyətlərin milli mənlik şüurunun özülü rolunu oynayır. Həmin özül müstəqillik illərində milli inkişaf baxımından əldə edilmiş misilsiz imkanlar sayəsində daha da təkmilləşir. Xalqımız özünün çoxəsrlik tarixi boyu humanist, etnik və dini tolerantlıq, əsl bəy xisləti ilə səciyyələnmişdir. Onun özgür mədəniyyəti vardır və həssaslıq, optimizm, torpağa və vətənə bağlılıq kimi keyfiyyətlərə malikdir.

Şəxsiyyətin milli mənlik şüuru onun dünyagörüşü səviyyəsi, dəyərlər sistemi və oriyentasiyaları ilə sıx bağlıdır. Bu baxımdan

göstərilməlidir ki, elmi-fəlsəfi dünyagörüşə malik olan şəxsiyyət dünyanı, təbiəti və cəmiyyətdə gedən prosesləri düzgün dərk edə və onların fonunda öz millətinin varlığını adekvat mənalandıra bilir. Onun milli mənlik şüuru elmə əsaslanır, özündə mədənilik, dinamiklik və tənqidi yanaşma kimi müsbət xassələri əhatə edir. Sonra, burada həqiqət, ədalət, xeyirxahlıq, gözəllik, humanizm kimi ümumbəşəri dəyərlər (konkret milli reallıq prizmasından əks olunmaqla) mühüm yer tutur.

Akademik Ramiz Mehdiyev yazır: «***Hər bir xalq və millət üçün müstəqillik əvəzedilməz nemətdir. Xalqların öz taleyini müstəqil şəkildə müəyyən etməsi, suveren dövlət halında təşkilatlanması onun milli potensialının, maddi və mənəvi resurslarının tam gücü ilə üzə çıxarılmasına imkan yaradır, iqtisadi, siyasi, intellektual, mədəni qüvvələrinin maneəsiz inkişafına təkan verir, xalqın və millətin nəyə qadir olduğunu nümayiş etdirir. Xalqın müstəqil dövlət halında yaşamaq qabiliyyəti, milli təsisatların inkişafı, dünya birliyində müstəqil dövlətin yeri bu halda bütün əyaniliyi ilə üzə çıxır. Müstəqillik vətənpərvərlik ideyalarının və duyğularının güclənməsinə imkan yaratmaqla yanaşı, həm də bunları ciddi sınağa çəkir, milli və ümumbəşəri dəyərlərin daha düzgün və dolğun uyğunlaşdırılmasını təmin edir***» *(Mehdiyev R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. I cild, Bakı, XXI – Yeni nəşrlər evi, 2006, s. 584-585).*

Müasir şəraitdə Azərbaycanda şəxsiyyətin milli mənlik şüurunun formalaşması prosesində ölkəmizdə həyata keçirilməkdə olan əsaslı siyasi, iqtisadi, sosial və mədəni islahatların milli inkişaf baxımından pozitiv mənalandırılması mühüm yer tutur. Şəxsiyyət öz təcrübəsi, biliyi və müşahidəsi sayəsində müəyyən edir ki, açıq cəmiyyətin formalaşması vəzifələrinin həlli gedişində

ölkədə milli münasibətlər sahəsində totalitar recimdən miras qalmış bir çox problemlər tədricən aradan qaldırılır, milli inkişafa və millətlərarası münasibətlərdə əməkdaşlığın möhkəmlənməsinə real şərait yaranır. Qısa müddət ərzində siyasi, iqtisadi, sosial və mənəvi sferalarda baş verən əsaslı dəyişikliklər, demokratiyanın genişlənməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu yolunda atılan addımlar, ölkədə siyasi sabitliyin möhkəmləndirilməsi, habelə xarici siyasət sahəsində qazanılan uğurlar, müstəqil Azərbaycanın dünya birliyi ölkələri ilə daim artan əlaqələri, hər bir insanda bu millətə mənsub olmasına görə yüksək qürur hissi və fəxarət yaradır ki, bütün bunlar onun milli mənlik şüurunu yeni məzmunla zənginləşdirir. Müasir şəxsiyyətin sərəncamında olan misilsiz elmi-texniki imkanlar, mükəmməl informasiya vasitələrinin geniş şəbəkəsi bu işdə ona yaxından kömək edir.

Şəxsiyyətin yüksək milli mənlik şüurunun formalaşmasına təsir göstərən amilləri araşdırarkən, ölkədə düzgün milli siyasət yeridilməsini xüsusi qeyd etməmək olmaz. Bununla əlaqədar deyək ki, müstəqillik dövründə milli münasibətlər sferasında ədalətin bərqərar olması və demokratikləşmənin genişləndirilməsi kimi strateci istiqamətlərin reallaşdırılması xüsusi əhəmiyyətə malikdir. Bu dövrdə həyata keçirilən milli siyasət ölkəmizdə məskunlaşmış millətlər və etnik birliklər arasında dostluq və əməkdaşlıq münasibətləri yaratmaqa yönəlir. Həmin siyasətin ayrılmaz tərkib hissəsini azlıqda qalan etnik birlik formalarının dilinə, mədəniyyətinə və tarixi ənənələrinə qayğı və diqqətlə yanaşılması təşkil edir.

Milli mənlik şüuru millətin özünüdərk etməsi, onu əhatə edən mədəni, sosial-siyasi və iqtisadi mühiti adekvat mənalandırması

deməkdir. Şəxsiyyət məhz milli mənlik şüuru vasitəsilə özünün millətinə və vətəninə bağlılığını ifadə edən hissləri və ideyaları öz daxili dünyasına və öz «Mən»inə çevirir. Qeyd olunan vəziyyətin əsasında aşağıdakı məqam durur: hər bir şəxsiyyət fəal sosial mövcudat kimi öz millətinin həyatına biganə deyildir. O özünün dünyagörüşü və real bilikləri, təcrübəsi səviyyəsindən çıxış edərək milli həyatda baş verənləri təhlil edir, mənalandırır və onları qiymətləndirir. Bütün bunlar onun davranış və fəaliyyətinə, qarşıya qoyduğu məqsədlərin və proqramın həyata keçirilməsinə güclü təsir göstərir, onu millətin taleyi ilə bağlı məsələlərin həllinə fəal müdaxilə etməyə sövq edir. Sözügedən vəziyyətdə şəxsiyyətin milli kontekstdə emosional-psixoloji fəallığı yüksəlir, onda dərin millilik və vətənpərvərlik keyfiyyətləri sürətlə inkişaf edir, millətinə olan dərin sevgisi onu bu istiqamətdə yeni-yeni addımlar atmağa və lazım gələrsə, qəhrəmanlıq göstərməyə ruhlandırır.

Açıq cəmiyyətə keçid dövründə sözün əsl mənasında milli dirçəliş baş verir, ictimai-siyasi və mədəni həyatda milli səpkinin rolu və əhəmiyyəti genişlənir. Bütün etnik birliklərin öz tarixi keçmişinə nəzər yetirməsi, onu diqqətlə öyrənməsi, öz milli yaddaşını möhkəmləndirməsi prosesləri baş verir. Nəticədə onların malik olduğu spesifik xassə və əlamətlər aşkara çıxarılır, onların qorunub saxlanılmasına qayğı artır, bütün əsas milli atributlar bir növ yeni həyat və nəfəs əldə edirlər. Bütün bunlar isə insanların milli hisslərini və rühünü yüksəldir, milli xarakterə, bütövlükdə milli mənəvi aləminə zənginləşdirici təsir göstərir. Sözügedən yüksək milli mənəvi mühitin qərarlaşması öz növbəsində millətin nümayəndələri olan fərdlərin sosial simasını və təbiətini stimullaşdırır, onlar tərəfindən həyatın bütün atributlarına fəal münasibət bəslənilməsini və onların düzgün qiymətləndirilməsini

təmin edir.

Azərbaycan MEA-nın müxbir üzvü, professor Səlahəddin Xəlilov haqlı olaraq yazır: «*Milli ruhu qorumaq, inkişaf etdirmək və yeni nəsillərə çatdırmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir və bu zaman milli ruh həyat tərzinə çevrilir*» *(Xəlilov S. Fəlsəfə: tarix və müsirlik. Bakı, Azərbaycan Universiteti, 2006, s. 39).*

Deyilənlərdən aydın olur ki, milli mənlik şüuru bu və ya digər şəxsiyyətin öz millətinin əsas xassə və keyfiyyətlərini, milli ləyaqətini dərindən dərk etməkdə və onları bilavasitə öz dünyagörüşü və şüur aktına çevirməkdə böyük rol oynayır. Onun şəxsiyyətin inkişafı baxımından mühüm əhəmiyyəti həm də bunda təzahür edir ki, dərk olunmuş milli zərurət, şəxsiyyəti bu zərurəti reallaşdırmağa yönələn konkret istiqamətlərdə fəaliyyət göstərməyə ruhlandırır. Özünün əsas milli vəzifələrini düzgün başa düşməyən və özünü onları yerinə yetirməyə səfərbər etməyən şəxsiyyət ictimai həyatda tam dolğunluğu ilə fəaliyyət göstərə bilməz. Əlbəttə, söhbət sözün əsl mənasında milli inkişafa yönəlmiş fəaliyyətdən gedir. Bu məqamı xüsusi qeyd etmək ona görə vacibdir ki, bəzən ictimai-siyasi hərəkatların və partiyaların liderləri sözdə millətin mənafeyindən çıxış etdiyini bəyan edir, ona dərin sevgi bəslədiyini və yolunda canından belə keçməyə hazır olduğunu bildirir. Özlərinin real fəaliyyətində isə onlar çox vaxt milli maraq və vəzifələri, ümumilikdə öz milli borclarını unudurlar. Bu halda onlar kütlə psixologiyasının sadəlövhlüyündən və kütləvi şüurun aşağı səviyyədə olmasından istifadə edərək, milli mənlik şüurunu spekulyasiya obyektinə çevirir, xalqın milli hisslərindən və emosiyalarından ekstremal

situasiyalarda öz eqoist məqsədlərini reallaşdırmaq üçün istiadə edirlər.

Şəxsiyyət milli mənlik şüuru vasitəsilə özünün milli varlığını dərk etdiyi üçün bu amil onun birliyinin və suverenliyinin möhkəmləndirilməsində çox mühüm rol oynayır. Bu, inkişaf etdikcə, həm də millətin bütün üzvlərinin dünyagörüşündə daha möhkəm yer tutur. Nəticədə şəxsiyyət öz milli mənsubiyyəti ilə bağlı məsələləri dərindən anlayır, milli ləyaqətin bütün çalarlarına nüfuz edir.

Milli mənlik şüuru ilə şəxsiyyətin inkişafı ikitərəfli vahid proses kimi çıxış edir. Belə ki, bir tərəfdən şəxsiyyətin inkişafına milli mənlik şüuru güclü təsir göstərir. Bu başlıca olaraq aşağıdakında ifadə olunur: şəxsiyyət özünün milləti ilə və bütövlükdə cəmiyyət ilə çoxtərəfli əlaqələrini milli mənlik şüurunun fəaliyyət mexanizimləri ilə sıx əlaqədə həyata keçirir. Sonra milli mənlik şüuru aid olduğu millətin nümayəndələri olan şəxsiyyətlərin birləşməsində və ümumimilli vəzifələrin yerinə yetirilməsinə səfərbər olunmasında mühüm rol oynayır. Digər tərəfdən isə milli mənlik şüurunun sözügedən və digər funksiyalarının həyata keçirilməsi prosesi, onun intensivlik dərəcəsi konkret şəxsiyyətlərdən, onların ümumi yetkinlik göstəricilərindən, habelə dünyagörüşündən və mədəni inkişaf səviyyəsindən çox asılıdır. Deyilənlərdən aydın olur ki, milli mənlik şüuru və şəxsiyyət ayrılmaz qarşılıqlı təsirdə olmaqla, biri digərini zənginləşdirir və təkmilləşdirir.

Milli mənlik şüuru millətin xarakterini və milli psixologiyasını, habelə digər spesifik xassələrini təmərküzləşmiş şəkildə ifadə etdirdiyi üçün həmin milləti təşkil edən hər bir şəxsiyyətin fəaliyyəti və davranışını vahid sosial istiqamətə

yönəldir, onları qəti şəkildə müəyyənləşdirir və dəqiqləşdirir. Bu proses onların milli borc, milli məsuliyyət, milli iftixar hissi kimi şəxsi keyfiyyətlərinin formalaşmasına sürətləndirici təsir göstərir. Onların inkişafı isə öz növbəsində şəxsiyyətlərarası münasibətlərin normallaşmasında, şəxsiyyət-cəmiyyət əlaqələrinin möhkəmlənməsində, millətin ümumi potensialının vahid istiqamətə yönəldilməsində çox mühüm rol oynayır. Sözügedən vəziyyət tarixi inkişafın dönüş xarakterli məqamlarında daha aydın nəzərə çarpır. İndii cəmiyyətimiz məhz belə bir dövrü yaşadığı üçün burada yuxarıdakı amillərin əhəmiyyəti daha da artır.

Müasir şəraitdə milli mənlik şüurunun inkişafı üçün misli görünməmiş imkanlar açılır. Bunu şərtləndirən amillər sırasında aşağıdakılar xüsusilə mühümdir: milli müstəqilliyin və suverenliyin əldə edilməsi, açıq demokratik cəmiyyətin formalaşması; milli yaddaşın bərpa olunması; Azərbaycan xalqının öz tarixi keçmişi ilə bağlı bütün məsələləri obyektiv və hərtərəfli öyrənməsinə şərait yaranması; milli mədəniyyətin və dilin inkişafına dərindən və hərtərəfli qayğı göstərilməsi və sair. Bütün bunlar və digər səbəblər xalqımızın milli mənlik şüurunun oyanmasına güclü təkan verir, onun özünüdərki prosesini sürətləndirir.

Müstəqil milli dövlətçiliyin həyata keçirildiyi indiki şəraitdə şəxsiyyətin milli mənlik şüuru daha dolğun şəkildə ifadə olunur. Yeni məzmunla zənginləşən və tamamlanan bu anlayış özündə sırf milli səpki ilə yanaşı, həm də bütövlükdə cəmiyyətə və bəşəriyyətə mənsub olmanı ifadə edən cəhətlər əldə edir. Buna görə də şəxsiyyətin milli müəyyənliyi və milli şüuru millinin individuallaşmasının, milli dəyərlərin müxtəlif sferalarda milli ənənələr sisteminin, adətlərin, mərasimlrin və sosial simvolların

şəxsiyyətin mikrostrukturuna necə və nə dərəcədə daxil olmasının göstəricisidir (278, s.16).

Buradan aydın olur ki, insanlarda milli xarakteri və milli psixologiyanı səciyyələndirən keyfiyyətlərin, milli iftixar hissinin – bir sözlə, dəqiq milli müəyyənliyin formalaşdırılması son dərəcə zəruridir. Milli müəyyənliyə, milli mənlik şüuruna malik olan şəxsiyyət öz millətinin və vətənin həqiqi patriotu kimi hərəkət edə bilir. O, millət haqqında bəsit hisslərdən və təsəvvürlərdən azad olur, ümuməhəmiyyət kəsb edən ideyaları əsas götürür, daim öz xalqının qayğısına qalır. Millətin və vətənin adı ilə bağlı olan hər şey belə subyekt üçün müqəddəs sayılır. O, milli həyatın hər cür hadisələrinə və incəliklərinə daxili maraq göstərir, onların həllində fəal iştirak etməyə çalışır. Belə şəxsiyyətin mənəvi dünyası yüksək əxlaqı keyfiyyətlərlə zənginləşir ki, onlar şəxsiyyəti konkret fəaliyyətə təhrik edən qüdrətli amillər rolunu oynayırlar.

Yüksək milli mənlik şüuruna malik şəxsiyyət gündəlik həyatın təsiri ilə formalaşan elementar milli təsəvvürlərdən azad olur, o milli həyatın hadisə və proseslərini dərindən anlaya bilir. Milli mənlik şüurunun şəxsiyyətin inkişafına müsbət təsiri həm də bunda təzahür edir ki, o şəxsiyyət tərəfindən milli münasibətlərin inkişafının dinamizmini, daxili mahiyyətini və qanunauyğunluqlarını, habelə bu proseslərdə özünü göstərən ziddiyyətlərin adekvat mənalandırılmasını təmin edir. Milli mənlik şüuru şəxsiyyətdə milli həyat reallıqlarını düzgün qiymətləndirmək keyfiyyəti, zahiri cəlbedici formalar arxasında gizlənən dərin daxili məzmunu dərk etmək qabiliyyəti aşılayır.

Şəxsiyyətin milli mənlik şüuru, həm də onun digər etnik biliklərin nümayəndələri ilə normal münasibətlər yaratmasında mühüm əhəmiyyətə malikdir. Belə ki, yalnız öz millətinin

mənafelərini müdafiə etməklə məhdudlaşmayan və milli eqoizmin hüdudlarını aşmağı bacaran şəxsiyyət, sözün əsl mənasında vətəndaş hesab oluna bilər. Buna görə də milli mənlik şüuru şəxsiyyətdə vətənpərvərlik, məsuliyyət, ictimai borc, mənəvi saflıq kimi ümumi keyfiyyətlərin formalaşmasına sürətləndirici təsir göstərir. Buradan aydındır ki, şəxsiyyətin mənəvi dünyası təkmilləşdikcə, milli mənlik şüuru inkişaf etdikcə, öz millətinin varlığı və ləyaqəti haqqında düzgün təsəvvürlərlə yanaşı, onda beynəlmiləlçilik, xalqlar dostluğu, milli tolerantlıq kimi keyfiyyətlər də formalaşır.

Şəxsiyyətin əsl milli mənlik şüuru onun həyat fəaliyyətinin bütün sahələrinin yüksək mənəvi prinsipləri üzrə təşkil olunmasına kömək edir. Nəticədə onun digər fərdlərlə sosial əlaqələrinin və ümumilikdə şəxsiyyətlərarası münasibətlərin mənəvi-əxlaqi əsasları daha da möhkəmlənir. Bununla əlaqədar qeyd edək ki, müasir sosial proseslərdə insan amilinin rolunun durmadan artması, onların şəxsiyyətin inkişafı meyarlarından çıxış edərək mənalandırılması meyli genişlənməkdədir. Etik ölçülərin universal miqyas kəsb etdiyini göstərən bu proses, öz ifadəsini həm də milli mənlik şüurunun məzmununda tapır. İctimai həyatın bütün sfera və tərəflərində olduğu kimi, burada da maraqların etikləşməsi müşahidə olunur, çünki şəxsiyyətin əxlaqi şüuru, onun dünyagörüş xarakterli əsas dəyərlərinə dərindən sirayət edir (243, s.38). Nəticədə etnik subyektin mənlik şüurunda ümumi bəşəri mənafelərin reallaşmasında əxlaqi prinsiplərin artmaqda olan rolu haqqında adekvat təsəvvürlər yaranır. Bu isə təkcə millət daxilində deyil, millətlərarası münasibətlərdə də əməkdaşlığın və ədalətin qərarlaşmasına təkan verir.

Şəxsiyyətin milli mənlik şüuru millətçilik ilə çox mürəkkəb əlaqədə çıxış edir. Bu iki anlayış arasındakı münasibətləri araşdırmaq həm də ona görə vacibdir ki, yaxın keçmişə qədər «millətçilik» anlayışı birtərəfli surətdə, yəni yalnız mənfi planda müəyyənləşdirilirdi. Onu çox vaxt bəsit şəkildə anlayır və bir millәti digərinə qarşı qoyan, milli üstünlük və əlahiddəlik təbliğ edən ideologiya, siyasət, psixologiya və sosial praktika kimi qələmə verirdilər. Son dövrlərdə dünya miqyasında baş verən proseslər, bu qəbildən olan müddəaların əsassızlığını və birtərəfliliyini göstərir. Sovetlər Birliyinin dağılmasında millətlərin milli-azadlıq hərəkatının böyük rolu eyni zamanda sübut etdi ki, millətçilik həm də mühüm mütərəqqi əhəmiyyətə malikdir. Bu baxımdan yanaşdıqda milli müstəqillik dövründə o öz rolunu tükətmir, əksinə daha da genişləndirir. Millətçilik, şəxsiyyətin milli ruhunun, özünüdərkinin və müstəqil təfəkkürünün inkişafında o dərəcədə əhəmiyyətli rol oynayır ki, onu rədd etmək deyil, onun yaratdığı üstünlüklərdən və güclü səfərbəredici qüvvəsindən demokratik, hüquqi dövlət quruculuğunda daha fəal istifadə etmək məqsədəuyğundur.

Müasir dövrdə baş verən milli proseslər milli mənlik şüuru və millətçilik anlayışlarını məzmunca bir-birinə çox yaxınlaşdırır. Bu faktı təsdiq etməklə yanaşı, həm də qeyd etməliyik ki, onlar tam eyni olmayıb, bir-birindən müəyyən qədər fərqlənən anlayışlardır. Bunu aydın təsəvvür etmək üçün milli mənlik şüurunun məzmununda vurğulanan aşağıdakı məqama diqqət yetirmək kifayətdir: o millətin mənafe, maraq və məqsədlərinin dərk olunması deməkdir, bu mənada o özündə həm də millətçiliyin dərk olunmasını ehtiva edir. Fikrimizcə, digər fərqlilik bundadır ki, millətçiliyin məzmunu çox mütəhərrik xarakter daşıyır. Yəni o

milli maraqların təmin olunması məqsədini aşıb keçdikdə milli əlahiddəlik təlqin edir və neqativ səpki alır. Bundan fərqli olaraq milli mənlik şüuru nisbətən daha sabitdir və özü də müsbət məna daşıyır. Nəhayət, bu da nəzərə alınmalıdır ki, milli mənlik şüuru ilə müqayisədə millətçilik anlayışında praktiki yönüm, real fəaliyyət ilə yaxınlıq daha çoxdur, birinci anlayışda isə elmi-nəzəri mahiyyətin üstünlüyü nəzərə çarpır.

Millətçiliyin müsbət əhəmiyyəti əsas etibarilə aşağıdakı tərəflərdə çıxış edir: a) o milləti təşkil edən müxtəlif sosial təbəqələrin, kateqoriyaların və fərdlərin həmrəyliyini təmin edən özək, onların maraqlarının inteqrativ ifadəçisi rolunu oynayır; b) millətçilik aid olduğu sosial-etnik birliyin daxilində milli həyatın yeknəsəkliyinə və fərqlərin silinməsinə qarşı çıxır, bu həyata rəngarənglik donu verir.

Qeyd etmək lazımdır ki, müasir cəmiyyətdə postındustrial istehsal inkişaf etdikcə və insanların həyatında modernləşmiş sivil formalar genişləndikcə, belə bir ümumi meyil müşahidə olunmaqdadır: insanların həyatında etnik keyfiyyətlərin və göstəricilərin rolu maddi sahələrdə azalır, əksinə millətçilik baxışları və cəhdləri çoxalır (248, s.9). Bununla əlaqədar elmi ədəbiyyatda irəli sürülən belə bir fikirlə rastlaşmaq olar ki, hazırda ümumdünya miqyasında baş verən etnik renesans meylinin özü milli hissləri qıcıqlandırır və milli münasibətlərdə təhlükəli situasiyalar yaratmağa qadirdir (285, s.41). Bütövlükdə götürdükdə isə müasir dünyada gedən milli-etnik proseslərdə millətçiliyin müsbət mənası durmadan genişlənməkdədir. Bunu həm də ondan görmək olar ki, «millətin dövlətləşmiş etnos kimi çıxış etdiyi ölkələrin əksəriyyətinin siyasətində millətçilik mühüm prinsip kimi özünü göstərir» (185, s.82)

Prinsip etibarilə Azərbaycan da bu ölkələrdəndir və burada millətçilik müsbət pozitiv məna kəsb edir. Müasir Azərbaycan cəmiyyətində millətçiliyin rolunu, şəxsiyyətlərarası münasibətlərdə fərdin eqoizminin oynadığı rol ilə müqayisə etmək olar. Belə ki, normal səviyyədə həyata keçirilən eqoizm şəxsiyyətlərarası münasibətlərə müsbət təkmilləşdirici təsir göstərir. Eyni funksiyanı milli münasibətlərdə millətçilik yerinə yetirir. Bu baxımdan yanaşdıqda əsl millətçi həm də həqiqi patriot kimi çıxış edir, mənsub olduğu millətin xarakterindəki müsbət cəhətləri göstərməklə yanaşı, realist mövqe tutur, yəni buradakı nöqsan və qüsurları da qeyd edir. Öz millətinin uğurları ilə fəxr edirsə, çatışmayan cəhətlərinə görə müəyyən vicdan əzabı çəkir.

Lakin nəzərdə tutulmalıdır ki, millətçilik öz normal hüdudlarını aşdıqda cəmiyyət üçün çox ciddi təhlükə yaradır. Belə ki, bu halda öz millətini sevmək kimi təbii hiss şişirdilir və digər insani keyfiyyətləri üstələyir, Nəticədə milli müstəsnalıq və milli əlahiddəlik təsəvvürü yaranır. Həmin mövqeyə yuvarlanan şəxsiyyətlər milli fanatizm nümayiş etdirirlər, millətin ümumbəşəri dəyərlərə yiyələnməsinə mane olur və onun inkişafını ləngidirlər. Sözügedən vəziyyət 90-cı illərin əvvələrində Azərbaycanda baş qaldırmış milli-separatist meyillərin (Talış-Muğan Respublikası, müstəqil ləzgi və kürd dövlətləri yaratmağa yönəlmiş cəhdlər) nümunəsində nəzərə çarpırdı. Ayrı-ayrı etnik birliklərin rəhbərləri xalqın mənafeyini müdafiə etmək çağırışları arxasında gizlənərək, özlərinin şəxsi ambisiyalarına nail olmaq üçün milli ədavəti qızışdırmağa, millətlərarası münasibətlərdə gərginlik yaratmağa çalışırdılar. Tarix bu cəhdlərin əsassızlığını sübut etdi. Onların arxasınca gedən sadə adamlar da bu cür millətçilik yolunun təhlükəli olduğunu dərk edərək, tezliklə ondan üz döndərdilər.

Yuxarıda deyilənlər sübut edir ki, milli hisslərin həddindən artıq güclənməsi, öz millətinin maraqlarının şişirdilməsi başqa millətlərə və etnik birliklərə münasibətdə şovinizm toxumu səpir, milli münasibətlərdə inamsızlıq yaradır və milli münaqişələrin törənməsinə rəvac verir. Bu qəbildən olan cəhdlərin ümumbəşəri normalara zidd olduğunu, təkcə öz milli sərhədlər daxilində deyil, regionda da çox böyük təhlükə törədə bildiyini erməni millətçilərinin nəyin bahasına olursa olsun Xəzər dənizindən Qara dənizədək ərazidə Böyük Ermənistan dövləti yaratmaq haqqında xülyaları sübut edir. Öz mahiyyətinə görə faşizmin məlum niyyətlərini xatırladan belə millətçilik gec-tez uğursuzluğa uğramalıdır. Şəxsiyyətin milli-etnik baxımdan təhlili aşağıdakı nəticələrə gətirib çıxarır:

1. Müasir dövrdə cəmiyyətimizdə özünü göstərən milli dircəliş, milli oyanma prosesləri böyük mütərəqqi əhəmiyyətə malikdir. Belə ki, həmin meyillər ictimai həyatın müxtəlif sahələrində özünü göstərən totalitarizm qalıqlarının aradan qaldırılmasında, milli qüvvələrin demokratikləşmə və milli dövlət quruculuğu vəzifələrinin həyata keçirilməsinə səfərbər edilməsində, bir sözlə, yaşadığımız dövrdə qarşıya qoyulan açıq cəmiyyət qurmaq strateji məqsədinin realaşmasına güclü təkan verir. Bu halda milli dircəliş xalqın etnik özgürlüyünün dərki, milli rəqabətin güclənməsi, milli iftixar hissinin artması ilə vəhdətdə çıxış edir ki, bu, onun yaradıcı potensiyalını daha da möhkəmləndirir.

2. Hazırda cəmiyyətimizdə milli ideya və milli ideologiya axtarışları getməkdədir. Qeyd olunmalıdır ki, onlar son dərəcə zəruri və faydalıdır. Söhbət, hər şeydən əvvəl, kommunist ideologiyasının ləğv edilməsindən sonra şüurlarda yaranmış ideoloji

vakuumun aradan qaldırılmasından gedir. Digər tərəfdən isə bütünlükdə Azərbaycan xalqının həqiqi mənafelərini tam dolğunluğu ilə və müvafiq surətdə əks etdirən ümummilli ideologiyanın yaradılması zamanın tələbidir. Bununla əlaqədar qeyd edək ki, indi genişlənməkdə olan Azərbaycançılıq ideyası onun özəyini təşkil edir. Çünki bu anlayış Azərbaycanda məskunlaşmış bütün xalqların və etnik biliklərin maraqlarına uyğundur.

3. Müasir insanların təsəvvürlərində dünyanın yeni elmi mənzərəsinin formalaşması və mükəmməl fəlsəfi paradiqmalar yaranması faktı müxtəlif millətlərdən və etnik qruplardan olan şəxsiyyətlərin öz həyat potensiallarını reallaşdırarkən, aralarında dostluq və əməkdaşlıq əlaqələrini gücləndirir.

4. Müasir dövrdə həll edilməkdə olan dərin və genişmiqyaslı vəzifələrin, bütün sferalarda demokratikləşmənin dərinləşməsi, əsaslı iqtisadi islahatların reallaşması, bazar mexanizimlərinin bərqərar edilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu və s. həllində müxtəlif millətlərin və etnik birliklərin iştirakı da onların təkcə ictimai deyil, həm də fərdi subyektliliyinin reallaşmasına geniş imkanlar açır.

5. Müasir şəxsiyyət tipinin formalaşmasına milli kontekstdə yanaşdıqda həmin prosesin aşağıdakı iki güclü meylin təsirilə baş verdiyi göstərilməlidir. Birincisi ümumillikdə müasir ictimai inkişaf üçün səciyyəvi olan insanların ictimai və milli həyatının ardınca onların şəxsi həyatının da standartlaşması və universallaşması, sözün müəyyən mənasında unifikasiyaya uğraması, həyat tərzində universal səpkinin artdığını göstərən cəhətlərin çoxalması, milli dəyərlərin getdikcə daha çox ümumbəşəri məzmun kəsb etməsidir. Bu meylə sürətləndirici təsir edən amillər sırasında birinci yeri müasir dövrdə qlobal

problemlərin miqyasının və rolunun artması şəraitində, onların son dərəcə təhlükəliliyinin dərki əsasında millətlərin, dövlətlərin və xalqların əməkdaşlığının möhkəmləndirilməsi zərurəti tutur. Ona həm də XX əsrin ikinci yarısından genişlənməkdə olan kommunikasiya inqilabi, bu sahədə misli görünməmiş imkanlara malik olan mütərəqqi texnologiyaların işlənib hazırlanması və geniş miqyasda tətbiqi güclü təsir göstərir. İkinci meyl isə milli-mədəni diferensiasiyanın rolunun artmasında, güclənməkdə olan milli özgürlüyün dövlət tərəfindən qorunmasında, milli mədəniyyətlərin rəngarəngliyinin çoxalması şəraitində müxtəlif dillərə və mədəniyyətə malik insanların, şəxsiyyətlərin dialoqunun genişlənməsi, milli dəyərlərin məzmununun zənginləşməsi və onlarda ümumsivilizasiyon xarakterli tərəflərin çoxalmasıdır. İlk nəzərdə belə görünə bilər ki, müasir şəxsiyyəti formalaşdıran bu iki meyli bir-birinə ziddir. Lakin əslində onlar arasındakı ziddiyyət zahiri xarakteri daşıyır, öz mahiyyətinə görə onlar sözün müəyyən mənasında bir-birini tamamlayırlar.

## 2.5. Şəxsiyyət müasir mədəniyyət sistemində

Tarixin bütün mərhələlərində olduğu kimi müasir dövrdə də şəxsiyyət ilə mədəniyyət bir-birindən ayrılmazdır. Mədəniyyət, onun inkişafı səviyyəsi, mövcud mədəni mühit şəxsiyyətin formalaşması və inkişafında müstəsna dərəcədə böyük rol oynayır. Həmin amillər şəxsiyyətin davranış ustanovkalarına, nail olmağa çalışdığı məqsədlərə və bütövlükdə fəaliyyətinə güclü təsir göstərir.

Hər bir cəmiyyətdə şəxsiyyətin varlığı mədəni-tarixi xarakter daşıyır. Məhz mədəni-tarixi prosesin tərəqqisi gedişində şəxsiyyət də inkişaf edir, onun mənəvi dünyası daha da zənginləşir. Onun yaratdığı nailiyyətlər şəxsiyyətin mənəvi sərvətlərinə çevrilir. Şəxsiyyət sözügedən prosesdə yaradılan dəyərləri sadəcə əxz etmir, onlara dəyişdirici münasibət bəsləyir. Bu cür qarşılıqlı təsir nəticəsində həm şəxsiyyət təkmilləşir, həm də mədəniyyət inkişaf edir, zəngin və rəngarəng forma alır. Bu günün reallıqları mədəniyyət ilə şəxsiyyətin münasibətlərinin prinsipcə yeni şəkildə qavranılmasına doğru dönüş yaradır. Məsələ bundadır ki, insanı əhatə edən bütün həyat dünyası qeyd-şərtsiz olaraq mədəniyyətyaradıcı əhəmiyyət kəsb edir. Mədəniyyət insanın mövcudluğunun bütün rəngarəng təzahür formalarında getdikcə daha çox məna alır. İnsan onun xüsusi anlaşılan mədəni inkişaf səviyyəsinin necə olmasından asılı olmayaraq «mədəniyyət insanı» kimi çıxış edir. Hazırda eynilə də fərdin mədəniyyətə münasibəti ənənəvi formalardan tamamilə fərqlidir. Məlumdur ki, insanın mədəniyyətdəki varlığı heç də həmişə sözün əsl mənasında şüurlu səviyyədə qavranılmır, lakin o həmişə insanın mədəni dünyaya təbii mənsubiyyətinin yaşanması, hiss olunması deməkdir. Buna görə də fərdin mədəniyyətə münasibəti mədəni ənənələrin, dilin, adətlərin xislətin – bütövlükdə mədəni mühiti təşkil edən bütün amillərin

qorunub saxlanılması və möhkəmləndirilməsi praktiki vəzifəsini ifadə edir. Sözügedən baxımdan yanaşdıqda şəxsiyyətin mədəniyyət aləmində varlığı, onun real həyat prosesi kimi çıxış edir (84, s.42).

Müasir sosial fəlsəfədə belə bir nöqteyi-nəzər geniş yayılmaqdadır ki, insanın təşəkkülü ilə mədəniyyətin təşəkkülü prosesləri paralel şəkildə getmişdir. Buna görə də mədəniyyət ilə mentallığın uzomorfizmindən danışmaq olar. Qədim dövrdə insan nəsillərinin psixikasında baş verən dəyişikliklər buna gətirib çıxartmışdı ki, onun mövcudluğu və fəaliyyətinin bir sıra tərəfləri universal təbii kosmoritmlər və bioritimlər ilə tənzim edilmir. Bu proses tədricən insanın subyektiv «mən»inin seçilib ayrılması və onun təbiətdən özgələşməsi ilə nəticələnmişdir. Həmin vəziyyətin təkamülü gedişində insanın mentallığında mənalandırma qabiliyyəti genetik cəhətdən əsaslanır və daha da möhkəmlənir. Sözügedən qabiliyyətin potensial vəziyyətdən aktual hala çevrilməsi yalnız insanın iradəsi və seçim bacarığı sayəsində mümkün olur. Sonuncu iki tərəf şəxsiyyətin subyektliliyinin çox mühüm momentləri kimi çıxış edir: «seçim» müstəqil cərəyan edən məna axtarışları prosesini əks etdirir, «iradə» isə subyekt-obyekt münasibətlərinin müəyyənləşdirilməsində körpü rolunu oynayır. Başqa sözlə, seçim və iradə insanın fikir və əməllərini müəyyən edir. Bu halda məhz seçim, özü də psixoloji cəhətdən gərgin və ekzistensial baxımdan ağrısız keçməyən seçim insanın «mən»inin və daxili özgürlüyünün yeganə forması kimi çıxış edir (201, s.77).

Lakin qeyd olunmalıdır ki, müxtəlif sosial sistemlərdə müxtəlif tarixi dövrlərdə insanın seçim imkanlarının hüdudları eyni olmur. Bütövlükdə insan subyektliliyinin təkamülü, onun şəxsi motivləşdirilmiş və fərdi mənalandırılan hərəkətləri seçim qabiliyyəti tarixi prosesin ümumi istiqamətlərinə uyğun surətdə

gedir. Bu mənada göstərilməlidir ki, müasir şəxsiyyətin həyatı və fəaliyyəti tamamilə başqa şəraitdə baş verir. Belə ki, onun mühit ilə əlaqə və münasibətləri çoxtərəfli, rəngarəng, eyni zamanda məsuliyyət tələb edən formalar alır. Sosial həyatda insanın azadlıq səviyyəsi durmadan genişlənir, «şəxsiyyətin davranışında özünütənzim etmənin xüsusi çəkisi» çoxalır, onun dövlət və sosial-mədəni normalardan asılılığı azalır. Bütün bunlar bir tərəfdən şəxsiyyətin strateji və taktiki fəaliyyəti məqsədlərinin seçim imkanlarını artırır, digər tərəfdən isə onların törədə biləcəyi nəticələr üçün məsuliyyətini qat-qat gücləndirir.

Mədəniyyətin yaranması və inkişafı eyni zamanda şəxsiyyətin mahiyyət qüvvələrinin özünü reallaşdırması, təzahürü və təcəssümü prosesidir. Müasir sosiohumanitar biliklər sistemində insanın fundamental səciyyəsi hesab olunan fəal, şüurlu və yaradıcı keyfiyyətləri həm də mədəniyyətdə öz ifadəsini tapır.

Bu mənada mədəniyyətin tarixini insanın, şəxsiyyətin həyat və mahiyyət qüvvələrinin inkişafı prosesi kimi təsəvvür etmək olar.

Məşhur alman filosofu və kulturoloqu K.Caspers insanın sözün həqiqi mənasında insana çevrilməsində aşağıdakı amillərin həlledici rol oynadığını qeyd edir: oddan və əmək alətlərindən istifadə edilməsi; nitqin meydana gəlməsi; insanın öz-özü üzərində zorakılıq etməsi üsulları, müxtəlif yasaqlar tətbiq edilməsi, qrupların və birliklərin təbii əsaslar üzərində deyil, sosial əsaslar üzərində yaranması; mifik obrazlar vasitəsilə həyatın formalaşması və öz mövcudluğunun, ailə ukladının, ictimai quruluşunun və əməyin xarakterinin ona tabe edilməsi (288, s.67).

Bu müddəalar ilə tam razılaşmaq olar. Belə ki, insan yalnız o vaxt insan olur ki, bütün təbii xarakterli bilavasitə əlaqələr və münasibətlər onun özü tərəfindən yaradılan və dolayı məna kəsb

edən münasibətlər ilə əvəz olunur. Başqa cür deyilsə, sözün geniş mənasında götürülən mədəniyyətin yaranması ilə əsl insanın formalaşması prinsipcə eyniyyət təşkil edir. Mədəniyyətin yaranması o deməkdir ki, insanın təbiətə münasibəti onun yaratdığı əmək alətləri sistemindən keçərək baş verir, dünyanın bilavasitə anlaşılması və bir-birilə ünsiyyət simvolları vasitəsilə qavramağa və ünsiyyətə çevrilir, davranışın təbii instiktiv requlyasiyası sosial-normativ tənzimləmə ilə əvəz olunur.

Mədəniyyət özü də təbii-bioloji amillərin sosial amillərə çevrilməsi nəticəsində yaranmışdır. O, insan nəslinin şəxsiyyətə məxsus həyat qüvvələrinin təcəssümü deməkdir. Mədəniyyət insanın onu əhatə edən mühitə fəal yaradıcı və dəyişdirici münasibətini ifadə edir. Əslində öz spesifikliyi ilə seçilən mənəvi mədəniyyət sferası insanın malik olduğu ideal amillərin (fəaliyyət qaydaları, normaları) məcmusunu ifadə edir.

Bəşəriyyətin öz inkişafında irəliləməsi gedişində dünya binasının dərk olunmasına maraq artdı, tarixin mənası, həyat və ölüm məsələlərinin anlaşılması daha da dərinləşirdi. Bu prosesdə insan şəxsiyyəti də ümumi mədəniyyət sisteminin inkişafında yeni səviyyəyə qalxdı. Bu səviyyədə insan «bütövlükdə varlığı, özünün kim olmasını və öz fəaliyyətinin hüdudlarını dərk etməyə başladı… Buna nail olan insan öz qarşısına daha yüksək məqsədlər qoyur, öz mənlik şüurunun dərinliklərində dünyanın mütləqliyini və transendentallığını aydın dərk etməyə başlayır. Bütün bunlar refleksiya vasitəsilə baş verir. Şüur sözün əsl mənasında şüura çevrilir, insanın təfəkkürü təfəkkür proseslərini öyrənməyi öz obyektinə çevirir» (288, s.33).

Qeyd etmək lazımdır ki, elmi-texniki və sosial həyatın rasional əsaslarla təşkili yolunda bütövlükdə cəmiyyət, o

cümlədən də şəxsiyyət öz mahiyyət qüvvələrinin reallaşmasında misli görünməmiş nailiyyətlər qazanmışdır. Lakin XX əsrin ortalarında bu proseslərin həm də şəxsiyyətin inkişafı baxımından bir sıra ciddi nəticələr törətdiyi getdikcə daha aydın görünməyə başladı. Belə ki, şəxsiyyətin həyat fəaliyyətinin demək olar ki, bütün sferalarında böhran halları üzə çıxdı. Deməli, mədəniyyətin şəxsiyyətin formalaşmasına və inkişafına göstərdiyi təsir öz xarakterinə görə birmənalı deyil, yəni o təkcə müsbət deyil, həm də mənfi istiqamətə yönələ bilir. Bu mənada müasir dünyada qərarlaşmış ümumi mədəni şəraitin neqativ tərəfləri «kütləvi mədəniyyət»in geniş yayılması, milli münaqişələr, kiçik və zəif ölkələrə müxtəlif növlü siyasi mədəni təzyiqlər göstərilməsi və s. şəxsiyyətin ümumi mədəni inkişafına mane olur. Təsadüfi deyildir ki, tanınmış mütəfəkkirlərin yaradıcılığında bu məqam dəfələrlə qeyd olunur. Dünya miqyaslı humanist olan A.Şveytser sözügedən cəhətə xüsusi diqqət yetirərək göstərirdi ki, «biz mədəniyyətin tənəzzülü ilə səciyyələnən bir şəraitdə yaşayırıq» (281, s.33).

XX əsrin sonlarına doğru gerçəkliyə münasibətdə industrializm prinsiplərindən, texnisizmdən əl çəkmək və uzaqlaşmaq çağırışları gücləndi və insan şəxsiyyətinin yeni modelini tapmaq istiqamətində axtarışlar artdı. Şəxsiyyətin həyatı qüvvələrini reallaşdırmağın yeni üsullarını və formalarını yaratmaq zərurəti bütün kəskinliyi ilə qarşıya çıxdı. Bu qəbildən olan ciddi elmi axtarışlar indi də davam etməkdədir. Belə güman etməyə əsas var ki, başlanmaqda olan üçüncü minillik şəxsiyyətin prinsipcə yeni tipini formalaşdıracaqdır. Əlbəttə, bu tipin hansı keyfiyyətlərə malik olacağı haqqında indi bütün təfərruatı ilə məlumat vermək iddiasında deyilik. Amma hər halda indidən

həmin şəxsiyyətin keyfiyyətlərinin mənəvi və maddi tərəflərin oricinal sintezinə əsaslanacağı fikrini irəli sürmək tam məntiqidir.

Müasir Azərbaycan cəmiyyəti elə sosial sistemdir ki, burada xeyli dərəcədə qeyri-müəyyənlik hökm sürür. Ənənəvi sosial müəyyən hissəsi dəyişikliyə məruz qalmışdır. İnsanların bir qismi hələ də baş verən proseslərin əsl mahiyyətini başa düşmür. Bunun mühüm bir səbəbi hazırda sosial həyatın təşkilinin bütün tərəflərinin sürətlə transformasiyaya uğramasıdır. Həm də sözügedən genişmiqyaslı dəyişikliklərin texnologiyası, onların rasional idarə olunması haqqında dəqiq təsəvvür yoxdur. Bu isə bəzən şəxsiyyətin həyat fəaliyyətində, onun özünü müəyyənləşdirilməsində və dəyərlər oriyentasiyasında çətinliklər yaradır. Həmin vəziyyət bir daha sübut edir ki, müasir şəxsiyyət probleminin dərin sosial fəlsəfi təhlili həm bütövlükdə cəmiyyət miqyasında, həm də ayrıca götürülmüş bir şəxsiyyət səviyyəsində düzgün fəaliyyət proqramının işlənib hazırlanmasında, dəyər-motivasiya oriyentirlərinin səmərəli istiqamətdə formalaşdarılmasında mühüm rol oynaya bilər.

Nəzərdə tutmaq lazımdır ki, müasir sosial həyatda ictimai həyat təşkilinin yeni formalarının və dəyərlərin yaranması obyektiv-subyektiv səpkiləri əhatə edən iki amillə şərtlənir. Birincisi odur ki, qeyd olunan hər iki proses öz daxili məzmununa və mahiyyətinə görə son dərəcə spesifik və özünəməxsus xarakter daşıyır. İkincisi, burada şəxsiyyətin subyektivliyinin, onun yaradıcı-dəyişdirici potensiala malik olduğunun qəbul edilməsidir. Belə ki, məhz şəxsiyyət digər insanlarla ünsiyyət və əlaqəyə daxil olaraq, yeni dəyərləri və ictimai həyat təşkili formalarını yaradır.

Müasir şəxsiyyətin sosial təbiətinin və simasının müəyyənləşməsində onun əsas hərəkətlərini motivləşdirən, sosial

fəalığına stimullaşdırıcı təsir göstərən şəxsi dəyərlər sistemi böyük rol oynayır. Bu kontekstdə götürülən dəyərlər sistemi həyatın mənası anlayışına xeyli yaxındır. Həyatın mənası dedikdə isə qrup və ya fərdi şüurun elə bir üstünlük təşkil edən istiqaməti başa düşülür ki, o şəxsiyyətin və yaxud ictimai qrupun sosial fəaliyyətində bilavasitə təzahür edir və sosial dəyər kəsb edir (109, s.33).

Həyatın mənası elə bir sosial fenomendir ki, o obyektiv ilə subyektivin, şüur ilə varlığın ideal ilə realın qovuşuğunda formalaşır. Məsələn, şəxsiyyətin ideal təsəvvürlərinin məzmununda unikal və təkrarolunmaz, müəyyən konkret situasiya və ondan kənarda yaranan şəxsi mənaları və məqsədləri mövcud olur. Onlar həm də insanın sosiallaşması prosesində əldə etdiyi mədəni nümunələr, standartlar, normalar və dəyərlər ilə sıx əlaqəlidir. Digər tərəfdən şəxsiyyətin fərdi şüurunun ideal obrazları subyektin sosial davranışında obyektivləşir, sosial həyata vəsiqə alır. Beləliklə, insanın subyektliliyi həyatın mənası haqqında konkret təsəvvürlərə malik olması sayəsində həlledici istiqamət səviyyəsinə yüksəlir. Nəticədə həyatın mənası təkcə subyektin praktikada həyata keçirməyə cəhd göstərdiyi şəxsi dəyərlər sistemi kimi deyil, həm də onun davranışının əsas tənzimçisi kimi təzahür edir.

Öz məzmununa görə hər bir həyat konsepsiyası, onun dəyərliliyi və məna əsasları insanın sosiallıq ölçüsünü əks etdirir. Prinsipcə hər bir adam tərəfindən öz həyatının mənasının müəyyənləşdirilməsi iki qütb arasında – fərdi və sosial, yerləşir. Sosial-fəlsəfi ədəbiyyatda həyatın mənasının aşağıdakı konsepsiyaları (yaradıcı-alturist, sosial-yaradıcı və sosial demoqrafik) cəmiyyətin mütərəqqi inkişafı üçün əhəmiyyət kəsb

edir, oyun xarakterli (həm mənəvi, həm də fiziki), kompleks və indifferenet konsepsiyalar isə daha çox bir fərdin mütərəqqi inkişafı ilə əlaqədardır. Nəhayət, elə həyat konsepsiyaları (liderlik, konformist, hedonist və teoloji) vardır ki, onlar fərdin tənəzzülünə gətirib çıxarır (109, s.34).

Müasir Azərbaycan cəmiyyətində şəxsiyyətin mənəvi aləmində özünü göstərən meyillərdən biri qərb mədəniyyətinə marağın artmasıdır (vesternizasiya). Bu prosesin tədqiqi onun fəaliyyət tiplərinə müvafiq surətdə getdiyini göstərir. Sözügedən kontekstdə fəaliyyətin tiplərə bölgüsü onun nə üçün və kimin üçün həyata keçirilməsi göstəriciləri baxımından səciyyələndirilir. Bu münasibətdə fəaliyyətin üç tipi fərqləndirilir: 1) Fəaliyyət göstərənin özü üçün olan fəaliyyət, onun əsas məqsədi fəaliyyət subyektini təmin etmək, onun tələbatlarını ödəmək, ona müəyyən fayda gətirməkdir. 2) Fəaliyyət növü digər insanlara doğru yönəlir, özü də digər sözü müəyyən bir subyektə və yaxud obyektə aid ola bilir: 3) Nəhayət, fəaliyyətin üçüncü tipi fəaliyyət prosesinin naminə həyata keçirilən fəaliyyətdir (məs:oyun fəaliyyəti) (265, s.143).

Bu fəaliyyət növləri bir-birinə yaxın olsalar da, hər biri özünə məxsus funksiya yerinə yetirir. Fəaliyyət göstərənin özünü, onun şəxsi səviyyəsini və sosial subyektin fəaliyyətinin məqsədini aydınlaşdırmağa yönələn tipologiya həyatın mənası konsepsiyalarına və həyatın mənası anlayışına da tətbiq oluna bilər. Belə olduqda məlum olur ki, əgər cəmiyyətdə həyat planları yalnız özü üçün fəaliyyət göstərməkdən ibarət olan insanlar çoxlüq təşkil edərsə, bü, cəmiyyət üçün təhlükə yaradır. İndiki şəraitdə insanın sosiallıq dərəcəsi kifayət qədər yüksək olmalıdır. Əks halda yəni şəxsiyyətin sosial davranışı yalnız məhdud şəxsi

məqsədlərə yönəlirsə, onda bu vəziyyət sosiallığın özünün pozulması və dağılmasına gətirib çıxara bilər.

Həyat konsepsiyalarının müxtəlif variantlarının müqayisəli təhlili sübut edir ki, həyatın mənası bütövlük keyfiyyətinə malik olan fenomendir. Lakin onun məzmunu donuq və dəyişilməz deyildir. Şəxsiyyətin sosial və mədəni səviyyəsinin yüksəlişi gedişində onun həyatının mənasını əhatə edən təsəvvürlərində də yeni dəyərlərin və məna çalarlarının yaranması mümkündür. Məsələn, yaxın keçmişə qədər həyatın mənasının sosial-istiqamətlənmiş baxışlar sistemi üstünlük təşkil edirdisə və o cəmiyyət tərəfindən daha çox bəyənilirdisə, indi onun yerini şəxsi həyata yönələn təsəvvürlər tutmaqdadır. Deyilənə müvafiq olaraq müasir şəxsiyyət tipinin aktivliyinin orientirlərində də ciddi yeniliklər yaranır, bu isə bütövlükdə cəmiyyətin inkişafı istiqamətlərinə əhəmiyyətli təsir edir.

Müasir tipli şəxsiyyəti mədəniyyət kontekstində təhlil edərkən, onun ünsiyyət sistemində dialoqun artan rolu xüsusi qeyd olunmalıdır. Bu işdə genişlənməkdə olan demokratikləşmə prosesləri, fikir plüralizminə və tolerantlığa real şəraitin yaranması müstəsna dərəcədə böyük əhəmiyyətə malikdir. Yeri gəlmişkən qeyd edək ki, şəxsiyyəti səciyyələndirən mühüm əlamət kimi dialoqun, kommunikativliyin rolunun çoxalması bu və ya digər ölkənin hüdudları ilə məhdudlaşmayan ümumi qlobal prosesdir. Bu hər şeydən əvvəl sivilizasiyanın müasir mərhələsində insanın sosial inkişafı göstəricilərinin yüksəlməsi, ümummədəni səviyyəsinin və yaradıcılıq üfüqlərinin qeyri-adi dərəcədə genişlənməsi ilə izah olunur. Təsadüfi deyildir ki, müasir dövrün ən nüfuzlu fəlsəfi təlimlərindən olan hermenevtika insanın dialoqluluğu və kommunikabelliyi ilə bağlı problemləri özünün

mərkəzi mövzularından hesab edir. Həmin təlimin nümayəndələri (H.Qadamer, M.Haydeqqer) dialoqu geniş miqyasda araşdırır və ona şəxsiyyətin yaradıcılığı forması, insanın özünün inkişafı və sosial dünyasının genişlənməsi üsulu kimi yanaşırlar.

Deyilənlər göstərir ki, dialoq müasir cəmiyyətin mədəniyyət sistemində mühüm və özünəməxsus yer tutur.

Ünsiyyət və dialoqu müəyyən mənada şəxsiyyətə təsir göstərən mühüm üstanovka kimi də səciyyələndirmək olar. Şəxsiyyətin subyektiv (daxili) və obyektiv (xarici) tərəflərini əks etdirən və onun bütövlükdə vəziyyətini ifadə edən bu ustanovka bir tərəfdən onun ayrı-ayrı funksiyaları və elementləri arasında əlaqələndirici vəsilə kimi çıxış edir (intrasubyektiv sferada). Digər tərəfdən isə o, bu sonuncular ilə (və yaxud bütövlükdə götürülən şəxsiyyət ilə) transsubyektiv reallıq arasında əlaqə yaradır. Ustanovkaların anlamında diqqəti çəkən məqam həm də aşağıdakından ibarətdir: o şəxsiyyətin gələcək fəaliyyətinin ümumi istiqamətlərini və son nəticələrini özünəməxsus surətdə əks etdirən qısa model kimi özündə təkcə «kauzal» tərəfi deyil, həm də məqsədəuyğunluq məqamını ifadə edir (82, s.31).

Deyilənlərdən aydın olur ki, şəxsiyyətin ustanovkası təkcə indi ilə deyil, həm də keçmiş və xüsusən də gələcək ilə də sıx bağlıdır.

Müasir cəmiyyətin ümummədəni mühitinin transformasiyası prosesində şəxsiyyətin başqa subyektlərə münasibəti də böyük əhəmiyyət kəsb edir. Belə ki, cəmiyyətin ümumi vəziyyətini və inkişafı perspektivini əks etdirən yeni mədəniyyət nümunələri məhz subyektlərarası qarşılıqlı təsir sferasında yaranır. Sözügedən qarşılıqlı təsir isə əsas etibarilə iki formada (dialoq və monoloq)

həyata keçirilə bilər. Buna müvafiq olaraq şəxsiyyətin sosial səmtləşmiş yönümlü mədəni fəaliyyəti baş verir.

Müasir şəxsiyyət tipini mədəniyyət mövqeyindən araşdırarkən aşağıdakı məqam mütləq nəzərə alınmalıdır. Söhbət bu problemə dinamik vəziyyətdə yanaşmağın, onu real proseslərlə bağlı şəkildə götürməyin zəruriliyindən gedir. Məsələnin mahiyyəti bundadır ki, indi ictimai həyatın bütün sferalarında və tərəflərində baş verən əsaslı dəyişikliklər özünün müvafiq əksini bu dövrün şəxsiyyətində və onun mədəniyyətində də tapır. Həm də onların qarşılıqlı əlaqələri dinamik xarakter kəsb edir. O öz məzmununa görə zəngin olub aşağıdakı üç istiqamətdə özünü göstərir: 1) insanın şəxsiyyəti və mədəniyyəti arasında kortəbii və stixiyalı, təbii qarşılıqlı təsir; 2) onlar arasında ictimai şüur formaları (elm, incəsənət, əxlaq, fəlsəfə), kütləvi şüur və ictimai psixologiya tərəfindən formalaşdırılan mədəniyyət simvollarının sabit sistemi vasitəsilə yaranın spesifik qarşılıqlı təsir. 3) insanın şüuru, onun psixikası aktiv, yaradıcı təbiəti ilə şərtlənən dəyişdirici mənəvi və maddi fəaliyyətdə ifadə olunan qarşılıqlı təsir (108, s.227).

Müasir şəxsiyyət özünün bütün rəngarəng mədəni keyfiyyətlərə malik olmasına baxmayaraq, o əsasən iki mədəniyyət mərkəzinin (qərb və şərq) orbitində fəaliyyət göstərir.

Şərq və Qərb bütün tarix boyu bir-birilə qarşılıqlı təsirdə inkişaf edərək yüksəlmişlər, eyni zamanda aralarındakı münasibətlərdə müxtəlif çətinliklər və ziddiyyətlər də özünü göstərmişdir.

Əsrlərdən bəri davam edən Qərb-Şərq sivilizasiyalarının münasibətləri məsələsi müasir dövrdə daha tez-tez müzakirə olunur. Sözügedən iki regionun gələcəyi, onların nailiyyətləri və üstünlüklərini üzvi əlaqələndirmək yolu ilə vahid dünya birliyinin

yaradılıb-yaradılmayacağına dair mübahisələr səngimək bilmir. Təbii ki, bu halda söhbət həm də şəxsiyyətin Qərbin və Şərqin əldə etmiş olduğu mədəni və mənəvi nailiyyətlərə münasibətini də gündəmə çıxarır. Bütövlükdə götürdükdə məsələnin mahiyyəti Şərq və Qərb sivilizasiyalarının malik olduğu tarixi ənənələrin və mədəniyyətlərin ümumi və özünəməxsus cəhətlərini dəqiq müəyyənləşdirmək və müasir şəxsiyyətin onları özündə inteqrasiyasının mümkünlüyünü, formalarını və yollarını araşdırmaqdadır.

Əvvəlcə onu qeyd edək ki, şəxsiyyət probleminin Qərb və Şərq konteksində təhlili coğrafi mənada deyil, fəlsəfi-sosioloji səpkidə götürülür. Başqa sözlə deyilsə, «Qərb» dedikdə Avropa həyat tərzi, təfəkkür üslubu, rasionalizm, xristian dini ənənələri, demokratiya və hüquqi dövlət sahəsində qazanılmış təcrübə, kollektiv ilə münasibətdə fərdiyə, şəxsiyyətə üstünlük verilməsi, elmi-texniki inkişafın uğurları və sair məsələlər nəzərdə tutulur. «Şərq» sözünün fəlsəfi anlamı isə intuitivizmi, mənəviliyi, mistikanı, Şərq dinlərinin, xüsusən də islamın ənənələrini, fərd-kollektiv sistemində ikinci tərəfin prioriteti və s. əhatə edir (93, s.121, 143, s.239, 214, s.139).

XX əsrin görkəmli filosofu və etiki A.Şveytser göstərirdi ki, hər bir fəlsəfəni maraqlandıran bir böyük problem vardır. Bu, insanın sonsuz varlıq ilə vəhdətinə necə nail olmaq problemidir. O, qərb-şərq fəlsəfi fikrinin münasibətlərinə həmin prizmadan yanaşaraq qeyd edirdi ki, onlar bir-birinə əks qütbdə çıxış edir. Onlar arasında əsas fərq bundadır ki, Qərb yuxarıda göstərilən problemi əsasən dünyaya və insan həyatına inamı möhkəmləndirmək yolu ilə, Şərq isə bütövlükdə dünyanı və həyatı inkar etmək yolu ilə həll etməyə çalışır.

Göstərilməlidir ki, Şərqi Qərbə qarşı qoymaq bu gün yaranan məsələ olmayıb, qədim tarixə malikdir. Belə ki, hələ antik fəlsəfənin bəzi nümayəndələri (məsələn, İsokrat) bu mövqedən çıxış edirdilər. Erkən orta əsrlər dövründən etibarən isə Qərbin leksikonunda Şərq anlayışı məzmunca daha geniş götürülməyə başladı. Buraya ənənəvi götürülən Hindistan, Çin və İran ilə yanaşı yenicə yaranmış müsəlman ölkələri də əlavə olundu. Bu təsadüfi olmayıb, bir sıra səbəblərlə bağlı idi. Əvvəla, həmin dövrdən başlayaraq bir-birinin ardınca baş verən müsəlman ölkələrinin başçılarının güclü və geniş miqyaslı işğalları (xüsusən də VII-IX əsrlərdə xilafətin, sonralar isə osmanlı hərbi yürüşləri) Avropanı lərzəyə salmışdı və onları Şərq amilinə hərbi siyasi planda daha ciddi mənada yanaşmağa vadar etmişdi. Digər səbəb, fikrimizcə, dini məna kəsb edir. Söhbət ondan gedir ki, yeni təkallahlılıq dininin, islamın yaranması və qısa müddət ərzində böyük sürətlə yayılması xristian dünyasını dərindən narahat edirdi. Bütün bunların nəticəsində Qərb ölkələrinin əhalisi Şərqə yuxarıdan baxmağa başladı. Onlar özlərini sivilizasiya və mədəniyyətin mənbəyi, Şərqi isə barbarlıq səviyyəsində duran region kimi qələmə verdilər. Nəticədə onlarda Şərqə münasibətdə nə isə yad bir şey, özgə mədəniyyət kimi yanaşılması fikri formalaşdı. Bunun müqabilində Şərqin əhval-ruhiyyəsi və təfəkkür tərzində də xristian dünyasının insanlarla yad mədəniyyət və incəsənət, pozğun xislət və davranış, mənəviyyatsızlıq aşıladığı haqqında təsəvvürlər qərarlaşdı. Sonralar bu qütbləşmə daha dərinləşdi. Şərq əhalisinin ictimai şüurunda Qərb dünyasının yalnız maddi yaşayış vasitələri ardınca qaçaraq mənəviyyatı unutduğu, şəxsi özgürlüyə məhəl qoymayaraq, plüralizmə aludə olduğu barədə ittihamlar gücləndi. Nəticədə müxtəlif növlü

avropamərkəzlilik əhval-ruhiyyəsinə qarşı etiraz əlaməti olaraq Şərqin tarixi və mədəni uğurlarının şişirdilməsi meyli-özünəməxsus Şərq mərkəzçiliyi yarandı.

Qeyd etmək lazımdır ki, ümumi tarixi prosesdə dünyəvi və dini zəmində baş verən ayrı-ayrı ciddi münaqişə faktorları bu qarşıdurma üçün daha əlverişli mühit yaratmış və ona qida vermişdir. Bu baxımdan ABŞ-ın iki böyük şəhərində (Nyu-Yorkda və Vaşinqtonda) 2001-ci ilin sentyabrın 11-də baş vermiş, minlərlə adamın ölümü ilə nəticələnən terror aktı daha ciddi rol oynadı. Doğrudur, rəsmi dairələrdə və ölkə başçıları səviyyəsində dəfələrlə bəyanatlar verildi ki, bu terror işidir və onun Qərb-Şərq, xristian – islam dini münasibətlərinə aidiyyəti yoxdur. Bu qəbildən olan fikirlər bundan sonra keçirilmiş müxtəlif beynəlxalq görüşlərdə, elmi-nəzəri konfranslarda səslənildi və göstərildi ki, terrorçuların vətəni və dini olmur. Buna görə də bütün dünya birliyi ölkələri artıq qlobal xarakter almış terrorizmə və ekstremizmə qarşı mübarizə aparmalı və vahid blok yaratmalıdır. Bu və ya digər tədbirlərin Şərq-Qərb münasibətlərinin normallaşdırılmasında əhəmiyyətli rol oynadığı şəksizdir. Lakin hələ də bu münasibətlər lazımı səviyyədən xeyli uzaqdır, Şərq-Qərb regionlarının əksliyi, onların heç vaxt barışa və birləşə bilməyəcəyi barədə fikir və çağırışlara tez-tez rast gəlinir.

Avropasentrizminin nümayəndələri göstərirlər ki, yer kürəsindəki bütün xalqların mədəniyyəti ikinci dərəcəlidir, yalnız Avropa xalqının mədəniyyəti əsasdır. Bu meyli L.N.Qumilyev aşağıdakı kimi ifadə etmişdir: «Hər bir avropalının gizli arzusu Yer kürəsinin bütün xalqlarının özünəməxsus mədəni simasını məhv etmək, yalnız Avropa mədəniyyətini ümumbəşəri mədə-

niyyət kimi görmək, bütün qalan mədəniyyətləri isə aşağı növlü mədəniyyətə çevirməkdir» (112, s.54).

Məşhur amerikan politoloqu S.Xantinqton özünün geniş əks-səda doğurmuş gələcəkdə sivilizasiyaların toqquşmasının labüd olduğu haqqındakı konsepsiyasında aşağıdakı baxışı irəli sürür. Onun fikrincə, dünya əvvəllərdə də bir sıra münaqişə mərhələlərindən keçmişdir. Belə ki, əvvəlcə monarxlar arasında və nəhayət ideologiyalar arasında belə qarşıdurma mövcud olmuşdur. İndi isə növbə sivilizasiyalarındır, gələcəkdə Qərb və Şərq sivilizasiyaları mütləq toqquşacaqdır. Bu konsepsiyada əsas baza xarakterli amil kimi konfessional əlamətlər, yəni dini əlamətlər götürülür. Amerikan politoloqunun fikrincə, dünyada yeddi-səkkiz sivilizasiya mövcudur. Bunlar qərb, konfusi, yapon, islam, induist, pravoslav-slavyan, Latın Amerikası sivilizasiyaları və müəyyən qeyd-şərtlə götürülən Afrika sivilizasiyalarıdır. Bu sivilizasiyaları bir-birindən ayıran başlıca xətt bu xalqların bir-birilə əkslik təşkil edən mədəniyyətidir. Həmin fərq gələcək toqquşmanın mənbələri rolunu oynayır. Toqquşmanın ən böyük mənbəyini isə qərb sivilizasiyası və birləşmiş konfutsi – islam sivilizasiyası arasındakı fərq təşkil edir. Buna görə də həmin sivilizasiyalar yaxın gələcəkdə toqquşacaqdır.

Bu qəbildən olan baxışları təhlil edərkən əvvəla, onların gerçəklikdən uzaq olduğu göstərilməlidir. Lakin burada son dövrlərdə bəzən özünü ifadə edən şərqdəki islam fundamentalizmi təzahürlərinə qarşı müəyyən cavab reaksiyası da ifadə olunduğu şübhə doğurmur.

Şərq dünyanın ən qədim yaşayış və mədəniyyət ocağı kimi şöhrət qazanmışdır. O, ilkin mədəniyyət nümunələri, sosial və siyasi institutların beşiyi hesab olunur. Bu region əsrlər boyu

mədəniyyətin inkişafı, həyat tərzinin sabitliyi, dini-mifoloji təsəvvürlərin prioriteti, insanların həyat üslubunun sərt şəkildə reqlamentləşdirilməsi ilə səciyyələnir. Şərq sivilizasiyası tarixən ənənəvi cəmiyyətin və ənənəvi inkişaf yolunun olması ilə seçilmişdir. Onun tarixini və mədəniyyətini öyrənən mütəxəssislər həmin keyfiyyətləri aparılan kənd təsərrüfatı işlərinin tsikliyi və ilk dövlət institutlarının yaranması ilə əlaqələndirirlər (86, s.26).

Deyilənlərlə yanaşı, Şərq ümumdünya tarixinə həm də öz despotizmi ilə daxil olmuşdur. Despotizm isə hakimiyyət forması və cəmiyyətin əsas strukturu kimi bir qayda olaraq xüsusi mülkiyyətin zəif inkişaf etdiyi ölkələrdə mövcud olur.

Bütün yuxarıda göstərilən keyfiyyətlər Şərqdə tarixən şəxsiyyətin zəif inkişaf etməsi, onun bir qayda olaraq kollektivin, qrupun içərisində əridilməsi ilə nəticələnmişdir. Şərq ənənəsində xüsusi mülkiyyət idealları zəif inkişaf etdiyindən, burada icmanın nüfuzu da xeyli dərəcədə güclü olmuşdur. Hətta Şərq mədəniyyəti tarixində böyük iz buraxmış islamiyyətdə də müsəlmanların icmaya üstünlük verdiyi və Quranın tələblərini sözsüz yerinə yetirməli olduğu göstərilirdi. Doğrudur, burada xüsusi mülkiyyətin rolu müəyyən qədər qəbul olunur, lakin məhdudlaşdırılırdı. Bu onunla izah edilir ki, islam dinində Allah mütləq despot, hər şeyin müəyyənedicisi kimi göstərilirdi, belə bir fikir təlqin olunurdu ki, insanlar onun yaratdığı varlıq olduğu üçün, yalnız ilahinin qoyduğu qanun ilə hərəkət etməlidirlər.

Qərb sivilizasiyasının formalaşması öz əsaslarını qədim yunan fəlsəfəsi və mədəniyyətindən götürmüşdür. Sonralar müxtəlif obyektiv və subyektiv amillərin təsiri nəticəsində Qərbdə elmin və texnikanın, bütövlükdə mədəniyyətin inkişafı əvvəldən Şərqə nisbətən şəxsiyyətə, onun müstəqilliyinə daha geniş yer verməsi ilə

səciyyələnir. Lakin şəxsiyyətin inkişafı baxımından Qərb mədəniyyətinin yaratdığı üstünlüklərin rolunu həddən artıq şişirtmək doğru olmazdı. Belə ki, burada hökm sürən texnoloji, iqtisadi və hüquqi rasionalizm şəxsiyyətə ziddiyyətli təsir göstərir. Bu, bir tərəfdən onun yaradıcılıq imkanlarını və sərbəstliyini misli görünməmiş dərəcədə yüksəldirsə, digər tərəfdən onun mənəvi zənginlik səviyyəsinə mənfi təsir göstərir, burada mənəvi kasadlaşmanı şərtləndirir. Burada bazar qanunlarının fəaliyyəti, xüsusi sahibkarlığın sürətli inkişafı, sərt rəqabət şəraitində daha yüksək gəlir əldə etmək hərisliyi, insanlar arasında şəfqətin və rəhmdilliyin təsir dairəsini məhdudlaşdırır, insanın halına acımaq, hər bir şəxsiyyətin ləyaqətinə hörmət edilməsi prinsipinin pozulması ilə müşayiət olunur.

Şərq ilə Qərbin mədəni əlaqələri çox qədim tarixə malikdir. Onu qədim Misir, Yəhudi və Avropa mədəniyyətlərinin münasibətlərində də yəqin etmək olar. Məsələn, dünyada ən çox oxunan kitab olan Bibliyadakı bir çox məsələlər və nəsihətlər qədim Misir, Babilistan və Şumer mədəniyyətlərindən əxz olunmuşdur. Yaxud da Moiseyin dünyagörüşündə, hərəkətlərində və bütövlükdə yəhudilərin monoteist dinində iudaizmin, digər Şərq ölkələrinin nümunələrinin özünəməxsus şəkildə sintez olunduğunu Z.Freyd də təsdiq etmişdir (265, s.232).

Qədim Şərq fəlsəfəsi və bütövlükdə mədəniyyəti, Qərbi Avropada mədəniyyətin sonrakı inkişafında mühüm rol oynamışdır. Qədim Şərq fikrinin böyük mənəvi nailiyyətlərindən olan zərdüştilik antik mədəniyyətə, iudaizmə, onun vasitəsilə isə xristianlığa əhəmiyyətli təsir göstərmişdir. Zərdüştün mənəvi triadasından (xeyirxah fikir, xeyirxah söz və xeyirxah əməl) Demokrit öz etik baxışlarında, Anaksimandr isə kosmoloji

təlimində istifadə etmişdir. Demokrit özü etiraf etmişdi ki, atomist təlimini o yaratmamış, midiyalılardan, xüsusən də qədim maqlardan əxz etmişdir (237, s.41).

Zərdüştün Xeyir və Şərin mübarizəsi haqqında fikirləri Hegelin etik təliminə böyük təsir göstərmişdir. Qərbin böyük mütəfəkkirlərindən olan F.Nitsşe Şərq fəlsəfəsi və mədəniyyəti ilə tanışlıq əsasında «Zərdüşt belə söyləmişdir» adlı əsər yazmışdır. XVII-XVIII əsrlərdə Avropa mədəniyyətində yeni konfusiyaçılıq təlimi geniş yayılmışdı. Buddizm ideyaları isə nəinki keçmişdə, bü günün özündə də Avropa mədəniyyətində geniş yer tutmaqdadır. Şərq elmi də Qərbə güclü təsir göstərmişdir. Məsələn, XX əsrin ən böyük fiziklərindən olan V.Heyzenberq qeyd edirdi ki, kvant fizikası ilə qədim Şərq elmi fikri arasında bir sıra paralellər vardır. O öz yaradıcılığında hind fəlsəfəsinin böyük təsir göstərdiyini etiraf etmişdir. V.Heyzenberqin fikrincə, fiziki reallığın nisbilik, qarşılıqlı əlaqəlilik və qeyri-müəyyənlik kimi fundamental səpkiləri onun özünə və fizik həmkarlarına xeyli dərəcədə çətin müyəssər olduğu halda, onlar qədim hind mənəvi ənənələrinin əsasını təşkil etmişdir. Son dövrlərdə müasir fiziki konsepsiyalar ilə qədim daosizm təsəvvürləri arasında danılmaz paralellərin olduğu aşkara çıxarılmışdır (22, s.45).

Qərb və Şərq mədəniyyətlərini şəxsiyyətin inkişafına təsiri münasibətdə təhlil edərkən keçmiş tarixi mərhələlərdə onların yaxınlığı və fərqli cəhətlərini göstərməklə məhdudlaşmaq olmaz. Əsas məsələ müasir dünyanın bu baxımdan yaratdığı yeni keyfiyyəti unutmamaqdır. Söhbət ondan gedir ki, XX əsr bu iki sivilizasiyanın ümumiliyi və yaxınlığının artmasında prinsipcə yeni mərhələ yaratmışdır. Məşhur ingilis tarixçisi A.Toynbi belə bir nəticəyə gəlmişdir ki, XX əsrə qədər bəşəriyyətin sanki ümumi

taleyi olmamışdır. Müxtəliv sivilizasiyalar (Tibet, Çin, Misir, Kolumba qədərki Amerika sivilizasiyası və s.) çox vaxt bir-birindən tam xəbərsiz mövcud olmuşlar. Təbiidir ki, onlar arasında ümumtarixi təcrübənin olmasından da söhbət gedə bilməzdi. İndi isə vəziyyət kökündən dəyişilmişdir, müxtəlif kontinentlər arasında kütləvi kommunikasiya və informasiya vasitələri elə mükəmməl səviyyəyə malikdir ki, bir yerdə baş verən hər hansı hadisə barəsində dünyanın o biri qütbündə operativ və dəqiq məlumatlar almaq mümkün olur (197, s.190).

Müasir şəxsiyyət tipinin formalaşmasında mədəniyyətin böyük rolu həm də bunda ifadə olunur ki, indiki dövrdə baş verən əsaslı dəyişikliklər nəticəsində insanın mənəvi aləmində müxtəlif və çox vaxt da ziddiyyətli xarakter daşıyan məqamlar özünü göstərir. Belə şəraitdə insanın öz varlığının mənasını dərk etməyə yönələn axtarışları sürətlənir. Sonuncuların yolu isə əsas etibarilə mənəvi dəyərlərin yenidən mənalandırılması və mədəniyyət ənənələrinə müraciət etməkdən keçir. Həmin müraciətdə şəxsiyyət müasir keçməkeşli dünyada öz «Mən»ini axtarmağa cəhd göstərir. Sözügedən prosesdə şəxsiyyət müasir Qərbin və Şərqin mədəni dəyərlərini bir-birilə müqayisə edir, onlardan üstün hesab etdiyinə bəraət qazandırır, onlara meyl edərək, öz həyat fəaliyyətində yerinə yetirməyə çalışır. Sonuncu hal onu sübut edir ki, indi şəxsiyyət özünün düçar olduğu mənəvi böhrandan çıxış yolunu həm də mütərəqqi hesab etdiyi mədəniyyətdə, sivilizasiyada görür.

Qərbin industriallaşması, elmi, texniki və texnoloci üstünlüklərə malik olması, təkcə sosial-iqtisadi və siyasi həyata deyil, həm də şəxsiyyətin varlığının ümummənəvi durumuna, əxlaqi keyfiyyətlərinə güclü təsir göstərir. Həmin təsirin zahiri ifadəsi, onun siyasiləşməsində, yəni siyasi proseslərə və hadisələrə

daha yaxından cəlb olüunmasında, mədəniyyət və incəsənətdə reallığa o qədər yaxın olmayan formaların (pop, art, modern və sair) genişlənməsində tapır. Sözügedən təsirin daxili alt qatları daha güclü olub, şəxsiyyətin mənəvi aləmini, onun mədəniyyətini və mənəvi dəyərləri sistemini əhatə edir. Şəxsiyyət özünün dünyaya münasibətində, habelə digər insanlar ilə əlaqələrində ümuməhəmiyyətli fundamental mədəniyyət nümunələrini və dəyərlərini qoruyub saxlamağa çalışır. O, sərəncamında olan bütün metod və vasitələrdən (indi isə onların sayı həddindən artıqdır) istifadə edərək, öz mənəvi varlığını və həyatının mənasını əsaslandırmağa cəhd göstərir, beləliklə də gələcəyə inam hissi təlqin edir. Bu zaman o tez-tez Şərqin və Qərbin mənəvi dəyərlərini təkcə bugünkü deyil, həm də tarixi səpkidə mənalandırır. Bununla əlaqədar olaraq son onilliklərdə elmi ədəbiyyatda Şərq mədəniyyəti və Qərb mədəniyyəti «anlayışları» geniş şəkildə işlənilməyə başlanmışdır. Bu təsadüfi olmayıb onunla izah edilir ki, bu iki böyük regionun mədəniyyət sahəsində və mənəvi dəyərləndirici istiqamətdə tarixi və siyasi statuslarında diqqəti çəkən və bugünkü baxımdan cəlbedici görünən cəhətlər yetərincədir. Həm də nəzərdə tutulmalıdır ki, bu göstəricilər üzrə onlar arasında ümumi oxşar və spesifik, fərqləndirici cəhətlər kifayət qədərdir (35, s.82).

Ümumilikdə götürdükdə Şərqin mədəni potensialı daha çox dinin güclü olması, cəmiyyətin ənənəvi təşkili şəxsiyyətin sosial-etik xüsusiyyətlərinin güclülüyü ilə seçilir. Qərb isə daha çox cəmiyyətin industriallaşması, dövlət quruculuğunun demokratizmi, yüksək, texnoloci inkişaf və ictimai həyata onun güclü təsiri ilə səciyyələnir. Sonuncu amillərin güclü olması Qərbdə çox vaxt şəxsiyyətdə texnofobiya adlı vəziyyəti (texniki inkişafdan qorxuya

düşmək və buna görə ondan üz döndərmək cəhdi) yaradır. Texnofobiya elə bir şəraiti ifadə edir ki, burada texniki priyomlar və obyektlər insan tərəfindən onun varlığı üçün təhlükə kimi qəbul olunur. Özüdə bu fikir kütləvi şüur səviyyəsində də geniş yayılmağa başlayır (241, s.298, 299).

Qeyd edək ki, şəxsiyyət tərəfindən Qərb və Şərq mədəniyyətinə fəal diqqət və münasibət bəslənilməsi təkcə Azərbaycan üçün səciyyəvi əlamət deyildir. Bu meyl demək olar ki, bütün postsovet respublikalarında özünü göstərir. Bu baxımdan qonşu Rusiyada Qərbə, Amerikaya rəğbət daha aydın hiss olunmaqdadır. Son dövrdə burada industrial cəmiyyətə xas olan tədbirlər (bir çox məsələlərlə bağlı dövlət məhdudiyyətlərinin aradan qaldırılması, milli əlahiddəliyin ləğvinə yönələn tədbirlər, milli mədəniyyətin dərindən öyrənilməsinə qayğı, insanın müxtəlif texnika və avadanlıq, EHM-la dialoqunun genişləndirilməsi və s.) daha önəmlidir.

Bununla əlaqədar olaraq XX əsrin 20-ci illərində yaranmış avroasiya adlı konsepsiya diqqəti cəlb edir. 90-cı illərdən etibarən o daha geniş yayılmağa başladı. Hələ «Voprosi filosofii» jurnalı 1995-ci ildə «Avroasiya: lehinə və əleyhinə, dünən və bu gün» adlı geniş «dəyirmi masa» keçirmişdi. Burada dərc olunmuş materiallarda avroasiya konsepsiyasının mahiyyəti, onun yaranmasının tarixi mədəni kökləri barədə maraqlı məlumatlar ifadə olunmuşdur. Məsələn, rus tədqiqatçısı A.S.Panarin yazır: «Avroasiyaçılıq bütövlükdə antiqərb mövqeyidir və nə qədər Qərb postsovet məkanının slavyan və müsəlman tərəflərini bir-birinə qarşı qoymaq xətti yeridəcəkdir, bu mövqe də bir o qədər güclənəcəkdir».

Həmin müəllif eyni zamanda göstərir ki, avroasiya mədəniyyətinin hər cür milli-dini və siyasi sərhədlərini və qarşıdurmasını ikinci plana keçirə biləcək universalılərinin işlənib hazırlanması və bərqərar edilməsi üçün hələ çoxlu cəhdlər göstərmək lazım gələcəkdir. Avroasiyanın müsəlman xalqları A.Panarinə görə, yalnız aşağıdakı hallarda Rusiya ilə bir dövlət daxilində birləşə bilər: 1) Fövqəldövlətin imicində müsəlmanlığa yeni rol verildikdə, yəni postsovet vəhdətinin bərpası ilə Avropa oriyentasiyasının saxlanılması bir-birilə uyuşduqda; b) Qərbə meyllilik vaxtilə Rusiyanın Avropadan «oğurlayaraq», onu Asiyaya keçirən müflisləşmiş bolşeviklərin reaksiyasıdır, onlar bunu «slavyan-müsəlman» konsensusunun yeganə üsulu hesab edirdilər, lakin bu gün belə restavrasiya az effektlidir, çünki böyük imperiya üçün böyük də mesiyançılıq ideyası lazımdır; c) Qərbə meyilillik əsas etibarilə, istehlakçılıq ideologiyası və Qərbin həyat standartları ilə əlaqədardır, buna görə də avroasiya məsələsinin həlli onun müasir qlobal çağırışlarda liderliyini bərqərar edən postmodernizm konteksində mümkündür.

Sözügedən məqalə müəllifinin fikrincə, pravoslav və müsəlman mədəniyyətlərini onların güclü estetik potensialını aktuallaşdırmaq, təkcə siyasi deyil, həm də vahid dini məkan yaratmaq lazımdır. «Deməli, elə bir yeni və qüdrətli dünyanı xilasedicilik ideyası zəruridir ki, o əvvəla, bir «fövqəlvəzifə» çərçivəsində pravoslav və müsəlman mədəniyyətlərinin konsensusunu təmin edə bilsin, ikincisi, o müasir postindustrial epoxanın ümidləri və priorietləri ilə uyuşa bilsin».

Avroasiya ideyasının bəzi maraqlı məqamları da vardır. Məsələn, burada göstərilir ki, insanın mənəvi potensialı heç də həmişə iqtisadi və elmi texniki potensialı ilə üst-üstə düşmür.

Mədəni potensial çox vaxt maddi zəiflikdən əlavə, onun kompensasiyası kimi özünü göstərir. Yeri gəlmişkən qeyd edək ki, maddi-iqtisadi ilə elmi-texniki tərəfin bir-birinə uyğun gəlməməsi, eləcə də birlikdə götürüldükdə onlar ilə mədəni potensial arasındakı uyğunsuzluq, müasir dövr şəxsiyyətinin həyatında təzahür edən çox ciddi problemlərdəndir. Bu tərəflər arasında özünü göstərən qeyri-mütənasiblik, onlardan birinin digəri vasitəsilə kompensasiya olunması ilə həll olunur. Məsələn, şəxsiyyət müəyyən maddi-iqtisadi və siyasi cəhətdən böhran vəziyyətinə düçar olduqda, onun mənəvi mədəniyyəti (ənənələri, dili, dini və s. ilə birlikdə) həyat axarına rəhbərliyi bir növ öz əlinə alır. Bu həm şəxsiyyətin özgürlüyünü qoruyub saxlamaq, həm də onun düşdüyü iqtisadi və siyasi böhrandan çıxış yolu aramaq baxımından çox böyük əhəmiyyət kəsb edir. Əgər böhran şəxsiyyətin mədəniyyətinin özgürlüyünü əhatə edirsə, onda vəziyyət çox ağır olur, onun üçün əsl fəlakətə çevrilir.

Avroasiya ideyasına millətçiliyin, özü də rus millətçiliyinin növü kimi yanaşanlar da vardır. Belə ki, V.A.Şnirelman onu imperiya millətçiliyi səviyyəsinə yüksəlmiş xüsusi növlü millətçilik hesab edir və göstərir ki, bu millətçiliyin mahiyyətini ümumrusiya dövlətçiliyi, rus dili, rus pravoslavlığı və ali səviyyəli rus mədəniyyət təşkil edir. Aşağı səviyyəli lokal xarakterli qeyri-rus mədəniyyətləri isə ona tabe vəziyyətdə olmalıdır (282, s.3).

Avroasiya təliminin əsasını qoyanlardan biri olan N.S.Trubetskoy onun kültiroloji səpkisinə və şəxsiyyətə təsirinə xüsusi diqqət yetirirdi. Onun fikrincə, mədəniyyət ayrı-ayrı fərdlər arasındakı fərqləri aradan qaldırmaq yolu ilə vahid psixiki tip yaratmağa xidmət edir. «Hər cür mədəniyyət müəyyən sosial mühitdə keçmiş və müasir nəsilərin tarixən dəyişkən kollektiv

yaradıcılığı məhsuludur. Həm də nəzərdə tutulmalıdır ki, hər bir mədəni dəyər bütövlükdə müəyyən sosial birliyin və yaxud onun tərkibinə daxil olan fərdlərin maddi və mənəvi tələbatını ödəmək məqsədi güdür».

Avroasiyaçılıq mövqeyindən çıxış edən müəlliflərin bir qismi açıqdan-açığa avropasentrizmi müdafiə edir və Avropa mədəniyyəti ilə Şərq mədəniyyəti arasında fərqləri daha da şişirtməyə cəhd göstərirlər. Bu mənada A.İqnatovun aşağıdakı fikri səciyyəvidir: «Bizim fikrimizcə, Qərbi Avropa mədəniyyətinin dəyərləri heç bir vəchlə Asiya mədəniyyətinin dəyərləri ilə eyniləşdirilə bilməz, çünki Şərqin siyasi ənənəsi despotizm, insanın dövlətə münasibətdə hüquqsuzluğu və elə bir ümumi ustanovka ilə səciyyələnir ki, o ayrıca götürülmüş şəxsiyyətin həyatının heç bir xüsusi dəyər kəsb etmədiyini irəli sürür. Əksinə, Qərbi Avropa, siyasi azadlığın və insan ləyaqətinin qorunmasının beşiyi olmuşdur» (131, s.54).

Bu fikrini davam etdirərək o göstərir ki, Rusiyanın Asiyaya məxsusluğunu bildirən komponentlərin xüsusi canfəşanlıqla qeyd olunması, insana münasibətdə Asiya despotizmini və Asiya biganəliyini Nəticə etibarilə qəbul etmək deməkdir. Bu hələ azmış kimi A.İqnatov Şərqi bunda günahlandırır ki, o, din, mənəviyyat, əxlaq, həyat tərzi, mədəniyyət və s. məsələlərdə özünü Qərb ilə tam eyniləşdirə bilmir.

Yeri gəlmişkən qeyd edək ki, sovet hakimiyyəti dövründə ideoloji həyatda hökmranlıq edən marksist fəlsəfəsinin siyasi kollektivizmə yuksək yer verməsi və fərdiliyi ümumi içərisində əridib itirməsi, avrasiyaçıların müvafiq baxışlarının geniş yayılmasına əlverişli qida vermişdi.

Bu münasibətlə göstərilməlidir ki, Avropa sivilizasiyası şəxsiyyətin hüquq və azadlıqlarının qorunmasına daha çox təminat verir. Lakin bu məqamı həddən artıq şişirtmək doğru olmazdı. Belə ki, industrial cəmiyyətin fonunda şəxsiyyətin individuallığı məsələsi yalnız mənəvi və mədəni sferalara aid edilir. Həmin məqama diqqət yetirərək məşhur amerikan iqtisadçısı və politoloqu C.Qelbreyt göstərirdi ki, industrial sistemdə şəxsiyyətin müəyyən bir problemi yaranır ki, bu istehsalda və istehlak sferasında fərdiyyətçiliyin məhv edilməsini tələb edir. Sonra o, sözünə davam edərək həyəcanla bildirir ki, biz hamımız insan şəxsiyyətinin suverenliyi və toxunulmazlığı ideyasına tərəfdar çıxırıq,lakin insan şəxsiyyətini necə xilas etmək olar və əgər ümumilikdə onu xilas etmək mümkündürsə?» (72, s.379).

Deyilənlər sübut edir ki, industrial cəmiyyətin şəxsiyyətə təsirini təkcə birtərəfli qəbul etmək, yəni burada şəxsiyyətin azadlığı və bərabərliyi ideyasının inkişaf etdiyini göstərmək kifayət deyildir. Həm də industrial cəmiyyətin bütövlükdə Avropa sivilizasiyasının şəxsiyətə, onun individuallığına pozucu və dağıdıcı təsiri də mütləq qeyd olunmalıdır. Təsadüfi deyildir ki, zəmanəmizin bir çox mütəfəkkirləri bu barədə tez-tez həyəcan təbili çalmaqda davam edirlər.

Şərq və Qərb mədəniyyətlərinin müasir ictimai inkişafda artan rolunu, eyni zamanda bu barədə fikir ayrılıqlarının davam etməkdə olduğunu 1997-ci ilin aprelində Moskvada «Şərq və Qərb sivilizasiyalarının dialoqu» mövzusunda keçirilmiş 3-cü Beynəlxalq simpoziumun materialları bir daha sübut etdi. Burada Şərqin və Qərbin mədəni ənənələrinin özünəməxsusluqları və onları birləşdirməyin qeyri-mümkünlüyü haqqında geniş diskusiyalar, habelə indiki vahid dünya birliyi sistemi daxilində

onların qarşılıqlı anlaşması və əməkdaşlığını təmin etməyin müqəddəm şərtlərinin yaradılması ilə bağlı problemlər ətrafında geniş diskussiyalar davam etdi. Diskussiyaların digər bir predmetini Qərb və Şərq sivilizasiyalarının dialoqunda dinlərin yeri, xüsusilə də müsəlman dininin mövqeyi ilə bağlı məsələlər təşkil etmişdir.

Simpoziumun dərc olunmuş materiallarında sivilizasiya anlayışının müxtəliv anlamları ifadə olundu. Bununla yanaşı onun məzmununda siyasi aspektin və siyasi mədəniyyətin üstün yer tutduğunu göstərənlər də və buradan çıxış edərək Qərb sivilizasiyasında (o cümlədən Rusiyanın nümunəsində) dövlətçiliyin icma psixologiyasının və onun şərtləndirdiyi kollektivizmin prioritet yer tutduğunu qeyd edən baxışlar da özünü göstərdi (119, s.175).

Bir sıra müəlliflər (A.Xanter, D.Sekston və başqaları) Çin sivilizasiyasının unikallığını və onun Qərbdə analoqunun olmadığını bildirdilər. Onların fikrincə, Çin sivilizasiyasının mənşəyi və funksiyaları bu cəmiyyətdə fərdin və fərdlərarası münasibətlərin total miqyasda sosiallaşması ilə müəyyən olunur. Bu sosiallaşma varlığın (səmanın, kosmolojı varlığın) və sosial həyatın (hakimiyyətin, dövlətin) əzəli və qeyd-şərtsiz paralelliyi ilə idarə olunur.

Simpoziumda həm də Qərbin aqressiv neoliberalizmi tənqid edilərək göstərildi ki, o, təsərrüfat həyatının totallaşmasına, şəxsiyyətin həddən artıq unifikasiyasına, şüurun kosmopolitik bərabərləşməsinə gətirib çıxarır. Bu meyil çox əhatəli olub, həm də Şərqi öz təsir dairəsinə cəlb edir.

Sözügedən elmi məclisdə müsəlman sivilizasiyasının genesizi və özünəməxsusluğu ilə bağlı problemlərə də diqqət yetirildi. Belə bir cəhət vurğulandı ki, (N.Kırabayev, T.İbrahim və başqaları)

islam mədəniyyəti açıq xarakter daşıyır və geniş dialoqa hazırdır, lakin xristian və müsəlman dünyalarının ənənəvi bir-birinə qarşı dürması ilə bağlı məsələlər buna mane olur.

Yuxarıda göstərilənlərlə yanaşı simpoziumda Qərb ilə Şərq arasında dialoqun həyata keçirilə bilməyən olduğunu göstərən çağırışlar da xeyli yer tuturdu. Bu mövqedən çıxış edənlər (P.Kiplinq, T.Robinsion və başqaları) sübut etməyə çalışırdılar ki, Qərb və Şərq mənəvi mədəniyyətləri antonimlər formasında çıxış edir. Birinciyə demokratiya, azadlıq, rasionalizm, individualizm, sekulyarlıq, liberallıq kimi keyfiyyətlər məxsus olduğu halda, ikinci bunları inkar edən cəhətlərə (totalitarizm, köləlik, irrasionalizm, icmalılıq, sakrallıq, konservatizm və s.) malikdir (119, s.177).

Əlbəttə, mədəni inkişaf baxımından Şərq regionunun bəşəriyyətə verdiyi töhfələr danılmazdır. Bu münasibətlə zəmanəmizin görkəmli filosofu V.Franklin öz həyatı və yaradıcılığına dair söylədiyi aşağıdakı epizod səciyyəvidir. «İnsan məna axtarışlarında» əsərində o yazır ki, mən Birləşmiş Ştatlara mühazirə oxumağa gedəndə yerli əhali deyirdi ki, onlara yeni fikirlər söyləyirəm, ən azı psixionalizdən fərqlənən fikirlər təqdim edirəm. Sonralar Asiyada (Hindistanda və Yaponiyada) isə mən bunun tam əksinin şahidi oldum. Oradakı insanlar mənə deyirdilər ki, mən onların bildiyi köhnə həqiqətləri təkrar edirəm, o həqiqətlər ki, onlar qədim Vedalarda, Tsenin təlimində və Lao-Tsi-zının əsərlərində ifadə olunmuşdur (265, s.19)

Buna görə də V.Frankl öz elmi yaradıcılığında həm Qərb və həm də Şərq fəlsəfi fikrinin bir çox hümanist ideyalarını əxz etməklə dövrün tələbatını ifadə edən tədqiqatçı statusu səviyyəsinə yüksəlmişdir.

Qərb və Şərq mədəniyyətlərinin mütərəqqi formalarını bir-birilə əlaqələndirməyin zəruriliyi ideyası K.Yaspers tərəfindən də əsaslandırılmışdır. O göstərirdi ki, mədəniyyətlər, dinlər və əsrlər arasında ümumbəşəri «kommunikasiyalar» yaradılmalıdır. Bunu başqa sözlə o, Şərq və Qərb mədəniyyətinin özülündə duran şəxsi məsuliyyət nəsihəti təlqin edən «ox dövrü» fəlsəfəsi yaratmaq kimi səciyyələndirirdi. «Biz daha yüksək səviyyədə – insanın varlığı və yaradıcılığı aləminin bütövlüyü səviyyəsində vəhdət axtarırıq. Buna cəhd göstərərkən biz bütün insanlara aid olan, onların hamısı üçün mühüm olan tərəfləri üzə çıxarmaqla əvvəlki dövrlərin vəhdətini əldə edirik. Lakin bu məqamın əhəmiyyətini yalnız insan ünsiyyətinin dinamikasında acmaq mümkündür. Qeyri-məhdud miqyaslı kommunikasiya yaratmağa çalışmaqla insanlar öz aralarındakı qarşılıqlı əlaqələri bütün bəşəriyyəti əhatə edən vahid ideal ox ətrafında birləşdirilməsini təcəssüm etdirməyə cəhd göstərirlər» (288, s.269).

Şərqin və Qərbin daxili həyat və təfəkkür formalarını dərindən araşdırdıqda məlum olur ki, Şərq təfəkkürünün və həyat formalarının müəyyən elementləri Qərbdə yayılmışdır. Eynilə də Qərbin sözügedən sahələrdəki elementləri Şərqdə özünə yer tapmışdır» (66, s.83-84).

Beləliklə, Qərb və Şərq mədəniyyətlərinin münasibətləri haqqında son dərəcə müxtəlif fikirlər söylənilməkdədir. Tədqiqatçıların bir qrupu göstərirlər ki, Şərq Qərb ilə eynidir, onlar arasında o qədər də dərin fərqlər yoxdur. Digərləri ayrı-ayrılıqda onlaran hər birinə məxsus olan spesifikliyi vurğulasa da, aralarında ümumi və oxşar cəhətlərin olduğunu qəbul edirlər. Nəhayət elə alimlər də vardır ki, onların fikrincə Şərq ilə Qərb bir-birindən o qədər fərqlənir ki, onlar arasında hər hansı ciddi təmas

əlaqələri ola bilməz. Sonuncu mövqe daha çox A.Hantinqton və P.Kiplinq tərəfindən müdafiə olunur. Məsələn, P.Kiplinq yazırdı:

«Qərb Qərbdir, Şərq isə Şərqdir. Onlar heç vaxt bir ola bilməzlər» (66, s.84).

Əlbəttə, Şərq ilə Qərbin mədəniyyətində, insanların həyat və təfəkkür tərzində müəyyən özünəməxsusluqlar da vardır ki, onları nəzərə almaq vacibdir. Məsələn, Şərqdə belə bir fikir əsas yer tutur ki, mövcud olan hər şey yarandığı gündən mükəmməl xarakter daşıyır, buna görə də bütün cəhdlər həmin mükəmməlliyi qoruyub saxlamağa yönəlməlidir. Odur ki, burada insanın yaradıcılığı demək olar ki, qəbul olunmur və qadağan edilirdi. Sonra, Şərqdə ekoloji problem də Qərbdəkindən fərqlənir. Şərq ictimai fikrində təbiətə münasibətdə belə bir mövqe hakim idi ki, təbiət də mükəmməl varlıq kimi yaranıb, buna görə də onu olduğu kimi qoruyub saxlamaq, ona müdaxilə etməmək, onu korlamamaq lazımdır. Qərb ictimai şüurunda isə uzun müddət təbiətdən mərhəmət gözləməmək, onu özümüzə tabe etmək «şüarı» hakim yer tutmuşdur. Sonra, Qərb təfəkkürünün və dünyaya münasibətinin mərkəzi prinsipini fəaliyyət, iş görmək, xarici aktivlik təşkil edir. Şərqdə isə təfəkkürün və dünyaya münasibətin mərkəzi prinsipini iş görməmək, müşahidə etmək, fikirləşmək, fikrin daxili aləmə təmərküzləşməsi təşkil edir.

Hazırda müxtəlif futuroloji konsepsiyalarda müasir, sənayecə inkişaf etmiş ölkələrin «postindustrial cəmiyyətə» doğru getdiyi haqda ideyalar irəli sürülür. Burada əsas diqqət səmərəli təşkil olunan mallar və xidmət növləri istehsalı ilə yanaşı, sözün həqiqi mənasında götürülən insani tələbatların ödənilməsinə yönəldilir. Həmin tələbatlara nümunə kimi hər kəsin öz işindən razı qalması,əmək prosesində sağlamlığın mühafizəsi, beynəlxalq

səviyyədə proqnozlaşdırmanın həyata keçirilməsi, cəmiyyətdə müxtəlif formalarda təzahür edən əsassız bərabərsizliyin aradan qaldırılması və s. daxildir. Bu qəbildən olan məsələlərin və digər problemlərin həlli yolları içərisində indi tətbiq olunan siyasi-iqtisadi rasionallıqdan gələcəkdə yeni, mədəni rasionallığa keçmək xüsusi yer tutur. Belə fikir irəli sürülür ki, məhz mədəni rasionallığın bərqərar olacağı şəraitdə insana müəyyən məqsədi həyata keçirmək üçün vasitə kimi yanaşılmayacaqdır, o öz-özlüyündə əsas məqsəd kimi götürüləcəkdir. Həm də nəzərdə tutulur ki, gələcəkdə mədəniyyət ilə sivilizasiya bir-birinə daha da yaxınlaşacaqdır. Elmi-texniki, texnoloji sahələrdə və istehsalda olan dəyişikliklərlə yanaşı, həm də insanların davranışı və əxlaqında, etik təsəvvürlərində mühüm irəliləyişlər baş verəcəkdir. Onlar isə öz növbəsində şəxsiyyətin həyat fəaliyyətinin bütün sahələrində, onun öz işinə, yoldaşlarına və ətrafındakılara münasibətində əhəmiyyətli yeniliklər yaradacaqdır.

Müasir şəraitdə bütövlükdə bəşəriyyətin və eləcə də hər bir insan şəxsiyyətinin əsas mənafeləri Qərb ilə Şərq arasında dialoqu genişləndirməyi zəruri edir. Bu tələbat indi həmişəkindən daha güclüdür. Hazırda hansı regionda yaşamasından asılı olmayaraq, bütün insanlar sanki bir gəmidə üzürlər. Buna görə də həm Qərbin, həm də Şərqin tarixi və milli-mədəni ənənələrində onları ayıran və fərqləndirən cəhətlərdən daha çox, bu sivilizasiya növlərinə xas olan ümumi və oxşar cəhətləri axtarıb tapmaq və geniş təbliğ etmək (onlar isə kifayət qədərdir), qarşılıqlı anlaşmaya və razılığa aparan yollarla getmək vacibdir. Bu münasibətdə XX əsrin böyük filosofu və ictimai xadimi A.Şveytserin aşağıdakı sözləri prinsip kimi qəbul oluna bilər. «Təsəvvür edək ki, Avropa və hind fəlsəfəsi arasında disput keçirilir: onlardan hər birinin

özünün müstəsna dərəcədə doğru olduğunu iddia etmək hüququ vardır. Çünki hər ikisi hədsiz dərəcədə qiymətli ideyalar xəzinəsinin məbədidir. Odur ki, həm Qərb və Şərq üçün, onlar arasında keçmişdə olmuş bütün tarixi fərqlərin fövqünə yüksələrək, bəşəriyyət üçün vahid fikir tərzi işləyib hazırlamaq zəruridir» (93, s.56).

Beləliklə, mənəvi mədəniyyət və onun şəxsiyyətə təsiri baxımından Qərb-Şərq münasibətləri problemi olduqca mürəkkəb olub, özündə çoxlu istiqamətləri və tərəfləri əhatə edir. Bununla bağlı məsələləri nəzərdən keçirərkən şəxsiyyətin individual keyfiyyətlərinin formalaşmasında mühüm rol oynayan mənəvi dəyərlərin və mədəni sərvətlərin spesifikliyi (mentallıqı) ilə bağlı cəhətləri, digər tərəfdən isə onların universal xarakter daşıyan keyfiyyətləri ayrılmaz vəhdətdə götürülməlidir. XX əsrin tarixi, dünya ölkələri arasında münasibətlərin inkişafı, onların əməkdaşlığı və birliyinin artması, eyni zamanda dövrün qlobal problemlərinin və ümumi taleyüklü məsələlərin həllində tarixi məsuliyyətin dərk olunması ilə əlamətdardır. A.Toynbinin dediyi kimi bəşəriyyətin ümumi taleyinin formalaşması məhz bu dövrdən başlanır.

Bu paraqrafda aparılan təhlillər aşağıdakı əsas nəticələrə gətirib çıxarır:

1. Hər bir tarixi mərhələdə olduğu kimi müasir cəmiyyətdə də şəxsiyyət ilə mədəniyyətin inkişafı bir-birindən ayrılmazdır, lakin yaşadığımız müasir dövrün reallıqları onların qarşılıqlı münasibətlərinin daha da möhkəmlənməsi ilə səciyyələnir. Bu onda ifadə olunur ki, mədəniyyət şəxsiyyətin həyat fəaliyyətinin bütün formalarında getdikcə artmaqda olan rol oynayır, digər tərəfdən şəxsiyyət mövcud mədəniyyət nümunələrini sadəcə əxz etməklə

məhdudlaşmır, onları yaradıcı surətdə inkişaf etdirir, beləliklə də cəmiyyətin mədəniyyətinin yüksəlişinə mühüm təsir göstərir.

2. Demokratikləşmə, fikir plüralizminə, sərbəst mənəvi yaradıcılığa geniş meydan verilməsi, müasir şəxsiyyətin dialoqluluq və kommunikativlik kimi keyfiyyətləri bu prosesi daha da sürətləndirir. Şəxsiyyət ilə mədəniyyətin qarşılıqlı təsirinin müasir səviyyəsi üçün səciyyəvi olan dinamiklik mürəkkəb mexanizmə malikdir və çox müxtəlif formalarda həyata keçirilir.

3. Müasir dünyada gedən siyasi və mədəni proseslər güman etməyə əsas verir ki, bəşəriyyətin sağlam düşüncəsi Qərb və Şərq sivilizasiyalarının qarşı durmasını aradan qaldıracaq, onların qarşılıqlı əlaqələrini daha da möhkəmləndirəcəkdir.

Bu sivilizasiyalar arasında geniş miqyaslı dialoqu möhkəmləndirmək, həmin mədəniyyətlərin ayrı-ayrılıqda hər birinə xas olan müsbət cəhətləri əlaqələndirmək və onlardan şəxsiyyətin formalaşması və inkişafı naminə istifadə etmək müasir Azərbaycan cəmiyyəti üçün daha çox spesifikliyə malikdir. Belə ki, ölkəmiz coğrafi məkan baxımından hər iki sivilizasiyanın qovuşma sərhəddində yerləşdiyi üçün bir tərəfdən burada sözügedən məsələnin həlli baxımından daha əlverişli şərait yaranır (hər iki mədəniyyətə xas olan mütərəqqi cəhətləri əlaqələndirmək üçün). Digər tərəfdən Azərbaycan həm Qərb, həm də Şərq mədəni dəyərlərinin özünəməxsus şəkildə toqquşma meydanı kimi çıxış edir. Belə vəziyyətdə cəmiyyətimizin hər bir üzvü qarşısında mənəvi dəyərlər labirintində düzgün seçim edə bilməsi tələbi irəli sürülür ki, bu məqam sözügedən problemin həllində müəyyən çətinliklər yaradır.

## 2.6. Müasir şəxsiyyətin özgələşməsi və humanizmi

Müasir sosial fəlsəfədə geniş yer tutmaqda olan şəxsiyyətin öyrənilməsinə hərtərəfli yanaşma, zəmanəmizin ən aktual problemlərindən biri olan özgələşmənin təbiəti və məzmununu açmağa imkan verir. Sözün ümumi mənasında özgələşmə dedikdə şəxsiyyətin ontoloji mahiyyəti ilə onun real varlığının bir-birindən kəskin surətdə ayrılması və uzaqlaşması başa düşülür. Özgələşmə elə bir sosial və psixoloji durumdur ki, bu vəziyyətdə şəxsiyyət ilə real mövcud sosial strukturlar arasında ziddiyyətlər özünü göstərir. Bu ziddiyyət fərdin öz qabiliyyətlərini reallaşdırmaq imkanları ilə sosial münasibətlər arasında uyğunsuzluq formasında çıxış edir. Həm də özgələşmə sosial statusundan asılı olmayaraq bütün şəxsiyyətlərin həyat fəaliyyətində bu və ya digər dərəcədə özünü göstərir.

Özgələşmə çoxtərəfli və geniş məzmunlu sosial hadisədir. O təkcə iqtisadi, siyasi və mədəni həyat sferaları ilə məhdudlaşmayaraq, şəxsiyyətin daxili aləmini, şüurunu və psixikasını da əhatə edir. Beləliklə də özgələşmə insanın ümidləri və arzuları ilə sosial strukturların normaları arasında ayrılığın onun şüurunda müəyyən psixoloji ifadəsi, bu normaların şəxsiyyət tərəfindən yad və ona düşmən kimi qəbul edilməsi, təcrid olunma və tənhalıq hissi, davranış normalarının dağılması kimi qəbul edilməsi deməkdir (5, s.472).

Müasir dövrdə şəxsiyyətin özgələşməsi ilə bağlı problemləri dərindən anlamaq üçün fikrimizcə, onun fəlsəfi ənənədə yerinə qısa da olsa, nəzər salmaq məqsədəuyğundur.

Fəlsəfi fikir tarixində belə bir rəy mövcud olmuşdur ki, insanların öz hüquqlarını ictimai-siyasi təşkilatlara verməsi özgələşməni, yəni şəxsiyyətin tələbatları ilə mövcud quruluşun

davranış normalarının bir-birindən ayrı düşməsini törədir. Qərbdə geniş yayılmış ictimai müqavilə nəzəriyyəsində, Hobbsun, Russonun və sonralar Hegelin təlimlərində mənəvi özgələşmə, yəni siyasi hüquqların özgələşməsi, ruhun özgələşməsi əsas götürülürdü.

Özgələşmənin ümumi tarixi xarakter daşıdığını anlamaq üçün onun Hegel tərəfindən təfsiri diqqəti cəlb edir. Əvvəla, onu qeyd edək ki, bu anlayış Hegelin fəlsəfəsində mərkəzi yerlərdən birini tutur. O, özgələşmənin əsas mahiyyətini insanın öz yaratdıqlarına, yəni reallaşdırdığı gerçəkliyə spesifik münasibətində görürdü. Hegelə görə, məhz insanın yaratdığı bu reallaşdırılmış gerçəklik onun özü tərəfindən əsl həqiqi olmayan kimi başa düşülür və özgələşməni yaradır, yəni şəxs onlara münasibətdə öz «Mən»ini qoruyub saxlayır. «İradənin fərdiliyinin özgələşməsi onun bilavasitə saxlanılması deməkdir. Bu mənəviliyin ən yüksək mərhələsidir. Bu pillədə ikiyə bölünmə o deməkdir ki, hər bir tərəf tamamilə özü-özünə qayıdır, özgürlüyünü mahiyyət kimi anlayır (102, s.361).

Hegel göstərirdi ki, özgələşmə prosesində insan ayrıca bir fərd kimi ən ümumini özündən kənarlaşdırır və ona tam müstəqillik verir, bu halda o, gerçəkliyindən imtina edərək, yalnız bilik kimi qalır. Məsələn, insanın mənfi keyfiyyətləri, qəbahəti öz mövcud varlığından tam imtina edən özgürlüyünün tam şəkildə özgələşməsi deməkdir, onun artıq öz ümumi dünyası deyil, başqa dünyası vardır.

Böyük mütəfəkkir özgələşmə kateqoriyasına xüsusi əhəmiyyət verərək, onu özünün «substansiya – subyekt» konsepsiyasının əsasına qoymuşdur. Həmin konsepsiya isə subyekt ilə obyektin

«mütləq eyniyyətini» israr edərək göstərir ki, burada ruh eyni zamanda həm «substunsiya» və həm də «subyekt» kimi çıxış edir.

Hegelin təlimində dünya ruhu «iki aləmə bölünür: birincisi gerçəklik dünyası və yaxud ruhun özünün özgələşməsi dünyasıdır, ikinci dünyada isə ruh birincidən yüksəkdə duraraq özünü xalis şüur efirində quraşdırır» (99, s.262). Hegel bu fikri dövlətə tətbiq edərək qeyd edirdi ki, dövlət fərdlərin mahiyyətinin ifadəsi deməkdir. O nə dərəcədə sadə substansiyadırsa, bir o qədər də ən ümumi hadisə deməkdir. «O elə bir mütləqlikdir ki, burada fərdlərin mahiyyəti ifadə olunur və onların fərdiliyi sadəcə olaraq onların ümumiliyinin başa düşülməsidir» (66, s.266). Hegelin fikrincə, özgələşmə ruhun qəlb, can tərəfindən inkar edilməsi ilə başlayır. Bu, birinci inkardır, ikinci inkar – ümumiyyətlə götürülən qeyri-xoşbəxtlik deməkdir, üçüncü pillə ən yüksək olub, subyektin mənlik şüurunun ali səviyyədə özgələşməsi deməkdir (104, s.166).

Fəlsəfi ədəbiyyatda haqlı olaraq göstərilir ki, Hegel özünün fəlsəfi sisteminə müvafiq olaraq özgələşməni daxili xarakterli inkarın (canın ruhu inkar etməsi) və xarici xarakterli inkarın (dövlətin insanı inkar etməsi) və transendental xarakterli inkarın (insan və vahid yaradıcı – Allah) nəticəsi hesab edir (54, s.124).

XIX əsrin ikinci yarısından başlayaraq industrial cəmiyyətin inkişafı ilə əlaqədar olaraq özgələşmə probleminə diqqət daha da artdı. Həmin dövrdən etibarən fəlsəfi fikirdə belə bir meyl qərarlaşdı ki, özgələşmə insan üçün zəruri keyfiyyətdir və sosial həyatda onun aradan qaldırılması mümkün deyildir. XX əsrdə bu meyl daha da inkişaf etdirildi və göstərildi ki, özgələşmə insanın sosial həyatda iştirakının mahiyyət xarakterli səviyyəsidir. Artıq bu dövrdə özgələşmə kateqoriyası sosial prosesləri əks etdirən

digər anlayışlar ilə əlaqəli götürülürdü. Məsələn, Manheym və M.Beber onu bürokratiya ilə, Dürkheym və Merton sosial anomiya ilə, Markuze isə onu industral cəmiyyətə xas olan istehlakçılıq yarışı ilə sıx əlaqədə nəzərdən keçirmişdir.

Yeri gəlmişkən qeyd edək ki, özgələşmə problemi təkcə Qərb fəlsəfəsində deyil, həm də Şərq nəzəri fikri tarixində (məsələn, ən çox sufizm təlimində) özünü göstərmişdir. Lakin bu iki fikir istiqaməti tərəfindən özgələşmənin anlaşılmasında müəyyən fərq də vardır. Belə ki, Qərb fəlsəfi ənənəsində özgələşmə ya nihilizmin sərhəddində olan tənhalıq ilə, yaxud da özünü tamamilə dinə həsr etməklə başa çatır. Şərq fəlsəfəsində isə bir qayda olaraq özgələşmə həqiqət axtarışları və Allaha sevgi yolunda özünü göstərən tərkidünyalıq və asketizm ilə tamamlanır.

Qeyd edilməlidir ki, şəxsiyyətin özgələşməsinin müvəqqəti, konkret tarixi xarakter daşıdığı, yaxud da bütün dövrlərdə zərurən fəaliyyət göstərən ümumtarixi sosial fenomen olması haqqında məsələ fəlsəfi fikirdə birmənalı izah olunmur. Məsələn, marksizm fəlsəfəsi göstərirdi ki, özgələşmənin əsas mənbəyini xüsusi mülkiyyət təşkil edir və o kapitalizm cəmiyyətində özünün ən yüksək pilləsinə çatır. Buna görə də kapitalizmin inqilabi yol ilə devrilməsi, həm də özgələşmənin aradan qalxması demək olacaqdır. Bu məntiqə görə kommunizmin bərqərar olması gedişində ictimai münasibətlərin sosiallaşması baş verəcək və beləliklə də özgələşmə yox olacaqdır. Sözügedən baxışı doğru hesab etmək olmaz. Səbəbi də budur ki, yuxarıda deyildiyi kimi özgələşmə xüsusi mülkiyyətin deyil, ictimai əmək bölgüsünün nəticəsidir. Buna görə də onu xüsusi mülkiyyət ilə bağlayaraq gələcəkdə yox olacağını iddia etmək əsassızdır. Bunu tarixi təcrübə də sübut edir. Bu prosesdə özgələşmənin zəifləməsi meyli özünü

göstərmir. O, ictimai əmək bölgüsü ilə əlaqəli olduğu üçün (ictimai əmək bölgüsü isə gələcəkdə də qalacaqdır), öz-özünü tənzim edən sistemə-cəmiyyətə daxilən məxsus olan keyfiyyət kimi təsəvvür olunan perspektivdə qalmaqda davam edəcəkdir. Söhbət onun kəskinlik dərəcəsinin azadılmasından və yumşaldılmasından gedə bilər. Özgələşmə prosesinin öz inkişafında malik olduğu fazaların və mərhələlərin xarakteri də spesifikdir. Yəni onun yüksələn və yaxud da enən xətt üzrə getdiyini söyləmək o qədər də ağlabatan deyildir. Görünür ki, bu proses daha çox spiralvari formada çıxış edir. Belə ki, bəşəriyyətin tarixində elə dövrlər olmuşdur ki, özgələşmənin nisbətən zəiflədiyi və yaxud gücləndiyi hallar özünü göstərmişdir (158, s.294).

Ədalət naminə qeyd olunmalıdır ki, özgələşmənin kapitalizm cəmiyyətinə nəzərən verilən marksist təhlilin bəzi müddəaları indi də öz əhəmiyyətini itirməmişdir. Bu, xüsusən də özgələşmənin iqtisadi, siyasi və mənəvi növlərinə və təzahür formalarına aiddir. Marksizm özgələşmənin məzmununda aşağıdakı səpkiləri seçib ayırırdı: a) bütövlükdə insanın fəaliyyətinin özgələşməsi və bunun nəticəsində işçinin əmək prosesində tam yorğun və sarsımış halda özünü göstərməsi; b) əmək şəraitinin və əməyin özünün özgələşməsi; c) əməyin nəticələrinin muzdlu işçidən özgələşməsi; ç) sosial institutların və onların tələb etdiyi normaların zəhmetkeşlərdən özgələşməsi; d) ideologiyanın həyatdan özgələşməsi. Bu onunla nəticələnir ki, cəmiyyətin bütün üzvlərində şəxsiyyəti normal çərçivədən kənara çıxan davranışa gətirib çıxaran ideologiya formalaşdırılır, yəni onun ideoloji manipulyasiyası baş verir.

Özgələşmə probleminə eksistensialist və personalist mövqeyindən yanaşma bu prosesin təkcə kapitalizm deyil, bütün

quruluşlara xas olduğunu israr edir. Fikrimizcə, sonuncu baxış həqiqətə daha uyğundur. Belə ki, şəxsiyyət ilə cəmiyyət arasında müəyyən fərqlilik və mənafe müxtəlifliyi mövcud olduqca (həmin göstərici isə bu və ya digər dərəcədə bütün dövrlərdə mövcud olacaqdır), özgələşmə də müəyyən formalarda təzahür edəcəkdir. Lakin buradan belə bir yanlış nəticə çıxarmaq olmaz ki, özgələşmə bütün dövrlərdə eyni məzmuna malikdir və eyni səviyyədə ifadə olunur. Əslində özgələşmə anlayışının məzmunu tarixi xarakter daşıyır. Bu isə o deməkdir ki, cəmiyyət siyasi, iqtisadi, mədəni və mənəvi sahələrdə tərəqqi edib, mükəmməl səviyyəyə yüksəldikcə, həmin istiqamətlərin hər birində şəxsiyyət ilə cəmiyyətin əlaqələri daha da yaxınlaşır və təkmilləşir.

Müasir dövrdə cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi münasibətlərinin keyfiyyətcə dəyişilməsi, ənənəvi psixoloji və ideoloji ustanovkaların aradan qalxması, mədəni və mənəvi dəyərlərin yenidən mənalandırılması kimi əsaslı proseslər şəxsiyyət ilə cəmiyyət arasında qarşılıqlı yaxınlığı artırır və özgələşməni xeyli dərəcədə yumşaldır.

Bununla belə müasir cəmiyyətdə şəxsiyyətin özgələşməsinin tam aradan qalxdığını iddia etmək sadəlövhlük olardı. Hər şeydən əvvəl ona görə ki, cəmiyyətin yüksələn xarakteri və buradan irəli gələn amillər, şəxsiyyətin iqtisadi, siyasi və mənəvi sferalarda özgələşməsinə şərait yaradır və ona qida verir. Digər tərəfdən, cəmiyyətin qarşısında duran starteji məqsədlərin (hərtərəfli və ardıcıl demokratikləşmə, bazar münasibətlərinin formalaşması, vətəndaş cəmiyyəti və hüquqi dövlət yaradılması və s.) tam başa çatmaması üzündən şəxsiyyət – cəmiyyət münasibətlərində özgələşmə də qalmaqda davam edir.

Müasir dövrdə şəxsiyyətin özgələşməsi bir çox amillər kompleksinin birgə təsiri altında baş verir. Onların sırasında elmi-texniki tərəqqi xüsusi yer tutur. Belə ki, elmi-texniki tərəqqi şəraitində dövlət aparatı geniş miqyasda şişirdilir və o, ictimai həyatın bütün sahələri üzərində sərt nəzarət həyata keçirən nəhəng «texnokratik maşına» çevrilir. Bu proses istər-istəməz şəxsiyyətin fəaliyyəti üzərində də nəzarətin çoxalması, onun azadlıq və müstəqilliyinin, mənəvi seçim imkanlarının məhdudulaşdırılması ilə müşayiət olunur. Hazırda elmi-texniki tərəqqinin sürətli gedişi ictimai həyat formalarına pozucu təsir edir, insan ölçülərinin və maraqlarının həyata keçirilməsinə maneçilik yaradır. Bu meyl çoxaldıqca texnofobiya (hərfi mənası texnikadan qorxmaq deməkdir) adlı hadisə özünü göstərir. Həmin anlayış elə bir şəraiti əks etdirir ki, burada texniki «əməliyyatların və obyektlərin özgələşmiş dünyası insan tərəfindən öz varlığı üçün təhlükə kimi qəbul olunur və bu vəziyyət kütləvi şüur səviyyəsində geniş yayılır» (241, s.299).

Mükəmməl texniki vasitələrin geniş tətbiqi, informasiya texnologiyasının heyrətamiz nailiyyətləri şəxsiyyətin hər bir hərəkətini və atdığı addımı nəzarət altına almağa imkan verir. Bu isə nəticə etibarilə şəxsiyyətin daxili fəallığı və yaradıcı müstəqilliyini xeyli dərəcə zəiflədir. Sonra, müasir dövrdə kütləvi informasiya vasitələrindən şəxsiyyətin emosiyalarını, fikir və hisslərini manipulyasiya etmək üçün məharətlə istifadə olunur. Bununla yanaşı onun zəka və iradəsinin müəyyən çərçivəyə salınması, başqa sözlə deyilsə, ağılın standartlaşdırılması meyli baş verir. Buradan aydın olur ki, elmi-texniki inkişafa uymaq insan fəaliyyətinin mənəvi əsaslarını sarsıdır, şəxsiyyətin həyat tərzindən

və sosial vəziyyətdən narazılığını artırır, onun mənəvi dünyasını eroziya təhlükəsi ilə üzləşdirir.

Müasir cəmiyyətdə özgələşməni törədən amillər sırasında sosial narahatlıqlar, narazılıqlar və ədalətsizlik halları əhəmiyyətli yer tutur. Öz gündəlik həyatında, fəaliyyətində bu qəbildən olan hadisələr ilə tez-tez rastlaşan insanda özgələşmə, tərkidünyalıq və tənhalıq baş qaldırır. Bu mənada qeyd olunmalıdır ki, Azərbaycanda 90-cı illərin əvvəllərində qərarlaşmış olan siyasi sabitsizlik, qeyri-müəyyənlik və hərcmərcilik mühiti özgələşməyə güclü qida vermişdi.

Zəmanəmizin görkəmli filosoflarından olan E. From göstərirdi ki, insan varlığı unikal və eyni zamanda ümumi xarakter daşıyır. Onun daxili aləmində sosial səbəblərdən irəli gələn konfliktlər əsas yer tutur. Bu konfliktlərin səbəbləri isə müasir dünyada insanın mövcudluğunun özülündə duran özgələşmə, əkshumanistləşmə və istehlakçı cəmiyyətdə insanın öz şəxsi keyfiyyətlərini itirməsi və şəxsizləşməsi kimi hadisələrdir. Buna görə də onun fikrincə, bunların aradan qaldırılması sosial şəraitin özünün dəyişdirilməsi, yəni daha humanist cəmiyyət qurulması və insanın sevgiyə, etiqada və zəkaya olan daxili qabiliyyətinin genişləndirilməsi ilə bağlıdır (197, s.312).

Qeyd olunmalıdır ki, ictimai əmək bölgüsünə əsaslanan cəmiyyətdə özgələşmənin kökləri istehsalda, fərdin istehsal fəaliyyətində özünü göstərir. O, istehsalda, bölgüdə, mübadilə və istehlakda bir-birinə əks tərəflərin əlaqəsi üsulu kimi çıxış edir. Həmin əks tərəflərə misal olaraq istehsal vasitələrinin mülkiyyətçisi ilə iş qüvvəsinin sahibi arasında, istehsalçı ilə istehlakçı arasındakı fərqi göstərmək olar. Bu ayrılıq antaqonist cəmiyyətlərdə daha kəskin şəkildə çıxış edir. Burada işçinin əməyinin

nəticələri başqasına məxsus olur. Buna görə də əmək işçi üçün nə isə bir kənar amilə, onun mahiyyətinə mənsub olmayan fəaliyyət növünə çevrilir.

Lakin özgələşmə təkcə maddi istehsal sferası ilə məhdudlaşmır. O, burada yarandıqdan sonra digər sferalara keçir. Tədricən siyasi təsisatlar, mənəvi nemətlərin istehsalı və istehlak edilməsi, sosial sferanın institutları (təhsil, səhiyyə) da fərddən özgələşmiş hala düşür.

Özgələşmənin mahiyyətinə nəzər saldıqda onun ikipilləli xarakteri aşkara çıxır. Birinci səviyyədə sosial kollektivlərin üzvü olan insanlardan onların iş qüvvəsi, qabiliyyətləri və fəaliyyətinin nəticələri ayrılır. Lakin özgələşmə bununla bitmir, ikinci pilləyə yüksəlir. Həmin pillədə insanların fəaliyyətinin özgələşmiş nəticələri müstəqil amillərə çevrilir, onların nəzarətindən çıxır və cəmiyyət üzərində hökmranlıq edən qüvvə kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, indi şəxsiyyətin özgələşməsi bu və ya digər ölkələrin hüdudlarından kənara çıxaraq, bir çox münasibətdə beynəlxalq, qlobal hadisəyə çevrilmişdir. Müasir dünyada gedən qloballaşma prosesləri, habelə onlarla milli müstəqil dövlətin keçid mərhələsində olması və bu mərhələnin hələ xeyli davam edəcəyi faktı, insanların özgələşməsinə və tənhalıq vəziyyətinə düşməsinə surətləndirici təsir göstərir. Bu təsir xüsusilə də xırda dövlətlərin və xalqların həyatında daha güclü hiss olunur. Təsadüfi deyildir ki, hazırda dünyanın bir çox regionlarında qloballaşma əleyhinə hərəkatlar genişlənməkdədir. Onlar konkret vəziyyətdə hansı məqsəd güdməsindən asılı olmayaraq, ümumən xalqların öz milli-tarixi xüsusiyyətlərini, öz varlığını və özgürlüyunü qoruyub saxlamağa yönəlmişdir.

Şəxsiyyətin özgələşməsi, tənhalıq hissinin güclənməsi əksər hallarda həyatın mənasının gərəksizləşməsi ilə nəticələnir. Sonuncu hal təkcə industrial cəhətdən inkişaf etmiş Qərb ölkələri üçün səciyyəvi əlamət deyildir. İndi o, mənəvi keyfiyyətlərin mövcud gerçəkliyə adekvat olmadığı digər ictimai sistemlərdə də özünü göstərir. Sözügedən məsələ, yəni mövcud ictimai həyat ilə insanların malik olduğu mənəvi keyfiyyətlərin uyğun gəlməməsi indi prinsipial problemlərdəndir. Çünki bu iki tərəf qarşılıqlı surətdə bir-birini şərtləndirməlidir. V.Franklın mənəvi dəyərlərin ikiqat zənginləşməsi və reallaşması nəzəriyyəsində də göstərildiyi kimi «müəyyən məqamlarda həyat bizi öz hərəkətlərimizlə bu dünyanı zənginləşdirməyə çağırır, elə vaxtlar da olur ki, biz yaşantılarımızla öz-özümüzü zənginləşdirirk» (6, s.174).

Mənəvi keyfiyyətlər insanın həyat və fəaliyyətində çox önəmli bir yer tutur. Onların sırasında elə yüksəkləri vardır ki, şəxsiyyətin öz amalı naminə fədakarlıq göstərməsini, lazım gəldikdə həyatını belə qurban verməsini nəzərdə tutur. Təsadüfi deyildir ki, V.Frankl insanı öz taleyinə və qismətinə tabe olmağı, mənəvi keyfiyyətlərini qoruyub saxlamağı və onları özünə yaxın olanlarla bölüşdürməyi həyatın mənası hesab edir və insanları buna səsləyirdi (265, s.174).

Bu fikir müəyyən qədər süni yönüm kəsb etməsinə baxmayaraq, öz-özlüyündə mühüm əhəmiyyət kəsb edir.

Müstəqillik qazanmış cəmiyyətlərdə, o cümlədən də müasir Azərbaycanda şəxsiyyətin sosial və mənəvi özgələşməsi halları qarşılıqlı surətdə bir-birinə təsir edərək, ümumilikdə bu prosesi sürətləndirir. Belə cəmiyyətlərin keçirdiyi böhranlı məqamlarda dövlət və sosial strukturlar insandan daha çox özgələşir. Sözügedən məqamlarda ictimai qaydaların qorunmasına təminat

olmadığı üçün insanın da özgələşməsi güclənir. Nəhayət, belə dövrlərdə sosial münasibətlərin fərdiliyə, onun özünəməxsusluğuna qarşı yönəlməsi nəticəsində mənəvi həyat özgələşir. Həm də nəzərdə tutulmalıdır ki, bu qəbildən olan özgələşmə sadəcə olaraq gerçəklikdən üz döndərmək və ya onun inkar edilməsi ilə məhdudlaşmır. Bu, eyni zamanda şəxsiyyətin qəti etirazı formasını alır. Həmin etiraz isə bir sıra hallarda insanda tənhalıq adlanan «ekzistensial vakuum»un (V.Frankl) yaranmasında ifadə olunur. Bununla əlaqədar qeyd edək ki, özgələşmənin nəticəsi kimi çıxış edən tənhalıq probleminin fəlsəfi mənalandırılması təzə məsələ olmayıb, qədim ənənəyə malikdir. Yəni onu təkcə müasir cəmiyyətin törətdiyi bəla hesab etmək ədalətsizlik olardı. Belə ki, hələ xristianlıq dinində Ekleziastın dili ilə göstərilirdi ki, «insan təkdir, onun heç kimi yoxdur, onun əməyi sonsuzdur və gözü heç vaxt sərvətdən doyan deyildir» (60, s.14).

Tənhalıq birdən-birə və öz-özünə yaranmır. Şəxsiyyətin bu vəziyyətə gəlib çatmasına təkcə mövcud cəmiyyətdə özünü göstərən çətinliklər və problemlər deyil, həm də fərdi insanın tələbatı, arzusu, iradəsi, marağı, məqsəd və vəzifələri, onlara nail olmağın vasitələri ilə əlaqəli amillər də güclü təsir göstərir.

Daxili məzmununa görə xeyli dərəcədə mürəkkəb hadisə olan tənhalıq və kimsəsizlik aşağıdakı mərhələlərdə çıxış edir. Birinci ən yüngül pillə onu ifadə edir ki, şəxsiyyət müəyyən mənəvi-əxlaqi keyfiyyətlərə malikdir, onun rasional tələbatları və məqsədləri vardır. Lakin o öz məqsədlərini həyata keçirməyin vasitələri haqqında ən sadəlövh təsəvvürlərə arxalanır. Belə fərdlər özləri bədbəxt olmaqla yanaşı, həm də cəmiyyət üçün təhlükə təşkil edirlər. Çünki öz primitiv biliklərinə arxalanmaqla yüksək

səviyyəli tələbatlarını reallaşdırmağa çalışırlar. İkinci mərhələ bününla səciyyələnir ki, şəxsiyyət öz məqsədlərini həyata keçirmək üçün vasitələr işləyib hazırlaya bilmir və onda həm də digər mövcud vasitələrdən istifadə etmək məharəti yoxdur. Üçüncü pillədə fərd rasional və konstruktiv tələbatlara malik olur, lakin onları adekvat arzular formasında anlaya bilmir. Nəhayət, kimsəsizliyin dördüncü mərhələsi bunu ifadə edir ki, fərdin nəinki adekvat məzmunlu arzuları yoxdur, o heç fundamental sosial tələbatlara da malik deyildir. Bu səviyyədə şəxsiyyət özündə real olmayan tələbatları yerinə yetirmək barədə düşündüyü vasitələri də məhv edir (162, s.60-68)

Tənhalıq problemi Amerika və Qərbi Avropa filosoflarının təlimində (H.Toro, Emerson, S.Kerkeqor, E.Qusserl və başqaları) öz əksini tapmışdır. Məsələn, protestant tənhalığı motivləri XIX əsr amerikan transendentalistlərinin (H.Toro, A.Emerson) fəlsəfəsinin dayaq nöqtələrindən birini təşkil edirdi. S.Kerkeqor isə tənhalıq problemini açmağa cəhd göstərərək, onun məzmununa Allahdan başqa heç kimin dəyişdirə bilmədiyi tale ünsürünü, mənlik şüurunun daxili dünyasını aid edirdi. Onun fikrincə, «mənəvi insan» lap əvvəldən kənar şəxs kimi cəmiyyətə cəlb olunur və o, tənha yaşayan quşlara bənzəyir. Həmin quşlar gecə qaranlığında həyatın puçlüğüna, günün çox keçməsinə və vaxtın sonsuz dərəcədə uzunluğuna nüfuz edə bilmək üçün yalnız bir dəfə bir yerə yığışırlar (162, s.13).

Müasir Qərb fəlsəfəsində tənhalığın mənalandırılmasında iki əsas istiqamət özünü göstərir. Birinci istigamət romantik utopizmin davamı kimi yaranmışdır. O, sonralar hər bir icma üzvünün daxili və xarici azadlığını nəzərdə tutan «kollektivçilik» və «kommunizm» nəzəriyyələrini yaradan neoromantik

ideologiyaya çevrilmişdi. İkinci istigamət öz əsasını S.Kerkeqorun fəlsəfəsindən götürür və E.Qusserln nəzəriyyəsində daha da inkişaf etdirilir. Bu nəzəriyədə xarici aləmdən tam təsrid olunmuş, özünün spesifik qanunları və prinsipləri olan xüsusi yaşantılar sferası əsas yeri tutur. Bu cəhət Avropa ekzistensializminin ideya mənbəyini təşkil edir. Sonuncu cərəyanın nümayəndələri (Haydekker, Sartr, Yaspers) sübut etməyə çalışırdılar ki, Avropa həyatının əsasında duran mefafizika bütün mövcudatı insana tabe etməklə, onun həyatını kütləviləşdirir və beləliklə, onun bütün həyat tərzini özgələşdirir. Buna görə də onlar «varlığın həqiqiliyini» axtarıb tapmağı başlıca məqsəd hesab edirdilər. Son nəticədə bu məqsədə nail olmağın qeri-mümkünlüyünü elan edərək çox vaxt dinə pənah gətirirdilər.

Beləliklə də ekzistensializm irrasionalizm təbliğ edərək göstərir ki, «varlığın həqiqiliyi» zəkaya, ağıla müyəssər deyildir. Ekzistensialistlərə görə, zaman anlayışı ümidlər, axtarışlar və gərginlik mövqeyindən yanaşılan insan fəaliyyəti ilə sıx bağlıdır. Onların fikrincə, tarixi ölçüdə götürülən zaman və insanın bu zamanda mövcudluğu elə bir situasiyanı ifadə edir ki, sanki insan buraya atılmışdır və onunla hesablaşmağa məcburdur. Beləliklə də insanın mahiyyətinin bütün atributları, bioloji və psixoloji səviyyəsi «dünyada varlıq» kimi çıxış edən situasiya ekzistensiya xarakteri alır. Bu münasibətdə Yaspers tərəfindən varlıq anlayışının izahı diqqəti cəlb edir. O, varlığın aşağıdakı üç növünü qeyd edir: 1) Predmet varlığı və yaxud «dünyada varlıq»; 2) Ekzistensiya, yəni obyektivləşməmiş insan özgürlüyü; 3) Hər şeyi əhatə edən transendensiya, yəni hər cür təfəkkür varlığının əlçatmaz hüdudu (288, s.269).

Ekzistensiyanın başlıca əlaməti taransendentləşmə, yəni məlum hüdudların o tayına keçmək hesab olunur. Sözügedən proses ekzistensializmdə aşağıdakı iki istiqamədə çıxış edir; 1) Transendentliyi allahda görənlər; 2) Transendentliyi ekzistensiyanın ən dərin sirləri kimi qələmə verənlər. Bu təlimin tərəfdarları iddia edirlər ki, insan transendensiyasız şəxssizləşir, özgələşir və gündəlik həyat axarında itib-batır. Lakin insan öz tənəzzülünün ən son məqamında belə transendentsiz ötüşmür, onunla əlaqəli olduğunu hiss edir. Belə ki, o şəxssizləşmiş mövcudata çevrildikdə də öz varlığının mənasız olduğunu başa düşür, son ayaqda onda transendentlik hissi yaranır. Görkəmli ekzistensialist Y.Sartr belə bir fikir irəli sürürdü: «İnsan, onun olduğu deyildir, eləcə də insanın olduğu, onun özü deyildir». Burada insanın bütövlükdə bu dünyadan narazılığı aydın ifadə olunur. Ekzistensializmə görə hər bir insan daxilən təcrid olunmuş vəziyyətdədir və şəxsiyyət qapalı antropoloji universium kimi çıxış edir. Digər ekzistensialist A.Kamyu insanın mövcudluğunu «absurdluq fəlsəfəsi» ilə bağlayır. Bu fəlsəfəyə görə hər bir insanın mövcudluğu onun ölümü ilə həyatının absurd olduğunu başa düşür. Bununla əlaqədar onda əhatəsində olan «xaosa» qarşı etiraz etmək cəsarəti yaranır. Beləliklə, onun fikrincə, həyatın mənası insanın ədaləti bərpa etmək naminə qiyam qaldırmasındadır. O, qiyama metafizik mənada yanaşaraq göstərirdi ki, bu vasitə ilə cəmiyyəti dəyişdirmək mümkündür.

Qeyd etmək lazımdır ki, ictimai münasibətlər forması kimi özgələşmənin kəskinlik dərəcəsi təkcə obyektiv amillərlə bağlı deyildir. Bu işdə subyektiv səbəblər, onun həyata keçirildiyi sosiomədəni və psixoloji şərait də əhəmiyyətli rol oynayır. Buradan da müasir dövr üçün müstəsna əhəmiyyət kəsb edən

aşağıdakı müddəa irəli gəlir: hazırki dövrdə özgələşməni yumşaltmaq və optimallaşdırmaq üçün sosial-iqtisadi islahatlar ilə ictimai şüura səmərəli təsir göstərmə vasitələri məharətlə əlaqələndirilməli, onların üzvü vəhdəti təmin olunmalıdır. Söhbət ictimai şüura təsir etməyin elə yolları və vasitələrindən gedir ki, onlar fərdin özgələşmiş vəziyyətini hiss etməsini mümkün qədər yumşaltsın. Yalnız bu yol ilə hazırda ölkəmizdə həyata keçirilməkdə olan əsaslı islahatların düzgün səmtdə inkişafını təmin etmək, onların törədə biləcəyi neqativ nəticələri (sosial yoxsulluğu, kimsəsizliyi, ümidsizliyi və s.) və onların özgələşməyə mənfi təsirini aradan qaldırmaq olar.

Müasir cəmiyyətdə gedən elmi-texniki inkişaf, kommunikativ sıçrayışlar, qloballaşma və standartlaşma, mədəni inteqrasiya, dərin siyasi və mənəvi transformasiya prosesləri şəxsiyyəti, insanı öz mövcudluğunun həqiqi mahiyyəini daha dərindən dərk etməyə yaxınlaşdırır və onun dünya ilə, habelə digər insanlarla münasibətlərini harmonikləşmə istiqamətində inkişaf etdirir. Bu özünün müvafiq əksini şəxsiyyətin yuxarıda qeyd olunan münasibətlər sahələrindəki davranışı və fəaliyyətində tapır, yəni onlar əbədi mənəvi postulatlar və ümumbəşəri mənəvi keyfiyyətlərə getdikcə daha çox arxalanır, onun mənəvi seçim imkanları, azad fəaliyyəti və məsuliyyəti artır, onların qarşılıqlı vəhdəti güclənir. Bütün bunların nəticəsində özgələşmənin məzmunu və təzahür formaları da ciddi dəyişikliklərə uğrayır.

Beləliklə, gələcək cəmiyyətdə özgələşmə tam aradan qalxmasa da, keçmişdəkindən və indi olduğundan xeyli dərəcədə zəif səviyyədə (yəni şəxsiyyətin öz mahiyyət qüvvələrini tam dolğunluğu ilə reallaşdırmasına o qədər də ciddi təsir göstərə bilməyəcək səviyyədə) özünü göstərəcəkdir. Bütövlükdə isə

özgələşməni törədən şərait ictimai əmək bölgüsü ilə müəyyən olunur. Odur ki, cəmiyyətdə əmək bölgüsü qaldıqca, özgələşmənin də bu və ya digər dərəcədə təsirinin olacağını söyləmək məntiqi olardı.

Müasir şəxsiyyəti təhlil edərkən onun humanizmini də araşdırmaq zəruridir. Çünki şəxsiyyətin demək olar ki, bütün əsas mənəvi keyfiyyətləri onun humanizmində təmərküzləşmiş şəkildə ifadə olunur. Humanist şəxsiyyətin xeyirxah və insanpərvər hərəkətləri, xarici şəraitin və amillərin təsiri ilə deyil, onun öz daxili vicdanı ilə şərtlənir. Başqa sözlə, belə hərəkət etməkdən şəxsiyyət böyük həzz alır, özündə daxili rahatlıq və xoşbəxtlik hiss edir. Onun qəlbində başqa insanlara münasibətdə qəbahət işlər, paxıllıq, nifrət və düşmənçilik üçün yer qalmır. Beləliklə, humanist şəxsiyyət həm özünü sevir, həm də başqalarına dərin sevgi hissi bəsləyir. Bu hiss onu yüksəldir və ülviləşdirir.

Humanizm bəşər fəlsəfi fikrində ən maraqlı və diqqət çəkən ideyalardan olmaqla yanaşı, eyni zamanda qeyri-müəyyən xarakter daşıması və çoxmənalı anlaşılması ilə seçilir. Təsadüfi deyildir ki, müxtəlif dövrlərdə həm dini, həm də dünyavi təlimlər ondan öz doktrinalarını və siyasi məqsədlərini əsaslandırmaq üçün istifadə etmişlər. Bunun Nəticəsində dünyəvi humanizm, xristian humanizmi, islam humanizmi, sosialist və hətta liberal humanizm konsepsiyaları yaranmışdır. Onların hər biri humanizmi özünəməxsus şəkildə mənalandırsa da, müəyyən ümumi cəhətlərə malikdir. Belə ki, bu təlimlərin əksəriyyəti humanizmi insana qayğı göstərmək, onun həyat şəraitini yaxşılaşdırmağa cəhd etmək, insanın tələbatlarınının ödənilməsini və qabiliyyətlərinin inkişafını təmin etmək kimi səciyyələndirir.

Lakin bu ümümi tərifə dərindən nəzər saldıqda onun bir sıra suallar doğurduğu aşkara çıxır. Məsələn, insanın bütün tələbatlarını ödəmək humanizm hesab oluna bilərmi? Şəxsiyyətin məhz hansı tələbatlarını başqa insanların mənafeyini ödəmək naminə məhdudlaşdırmaq lazımdır? Bu və ya digər şəxsi, onun öz istedadı və qabiliyyətini inkişaf etdirməyə məcbur etmək humanizmdirmi? Cəmiyyət tərəfindən şəxsiyyətə təsir və təzyiqlər göstərilmədən onun inkişafı üçün imkanlar yaradılmasını humanist hesab etmək olarmı?

Bütün bu və ya digər qəbildən olan suallar həm keçmiş fəlsəfi fikirdə, həm də bu gün müxtəlif şəkildə cavablandırılır.

Hələ qədimdən şəxsiyyətin digər insanlara hörmətlə yanaşması ideyası humanizmin əsas prinsipi hesab edilir. Bu, insanlar arasında birgə yaşayışın qızıl qaydasında daha aydın ifadə olunur: «Özgəsinə münasibətdə elə hərəkət et ki, onun da sənə qarşı münasibətdə o cür hərəkət etməsini arzu edəsən.» Məşhur alman filosofu İ.Kant həmin qaydanı aşağıdakı qəti imperativ formasında irəli sürmüşdür: «Həmişə elə hərəkət et ki, sənin davranışının maksimi (başlıca prinsipi – M.R) ümumi qanun kimi çıxış edə bilsin» (145, s.273).

Lakin bu qızıl qaydanın özündə fərdi özünəməxsusluq və konkretlik demək olar ki, yoxdur. Məsələn, ayrılıqda götürülən hər hansı bir şəxsiyyət özünə elə şeylər arzu edə bilər ki, onları başqa insanlar istəməyə bilər. Buradan görünür ki, sözügedən qayda ümumi universal xarakter daşıyır və konkret tarixi dövrdə şəxsiyyətin humanizmi haqqında dəqiq təsəvvür yaratmaq üçün kifayət deyildir. Belə təsəvvür olmadan isə hətta insana həmişə vasitə kimi deyil, yalnız məqsəd kimi yanaşmağın zəruriliyi tələbinin özü də müsərrəd görünür.

Qeyd edək ki, dini təsəvvürlər dünyəvi humanizimdən prinsipcə fərqlənir. Belə ki, dini ehkamlarda da insana hörmət və sevgi hissi irəli sürülür. Lakin göstərilir ki, insan bu keyfiyyətləri allah qarşısında qorxu hissinin təsiri altında yerinə yetirməlidir. Bundan fərqli olaraq həqiqi etik humanizm bu qəbildən olan hərəkətləri insanın daxili vicdanının çağırışı altında yerinə yetirməyi nəzərdə tutur.

Şəxsiyyətin humanizminin dini anlamının əsasında belə bir ideya durur: insan bu dünyada başqalarına hörmət və qayğı ilə yanaşarsa, allah axirət dünyasında ona cənnət bəxş edəcək və əksinə günah işlədən axirət dünyasında cəhənnəmə vasil olacaqdır. Hətta İsus Xristosun insana sevgi və humanizm ruhu ilə aşılanmış ən məşhur tələbi də onların yerinə yetirilmədiyi təqdirdə insanı cəhənnəm əzabı ilə hədələdiyi üçün psixoloji baxımdan məcburi, zorakı xarakter daşıyır.

Əsl humanizm isə allah qarşısında qorxu hissinə deyil, insanın özünün daxili xeyirxah təbiətinə arxalanmalıdır. Yalnız belə olduqda şəxsiyyətin humanistliyi özünün adekvat mənasını kəsb edir.

Bununla yanaşı dini humanist konsepsiyalarda insanın mənəvi cəhətdən zənginləşməsi, inkişafı, onda yüksək əxlaqi keyfiyyətlərin inkişaf etdirilməsinin vacibliyi haqqında maraqlı fikirlər də irəli sürülür. Doğrudur, din bütün digər etik keyfiyyətlər kimi hümanizmi Allah qarşısında qorxaraq günah işlətməkdən çəkinmək formasında təlqin edir. Lakin buna baxmayaraq, onun məzmununda şəxsiyyəti humanistləşməyə çağıran mütərəqqi ünsürlərin olduğunu qeyd etməmək olmaz.

Humanist şəxsiyyətin vicdan hissi onun fəaliyyəti üzərində daxili nəzarəti həyata keçirir, əgər o hansı hərəkəti etməkdə səhv və ya günah

işlədirsə, daim öz vicdanının mühakiməsinə məruz qalır. Bu mənada humanizmi səciyyələndirən vicdan hissi şəxsiyyətin həyat fəaliyyətinin və taleyinin müəyyənləşdirilməsində aparıcı rol oynayır.

Şəxsiyyətin təbiəti sintetik xarakter daşıyır, burada qəbahət və fəzilət kimi əks keyfiyyətlər mövcuddur, bunlar isə müvafiq surətdə şəxsiyyətin humanist və antihumanist əməllərində təzahür edir. Şəxsiyyətdə anadangəlmə, genetik təbiətə malik olan bu xassələr potensial vəziyyətdə mövcud olur və müvafiq əlverişli şərait yarandıqda dolğun şəkildə üzə çıxaraq, şəxsiyyətin həyat fəaliyyətinin müəyyənləşdirici göstəricisi rolunu oynayır.

XX əsrdə humanizm prinsipini inkişaf etdirən məşhur mütəfəkkirlərdən biri A.Şveytser olmuşdur. Şəxsiyyətin özünütəkmilləşdirməsi ilə özünüməhrumetməsi prinsiplərinin ayrılmaz vəhdəti ideyasını o öz etikasının əsası elan etdi. Bu etikanın başlıca məzmununu isə insana və həyata sevgi aşılamaqdır. Şveytser bu fikri yığcam şəkildə belə ifadə etmişdir: «Mən yaşamaq istəyən həyatam, mən digər həyatlarla yanaşı yaşamaq istəyən həyatam» (280, s.217).

Şəxsiyyətin digər insanlara və həyata olan sevgisi bütün canlılar içərisində yalnız ona məxsus olan yaradıcılıq keyfiyyətinə əsaslanır. Məhz bu əlamətinə görə o digər bioloji orqanizimlərin özünüqoruma instiktindən və yaşamaq uğrunda mübarizəsindən fərqlənir. İnsan şəxsiyyəti onu əhatə edən mühitə, öz həyatına, həm də digər insanların həyatına qiymətləndirici münasibət bəsləyir. «Bu münasibət insan varlığının çox mühüm tərkib hissəsidir. Həyatın mənasını izah edərkən də ondan çıxış etmək lazımdır. Əslində həyatın mənası qiymətləndirici – real təbiətə malikdir» (118, s.41).

Şəxsiyyət tərəfindən öz həyatına və başqalarının həyatına sevgi və hörmətlə yanaşılması cəmiyyətin humanistləşməsini və insanların birgəyaşayışı etikasının tələblərinə riayət etməyi nəzərdə tutur (141, s.28-29).

Şəxsiyyətin hümanizmi problemi müasir şəraitdə, yəni cəmiyyətin totalitar recimin qalıqlarından tam azad olmadığı və eyni zamanda demokratiyanın əsaslarını yaratdığı bir dövrdə prinsipcə yeni məzmun kəsb edir. Sözügedən problemi təhlil etməzdən əvvəl fəlsəfədə uzun müddət əsas yer tutmuş olan şəxsiyyətin humanizminin marksist anlamının əsaslarına diqqət yetirmək məqsədəuyğundur. Bu təlim humanizmi cəmiyyətin inkişafının gələcək perspektivi ilə, yəni sinifsiz ictimai quruluşun yaranması ilə əlaqələndirirdi. Marksizmə görə, kommunizmdə insan onu monoton istehsal funksiyaları yerinə yetirməyə məcbur edən əmək bölgüsündən azad olacaqdır. Məhz bu əmək bölgüsü insanın başqa insanlardan özgələşməsini şərtləndirir və insanı ona xas olan nəsli insanlıq mahiyyətindən özgələşdirir. Sonuncu bunda ifadə olunur ki, insanın öz əməyinin məhsulları ondan ayrılaraq ona qarşı düşmən münasibət bəsləyir, əməyin özü isə ağır yükə çevrilir.

Ümumiyyətlə, götürdükdə marksizmin şəxsiyyətin humanizmi və onun inkişaf etdirilməsi ilə bağlı fikirlərində müəyyən diqqətəlayiq məqamların da olduğunu göstərməmək ədalətsizlik olardı. Bu, xüsusilə də insanın özünü realaşdırması ideyasının ardıcıl surətdə yeridilməsi haqqında müddəaya aiddir. Həmin müddəaya görə şəxsiyyətin özünü reallaşdırması prosesi həm insanın predmet-dəyişdirici fəaliyyətində, həm də sosial əlaqələrin təkrar istehsalında özünü göstərir.

Marksizm bütün əvvəlki humanizm təlimlərini məhdudluqda günahlandırır və göstərirdi ki, onlar insanlar arasında real bərabərliyə nail olmaq vəzifəsini irəli sürmür, sadəcə hamı üçün bərabər imkanlar yaradılması ilə kifayətlənir və zəif adamları müdafiə etmək təşəbbüsü ilə çıxış edirdilər.

Marksizmə görə, şəxsiyyətin əmək prosesində özgələşməsinin aradan qalxması, avtomatlaşdırılmış sistemlərin tətbiqi, əvvəlcə insanın yerinə yetirdiyi energetik və bilavasitə istehsal funksiyalarının, sonra isə bir çox idarəçilik funksiyalarının maşınlara keçməsi əsasında baş verəcəkdir. Marks göstərirdi ki, insan bilavasitə istehsal sferasından kənara çıxaraq yalnız yaradıcı fəaliyyət ilə, özünün əsl insani qüvvələrini inkişaf etdirməklə məşğul olmalıdır, gələcək cəmiyyətin adamında əmək özünün məcburi xarakterini itirəcəkdir (171, s.386-387).

Qeyd etmək lazımdır ki, bu müddəanın özü özlüyündə şəxsiyyətin humanizmini inkişaf etdirmək niyyəti ifadə etməsinə baxmayaraq, reallıqdan xeyli uzaq görünür. Yəni gələcək cəmiyyətdə (artıq indi həmin cəmiyyətin bir çox əsaslarının özünü doğrultmadığı üzə çıxmaqdadır – M.R) insanlar tərəfindən əməyin heç bir məcburiyyət olmadan yerinə yetiriləcəyi, insanların davranışında hüquqi tənzimləməyə ehtiyac olmayacağı, əməyin yalnız şəxsiyyətin özünü reallaşdırmaq üçün yaradıcı fəaliyyət olacağı haqqında təsəvvürlər o qədər də inandırıcı görünmür. Əvvəla, ona görə ki, şəxsiyyətin inkişafının hər bir konkret halında onun əməkdə özünü reallaşdırmaq cəhdi birdən-birə yaranmır, onu tədricən aşılamaq lazımdır. Buna nail olmaq üçün isə lazımı qədər əmək stimulları fəaliyyət göstərməlidir ki, onlar bu və ya digər dərəcədə məcburi ictimai təsir formasını əvəz etsin. İkinci bir tərəfdən mürəkkəb texniki sistemlərdə işləyən insanın tələb olunan

səviyyədə məsuliyyətliliyini yalnız mənəvi-əxlaqi amillərin köməyi ilə təmin etmək qeyri-mümkündür, əks halda xoş niyyətlər güdən hərəkətlərin belə, riski yüksək ola bilər. Buna görə hüquqi tənzmedici mexanizmlər və deməli, dövlət də lazımdır. Üçüncü, əməyi konkret istehsal sahələri üzrə ayırarkən şəxsi tələbatlardan deyil, məhz ictimai tələbatlardan çıxış etmək məqsədəuyğundur. Buna görə də azad özünüreallaşdırmaya bütövlükdə cəmiyyət miqyasında effektiv əmək prosesini təmin etməyin yeganə vasitəsi kimi baxmaq doğru deyildir (284, s.355).

Deyilənlərdən aydın olur ki, şəxsiyyətin sosial mahiyyətinin humanist istiqamətdə inkişaf etdirilməsi, əməyin müəyyən dərəcədə məcburi olmasını istisna etmir. Bunu həm də ondan görmək olar ki, məhz bu və ya digər dərəcədə özünü göstərən ictimai şəraitin təsiri altında insanda intensiv şəkildə əməklə məşğul olmağa zərurət yaranır. Deməli, hətta azad yaradıcı əməyin özünün (alimin, rəssamın, bəstəkarın və şairin əməyinin) müəyyən stimullara ehtiyacı vardır. Əgər şəxsiyyətdə hərtərəfli inkişaf etməyə olan tələbatın formalaşdırılması tarixi şəraiti müəyyən qədər məcburiyyət ilə əlaqəlidirsə, onda deməli, hər bir şəxsiyyətin özünün inkişafında da bu amilsiz keçinmək mümkün deyildir.

Qeyd edək ki, şəxsiyyəti intensiv sosial inkişafa məcbur etməyin humanist olmaması məsələsi müasir fəlsəfi və pedaqoci təlimlərdə birmənalı izah olunur. Məsələn, freydist və neofreydist yönümlü fəlsəfi təlimlərin nümayəndələri (Dc. Dyui, E.From və başqaları) pedaqoji prosesdə şəxsiyyətə hər cür təzyiq göstərməyin əleyhinə çıxış edirlər (272, s.84-86, 122, s.61). Doğrudan da müasir pedaqogikada uşağın şəxsiyyətini idrakı maraq əsasında inkişaf etdirmək haqqında ideya geniş yayılmışdır. Bununla yanaşı həmin

vasitənin kifayət etmədiyini və onun yalnız zahiri, səthi bilik verdiyini iddia edənlər də vardır (189, s.27).

Bizim fikrimizcə, şəxsiyyətin inkişafında məcburi əməyin rolunu qeyd edən baxış daha məntiqlidir. Xüsusən də cavan yaşda olanlarda, gənclərdə ictimai fəaliyyətin müəyyən səmərəli növlərində əməyə cəlb olunma tələbatının formalaşdırılmasında müəyyən ümumi tələblərin olması məqsədəuyğundur.

Yuxarıda qeyd olunduğu kimi, humanizmin əsasında duran insan həyatına sevgi və hörmət prinsipi geniş məzmuna malikdir. Burada təkcə genetik, təbii və anadangəlmə, qeyri-şüuri xassələr deyil, sözün əsl mənasında götürülən insan şüuru çox mühüm yer tutur. Həm də nəzərdə tutulmalıdır ki, şəxsiyyətin şüuru nə qədər çox inkişaf edirsə, onun öz qarşısına qoyduğu humanist məqsədləri həyata keçirməyə yönəlmiş yaradıcı fəallığı da bir o qədər güclü olur. Bununla əlaqədar olaraq humanist məqsəd anlayışının məzmununa diqqət yetirmək yerinə düşür. Bizim fikrimizcə, yalnız şəxsiyyətin qarşısına qoyduğu elə məqsədləri humanist hesab etmək olar ki, onlar insanda insani keyfiyyətlərin qorunub saxlanılması və inkişaf etdirilməsi naminə, onun yaradıcı fəallığının artmasına kömək edir. Başqa sözlə, insan həyatına əsl sevgi ruhu ilə aşılanmış, bütövlükdə cəmiyyətin və bəşəriyyətin mənəvi cəhətdən təkmilləşməsinə xidmət edən məqsədlər və onların əsaslandırılması, müasir şəxsiyyətin humanizminin özülünü təşkil edir. Humanist məqsəd anlayışının məzmununu bir qədər də konkretləşdirsək, onda deyə bilərik: şəxsiyyətin ahəngdar və hərtərəfli inkişafı naminə, onun maddi və mənəvi tələbatlarını ödəməklə, qabiliyyət və istedadlarını azad yaradıcı inkişafına şərait yaratmaq  həqiqi humanizm deməkdir. Müasir dövrdə ayrıca bir şəxsiyyətin və yaxud bütövlükdə cəmiyyətin humanist

məqsədinin mühüm bir istiqaməti insanın öz həyatının mənasını dərk etməsi, onun özünün yaradıcı surətdə reallaşdıra bilməsi yollarının axtarılıb tapılması təşkil edir. Sonuncu fikri genişləndirərək göstərmək olar ki, humanist məqsəd insanda şəxsi ləyaqət hissinin formalaşması, cəmiyyət miqyasında münasibətlərin xeyirxahlıqa, insana sevgiyə, qarşılıqlı anlaşmaya və qarşılıqlı hörmətə əsaslanan insani münasibətlərin bərqərar olması deməkdir.

Müasir şəxsiyyətin və cəmiyyətin humanist prinsiplər əsasında inkişaf edərək təkmilləşməsi, aşağıdakı əsas amillər əhatə edir: maddi tələbatların ödənilməsi və mənəvi tələbatların fasiləsiz yüksəlməsi. Şəxsiyyətin azad inkişafı göstəriciləri həmin amillərdən çox asılıdır. Bu prosesdə aşağıdakı məqama da xüsusi diqqət yetirilməlidir: insanın şüuru şəxsiyyətin mahiyyətinə dərindən nüfuz etdikcə, yuxarıda sözügedən amillərin mürəkkəbliyi və rəngarəngliyi daha aydın aşkara çıxır. Həm də məlum olur ki, bu gün şəxsiyyət və cəmiyyət tərəfindən məqsəd səviyyəsində elan olan oriyentirlər sabah üçün və gələcək üçün daha yüksək məqsədi həyata keçirmək üçün vasitəyə çevrilə bilər.

Bütövlükdə şəxsiyyətin humanist məqsədi onun özünün və üzvü olduğu cəmiyyətin tərəqqisinə kömək edir, onun mühüm amili rolunu oynayır.

Qeyd etmək lazımdır ki, şəxsiyyətin humanist məqsədinin əldə olunması mürəkkəb proses olub, iqtisadi, sosial və mənəvi-mədəni amillərin bütöv kompleksini əhatə edir. Burada iqtisadi və sosial tərəflərin rolunu şişirtmək doğru olmazdı. Çünki mənəvi sferanı inkişaf etdirmədən, insanların şüurunu yüksəltmədən əsl tərəqqiyə nail olmaq qeyri-mümkündür. Buradan aydındır ki, müasir dövrdə şəxsiyyətin şüurunu inkişaf etdirmək lazımdır ki, o

humanist məzmunlu yeni cəmiyyət quruculuğu prosesini şüurlu və məqsədyönlü tənzim etsin, onu idarə etsin. Həm də nəzərdə tutulmalıdır ki, cəmiyyətin inkişafının əvvəlki mərhələlərində icitimai şüur varlığın bilavasitə təsiri altında formalaşırdısa, sonrakı dövrlərdə bu təsir vasitələnmiş xarakter daşıyır, yəni dövlət, siyasi və hüquqi münasibətlərdən keçərək baş verir. Bunun əvəzində ictimai şüurun varlığa təsiri getdikcə daha çox bilavasitə xarakteri alır (236, s.478).

Deyilənlərdən aydın olur ki, formalaşmaqda olan açıq cəmiyyətin tərəqqisi hər bir fərdin ictimai həyatın bütün sahələrindəki fəaliyyətinin cəmiyyətin ümumi humanist məcrasına yönəlməsindən çox asılıdır.

Cəmiyyətin humanistləşməsi yolu müasir elmi-texniki və sosial-siyasi nailiyyətlərin geniş miqyasda tətbiq olunmasından keçir. Lakin nəzərdə tutiulmalıdır ki, bu iki böyük amillin məzmununda söhbət təkcə humanist yox, həm də antihumanist tərəflərin də sosial tərəqqinin humanist əsaslar üzərinə keçirilməsindən gedir. İndi bütün cəmiyyət qarşısında, eləcə də hər bir şəxsiyyət qarşısında humanist məqsədlər irəli sürülməsinə nail olmaq, həmişəkindən daha vacibdir. Bu isə həmin subyektlərin malik olduğu bütün qüvvələrdən maksimum istifadə etməklə humanizim idealını qoruyub saxlamağı və inkişaf etdirməyi nəzərdə tutur.

Müasir şəxsiyyətin humanist məqsədi öz məzmunu etibarilə xeyli yüksəlmiş və zənginləşmiş şəkildə çıxış edir. Belə ki, əvvəllərdə şəxsiyyətin hərtərəfli inkişafı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi ali humanist məqsəd hesab olunurdu. İndi isə bu vəzifələr daha çox humanist xarakter daşıyan məqsədlərin yerinə yetirilməsində bir vasitəyə çevrilməkdədir. Bu onunla izah edilir ki, hazırda cəmiyyətdə epoxal miqyaslı

dəyişikliklər baş verir, köhnə ənənəvi baxışlar dağılır və yeni demokratik və ümumbəşəri məzmunlu dəyərlər yaranır, prinsipcə yeni dünyagörüşü formalaşır. Həmin dünyagörüşü kompleks və sintetik təfəkkürə əsaslanır. O, insanda humanist keyfiyyətlərin tam dolğunluğu ilə üzə çıxarılmasına kömək edir, insanın daxilində antihumanist meyllərin baş qaldırmasına imkan vermir. Əksinə, burada özünü göstərən humanist tərəfləri inkişaf etdirir. Bunu da əlavə edək ki, əgər cəmiyyətdə təhsil və tərbiyə işi düzgün təşkil olunursa, onda insanın mahiyyətindəki humanist və antihumanist xassələrin fəaliyyəti, onun sintetik təfəkkürü vasitəsilə səmərəli tənzim olunur və birinci qəbildən olan cəhətlər, ikincilərin hesabına daha da tərəqqi edir.

Hazırda cəmiyyətin iqtisadi və siyasi sferalarında əsaslı dəyişikliklər getdiyi bir şəraitdə, həmin yeniləşmələrin məzmununa humanist prinsiplərin tətbiqi xüsusilə zəruridir. Əks halda formalaşmaqda olan bazar münasibətlərinin təsiri altında gedən meyl – iqtisadi, praqmatik amillərin üstün yer tutması və mənəvi keyfiyyətlərin arxa plana keçməsi meyli sürətlənə bilər. Bu isə cəmiyyət və şəxsiyyət üçün təhlükəli nəticələr törədər. Odur ki, iqtisadiyyatın və siyasətin praktiki olaraq insanın həyat fəaliyyətinin bütün sahələrinə dərindən nüfuz etdiyi indiki şəraitdə onların humanist məzmununa qayğı göstərmək olduqca vacibdir.

Müasir dövrdə cəmiyyətin və təbii ki, burada yaşayan şəxsiyyətin humanistləşməsi prosesində yetişməkdə olan nəslin təhsili və tərbiyəsi ilə bağlı məsələlər müstəsna dərəcədə böyük əhəmiyyət kəsb edir. Əlbəttə, cəmiyyət özünün bütün inkişafı mərhələlərində bu və ya digər dərəcədə təhsil ilə bağlı problemləri həll etməyə cəhd göstərir. Lakin ictimai inkişafın dönüş xarakterli məqamlarında bu problemin rolu və əhəmiyyəti birə-on qat artır.

Buna görə də hazırda cəmiyyətimizin bütün pillələrindən olan təhsil və tərbiyə sistemlərində əsaslı islahatlar aparılır, onları yeniləşməkdə olan cəmiyyətin tələblərinə, məqsəd və vəzifələrinə uyğun səviyyəyə yüksəldilməsinə səylər göstərilir. Amma nəzərdə tutmaq lazımdır ki, insanların şüurunun dəyişilməsi çox mürəkkəb və uzunsürən prosesdir, ona nail olmaq üçün bəzən bütün bir nəslin yeniləşməsi müddəti tələb olunur. Bundan fərqli olaraq insanların tələbatı nisbətən yüksək sürətlə dəyişilir. Buna görə də açıq cəmiyyət quruculuğunun sosial, siyasi və iqtisadi sahələrdə qarşıda duran çətin və mürəkkəb vəzifələrinin uğurlu həllində yeni şüurun, dünyagörüşünün və mənəvi keyfiyyətlərin olması çox vacibdir. Bunun üçün isə təhsil sistemini səmərəli təşkil etmək, onun ümumbəşəri, milli və qabaqcıl mədəni ənənələrlə zənginləşməsinə nail olmaq tələb olunur. Həmin keyfiyətlərin təhsil sistemində özünə möhkəm yer tutması, cəmiyyətin və ayrısa bir şəxsiyyətin humanistləşməsinə və tərəqqisinə böyük təsir göstərir.

Müasir cəmiyyətin artmaqda olan demokratikləşməsi şəxsiyyətin humanistləşməsinə real şərait yaradır. Bu onunla izah edilir ki, öz mahiyyətinə görə demokratiya humanizm ilə sıx vəhdətdədir. Həqiqi demokratik prinsiplərin mövcudluğu və fəaliyyəti humanist keyfiyyətlərdən ayrılmazdır. Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, indi həyata keçirilməkdə olan cəmiyyətin ardıcıl və hərtərəfli demokratikləşdirilməsi xətti, həm də şəxsiyyətin getdikcə daha çox humanistləşməsinə sürətləndirici təsir göstərir.

Müasir demokratikləşmə ilə şəxsiyyətin formalaşması və inkişafı proseslərinin qarşılıqlı əlaqələrini və vəhdətini təhlil edərkən aşağıdakı məqam mütləq nəzərə alınmalıdır. Söhbət demokratiyanın müasir yeni məzmun kəsb etməsindən gedir.

Demokratiyanın keçmiş anlamı üçün səciyyəvi cəhət onun sinfi, proletar, sovet, milli və s. meyarlara görə təsnif edilməsi olmuşdur. Qeyd edək ki, həmin bölgülər üçün umumi cəhət ondan ibarətdir ki, onların hamısı bir tərəfdən şəxsiyyətin fərdi, özgür və unikal xassələrinə məhəl qoymur, onu ümumi kollektiv, kütlə içərisində əridirdi. Nəticədə sanki bütün şəxsiyyətlər bir-birinə qarışır və onları bir-birindən fərqləndirmək çox çətin və bəzən də qeyri-mümkün olurdu.

Lakin nəzərdə tutmaq lazımdır ki, sözün əsl mənasında götürülən humanist cəmiyyət öz fərdi simasını itirmiş və ümumi içərisində əriyən fərdlərdən deyil, öz individuallığını qoruyub saxlayan şəxsiyyətlərdən ibarət olmalıdır. Yalnız belə cəmiyyət şəxsiyyətin unikal və təkrarolunmaz xassələrini inkişaf etdirməyə, sosial reallığın bütün tərəflərində, birinci növbədə isə insanda humanist keyfiyətlərin dərin qatlarını üzə çıxarıb daha da inkişaf etdirməyə qadirdir. Odur ki, demokratiyanın əvvəlki tarixi formaları özündə şəxsiyyətin hüquqları və əxlaqını qorumağın müəyyən ünsürlərini əhatə etsə də belə, bütövlükdə onun aktiv yaradıcı fəaliyyəti üçün hərtərəfli şəraiti təmin edə bilməmişdir.

Deyilənlərdən aydın olur ki, demokratiyanın müasir forması şəxsiyyətə münasibətdə həmin nöqsan və məhdudluğu aradan qaldırmalıdır. Bu yeni məzmunlu demokratiya fikrimizcə, cəmiyyətin sinfi, milli və partiyalar üzrə bölgüsünü deyil, sosial və ümumbəşəri prinsipləri (millinin müsbət cəhətlərini özündə əxz et-məklə) əsas götürməlidir. Onu şərti olaraq sosial-ümümbəşəri demokratiya kimi səciyyələndirmək olar.

Yuxarıda deyildiyi kimi sinif, partiya və bu kimi süni bölgülər insanın həqiqi mahiyyətini və yaradıcı qüvvələrinin miqyaslarını məhdudlaşdırır. Bunun əksinə olaraq insanların milli əlamətlərə

görə (ümumbəşəri keyfiyyətlərə qarşı durmayan) birləşməsi insan toplumunun təbii və daha dolğun formasıdır. Çünki əgər partiyalılıq və sinfilik insanları yalnız müvafiq ideyalar ətrafında birləşdirirsə, bundan fərqli olaraq milli – ümumbəşəri əlamətlər onları həm ideya, həm də genetik baxımdan birləşdirir. Buna görə də o daha möhkəm və etibarlı olur, dərin tarixi, mədəni ənənələr, dilin və adətlərin ümumiliyinə, ərazi və etiqad birliyinə əsaslanır. Nəticədə o, şəxsiyyətin cəmiyyətdə öz individuallığını və özgürlüyünü qoruyub saxlamasına və daha da inkişaf etdirməsinə real şərait yaradır. Bu böyük məqsəd ilə müqayisədə hər cür sinfi mənafe və yaxud partiya mənafeyi çox sönük görünür.

Buradan aydın olur ki, dərk olunmuş milli-ümumbəşəri mənafe daha üstündür, çünki o ənənəvi demokratiyanın məzmununda özünü göstərən qarşılıqlı tabeçiliyin əvəzinə qarşılıqlı hörmət prinsipini ön plana çəkir. Bu cür qarşılıqlı hörmət prinsipinin insanlar arasında möhkəmləndirilməsi bir tərəfdən sosial ədalət haqqında ənənələrin qorunub saxlanmasına və təkmilləşdirilməsinə xidmət edir, digər tərəfdən isə hər bir şəxsiyyətin, millətin və bütövlükdə cəmiyyətin mənafe və məqsəd ümumiliyinin, baxışları birliyinin yaranmasını təmin edir.

Milliözünüdərk və insanların ümümbəşəri keyfiyyətlər əsasında birləşməsi demokratiyanı daha da humanistləşdirir. Belə ki, öz xalqının qorunub saxlanılması və inkişafı kimi ali humanist məqsəd ətrafında birləşən cəmiyyət, həm də başqa xalqların problemlərini dərindən hiss edir və onların mənafelərinə hörmətlə yanaşır.

Nəzərdə tutmaq lazımdır ki, müasir cəmiyyətdə bütövlükdə ictimai həyatın humanistləşməsi meyli baş verməkdədir. Açıq, vətəndaş cəmiyyətinin prinsipləri qərarlaşdıqca, bu meyil daha da sürətlənir. Humanizmin əsasında duran həyatın qorunmasına qayğı

göstərmək, onu daim təkmilləşdirmək, insan tərəfindən ətraf mühitin və öz mahiyyətinin dərk olunmasında yeni nailiyyətlər qazanmaq, digər insanlara hörmət və s. keyfiyyətlər şəxsiyyətin sosial fəallığının yüksəlməsinə, özünü daha dolğun və yaradıcı surətdə reallaşdırılmasına güclü müsbət təsir göstərir.

Müasir dövrdə şəxsiyyətin hümanistləşməsi meyli həm də özünün hərtərəfliliyi ilə səciyyələnir. Bu onda ifadə olunur ki, humanist prinsiplər onun siyasi, sosial, iqtisadi və mədəni-intellektual fəaliyyətinin bütün sahələrində həyat normasına çevrilməkdədir. Cəmiyyət inkişaf etdikcə, ictimai həyatın bütün sferalarında humanizmin genişlənməsi üçün şərait yaranır. Əlbəttə, bütün bu proseslər asan və rəvan getmir, müəyyən çətinliklər və ziddiyyətlər ilə müşayiət olunur.

Siyasi sferada humanizm ən çox bunda ifadə olunur ki, siyasi fəaliyyətin bütün forma və tərəflərində siyasi mənafelərini reallaşdırılması ilə yanaşı insana hörmət və qayğı ön plana çəkilir. Ölkənin qəbul etdiyi qanunvericilik sənədlərində və normativ hüquq aktlarında şəxsiyyətin ləyaqətinin toxunulmazlığı elan edilir, onun geniş hüquqları və azadlıqları təsbit olunur. Xarici siyasət sahəsində və beynəlxalq münasibətlərdə də mübahisəli məsələlərin dinc danışıqlar yolu ilə aparılması meyllərinin artması, dövlətlər arasında münasibətlərdə müharibələrə mümkün qədər yol verilməməsi, bu və ya digər səbəblərdən müharibə başlandıqda isə onun gedişində ümumi humanist normaların gözlənilməsi, bu barədə müvafiq beynəlxalq konvensiyalara əməl olunması bunu sübut edir.

Yuxarıda deyilənlərdən heç də belə nəticə çıxarmaq olmaz ki, guya müasir cəmiyyətdə real humanizmin tətbiqi üçün tam şərait yaradılmışdır. Buna hər şeydən əvvəl yeni cəmiyyətin

formalaşmasından irəli gələn səbəblər, habelə digər amillər (məsələn fəaliyyətin intensivliyinin artması, həyatın ritminin sürətlənməsi, əsəb gərginliyinin çoxalması, urbanizasiya nəticəsində şəxsiyyətin fəaliyyəti üzərində nəzarətin zəifləməsi və s.) mane olur.

Şəxsiyyətin humanizmi haqqında zəmanəmizin görkəmli filosoflardan olan E.Fromun baxışları daha çox maraq doğurur. Onun fikrincə, humanizm, insanın daxili təbiətindən irəli gələn sevməyə və yaşamağa olan cəhd kimi özünü göstərir. O, humanizmin məzmununu varlığın nəyə malik olmağı ilə müqayisədə üstünlüyü ideyası əsasında açır. Froma görə nəyəsə malik olmaq müəyyən bir prosesdə bitkin formaların üstün rol oynadığını göstərir və beləliklə də bu prosesdə şəxsiyyətin yaradıcılıq imkanlarını məhdudlaşdırır. Fromun fikrincə, nəyəsə malik olmaq cəhdi sevgi prinsipi ilə də bir araya sığmır. Bu yola düşən şəxsiyyət başqa insanların cəhdlərini pozur, əsarət altına alır və məhdudlaşdırır, başlıcası isə o öz şəxsi maraqlarını yerinə yetirmək naminə dünyadakı təbii əlaqələri dağıdır. Buna görə də insan dünyaya əsl dəyər kimi yanaşmalı, onu mənimsəmə yolu ilə dağıtmağa yox, bu dünyada özünü reallaşdırmağa cəhd göstərməlidir. Onun fikrincə, insan nəyəsə sahib olmağa yönəldikdə, gələcəkdə əldə edəcəyi nəticəyə yekun nöqteyi-nəzərindən yanaşır. Beləliklə də, bu halda gələcək sanki keçmiş kimi çıxış edir. Bunun əksinə olaraq insan varlıq mövzusuna istiqamətləndikdə sevgi, sevinc və həqiqətə nail olmaq yaşantıları, gələcək zaman baxımından deyil, burada və indi özünü göstərir. Sonuncu isə zamanın fövqündə durur və belə yönüm daha üstün rol oynayır. Onun üstünlükləri şəxsiyyətin bütün insan nəsli ilə vəhdətdə olduğunu hiss etməsinə kömək edir, öz varlığının dağınıq və hissə xarakter daşıdığı

haqqında təsəvvürləri aradan qaldırmasına müsbət təsir edir (272, s.132-135).

From belə hesab edirdi ki, müasir dünyada insanın özgələşməsinin əsas səbəbi insanın varlığı deyil, nəyəsə malik olmağa köklənməsidir. Buna görə də onun fikrincə, insanın şüurunu dəyişdirmək zəruridir. Əlbəttə, o, həyata aktiv fəaliyyət münasibətindən yanaşmağı da inkar etmir. Lakin o, qərb insanı üçün səciyyəvi olan bu ustanovkanı Şərq təfəkkür tərzinə xas olan keyfiyyət – dünyanı sakitcə seyr etməklə qavramağın üstünlükləri ilə əlaqələndirməyə çalışır (284, s.366).

Müasir şəraitdə şəxsiyyətin humanistləşməsi meyli həm də bütün sağlam düşüncə sahibi olan insanlarda bəşəriyyətin gələcək taleyi ilə bağlı yaranmış qayğılar ilə bağlıdır. Akademik T.Oyzerman yazırdı: «Qlobal problemlərin yaranması, insanların dünyagörüşündə, siyasi, dini və və sair əqidələrində müxtəlifliyə baxmayaraq, humanizmin indi mövcud olan bütün formalarının birləşməsi üçün real əsas kimi çıxış edir» (195, s.65).

Müasir dünyada humanizmin inkişafı üçün ümumi əlverişli şərait yaradıldığını da qeyd etməmək olmaz. Belə ki, onlarca ölkələrin xalqları dinc yollarla müstəmləkə zülmündən azad olurlar, sosializmin dayağı hesab olunan SSRİ-də totalitar recimin dağılması nəticəsində keçmiş müttəfiq respublikalar milli müstəqillik əldə edərək demokratik, azad cəmiyyət qurmaq yolu ilə irəliləyirlər. İstilik-nüvə müharibəsi təhlükəsinə qarşı, müxtəlif problemlər kompleksini (ekoloji böhranın aradan qaldırılması, aclığın və yoxsulluğun azadılması, müxtəlif ölkələrin inkişaf səviyyəsi üzrə kəskin fərqlərin ləğvi, beynəlxalq terrorizmə və digər ümumi bəlalara qarşı birgə mübarizə aparmaq zərurəti və s.) həll etməyin zəruriliyi fikri ictimai rəydə getdikcə daha çox yer

tutmaqdadır. Geniş planda yanaşdıqda bütün bu və digər nailiyyətlər müasir bəşəriyyətin əksər hissəsinin şüurunda yüksək əxlaqi keyfiyyətlərin daha da möhkəmləndirilməsi sayəsində əldə olunmuşdur.

Bütövlükdə humanizmin üç əsas mənası vardır; a)insanın varlığının humanist əsaslarını qorumağın zəruri şərti kimi, onun əsas hüquqlarının təmin olunması; b) cəmiyyətdə olan zəif insanları müdafiə etməklə, mövcud quruluşun ədalət haqqında adi təsəvvürləri hüdudlarından kənara çıxmaq; c) şəxsiyyətdə ictimai dəyərlər əsasında özünüreallaşdırmağa imkan verən sosial və əxlaqi keyfiyyətlərin formalaşdırılması (284, s.366).

Humanizmə imperativ planda yanaşdıqda, yəni onu praktiki normativ tələb kimi səciyyələndirdikdə, onun mürəkkəb təbiətə malik olduğu aşkara çıxır. Belə ki, bu prinsip şəxsiyyəti, onun həyatının bütün digər dəyərlərdən üstün qiymətə malik olduğunu israr edir. Həmin mövqe humanizmin məzmununu şəxsiyyətin xoşbəxtliyi ilə müəyyən münasibətdə və əlaqədə götürür. Sonuncu anlayış isə sırf fərdi xarakter daşıyır, cəmiyyətdəki başqa insanların xoşbəxtliyi ilə və ümumiyyətlə, burada həyata keçirilən konkret tarixi vəzifələrlə sıx əlaqəlidir. Çünki şəxsiyyətin əsl xoşbəxtliyi, onda öz həyatının dolğunluğu hissi onun özünü reallaşdırma prosesində formalaşır. Həmin proses isə digər insanların məqsəd və dəyərləri ilə bu və ya digər şəkildə bağlı həyata keçirilir. Deməli, bu prosesdə şəxsiyyəti ictimai həyatın hərtərəfli və fəal subyekti kimi səciyyələndirən keyfiyyətlərin formalaşdırılması (hətta cəmiyyət tərəfindən müəyyən məcburetmə vasitəsilə həyata keçirilsə belə) humanist xarakter daşıyır.

Humanizm probleminin mürəkkəbliyi həm də bundadır ki, onunla bağlı bir çox məsələlər nəzəri və praktiki baxımdan hələ

tam aydınlaşdırılmamışdır. Məsələn, şəxsiyyətə göstərilən təsirin humanistlik meyarı, hansı təsirin humanist, hansının isə qeyri-humanist olması məsələsi barədə fikir müxtəlifliyi və mübahisələr bu gün də davam etməkdədir.

Yaxud da başqa bir məsələ. Nəyin tarixi perspektivə və inkişaf etməkdə olan şəxsiyyətin əsl mənafelərinə uyğun gəldiyini və nəyin isə müvəqqəti, konyuktur məzmuna malik olmasının müəyyənləşdirilməsidir. Çünki çox vaxt sonuncu tərəfi ayırd etmək çətin olur, hətta belə ola bilir ki, bu və ya digər məsələyə münasibətdə başqalarını manipulyasiya etmək məqsədi güdən təmənnalı yanaşmanı və humanizmi bir-birindən fərqləndirmək o qədər də asan olmur.

İnsanın mahiyyətinin sosial münasibətlərin inkişafı ilə əlaqəli dəyişdiyi haqda ümümsosioloji qanun sübut edir ki, insanların fəaliyyət məqsədləri hər bir konkret tarixi mərhələdə başqalarından fərqlənən, özünəməxsus məzmuna malik olur. Buna görə də humanizmin sadəcə şəxsiyyətin özinkişafına şərait yaradılmasına və yaxud başqa insanı öz məqsədini həyata keçirmək üçün vasitə kimi istifadə edilməsi tələbinə müncər etmək doğru olmazdı. Çünki hər bir konkret dövrdə hümanizmin məzmunu spesifik cəhətlər və çalarlar ilə zənginləşir ki, bunları nəzərə almaq zəruridir. Deyilənlər sübut edir ki, şəxsiyyətin humanizmi kimi mürəkkəb məsələni formal və ümumi prinsiplərdən çıxış etməklə düzgün həll etmək qeyri-mümkündür. Nəzərdə tutmaq lazımdır ki, real və əsl humanizm müxtəlif prinsipləri bir-biri ilə əlaqəli şəkildə götürməyi və uzlaşdırmağı tələb edir. Eynilə də hər bir konkret cəmiyyətdə şəxsiyyətin özünü ifadə etməsi üçün mövcud olan azadlığın səviyyəsi ilə həmin dövrün sosiomədəni normalarının, onun fəaliyyət və

davranışına verdiyi tələblər ilə nə dərəcədə uzlaşdığını konkret təhlil etmək vacibdir.

Müasir şəxsiyyətin özgələşməsi və humanizminin qarşılıqlı əlaqəli təhlili aşağıdakı nəticələrə gəlməyə əsas verir:

1. Çoxtərəfli və geniş məzmunlu ictimai hadisə olan özgələşmə şəxsiyyətin elə bir sosial-psixoloji durumunu ifadə edir ki, burada onun ontoloji mahiyyəti ilə real varlığı bir-birindən ayrılır. Nəticədə şəxsiyyətin öz qabiliyyətlərini reallaşdırmaq imkanları ilə mövcud sosial münasibətlər və institutlar arasında uyğunsuzluq özünü göstərir ki, o təkcə ictimai həyatın müxtəlif sferalarını deyil, həm də şəxsiyyətin daxili aləmini – şüurunu və psixikasını əhatə edir.

2. Özgələşmənin əsas mənbəyini xüsusi mülkiyyət təşkil etdiyi və onun kapitalizm cəmiyyətinə məxsus keyfiyyət olduğu haqda marksizmin müddəası ilə razılaşmaq olmaz. Təhlil sübut edir ki, şəxsiyyətin özgələşməsi bu və ya digər dərəcədə bütün quruluşlarda özünü göstərən tarixi hadisədir və o müxtəlif iqtisadi-texniki, sosial və bioloji amillər kompleksi ilə şərtlənir.

3. Müasir şəraitdə sosial həyatın bütün sahələrinin əsaslı surətdə dəyişilməsi şəxsiyyət ilə cəmiyyət arasındakı qarşılıqlı münasibətlərdə yaxınlığı artırır və özgələşmənin xeyli dərəcədə yumşaldır, lakin onun fəaliyyətinə son qoymur. Özgələşməni törədən şərait ictimai əmək bölgüsü ilə bağlı olduğu üçün onun gələcək cəmiyyətdə də qalacağını güman etmək məntiqidir.

4. Müasir cəmiyyətdə gedən elmi-texniki və kommunikativ sıçrayışlar, dərin siyasi və mənəvi transformasiya prosesləri, mədəni inteqrasiya, qloballaşma və universallaşma meylləri şəxsiyyətin humanizmini yeni məzmunla zənginləşdirir, onun öz

mövcudluğunun həqiqi mahiyyətini dərk eməsi üçün real imkanlar açır.

5. Açıq cəmiyyətin siyasi, sosial, iqtisadi və mənəvi dayaqları möhkəmləndikcə bir tərəfdən şəxsiyyətin humanizmi durmadan yüksəlir, digər tərəfdən onun əsas istiqamətləri cəmiyyətin ümumi humanist məcrasına getdikcə daha çox yaxınlaşır. Şəxsiyyətin milli mənlik şüurunun inkşafı onda ümumbəşəri keyfiyyətlərin çoxalması ümumi humanistləşmə meylinə sürətləndirici təsir göstərir.

# III FƏSİL
# MÜASİR ŞƏXSİYYƏT AKSİOLOJİ TƏHLİLİN OBYEKTİ KİMİ

## 3.1. Dəyərlərin mahiyyəti və ontoloji əsasları

Fəlsəfi idrak şəxsiyyətin mahiyyətinə dərindən nüfuz etdikcə, onun əvvəllərdə az diqqət yetirilən yeni-yeni calarlarını təhlil obyektinə çevirir. Belə məsələlərdən birini şəxsiyyətin aksioloji mənalandırılması təşkil edir. Şəxsiyyətin dəyərlər mövqeyindən araşdırılması, onun həyatının mənası və məqsədinin açıqlanmasında, sosial və etik təbiətinin üzə çıxarılmasında müstəsna dərəcədə böyük rol oynayır. Bu onunla şərtlənir ki, şəxsiyyət nə isə amorf bir fərd olmayıb, müəyyən dəyərlər sisteminə malik olan, öz fəaliyyəti və davranışında onlara əməl edən fəal mövcudatdır. O, təbiətdə və cəmiyyətdə baş verən hadisə və prosesləri sadəcə inikas etdiriməklə məhdudlaşmır, həm də onları dərk edir və qiymətləndirir. Başqa sözlə deyilsə, şəxsiyyət dünyanı onun üçün əhəmiyyət kəsb edən və əhəmiyyət kəsb etməyən qütblər prizmasından anlayır və yeniləşdirir, deməli, ətraf aləmin obyektləri və hadisələri onun üçün həm də dəyərlər dünyası kimi çıxış edir. Buna görə də fəlsəfədə şəxsiyyət ilə dəyərlər bir-birilə sıx qarşılıqlı əlaqəli və ayrılmaz problemlər kimi götürülür.

Dəyərlər insanın fəaliyyətini və davranışını normativ planda, yəni necə olmalı sfera kimi təsəvvür edir və şəxsiyyətin məqsəd və ideallarının özəyi rolunu oynayır. Şəxsiyyətin mövcüdluğu və mahiyyəti onlarsız öz mənasını itirir. Məhz dəyərlər onun real həyat ilə çoxtərəfli və rəngarəng münasibətləri strukturuna son dərəcə müxtəlif təzahür formaları (sosioloji, psixoloji, etnoloji və başqa formalar) kimi daxil olur. Buradan aydındır ki, fəlsəfi

antropologiyanı aksioloji problematikadan kənarda təsəvvür etmək ağlasığmazdır.

Aksiologiya, ümumi dəyərlər nəzəriyyəsi, dəyərlərin fəlsəfi əsaslarını öyrənən elmdir. O, imperativləri, idealları, etalonları, requlyativləri, prinsipləri və normaları ifadə edir. Bu təlimdə insan fəaliyyətinin təbiəti, xarakteri, üsulları, həyatı məna kəsb edən reqlamentlər, oriyentasiyalar və motivlər əsas yer tutur. Dəyər şüuru real varlıq ilə arzu olunan varlığın qovuşuğunda, mövcüd olan ilə olmalı olan, fəaliyyət göstərən ilə tələb olunan tərəflərin arasında yerləşir (134, s.177).

Aksiologiyanın sistemyaradıcı funksiyaları insan idrakının bütün sfera və tərəflərində cox mühüm əhəmiyyət kəsb edir. İnsan – dünya münasibətlərinin ən ümumi nəzəri cəhətlərini öyrənən fəlsəfə elmində isə o xüsusilə böyük rol oynayır. Fəlsəfi biliklər sistemində aksiologiyanın yeri hər şeydən əvvəl bununla müəyyən olunur ki, o, insan varlığının dəyərli istiqamətlənmiş cəhətini ifadə edir. Bu cəhət cox mühüm olub, insanın sosial praktikasının yaratdıqı problemlərin adekvat şəkildə irəli sürülməsinə və həllinə çox kömək edir.

Ümumilikdə götürdükdə, fəlsəfə insanın xüsusi növlü intellektual fəaliyyət sahəsi olmaqla, onun təbii-elmi idrakının hüdudlarından kənarda yerləşən və ona tabe olmayan tərəfləri də öyrənir. Buradan da aksioloji baxımdan götürülən fəlsəfi biliklər sisteminin başlıca məqsədi irəli gəlir. Həmin məqsəd dünyanı humanist baxımdan mənalandırmaq, yəni varlığı təkcə təbiət qanunlarının fəaliyyət sahəsi kimi götürməklə məhdudlaşmayaraq, onu insaniləşmiş dünya, başqa sözlə deyilsə, insanın sərvətlər (dəyərlər) dünyası kimi dərk etməkdir.

Qeyd etmək lazımdır ki, əslində dəyərlər problemi bilavasitə insanın dünyanı dərk etməyə və dəyişdirməyə yönələn, onu insaniləşmiş varlığa çevirməyə istiqamətlənən fəaliyyətindən irəli gəlir. Çünki dəyərləndirmə və qiymətləndirmə şəxsiyyətin daxili atributiv keyfiyyəti olmaqla, onun şüuru ilə real gercəklik arasında əlaqələrin bütün tərəflərini əhatə edir. İnsan üçün ondan bir növ kənar olan reallığı öz daxili varlığının dünyasına çevirmək müstəsna dərəcədə böyük əhəmiyyət kəsb edir. Əslində bu, insan tərəfindən dünyanın dəyərlər baxımından mənimsənilməsi və dəyişdirilərək öz dünyası şəklinə salınması prosesinin məğzini təşkil edir. İnsan dünyası isə özünəməxsus təbiətə malikdir, burada hər şey real mövcüd olan ilə olmalı olan münasibətlər baxımından mənalandırılır. Bu münasibətlərin ikinci tərəfinə, yəni olmalı olanlara xüsusi diqqət yetirilməsi, insan fəaliyyətinin determinasiyası əlaqələrini üzə çıxarmaq üçün çox zəruridir. Lakin onun rolu bununla bitmir. O, həm də insanın mənəvi aləmini səciyyələndirən aşağıdakı hadisələri – azadlıq, xeyirxahlıq, mənəvi borc, həyatın mənası və s. araşdırmağın ilkin şərti kimi çıxış edir. Həm də nəzərdə tutulmalıdır ki, sözügedən problem fəlsəfədə o qədər də təzə məsələ deyildir, onun kökləri dərin olub, tarixin ilkin qatlarına gedib çıxır, zəngin ənənələrə malikdir. Müxtəlif dövrlərin fəlsəfi fikrində bu məsələ irəli sürülmüşdür və mütəfəkkirlər onu həll etməyə çalışmışlar. Diqqəti çəkən məqam həm də budur ki, qeyd olunan problem bütün dövrlərdə ümumi əhəmiyyət kəsb edən əxlaq normaları, ideallar, davranış standartları, maksimlər və imperativlər ilə ayrılmaz əlaqəli şəkildə götürülmüş, bir sözlə deyilsə, dəyərlər kimi mənalandırılmışdır. Həm də göstərilmişdir ki, fəlsəfənin mühüm bir funksiyası həmin dəyərləri refleksiya vasitəsinə çevirməkdir. Aksioloji nəzəri konsepsiya olmaqla fəlsəfə

insan varlığını, onun dünya ilə münasibətlərini rasional əsaslandırılmış, harmonik və sahmanlı dəyərlər sistemi kimi mənalandırır. Beləliklə də, o nələrin olmalı olduğunu dəyər kimi qəbul edir və nələrin isə bu tələbə cavab vermədiyini müəyyənləşdirir. Heç də təsadüfi deyildir ki, bütün fəlsəfi təlimlər bu və ya digər dərəcədə ayrıca bir insanın və sosial birliklərin həyat fəaliyyətinə və təfəkkür tərzinə yerinə yetirilməli olan müəyyən dəyərlər məcmusu diktə edir.

Deyilənlərdən aydın olur ki, bütövlükdə fəlsəfi tədqiqatların aparılmasında, xüsusilə də insan şəxsiyyəti ilə bağlı problemlərin araşdırılmasında aksioloji problemlər son dərəcə zəruri olub, müstəsna əhəmiyyətə malikdir. Şəxsiyyəti hazır şəkildə mövcüd olan varlıq kimi deyil, onu müasir şəraitdə formalaşmaqda və inkişaf etməkdə olan subyekt kimi təhlil etdikdə isə sözügedən metodoloji məqamın rolu və əhəmiyyəti birə on qat artır.

Fəlsəfi fikir tarixində dəyərlər, onların mahiyyəti, təbiəti və mənşəyi ilə əlaqədar çoxlu müxtəlif təsəvvürlər, ideyalar və konsepsiyalar irəli sürülmüşdür. Onları müfəssəl nəzərdən keçirmək bizim məqsədimizə daxil deyildir və bu işi bir fəsil çərçivəsində həyata keçirmək də mümkün olmazdı. Buna görə və biz burada onları qısaca təhlil edib, ümumiləşdirəcəyik.

Şəxsiyyətə dəyərlər baxımından yanaşma çox qədimlərdən başlayaraq özünü göstərmişdir. Belə ki, hələ qədim Şərq fəlsəfəsində, xüsusilə də Hind və Çin fəlsəfi təlimlərində bu problem irəli sürülmüş və ona cavablar verilmişdir.

Qədim Yunan fəlsəfəsində şəxsiyyətin dəyər mövqeyindən mənalandırılması Protaqorun insanı hər şeyin olçüsü kimi qiymətləndirməsində, Demokritin əsas insani xeyirxahlıqlar haqqında ideya və müddəalarında, Sokratın praktiki fəlsəfəsində

ifadə olunmuşdur. Bu ənənələrə arxalanaraq Platonun ideyaya (eydosa), insanın fəaliyyət və seçimində bu və ya digər prioritetlərə üstünlük verməsi haqqında baxışları insanın varlığına dəyərlər mövqeyindən yanaşmağın ilk nümunələrini təşkil edir.

Dəyərlərə differensial mövqedən yanaşmaq cəhdləri Aristotelin yaradıcılığında özünü göstərmişdir. O, bir tərəfdən, özü özlüyündə kifayət edən dəyərlərdən (insan, xoşbəxtlik, ədalət və s.) danışırdı. Bununla birlikdə, o göstərirdi ki, dəyərlərin əksəriyyəti nisbi xarakter daşıyır, çünki uşaqlara, ərlərə və xeyirxah insanlara müxtəlif əşyalar eyni dəyərlilik təsiri bağışlamır. Müdriklik təbiətən ən qiymətli olanları ağıl vasitəsi ilə mənimsəməkdədir (64, s.179).

Orta əsrlər fəlsəfəsində dəyərlər ilahi mahiyyət ilə əlaqələndirilir və dini xarakter daşıyırdı.

İnsan varlığının özünəməxsus strukturlu, sahmanlı və çoxpilləli dəyərlərə malik olması ilə bağlı müddəalar intibah fəlsəfəsində və Yeni dövrün mütəfəkkirlərinin elmi yaradıcılığında əhəmiyyətli yer tutmuşdur. Bu baxışların səciyyəvi cəhətini onlarda varlıq və dəyərlər problemlərinin vahid bir tam daxilində qovuşmuş halda götürülməsi və dəyərlərin reallığına qəti və şübhə etmədən yanaşılması təşkil edir. Həmin dövrdə elmin və ictimai münasibətlərin təkmilləşməsi ilə əlaqədar dəyərlərin rolu da artdı.

Sözün əsl mənasında dəyər anlayışını ifadə edən İ.Kant olmuşdur. O, göstərirdi ki, mövcud olan ilə olmalı olan, real ilə ideal arasındakı ayrılıq aksioloqiyanın ilkin müqəddəm şərtini təşkil edir. Onun fikrincə, dəyərlər sözün müəyyən mənasında iradəyə qarşı yönələn tələblər, insanın qarşısında duran məqsəd, bu və ya digər amilin şəxsiyyət üçün əhəmiyyətliliyi deməkdir (260, s 478).

Kant ayrıca bir insanın və bütövlükdə sosial birliklərin praktiki fəaliyyətində, onların məqsəd və vəzifələrinin irəli sürülməsində və həllində dəyərlərin xüsusilə böyük rol oynadığını göstərirdi. Kantin praktiki və nəzəri zəka haqqında təlimi dəyərlər nəzəriyyəsinin sonrakı inkişafında mühüm rol oynamışdır.

Hegelin fəlsəfi təlimində dəyərlərin iqtisadi (utilitar) və mənəvi növləri bir-birindən fərqləndirilir. İqtisadi dəyərlər əmtəə kimi çıxış edir və daha çox kəmiyyət müəyyənliyi ilə seçilir. O yazırdı: «Əşyalar dəyərə malik olduqları üçün biz onlara əmtəə kimi baxırıq. Onların əhəmiyyətliliyi spesifik keyfiyyətə malik olmasında deyil, yalnız və yalnız dəyərliliyindədir» (103, s.404).

Bu qəbildən olan dəyərlər onlara olan tələblərdən, onların satış səviyyəsindən və insanların zövqündən asılı olaraq dəyişilir və nisbi xarakter daşıyır. Hegelin fikrincə, dəyərlərin ikinci qrupunu mənəvi dəyərlər təşkil edir ki, onlar ruhun azadlıq səviyyəsi ilə bağlıdır. Mənəvi dəyərlərə yüksək qiymət verərək o yazırdı: «Dəyərliliyə və əhəmiyyətə malik olan hər şey öz təbiəti etibarilə mənəvidir» (104, s 372).

Dəyərlər haqqında baxışların tarixi-fəlsəfi təkamülündən danışarkən keçmiş mütəfəkkirlərin elmi cəhətdən maraq doğuran müddəalarını qeyd etməklə yanaşı, göstərilməlidir ki, məhz XX əsrin ikinci yarısından etibarən onlar bitkin təlimlər kimi ifadə olunmağa başlamışdır.

Bu dövrdə aksiologiya müstəqil fəlsəfi bilik sahəsi kimi formalaşdı və dəyərlərin izahına dair konsepsiyalar meydana gəldi. Onların sırasında naturalist psixologizm, aksioloji transendentalizm, personalist ontologizm və dəyərlərin sosioloji konsepsiyaları xüsusilə mühümdür. Buna görə də onların hər birinin qısa səciyyəsini vermək məqsədəuyğundur.

Naturalist psixologizm (Dc Dyui) konsepsiyası dəyərlərə empirik müşahidə oluna bilən obyektiv reallıq amilləri kimi yanaşaraq göstərir ki, onların mənbəyi insanın bioloji və psixoloji tələbatları ilə bağlıdır. Həmin təlimə görə, insanların hər hansı tələbatını ödəyən predmet dəyər hesab olunmalıdır.

Aksioloji transendentalizm – yenikançılıq konsepsiyasıdır. Onun nümayəndələri (V.Vindelband, H.Rikkert və başqaları) dəyərləri obyektiv reallıq deyil, ideal varlıq hesab edirdilər. Bu təlimə görə, dəyərlər insanların arzularından asılı olmayaraq müstəqil mövcüddur. Onların sırasına öz-özü üçün kifayət dərəcədə əhəmiyyət kəsb edən dəyərlər (xeyirxahlıq, həqiqət, gözəllik və s) aid edilir. Yenikantçılar göstərirdilər ki, bu dəyərlər özü-özü üçün məqsəddir və onlardan heç vaxt başqa məqsədlərə nail olmaq üçün vasitə kimi istifadə oluna bilməz. Beləliklə, bu konsepsiyaya görə, dəyərlər reallıq deyildir, onlar ümumiyyətlə şüurun, transendental (əlçatmaz) subyektin daşıyıcısı olduğu ideal varlıqdır. Bundan əlavə həmin təlimdə dəyərlər insandan asılı olmayan normalar kimi götürülür və göstərilirdi ki, bu normalar konkret dəyərlərin və mədəniyyətin ümumi əsasını yaradır.

Aksioloji problematikanın inkişaf etdirilməsində yenikantçılığın ən böyük xidmətlərindən biri etik və estetik yaradıcılıqda dəyərlərin böyük rolunun açılıb göstərilməsidir. Bundan əlavə, həmin təlim dəyərlər ilə bağlı ideyaların linqvistika, psixologiya, sosiologiya, kulturologiya və s. elm sahələrinə nüfuz etməsinə də böyük köməklik göstərmişdir.

Personalist ontologizm (M.Şeler və başqaları) dəyərlərin obyektiv xarakterini qəbul edir və göstərir ki, onlar şəxsiyyətin ontoloji əsasını yaradır. Bu təlimə görə, predmetlərdəki dəyərləri onların emprik təbiəti ilə eyniləşdirmək doğru deyildir. Onun

nümayəndələrinin fikrincə, rəng onun məxsus olduğu predmetdən asılı olmadığı kimi, dəyərləri də aid olduqları predmetlərdən kənarda seyr etmək mümkündür. Çünki, dəyərlərin dərk olunması və müşahidə edilməsi nəticə etibarilə sevgi və ya nifrət hissinə əsaslanır. Ən yüksək dəyərlər uzunömürlü və insanları daha çox razı salan dəyərlərdir. Onlara nümunə kimi gözəllik və idrakı dəyərlər göstərilir. Bu təlimə görə, ən ali dəyər isə müqəddəslik dəyəri, Allah ideyasıdır. Buna görə də Allaha sevgi sevginin ən yüksək formasıdır. Odur ki, bütün dəyərlərin əsasında ilahi şəxsiyyət dəyəri durur.

Dəyərlərin sosioloji konsepsiyasını M.Veber yaratmışdır. Dəyər anlayışını da sosiologiyaya ilk dəfə o daxil etmişdir. Veberə görə dəyər sosial subyekt üçün müəyyən əhəmiyyət kəsb edən norma deməkdir. Bu mövqedən çıxış edərək o, cəmiyyət həyatında etik və dini dəyərlərin xüsusi rol oynadığını göstərmişdir.

Sonrakı dövrdə aksiologiyanın inkişafı fəlsəfi antropologiya cərəyanının nümayəndələrinin (R.Lotse, M.Şeler, N.Qartman və başqaları) adı ilə bağlıdır.

Yuxarıda aparılan qısa fəlsəfi-tarixi icmal göstərir ki, dəyərlər və dəyərlər mövqeyindən yanaşma anlayışları fəlsəfədə XIX əsrin sonlarından etibarilə daha geniş mənalandırılmağa və müzakirə olunmağa başlamışdır. Hazırda isə aksiologiyanın fəlsəfi biliklər sisteminin ayrılmaz və nisbi müstəqil tərkib hissəsi olması faktı, demək olar ki, hamı tərəfindən qəbul olunur. Hərçənd ki, bəzi konkret məsələlər üzrə mübahisələr və fikir ayrılıqları davam etməkdədir.

Bütövlükdə fəlsəfi fikir tarixində dəyərlər haqqında baxışlar böyük təkamül yolu keçmişdir. Həm də dünyagörüşü ilə bağlı

bütün nəzəri məsələlərin irəli sürülməsi və həllində aksioloji problematika bu və ya digər dərəcədə özünü göstərmişdir. Bu baxımdan fəlsəfi təlimlər müəyyən mənada dəyərlər problemini özünə hopdurmuş və beləliklə də, onu insanın dünyaya münasibətində, habelə özünün – özünə münasibətdə ifadə etmişlər.

Müasir fəlsəfi ədəbiyyatda dəyərlərin mahiyyəti və məzmunu haqqında müxtəlif fikirlər söylənilir. Onları əsasən aşağıdakı kimi üç cür qruplaşdırmaq olar:

1. dəyəri müəyyən fayda verən və insanın hər hansı tələbatını ödəyə bilən predmet kimi götürənlər;
2. dəyərə norma və ideal kimi yanaşanlar;
3. dəyəri ümumillikdə insan və ya sosial qrup üçün əhəmiyyətlilik kimi təsəvvür edənlər (260, s. 479).

Qeyd olunmalıdır ki, bu baxışların hamısı dəyərlərin müəyyən bir tərəfini əsas götürür, buna görə də onlar bir-birini istisna etmir, əksinə bir-birini tamalayır. Ona görə də onların hamısını doğru hesab etmək olar.

Dəyərlərin ən ümumiləşmiş anlamı isə aşağıdakı kimidir: Dəyər gerçəklik hadisələrinin və faktlarının mədəni, ictimai və şəxsiyyət baxımından əhəmiyyəliliyini ifadə edən anlayışdır (260, s. 480).

Buradan aydın olur ki, dəyərlər fenomeni ayrıca bir insanın və sosial birliklərin real həyat prosesi və sosial praktikası ilə ayrılmaz əlaqədə çıxış edir. Sonuncular isə dünyanın mənim-sənilməsi, dərk olunması və dəyişdirilməsinə yönələn fəaliyyəti ifadə edir. Dəyərlər insanın ona münasibətdə kənar olan reallığın insaniləşmiş dünyaya çevrilməsi prosesində yaranır. Varlığın şüur ilə əlaqələrinin dəyər təbiətini şərtləndirən psixoloji mexanizmlərin

fəaliyyəti göstərir ki, onların mahiyyət və məzmunun araşdırılması xüsusilə vacibdir. Bu baxımdan yanaşdıqda, insanın qiymətverici münasibətini bildirən ustanovkalar həmin mexanizməlrin psixoloji mərkəzi rolunu oynayır. D.N.Uznadzenin təlimində ustanovkalar tələbatlar ilə situasiyanın, bütövlükdə subyekt ilə obyektin dialektik vəhdəti kimi çıxış edir. Məhz subyekt ilə obyektin qarşılıqlı təsiri gedişində bu və ya digər obyektə münasibətdə sabit funksional pozitiv və neqativ qiymətlər sistemi, emosional yaşantılar və hərəkət meyilləri formalaşır. Başqa sözlə deyilsə, subyektin obyektə dəyərləndirici münasibəti yaranır ki, burada qiymət dəyərin bərqərar olması forması kimi özünü göstərir. Ustanovka sabit psixoloji funksional sistem olmaq etibarilə əsas insani dəyərlərin sistemli vəhdətini ifadə edən obyektivləşdirilmiş mədəniyyət dünyasının mövcüdluğu Nəticəsində yaranır.

Dəyərlərin mənalandırılmasında subyektiv əsasın mühüm rolunun qeyd olunması, onun varlığın fenomeni kimi şərtlənməsini istisna etmir. Dəyərlər reallıq fenomeni kimi insanların fəaliyyəti prosesində yarandığı üçün, onlar sosial həyatın özünəməxsus məna «toxuması»nı təşkil edir və ictimai münasibətlərdə ifadə olunur. Onlar cəmiyyətin sosial institutlarında, insanların həyat fəaliyyətinin standartlarında, modellərində və üsullarında təcəssüm olunur, məcmu halında insanın şəxsi dəyərlər sistemini formalaşdırır və onun əsas keyfiyyətlərindən birini təşkil edir.

İnsan fəaliyyətinin maddi və mənəvi motivləri arasında olan fərqlilik, başqa sözlə deyilsə, sonuncunun spesifik və özünəməxsus xarakteri onu dəyər şüurunun bilavasitə meyarına çevirir. Həmin fərqlilik əsas etibarilə aşağıdakılarda təzahür edir:

1. öz həcminə görə maddi nemətlər məhduddur, müəyyən qismi, hissəni əhatə edir. Mənəvi dəyərlər isə hüdudsuzdur, əhatə dairəsinə görə isə ümumidir;
2. maddi mənbələr istehlak olunduqda tükənir, mənəvi mənbələr isə daha da inkişaf edir;
3. həyata keçirilməsi üsullarına görə maddi istehsal şəxssiz xarakter daşıyır, mənəvi istehsal isə personifikasiyalıdır;
4. öz təyinatına görə maddi fəaliyyət bilavasitə nəticə əldə etməyə yönəlmişdir, mənəvi fəaliyyət ilə son nəticə arasında bu cür sıx bağlılıq yoxdur;
5. öz nəticələrinə görə maddi istehsal sırf istehsal naminə həyata keçirilir və ona görə də reproduktivdir, mənəvi istehsalda produktivlik, yaradıcı xarakter daha güclüdür;
6. fəaliyyətin tərkib hissələrinin roluna görə maddi fəaliyyətdə maddi nemətlərə sahib olmaq əsasdır, mənəvi fəaliyyətdə isə yaradıcılıq daha üstündür;
7. öz kəmiyyətinə (miqdarına) görə maddi nemətlər toplanılır, yığım funksiyası yerinə yetirir, mənəvi nemətlər toplanılmır, daha çox mədəniyyət səviyyəsində təcəssüm edir;
8. öz keyfiyyətinə görə maddi nemətlər istehlakçıdan özgələşir, mənəvi nemətlər isə istehlakdan özgələşir, maddi sferada əmək sərfi mənəvidəkinə nisbətən daha çox məcburi xarakterlidir (275, s. 57-63).

İnsanların sosiallığının və onunla birlikdə həyatlarının dəyərlərlə tənzim olunmasının mənşəyini, onların aqressiv təbiətinin azalması və insanın zoologizmi ilə izah etmək olmaz. Belə mövqe məntiqi cəhətdən özünü doğrultmur, başlıcası isə cəmiyyətin və dəyərlərin anlaşılmasında heç bir irəliləyiş yaratmır. Əsas məsələ heyvanlardan fərqli olaraq insanlarda dəyərləndirici – humanitar

keyfiyyətlərin, vicdan hissinin olmasıdır. Mövcüd olan ilə olmalı olanı bir-birindən fərqləndirmək və sonuncuya can atmaq yalnız insana məxsus keyfiyyətdir. Beləliklə, dəyər şüuru öz təbiətinə görə ruhi keyfiyyət olmaqla, bir tərəfdən mədəniyyətdə humanitar potensialın artması, digər tərəfdən təbii seçmə prosesinin sürətləndirdiyi altruist xislətin möhkəmləndirilməsi ilə bağlıdır.

Ümumiyyətlə götürdükdə insanın dərketmə prosesi dəyərlilik amilindən ayrılmazdır. Belə ki, o, həmişə müəyyən qiymətləndirmə ilə əlaqədardır. Hətta hissi mərhələnin özündə də insan öyrəndiyi obyektləri bir-birilə qarşılaşdırır, müqayisə edir, onların ümumi və fərqli cəhətlərini üzə çıxarır, onları qiymətləndirir. İdrakın yüksək pilləsində – mücərrəd təfəkkürdə isə bu əməliyyatlar daha geniş yer tutur. Burada fərd, predmet və proseslərə xas olan xassə və əlamətləri daha dərindən və dəqiq araşdırır, onlara qiymətverici münasibət bildirir. Bu çür qiymətləndirmə təsadüfü olmayıb, fərdin tələbatları, mənafeləri və mənəvi maraqları ilə şərtlənir.

«Fəlsəfə ensiklopediyası»nda dəyər aşağıdakı kimi müəyyənləşdirilir: «Dəyər aşağıdakıları ifadə edən anlayışdır:

1. bu və ya digər obyektin ekzistensial və keyfiyyət xarakteristikasından fərqli olaraq, onun müsbət və yaxud mənfi əhəmiyyətini ifadə edir (predmet dəyərləri).
2. ictimai şüur hadisələrinin normativ, tələbedici – qiymətləndirici tərəfini ifadə edir (subyekt dəyərləri)».

Predmet dəyərlərinə aşağıdakıları misal göstərmək olar: təbii sərvətlərdə və stixiyalı bədbəxt hadisələrdə əks olunan təbii xeyir və şər; əmək məhsullarının istehlak dəyəri və ümumi faydalılığı, ictimai hadisələrdəki sosial xeyir və şər, tarixi hadisələrin proqressiv və ya mürtəce əhəmiyyəti, müasirlərin sərvətini ifadə edən predmetlərdə çıxış edən keçmişin mədəni irsi, elmi dəyərin

əhəmiyyəti, insanların hərəkətlərindəki əxlaqi xeyir və şər, təbii və ictimai obyektlərin və incəsənət əsərlərinin estetik səciyyələri. Subyekt dəyərləri bunlardır: normativ təsəvvürlər formasında ifadə olunan ictimai ustanovkalar, imperativlər və yasaqlar, məqsəd və layihələr (xeyir və şər haqqında, ədalət, gözəllik və eybərcərlik, tarixin mənası və insanın amalı, ideallar, normalar, fəaliyyət prinsipiləri) haqqında təsəvvürlər (263, s 462).

Göründüyü kimi, bu tərif son dərəcə əhatəli və genişdir. Odur ki, müasir şəraitdə onun müzakirə edilməsinə və dəqiqləşdirilməsinə kəskin ehtiyac hiss olunmaqdadır. Hər şeydən əvvəl göstərilməlidir ki, şərin, sosial ədalətsizliyin və ya siyasi ədalətsizliyin dəyərlər sırasına aid edilməsi nə dərəcədə doğrudur. Eyni fikri onların şəxsiyyət nöqteyi-nəzərindən dəyərli və faydalı hesab edilməsi haqqında da söyləmək olar. Buna görə də onları dəyər adlandırmaq xeyli dərəcədə mübahisəli məsələdir. Həm də hər çür əhəmiyyət kəsb edən şeyi dəyər kimi izah etmək doğru olmazdı. Buna görə də dəyər insanın ictimai-tarixi fəaliyyəti sistemində bu və digər hadisənin müsbət qiyməti və ya funksiyası deməkdir. Belə yanaşma dəyərlərin sferasını məhdudlaşdırır və konkretləşdirir, onu əhəmiyyətliliyin bir forması kimi anlayır. İctimai inkişafda inkari rol oynayan hadisələri inkari əhəmiyyətli hadisələr kimi izah etmək olar. İctimai tərəqqiyə daxil olan və ona xidmət edən hər şey dəyər deməkdir (155, s107-108).

Sonra, predmet dəyərlərini, məsələn əmək məhsullarını əsas ilkin dəyərlər sırasına, insanın amalı haqqında təsəvvürləri isə subyekt dəyərlərinə, yəni törəmə dəyərlər qrupuna aid etmək müəyyən mübahisələr doğurur. Buna görə insanın həyat planı ilə bağlı dəyəri ön planda vermək və maddi dəyərləri ikinci, törəmə hesab etmək daha doğru olardı. Bu məqamı qeyd etməklə İ.Narski

göstərirdi ki, maddi nemətlər insanın əsl dəyərlərə doğru yolunda bir vasitə rolunu oynayır. Əsas dəyərlər insanın həyatı, onun xoşbəxtliyi, azadlıq və xeyirxahlıq və sairdir. İkimənalı surətdə maddi dəyərlər adlandırılan hər şey, əslində aksioloji dəyərlər demək deyildir. Onlar yalnız sözün əsl mənasında götürülən dəyərlərin reallaşdırılması vasitələridir, lakin tamamilə aydındır ki, onların insanlar tərəfindən qiymətləndirilməsi insanların yaşadığı əsl dəyərlərin xarakteri ilə müəyyən olunur (186, s 214).

A.Panin və V.Alekseyev dəyərlərə aşağıdakı kimi tərif vermişlər: «Dəyər hadisənin hər cür əhəmiyyəti deyil, onun müsbət əhəmiyyəti deməkdir. Bundan əlavə, həmin əhəmiyyətin mənbələrini insan, onun məqsədi və idealları təşkil edir» (199, s.288).

Fəlsəfə elmləri doktoru, professor Həmid İmanovun fikrincə isə «sərvət anlayışı bu və ya digər hadisənin əhəmiyyətini ifadə edir. Sərvət münasibətləri insan fəaliyyəti prosesində formalaşır. Burada üç növdə istehsal yaranır: insan əşyalar və ideyalar».

Fəlsəfə elmləri doktoru, professor, Yusif Rüstəmovun isə bu məsələyə münasibəti belədir: «Dəyər öz mahiyyətinə görə həm sosial, həm də fərdidir, o maddi və mənəvi dünya obyektlərinin ümumi cəhətdən müəyyənləşdirilməsi, onların insan və cəmiyyət üçün müsbət və mənfi tərəflərinin üzə çıxarılmasıdır. Öz-özlüyündə əşyaların, hadisələrin insanlara aidiyyatı yoxdursa, onlar dəyər anlayışına daxil olmurlar.. Dəyər anlayışı «əhəmiyyət», «fayda» və ya «ziyan» anlayışı ilə əlaqədədir».

Fəlsəfə elmləri doktoru, professor Niyazi Mehdi yazır: «Sözsüz maddi gerçəklərin necə və hansı pillədə olması, onların hansı çeşidli maddi dəyərlərlə ödənilməsi bunun üçün nəsnəl dəyərlərin necə düzəldilməsi, toplumda necə paylanması, mənəvi dəyərlərin necəliyinə bu və ya başqa güclə təsir göstərir».

Professor Z.Hacıyevin «Fəlsəfə» dərsliyində isə dəyər belə səciyyələndirilir: «Dəyərlər şəxsiyyət, sosial qrup və bütövlükdə cəmiyyət üçün müsbət əhəmiyyət kəsb edən, onların tələbatları və mənafelərini ödəyən vasitələr rolunu oynayan maddi və mənəvi hadisələrdir» (21, s. 605)

Hər bir insan onu əhatə edən gerçəklik hadisələrinə müəyyən qiymətverici münasibət bəsləyir. Belə münasibət, yəni bizə lazım olan və qiymətləndirdiyimiz şeyləri seçib digərlərindən ayırmaq fərdin etdiyi zəruri hərəkətdir. Bunsuz müxtəlif tələbatlara, mənafelərə və məqsədlərə malik olan insanın nə fəaliyyəti, nə də həyatının özü qeyri-mümkündür (251, s.3).

İnsanın bu çür qiymətverici mülahizələri onun həyatda düzgün səmtləşməsində böyük yer tutur. Lakin dəyərlərin müəyyən edilməsi xeyli dərəcədə çətin məsələdir, çünki bu işdə subyektivlik güclü şəkildə özünü göstərir. Yəni hər bir insan onun seçdiyi dəyərlərin layiqli və mötəbər olduğunu sübuta yetirməyə səy göstərir. Bu məqama diqqət yetirərək İ.Kant göstərirdi ki, hər bir insan ona həzz verən şeyi xoşa gələn hesab edir, bəyəndiyi hər şeyi gözəl, qiymətləndirdiyi şeyləri, yəni obyektiv dəyər hesab etdiyi şeylərin yaxşı oluğunu söyləyir (146, s.211).

Cəmiyyətdəki hər bir obyekt insanlar üçün ictimai məna kəsb etdikdə, dəyər statusu alır. Başqa sözlə deyilsə, dəyərlilik maddi və mənəvi mədəniyyət hadisələrinin ictimai mahiyyətindən ayrılmazdır. Dəyər hesab olunan hadisə və obyektlər ictimai həyata cəlb edilmiş olur, müəyyən sosial funksiya yerinə yetirirlər.

Qeyd etmək lazımdır ki, son dövrlərin fəlsəfi-sosioloji ədəbiyyatında dəyərlər probleminin tədqiqinə diqqətin artması müşahidə olunur. Nəticədə bu anlayışın məzmununun geniş mənada götürülməsi özünü göstərir. Belə ki, indi dəyərin məz-

mununa təkcə olmalı olanlar, əxlaqi və estetik ideallar daxil edilmir. Burada ayrıca bir subyekt və yaxud bütövlükdə cəmiyyət üçün az-çox dünyagörüşü və normativ əhəmiyyət kəsb edən bütün şüur fenomenləri və obyektlər də əhatə olunur. Sözügedən meyil müəyyən mənada alqışlanmağa layiqdir, çünki sosial hadisələrin öyrənilməsində aksioloji problematikanın geynişləndiyini sübüt edir, dəyərlərin aksioloji məzmununda çoxtərəfliliyi göstərir. Bunu yəqin etmək üçün fəlsəfi ədəbiyyatda xeyli yayılmış olan belə bir mülahizəyə diqqət yetirmək məqsədəuyğundur. Y.A.Mikeşinaya görə dəyərlər aşağıdakı üç keyfiyyəti ilə səciyyələnir:

1. onlar subyektdə obyektə qarşı dəyər şüurunun (əxlaqi, fəlsəfi, dini və s)və bütövlükdə sosial mədəni amillərin təsiri altında formalaşan emosional bəzək vurulmuş mənafeləri, prioritetləri, ustanovkaları ifadə edən münasibəti bildirir;
2. idrakın öz daxilindəki dəyər oriyentasiyalarıdır, yəni elə sırf məntiqi-metodoloji, o cümlədən də dünyagörüşü donu geymiş parametrlərdir ki, onlara əsaslanmaqla qiymətlər verilir, təsvir-etmənin, izahetmənin, sübutetmənin, biliyi təşkil etmənin forma və üsulları seçilir (məsələn, elmliyin meyarı, tədqiqatın idealı və normaları);
3. dəyərlər idrakda obyektiv həqiqi predmet biliyi (fakt, qanun, hipotez, nəzəriyyə və s.) və səmərəli operasional bilik (elmi metodlar, tənzimləyici prinsiplər) deməkdir. Məhz sonuncular öz həqiqiliyi, doğruluğu və informativ baxımdan zənginliyi sayəsində cəmiyyət üçün əhəmiyyət və dəyərlilik kəsb edir (289, s.39).

Gerçəklikdəki hadisələr (maddi və ya mənəvi) bu və ya digər usulla şəxsiyyətin fəaliyyətinə cəlb olunduqda, dəyər mənası alır. Hər hansı predmet insanın praktikası üçün əhəmiyyət kəsb etməsi

baxımından faydalı və dəyərli hesab olunur. Dəyərlər öz ifadə formasına görə subyektiv olmalarına baxmayaraq, obyektiv amillərlə (aid olduğu obyektlə, şəxsiyyət və sosial amillərlə) şərtlənir. Onlar nisbi müstəqil xarakterli subyektdən, onun iradə və şüurundan asılı olmayaraq, aprior kimi təsəvvür olunur. Bu onunla izah edilir ki, dəyərlərdə subyektiv və obyektiv tərəflər bir-birilə çulğalaşmış şəkildə çıxış edir. Bu mənada İ.Narski haqlı olaraq qeyd edir ki, öz-özlüyündə sırf obyektiv dəyərlər yoxdur. Eynilə də onları subyektin psixiki yaşantılarına müncər etmək olmaz. «Dəyərlər dispozisiya formasında mövcüd olurlar, onların rolunu sosial münasibətlər, sosial və şəxsiyyət vəziyyətləri və xassələri yerinə yetirirlər» (186, s.225).

Dəyərlərin müasir şəxsiyyətin həyat fəaliyyətinin bütün sahələrində müstəsna rol oynadığını vurğulamaqla yanaşı, belə bir məqama da diqqət yetirilməlidir ki, onun əhəmiyyəti və miqyası bütün dövrlərdə eyni deyildir. Daha dəqiq desək, tarixi inkişafın dönüş xarakterli dövrələrində dəyərlərin rolu, cəmiyyətdə təsir dairəsi və əhəmiyyəti qeyri-adi dərəcədə artır. Bu, hər şeydən əvvəl onunla izah edilir ki, belə vaxtlarda cəmiyyət bir növ sarsıntılı vəziyyət yaşayır, ictimai həyatda sabitsizlik və qarışıqlıq halları özünü göstərə bilir, insanın bütün arzu və ümidləri, «ölüm və ya olum» dilemması formasında qarşıya çıxır. Müasir həyatın dinamizmi, kəskinləşməkdə olan qlobal problemlər, beynəlxalq münasibətlər sferasında baş verən dərin dəyişikliklər bütöv bir kompleks halında təsir edərək dəyərlərə diqqətin artırılmasını şərtləndirir.

Nəzərdə tutulmalıdır ki, dünyagörüşü təkcə dünyadakı hadisələr və proseslər haqqında ümumi məlumatlar məcmusu demək deyildir. O, eyni zamanda dərk olunmuş ictimai mənafelər

və əxlaqi normalar, sosial priotitelər və humanist dəyərlər deməkdir. Bir sözlə deyilsə, insanın həyatda davranış xətti seçimini müəyyən edən, onun cəmiyyətə və özünün-özünə münasibətini müəyyən edən hər şey dünyagörüşü anlayışının məzmununa daxildir.

Müasir cəmiyyətdə insanın şəxsiyyət kimi özünü reallaşdırmasında əsaslı mənəvi oriyentirlər axtarışı kimi əzablı və keşməkeşli proses baş verir. Ən başlıcası isə odur ki, dəyərlərin «yenidən mənalandırılması» adlanan fundamental çevriliş özünü göstərir. Belə şəraitdə fəlsəfə dəyərlər probleminə xüsusi yer ayırır, ona şəxsiyyətin, millətin və cəmiyyətin mədəni mentalitetinin əsası kimi yanaşır. O, belə bir həqiqətə arxalanır ki, müəyyn əxlaqi, hüquqi və digər tənzimləyicilərin insanın şüurunda möhkəm yer tutması bu və ya digər əsaslı dəyişiliklərin baş verməsi üçün olduqca zəruridir. Söhbət şəxsiyyətin həyati məqsədləri və ideallarını müvafiq əks etdirən dəyərlərin formalaşdırılmasından gedir. Həm də nəzərdə tutulmalıdır ki, fəlsəfi təfəkkür şəxsiyyət ilə onun dəyərləri problemini müasir tarixi planda araşdırarkən, onları sadəcə elan etməklə məhdudlaşmır, universal məzmunlu humanist dəyərlərin formalaşdırılması ilə bağlı mənəvi problemləri aksioloji baxımdan əsaslandırır.

İnsanlar dünyanı dəyərlər prizmasından mənalandırmaq üçün, mədəniyyətin, bütün tarixi dəyərlərin fəaliyyəti, dəyişilməsi və inkişafı prosesi kimi çıxış edir. Buradan aydın olur ki, şəxsiyyətin təbiətinə və mahiyyətinə dəyərlər mövqeyindən yanaşma, yəni onu aksioloji təhlilə cəlb etmək son dərəcə zəruridir.

Hər bir insan yaşadığı cəmiyyətin əsas sosial dəyərlərini mənimsəmə prosesində şəxsiyyət kimi formalaşır. Eyni zamanda o

qəbul etdiyi və dünyagörüşündə möhkəmləndirdiyi dəyərlər sisteminin real daşıyıcısı rolunu oynayır. Deyilənlərdən aydın olur ki, insan ilə dünya, şəxsiyyət ilə cəmiyyət arasında əlaqələrin aksioloji aspektdən tədqiqi, onu sosiallaşma və individuallaşma meyllərinin vəhdəti kimi götürür.

Məlum səbəblər üzündən marksist ideyologiyanın hökmranlığı dövründə fəlsəfi biliklər sisteminin müstəqil cəhəti kimi aksiologiyanın rolu lazımi qiymətləndirilmirdi. Buna görə də dəyərlərin öyrənilməsi, mənalandırılması və inkişafı ilə bağlı problemlər əksər hallarda diqqət mərkəzindən kənarda qalırdı. Zaman keçgikcə bu mövqenin məhdudluğu aşkara çıxdı və məlum oldu ki, aksiologiya fəlsəfi biliklər sisteminin nisbi müstəqil sahəsi kimi artmaqda olan rol oynayır. Getdikcə daha aydın görünməkdədir ki, dəyərlər fenomeni insan şəxsiyyətinin bütün fəaliyyət növlərində özünü güclü şəkildə göstərir. O, insanın varlığı ilə bilavasitə və ayrlımaz münasibətdədir və böyük dünyagörüşü potensialına malikdir.

Müasir mərhələdə fəlsəfi fikrin dəyərlər problematikasına dərindən nüfüz etməsi nəticəsində onun yeni-yeni evristik və dünyagörüşü xarakterli məqamları aşkar edilir. Dəyərlər kateqoriyası son dövrlərdə aparılan fəlsəfi, etik və sosioloji tədqiqatlarda geniş yer tutmaqdadır. Bununla yanaşı göstərilməlidir ki, dəyərlərin nəzəri mənalandırılması ilə bağlı bir sıra problemlər hələ də həll olunmamış qalır. Onların sırasında aşagıdakılar xüsusi yer tutur: fəlsəfi kateqoriyalar sistemində dəyərin elmi statusunun müəyyən edilməsi; şəxsiyyətin fəaliyyət və davranışında aksioloji səpkinin ifadə olunması müxanizmi; şəxsiyyətin təbiətinin dərk olunmasında dəyərlərin rolunun araşdırılması; şəxsiyyətin çoxpilləli aksioloji funksiyalar sistemi kimi anlaşılması; şəxsiyyətin

formalaşmasının və aksioloji baxımdan təkmilləşməsinin sosioloji və psixoloji mexanizmlərinin aşkara çıxarılması və s.

Yuxarıda göstərilən mülahizələrdən çıxış etməkdə qarşıda bir-birilə sıx əlaqəli iki əsas vəzifə durur: a) genetik və struktur – funksional baxımdan şəxsiyyətin aksiologiyası ilə bağlı əsas problemləri təhlil etmək; b) şəxsiyyəti öz mahiyyətinə və onun təzahür formalarına görə aksioloji fenomen kimi araşdırmaq.

Qeyd etmək lazımdır ki, şəxsiyyəti aksioloji varlıq kimi araşdırmaq, onun hərtərəfli və dərin elmi nəzəri modelini yaratmaq üçün son dərəcə vacibdir. Bununla əlaqədar olaraq ilk növbədə aksiologiyada mərkəzi yer tutan dəyər anlayışının mahiyyət və məzmununu açmaq tələb olunur. Bu fikri bir qədər də konkretləşdirsək, onda deyə bilərik ki, söhbət aşağıdakı məsələlərdən gedir: varlığın real, ontoloji təbiətli fenomeni kimi dəyərlərin təbiəti və mənşəyinin araşdırılması, dəyər anlayışının məzmununa dair elmi-fəlsəfi ədəbiyyatda söylənilən müddəaların təhlil edilib dəqiqləşdirilməsi, onun strukturunun və şəxsiyyətin anlaşılmasında oynadığı rolun tam dolğunluğu ilə aşkar edilməsi, dəyərlərin real varlıqda fəaliyyətinin sosioloji və psixoloji ilkin şərtlərinin müəyyənləşdirilməsi.

Yuxarıda qeyd olunduğu kimi, dəyərlər iki növə ayrılır: predmet dəyərləri və subyekt dəyərləri. Birincilər ətraf aləmdəki obyektləri xeyir və şər, həqiqət və yalan, gözəl və eybəcər, ədalətli və ədalətsiz kimi qiymətləndirir. İnsanların maddi və mənəvi fəaliyyətinin bütün predmetləri, ictimai münasibətlər və onlarla əlaqəli olan təbiət hadisələri bu qrupa aiddir. Burada əsas meyar həmin obyektlərin insan üçün müsbət əhəmiyyət kəsb etməsi və onun tələbatlarını ödəməsidir. Subyekt dəyərləri isə insanların fəaliyyəti və davranışının orientirləri və meyarları rolunu oynayır.

Onlar bir qayda olaraq normalarda ifadə olunan ustanovkaları, qiymətləndirməni, tələbləri və yasaqları əks etdirirlər.

Dəyərlərin predmet və subyekt növlərinə ayrılması ilə yanaşı, digər əlamətlər üzrə təsinfatlar da mövcüddur. Onlardan biri və nisbətən geniş yayılanı aşağıdakı bölgüdür:

1. ekzistensial (cari, gündəlik mövcudluq ilə bağlı olan) və essensial (insanın mahiyyətini ifadə edən) dəyərlər;
2. mövcüd olan (yəni artıq reallaşmış olan) və fikirdə tutulan, ideal dəyərlər;
3. arzuolunan (məsələn, yüksək təhsil almaq, cəmiyyətdə yüksək mənsəb sahibi olmaq) və normativ (qanuna hörmət, müxtəlif qaydalara əməl olunması) dəyərlər (21, s. 609).

Dəyərləri məqsəd dəyərlərə (yüksək mütləq dəyərlər) və vasitə dəyərlərinə (ikinci dərəcəli, alət rolunu oynayan dəyərlər), habelə maddi və mənəvi növlərə bölən təsnifatlar da mövcüddur. Bundan əlavə, qnoseoloci dəyərləri (həqiqət, elmilik), etik dəyərləri (xeyirxahlıq, ədalət), estetik dəyərləri (gözəllik, ülvilik) və dini dəyərləri də bir-birindən fərqləndirirlər.

Qeyd etmək lazımdır ki, dəyərlərin yuxarıda göstərilən tipoloqiyası xeyli dərəcədə nisbi xarakter daşıyır. Çünki onlar bu və ya digər meyar, əlamət üzrə aparılır. Odur ki, onları bir-birindən ayrılıqda deyil, sıx əlaqədə götürmək tələb olunur. Deyilənlərlə yanaşı, nisbi xarakter daşımayan, mütləq mahiyyət kəsb edən dəyər də vardır. İnsan və onun həyatı belə dəyərdir. İ.Kant bu məqamı xüsusi vurğulayaraq yazırdı ki, insana əsl məqsəd kimi yanaşmaq lazımdır, ondan heç vaxt digər dəyəri yerinə yetirmək üçün vasitə kimi istifadə etmək yolverilməzdir. Onun fikrincə, insan özdəyərdir və mütləq ali dəyərdir.

Müasir cəmiyyətin həyat fəaliyyətində dəyərlərin rolu aşağıdakı funksiyalarda çıxış edir: oriyentasiyaedici, motivləşdirici və tənzimləyici.

Dəyərlərin təşəkkülü prosesində insanların mənafeləri çox böyük rol oynayır. Məsələ burasındadır ki, insanların gündəlik praktikası və sosial münasibətlər daxilində onların tələbat və mənafeləri yaranır. Xüsusilə də mənafelər şəxsiyyətin nədəsə maraqlı olmasını şərtləndirir. Nəticədə həmin mənafe və maraq onun dəyərlərinin yaranmasının zəminini təşkil edir. Bu məqamı vurğulayaraq T.Cibutani yazırdı: «Əgər hər hansı obyektə müəyyən bir xüsusi maraq göstərildikdə, onda həmin obyektin dəyərə malik olduğunu söyləmək olar» (21, s. 481).

Deyilənlərdən aydın olur ki, dəyərlərin təbiəti və mahiyyətinin özəyində belə bir fikir dayanır: hər bir insan dünyaya dəyərləndirici münasibət bəsləyir ki, o da iki tərəfdən (predmet dəyərləri və subyekt dəyərləri) ibarətdir.

Dəyərlərin mahiyyəti və ontoloji əsaslarının təhlili aşağıdakı nəticələrə gətirir çıxarır:

1. Şəxsiyyətin kompleks və hərtərəfli fəlsəfi təhlili onu aksioloji baxımdan araşdırmağı zəruri edir, çünki onun idraki və dəyişdirici fəaliyyəti qiymətləndirmədən ayrılmazdır. Ətraf aləmin bütün obyektləri və hadisələri şəxsiyyət üçün həm də dəyərlər dünyası kimi çıxış edir. Dəyərlilik maddi və mənəvi mədəniyyət hadisələrinin ictimai mahiyyətini, onların cəmiyyətdə yerinə yetirdiyi sosial funksiyaların çox mühüm göstəricisidir.

2. Dəyərlər müəyyən konkret ictimai münasibətlər və ünsiyyət formaları çərçivəsində insanların ictimai praktikası və fərdi fəaliyyəti əsasında yaranır və dinamik xarakter daşıyır. Onların

formalaşmasına və inkişafına konkret şəxsiyyətin həyat təcrübəsi və malk olduğu biliklər səviyyəsi güclü təsir göstərir.

3. Bütövlükdə götürüldükdə dəyərlər insanın mövcüdluğunu əhatə edən bioloji, sosial və psixoloji amillərin məhsulu kimi çıxış edir. Hər bir şəxsiyyətdə bu tərəflərin əlaqəsi fərdi qaydada, başqalarında olduğundan fərqli şəkildə olur. Bu məqam dəyərlərə özünəməxsusluq, şəxsiyyət xarakteri verir. Əlbəttə, deyilənlər dəyərləin ümumbəşəri məzmununu inkar etmir. Əksinə, ümumbəşəri və fərdi dəyərlər bir-birilə sıx əlaqədə və qarşılıqlı təsirdədir.

4. Dəyərlər insan varlığının spesifik fenomenləridir. Bu mənada bəşəriyyətin inkişafına dəyərlər dünyasının tarixi təkamülü prosesi kimi baxmaq olar. Cəmiyyət inkişaf edib dəyişildikcə, ona müvafiq olaraq dəyərlər də özünün mütəhərrik və dinamik xarakterini üzə çıxarır. Bu fikir, demək olar ki, bütün dəyərlərə (xeyirxahlıq, həqiqət, gözəllik və s) aiddir. Lakin dəyərlərin dəyişkən xarakteri onların məzmununda stabil və nisbi sabit tərəfin olduğunu inkar etmir.

## 3.2. Şəxsiyyətin aksioloji təşkili və strukturu

Şəxsiyyəti aksioloji baxımdan araşdırarkən ilk növbədə əsas diqqəti bu məsələlərin açılmasına yönəltmək tələb olunur: şəxsiyyəti aksioloji rakursda struktu funksional təhlili etmək, yəni ona insanın sistemli aksioloji təşkili növü kimi yanaşmaqla əsas struktur komponentlərini müəyyənləşdirmək; onun bu cəhətdən yerinə yetirldiyi fundamental aksioloji funksiyaları (bunlar əslində şəxsiyyətin dünyagörüşü və fəaliyyətinin əsasını təşkil edir) öyrənmək. Qeyd etmək lazımdır ki, insan həyata gəldiyi gündən müəyyən baza dəyərlər (obyektiv xarakterli) sistemi ilə, başqa sözlə deyilsə, dünyanın dəyərlər dünyası kimi təşkil olunması ilə qarşılasır. Burada dəyərlər maddi və mənəvi strukturlar kimi insanın mənşəyini və təşəkkül prosesini şərtləndirir. Beləliklə, insan dünyaya gələrkən artıq psixoloji baxımdan həm zahirən, həm də daxilən dəyərlərlə bağlı olur. Bu dəyərlər müəyyən normalar, ideallar, maksimlər (davranış etalonu) və imperativlər formasında ifadə olunur. Cəmiyyət fərdə və onun şüuruna münasibətdə obyektiv dəyərli – mənalandırıcı reallıq kimi çıxış edir. Sonuncunun strukturu son dərəcə mürəkkəb olub, müxtəlif sosial-mədəni təsisatların qarşılıqlı təsiri deməkdir.

İnsan şəxsiyyətinin varlığı dəyərlər baxımından sistemli təbiətə malikdir. Dəyərlərin bir sıra atributiv əlamətləri (iyerarxıyalılıq, subordinasiya xarakterlilik, sistemlilik və s.) vardır. Sosial insanın varlığının əsas sferası kimi dəyərlərin sistemli vəhdəti mədəniyyətdə daha aydın ifadə olunur. Burada bir-birilə əlaqəli bir sıra nisbi müstəqil dəyər səviyyələri mövcuddur:

universalılər (mütləq dəyərlər), sosial farixi xarakterli dəyərlər və şəxsiyyətin malik olduğu konkret dəyərlər. Onlar öz məzmununa görə aşağıdakı kimi sistemləşdirilir.

Birinci səviyyəli dəyərlər öz mahiyyətinə görə insan-dünya əlaqələri sisteminin fundamental moduslarıdır. Bu mənada onların ayrıca olaraq obyektə və yaxud subyektə mənsub olduğunu söyləmək doğru olmazdı. Doğrudur, dəyərlərin əsasını subyekt (ayrıca bir şəxsiyyət, sosial qrup və ya büövlükdə cəmiyyət) tərəfindən onların tələbatını ödəməyə xidmət edən müəyyən predmetin və ya davranış tərzinin qiymətləndirilməsi təşkil edir. Lakin qiymətvermə mürəkkəb psixoloji təbiətə malik olub, obyektin subyekt üçün dəyərliliyinin müəyyənləşdirilməsi kimi çıxış edir. Məhz bu məqam dəyərlərin dərin psixoloji əsası rolunu oynayır.

Növbəti səviyyə ilə əlaqədar göstərilməlidir ki, qiymətvermə mexanizmi ikiqütblü (bipolyar) xarakter daşıyır, yəni subyekt tərəfindən tələbatı ödəyən hər hansı bir obyektin və ya onun xüsusiyyətlərinin qiymətləndirilməsi, onun dəyərli və yaxud da qeyri-dəyərli olmasını ifadə edir. Yuxarıda qeyd olunduğu kimi dəyərlər insan ilə dünya arasında qarşılıqlı təsirdə yarandığı və bu qarşılıqlı təsirin bütün və inteqral səciyyəsini ifadə etdiyi üçün, dəyərlər anlayışının məzmunu da bu qarşılıqlı əlaqələrin bütün konkret təzahürlərini əhatə etməlidir. Sonuncular aşağıdakı kateqoriyalarda ifadə olunur: tələbatlar (dəyərlər tələbatlardan yaranmır, bununla belə bəzi dəyərlər onların bu anda tələbatı ödəyib, ödəməməsindən asılı olmayaraq qəbul oluna bilir), məqsəd, maraq, arzu, ideal və s. Bu sadalanan anlayışlara münasibətdə dəyərlər bir növ cins anlayışı kimi çıxış edir, çünki onların hamısının məzmununda zərurən qiymətvermə məqamı

iştirak edir. Beləliklə, bu və ya digər predmet yalnız tələbatları ödəmək obyekti kimi götürüldükdə dəyər mənası kəsb edir. Bu halda qiymətvermə «dəyərlilyin üzə çıxarılması» psixoloji fenomeni kimi çıxış edir və dəyərlərin çox mühüm struktur komponenti rolunu oynayır. Bu mövqedən çıxış etdikdə göstərilməlidir ki, tələbat obyektləri dəyərə çevrildikdən sonra özü də müəyyən normaları, ehtiyacları, tələbat və meyarları yarada bilir. Dəyərlər fenomeninin genezisi mexanizmini ifadə edən bu xətti ardıcıl davam etdirdikdə qeyd olunmalıdır ki, dəyərlərə həmin anlayışlar (məqsəd, norma, tələbat, ideal və s.) vasitəsilə verilən hər hansı tərifi məqbul hesab etmək olar. Bu şərtlə ki, onun dəyərlərin məzmununu tam dolğun və adekvat əks etdirilmədiyi nəzərdə tutulsun. Sözügedən anlayışlar öz – özlüyündə sırf dəyər anlayışları deyildir. Lakin onlar müxtəlif qütblərdən olan əhəmiyyət kəsb edə bilir, yəni qəbul oluna və rədd oluna bilir. Sonuncu məqam sübut edir ki, həmin anlayışlara hər zaman müəyyən dəyərlilik xassəsi məxsusdur. Bununla belə məqsəd, norma, tələbat, maraq, ideal anlayışları öz mahiyyətinə görə dəyərliliyə neytral münasibətdədir, çünki bu anlayışların qəbul olunması və ya rədd olunması onların varlığına deyil, daşıdıqları məzmuna aid olur. Əgər bu anlayışların hər biri insanın dünya ilə qarşılıqlı əlaqələrinin dəyərləndirici cəhətini ifadə edirsə, onda vəziyyət əks istiqamətə doğru dəyişilir. Odur ki, dəyərlərin psixoloji, sosioloji, politoloji və linqvistik formalarda təzahür edə bilməsi imkanları daim nəzərdə tutulmalıdır.

Dəyərləri ümumfəlsəfi mənada nəzərdən keçirdikdə onun bütövlük səciyyəsinə aid olmayan detalları nəzərə alınmır. Başlıca diqqət əsas keyfiyyətlərin və xassələrin əhatə olunmasına yetirilir. Başqa sözlə deyilsə, şəxsiyyətin subyekt kimi verdiyi qiymətdən

çıxış edilir. Bu halda qiymətləndirmə insanın dəyərli olanı və dəyərli olmayanı müəyyən etmək kimi universal qabiliyyətini əks etdirir. Odur ki, dəyərlərin ümumi anlamını subyektin öz qiymətləndirdiyi obyektə münasibəti kimi səciyyələndirmək olar. Buradan da sistem kimi götürülən üçüncü – konkret səviyyənin mühüm yeri irəli gəlir. Üçüncü səviyyə bunu ifadə edir ki, şəxsiyyətin formalaşması gedişində eyni zamanda onun şəxsi dəyərləri sistemi də təşəkkül tapır. Bu dəyərlər zahirən şəxsiyyətin aksioloji funksiyaları kimi təzahür edən əsas psixoloji ustanovkaların sistemini ifadə edir. Aksioloji funksiyalar inteqrativ fəaliyyət kimi təşkil olunur ki, onun əsasında mürəkkəb şaxəliliyə və çoxpilləli struktura malik olan psixoloji ustanovkalar durur.

Beləliklə, ustanovkalar dəyərlərin varlığının psixoloji forması kimi çıxış edir. Bundan əlavə, bir sıra psixoloji hadisələr (əqidə, inam, ümid, rəy və s.) də ustanovkalarla sıx əlaqəli olduğundan, onlar da aksioloji funksyaların təzahürü üsuluna bilavasitə təsir göstərir.

Dəyərlərin fərdi sistemi şəxsiyyətin səciyyəsinin fəqərə sütununu təşkil edir. Şəxsiyyətin strukturu, onun intensionallıq səviyyəsi və özünütəşkili məhz dəyərlər sistemi ilə müəyyən olunur. Buna görə də şəxsiyyətə aksioloji təşkil olunmuş sosial fərd kimi yanaşmaq məqbuldur. Fərdə, onun aksioloji funksiyaları sistemi kimi refleksiv şəkildə bəlli olan şəxsi dəyərlər sistemi bütöv bir mənəvi qurumu – şəxsiyyətin dünyagörüşünü ifadə edir. Sonuncunun insan üçün müstəsna əhəmiyyətini bu faktdan yəqin etmək olar: dünyagörüşü temperament, iradə, qabiliyyət və digər psixoloji xassələrlə vəhdətdə çıxış edərək insanın xarakterini ifadə edir. Deyilənlərdən aydın olur ki, şəxsiyyətin dünyagörüşü onun

xarakterinin özülü rolunu oynayır. Məhz o, subyektin intensional fəaliyyətinin şəxsi (dəyərlərlə mənalaşdırılmış, dəyərlər baxımından rasional hesab olunan) tiplərini müəyyən edir.

Təhlil göstərir ki, dəyərlər sisteminin səviyyələri sırasında birinci səviyyə unversalilər (mütləq dəyərlər) müstəsna dərəcədə mühüm yer tutur. Onların mahiyyəti insanın öz varlığını yaratmaq, təkrar istehsal etmək və qoruyub saxlamaqla bağlı ümumi tarixi funksiyasının obyektivləşmiş məzmununda ifadə olunur. Universaliləri (həqiqət, xeyirxahlıq, gözəllik, iradə azadlığı və s.) dünyanın dəyərlər baxımından anlaşılmasının nümunəsi və çıxış nöqtəsini təşkil edən insan praktikası ilə müqayisə etmək olar. Bununla əlaqədar göstərilməlidir ki, varlığın ən ali dəyərini insan həyati təşkil edir. Mühüm aksioloji prinsip kimi çıxış edən humanizmin əsl mənası hər şeydən əvvəl bu məqamda ifadə olunur.

Təkamül  gedişində insan genetik proqramlara – nitq, başqaları ilə qarşılıqlı əlaqə modelləri formasında özünü göstərən sosial qarşılıqlı təsirə uyğunlaşır. Bu proqramlar yalnız onlara adekvat olan mütəşəkkil strukturlaşdırılmış mühit mövcüd olduqda yaranır və fəallıq göstərir. Həm də nəzərdə tutulmalıdır ki, müasir insan bioloji növünün (Homos sapiens) təkamülü gedişində bu mühit hamı üçün ümumi olur. Başqa sözlə deyilsə, insanın sosial keyfiyyətləri dərin ümumi filogenetik cəhətlərə malikdir. Bu cəhətlər konkret tarixi şəraitdən asılı olaraq məzmunca müxtəlif olur. Lakin onların insanın fərd kimi həyat fəaliyyətinin saxlanılması ilə bağlı olan daxili invariant məzmunu dəyişilməz olaraq qalır. Təkamül gedişində bəzi ilkin çıxış xarakteri daşıyan və öz məzmununa görə universal olan ümumi bəşəri fundamental prinsiplər formalaşır. Onlar bir qayda olaraq xeyir, şər, azadlıq,

sevgi, ədalət, mənəvi borc, məsuliyyət, vicdan və başqa. anlayışlarda ifadə olunur. Bu mütləq dəyərlər hər bir tarixi dövrdə bu mühitlə həmin dövrün insanının təbiəti və sosial gercəkliyi ilə şərtlənən müxtəlif konkret məzmun kəsb edir. Universalilər, Hegelin təbirincə desək, «varlığın dəyərləndirici, mənalandıcırı sferasında ölçünün əsas düyün xəttləri»dir. Onlar müxtəlif məkan-zaman kontekstlərində yaranır, fəaliyyət göstərir və konkret dəyərlər sistemi növləri (fəlsəfi, dini və ideoloji) şəklində çıxış edir. Burada biz dini dəyərlərin də adını çəkdik. Bununla əlaqədar qeyd edək ki, fəlsəfi – nəzəri ədəbiyyatda çox vaxt «dini dəyərlər» anlayışı qəbul olunmur. Bu halda, belə bir arqument gətirilir ki, dəyər öz mahiyyətinə görə müsbət məzmuna malik olan, sosial tərəqqiyyə xidmət edən fenomendir. Bununla birlikdə, Fikrimizcə, belə bir məqamı da unutmaq olmaz: din insanların ictimai həyatının təşkilində, şəxsiyyətin fərdi dəyərlər sisteminin formalaşmasında əhəmiyyətli rol oynayır və bu, daim nəzərə alınmalıdır.

Şəxsiyyətin dəyərlər aspektindən təhlili onun son dərəcə mürəkkəb məzmuna malik olduğunu bir daha sübut edir. Bu təhlil həm də şəxsiyyət anlayışının konseptual baxımdan hərtərəfli tədqiq etməyin zəruriliyini aşkara çıxarır. Sonuncu məqam bir də ona görə mühüm elmi maraq kəsb edir ki, mövcüd fəlsəfi-sosioloji ədəbiyyatda şəxsiyyət anlayışı müxtəlif şəkildə izah edilir. Əlbəttə, bu müxtəlifliyin özünün səbəbləri vardır. Belə ki, onun məzmununu açarkən konkret cəmiyyətin mövcüd dəyərlər sistemini şərtləndirən rəngarəng amillərin (sosial–iqtisadi, ideoloji, fəlsəfi və elmi təsəvvürlərin səviyyəsi və s.) bu və ya digər növü təiqiqatçılar tərəfindən ön plana çəkilir. Həm də nəzərdə tutmaq lazımdır ki, təhlil predmeti kimi götürülən şəxsiyyət anlayışının

özü çox müxtəlif empirik tərəflərdə təzahür edir. Onun haqqında olan elmi biliklər əsas etibarilə kiçik miqyaslı, lokal təlimləri əhatə edir ki, onları bütöv və rasional fəlsəfi nəzəriyyə halında birləşdirmək xeyli dərəcədə çətin vəzifədir. Odur ki, şəxsiyyətə dair müasir baxışların əksəriyyəti anlama metoduna və müxtəlif hermenevtik müddəalara arxalanır. Əlbəttə, biz onların elmi əhəmiyyətini inkar etmək fikrində deyilik. Söhbət ondan gedir ki, yalnız müasir elmi idrakın və insanşünaslığın yüksək inkişaf səviyyəsinə əsaslanmaqla, şəxsiyyətin vahid və mötəbər tərifini vermək mümkündür.

Biz burada bu çətin və məsuliyyətli vəzifəni öhdəmizə götürməyərək, təkcə onu bildirmək istəyirik ki, belə tərifdə mütləq şəxsiyyəstin aksioloji səpkisi öz əksini tapmalıdır. Fikrimizcə, şəxsiyyətə, xüsusilə müasir şəxsiyyətə tərif verərkən, onun məzmununu açakrən aksioloji cəhətdən neytral terminlərdən istifadə olunması doğru deyildir. Çünki şəxsiyyət anlayışı polisemantik təbiətə malik olub, özündə insan varlığının çoxtərəfli və rəngarəng üsullarını əks etdirir. Digər tərəfdən unutmaq olmaz ki, şəxsiyyət, fərdin mahiyyət xarakterli keyfiyyəti kimi onun mənəvi inkişaf səviyyəsini əks etdirir. Buna görə də onu, marksizmin iddia etdiyi kimi, ictimai münasibətlərin məcmusuna müncər etmək doğru deyildir. Şəxsiyyət heç vaxt sosial olanın avtomatik surəti, sosial keyfiyyətlərin mexaniki məcmusu kimi çıxış etmir. Fəlsəfi, sosioloji və psixoloji ədəbiyyatın təhlili sübut edir ki, şəxsiyyəti sosial fərdin şəxsi dəyərlər sisteminə malik olması və dəyərli – rasional həyat fəaliyəti üsulunun formalaşması ilə bağlı olan müəyyən mənəvi inkişaf səivyyəsi kimi izah etmək tələb olunur.

Şəxsiyyətin bütöv psixoloji funksional sisteminin formalaşmasında və dəyərlərin psixoloji mənalandırılmasında ustanovkalar müstəsna dərəcədə böyük yer tutur. Qeyd olunmalıdır ki, insanın malik olduğu ustanovkalar sistemi mürəkkəb və çoxsəviyyəli xarakter daşıyır, onun strukturunda sabit (fiksasiya olunmuş) ustanovkalar sistemi xüsusilə seçilir. Sonuncuların xarici təzahür forması şəxsiyyətin aksioloji funksiyasını ifadə edir. Qeyd edək ki, şəxsiyyətin strukturuna dair müasir fəlsəfi, sosial psixoloji və psixoloji konsepsiyalarda bu barədə bir çox qiymətli fikirlər irəli sürülmüşdür (166, 200, 69).

Onlara əsaslanmaqla şəxsiyyətin strukturunun aksioloji təbiətə malik olduğu haqqında qənaətə gəlmək olar. Şəxsiyyətin sözügedən strukturunun əsas elementlərinin məzmunu aşağıdakı anlayışlar vasitəsilə ifadə olunur: «həyat, ölüm, azadlıq, sevgi, mənəvi borc» və s. Bu anlayışlar həm də ona görə müstəsna rol oynayırlar ki, onlar şəxsiyyətin varlığının ilkin və əzəli konstantlarını təşkil edirlər. Onların bioloji kökləri həyat və ölüm haqqında instiktlərdə, öz növündən olan digər canlılar ilə birləşməyə edilən cəhdlərdə yerləşir. Lakin onlar bu vəziyyətdə hələ dəyərləri ifadə etmirlər. Sözügedən instinktlər yalnız insanın intensional davranışı və fəaliyyəti səviyyəsində əsl şəxsiyyət dəyərləri məzmunu kəsb edir. Belə ki, məhz bu mərhələdə onlar «Mən»in varlığını aşkara çıxarır, onu digərlərinin varlığından fərqləndirir, insanı öz həyatının məqsədi və mənasına dair axtarışlara sövq edir. İnsan yuxarıda qeyd olunan və digər bir sıra problemləri həll etməyə cəhd göstərmək yolunda fəaliyətində şəxsiyyət dəyərləri sistemi əldə edir. Həmin sistemin əsas komponentləri həyat, ölüm, sevgi, azadlıq, mənəvi borc, məsuliyyət, ədalət, xoşbəxtlik, həyatın mənası kimi aksioloji

funksiyalarda ifadə olunur. Şəxsiyyətin strukturunun bütün bu komponentləri (ünsürləri) fiksasiya olunmuş ustanovkalar və aksioloji funksiyalar kimi çıxış etməklə, insanın sosial həyatının istehsalını və təkrar istehsalını təmin edir. Həmin aksioloji funksiyaların məzmununun koqnitiv və yaxud emosional xarakter daşımasından asılı olaraq şəxsiyyətin intensional və davranış əsasları formalaşır. Göstərilməlidir ki, aksioloji funksiyalar şəxsiyyətin davranışına təsir edən kənar amillər kimi çıxış etmirlər. Onlar bu davranışı ifadə edən bütöv və bitkin psixoloji mexanizmin ayrılmaz tərkib hissəsi kimi ona daxil olurlar. Buna görə də onlar davranışın səciyyəvi cəhətlərini əks etdirir, çünki davranış aktının tərkibinə ustanovkalar ilə yanaşı, həm də temperamentin, qabiliyyətlərin, iradənin və sairin psixoloji xassələri də daxil olur.

Dəyərlərin şəxsiyyətin həyatında yerinə yetirdiyi çoxtərəfli funksiyalar sırasında aşağıdakılar daha mühüm yer tutur: Hər şeydən əvvəl, onlar fərdin iradəsinə yönələn normativ tələblər kimi çıxış edir. Digər tərəfdən, onlarda bu və ya digər şəxsin həyatının mənası və məqsədləri az-çox dolğun şəkildə ifadə olunur. Sonra, onlar şəxsiyyətin formalaşması və inkişafının güclü amilidir. Lakin nəzərdə tutulmalıdır ki, bu funksiyalar dəyərlərin bütün növlərində eyni səviyyədə yerinə yetirilmir, bu münasibətdə ciddi fərqlilik özünü göstərir. Başqa sözlə deyilsə, şəxsiyyətin həyatında oynadığı rola görə əsas yeri məqsəd-dəyərlər tutur, vasitə-dəyərlər isə ikinci dərəcəli əhəmiyyət kəsb edirlər (22, s. 17).

Ən mühüm inteqrasiyaedici aksioloji funksiyanı həyatın mənası yerinə yetirir. Bu funksiyanın meydana gəlməsi fərdin real varlıqda öz identikliyini və özünüifadə formalarını tapmaq yolunda apardığı axtarışlar ilə bir vaxta təsadüf edir. Həyatın

mənası problemini irəli sürmək və onu həll etməyə yönələn axtarışlar aparmaq insanın öz həyatının təşkilində artıq bilavasitə şəxsiyyət kimi iştirak etdiyini göstərir. Bu problemin dərk olunması isə onu sübut edir ki, insan daxili refleksiya keyfiyyətinə malikdir və öz qarşısına məqsəd qoyub, onu reallaşdırmağa cəhd göstərmək kimi psixoloji səciyyə daşıyır. Sözügedən amillər meydanda olduqda bütün potensial və aktual ustanovkaların daxilən təşkil olunmasının üzə çıxarılmasını, aksioloji funksiyaların məzmununun verifikasiyasını (həqiqiliyinin yoxlanılması), onların sahmanlı düzülüşünün təmin olunmasını və prioritet yer tutan funksiyaların aşkara çıxarılmasını əhatə edən mürəkkəb və geniş məzmunlu psixoloji proses baş verir. Bu isə mahiyyət etibarilə o deməkdir ki, həyatın mənasının reallaşdırılmasını təmin edən çox mühüm daxili şərt kimi «Mən» konsepsiyasının (fərdilik təliminin) təşkili prosesi həyata keçirilməkdədir.

Yuxarıda deyilənlər əsasında belə nəticəyə gəlmək olar ki, şəxsiyyətin strukturunu refleksiv «Mən» formasında əks etdirən və həyat, ölüm, azadlıq, mənəvi borc, həyatın mənası, vicdan, xoşbəxtlik anlayışlarında ifadə olunan struktur elementləri şəxsiyyətin mənəvi-cismani reallıq kimi təşəkkül tapmasının nəticəsidir.

Dəyərlər hansı xarakter daşımasından asılı olmayaraq subyektlərin idrakı və praktiki fəaliyyətinin yönəldiyi obyekti göstərir və bu fəaliyyət cəmiyyət nəticəsində əldə olunur.

Şəxsiyyətin (subyektin) bu və ya digər dəyərlərə oriyentasiya etməsi prosesi qiymətvermə ilə ayrılmaz əlaqədədir. Qiymətləndirmə müqayisəetmə aktı (sırf qiymət) və dəyərli hesab olunanın seçiminin tövsiyyə olunmasını əhatə edir. Qiymətverən şəxs

qiymətləndirdiyi obyektin faydalı və ya zərərli, doğru və yalan, zəruri və ya lazımsız olması haqqında fikir yürüdür. Qiymətvermə praktika ilə ayrılmaz əlaqəlidir. Bir tərəfdən praktika subyektin tələbatı, mənafeyi və məqsədləri vasitəsilə, nəyinsə faydalı olduğunu müəyyən edir. Digər tərəfdən, qiymətləndirmə praktiki fəaliyyətə əhəmiyyətli təsir (müsbət və ya mənfi istiqamətdə) göstərir.

Nəzərdə tutulmalıdır ki, eyni bir təbiət hadisəsi və ya sosial proses ayrıca bir fərd və sosial qruplar tərəfindən müxtəlif cür qiymətləndirilə bilər. Bu baxımdan İ.Kantin obrazlı şəkilə dediyi aşağıdakı fikir maraqlıdır: biri palçığa baxanda onda yalnız zibili görürsə, digəri onda ulduzların əks olunmasını müşahidə edir.

Şəraitin dəyişilməsi və şəxsi təcrübənin təsiri altında, hətta eyni bir subyektin müəyyən obyekt haqqında qiyməti dəyişilə bilir. Bu çür yenidənqiymətləndirmə sözügedən obyektin inkişafından, subyektin özünün inkişafından, onun obyekt haqqında informasiyasının çoxalmasından, həyat təcrübəsinin zənginləşməsindən və sosial movqeyinin dəyişilməsindən asılı olaraq baş verir.

Şəxsiyyətin fəaliyyətində dəyərlərin rolundan danışarkən, sonuncuların müxtəlif növlərdə olduğu da nəzərdə tutulmalıdır. Bu baxımdan onların aşağıdakı iki böyük qrupu bir-birindən fərqləndirilir: a) elmi dəyərlər (müvafiq bilik sahəsinə aid idrakı informasiya, onun həqiqi məzmunu, dünyanın elmi mənzərəsi, elmi təfəkkürün üslubi, eksperiment aparmağın metodları və metodikası və s.); b) sosial dəyərlər (bunlar onu ifadə edir ki, insan müəyyən bir cəmiyyətin, millətin, sosial qrupun üzvü olduğu üçün öz fəaliyyətində həmin birlik formalarının maraqlarını ifadə edən dəyərlərə uyğun hərəkət edirlər); c) etik dəyərlər (xeyirxahlıq,

ədalət və s.), ç) siyasi, dünyagörüş xarakerli, estetik və s. dəyərlər. Qeyd edək ki, bəzən sonuncu iki qrup birləşdirilərək vahid sosial dəyərlər adı altında verilir ki, bunu da məqbul saymaq olar.

Müasir dövrdə sosial-etik və humanist dəyərlərin rolu və təsir dairəsi durmadan genişlənir, onlar hətta təbii elmi idraka da dərindən nüfuz edirlər. Bu təbiidir, çünki sosial-etik və humanist problemlər nə isə zahiri xarakterli və elmi həqiqət axtarışını müşayiət edən xarici amillər deyildir. Onlar elmin «bədəninə» onun zəruri şərti kimi, təfəkkür «yürütmə şəraiti» və həqiqəti effektiv reallaşdırma forması kimi daxildir (267, s13).

Dəyərlərin şəxsiyyətin həyatında cox mühüm rolu bundadır ki, onlar fərdin yaradıcı fəallığını artırmağın, onun yaradıcı potensialını tam dolğunluğu ilə hərəkətə gətirməyin və davranışını tənzim etməyin həlledici amillərindəndir. Bununla belə, elmi-fəlsəfi ədəbiyyatda bu problem yalnız son dövrlərdə intensiv surətdə işlənilməyə başlamışdır. Halbuki, onlar çox böyük dünyagörüşü və tərbiyəvi əhəmiyyət kəsb edir. Digər tərəfdən, şəxsiyyətin tələbatları və mənafeləri, məqsəd və idealları onun malik olduğu dəyərlərlə sıx əlaqədə mövcüddur.

Şəxsiyyətin dəyərləri üç əsas mənbə hesabına formalaşır. Onlardan birincisini insanların yaratdığı və nəsildən-nəslə keçirdiyi, lakin konkret cəmiyyətin fövqündə duraraq ümumbəşəri səviyyəyə yüksəlmiş aksioloji formalar təşkil edir; ikincisi şəxsiyyətin yaşadığı cəmiyyətdə, real sosial mühitdə əsas yer tutan dəyərlər sistemi; nəhayət, üçüncüsü şəxsiyyətin özünün sosial statusu, rolu, dünyagörüşü, bilik və mədəniyyət səviyyəsi, şəxsi təcrübəsi nəticəsində formalaşan dəyərlərdir. Şəxsiyyətlərin həyat fəaliyyətində bu üç tərəf bir-birindən ayrılıqda deyil, sıx qarşılıqlı təsirdə və vəhdətdə çıxış edir. Dəyərlərin məzmununda mövcüd

ictimai münasibətlər sisteminin xarakteri, tələbatları və inkişaf qanunauyğunluqları heç də həmişə adekvat əks olunmur, yəni burada təhriflərə və yanlışlıqlara yol verilə bilir.

Şəxsiyyətin dəyərlərinə təkcə predmet deyil, həm də normativ səpkidə yanaşmaq olar. İkinci halda onlar şəxsiyyətin öz maraqlarına və məqsədlərinə uyğun həyata keçirdiyi dəyərləndirici və qiymətverici münasibət kimi çıxış edir. Belə münasibət fərd tərəfindən onu əhatə edən az – çox əhəmiyyətli bütün sosial hadisələrə və proseslərə nəzərən bildirilir.

İnsanın fəaliyyətində idrakı, praktiki və dəyərləndirici tərəflər bir-birindən ayrılmaz olduğu üçün, belə dəyərləndirmə müstəsna dərəcədə böyük əhəmiyyətə malikdir. Dəyərlərin funksiyaları siyasi, hüquqi, iqtisadi, əxlaqi və estetik sahələrdə təzahür edir, həm də digər normalar ilə əlaqədə reallaşır. Dəyərlərin ən böyük rolu bundadır ki, onlar cəmiyyətin mənafeləri ilə sosial qrupların və ayrı-ayrı şəxsiyyətlərin mənafelərini əlaqələndirməyin işlək mexanizmləri kimi çıxış edir (22, s. 14).

Müasir dövrdə baş verən əsaslı və hərtərfli transformasiya proseslərinin təsiri altında dəyərlərin cəmiyyətdə yeri və rolunda ciddi dəyişikliklər özünü göstərir. Hər şeydən əvvəl ictimai və fərdi fəaliyyətdə, şüurda və mədəniyyət sferasında onların rolu və əhəmiyyəti nəzərəçarpacaq dərəcədə artır. Cəmiyyətin demokratikləşdirilməsi, bazar münasibətlərinin formalaşması, xüsusi mülkiyyətin inkişafı və hüquqi dövlətin formalaşması şəraitində şəxsiyyətin malik olduğu dəyərlər, onun fəaliyyət və davranışını tənzim edən güclü amil kimi çıxış edir. Digər tərəfdən, baş verən dərin və hərtərəfli irəliliyəişlər fonunda ənənəvi dəyərlərin məzmunu dəyişilir və yeni dəyərlər yaranır, sonra,

ümumicəmiyyət miqyasında və beynəlxalq həyatda dəyərlərin yenidən mənalaşdırılması adlı dərin proses gedir.

Bütün bu qeyd olunan proseslər şəxsiyyətin aksioloji statusuna, təşkilinə və funksiyalarına çoxtərəfli və müxtəlif istiqamətli təsir edir. Özü də bu təsir öz məzmununa görə birmənalı və yalnız müsbət xarakter daşımır. Yəni o, şəxsiyyətin formalaşması və inkişafına pozitiv təsir göstərməklə yanaşı, həm də müəyyən inkari, arzuolunmaz və ziddiyətli nəticələr də törədir. Sonuncu istiqamət öz təzahürünü başlıca olaraq bunda tapır ki, maddi amillərin ön plana keçməsi nəticəsində ictimai şüurun və mənəvi həyatın kasadlaşması meyli özünü göstərir.

Şəxsiyyətin şüurunda dəyərləndirici-motivləşdirici tərəf cox mühüm yer tutduğu üçün onun əsas fəaliyyət motivləri, mənəvi idealları onları reallaşdırma qabiliyyətləri ilə ayrılmaz əlaqəlidir (129, s.32).

Qeyd etmək lazımdır ki, insanın dünyaya dərkedici və dəyərləndirici münasibəti bir-birindən ayrılıqda mövcüd olmadığı üçün, onlar eyni bir prosesin ayrılmaz iki tərəfini təşkil edir. Əslində insana anadangəlmə və obyektiv olaraq dəyərli olanı və yaxud qeyri-dəyərli olanı ayırmaq seçimi verilmir. Onlar varlığın bir növ mövcüd olan və arzu edilən strateci xətti kimi çıxış edir. Odur ki, dəyərlərin mövcüdluğu hər şeydən əvvəl insanın psixikası ilə reallıq arasındakı əlaqələrin təbiəti ilə müəyyən olunur. Öz məzmununa görə bu əlaqələr həmişə bu və ya digər baxımdan dəyərlilik kəsb edir. Çünki onlar vasitəsilə insan onu əhatə edən sonsuz saylı obyektlərdən yalnız ona lazım olanları, faydalı hesab etdiklərini seçib götürür və qalanlarını lazımsız və faydasız kimi bir kənara qoyur. Buna görə də dünya şəxsiyyətin qarşısında çoxtərəfli və çoxpilləli dəyərlər dünyası kimi çıxış edir.

Həm də nəzərdə tutulmalıdır ki, dəyər və dəyərlilik insan ilə dünya arasında əlaqələrin mənasına və ruhuna hopur. Qəti müəyyənləşmiş və dərk olunmuş, yəni insanın dəyərlər baxımından qavradığı və yaradıcılıqla dəyişdirdiyi dünya, onun həqiqi və əsl real varlıq üsuludur. Buradan aydındır ki, dəyərlər insan ilə dünya arasında fundamental xarakterli əlaqə üsuludur, yəni onun dünyada öz varlığını təşkil etməsinin universal prinsipidir.

Dəyərlər ayrılıqda götürülmüş bir insanın və yaxud da insan birliklərinin həyat fəaliyyətinin tənzimedici, oriyentasiyaedici, inteqrativ və motivləşmə – intensional əsasları kimi çıxış edir. Onlar insanın bütün həyat təşkili formalarında özünü göstərir və bu formalar bir-birilə sıx əlaqəlidir.

Şəxsiyyətin fəaliyyətində və davranışında humanitar dəyər normaları özünün dispozitiv xarakteri (müxtəlif tələblər, tövsiyələr, imperativlər, yasaqlar qoyulması), sanksiyalaşdırıcı təbiəti (könüllü surətdə yerinə yetirilən olması, ictimai rəyin və ictimai qınağın gücü ilə qorunması və s.) və fəaliyyət göstərmə şəratinin müxtəlifliyi ilə seçilir.

Dəyər şüuru insan mənəviyyatının elementi olmaq etibarilə normanı yerinə yetirməli olan psixiki tərəfi ifadə edir. Digər tərəfdən, dəyər şüurunun ayrılmaz tərkib hissəsini və şərtini şəxsiyyət azadlığının mövcüd olması təşkil edir. Nəhayət, dəyər şüuru həm də insanda yüksək əxlaqi ideallarının olması ilə sıx bağlıdır.

Deyilənlər sübut edir ki, şəxsiyyətin sözün əsl mənasında insan kimi özünü təzahür etdirməsi üçün təkcə normal olması kifayət deyildir, onun həm də humanitar təbiətə malik olması lazımdır. Dəyər şüuru, humanitar normalar aşağıdakı keyfiyyətlərə malikdir: onlar öz mahiyyətinə görə universaldır və ümumi

əhəmiyyət kəsb edir; fundamental xarakterə malikdir (siyasət, elm, din və s. məhz bu əxlaqi absolyutlar üzərində yüksəlir); onlar heç nədən asılı olmayıb, avtonom xarakter daşıyır (elmə, siyasətə, din və s. tabe deyildir) (134, s.184-187).

Dəyərlərin hümanitar təbiətinin bir mühüm xassəsini onların sözün müəyyən mənasında zamanın fövqündə durması təskil edir. Yəni humanitar dəyərləri hər hansı bir konkret hadisə ilə bağlamaq doğru deyildir. Sözün əsl mənasında humanitar dəyərlər konkret tarixi hadisələrdən yüksəkdə durur. Bu mənada yanaşdıqda humanitarlıq (mənəviyyatlılıq) insanın real mövcüd olan, yəni müvəqqəti və keçici xarakter daşıyan (onun mükəmməlliyindən asılı olmayaraq) vəziyyətdən narazılığı zəminində yaranır. Bu halda şüur müvəqqəti mövcüd olan ilə absolyut, ideal ilə gercəklik arasında olan aradan qaldırıla bilməyən məsafəni aşkara çıxarır (203, s.7).

Lakin hər faydalı olan hələ dəyərli olan demək deyildir. Onlar arasındakı fərq bundadır ki, sonuncu utilitar xarakter daşımır, əsas məqsəd kimi çıxış edir.

Dəyərlərin tənzimləyici funksiyası da çox mühüm olub, insan ruhunu dərinləşdirir.

Malik olduğu dəyərlər sisteminə görə müxtəlif mədəniyyətlər bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Bu fərqlilik təbii ki, müvafiq surətdə onların nümayəndələrinin davranışında da öz ifadəsini tapır. Dəyərlər ilə müasir dünyadakı əsas mədəniyyət tipləri arasında asılılıq əlaqələrinin son dərəcə mürəkkəb və rəngarəng olduğunu aşağıdakı cədvəldən də görmək olar (228, s.27).

Cədvəldəki sərti işarələr aşağıdakı kimi oxunmalıdır:

Z – Qərb mədəniyyəti, B – Şərq mədəniyyəti, Ç – Amerika qaralarının mədəniyyəti, A – Afrika mədəniyyəti, M – müsəlman mədəniyyəti

| **Dəyərlər** | **Birinci dərəcə kəsb edir** | **İkinci dərəcəyə malikdir** | **Üçüncü dərəcəlidir** | **C əhə** |
|---|---|---|---|---|
| Fərdilik (individuallıq) | Z | Ç | B | M |
| Anaya hörmət | ÇB | MZ | - | - |
| Kişilik (qeyrət) | ÇMBZA | - | - | - |
| İyerarxiya | ZBMA | Ç | - | - |
| Qüdrətlilik | BA | MÇ | Z | - |
| Sülh | B | Ç | ZA | M |
| Pul (sərvət) | ZAÇ | M | B | - |
| Təvazökarlıq | B | ÇAM | - | Z |
| Dəqiqlik | Z | Ç | MB | A |
| Xilaskarlıq | Z | M | - | BÇ |
| Karma (öz əməlinin cəzası) | B | - | - | MZ |
| Birincilik (üstünlük) | Z | Ç | - | BA |
| Aqressivlik | ZÇ | M | AB | - |
| Kollektiv məsuliyyət | BAM | Ç | - | Z |
| Böyüklərə hörmət | BAM | Ç | - | Z |
| Gənclərə hörmət | Z | MAÇB | - | - |
| Qonaqpərvərlik | BA | Ç | - | Z |
| İrsən keçən əmlak | B | - | AMBÇ | - |
| Ətraf mühitin qorunması | B | ÇA | Z | M |

| | | | | |
|---|---|---|---|---|
| Dərinin rənginə münasibət | BZÇ | M | - | A |
| Əkin sahəsinə müqəddəs münasibət | B | A | - | ÇM |
| Qadınların bərabərliyi | Z | BÇ | A | M |
| İnsan ləyaqəti | ZÇ | BAM | - | - |
| Səmərəlilik (effektivlik) | Z | Ç | BM | - |
| Vətənpərvərlik | ÇMAB | Z | - | - |
| Dindarlıq | ZÇMAB | - | - | - |
| Avtoritarizm | BMA | ZÇ | - | - |
| Təhsil | ZÇ | BAM | - | - |

Cədvələ dərindən nəzər saldıqda məlum olur ki, bir sıra dəyərlər (vətənpərvərlik, avtoritarizm, təhsil, insan ləyaqəti və sair) bütün mədəniyyət tipləri üçün mühüm əhəmiyyət kəsb edir. Bununla belə dəyərlərin mədəniyyət növləri təsnifatında ciddi fərlqlər də mövcüddur. Bu baxımdan mədəniyyətlərin ayrı-ayrı növlərini eyniləşdirmək doğru olmazdı. Onlarda bu və ya digər dəyər növləri eyni dərəcədə qiymətləndirilmir. Başqa sözlə deyilsə, elə dəyərlər var ki, onlar ayrı-ayrılıqda Şərq və Qərb və ya müsəlman mədəniyyətləri üçün səciyyəvidir. Digər qrup dəyərlər isə həmin mədəniyyətlər üçün o qədər də qiymətli deyildir. Halbuki, onlar Afrika və Amerika mədəniyyətlərində dominant rol oynayırlar.

Bu paraqrafda araşdırılan məsələlər əsasında aşağıdakı ümumiləşdirmələr etmək olar:

1. Şəxsiyyətin aksioloji rakursda struktur-funksional təhlili sübut edir ki, onun varlığı dəyərlər baxımından sistemli və iyerarxiyalı təbiətə malikdir. Birinci səviyyəni insan – dünya münasibətlərində universalilər (mütləq dəyərlər) təşkil edir.

Bundan sonrakı pillədə sosial-tarixi dəyərlər gəlir. Sonuncular onun fəqərə sütununun, strukturunun, intensionallıq səviyyəsinin və özünütəşkilinin əsas müəyyənediciləri rolunu oynayır.

2. Dəyərlər şəxsiyyətin həyat fəaliyyətinin bütün sahələrində tənzimləyici, oriyentasiyaedici, inteqrativ və motivləşdirici funksiyalar yerinə yetirirlər. Müasir dövrdə baş verən əsaslı və hərtərəfli transformasiya prosesləri şəxsiyyətin aksioloji statusuna, təşkilinə və funksiyalarına mütərəqqi təsir gösərir, lakin bəzən arzuolunmaz və ziddiyyətli Nəticələr də törənə bilir.

3. Müasir şəxsiyyətin aksioloji strukturunda çox mühüm və dərin bir proses – dəyərlərin yenidən mənalandırılması baş verir. O son dərəcə mürəkkəb çoxtərəfli və uzun davam edən prosesdir. Onun məzmununda əsas yeri səxsiyyətlərin yeni, yüksək dəyərlərə və ideallara doğru səmtləşməsi tutur. Bu o deməkdir ki, müasir şəxsiyyət yaşadığı açıq cəmiyyətə keçid mərhələsində baş verən radikal yeniləşmələri müqaisə edir və təhlil edir, onları faydalılıq, ədalətlilik, həqiqilik və humanizm mövqeyindən qiymətləndirir və bu münasibətdə malik olduğu keyfiyyətlərini aşkara çıxarır. Bu qəbildən olan mülahizələr həm də normativ səciyyə daşıdığı üçün (yəni təkcə mövcüd vəziyyəti qeyd etməklə məhdudlaşmır, həm də arzuolunan və tələbolunan məqamları vurğulayır) şəxsiyyətə imkan verir ki, həyatda qarşısına çıxan çoxsaylı alternativlər içərisində düzgün seçim etsin və onu həyata keçirsin.

4. Dəyərlərin yenidən mənalandırılması prosesinin mühüm bir tərkib hissəsini yeni dəyərlərin meydana gəlməsi təşkil edir. Onun mexanizmi aşağıdakı kimidir: sosial həyatda və şəxsiyyətin fərdi həyatında baş verən yeniliklər ümumi maraq və əhəmiyyət kəsb etdikdə tədricən dəyər statusu alır və subyektin fəaliyyətini və davranışını tənzim etməyə başlayır.

5. Dəyərlərin yenidən mənalandırılması prosesindən danışarkən aşağıdakı məqama da mütləq diqqət yetirilməlidir. Söhbət ondan gedir ki, bəzən real həyatda baş verən dəyişikliklər subyektlərin şüurunda aksioloji baxımdan inikas etdirildikdə müəyyən təhriflərə, yanlışlıqlara və səhvlərə də yol verilə bilir. Sonra, dəyərlərin yenidən mənalandırılması prosesi müvəqqəti konyunktur xarakter daşıya bilir. Bu qəbildən olan təhriflərin və nöqsanların aradan qaldırılması şəxsiyyətin informasiya bankının zənginləşməsi, şəxsi həyat təcrübəsinin çoxalması gedişində baş verir. Bu işdə ictimai tərbiyənn çoxtərəfli vasitə və metodları, məqsədyönlü təbliğat da çox mühüm rol oynayır.

## 3.3. Şəxsiyyətin formalaşması və sosiallaşmasında dəyərlərin rolu

Bütün tarixi mərhələlərdə olduğu kimi, müasir dövrdə də şəxsiyyətin formalaşması nisbi sabit və eyni zamanda mütəhərrik prosesdir. Əslində şəxsiyyətin aksioloji mahiyyətinin təşəkkülü bu prosesin nəticəsi kimi çıxış edir. Bundan daha geniş məzmuna malik olan şəxsiyyət aksiologiyası anlayışında cəmiyyət ilə insanın aksioloji əlaqələri sistemi mərkəzi yeri təşkil edir. Müasir şəxsiyyətin formalaşması (təşəkkül tapması) prosesinin daxili məzmununa keçməzdən əvvəl həmin anlayışın fəlsəfi fikirdə qoyuluşuna diqqət yetirmək tələb olunur.

Qeyd edək ki, başqa sosial problemlərdə olduğu kimi, şəxsiyyət nəzəriyyəsində də formalaşma (təşəkkül tapma) kateqoriyasının izahında xeyli dərəcədə müxtəlif baxışlar özünü göstərmişdir. Onları, başlıca olaraq, iki yerə ayırmaq olar. Birinci mövqenin başında Platon və onun ardıcılları durur. Onlar varlığın sonlu formalara malik təsnifatlarından çıxış edərək, formalaşmaya yalnız mövcüdluğun momenti kimi yanaşırlar. İkinci nəzər nöqtəsinə görə, formalaşma (təşəkkül tapma) sonlu formalara malik təsnifatların xassəsi deyil, gerçəkliyin ən ümumi keyfiyyətidir. Həmin yanaşmanın nümayəndələri Heraklit, Hegel, Marks və başqaları olmuşlar. Bizim fikrimizcə, şəxsiyyətin formalaşması və inkişafı prosesinin təhlilinə münasibətdə ikinci mövqe daha doğrudur. Təsadüflü deyildir ki, müasir dövrün bir sıra əsas konsepsiyaları (fəlsəfi antropologiya, personalizm,

ekzistensializm və s.) da şəxsiyyəti araşdırarkən bu mövqeyə meyil edirlər.

Sosial-fəlsəfi təhlil sübut edir ki, şəxsiyyətin formalaşması öz təbiətinə görə sinergetik prosesdir. Burada da digər obyektlərdə olduğu kimi, öz-özünü təşkiletmə mexanizmləri, yəni bifurkasiya gedişində özbaşına mexanizmlərin yaranması, xeyli dərəcədə sabit mövcüd olması və sahmanlı strukturların bəzən öz-özünü dağıtması əsas yer tutur. Həm də nəzərdə tutulmalıdır ki, ümumi sinergetik prinsiplər insan varlığının təkcə fərd pilləsində deyil, eləcə də şəxsiyyət səviyyəsində tətbiq olunur.

Təhlil göstərir ki, şəxsiyyətin aksioloji formalaşması sosiallaşma (sosial dəyərlərin interiorizasiyası – yəni şəxsiyyətin davranışı və fəaliyyətinə hopması) və individuallaşma (aksioloji funksiyaların şəxsiyyət sisteminin formalaşması) proseslərinin dialektik vəhdəti kimi çıxış edir.

Fəlsəfi-psixoloji baxımdan yanaşdıqda şəxsiyyətin formalaşması insanın fərdi mənəvi inkişafını əhatə edən bir sıra pillələrdən keçir. Bu pillələr əvvəlcə fərd tərəfindən sabit aksioloji stukturlu fenomen-ustanovkalar kimi çıxış edən müəyyən unikal – səxsiyyət psixoloji təşkilin əldə edilməsi ilə bağlı olur. Sonrakı pillələrdə isə həmin fenomen-ustanovkalar insanın həyat yolunun müəyyən mərhələsində onun xarakterinin nüvəsi və özəyi kimi yaranan individuallıq ilə ayrılmaz çıxış edir. Bu konsepsiya fərd üçün ekzitensial problemlərin həllində, xüsusilə də həyatın mənasının anlaşılmasında son dərəcə zəruri rol oynayır. Şəxsiyyətin formalaşması prosesinin sonrakı mərhələsi isə yeni qeydə alınmış ustanovkaların yaranması, xarakterin bərqərar olması və yenidən qurulması ilə əlaqədar şəkildə baş verir. Sözügedən dəyişikliklər iki qrup amillərlə şərtlənir. Birincisi, fərd

tərəfindən özünün cəmiyyətdəki vəziyyətinin dərk olunmasını əhatə edən daxili amillərdir. İkinci qrupa isə dünya miqyasında gedən qlobal proseslər, dəyərlərin yenidən mənalandırılması daxildir.

Şəxsiyyətin formalaşması prosesinin psixoloji səviyyəsi həmin prosesi daxili, şəxsi-psixoloji təsisisatların – ustanovkaların yaranması və inkişafı kimi mənalandırır. Bu münasibətdə yanaşdıqda ustanovkalar insan ilə obyektiv reallığın qarşılıqlı əlaqələrini dəyərlər formasında həyata keçirilir və müəyyən funksional sistemilər kimi (A.A.Uxtomskiy, P.K.Anoxin), başqa sözlə deyilsə, aksioloji funksiyalar sistemi kimi təzahür edir. Bununla əlaqədar aşağıdakı konkret məsələlər tədqiq olunmalıdır: Şəxsiyyətin əsas aksioloji funksiyalarını aşkara çıxarmaq, onları sistemli vəhdət və dinamika halında təhlil etmək; aksioloji funksiyalar ilə şəxsiyyətin stukturu arasında hansı əlaqələrin olduğunu müəyyənləşdirmək, bu halda insanın xarakteri kimi psixoloji hadisəyə xüsusi diqqət yetirmək. Şəxsiyyətin təşəkkülünün növbəti səviyyələrində (sosioloji və sosial-psixoloji) sözügedən proses bir-birilə vəhdətdə olan sosiallaşma və individuallaşma istiqamətlərini əhatə edir. Onların məzmununda fərdin sosiallaşmasının struktur komponentlərinin və konkret üsullarının aşkara çıxarılması əsas yer tutur. Çünki, şəxsiyyətin bu prosesdə aksioloji funksiyalarının və xarakterinin bir sıra cəhətlərinin formalaşması məhz onlarla şərtlənir. Bundan əlavə, şəxsiyyəti aksioloji təşkil baxımından tiplərə ayırmağın əsasında duran sistemyaradıcı amillərin üzə çıxarılması da xüsusi yer tutur.

Sosioloji baxımdan yanaşdıqda formalaşma problemini həm də şəxsiyyət – sosium sisteminin entropik və neqentropik meyilləri

əks etdirən vəziyyətinin modelləşdirilməsi imkanı kimi anlamaq olar. Bu halda cəmiyyətin inkişafı konkret-tarixi dəyərlər sistemi kimi, şəxsiyyət isə əsl humanist prinsiplər axtarışına yönəlmiş aksioloji funksiyalar sistemi kimi çıxış edir. Şəxsiyyətin formalaşması prosesinin məntiqi, insanın yeni və bütöv keyfiyyət halının bərqərar olmasını əks etdirməklə «ruhun yüksəlişi» (M.Şeler) ilə, başqa sözlə deyilsə, şəxsiyyətin dəyərlilik məzmununun bütövlük səviyyəsi olmaq etibarilə mənəviliyin yaranması ilə bilavasitə bağlıdır. Həmin səviyyə şəxsiyyətin həyat fəaliyyətinin səciyyəsini göstərməklə, özünü dəyərli – rasional əxlaqi davranışda ifadə edir.

Təhlil subut edir ki, ontogenezdə yaş xüsusiyyətləri xarakterin bu və ya digər cəhətlərinin əmələ gəlməsi ilə o qədər də möhkəm surətdə bağlı deyildir. Onlar yalnız bu cəhətlərin əmələ gəlməsinə və təzahür etməsinə kömək edən müvafiq neyrodinamik və fizioloji dəyişiklikləri əks etdirir. İntensionallığın (davranış üslubi, həyat tərzi, şəxsiyyətin dəyərlər seçimi sistemi) əsasında duran ilkin müqəddəm şərt insan ilə reallığın dəyərlilik – məna sferasını ifadə edən mədəniyyət arasındakı qarşılıqlı təsirdir. Şəxsiyyətin formalaşmasında bu qarşılıqlı təsir başlıca yer tutur. Öz mahiyyətinə görə şəxsiyyət unikal xarakter daşıyır, özü də unikallığın mənası sadəcə onun təkrarolunmazlığında deyil, həm də bir şəxsiyyət varlığının digəri ilə əvəz oluna bilməməsinə yəqinliyində ifadə olunur. Hər bir fərd onun müəyyən sosial statusunu təmin edən bu və ya digər sosial dəyərlərin seçiminə üstünlük verməklə şüurlu surətdə özünü nə dərəcədə müəyyənləşdirə bilirsə, bir o dərəcədə şəxsiyyətə çevrilir. Buna nail olmaq üçün müəyyən ontogenetik inkişaf hüdudlarına çatmaq tələb olunur ki, məhz onlar şəxsiyyətin formalaşmasının ilkin şərt-

ləri rolunu oynayır. Bununla birlikdə insanın əsl şəxsiyyət kimi çıxış etməsi ontogenetik göstərici olmayıb, onun öz-özünü kəsb etməsi prosesidir. Bu proses onun tərəfindən öz varlığının mənasının anlaşılmasında və onun şəxsiyyət dəyərləri formasında reallaşdırmasında ifadə olunur.

Şəxsiyyətin formalaşmasında obyektiv (sosiallaşma) və subyektiv (individuallaşma) tərəflərin dialektik vəhdəti insanın dünyagörüşünün və xarakterinin yaranmasında daha aydın təzahür edir. Bununla əlaqədar qeyd olunmalıdır ki, sosiallaşma prosesi çox mürəkkəb xarakterə malik olub, bir sıra sosial psixoloji mexanizmləri əhatə edir. Eynilə də individuallaşmanın müəyyən stuktur komponentlərindən və keyfiyyət səviyyələrindən təşkil olunduğu vurğulanmalıdır.

Şəxsiyyətin formalaşması və onun həyat dünyası arasındakı əlaqələrin araşdırılması elmi maraq doğuran məsələlərdəndir. Qeyd etmək lazımdır ki, hər bir insanın özünəməxsus xüsusi həyatı olduğunu nəzərə almadan şəxsiyyət fenomenini hərtərəfli və adekvat mənalandırmaq qeyri-mümkündür. İnsanın özünəməxsus həyatının nüvəsi isə onun malik olduğu ideyalar, məqsədlər və ideallar ilə ayrılmaz əlaqədədir. Buna görə də fərdin inkişaf edərək şəxsiyyətə çevrilməsi ümumi və mücərrəd mənəvi varlıq formaları çərçivəsində deyil, hər şeydən əvvəl öz fərdi həyatı gedişində baş verir. Əlbəttə, burada da fərd obyektiv ictimai dəyərləri bilavasitə və birbaşa deyil, onun fərdi həyatında özünü göstərən hadisələr vasitəsilə əldə edir. Buradan belə bir fikir irəli gəlir ki, aksioloji və psixologi problemlərə dair tədqiqatları genişləndirmək və onların nəticələrini geniş miqyasda tətbiq etmək zəruridir. Çünki belə problemlər şəxsiyyətin həyat dünyası ilə sıx əlaqəlidir. Həm də nəzərdə tutulmalıdır ki, sonuncü anlayış onun həyat yolunda

qarşılaşdığı mühüm hadisələrin, əşyaların və ideyaların dəyərləndirilməsi səviyyəsindən kənarda deyildir. Buna görə də şəxsiyyət nə dərəcədə fərdin aksioloji təşkilnə çevrilirsə, onun həyat dünyası da bir o dərəcədə onun üçün dəyərli olan əşyaların, ideyaların və insanların sahmanlı sistemi kimi çıxış edir. Bütöv şəkildə götürülən həyat dünyası şəxsiyyətin əsl mövcüdluq sferası, onun ayrılmaz atributudur. Bu onun elə bir bilavasitə varlığıdır ki, şəxsiyyət onun prizmasından çıxış edərək dünya ilə əlaqələrini yaradır. Beləliklə, sözün əsl mənasında yanaşdıqda, həyat dünyası cəmiyyətin dəyərləri ilə insanın fərdi dəyərlərinin dialektik qarşılıqlı təsiri sferasını, onların özünəməxsus kəsişmə nöqtəsini, şəxsiyyətin mənəvi cəhətdən özünü müəyyənləşdirməsinin məkanını təşkil edir.

Şəxsiyyətin formalaşması həm də onun mənəvi – ictimai təşkilinin yeni keyfiyyət kəsb etməsi deməkdir. Onun gedişini əks etdirən sosiallaşma və individuallaşma prosesləri nəticəsində fərd «şəxsiyyət olmaq» kimi bütövlük keyfiyyəti qazanır. Bununla əlaqədar qeyd edək ki, şəxsiyyətin təşəkkülü ontogenezdə özünü göstərən hən hansı yaş mərhələləri ilə o qədər də bağlı deyildir, çünki ontogenezin özü şəxsiyyətin yaranmasının ilkin şərtini təşkil edir. Əsl şəxsiyyət fenomeni fərdin inkişafının aksioloji məzmun kəsb etdiyi dövrdən, yəni onda sözün həqiqi mənasında mənəviyyatın yarandığı vaxtdan etibarən özünü göstərir. Artıq bu mərhələdə fərdin əsas həyati məqsədləri normativ, yəni olmalı olan məzmun alır. Şəxsiyyətliliyə nail olmaq, yəni fərdin dünyada öz təkcəliliyini və individuallığını anlaması prosesi rəvan və asan getmir. Bu proses insanın öz identikliyini, özünün dəyərlər sistemini qərarlaşdırmaq yolunda fərdi axtarışları və mübarizəsi ilə müşayiət olunur.

Totalitar rejimin qalıqlarının aradan qaldırıldığı və açıq demokratik cəmiyyətin yaradıldığı indiki dövrdə bir tərəfdən keyfiyyətcə yeni sosial dəyərlər formalaşır, digər tərəfdən isə mövcüd dəyərlərin yenidən mənalandırılması prosesi baş verir. Hər iki meyl şəxsiyyətin formalaşmasında dəyərlərin roluna gücləndirici təsir göstərir. Onun əsas istiqamətləri və mexanizminin təhlili nəzəri baxımdan maraq doğurur.

Milli müstəqillik əldə edilikdən sonra Azərbaycanda hərtərəfli və ardıcıl demokratikləşdirmə xəttinin həyata keçirilməsi gedişində ümumibəşəri və spesifik milli dəyərlərin üzvü vəhdətinə əsaslanan yeni cəmiyyət yaranır. Ölkəmizin əsas strateji məqsədini xalqımızın ümummilli lideri Heydər Əliyev aşağıdakı kimi ifadə etmişdir: «Müstəqil Azərbaycanda demokratik prinsip üzrə fəaliyyət göstərən hüquqi, demokratik dövlət qurulmalıdır. Azərbaycan dövləti dünya təcrübəsinə, ümumbəşəri dəyərlərə arxalanaraq və öz tarixi milli ənənələrindən istifadə etməklə, demokratik dövlət quruculuğu yolu ilə getməlidir» (2, s.90).

Son illərdə ölkəmizdə bazar münasibətləri və azad sahibkarlığın inkişafı, əsaslı iqtisadi islahatlar, özəlləşdirmə, siyasi və mənəvi sferaların demokratikləşdirilməsi fonunda həm bütövlükdə cəmiyyətin, həm də hər bir şəxsiyyətin həyatında ümumhumanist dəyərlər və ideallar getdikcə daha möhkəm yer tutmaqdadır. Bu tamamilə təbii və qanunuyğun haldır, çünki 70 ildən artıq hökmranlıq etmiş Sovet rejimi, utopik xarakter daşıyan kommunizm cəmiyyəti qurmağı başlıca məqsəd elan etməklə, dəyərlərin şəxsiyyətin formalaşması və inşkişafına təsirində ciddi maneələr və əngəllər yaratmışdır.

Şəxsiyyətin formalaşmasında oynadığı rol baxımından predmet dəyərləri və onun xüsusi növünü təşkil edən maddi-

texniki dəyərlər (elmi-texniki yeniliklər, yeni əmək vasitələri, texnoloci nailiyyətlər və s.) şəxsiyyətin istehsalçı kimi, ictimai faydalı əməklə məşğul olan cəmiyyət üzvü kimi formalaşmasında böyük əhəmiyyət kəsb edir. Bu baxımdan müasir elmi-texniki tərəqqinin yaratdığı mililsiz imkanların rolu xüsusi qeyd olunmalıdır. Əlbəttə, deyilənlərdən belə nəticə çıxarılmamalıdır ki, maddi dəyərlər və ya elmi-texniki zəka öz-özlüyündə və birbaşa şəxsiyyətin inkişafını müəyyən edir. Əslində bu iki tərəf arasında əlaqələr çox mürəkkəb və vasitələnmiş xarakter daşıyır. Bundan başqa, onlar arasında uyğunsuzluq və münaqişə halları da özünü göstərə bilir. Müasir cəmiyyətdə elmi-texniki inkişafın heç də həmişə şəxsiyyətin yüksəlişinə təkan verməməsi, əksinə bəzən onun mənəvi kasadlaşmasına gətirib çıxarması bununla izah olunur. Buradan aydındır ki, maddi və elmi-texniki amillər öz-özlüyündə deyil, yalnız sözün əsl mənasında dəyər kimi fəaliyyət göstərdikdə şəxsiyyətin davranışının və hərəkətinin mühüm oriyentirlərinə çevrilir.

Şəxsiyyətin formalaşmasında bilavasitə istehsal xarakterli dəyərlər ilə yanaşı, istehsaldan kənar tələbatların ödənilməsinə yönəlmiş xidmət dəyərləri (mənzil, ərzaq, geyim vasitələri və s) də güclü təsir göstərir. Onlar şəxsiyyətin fiziki inkişafının mühüm şərti kimi çıxış edirlər. Lakin maddi predmet dəyərlərinin rolu təkcə cismani inkişafa təsir göstərməklə məhdudlaşmır. Bütövlükdə bu dəyərlərin mənimsənilməsi gedişində şəxsiyyətin davranış stilinin dəyişilməsi, ümumi mədəni səviyyəsinin yüksəlməsi və əhatə dairəsinin genişlənməsi baş verir.

Şəxsiyyətin formalaşmasına göstərdiyi təsir baxımından mənəvi dəyərlər xüsusilə mühüm yer tutur. Bu, bir sıra səbəblərlə izah edilir. Əvvəla, maddi dəyərlər istehlak prosesində tezliklə

tükənə bilir və əsasən şəxsiyyətin fiziki dünyasının hüdudlarından kənara çıxmır. Bundan fərqli olaraq mənəvi dəyərlər praktiki olaraq tükənmir, onlardan daim istifadə etmək mümkün olur. Digər tərəfdən, mənəvi dəyərlər şəxsiyyətin fəaliyyət motivləri ilə daha sıx əlaqəlidir, onun davranış və hərəkətlərinin oriyentirləri rolunu oynayır.

Mənəvi dəyərlər çox müxtəlif formalarda çıxış edir. Onların tərkibinə elmi həqiqəti ifadə edən nəzəri müddəalardan tutmuş, əxlaqi normalar, estetik dəyərlər, bədii zövq, dini inam, ictimai rəyin müəyyən ünsürləri də daxildir. Mənəvi dəyərlərin bir qismi ictimai ideal və mədəni-tarixi inkişafın hamı tərəfindən qəbul olunmuş məqsədi kimi çıxış edir. Bunlara misal olaraq azadlığı, sosial bərabərliyi, ədaləti, humanizmi, demokratiyanı, habelə digər ümumbəşəri xarakter daşıyan idealları göstərmək olar. Onlar ümumi mədəniyyət sistemində mərkəzi yer tutur, bütövlükdə cəmiyyətin və ayrılıqda hər bir şəxsiyyətin mənəvi zənginliyinin nüvəsini təşkil edir.

Ümumi ictimai inkişafda və şəxsiyyətin formalaşmasında oynadığı rolun səviyyəsi və miqyasına görə mənəvi dəyərlərin özünü iki qrupa ayırmaq olar. Birinciyə əsas yer tutan məqsəd-dəyərlər (fundamental dəyərlər və yaxud ali dəyərlər), ikinci qrupa isə nisbətən arxa planda çıxış edən vasitə dəyərlər (instrumental dəyərlər) daxildir.

Birinci qrupda insana məqsəd kimi yanaşılması, həyatın mənası, xeyirxahlıq, ədalət, gözəllik, həqiqət, azadlıq və s. aparıcı yer tutur. Həmin dəyərlərin rolunu xüsusi qeyd edərək XX əsrin görkəmli filosoflarından olan A. Vaytxed yazırdı ki, «Onlar öz təbiətinə görə zamanın fövqündə durur və əbədi xarakter daşıyır,

onların mahiyyətini müvəqqəti və keçici amillərlə izah etmək olmaz» (252, s 306).

Təbiidir ki, şəxsiyyətin sosiallaşması prosesinə göstərdiyi təsirin dərəcəsi baxımından da həmin dəyərlər digərlərindən yüksəkdə durur. Başqa sözlə deyilsə, onların şəxsiyyətin həyatına hopması onun daxili strukturunun ən dərin qatlarını müsbət istiqamətdə dəyişdirir, onun özünün aktuallaşdırılmasını sürətləndirir. Sözügedən ali dəyərlər qismini lazımi səviyyədə mənimsəməmiş şəxsiyyətlər dolğun həyat fəaliyyəti göstərə bilmir. Məsələn, müəyyən səbəblər üzündən həyatın mənasını anlaya bilməyən şəxsiyyətlərdə dərin mənəvi sarsıntılar özünü göstərir, bu isə bəzən hətta intihar ilə nəticələnə bilir. Yaxud da azadlıq dəyərini götürək. O, insanın məsləkində o dərəcədə yüksək yer tutur ki, ona nail olmaq üçün insanlar öz həyatlarını qurban verməkdən çəkinmirlər. Məşhur amerikan psixoloqu A.Maslou bu dəyərlərin şəxsiyyətin sosiallaşmasında və özünü aktuallaşdırmasında müstəsna rol oynadığını göstərmişdir. O qeyd edirdi ki, insanlar hansı sahədə fəaliyyətindən asılı olmayaraq bu dəyələrə daim sadiq qalmağa çalışır və onları son dərəcədə əziz bir şey kim qiymətləndirir. Biri öz həyatını qanuna, digəri ədalətin qorunmasına həsr edir. Başqaları isə gözəlliyin və həqiqətin qayğısına qalır. Onların hamısı öz həyatını bu və ya digər şəkildə mənim «varlıq dəyərləri» (qısa olaraq «B») adlandırdığım dəyərlərin axtarışına həsr edir.. Belə dəyərlərin sayı on dörddür. Onların sırasında aşağıdakılar xüsusilə mühümdür: həqiqət, gözəllik, xeyirxahlıq, mükəmməllik, sadəlik, hərtərəflilik və bir neçə başqaları (176, s 110).

Maslouya görə, bu dəyərlər çox mühüm tələbatları (metatələbatları) ifadə etdiyi üçün, onların əzilməsi hətta ruhun pa-

tologiyasını dəyişdirir. Buna görə də onlar əksər insanların həyatının mənasını təşkil edir.

Ali dəyərlər, xüsusən də həyatın mənası «ekzistensial vakuum» ilə sıx əlaqəlidir. Belə ki, dəyərlərin müxtəlif labirintində çaşıb qalan və çıxış yolu tapmayan insan «ekzistensial vakuuma» düçar olur. Qeyd edək ki, sözügedən vəziyyət müasir dövrün şəxsiyyət tipi üçün daha səciyyəvidir. Çünki indi cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrində özünü göstərən əsaslı dəyişikliklər gedişində ənənəvi dəyərlər sisteminin köhnəlməsi, bütövlükdə dəyərlərin yenidən mənalandırılması adlı proses baş verməkdədir. Bununla əlaqədar olaraq nəinki təkcə gənclər, hətta yaşlılar arasında öz  həyatının mənasını, nəyə görə yaşadığını dərk etməyən insanlar hələ də müəyyən xüsusi çəkiyə malikdirlər. Şəxsyyətin həyatı üçün əsas əhəmiyyət kəsb edən dəyərlərin itirilməsi («ekzistensial vakuum») çox vaxt stress vəziyyətlərinə gətirib çıxarır və şəxsiyyətin ümumi inkişafına güclü mənfi təsir göstərir.

Müasir dövrdə şəxsiyyətin məqsəd dəyərləri sırasında həyatın mənasının əhəmiyyəti daha da artır. Bu, cəmiyyət həyatında və beynəlxalq miqyasda baş verən əsaslı dəyişikliklərin şəxsiyyətin həyat fəaliyyətinə müxtəlif istiqamətli və bəzən ziddiyətli təsir göstərməsi ilə izah olunur. Belə şəraitdə həyatın mənasını anlamaqda bir çoxları çətinlik çəkir, ümidsizliyə qapılır və hətta intihar etməkdən belə çəkinmirlər. Həyatın mənasını düzgün anlaya bilməyən insan, yəni ona nə lazım olğunu və necə hərəkət etməli olduğunu bilməyən insan özünün nə istədiyini aydın təsəvvür edə bilmir. Nəticədə o ya başqalarının istədiyini istəyir (konformizm), ya da başqlarının istədiyi kimi hərəkət etməli olur (265, s 25).

Bütövlükdə məqsəd dəyərlər şəxsiyyətin formalaşmasında o dərəcədə böyük rol oynayır ki, onların hər hansı birinin məhdudlaşdırılması insanın patoloji vəziyyətə düşməsi ilə müşayiət olunur.

Müasir dövrdə «ekzistensial vakum»un təzahür formalarından birini darıxdırıcılıq təşkil edir. İndiki dövrdə bu əlamət çox geniş yayılmışdır və çox ciddi problemlər doğurur. Bu münasibətdə o hətta insanları əhatə edən çoxsaylı ehtiyaclardan daha böyük problemlər yarada bilir. Ən təhlükəli məqam isə bundan ibarətdir ki, ehtiyac şəxsiyyəti onu aradan qaldırmağa yönəlmiş fəaliyyətə sövq edir. Ondan fərqli olaraq darıxdırıcılıq isə çox vaxt reallıqdan uzaq qalmağa, sərxoşluğa və narkomanlığa, digər anormal hərəkətlərə, bəzən də suisidə (özünüintihar) gətirib çıxarır.

Bu qəbildən olan hərəkətlərin və davranışın aradan qaldırılmasında ali dəyərlərə malik olmaq son dərəcə zəruridir. A.Kamyu bu münasibətdə yazırdı: «Əgər kim gerçəklikdən qaçmaq istəmirsə, onda insanı dəyərlərə malik olmalıdır» (142, s.123)

Qeyd olunan vəziyyətə müasir cəmiyyətdə yaşayan insanlar arasında tez – tez rast gəlinir. Bunun bir səbəbi ənənəvi dəyərlərin qısa müddət ərzində itirilməsi, müasir həyatın dinamizminin daim yeni-yeni (çox vaxt da bir-birinə zidd) dəyərlər yaratmasıdır.

Şəxsiyyətin sosiallaşması prosesində təkcə ali (məqsəd) dəyərlər deyil, həm də konkret (vasitə) dəyərlər də mühüm rol oynayır. Bunlar ali dəyərlərdən ayrıldıqda deyil, onlara tabe şəkildə fəaliyyət göstərirlər və əsasən onlar ilə şərtlənirlər. Bunu aşağıdakı misaldan da yəqin etmək olar. Əgər bu və ya digər şəxsiyyətin fəaliyyət və davranışında ədalətlilik kimi yüksək dəyər əsas yer tutursa, onda o heç vaxt özünün bu məqsədinə nail olmaq üçün

qeyri-ədalətli olan vasitə dəyərlərdən istifadə etmir. Eynilə də əsl xeyirxahlığa can atan adamın bu yolla xeyirxah olmayan vasitələrdən istifadə etməsi ağlasığmazdır. Deyilənlər göstərir ki, məqsəd-dəyərlər ilə vasitə-dəyərlər bir-birilə sıx əlaqəlidir. Belə ki, bir tərəfdən ikincilər birincilərin əldə olunmasının əsl vasitələri rolunu oynayırlar, digər tərəfdən heç bir yüksək məqsədə nail olmaq üçün mənəvi cəhətdən özünü doğrultmayan vasitələrdən istifadə edilə bilməz. Sözügedən iki tip dəyərlərin sıx qarşılqlı təsiri və vəhdəti onların şəxsiyyətin sosiallaşma prosesində rolunu daha da gücləndirir.

Bununla yanaşı nəzərdə tutulmalıdır ki, vasitə dəyərlər məqsəd dəyərlərə nisbətən daha çox konkret şəraitin təsirindən asılı olur və dəyişilir. Buna görə də onların seçim imkanlarına ayrı-ayrı real amillərin təsiri güclüdür. Odur ki, istənilən məqsəd-dəyər götürülürsə götürülsün, onu həyata keçirmək üçün müxtəlif konkret vasitə-dəyərlərdən istifadə olunur (maddi, mənəvi, iqtisadi, sosial – siyasi və s.). Həm də onların hər biri şəxsiyyətin davranışına eyni dərəcədə təsir göstərmir.

Şəxsiyyətin malik olduğu dəyərlər onun dəyərlər oriyen-tasiyası ilə sıx əlaqəlidir. Sonuncu anlayışın məzmunu şəxsiyyətin daxili strukturunu müəyyən edən və onun üçün xüsusi əhəmiyyət kəsb edən keyfiyyətləri əks etdirir. Dəyərlər oriyentasiyası nəinki təkcə şəxsiyyətin şüurunun və davranışının əsasında durur, həm də onun inkişafına güclü təsir göstərir. Dəyərlər oriyentasiyası bütün şəxsiyyətlərdə eyni olmaya bilir. O daha çox fərdi xarakter daşıyır və bu mənada nisbi anlayışdır. Həm də fərdlərin daxılı strukturunda dəyərlər oriyentasiyasını təşkil edən dəyərlər iyerarxiyasının, onu təşkil edən ayrı-ayrı dəyərlərin rolu və əhəmiyyəti müxtəlif olur. Lakin bu müxtəliflikdən asılı olmayaraq

bütün hallarda dəyərlər oriyentasiyası şəxsiyyətin formalaşması və inkişafının güclü tənzimçisi kimi çıxış edir. Şəxsiyyətin davranış normaları və qaydaları da məhz onlarla müəyyən olunur. Cəmiyyətdə olan ümumi norma və qaydaların mənimsənilməsi, yəni sosiallaşma prosesi də bununla sıx əlaqədə baş verir. Belə ki, şəxsiyyət cəmiyyətdə hakim olan norma və dəyərlərə yiyələnmə gedişində onları özündə əvvəldən mövcüd olan dəyərlər və öz maraqları ilə müqayisə edir. Şəxsiyyətin sosiallaşması prosesində dəyərlərin mənimsənilməsi ilə yanaşı, həm də sosial təcrübənin ötürülməsi baş verir. Nəticədə şəxsiyyətin həyat təcrübəsi daha da zənginləşir və onun sosial fəallığı yüksəlir.

Söylənilənlərdən aydın olur ki, mənəvi dəyərlərin mövcüdluğu avtomatik surətdə şəxsiyyətin inkişafını təmin etmir. Əsas məsələ cəmiyyətin hər bir üzvündə müsbət mənəvi dəyərlərə fəal münasibət və dərin maraq oyatmaqdır. Yalnız bu halda dəyərlər şəxsiyyətin formalaşmasında öz real funksiyalarını yerinə yetirə bilir.

Cəmiyyətdəki dəyərlər təkbaşına deyil, mövcüd sosial normalar sistemi ilə sıx vəhdətdə və çulğalaşmış halda çıxış edərək, şəxsiyyətin davranışının tənzimçisi rolunu oynayır. Lakin nəzərdə tutulmalıdır ki, sosial dəyərlər şəxsiyyətin davranışının ümumi prinsiplərini müəyyən edir. Buna görə də şəxsiyyətin öz konkret davranış xəttini müəyyənləşdirməkdə sərbəstliyini və seçim imkanını məhdudlaşdırmır. Buradan aydın olur ki, sosial dəyərlərin davranışı tənzimetmə funksiyası həmişə insanın öz daxili vəziyyəti, yetkinlik səviyyəsi ilə bağlı surətdə həyata keçir.

Şəxsiyyətin formalaşmasında sosial dəyərlərin rolunu araşdırarkən, müasir bazar iqtisadiyyatının və ictimai həyatın bütün sahələrində qərarlaşmaqda olan bazar münasibətlərinin bu

prosesə göstərdiyi təsirdən yan keçmək doğru olmazdı. Əvvəlcədən deyək ki, bu təsir çox güclü, geniş miqyaslı xarakter daşıyır və həm də birmənalı olmayıb, müxtəlif istiqamətlidir. Ölkəmizdə qərarlaşmaqda olan bazar iqtisadiyyatı uzun müddət ərzində hökmranlıq edən dövlət mülkiyyətinin və ictimai mülkiyyətin inhisarına son qoydu. İqtisadi islahatlar nəticəsində xüsusi mülkiyyətin cəmiyyət həyatında rolu və çəkisi artmaqdadır. Ən əsası isə budur ki, bazar iqtisadiyyatı cəmiyyətdə çoxlu bərabərhüquqlu mülkiyyət formalarının olmasına, onların sərbəst bəhsləşməsinə real şərait yaradır. Bu hal şəxsiyyətin bir mülkiyyətçi kimi çoxtərəfli inkişafına geniş imkanlar açır. Belə ki, o, özünün qabiliyyət və arzusuna uyğun mülkiyyət formasında fəaliyyət göstərə bilir. Bu mənada hazırda ölkəmizdə azad sahibkarlığın inkişafına şərait yaratmaq yolunda həyata keçirilən tədbirlər çox mühümdür. Bu cür şərait şəxsiyyətin iqtisadi müstəqilliyini və təsərrüfat təşəbbüskarlığını yüksəldir. Digər tərəfdən, sərbəst rəqabətdə davam gətirmək tələbatı onu müasir standartlara cavab verən yüksək keyfiyyətli məhsul hazırlamağa sövq edir. Bununla yanaşı, bazar iqtisadiyyatı şəxsiyyətin inkişafına həm də müəyyən qədər neqativ, pozucu təsir göstərir. Belə ki, sərt bazar qanunlarının diktəsi altında şəxsiyyət bəzən hansı yolla olursa-olsun mülkiyyətə sahib olmağa, çoxlu qazanc əldə etməyə çalışır. Bu yolda çox vaxt heç bir qanuna, ədalətə və əxlaq normalarına məhəl qoyulmur. Nəticədə şəxsiyyətin varlanması labüddən onun mənəvi kasadlaşması, bir çox mənəvi dəyərlərin itirilməsi ilə müşayiət olunur. Bazar qanunlarının fəaliyyəti bəzən şəxsiyyətin mənəviyyatına ikiüzlülük gətirir, onda psixiki pozuntular və nevroz vəziyyəti yaradır. Bir sözlə, bazar münasibətlərinin mövcüdluğu yeni tipli şxsiyyəti-bazar xarakterli

insanı formalaşdırır ki, belə şəxsiyyət üçün təkcə əşyalar deyil, onun özü də, enerjisi, biliyi, rəy və hissləri, hətta gülümsəməyi də əlverişli sövdələşmə obyektinə çevrilir (268, s. 29).

Deyilənlərdən aydın olur ki, bazar münasibətləri ilə bağlı dəyərlər şəxsiyyətin formalaşmasına mənfi istiqamətdə də təsir göstərir. Buna görə də bazar fundamentalizminə uymamaq, ölkənin həyatında, birinci növbədə isə iqtisadiyyatda dövlətin sosial tənzimləyici rolunu gücləndirmək zəruridir.

Şəxsiyyətin sosiallaşması prosesinə dəyərlərin təsirini araşdırarkən onların regional bölgüsünün təhlilinə də diqqət yetirilməlidir. Söhbət Qərb və Şərq sivilizasiyaları üçün səciyyəvi olan dəyərlər qrupundan gedir. Məlumdur ki, bu regionların həyat tərzinə xas olan özünəməxsusluqlar öz müvafiq ifadəsini onların malik olduğu dəyərlərdə də tapır. Belə ki, Şərq ənənələrində şəxsiyyətin davranışı və fəaliyyəti üçün ədalət, hümanizm, səmimilik, valideynlərə və böyüklərə hörmət və s. dəyərlər səciyyəvidir. Buna görə də Şərqdə şəxsiyyətin sosiallaşması prosesi də xeyli dərəcədə spesifik davam edir. Bu başlıca olaraq onda ifadə olunur ki, Şərqdə sözügedən proses cəmiyyətin dəyişilməsindən daha çox fərdin özünün dəyişilməsi, onun özünütəkmişlləşdirməsi ilə bağlıdır. Bundan fərqli olaraq Qərb dünyasında bir qayda olaraq şəxsiyyət ilə cəmiyyətin bir-birinə qarşı qoyulması və özü də bu münasibətlərdə məhz fərdiliyə, şəxsiyyətə üstün yer verilməsi səciyyəvidir. Buna uyğun olaraq həmin regionda şəxsiyyətin sosiallaşması da hər şeydən əvvəl sosial mühitin dəyişilməsi ilə bağlıdır.

Yuxarıda qeyd olunan məsələlər kontekstindən yanaşdıqda Azərbaycan cəmiyyətində şəxsiyyətin sosiallaşması prosesinin spesifik xüsusiyyətlərə malik olduğu xüsusi göstərilməlidir. Məsələ

burasındadır ki, ölkəmiz Avropa və Asiya materiklərinin qovuşuğunda yerləşir. Buna görə də burada həmin proses hər iki dəyərlər tipinin dərin təsirinə məruz qalır. Burada kollektivizmə və fərdiyyətçiliyə meyl spesifik şəkildə çülğalaşır. Odur ki, birtərəfliliyə və təhriflərə yol verməmək, onların hər birinin normal nisbətini qoruyub saxlamaq zərurəti meydana çıxır.

Digər bir özünəməxsusluq şəxsiyyətin sosiallaşması prosesində fərdi tərəfə, yoxsa sosial mühitə üstünlük verilməsi ilə bağlı məsələdə özünü göstərir. Bununla əlaqədar göstərilməlidir ki, həmin tərəflərin hər ikisinə eyni dərəcədə diqqət yetirmək tələb olunur. Çünki yalnız şəxsiyyətin özünü dəyişdirməsi ilə bağlı dəyərlərə üstünlük verildikdə, yəni sosial mühitə uyğunlaşma prinsipi əsas götürüldükdə, çox vaxt konformist tipli davranış bərqərar olur. Digər ifrat hədd, yəni fərdi dəyərlərin rolunun şişirdilməsi və mütləqləşdirilməsi şəxsiyyətin cəmiyyətdə özgələşməsi ilə nəticələnir. Odur ki, ölkəmizdə şəxsiyyətin sosiallaşması prosesinin normal və səmərəli inkişafı hər iki tərəfin (həm şəxsiyyətin özünün, həm də sosial mühitin) təkmilləşdirilməsi şəraitində təmin edilə bilər.

Bazar münasibətləri şəraitində şəxsiyyət çox vaxt öz həyatının mənasını təşkil edən ali dəyərləri itirmək məcburiyyəti qarşısında qalır. Bu isə onda ekzistensial vakuumun yaranması imkanlarını artırır. Odur ki, ölkəmizin milli müstəqil inkişafının indiki mərhələsində insanların belə təhlükəli meylə düçar olmasına yol verməmək, əhalinin etibarlı sosial müdafiəsini təşkil etmək çox mühüm strateci vəzifə kimi qarşıya çıxır. Bu halda biz sonuncu anlayışı daha geniş mənada götürürük. Yəni əhalinin sosial müdafiəsi təkcə maddi və sosial vəziyyəti yaxşılaşdırmaqla məhdudlaşmır. Söhbət həm də ona psixiki və loqoterapevtik

yardım göstərməkdən gedir. Yalnız belə yardımı səmərəli təşkil etməklə, müasir şəraitdə insanları bazarın şərt qanunlarının iflicedici təsirindən xilas etmək, onlarda itirilmiş ali dəyərləri bərpa etmək mümkündür. Bir sözlə, söhbət insanların fiziki və sosial sağlamlığını qorumaqla yanaşı, onların psixikasına, mənəviyyatına və ruhuna yeniləşdirici təsir göstərməkdən gedir. Bu mühüm və çətin vəzifənin həyata keçirilməsində əhaliyə göstərilən xüsusi sosial və psixoloji xidmət sisteminin işini yaxşılaşdırmaq təxirə salınmaz yer tutur. Sözügedən vəzifənin uğurlu həlli həm də onların dünyagörüşünün zənginləşdirilməsini tələb edir ki, bu baxımdan fəlsəfi biliklərə yiyələnməyin əhəmiyyəti artır. Zəmanəmizin tanınmış mütəfəkkirlərindən olan A.Uaytxedin aşağıdakı sözləri fikrimizcə, çox sərrast deyilmişdir: «İndi fəlsəfə özünün başlıca funksiyasını yerinə yetirməlidir. O, insanları ölümdən xilas edə biləcək dünyagörüşü axtarıb tapmağa borcludur. Fəlsəfə insanları başa salmalıdır ki, onlar üçün adi heyvani tələbatların ödənilməsi səviyyəsindən yüksəkdə duran dəyərlər daha qiymətlidir» (218, s 560).

Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin inkişafı və zənginləşməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin istər yaxın keçmişimiz olan sovet dövrü, istərsə də xalqın istəyi ilə onun ikinci dəfə hakimiyyətə qayıdışı dövründə misilsiz xidmətləri olmuşdur. Heydər Əliyev siyasi fəaliyyətin mənasını yalnız və yalnız Azərbaycanın tərəqqisini təmin etməkdə, Azərbaycan xalqının mədəni, mənəvi və intellektual yüksəlişinə nail olmaqda görürdü.

Müasir Azərbaycan cəmiyyəti üçün zəruri və mühüm amillərdən biri insanların tərbiyəsi və bu tərbiyə prosesində milli-mənəvi dəyərlərdən düzgün istifadə olunması məsələsidir. Bu məsələlərin həllinə isə yalnız sosial ədalət prinsipinin hökm

sürdüyü demokratik cəmiyyətdə nail olunmasının mümkünlüyü heç kimdə şübhə doğura bilməz.

Siyasi fəaliyyətinin bütün dövrlərində sosial ədalət prinsipinə sadiq olan Heydər Əliyev bu prinsipin reallaşması yollarını göstərmiş, onun realizə olunmasının obyektiv və subyektiv amillərinə xüsusi diqqət yetirmişdir. Bu baxımdan elm, mədəniyyət və incəsənət məsələləri Heydər Əliyev siyasətində xüsusi əhəmiyyət kəsb etmişdir. Eyni zamanda sosial ədalət prinsiplərinin və mənəvi tərbiyə məsələlərinin aliliyinin təmin olunmasına çalışan Heydər Əliyev birinci növbədə cəmiyyətin tərəqqisinin vacibliyini vurğulayır, ictimai elmlərin, mədəniyyət və incəsənətin imkanlarından səmərəli istifadə olunmasının zəruriliyini təsdiqləyirdi.

Milli-mənəvi dəyərlərin inkişafına səbəb-nəticə prinsipindən yanaşan ümummilli lider cəmiyyət üzvləri arasında əxlaqi dəyərlərin formalaşması və inkişaf etməsi ilə bağlı zərurətin yaranmasını obyektiv reallıq kimi qəbul edirdi. Deməli, milli-mənəvi dəyərlərin inkişafında əsas faktor kimi real həyat və həyat-dan irəli gələn tələblər çıxış edir. Məhz Heydər Əliyevin siyasi fəaliyyətində milli mənəvi dəyərlərin inkişafı və onunla bağlı məsələlər suveren Azərbaycanda gedən bu günkü proseslər baxımından mühüm əhəmiyyət kəsb edirdi.

Heydər Əliyev deyirdi: **«Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir».**

Muasir dövr mənəvi dəyərlərin milli və ümumbəşəri prizmadan qiymətləndirilməsi dövrüdür. Keçmiş sistemin mənəvi dəyərlərinin, mənəvi və ideoloji prinsiplərinin bir çoxundan yeni cəmiyyət imtina edir. Lakin hansısa dəyərlərdən, prinsiplərdən

imtina etmək mənəvi sferada boşluq yaratmamalıdır. Bu məsələnin həllinə Heydər Əliyev kamil bir dialektik kimi yanaşırdı. O, həmişə bir tərəfdən keçmişdə milli-mənəvi həyatın zəif inkişaf etmiş sahələrinə xüsusi əhəmiyyət verir, digər tərəfdən insanların tərbiyəsinin sağlamlaşdırılması, onların mədəni səviyyəsinin yüksəldilməsində milli-mənəvi dəyərlərdən daha səmərəli istifadə olunmasının vacibliyini vurğulayırdı. Bununla əlaqədar o, sovet dövründə «millətçi damğası» altında yasaq edilmiş milli-mənəvi dəyərlərə, adət-ənənələrə qayıdışın zəruriliyini və onlardan faydalanmağın əhəmiyyətini xüsusi olaraq qeyd edirdi.

Dahi rəhbər milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən yüksək formasını milli dövlətçilikdə görürdü. Bu gün milli dəyərlərimiz elliklə, bütün xalq tərəfindən, dövlətin himayəsi altında qorunur və daha da inkişaf etdirilir. Dövlətçiliklə milliliyin birləşməsi bütün xalqların ən böyük arzusu və idealı olmuşdur. Bu gün biz potensial milli birlik dövrümüzü yaşayırıq ki, bunun da əsasını ümummilli lider Heydər Əliyev qoymuş, milli birlik ideyasının hər cür ambisiyalardan yüksəkdə durmalı olduğunu dəfələrlə qeyd etmişdir: **«Siyasi baxışdan və cəmiyyətdə mövqeyindən asılı olmayaraq, gərək hər bir vətəndaş düşünsün ki, müxtəlif yerlərdə Azərbaycana qarşı bəzi xəbis niyyətlər və bəd münasibətlər vardır. Bunların qarşısını almaq üçün Azərbaycanın daxilində birlik, həmrəylik yaranmalıdır».**

Heydər Əliyev hər bir kəsi öz mənafeyindən daha çox, xalqın mənafeyini, dövlətin ümummilli siyasi və iqtisadi mənafelərini qorumağa çağırırdı. **«Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin».**

Heydər Əliyevin müstəqil Azərbaycan qarşısında ən böyük

xidmətlərindən biri də milli dövlət qurulması, dövlətçilik ideyalarının həyata keçirilməsi və bu proseslərin dönməzliyinin təmin edilməsi şəraitində milli-mənəvi dəyərlərin inkişaf etdirilməsi olmuşdur.

Milli-mənəvi dəyərlərin inkişafının təmin olunmasında mənəvi dəyərlər sisteminə daxil olan amillərin bəzilərinin xüsusi yeri, rolu və funksiyaları vardır. Bu baxımdan Heydər Əliyev Azərbaycan dilinin cəmiyyət həyatında oynadığı rolu xüsusi vurğulayaraq, ona yenidən dövlət dili statusu verilməsinə nail olmuşdu. Dövlət dilinin inkişafı isə xalqımızın, cəmiyyətimizin və bütövlükdə milli-mənəvi dəyərlərimizin inkişafı deməkdir. Ona görə də milli mənəvi dəyər kimi dilin özünün inkişafı və zənginləşməsi üçün Azərbaycan dilinin imkanlarından daha dolğun şəkildə istifadə edilməsinə xüsusi diqqət yetirilməli, unudulmamalıdır ki, dil şüurun, düşüncə tərzinin inkişafında xüsusi rol oynayır. Bu gün ümumilli liderimiz tərəfindən ən mühüm nəzəri və ideoloji məsələ kimi irəli sürülmüş Azərbaycan xalqının milli şüurunun inkişafında Azərbaycan dilinin mühüm rol oynaması danılmazdır.

Heydər Əliyev deyirdi: **«Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqının dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur».**

Müasir dövrdə milli-mənəvi dəyərlərin inkişafı bu və ya digər şəkildə mövcud ziddiyyətləri aradan qaldırmağı bacarmaqdan, keçmişin mənfi elementlərindən azad olmaq və yeni, mütərəqqi prinsiplərin təsdiq edilməsindən asılıdır. Bu

baxımdan tarixi «ağ ləkələrdən» azad etmək, saxtalaşdırılmış hadisələrə, tarixi keçmişə obyektiv qiymət vermək, unudulmuş mənəvi dəyərlər və tarixi hadisələri Azərbaycanın bu gününə və gələcəyinə xidmət etməyə yönəltmək əsas vəzifələrdən biridir. Bununla əlaqədar olaraq, ümummilli lider Azərbaycan xalqının ermənilər tərəfindən təcavüzə məruz qalmış tarix, mədəniyyət və incəsənət incilərinin xalqın özünə qaytarılması məsələsinin vacibliyini bir neçə rəsmi sənəddə, xüsusən «Azərbaycanlıların soyqırımı haqqında» 26 mart 1998-ci il tarixli fərmanında bəyan etmişdir.

Milli-mənəvi dəyərlərin inkişafında əvvəllər onların inkişafına mane olan sədlərin aradan götürülməsini də unutmamalıyıq. Mənəvi dəyərlərin yenidən millətə qaytarılmasının mənası ondan ibarətdir ki, həmin dəyərlər Azərbaycan xalqının bu gün və gələcəkdə həll etməli olduğu böyük vəzifələrə xidmət etsinlər, xalqın mənəviyyatına müsbət təsir göstərsinlər və mənəvi həyatı bir sistem kimi daha da zənginləşdirsinlər. Deməli mənəvi dəyərlərin inkişafı daim mənəvi sferanın zənginləşməsi ilə müşahidə olunmalıdır.

Milli-mənəvi dəyərlərin müasir dövrdə inkişafını ümumbəşəri dəyərlərdən təcrid olunmuş vəziyyətdə təsəvvür etmək qeyri-mümkündür. Ona görə də Heydər Əliyev mənəvi tərbiyə sistemində milli və ümumbəşəri dəyərlərdən bəhrələnmə məsələsinə böyük əhəmiyyət verirdi. Onun fikrincə milli-mənəvi dəyərlər milliliyini özündə saxlayaraq, məzmununu ümumbəşəri dəyərlərlə zənginləşdirməli və inkişaf etməlidir.

Ümummilli lider dəfələrlə qeyd edirdi ki, Azərbaycan xalqının milli mədəniyyətinin və mənəvi dəyərlərinin gələcək inkişafı baxımından böyük perspektivləri vardır. Belə

perspektivlərin mövcudluğu bir sıra səbəblərlə izah oluna bilər. Azərbaycan milli mədəniyyətində, mənəvi-əxlaqi dəyərlərində tarixiliklə müasirlik sistemli şəkildə əks olunur. Bu sistemli yanaşma milli mənəvi dəyərlərin inkişafına daim təkan verir, keçmişin nailiyyətlərindən bəhrələnib gələcəyə doğru irəliləmək prinsipinə xidmət edir.

Azərbaycan Avropa ilə Asiyanın, Qərb ilə Şərqin kəsişdiyi məkanda yerləşir. Məhz bunun nəticəsində də Azərbaycanın milli mədəniyyəti və mənəvi əxlaqi dəyərləri özündə həm Qərb, həm də Şərq mənəvi dəyərlərinin müsbət cəhətlərini əks etdirmişdir. Bu baxımdan Heydər Əliyevin milli ideologiyanın ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirdiyi milli-mənəvi dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Burada Heydər Əliyev milli mənəvi dəyərlərin üç tərkib hissəsini xüsusi qeyd edir, dil, din, adət-ənənə və milli mentalitetin rolunu xüsusi qiymətləndirirdi.

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanılmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürür və göstərirdi ki, bunları qoruyub saxlayan xalq həmişə müstəqillik yolu ilə getmək və müstəqilliyini qorumaq əzmində olacaqdır. Çünki milli dövlətçilik və milli-mənəvi dəyərlər arasında sıx bir daxili əlaqə vardır. O, qeyd edirdi ki, milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı ola bilməz. Belə ki, milli dövlət, bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən də milli-mənəvi dəyərlərin qorunması və müstəqil inkişafın təmin olunması məqsədi daşıyır.

Bu gün Avropa ölkələrində «Ümumdünya insan hüquqları bəyannaməsi», eləcə də insan hüquqları və azadlıqları barədə

müxtəlif paktlar, xartiyalar, konvensiyalar qəbul edilir, hüquqi dövlət və vətəndaş cəmiyyəti qurulursa, bu heç də avropalıların öz dinlərindən əl çəkməsi demək deyildir. Bu gün müstəqil Azərbaycan gerçəkliyində islam amili də danılmaz faktdır. Həmçinin nəzərə almaq lazımdır ki, islam başqa dinlərdən fərqli olaraq yalnız dini etiqad deyil, həm də həyat tərzi, əxlaq, mənəviyyatdır. Təsadüfi deyildir ki, Heydər Əliyev deyirdi**: «Hər xalqın öz adət-ənənəsi var. Öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli mənəvi dəyərlərimizlə fəxr edirik».** Həm də dini dəyərlər bizim həyatımızda ötəri, keçici bir şey olmayıb, davamlı, dayanıqlı bir məqamdır. «**Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edib gələcəyimizi quracağıq».**

Heç bir dövlət başçısı, heç bir siyasi lider quruculuğu və idarəçiliyi ilə yanaşı, milli-mənəvi dəyərlərin inkişafının mühüm və əsas istiqamətlərinin müəyyənləşdirilməsi, bu sahədə yeni mükəmməl elmi konsepsiyanın yaradılması və onun həyata keçirilməsi sahəsində Heydər Əliyev qədər şəxsi əzmkarlıq göstərməmişdir. Ziyalılarımızın mili tərəqqi prosesində rolunu azaltmadan qeyd etməliyik ki, dahi rəhbər milli dəyərlər uğrunda mübarizənin önündə həmişə özü gedir və milli ziyalılarımızı da bu istiqamətdəki fəaliyyətə səfərbər edirdi. Bu onunla bağlıdır ki, milli lider milləti sevməyin, millətə xidmətin yüksək ali nümunəsini, yollarını və üsullarını hamıdan yüksək mənimsədiyinə görə təşəbbüs ondan gəlirdi. O, hətta rəsmi sərəncamlarla, xüsusi qərarlarla böyük milli-mədəni abidələrimizin fiziki və mənəvi bərpasına, milli yaddaşın, milli köklərə qayıdışın sürətləndirilməsinə istiqamət verirdi. Belə ki, Füzulinin 500 illik yubileyinin, «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyinin böyük təntənələrlə keçirilməsi məhz Heydər

Əliyevin şəxsi təşəbbüsü idi.

Məlumdur ki, milli ideologiyamızın Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş ən mühüm istiqamətlərindən biri azərbaycançılıq xəttidir. Bu xətt bir tərəfdən, Azərbaycanda vahid milli dövlətçilik hissiyatının formalaşmasını, milli yetkinləşmə və bütövləşməni nəzərdə tutursa, digər tərəfdən, Azərbaycan dilinin bir dövlət dili olaraq inkişafını və bütün ölkə miqyasında, bütün fəaliyyət sahələrində mövqeyinin möhkəmlənməsini əsas götürür.

O, milli ideologiyamızın əsas prinsiplərini müəyyənləşdirməklə bərabər, onların həyata keçirilməsinə şəxsən özü nəzarət edirdi ki, bu da onun dövlət başçısı olmaqdan əlavə, bir milli lider kimi üzərinə götürdüyü missiyaya necə böyük məsuliyyətlə yanaşdığını göstərirdi.

Heydər Əliyev şəxsiyyətində siyasi liderliklə milli liderlik keyfiyyətləri dialektikcəsinə birləşmişdi. Məhz bu cəhət Azərbaycanda muasir dövrü üçün səciyyəvi olan siyasi və iqtisadi islahatlarla milli ənənəçilik arasında uyğunsuzluqlar və qarşıdurmalardan xilas olmağa, milli və ümumbəşəri dəyərlərin vəhdətinə nail olmağa imkan vermişdir.

Müasir dövrdə şəxsiyyətin formalaşmasında milli-mənəvi dəyərlərin təsirini gücləndirmək işində keçmiş tarixi ənənələrə və mili dəyərlərə qayğı ilə yanaşmaq, eyni zamanda müasir dünyada gedən qloballaşma proseslərinin yaratdığı ümumbəşəri dəyərlərin müsbət tərəflərini əxz etmək çox vacib şərtdir.

Yuxarıda aparılan təhlillər aşağıdakı nəticələrə gəlməyə əsas verir:

1. Müasir şəxsiyyətin formalaşmasında və sosiallaşmasında dəyərlər artmaqda olan rol oynayır. Bu təkcə ali (məqsəd) dəyərlərə

deyil, həm də vasitə dəyərlərinə aiddir, çünki onlar bir-birilə sıx qarşılıqlı təsirdə və vəhdətdə çıxış edir.

2. Yaranmış bazar münasibətləri şəxsiyyətin dəyərlər sisteminə və dəyərlər oriyentasiyasına təkcə müsbət deyil, həm də mənfi, pozucu təsir edir. Bu şəraitdə maddi dəyərlərin ön plana keçməsi nəticəsində şəxsiyyətin yüksək dəyərləri itirmək təhlükəsi yaranır. Buna yol verməmək üçün əhalinin hərtərəfli sosial müdafiəsini təşkil etmək, insanlara mənəvi, psixiki və loqoterapevtik yardımı gücləndirmək zəruridir.

3. Müasir dövrdə şəxsiyyətin sosiallaşması prosesinə dəyərlərin təsirini araşdırarkən aşağıdkı məqam da mütləq qeyd olunmalıdır. Hazırda şəxsiyyətə təsir edən informasiya axını son dərəcə genişlənmişdir və onun məzmununda irrasional xarakterli, elmdən kənar dəyərlər (mistika, astrologiya, magiya, cadügərlik və s.) də xeyli yer tutur. Onların təsirilə insanların şüuraltı səviyyəsində qeyri-tənqidi təfəkkürün ünsürləri geniş yayılmaqdadır. Yəni onlar çox vaxt real həyatda gedən prosesləri rasional düşüncəyə əsaslanmaqla deyil, dini inam, fanatizm və kor-koranə təqliqçilik yolu ilə qavrayırlar. Sözügedən irrasionalizm və subyektivizm meyilləri şəxsiyyətin sosiallaşması prosesinə ləngidici təsir göstərir.

4. Şəxsiyyətin formalaşmasında dəyərlərin müsbət istiqamətində təsirini gücləndirmək işində keçmiş tarixi ənənələrə və milli dəyərlərə qayğı ilə yanaşmaq, eyni zamanda müasir dünyada gedən qloballaşma proseslərinin yaratdığı, ümumibəşəri dəyərlərin müsbət tərəflərini əxz etmək çox vacib şərtlərdir. Hər bir şəxsiyyətin tələbatlarını ödəyən dəyərlər sistemi onun mövcüdluğu üsulunu təşkil etməklə yanaşı, bütövlükdə cəmiyyətin

malik olduğu dəyərlər kimi dinamik və dəyişkən xarakter daşıyıyir.

## 4.1. Şəxsiyyət azadlığı anlayışı müasir dövrün prizmasında

Açıq cəmiyyətin yaradılması yolunda həyata keçirilən dəyişikliklər və irəliləyişlər nəticə etibarilə şəxsiyyəti tarixi prosesin azad subyektinə çevirmək üçün zəruri olan şərait yaratmağa xidmət edir. Buradan aydındır ki, müasir sosial-fəlsəfi fikirdə şəxsiyyət probleminin təhlili onun azadlığından kənarda tam dolğun təsəvvür edilə bilməz.

Mövcud fəlsəfi ədəbiyyatda azadlığın ontoloji və qneseoloji cəhətləri, mənşəyi, mahiyyəti və strukturu, mədəniyyət, yaradıcılıq zərurət və məsuliyyət ilə qarşılıqlı münasibətləri kifayət dərəcədə araşdırılmışdır. Bununla belə həmin problemin tükəndiyini iddia etmək yanlışlıq olardı. Əvvəla ona görə ki, şəxsiyyət azadlığı real həyati problemdir, yəni cəmiyyətin inkişafında özünü göstərən hər bir dövr, şəxsiyyət azadlığı anlayışının məzmunu və mahiyyətinə əhəmiyyətli yeniliklər verir. Bu mənada müasir cəmiyyətin yaşadığı totalitar quruluşdan açıq, demokratik rejimə keçid dövrü ictimai həyat fəaliyyətinin bütün sahələrində olduğu kimi, şəxsiyyətin azadlığı probleminin qoyuluşu və həllində də əvvəlki dövrlər ilə müqayisəyəgəlməz dərəcədə ciddi yenilikləri şərtləndirir. Digər tərəfdən, nəzərdə tutulmalıdır ki, şəxsiyyət azadlığı son dərəcə mürəkkəb, çoxcəhətli və çoxşaxəli problemdir, ictimai praktika və nəzəri şüur inkişaf etdikcə onun yeni-yeni calarları və tərəfləri üzə çıxır ki, onları sosial-fəlsəfi təhlilin obyektinə cəlb etmək son dərəcə zəruridir.

Yuxarıda qeyd olunan mülahizələrdən çıxış etməklə müasir şəxsiyyət tipinin azadlığının mahiyyətini açmaq, onda baş verən əsaslı yenilikləri və həyata keçirilməsi yollarında qazanılan irəliləyişləri tədqiq etmək çox vacibdir.

Şəxsiyyətin azadlığı ilə bağlı fundamental məsələləri araşdırmaq, həm də ona görə zəruridir ki, onlar müasir dövrdə sosial refleksiyada baş verən dəyərlərin yenidən hərtərəfli və dərindən mənalandırılması prosesinin ayrılmaz tərkib hissəsini təşkil edir. Odur ki, insanın həm şəxsiyyət kimi, həm də cəmiyyətin üzvü kimi təbiəti və mahiyyətində özünü göstərən əsaslı irəliləyişlərin ümumiləşdirilməsinə ehtiyac yaradır. İctimai həyatın bütün sferalarının əsaslı surətdə yeniləşdiyi indiki şəraitdə şəxsiyyətin azadlığı təkcə ictimai və fərdi inkişafın məqsədi olmaqla məhdudlaşmır. O, həm də cəmiyyətin öz qarşısına qoyduğu məqsədlərin reallaşmasına yönələn ümumi potensialın artırılmasının çox mühüm amilinə çevrilir. Bu təsadüfi olmayıb, onunla şərtlənir ki, şəxsiyyət azadlığının inkişafı ilə cəmiyyətin tərəqqisi, vahid prosesin iki bir-birindən ayrılmaz tərəfi kimi çıxış edir.

Sosial mövcudat kimi götürülən insanın əsl mahiyyəti məhz onun azadlığının artması ilə müəyyən olunur. Tarixi prosesin gedişində hər bir nəsil bu əsas amala doğru müəyyən addım atır və getdikcə ona yaxınlaşır. Buna görə də insanlığın tərəqqisini onun azadlığa nail olmaq yolunda qazandığı uğurlar ilə ölçmək olar.

İnsanın azadlığı problemi bütün dövrlərdə fəlsəfi təfəkkürün diqqət mərkəzində olmuşdur. G.V.Plexanov qeyd edirdi ki, «azadlıq və zərurət məsələsi nə qədər köhnə olsa da, bir o qədər yenidir. Bu məsələ varlığın təfəkkürə münasibətini izah etməyə çalışan bütün filosofların qarşısında durur. O həmin mütəfəkkirlərə sanki deyir: mənim sirrimi aç, yoxsa, mən sənin bütün fəlsəfi sistemini yeyib yox edərəm» (172, s.590).

Hazırda azadlıq kateqoriyasının mahiyyətinin açılması, onun müasir dövr baxımından mənalandırılması bir də ona görə

vacibdir ki, indi ölkə daxilində və beynəlxalq aləmdə gedən dərin prosеslər, xalqların öz müqəddəratını təyin etməsi ilə bağlı məsələlərin kəskinləşməsi, insanların köhnə dəyərlərdən azad olaraq yenilərinə qovuşması prosesi, bütövlükdə cəmiyyətdə və hər bir şəxsiyyətdə yeni dünyagörüşün formalaşması baş verir. Məhz azadlıq müasir cəmiyyətin maddi və mənəvi fəaliyyətinin əsl mənasını əks etdirir, öz növbəsində azadlıq sahəsində əldə olunan nəticələr həm azadlığın yeni üfüqlərinin formalaşmasına, həm də cəmiyyətin mütərəqqi istiqamətdə inkişafına müsbət təsir göstərir. Bu tamamilə təbiidir. Məsələ burasındadır ki, insanın hər cür fəaliyyəti məqsədyönlülük və nəzarət tələb etdiyi kimi, həm də azad yaradıcı yanaşmanı nəzərdə tutur. Məhz azad fəaliyyət gedişində insan öz mahiyyətinin əsl dərin və gizli qatlarını üzə çıxarır, çünki bu halda o öz potensial qüvvələrini daha dolğun reallaşdırmaq üçün şərait əldə edir. Deyilənlərdən əlavə azad fəaliyyət şəxsiyyətin məsuliyyətini və deməli ümumi insanlıq ləyaqətini də artırır.

Azadlıq probleminin təhlilində çıxış nöqtəsi rolunu onun subyektinin müəyyən olunması təşkil edir. Bu mənada yanaşdıqda göstərilməlidir ki, şəxsiyyət azadlığı digər subyektlər (bəşəriyyət, konkret cəmiyyət, sosial birlik forması) ilə yanaşı çox mühüm yer tutur. Həm də göstərilməlidir ki, sözügedən subyekt, azadlığın bütün cəhətlərinin, sferalarının, səviyyələrinin, reallaşma formalarının spesifik en kəsiyini əhatə edir.

Ümumi mənada yanaşdıqda şəxsiyyət azadlığı insanın mahiyyətinin müxtəlif səviyyələrinin və dərəcələrinin inteqrativ ifadəsi olmaqla, obyektiv ilə subyektivin dialektikasında, sosial subyekt kimi götürülən fərdin tələbatları ilə onun yaradıcı və

dəyişdirici fəaliyyətinin qarşılıqlı əlaqələrində reallaşdırılır. O, ikiqat determinasiyaya (obyektiv və subyektiv) malikdir.

Şəxsiyyət azadlığı insanın mövcud cəmiyyətdəki imkanlara və şəriətlərə əsaslanan fərdin öz istəyi, tələbatları və mənafelərinə müvafiq surətdə aktiv fəaliyyət göstərmək qabiliyyətin ifadə edir. Şəxsiyyət azadlığının fəlsəfi təhlili həmin problemə psixoloji, sosial-siyasi, mənəvi, hüquqi, sosioloji yanaşmalara müncər olunmur, onların hər birinin əldə etdiyi nailiyyətləri və nəticələri ümumiləşdirir. Azadlığın fəlsəfi tədqiqi şəxsiyyətin subyektiv momentlərinə, avtonomluluğuna əsaslanır, fərdin fəaliyyətində seçimi müəyyən edən daxili məqsəd və tələbatları tədqiq etməyi, onun dəyərlər sistemini, dünyagörüşünü, əqidəsini öyrənməyi tələb edir.

Şəxsiyyət azadlığı obyektiv və subyektiv amillərlə şərtlənir. Birinciyə azadlığın universal və onun konkret cəmiyyətdə əldə olunmuş səviyyəsini ifadə edən şərait daxildir. Burada əsas yeri ictimai varlığın obyektiv amilləri (coğrafi, iqlim, ekoloji) obyektiv iqtisadi şərtlər (maddi nemətlər istehsalı), sosial birliklərin azadlığının formaları (iqtisadi, siyasi, hüquqi və s) tutur.

Məhz bu determinantlar bu və ya digər sosial subyektin istehsalından, təbii və ictimai-tarixi şəraitdən asılılıq səviyyəsini müəyyən edir. Deməli azadlığın obyektiv əsası subyektin (bizim baxımdan şəxsiyyətin) cəmiyyətdə qərarlaşmış olan şərtlər əsasında öz qabiliyyəti və imkanlarını inkişaf etdirmək və öz qüvvələrini reallaşdırmaq dərəcəsi deməkdir. Şəxsiyyət azadlığının subyektiv əsasını fərdin mənlik şüurunun müəyyən inkişaf səviyyəsi, onun cəhdlərinin, məqsədlərinin və fəaliyyətinin mahiyyəti, dəyərlər sistemi, özünüqiymətləndirmə, dünyagörüşü və s. təşkil edir.

Şəxsiyyət azadlığının ilkin şərtləri bunlardır: insanın dərk edə bilmək qabiliyyəti (azadlığın nəzəri təminatı), ünsiyyət məharəti (azadlığın reallaşmasının ən mühüm şərti), fəaliyyət göstərməsi (azadlığın real varlığı, onun mövcudluğu) onun mənlik şüurunun olması, yəni şəxsiyyətin öz əməllərinə görə müəyyən məsuliyyəti, öz həyat tərzinə və davranışına münasibəti, öz fəaliyyətinin mövcud dəyərlər sistemi ilə müqayisə edə bilməsi. Öz növbəsində mənlik şüuru (özünüdərk) bir sıra şərtlərin olmasını nəzərdə tutur: məqsədə nail olmaq üçün bu və ya digər şəkildə hərəkət etmək arzusu, predmetlər haqqında müəyyən biliyə malik olmaq və onların mənimsənilməsinin və dəyişdirilməsinin mümkünlüyünün başa düşülməsi. Bu göstərilən subyektiv müqəddəm şərtlər obyektiv tərəflər ilə sıx qarşılıqlı təsirdə reallaşır. Buna görə də şəxsiyyətin praktiki fəaliyyətini bir növ onun azadlığının subyektiv-obyektiv əsası hesab etmək olar. O, şəxsiyyətin tələbatları və qabiliyyətləri əsasında, yəni subyektiv olaraq ətraf gerkçəkliyin və ictimai münasibətlərin dəyişdirilməsinə yönəlir. Buradan aydındır ki, praktika subyekt-obyekt münasibəti kimi mövcud olur.

Beləliklə azad şəxsiyyət aşağıdakı xassələri ilə səciyyələnir: azad fəaliyyət və ünsiyyətə malik olması, şüuru, mənlik şüuru və dünyagörüşü. Şəxsiyyət azadlığı həm də hər bir şəxsiyyət üçün konkret fəaliyyət növlərinin seçim imkanları sferasıdır. Azadlığın həyata keçirilməsində şəxsiyyətin özünəməxsusluğu, dəyərləri, mühüm rol oynayır. Şəxsiyyət azadlığının sosial səpkisi insanların öz fərdi qabiliyyətlərini praktikada reallaşdırmaları yolunda əsassız ictimai məhdudluqların olmaması deməkdir.

Azadlıq yalnız insana xas olan keyfiyyət olmaqla, onun həyat fəfaliyyətinin şüurlu amilləri ilə bağlıdır. O, insanın

mahiyyət qüvvələrinin reallaşması səviyyəsini, onun fəaliyyət prosesində ətraf aləmi və öz-özünü yaradıcı surətdə dəyişdirməsini əhatə edir. Azadlıq insan varlığının ayrılmaz atributu, cəmiyyətin malik olduğu yüksək sosial dəyərdir. Q.L.Smirnov haqlı olaraq göstərir ki, «...azadlıq insan həyatının ən mühüm dəyərlərindəndir. O, insanın vəziyyətinin inteqrativ göstəricisi olmaqla, praktiki surətdə onun həyatının və fəaliyyətinin bütün sferalarını əhatə edir, cəmiyyətin sosial qrupların və ayrı-ayrı şəxsiyyətlərin tələbatları və mənafelərinin ödənilməsi imkanlarını əks etdirir» (199, s.187).

Azadlığın elmi fəlsəfi anlamı onun konkret tarixi xarakter daşıdığını irəli sürür. Yəni söhbət ondan gedir ki, mövcud cəmiyyətin subyekti müəyyən asılılıqdan (təbiət qanunları, sosial əsarətdən və mənəvi qüsurlardan və s) azad olmaqla nə dərəcədə sərbəst fəaliyyət (öz təbiətinə və xarici mühitin təsirinə uyğun olaraq) göstərə bilir. Əlbəttə, bu deyilənlər azadlıq ideyasının bir səpkisidir (yəni neqativ səpkisini – nədənsə azad olmaq) ifadə edir. Lakin azadlıq anlayışının mahiyyəti təkcə bununla bitmir. Onun məzmununda həm də ikinci bir mühüm tərəf, yəni azadlığın pozitiv anlamı daxildir. Sonuncu səpki azadlığın nə üçün həyata keçirilməsi istiqamətini göstərir.

Azadlığın inkişaf səviyyəsi cəmiyyətin tərəqqisinin çox mühüm meyarını təşkil edir. Bu məsələni izah edərkən Q.Hegel göstərirdi ki, tarixi inkişaf azadlıq şüurunun tərəqqisi deməkdir və biz bu zərurəti başa düşməliyik (67, s29).

Göründüyü kimi, Hegel əsas diqqəti yalnız azadlıq şüuru üzərində cəmldəşdirirdi. Əslində isə azadlıq təkcə şüur sferası ilə məhdudlaşmayaraq, həm də real hərəkətləri, yəni şüurun praktiki münasibətlərdə təcəssümünü əhatə edir.

Azadlıq anlayışının ümumifəlsəfi mahiyyətinin müəyyənləşdirilməsində F.Engelsin xidmətini danmaq ədalətsizlik olardı. «Anti Dürinq» əsərində o yazırdı: «azadlıq özümüzü xəyalən təbiət qanunlarından asılı olmamaqda deyil, bütün qanunları dərk etməklə və bu biliyə əsaslanmaqla təbiət qanunlarını planlı surətdə müəyyən məqsədlərə yönəltmək imkanları əldə etməkdədir. Bu həm xarici təbiət qanunlarına, həm də insanın cismani və mənəvi varlığını idarə edən qanunlarına aiddir» (8, s116).

Z.N.Stoliviç azadlığın çox geniş və hərtərəfli məna kəsb etdiyini aşağıdakı kimi göstərir: «İstənilən fəaliyyət növü – dünyanın dəyişdirilməsi, onun dərk olunması, dəyərlərin mənimsənilməsi, hətta insanlar arasında ünsiyyət də azadlıq kimi göstərilə bilər. Azad fəaliyyət zərurətin dərk olunmasını, nəyinsə məharətlə və incə şəkildə yaradılmasını, əmək materiallarının və vasitələrinin xassələrinin, habelə fəaliyyətin yönəldiyi istiqamətin düzgün müəyyənləşdirilməsini nəzərdə tutur» (20, s67-68).

İnsan yarandığı gündən azadlığa can atır, lakin heç vaxt tam azadlığa nail ola bilmir. Sonuncu onun üçün xoş bir ideal olaraq qalır. Halbuki, cəmiyyət inkişaf etdikcə, onun üzvlərinin azadlığa nail olması yolunda qarşıya çıxan maneələr də azalır və minimuma enir. Deməli, elmi dövriyyədə və adi danışıqda işlənilən «əsl insan azadlığı» anlayışı da mütləq azadlığı deyil, insanın bütün məqsədyönlü və ağıllı qabiliyyətlərinin reallaşması azadlığını ifadə edir.

Cəmiyyətin inkişafı gedişində onun üzvləri nə qədər çox biliklərə malik olursa, onun intellektual potensialı nə qədər çoxalırsa, buradakı insanlar arasındakı münasibətlər, onların irəli sürdüyü məqsədlər, istifadə etdiyi vasitələr də bir o qədər çox azad

məzmuna malik olur. Bu fikir ayrıca bir fərdə də şamil olunur, çünki onun azadlığı məhz cəmiyyətdə təzahür edir. Buna görə də şəxsiyyətin azadlığı onun cəmiyyətdən asılı olmaması demək deyildir. Belə ki, cəmiyyətin hər bir üzvünün fəaliyyəti, dünyagörüşü, həyat tərzinin prinsipləri, mövcud ictimai quruluşun dərin təsiri altında formalaşır. Əlbəttə, deyilənlərdən belə nəticə çıxarılmamalıdır ki, şəxsiyyətin azadlığı ilə cəmiyyətin azadlığı tam üst-üstə düşür. Məsələyə bu cür yanaşmaq, cəmiyyətdə fərdlərin unikallığının və təkrarolunmazlığının inkarına gətirib çıxarır. Əslində isə cəmiyyət bu və ya digər şəxsiyyətin fəaliyyət və davranışının ümumi əsaslarını işləyib hazırlayır. Onlardan konkret istifadə olunması isə hər bir fərdin özündən asılı olur. Həm də nəzərdə tutulmalıdır ki, cəmiyyət nə qədər çox inkişaf edirsə, onun üzvləri öz fərdi keyfiyyətlərini və potensialını da bir o qədər azad inkişaf etdirə bilir.

Azadlıq anlayışı daxili məzmun etibarilə çox geniş və mürəkkəbdir. O, bir sıra struktur bölgülərini və onların hər birinə aid müxtəlif ünsürləri əhatə edir. Fəlsəfi ədəbiyyatda azadlığın aşağıdakı dörd mühüm pillədən ibarət olduğu haqqında fikir geniş yayılmışdır. Onlar aşağıdakılardır:

1. idrak (dərketmə) mərhələsi, bu azadlığın ilkin şərti, onun nəzəri ifadəsidir.
2. subyektin ictimai fəaliyyətində əldə olunmuş real azadlıq, yəni onun mövcud səviyyəsi və varlığı.
3. şəxsi azadlığın reallaşması şərti kimi götürülən ünsiyyət.
4. mənlik şüuru mərhələsi, insanın öz həyat tərzinə, malik olduğu azadlıq səviyyəsinə münasibəti və azadlıq üçün onun daşıdığı məsuliyyətin səviyyəsi. (191, s. 17-18).

Şəxsiyyətin azad seçiminin daxili strukturunu və tərkib hissələrini açmaq yolunda başqa cəhdlər də göstərilmişdir. Bu münasibətdə E.Bürenin təklif etdiyi aşağıdakı bölgü səciyyəvidir: «İnsanın mənəvi həyatı mümkün olandan çıxış etməklə reallıq haqqında mühakimələr yürütməkdən ibarətdir. Düzgün seçim edə bilmək qabiliyyəti üç mərhələdən keçir:

1. seçim haqqında məsələnin irəli sürülməsi
2. qərarın qəbul olunması
3. onun reallaşdırılması. Əgər seçim doğru deyildirsə, onda səhvlər özünü biruzə verir və insan öz məqsədinə çatmağın doğru yollarını axtarır. Bu qəbildən olan mühakimələr adətən insanın özünün maraqlarına cavab verən seçimilə başa çatır». (258, s. 529-530)

Yenikantçılığın görkəmli nümayəndəsi V.Vindelband da azad seçimin strukturunda üç mərhələni ayırırdı. Birinci, ayrıca bir istəyi, ayrı-ayrı həvəsləri əhatə edir ki, onlardan hər biri (əgər o yeganədirsə) birbaşa hərəkətə keçə bilir. İkinci mərhələ həvəslərin qarşılıqlı surətdə bir-birini tormozlaması və onlar arasında tarazlığın yaranması deməkdir. Bu, onlar arasında seçim yolunu tapmaqla məsələnin həllinə gətirib çıxarır. Üçüncü faza elə bir iradi impulsla səciyyələnir ki, o seçimdə müəyyən olunmuş istəyin müvafiq fiziki hərəkətə keçməsi deməkdir (55, s. 14).

Qeyd edək ki, bu bölgülərin hər biri məsələnin bu və ya digər tərəfinə diqqət yönəltməsi baxımından müəyyən elmi əhəmiyyət kəsb etsə də, ümumilikdə qənaətbəxş hesab oluna bilməz. Bunun əsas səbəbi odur ki, həmin bölgülər daha çox formal xarakter daşıyır və seçimin strukturunun zahiri təsvirini verir. Halbuki əsas məsələ azad seçimin ünsürlərinin daxili fərqliyini və vəhdətini göstərmək, onların deferminasiyasının

xarakterini açmaq, hər bir mərhələnin spesifikliyini və onları bir-birindən fərqləndirən meyarları işləyib hazırlamaqdır. Bu baxımdan psixoloqların irəli sürdüyü fikirlər diqqəti cəlb edir. Bəzi filosoflar azad seçimin iki mərhələdən (fiziki hərəkət və faktiki hərəkət) keçdiyini iddia edir. Onların fikrincə həmin fazaların öz daxili strukturuna aşağıdakılar daxildir: hərəkət etmənin zəruriliyinin müzakirəsi, qərar, niyyət, motivlər mübarizəsi, hərəkət üsulunun və planın seçilməsi, qəbul olunmuş qərarın yerinə yetirilməsi. (212, s. 186-189)

Bəzi psixoloqlar isə bu deyilənlərdən əlavə hərəkətin xarakterini müəyyən edən amillər sırasına aşağıdakıları da aid edirlər: arzu olunan nəticənin səciyyəsi kimi hərəkətin məqsədini, məqsədə çatmaq yolu olan hərəkət üsulunu və hərəkətin yerinə yetirilməsi şəraiti. (143, s. 27)

Psixoloqların digər qismi sözügedən azad seçim strukturunun bölgüləri kimi hərəkətin tələbatları və onlara əsaslanan məqsədlərin, nəticələrin irəlicədən müəyyənləşdirilməsini və hərəkətin bilavasitə özünün gedişini əsas götürürlər.(189, s. 177).

Bu rəylərlə razılaşmaq olar, lakin seçimin strukturuna yuxarıda göstərilənlərlə yanaşı konkret fərdin potensial imkanlarını (psixiki və fiziki) da əlavə etmək məqsədəuyğundur. Çünki onlar zəruri obyektiv şərait yarandıqda, ani olaraq gerçəkləşə bilir və digər vasitələrlə birlikdə çıxış edərək, azad seçim nəticəsində irəli sürülən məqsədin həyata keçirilməsinə sürətləndirici təsir edir. Bunula əlaqədar belə bir məqama da diqqət yetirmək tələb olunur: azad seçimin müxtəlif vasitələri (fikri, real və potensial tərəfləri ifadə edən vasitələrdən söhbət gedir) sırasında yalnız birinci və ikinci qrupa daxil olanlar azad

seçimlə daha sıx bağlıdır. Potensial vasitələrə gəlincə isə göstərilməlidir ki, onlar azad seçimə bilavasitə tabe deyildir. Belə ki, onlar potensial xarakter daşıdığına görə qeyri-şüuri vəziyyətdə olurlar. Bu vasitələr yalnız o vaxt üzə çıxır ki, artıq mövcud fikir və real vasitələr tükənir. Deməli onlar zəruri şərait yarandıqda özlərini göstərir. Bu fakt, potensial vasitələrin əhəmiyyətli rolunu inkar etmir. Onlar hansı xarakterli məqsədə yönəlməsindən asılı olaraq, həm fikri səpkidə (əgər məqsəd yalnız məntiqi nəticələr əldə etməyə istiqamətlənibsə) və praktiki yönümlü (əgər qarşıda praktiki vəzifələri reallaşdırmaq məqsədi durursa) ola bilir. Sonuncu halda onların rolu daha önəmli olur, çünki bu vəziyyətdə onlar təkcə real vasitələrin deyil, həm də fikri vasitələrin (əlbəttə, dolayışı ilə)köməyinə gəlir.

Fəlsəfi-psixoloji təhlil dərinləşdikcə, azad seçimin strukturunda yeni-yeni səviyyələr üzə çıxır. Bu onun son dərəcə mürəkkəb və polifunksional xarakterindən xəbər verir. Deyilənləri ümumiləşdirərək azad seçimin daxili strukturunda aşağıdakı dörd pilləni ayırmaq olar:

Birinci səviyyə əsas etibarilə fərdin tələbatlarını və istəklərini əhatə edir. Bunlar bir tərəfdən subyektin daxili keyfiyyətlərilə, digər tərəfdən isə xarici obyektiv şərait ilə şərtlənirlər.

İkinci pillə onunla səciyyələnir ki, burada fərdin «Mən»i ilə «qeyri-Mən»i, yəni başqaları arasında müəyyən ziddiyyət özünü göstərir. Həmin ziddiyyət özünü həm də fərdin iradəsi və şüuru ilə ona təsir və müəyyən təzyiq göstərən ətraf dünya arasında yaranır. Bu pillə göstərilən tərəflər arasında razılığın və nisbi müvazinətin təmin olunması ilə başa çatır.

Üçüncü səviyyə şəxsiyyətin bu və ya digər tələbatlarını ödəmək məqsədinə yönələn konkret vasitələrin seçilməsi prosesini

əhatə edir. Nəhayət, dördüncü mərhələdə tələbatların bilavasitə reallaşması, yəni fərdin praktiki seçimi (bu seçim öz məzmununa görə fiziki və yaxud əqli xarakter daşıyır) baş verir.

Müasir şəxsiyyətin azad seçimi əvvəlki dövrlərdə olduğuna nisbətən daha geniş məzmun daşıyır və yüksək keyfiyyətə malikdir. Bu, cəmiyyətin real vəziyyəti və şəxsiyyətin subyektiv inkişaf göstəricilərinin yüksək olması ilə şərtlənir. Hazırda fərd öz qarşısında daha yüksək məqsədlər irəli sürür və onları reallaşdırmaq üçün səmərəli vasitələr işləyib hazırlayır. Bu, nəticə etibarilə bəşəriyyətin azadlıq idealına doğru irəliləyişi yolunda yeni, daha yüksək səviyyənin əldə olunduğunu sübut edir.

Azadlığın yuxarıda verilən ümumi anlayışı və daxili struktur səviyyələri sosial subyektlərin müxtəlif növlərində özünə məxsus şəkildə çıxış edir. Bu mənada digər subyektlər (bütövlükdə cəmiyyət, sinif, millət və s.) ilə yanaşı azadlığın şəxsiyyətə mənsub forması, yəni şəxsiyyət azadlığı da spesifik təbiətə malikdir.

Şəxsiyyətin azad fəaliyyəti onun kənardan göstərilən təsir və məcburiyyət nəticəsində deyil, öz iradəsi və istəyi ilə həyata keçirilən imkanlarını əks etdirir. Əlbəttə, bu o demək deyildir ki, şəxsiyyət həmişə və hər bir şəraitdə öz iradəsi üzrə fəaliyyət göstərir. Əslində bu fəaliyyət obyektiv amillər ilə şərtlənir. Buna görə də o, cəmiyyətin ümumi inkişafı səviyyəsini səciyyələndirən sosial, siyasi, iqtisadi və mənəvi amillərin, digər insanların maraq və mənafelərinin təsiri ilə sıx əlaqədə baş verir. Şəxsiyyət cəmiyyətdə yaşayıb fəaliyyət göstərdiyi üçün, obyektiv zərurəti ifadə edən bu amillərlə mütləq hesablaşmalıdır.

Buradan aydın olur ki, şəxsiyyət azadlığının əsl mənası insanlar arasındakı qarşılıqlı münasibətlər və onların qarşılıqlı asılılığı ilə sıx bağlıdır. Başqa sözlə deyilsə, hər bir şəxsiyyət azad

fəaliyyətində mövcüd şəraitdə ümumi maraqları ifadə edən prinsiplərə könüllü surətdə əməl etməlidir.

Beləliklə şəxsiyyət azadlığı da elə sosial məkanı ifadə edir ki, burada onun fəaliyyəti digər insanların müvafiq göstəriciləri ilə sıx əlaqəlidir.

Şəxsiyyət azadlığının daxili məzmunu müxtəlif meyarlar üzrə təsnif olunur. Bu münasibətlə aparılan ən mühüm bölgü azadlığı iki yerə: (təbii və sosial) ayırır. Şəxsiyyətin azadlığının əsasında onun tərəfindən təbiətin inkişafını əhatə edən zərurətin dərk olunması durur. Başqa sözlə deyilsə, azadlığın bu növü şəxsiyyət ilə təbiət və yaxud öz mövcudluğunun təbii şəraiti, ətraf mühit arasındakı zəruri qarşılıqlı münasibətləri tənzim edir. Qeyd edilməlidir ki, müasir şəraitdə azad fəaliyyətin bu səpkisi artmaqda olan rol oynayır. Bu onunla izah edilir ki, hazırda insan fəaliyyəti ümumplanetar miqyas almışdır. Bu isə o deməkdir ki, müasir elmi-texniki nailiyyətlər əsasında durmadan genişlənməkdə olan istehsal fəaliyyəti ətraf mühitə son dərəcə pozucu təsir göstərir. İnsan-təbiət münasibətlərində artmaqda olan gərginlik və ziddiyətlər müasir ekoloji böhranın ən dərin səbəblərindən birini təşkil edir. Hazırda texnogen və biogen amillərin təsir dairəsi genişləndikcə, iqlimin, torpağın, havanın, su hövzələrinin çirklənməsi də sürətlə artır. Belə şəraitdə şəxsiyyətin təbii azadlığı çox mühüm yer tutur. Göründüyü kimi onun əsas qayəsini şəxsiyyətin həyatının və əməyinin, təbii şəraitinin, ətraf mühitin qorunması təşkil edir.

Azadlığın ikinci sosial forması ictimai həyatın müxtəlif sferaları üzrə şəxsiyyətlər arasındakı münasibətləri tənzim edir. O, konkret tarixi şəraitdə yetişən sosial zərurətin dərk olunması kimi çıxış edir. Sosial azadlığın özü daxilən geniş məzmuna malik olub,

bir-birilə sıx vəhdətdə olan aşağıdakı formaları ehtiva edir: siyasi azadlıq, hüquqi azadlıq, iqtisadi fəaliyyət azadlığı, mənəvi-əxlaqi azadlıq, mədəni-məişət sferasında və ailə münasibətlərində özünü göstərən azadlıq.

Yuxarıda göstərilən bölgü azadlığı onun təzahür etmə sferasına görə müxtəlif növlərə ayırır. Bununla yanaşı azadlıq, həm də daxili yetkinlik və dərinlik səviyyəsinə görə qruplaşdırılır. Bu insanların davranışı və hərəkətlərinin xarici, üzdə olan tərəflərini tənzim edir. Azadlığın ikinci forması olan daxili azadlıq isə insanın əsl sosial mahiyyətini açıb göstərir. O, insanın zəkaya və iradəyə malik mövcudat kimi öz daxili dünyasından irəli gələn azad davranışını və hərəkət seçimini ifadə edir. Odur ki, bəzən daxili azadlıq bu və ya digər hüquqi normanın pozulması ilə nəticələnə bilir. Daxili azadlığı əsasən aşağıdakı kimi səciyyələndirilir:

«Daxili azadlıq insanın məqsədyönlü və məqsədəmüvafiq fəaliyyəti prosesində insan şüurunun seçici və razılaşdırılmış aktivliyi kimi təzahür edir. O, insanın bu və ya digər situasiyada müstəqil seçim etmək imkanını göstərir». (108, s. 5)

Daxili azadlığın öz tərkibinə dərindən diqqət yetirdikdə onun aşağıdakı tərəflərini üzə çıxarmaq olar:

1. konkret şəraitdə mövcud olan müxtəlif davranış variantlarının dərk olunması
2. ilkin davranış imkanlarının öz şəxsi və ictimai dəyərnormativ oriyentasiyaları ilə müqayisəsi
3. öz idarəsinə uyğun qərar qəbul edilməsi və onun yerinə yetirilməsi (əlbəttə ki, onun nəticələri üçün məsuliyyət də daxil olmaqla)

Göründüyü kimi daxili azadlıq özündə dərketmə azadlığını, seçim azadlığını, iradə azadlığını və məsuliyyəti birləşdirir.

Daxili azadlıq ona görə daha mühüm əhəmiyyətə malikdir ki, o şəxsiyyətin əqidəsi, inamı və mənəvi yetkinliyi ilə bilavasitə bağlıdır. O müəyyən zəruri şəraitdə şəxsiyyətin öz-özünü məhdudlaşdırması kimi yüksək keyfiyyətini də əhatə edir və onu lazımsız hərəkətlərdən çəkindirir. Bu isə insanın sosial mahiyyətinin əsl təzahürü deməkdir. Göstərilməlidir ki, daxili azadlığın xüsusi rolunun qeyd olunması, heç də xarici azadlığın əhəmiyyətini azaltmır. Azadlığın bu sözügedən forması da şəxsiyyətin həyat fəaliyyətində vacib yer tutur. Bunu həm də ondan görmək olar ki, çox vaxt xarici azadlıq daxili azadlıq vasitəsilə təzahür edir. Deməli azadlığın xarici (obyektiv) və (subyektiv) formaları bir-biri ilə dialektik vəhdətdə çıxış edir. Onların sıx qarşılıqlı təsiri mahiyyət etibarı ilə şəxsiyyətin davranışı və hərəkətlərində hüquq və əxlaqın vəhdəti ilə təmin olunur. Buna görə də azadlığın xarici və daxili formalarını bir-birinə qarşı qoymaq doğru deyildir. Şəxsiyyətin məqsədyönlü praktiki fəaliyyəti prosesində onun azadlığı fərd tərəfindən bu keyfiyyətin subyektiv dərkindən başlayaraq, onun mövcud şəraitdə obyektiv reallaşmasına qədər müxtəlif mərhələlərdən keçir.

«Şəxsiyyət azadlığı» anlayışının elmi fəlsəfi anlamı onu dərk olunmuş zərurət kimi qəbul edir. Zərurət dedikdə bu və ya digər obyektin, prosesin daxili gedişi ilə hazırlanan və onun daxili əlaqələrinin əvvəlki inkişafı ilə şərtlənən və buna görə də mütləq baş verməli olan hadisə başa düşülür. Şəxsiyyətin sosial azadlığı zərurətin müvafiq növünün (tarixi zərurətin) dərk olunmasını nəzərdə tutur. Sosial zərurət ilə şəxsiyyət azadlığı arasındakı

münasibətlərdə determinizm prinsipi (hadisə və proseslərin səbəb nəticə əlaqələrində olduğunun qəbul edilməsi) mühüm yer tutur. Bununla birlikdə sosial azadlıq təkcə zərurətilə deyil, həm də təsadüflər ilə sıx əlaqədardır. Cəmiyyət açıq sistem olduğu üçün, onun sinergetizm mövqeyindən izahı sübut edir ki, o öz-özünü təşkiletmə keyfiyyətinə malikdir. Bu onun inkişafında təsadüflərin rolunun artmasını ifadə edir. İctimai sistemin bu xassəsi müasir demokratikləşmə şəraitində daha aydın üzə çıxır. Sözügedən məqam azadlığın  bütün subyektlərinə, o cümlədən də şəxsiyyət azadlığına, onun təsadüflər ilə çoxtərəfli münasibətlərinə əhəmiyytli təsir göstərir.

Yuxarıda göstərildiyi kimi, şəxsiyyətin azad fəaliyyətin yönəldiyi konkret şərait və ya obyekt haqqında biliklər, yəni elmi təfəkkürə əsaslanan biliklər öncül yer tutur. Bu təsadüfi olmayıb, onunla izah edilir ki, əsl azadlıq fikir, təfəkkür azadlığından başlanır. Şəxsiyyətin azad təfəkkürü isə bəşəriyyətin və konkret cəmiyyətin müxtəlif elmi biliklər sisteminin, onun tərəfindən necə mənisənildiyinin göstəricisidir. Həm də söhbət bu və ya digər konkret fəaliyyət sahəsinə dair məhdud biliklərə yiyələnməkdən deyil, ümumilikdə geniş əhatə dairəsinə, erudisiyaya və kompleks biliklərə, dərin dünyagörüşünə malik olmaqdan gedir. Təsadüfi deyildir ki, şəxsiyyətin azad inkişafı ilə bağlı məsələlər bütün dövrlərdə onun hərtərəfli biliklərə yiyələnməsi ilə sıx əlaqədə götürülmüşdür. Deyilənlərdən aydın olur ki, şəxsiyyətin azad təfəkkürünün formalaşması onun təhsil səviyyəsindən çox asılıdır. Müasir cəmiyyətimizdə təhsil sahəsində aparılan əsaslı islahatlar (təhsilin demokratikləşməsi, onun həyatla əlaqəsinin möhkəmləndirilməsi, milli təhsil konsepsiyasının işlənib hazırlanması və həyata keçirilməsi yolunda atılan addımlar, təhsil

sahəsində inkişaf etmiş qərb dövlətlərinin təcrübəsinin geniş yayılması və s.) həm də bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Belə ki, göstərilən istiqamətlərdə qazanılan uğurlar əhalinin bütün təbəqələrinin, xüsusilə də gənclərin təhsil səviyyəsinin yüksəldilməsinə və müasir dünya standartlarına yaxınlaşdırılmasına xidmət edir. Bu prosesdə həm də cəmiyyət üzvlərinin malik olduğu biliklər çoxalır, onların azad təfəkkürünün inkişafına geniş imkanlar açılır.

Həm də nəzərdə tutmaq lazımdır ki, yüksək təhsilli şəxsiyyət öz tələbatı və maraqlarını düzgün dərk edə bilir, onları reallaşdırmağın səmərəli vasitələrini tapır. Beləliklə biliklərsiz və təfəkkür azadlığına malik olmadan azadlığın ümumi mexanizminin digər pillələrinin (azad seçim, düzgün qərar qəbul etmək, məqsəd və vasitələr müəyyənləşdirmək, real hərəkət etmək) normal gedişini təsəvvür etmək qeyri-mümkündür. Fərdin təfəkkürü yüksəldikcə və biliyi çoxaldıqca, onun tərəfindən ətraf dünyanın və eləcə də öz varlığının mahiyyətinin dərk olunması asanlaşır, beləliklə də, o malik olduğu azadlığın miqyasını genişləndirə və məzmununu dərinləşdirə bilir.

Şəxsiyyətin azadlığı onun tərəfindən konkret şəraitdə qarşıda duran zərurətin dərk olunmasına əsaslanan praktiki fəaliyyətdən ayrılmazdır. Əslində azad olmaq obyektin zərurəti anlamaqla öz fəaliyyətinin məqsəd və vəzifələrini düzgün müəyyənləşdirmək, onları həyata keçirməyin səmərəli yollarını axtarıb tapmaq deməkdir. Yuxarıda qeyd olunduğu kimi şəxsiyyətin azad fəaliyyəti obyektiv qanunlara məhəl qoymamaq demək deyildir. Əksinə, onları dərk etməklə və əsas götürməklə, insan öz fəaliyyətini daha səmərəli təşkil edir.

Yuxarıda deyilənlər sübut edir ki, şəxsiyyətin davranışı və fəaliyyət azadlığı dərk olunmuş zərurətin, təsadüflərin və imkanların mürəkkəb dinamik vəhdəti kimi çıxış edir.

Şəxsiyyət azadlığının elmi izahı onun volyuntarist və fatalist anlamına qarşı çıxır. Birinci mövqenin tərəfdarları (volyuntaristlər) fərdin iradə azadlığının rolunu şişirdir, onun zərurətdən və mövcud sosial mühitdən asılı olmadığını sübut etməyə çalışırlar. Fatalizm isə digər ifrat həddi ifadə edir. Onun nümayəndələri tarixi prosesdə hər şeyi sırf mexaniki determinizm ilə bağlayır, burada fərdlərin azadlığını və təsadüflərin rolunu qəbul etmir, bütün sosial proseslərin fatalən, labüdlük əsasında baş verdiyini göstərirlər.

«Şəxsiyyət azadlığı» anlayışının məzmununda iradə azadlığı fundamental yer tutur. Onun izahında müxtəlif mövqelərin və mübahisələrin olmasına baxmayaraq, geniş yayılmış rəy bundan ibarətdir ki, iradə azadlığı işi bilmək əsasında qərar qəbul etmək qabilliyyətidir. Bu fikri davam etdirdikdə aydın olur ki, şəxsiyyətin bu və ya digər məsələyə dair irəli sürdüyü mülahizə və qəbul etdiyi qərar nə qədər çox azaddırsa, onların məzmunu zərurət ilə bir o qədər çox bağlı olur. Eləcə də əksinə, əgər şəxsiyyətin kifayət qədər biliklərə malik olmaması üzündən, öz davranış və hərəkətlərində inamsızlıq göstərməsi, qarşıda duran məsələni həll edərkən müxtəlif alternativ variantlar arasında tərəddüd etməsi, onun sözügedən məsələdə azad olmadığını və obyektin təbii axarına tabe vəziyyətini ifadə edir.

Şəxsiyyət azadlığını mütləqləşdirən, onun heç nədən asılı olmadığını iddia edən baxışlar bu gün də özünü göstərməkdədir. Onları tənqid edərək K.Popper göstərirdi ki, «hazırda azadlığın

kimin nə istəsə etməsi kimi anlaşılması dəbə düşmüşdür». (179, s. 490).

Əslində azadlıq mütləq deyil, nisbi anlayışdır, yəni o həmişə konkret tarixi şərait ilə şərtlənir. Buna görə də insanın mütləq mənada, maksimum azadlığa nail olması təsəvvürünü normal təfəkkür qəbul etmir. Əgər belə olsaydı, onda şəxsiyyət tam əlahiddəlik vəziyyətinə düşər, onun təbiət ilə habelə digər insanlar ilə əlaqələri bütünlükdə inkar edilərdi. Mütləq mənada anlaşılan azadlıq özbaşınalıq deməkdir, çünki insanın əməl və hərəkətləri daim obyektiv amillərlə şərtlənir. Azadlığın nisbiliyi ona «Fəlsəfi ensklopediya»da verilən tərifdə də ifadə olunmuşdur: «Azadlıq dərk olunmuş zərurət və insanın hərəkətlərinin öz biliklərinə müvafiq olması, hərəkətlərində seçim imkanları və seçmə qabiliyyəti deməkdir». (299, s. 559).

Mütləq azadlığın özbaşınalıq və ya anarxiya demək olduğunun anlaşılması indi həmişəkindən daha çox vacibdir. Belə ki, hazırda şəxsiyyətin azad fəaliyyəti üçün açılmış geniş imkanlar cəmiyyətin ümumi inkişaf səviyyəsini əks etdirir. Bu obyektiv məqam daim nəzərdə tutulmalıdır. Əks halda belə bir yanlış təsəvvür yarana bilər ki, hər bir şəxsin istənilən hərəkətləri etməyə haqqı vardır, onların məhdudlaşdırılması azadlığa ziddir. Bu münasibətdə L.N.Skvortsovun aşağıdakı fikri ilə razılaşmaq olar: «Azadlıq böyük prinsipdir. Bununla birlikdə hər cür azadlığı müqəddəs hesab etmək olmaz. Əks halda, azadlığın universal yaradıcı gücü, eyni dərəcədə qüdrətli dağıdıcı istiqamət alar». (195, s. 227).

Şəxsiyyət azadlığının müasir sosial reallığa əsaslanan yeni anlamını şərh edərkən, onun marksist izahının əsas məqamları da nəzərdən keçirilməlidir. Bu həmin nəzəriyyəyə xas olan yanlış

məqamları və tarixi şəraitdən irəli gələn məhdudluqları aşkar etmək üçün zəruridir. Digər tərəfdən marksizmin şəxsiyyət azadlığı ilə bağlı elə fikirləri vardır ki, onlar ümumbəşəri keyfiyyətə malikdir və bu gün də öz əhəmiyyətini itirməmişdir. Sonuncuya misal olaraq azadlıq, bərabərlik, qardaşlıq çağırışlarını, habelə cəmiyyətin tərəqqisinin əsas meyarını: hər bir fərdin azad inkişafının hamının azad inkişafı üçün şərt olması prinsipini göstərmək olar.

Bununla birlikdə marksizm fəlsəfəsi şəxsiyyətin bütün fəaliyyəti və davranışı mövcud ictimai münasibətlər sistemi ilə bağlayırdı ki, bu müddəa sırf obyektivizmi göstərən ifrat həddi təşkil edir. Sonra, bu təlimin azadlığa ifrat sinfi baxımdan yanaşması və ona nail olmağın əsas yolu kimi sosialist inqilabının həyata keçirilməsini irəli sürməsi də indi özünü doğrultmur. O şəxsiyyət azadlığı anlayışının mahiyyətinə yeni şəkildə yanaşmağı, onun müasir anlamında subyektin öz aktivliyinə, mənəviyyatına və daxili dünyasına geniş nüfuz etməyi tələb edir. Söhbət şəxsiyyət azadlığının daxili, fərdi-şəxsi və subyektiv diqqəti genişləndirməkdən gedir. Şəxsiyyət azadlığının müasir anlamı həm də bununla səciyyələnir ki, indi o iradə azadlığı, qərar qəbul etmək azadlığı, məqsəd irəli sürmək, seçim azadlığı, davranış, fəaliyyət və yaradıcılıq azadlığı ilə ayrılmaz əlaqədə götürülür. Şəxsiyyət azadlığının müasir fəlsəfi anlamını səciyyələndirərkən eksiztensializm nəzəri irsinə müraciət edilməsi zəruridir. Bu təlimə görə insan dünyada kimsəsiz və tənhadır. O, öz «Mən»indən başqa heç kimin qarşısında hesabat verməli deyil. Məsələn, A.Kamyu «Kənar adam» əsərində bu fikri asaslandırmağa çalışaraq qeyd edir ki, insan bu dünyada gedən proseslərə qarışmır, ondan heç nə tələb etmirlər və soruşmurlar. Bu vəziyyəti

eksriztensializm insanın azadlıqda lənətlənməsi kimi qiymətləndirir. Eksriztensializmin digər görkəmli nümayəndəsi K.Jaspers isə göstərir ki, insan öz seçimində azaddır və o öz-özünü, yəni öz «Mən»ini seçir, çünki fərdin ekzistensiyası cəmiyyətdən kənarda götürülür: «Azadlıq mənim özgürlüyümü seçməyimdir.......Çünki mən yalnız özümü seçməklə mövcud oluram, əgər mən yoxamsa, deməli mən heç nə də seçmirəm». (259, s. 182)

Göründüyü kimi Jaspers insanın varlığı ilə onun azadlığını ayrılmaz şəkildə götürür. O, belə hesab edir ki, əgər insan mövcuddursa, deməli onun azadlığı da və yaxud özünün seçmə azadlığı da vardır. Eksiztensializm fərdin öz-özünə müraciətini, özünün mənlik şüurunun eksiztensiyasının həqiqi meyarı hesab edir. Həmin təlimin başqa bir qiymətli tərəfi fikrimizcə bundadır ki, o fərdin özü qarşısında məsuliyyət daşıması və öz-özünü təqsirləndirməsi anlayışlarına da geniş yer verir. Xüsusilə də sonuncu anlayış çox mühüm əhəmiyyət kəsb edir, çünki insan psixikası bir qayda olaraq başqalarını günahlandırmağa meyilli olur. O, hətta öz günahlarını da digər insanların üzərinə qoymağa cəhd göstərir.

Ekzistensilizm iddia edir ki, azad seçim insanın iradəsinin köməyi ilə həyata keçirilən irrasional aktdır. Fərdin iradəsi yalnız ona məxsus olan sırf daxili subyektiv məzmun daşıyır. Fərdin azad seçimi, onun azad iradəsi ilə bağlıdır və subyektin daxili fəallığını ifadə edir.

Qeyd edək ki, insanın azad seçimində onun daxili «Mən»i, iradı keyfiyyəti çox mühüm yer tutur. Lakin həmin məqamın rolunu şişirtmək doğru deyildir. Əks halda insanın cəmiyyətdən və bütün dünyadan əlahiddə olduğu haqda yanlış təsəvvür

formalaşır. Belə görünə bilir ki, o yaşadığı cəmiyyətdə özünü yad hesab edir. Nəinki təkcə təbiətə, hətta ictimai münasibətlərə də biganə və yaddır. Beləliklə də onun üçqat özgələşdiyi (allah ilə, təbiət və sosial münasibətlər ilə) iddia olunur. Lakin özgələşmənin ən pis forması insanın öz-özündən, öz mənindən özgələşməsidir. (256, s. 31)

Ekzistensializmə görə bu özgələşməni aradan qaldrmağın yolu insanın öz daxili mәninə daha dərindən nüfuz etməsidir. Bununla əlaqədar qeyd edək ki, marksizmin dəbdə olduğu uzun illər ərzində bu təlim burjua fəlsəfi cərəyanı hesab olunur və əsasən neqativ qiymətləndirilirdi. İndi isə vəziyyət obyektivliyin və elmiliyin xeyrinə əsaslı surətdə dəyişilmişdir. Buradan çıxış edərək göstərilməlidir ki, eksiztansializmin yuxarıda göstərilən müddəası öz mənfi cəhətlərinə (məsələn, insanı cəmiyyətdən daha da uzaqlaşdırır) baxmayaraq, bütövlükdə elmi baxımdan əhəmiyyətlidir. Belə ki, insanın öz daxili məninə nüfuzu dərinləşdikcə, öz unikallığını və təkrarolunmazlığını daha aydın dərk edə bilir. Özünün digər insanlarla oxşar cəhətlərini və həm də fərqlərini dəqiq müəyyənləşdirir. Öz «Mən»ini dərk edən, mənlik şüuruna malik olan fərd həm də istər-istəməz cəmiyyətdə və yaşadığı dünyada öz yerini və rolunu anlamağa səy göstərir. Əks halda, yəni özünü hiss etməyən və bilməyən şəxsiyyət, azad seçim etməkdə acizlik göstərir, həyatın ona təklif etdiyi məsələlər çoxluğunda itib batır. Nəticədə fərd öz aktivliyini və unikallığını itirir, kütlənin, çoxluğun mexaniki ünsürünə çevrilir. Bu cür şəxsiyyəti cəmiyyətin normal şəxsiyyət deyil, məhz kütlə psixologiyasına malik şəxsiyyət adlandırmaq daha düzgündür.

Subyektin azad iradəsi və «Mən»i insanın fəaliyyətinin öz determinasiyasının mexanizminin əsas özəyi olmaqla, eyni

zamanda mühüm sosial mənaya malikdir. Onda sosiallıq keyfiyyəti individual və fərdi subyektləşdirilmiş formada təcəssüm edir. Bu məqam, yəni sosial şərtlənmə, subyekti azadlıqdan uzaqlaşdırmır, çünki o məhz şəxsiyyətin varlıq forması, özünüreallaşdırması üsulu kimi çıxış edir(156, s. 92).

Qeyd etmək lazımdır ki, azad seçim təkcə insanın daxili aktı deyildir. Onun mənbələri təkcə insanın özündə deyil, həm də ətraf dünyadadır. Çünki insanın mahiyyətini onun «Mən»i ilə qeyri»Mən»inin məcmusu təşkil edir. Bundan əlavə azad seçim fərdin məqsədyönümlüyünü də özünə daxil edir. Sonra, azad seçim özündə idrakı, həm də iradi aktları əhatə edir. Buna görə də ona fərdin bütöv mahiyyəti və eləcə də onun obyektiv gerçəklik ilə, cəmiyyət və digər fərdlərlə münasibəti kimi yanaşmaq lazımdır. Ətraf gerçəkliyin dəyişdirilməsinə aid olan sosial əhəmiyyətli seçim nəticəsində əsas dəyişikliklərə «qeyri-Mən» uğrayır, bu prosesdə «Mən» demək olar ki, sabit qalır. Beləliklə bu iki tərəf arasında ayrılıq və ziddiyət özünü göstərir. Onları aradan qaldırmağın başlıca yolu yenilməmiş sosial şəraitə uyğun olaraq fərdin özünün də dəyişdirilməsidir. Əlbəttə bu sonuncu proses zaman baxımından bir qədər gec baş verir.

Beləliklə şəxsiyyətin azad seçimində onun daxili «Mən»i ilə qeyri «Mən»i bir-birilə əlaqədə iştirak edir. Bu tərəflərin vəhdəti təkcə şəxsiyyətin idrakı hərəkətində deyil, həm də iradi hərəkətlərində özünü göstərir.

Eyni zamanda nəzərdə tutmaq lazımdır ki, şəxsiyyətin öz «Mən»i də daxilən mürəkkəbdir, burada müxtəlif meyllər vardır. Başlıca olaraq iki bir-birinə əks istiqamətlənmiş meyil daha aydın nəzərə çarpır. Onlardan birincisi, şəxsiyyətin başqa fədlərlə emosional yaxınlıq əldə etmək cəhdində ifadə olunur. İkinci meyil

isə budur ki, o həmişə özünün əlahiddəliyini qoruyub saxlamaq arzusunda olur. Buna görə də müstəqilliyə, azadlığa, öz şəxsi ləyaqətini artırmağa can atır (50, s. 322).

Hər bir cəmiyyətdə əldə olunmuş azadlığın real səviyyəsini müəyyənləşdirərkən aşağıdakı iki məqam xüsusi qeyd olunmalıdır. Əvvəla, hər bir dövrdə fərd mövcud zərurəti ifadə edən mümkün davranış variantlarının konkret növünü seçməkdə müstəqil hərəkət edir, yəni azad olur. Digər tərəfdən, şəxsiyyət öz məqsədlərini müəyyən edərkən və onları reallaşdırmaq üçün yolları və vasitələri seçərkən azaddır.

Yuxarıda söylənilən müddəaları əldə rəhbər tutmaqla qeyd edilməlidir ki, müasir  şəraitdə də şəxsiyyət azadlığı konkret, yəni başqa dövrlərdə olduğundan fərqlənən məzmun kəsb edir. İndi cəmiyyətin xarakteri, ümumi inkişaf səviyyəsi, real həyata keçirilən əsaslı dəyişikliklər, qarşıya qoyulan vəzifələrin mahiyyəti şəxsiyyət azadılğı anlayışını prinsipcə yeniləşdirir, onu məzmun etibarilə daha da zənginləşdirir. Təhlil sözügedən prosesin iki başlıca səbəbini aşkar etmək imkanı verir: birincisi, son dövrdə dünya miqyasında gedən qlobal siyasi proseslər fonunda azadlıq dəyərinin nüfuzu qeyri-adi dərəcədə yüksəlir, ona diqqət və maraq güclənir. Bütün bunların nəticəsində insanlarda azadlıq haqqında əvvəlki dövrlərdə, xüsusilə də totalitar rejimin mövcudluğu şəraitində qərarlaşmış təsəvvürlərin və dəyərlərin tamamilə yeni tərzdə mənalandırılması baş verir. İkincisi, Sovetlər Birliyi dağılandan sonra onun ərazisində yaranan müstəqil dövlətlər tədricən inzibati-amirlik sisteminin azadlıq qarşısında qoyduğu məhdudiyyətləri və maneələri aradan qaldırmağa başladılar. Burada dekmokratik cəmiyyətin əsaslarının yaradılması gedişində ictimai həyatın bütün sahələrində şəxsiyyətin azad fəaliyyət

göstərməsi üçün real şərait yaranır və böyük imkanlar açılır. Həmin ölkələr sırasında Azərbaycan özünəməxsus yer tutur. Milli müstəqilliyin ilk dövründə burada artıq demokratik, dünyəvi, hüquqi dövlət yaradılması qarşıda duran əsas strateji məqsəd kimi elan edildi. Həmin müddətdən keçən dövr ərzində ictimai həyatın bütün sferalarında və tərəflərində baş verən əsaslı dəyişikliklər prosesində cəmiyyətimiz bu məqsədə doğru uğurla irəliləməkdədir. Deməli, müasir cəmiyyət quruculuğu dövründə qərarlaşan yeni siyasi, iqtisadi, sosial və mənəvi münasibətlər onlara müvafiq surətdə azadlığın real səviyyəsinin inkişafını şərtləndirir. Qeyd etmək lazımdır ki, bu proses lokal xarakter daşımır, bütün postsovet respublikaları üçün səciyyəvidir. Bu məqamı xüsusi qeyd edərək R.Darendorf yazırdı: «Marksist ritorika bu gün dəbdə deyildir. Sosializmin azadlıq forması deyil, köləlik olduğu aşkara çıxdı. Bu köləliyin ən pis formada şəxsi diktatura-stalinizm kimi, ən yaxşı halda isə korrupsiyaya uğramış həris əllərin nomenklaturası-brejnevçilik variantında həyata keçirildiyi sübut olundu. Beləliklə azadlığa gedən yol inzibati mərkəziyyətçiliyin tam əksini ifadə edən, daha açıq dövlətlərə və cəmiyyətlərə doğru gedən yoldur» (81, s. 69).

İctimai həyatın əsaslı transformasiyası şəraitində şəxsiyyət azadlığı fenomeni prinsipcə yeni məzmunla tamamlanır, daha dolğun mahiyyət kəsb edir. Müstəqil dövlətimizin Konstitusiyasında vətəndaşlara verilən geniş miqyaslı azadlıqlar hüquqi cəhətdən təsbit olunmuşdur. Onların sırasında aşağıdakılar xüsusilə mühümdür: söz, mətbuat azadlığı, təşkilatlarda könüllü birləşmək azadlığı, iqtisadi fəaliyyət azadlığı, mülkiyyət azadlığı, şəxsiyyətin şərəf və ləyaqətinin toxunulmazlığı və s. Müasir şəraitdə azadlığın sahələri və növləri ilə yanaşı həm də

onun daxili məzmunu inkişaf edir və zənginləşir. Söhbət şəxsiyyət azadlığının aşağıdakı struktur ünsürlərinin genişlənməsindən gedir: dərk etmənin səviyyəsi, biliklərə yiyələnmə azadlığı, mənəvi seçim və qərar qəbul etmə azadlığı, düzgün motivləşdirilmiş davranışlar və hərəkətlər edilməsi, özünüifadə və özünütəsdiq etmə azadlığı. Demokratikləşmənin genişləndiyi indiki şəraitdə şəxsiyyət azadlığına mane olan bir sıra amillər, o cümlədən şüurda ikili standartların özünün göstərməsi (yəni şəxsiyyətin ailədə öz yoldaşları arasında bir cür, rəsmi işdə isə bunun tam əksinə hərəkət etməsi) aradan qalxır. İctimai həyatın bütün sahələrində fikir pluralizminə və tolerantlığa geniş meydan açılması buna şərait yaradır. (221, s. 57)

Müasir dövrdə şəxsiyyət azadlığı anlayışının məzmununda baş verən çox mühüm yeniliklərdən biri, onun digər sosial dəyərlər ilə (birinci növbədə işə milli müstəqillik, humanizm və sosial ədalət) qarşılıqlı əlaqələrinin daha da möhkəmlənməsi və çox vaxt onlarla qovuşmuş halda çıxış etməsi təşkil edir. İndi cəmiyyətdə özünü göstərən əsaslı dəyişikliklər və yeniləşmələr zəminində hər bir konkret şəraitdə bu və ya digər məsələ barəsində seçim ilə bağlı bir konkret şəraitdə bu və ya digər məsələ barəsində seçim ilə bağlı irəli sürülən alternativlər, mümkün variantlar daha da genişlənir, dəqiqləşir və zənginləşir. Şəxsiyyət öz maraq və məqsədlərinə, dünyagörüşünə, mədəni inkişaf və təhsil səviyyəsinə, daxili yetkinlik səviyyəsinə uyğun olan azad seçim imkanlarına malik olur. O, müvafiq seçimi etməkdə azad hərəkət edə bilir. Bu isə onun məsuliyyətini və iradə azadlığına malik olduğunu göstərir. Sonuncu məqama xüsusi diqqət yetirərək E.From göstərirdi ki, fərdin konkret iradə azadlığı əsasdır, çünki ümumi mənada götürdükdə azadlıq mücərəddliyə gəlib çıxır və həllolunmaz

problemə çevrilir. Onun fikrincə hər bir insanda xeyirxahlıq və bədxahlığa yönələn meyllər vardır. Bu meyillər bərabər səviyyəli olduqda, fərd onlardan birini seçə bilir. Əks halda, yəni onlardan biri güclü olduqda, azad alternativ seçimə yer qalmır, çünki bu halda seçim güclü meylin təsiri altında baş verir (237, s. 89).

Müasir dövrdə şəxsiyyət azadlığında özünü göstərən digər bir yenilik bundan ibarətdir ki, hazırda o təkcə hisslərə və daxili emosiyalara arxalanmır, daha çox şüurun yüksək pilləsi, rasional, intellektual səviyyə ilə əlaqədardır. Bu meyl çox mühümdür, çünki şəxsiyyət tərəfindən azadlığın məzmun və mahiyyətinin daha dolğun və adekvat mənalandırdığını sübut edir. Əlbəttə, bu uzun davam edən prosesdir, onun ani olaraq getdiyini iddia etmək sadəlövhlük olardı. Belə ki, indinin özündə də bəzi hallarda fərdin azad seçimi yüksək şüurluğa deyil, müəyyən emosiyalara və təsadüflərə əsaslanır. Bu halda azadlığın mahiyyəti təhrif olunmuş şəkildə ifadə oluna bilir. Deyilənlər sübut edir ki, şəxsiyyətin yüksək şüurluluq və zəka səviyyəsinə, intellektual bazaya əsaslanan təsəvvürləri onun emosional pillədə, spontan şəkildə yaranan təsəvvürlərindən özünün düzgünlüyü və həqiqiliyi ilə fərqlənir (12, s. 21).

Deməli müasir dövrdə şəxsiyyət azadlığının özü də bir yerdə dayanıb durmur, daim inkişafda və təkmilləşməkdədir. Bu proses təkcə daxili amillər hesabına (iradi aktların təkmilləşməsi, daxili motivasiyanın inkişafı və s.) baş vermir. Onun gedişində xarici amillər (şəxsiyyəti əhatə edən sosial mühitin dəyişilməsi, ünsiyyət münasibətlərinin təkmilləşməsi və s.) çox mühüm rol oynayır. Əslində sözügedən proses yuxarıda qeyd olunan daxili və xarici amillərin birgə təsiri altında baş verir. XX əsrin məşhur filosofu A.Şveyster bu iki tərəfin bir-birindən ayrılmazlığını qeyd edərək

göstərir ki, mənim arzularım və əməllərim, onlarda təkcə mənim deyil, həm də digər insanların məqsədləri və həyatının mənası ilə uzlaşdığı dərəcədə dəyərlidir (246, s. 78).

Yuxarıda deyilənlər sübut edir ki, şəxsiyyət azadlığının inkişafı bir tərəfdən xarici mühitin, sosial şəraitin dəyişilməsinin, digər tərəfdən isə şəxsiyyətin daxili yetkinliyinin, yüksəlişinin təsiri altında baş verir. Qeyd olunmalıdır ki, bu iki qrup (daxili və xarici) amillərin təsiri bərabər səviyyəli deyildir. Belə ki, burada ikinci tərəf çox vaxt daha güclü təsirə malik olur. Şəxsiyyətin daxili göstəriciləri isə nisbətən ləng inkişaf edir. Lakin müasir cəmiyyətdə ictimai həyatın bütün sferalarında baş verən əsaslı dəyişikliklər həm də şəxsiyyətin daxili azadlığının inkişafına sürətləndirici təsir göstərir. Əsaslı islahatlar bütövlükdə açıq cəmiyyətin əsaslarını möhkəmləndirməklə yanaşı, həm də şəxsiyyətin real azadlıqlarına və azadlıq şüurunun inkişafına güclü təkan verir.

Sovet rejimi dövründə sözdə və rəsmi sənədlərdə hər bir insana azadlıq verildiyi, onun sərbəst fəaliyyətinin təmin olunduğu haqqında bol-bol danışılırdı. Əslində isə o dövrdə azadlıq formal xarakter daşıyırdı. Çünki totalitar quruluş, onun qüdrətli inzibati-amillik aparatı şəxsiyyəti ictimai mexanizmin bir ünsürünə çevirmişdi. Yalnız milli müstəqillik şəraitində şəxsiyyət azadlığı özünün adekvat nəzəri və praktiki mənasını kəsb etməyə başlamışdır. Bununla yanaşı həmin dövrün xarakterinin, burada şəxsiyyət azadlığının reallaşması yolunda müəyyən çətinlikləri, maneələri və ziddiyətləri şərtləndirdiyi də nəzərdən qaçırılmamalıdır. İndi azadlıq özünün ecazkar qüvvəsi ilə hamını özünə cəlb edir, lakin bəziləri bilmir ki, azad yaşamaq və fəaliyyət göstərmək müəyyən gərginliklər, seçim etmək təşəbbüsü və öz

hərəkətləri üçün cavabdehlik hissinə malik olmaq deməkdir. Bununla əlaqədar məqamları məşhur politoloq A.Tokvil özünün aşağıdakı fikrində də çox sərbəst ifadə etmişdir:

«Azad yaşamağa öyrənməkdən çətin heç nə yoxdur» (215, s. 372).

Müasir elmin nailiyyətləri sübut edir ki, insanın mahiyyəti və simasına təbii aləm və təbiət qanunları çox güclü təsir göstərir. Bununla əlaqədar insanın davranışında şüuraltı, psixi amillərin rolu daha da artır. Buradan aydın olur ki, təbiətin fundamental qüvvələrinin dərindən və hərtərəfli aşkar edilməsi ilə insanın təfəkkürünün dəyişilməsi arasında əlaqələr güclənir, sonuncu isə insan azadlığının özülündə duran çox mühüm amildir. Bu məqamı yüksək qiymətləndirilən bəzi təbiətşünaslar açıqca yazırlar ki, biologiya, kimya və fizika olmadan insanın təfəkkürü də qeyri-mümkündür (240, s. 163).

Şəxsiyyət azadlığının müasir anlamını səciyyələndirərkən, onun xüsusi mülkiyyət ilə münasibətlərinə də diqqət yetirmək zəruridir (xüsusən də postsovet respublikalarının və o cümlədən də Azərbaycanın reallığı baxımından). Marksizm bu iki anlayışın bir arada olmasını qeyri-mümkün sıyırdı. Son dövrün tarixi sübut edir ki, xüsusi mülkiyyətə qarşı bu cür ağır ittihamlar irəli sürmək əsassızdır. Müasir cəmiyyətin əsaslarının yaradılması, bazar iqtisadiyyatının formalaşması təcrübəsi göstərir ki, azadlıqla yanaşı xüsusi mülkiyyət də fərd üçün zəruri keyfiyyətdir. Bununla belə cəmiyyətdə xüsusi mülkiyyətin rolunu həddən artıq şişirdən və onun insan azadlığının yeganə əsası hesab edən baxışlara da (məsələn, Z.Bzejinskiy və başqaları) haqq qazandırmaq olmaz. Çünki əgər birinci baxış (yəni xüsusi mülkiyyət ilə azadlığın bir-birini istisna etməsi) sol ifrat həddi göstərirsə, ikinci mövqe sağ

ifrat həddi ifadə edir. Fikrimizcə bu iki anlayışın (xüsusi mülkiyyət və azadlıq) münasibətlərini normal hüdudlar çərçivəsində qəbul etmək daha məqsəduyğundur. Belə ki, xüsusi mülkiyyətə həddən artıq meyil göstərmək, var-dövlət qazanmaq hərisliyi şəxsiyyət tərəfindən bir sıra insani keyfiyyətlərə, o cümlədən azadlığa məhəl qoyulmaması ilə nəticələnə bilir. Digər tərəfdən, insanın normal fəaliyyət göstərməsi, onun yaradıcı potensialının və mənəvi tərəqqisinin və ümumilikdə azadlığının təmin edilməsi üçün müəyyən miqdarda xüsusi mülkiyyətin olması lazımdır. O, insanın mövcud ictimai quruluşun inkişafı səviyyəsini şüurlu və düzgün qiymətləndirə bilməsinə və şəxsi azadlığını həyata keçirə bilməsinə mühüm köməklik göstərir. Beləliklə, mülkiyyət, o cümlədən xüsusi mülkiyyət şəxsiyyətin fəaliyyətinin əsasında duran yeganə amil deyildir. Həqiqi şəxsiyyətin nəzərində mənəvi insani keyfiyyətlər (öz imkanlarına inam, mənəvi kamilləşmə və s.) daha üstün yer tutur.

Məşhur psixoloq D.Uznadze yazırdı: «İnsanın şüurlu mənəvi həyatı onun ümumi psixiki aktivliyinin yalnız cüzi bir hissəsini təşkil edir. bununla yanaşı psixiki həyatın ikinci və özü də birincidən az əhəmiyyət kəsb etməyən sahəsi vardır ki, o şüuraltı və qeyri-şüuri sahə adlanır. Bu sahə bizim psixikamızın ümumi aktivliyinin əhəmiyyətli hissəsini əhatə edir» (212, s. 8).

Şəxsiyyətin mənəviyyatının hər iki səviyyəsi onun azadlığı ilə sıx qarşılıqlı əlaqədədir. Bu münasibətdə P.Şteynerin aşağıdakı fikri diqqəti cəlb edir:

«Mənəviyyat spesifik insan xassəsidir, azadlıq isə mənəvi olmağın insana məxsus formasıdır».

Lakin nəzərdə tutmaq lazımdır ki, mənəviyyatın spesifik insanı keyfiyyət olmasına baxmayaraq, azadlıq təkcə onunla

məhdudlaşmır, o daha geniş məna kəsb edir. Bu mənada yüksək mənəviyyat əsl azadlığın çox zəruri tərəfi olsa da, yeganə tərəfi deyildir. Azadlıq yuxarıda qeyd olunduğu kimi, daha mürəkkəb tərkibli olub, özündə azad iradəni, seçimi və real hərəkəti əhatə edir. Bununla birlikdə göstərilməlidir ki, mənəviyyat və azadlıq bir-birindən ayrılmazdır. Onların ikisi birlikdə şəxsiyyətin xoşbəxt həyatının təmin edilməsinin özəyi rolunu oynayır.

Şəxsiyyətin azadlığının genişlənməsi onun fəallığını artırır, mədəniyyətini yüksəldir, onun yaradıcı potensialının bütün dərin qatlarını hərəkətə gətirir, üzə çıxarır və dolğun reallaşmasını təmin edir. O, insanın elə bir mənəvi vəziyyətidir ki, o fərdin maraq və mənafelərini, iradəsini bütöv bir tam kimi götürür, onları qarşıda duran məqsədə nail olmağa tam səfərbər edir.

Beləliklə şəxsiyyət azadlığı probleminin müasir dövr prizmasında təhlili aşağıdakı nəticələrə gətirir:

Əvvəla, şəxsiyyət azadlığı müasir dövrün ən kəskin və çox diqqət çəkən problemlərindəndir. Özündə son dərəcə müxtəlif cəhətləri və tərəfləri əhatə edən bu problemin indiki dövrdə dünyada gedən qlobal proseslər, habelə ölkəmizdə reallaşmaqda olan əsaslı transformasiyası, bütövlükdə cəmiyyətin habelə hər bir şəxsiyyətin azadlığına yeni məzmun və mahiyyət verir. Sonra, şəxsiyyət azadlığının əsasını onun həyat fəaliyyətinin bütün sahələrində və davranışında sərbəst yaradıcı seçim, düzgün qərarın qəbulu və yerinə yetirilməsi təşkil edir.

Bu prosesdə onun şüuru və bilikləri, şüuraltı və intuitiv tərəflər vəhdətdə özünü göstərir. İndi şəxsiyyət azadlığı ilə cəmiyyət azadlığı arasında əlaqələr, onların qarşılıqlı təsiri və vəhdəti əvvəllərdə olduğundan daha möhkəmdir. Başqa sözlə deyilsə, təkcə cəmiyyətin tərəqqisi şəxsiyyətin azadlığının mühüm

şərti rolunu oynamır, eyni zamanda şəxsiyyətin azadlığı və tərəqqisi də ümumi ictimai inkişafın çox güclü amillərinə çevrilir.

## 4.2. Müasir şəxsiyyət və azad seçim

Şəxsiyyət azadlığının yeni anlamı həm də bununla şərtlənir ki, hazırda insanların tələbatları, mənafe və maraqları, istəkləri də ciddi surətdə yeniləşir. Onların hər birində şəxsiyyətin ətraf düynyaya və cəmiyyətə qarşı irəli sürdüyü tələblər ilə yanaşı, həm də özünə verdiyi tələblər (öz intellektlik səviyyəsinə, mənəvi və mədəni yetkinliyinə, fiziki keyfiyyətlərinə verdiyi tələblər) geniş yer tutmağa başlayır. Şəxsiyyətdə təkcə dünyanı deyil, həm də özünü qiymətləndirməyə ümumi tələbat yaranır (25, s. 258-259).

Müasir şəxsiyyətin azad seçimi və fəaliyyəti mexanizmində təfəkkür amilləri və sövqedicilər çox mühüm rol oynadığı üçün onları xüsusi təhlil etmək son dərəcə zəruridir. Onların sırasında tələbatlar, motivlər, intiusiya, iradə, ustanovka, mənafelər, məqsəd və ideallar mühüm yer tutur. Hələ vaxtilə Hegel göstərirdi ki, tarixə yaxından nəzər saldıqda biz əmin oluruq ki, insanların fəaliyyəti, onların tələbatlarından, ehtiraslarından və maraqlarından irəli gəlir. Yalnız onlar «sövqedici motivlər kimi bu dramda əsas rolu oynayırlar» (67, s. 20).

Fəlsəfi ədəbiyyatda şəxsiyyətin keyfiyyətlərini müəyyən edən əsas cəhətlər sırasında onun təfəkkürünün tərkib hissələrinin (baxış və qabiliyyətləri, dərk olunmuş tələbatları maraqları, əxlaqi əqidələri və.s) xüsusi rol oynadığı qeyd olunur. Bu münasibətdə «Fəlsəfə lügəti»ndə öz əksini tapmış aşağıdakı fikir səciyyəvidir: «Şəxsiyyətin təbii əsaslarını onun bioloji xüsusiyyətləri təşkil etməsinə baxmayaraq, onun inkişafının (onun mahiyyət əsasları) müəyyənedici amillərini təbii keyfiyyətlər (məsələn, bu və ya digər ali əsəb fəaliyyəti tipinə malik olması) deyil, məhz sosial əhəmiyyətli keyfiyyətləri (əxlaqi və s.) təşkil edir» (230, s. 238).

Buradan aydındır ki, müasir şəxsiyyətin azadlığının mahiyyəti və təbiətini açmaq üçün təfəkkürü ilə bağlı əsas məsələləri nəzərdən keçirmək tələb olunur. Yalnız bu halda şəxsiyyətin azadlığının təmin olunmasında və inkişafında təkcə təfəkkürün və biliklərin deyil, həm də hissi və qeyri-rasional elementlərin mühüm rolu haqqında hərtərəfli təsəvvür yaranar. Qeyd edək ki, bu problem fəlsəfi fikir klassiklərindən olan İ.Kantın elmi yaradıcılığında daha geniş işlənmişdir. O, şüurun sintezləşdirici fəaliyyətində, onun dərkedici qabiliyyətində hissi tərəf ilə dərrakəni ayrılmaz vəhdətdə götürürdü. Bu münasibətdə rasionalın və sensualizmin birtərəfli mövqelərinə qarşı çıxırdı. Bunu onun aşağıdakı fikri də sübut edir:

«Hissiyat olmadan bizə heç bir predmet bəlli olmazdı, ...dərrakəsiz fikirləşmək, qeyri-mümkündür. Məzmunu olmayan fikirlər boş şeydir, anlayışlarsız müşahidə isə kordur» (111, s. 155).

Göründüyü kimi Kant idrakda, dərketmədə və təfəkkür prosesində hisslər ilə dərrakənin iradənin və anlayışların vəhdətdə götürülməsinə müstəsna yer verir, onu zəruri hesab edirdi. Bununla yanaşı, o, intuisiyanın roluna da geniş diqqət yetirirdi. Onun fikrincə intuitiv qabiliyyət idrakın istənilən istiqamətdə hərəkətində onu müşayət edir (78, s. 55).

Hegel də təfəkkür ilə qeyri-şüuri proseslərin, o cümlədən iradənin sıx əlaqəli olduğunu qeyd edirdi. O yazırdı: «Təfəkkürsüz heç bir iradə ola bilməz, ən savadsız adam belə hansı səviyyədə fikirləşsə, yalnız o səviyyədə iradi şəxs kimi çıxış edir» (68, s. 311).

Bununla əlaqədar qeyd edək ki, intuisiyanın və iradənin müasir anlamı Kantın və Hegelin dövründə olduğundan müqayisə edilməz dərəcədə dəqiqləşmiş və inkişaf etmişdir. Həmin anlayışın bugünkü məzmunu onun təfəkkür prosesində müstəsna rolunu bir

daha sübut edir. Hazırda intuisiyanın iki növə (hissi və intellektual) malik olduğu fikri geniş yayılmışdır. Bu anlayışın məzmununda şüur hadisələri ilə qeyri-şüuri instiktlər çulğalaşmış vəhdətdə çıxış edir. Bu məqamı xüsusi qeyd edərək A.Spirkin yazır:

«İntuisiya yarıminstiktiv şüurdur, bununla birlikdə o, adı şüurdan yüksəkdə durur və öz idrakı gücünə görə fövqəlşüur mahiyyətinə malikdir». (203, s. 514)

İntuisiyada şüuraltı ünsürlər (qeyri-şüur ilə əsl şüur arasındakı hadisələr), dərk olunmamış psixiki proseslər çox böyük yer tutduğu üçün, onların bu və ya digər obyektin mahiyyətinə bütöv şəkildə (yəni onu analiz etmədən) nüfuz etmək imkanı vardır. Buna görə də onlar idrakda çox vaxt sözün əsl mənasında götürülən şüuru qabaqlayır. İnsanın təfəkkürü intrutiv qabiliyyətə arxalanmaqla, obyektlərin cismani-ruhi təşkilinin dərin qatlarına nüfuz edə bilir. Əslində intuisiyanın qeyri-şüuri pillədən şüur səviyyəsinə gedən yolu və biliklər əldə edilməsində müstəsna dərəcədə böyük rolu bundadır ki, o insan fərdiyyətinin özünəməxsus təbiətini, onun iradəsini, hisslərinin və şüurunun spesifikliyini və təkrarsızlığını ifadə edir.

Beləliklə təfəkkür prosesində qeyri-şüuri hadisələr və intuisiya çox əhəmiyyətə malikdir. Onlar həm də insanın nəzəri və praktiki fəaliyyətinin, bütövlükdə həyat tərzinin zəruri ünsürüdür. İntuisiya qeyri-şüuri və şüur hadisələri ilə sıx qarşılıqlı təsirdə və vəhdətdə çıxış edərək şəxsiyyət azadlığının məqsədyönlü formalaşması və inkişaf etməsinə güclü təsir göstərir. İntuisiyanın qnoseoloji və psixoloji səpkidən təhlili sübut edir ki, əgər insanın elmi təcrübəsi, məntiqi mühakimə yürütmək qabiliyyəti, psixoloji keyfiyyətləri və praktiki vərdişləri nə qədər çoxdursa, şəxsiyyətin

intuisiyası da bir o qədər yüksək olur. İntuisiya elm ilə müqayisədə bir qədər başqa qnoseoloji təbiətə malikdir. Onda hissetmə, emosiyalar və əqli nəticələr ilə yanaşı dərk olunmamış hadisələr də iştirak edir. Yeni bilik əldə etməyin dərk olunmayan mexanizmləri isə özünəməxsus xarakter daşıyır. Onlar hissi obrazlardan anlayışlara keçidi, eynilə də onun əksi olan prosesi, yəni anlayışlardan hissi obrazlara keçidi əhatə edirlər (48, s. 93-94).

Yuxarıda deyilənlərdən aydın olur ki, təfəkkür insanın mahiyyətinin və fəaliyyətinin, o cümlədən onun azad seçiminin başlıca göstəricilərindəndir. İnsanın təfəkkürü nə qədər yüksəkdirsə, onun ümumi yetkinlik dərəcəsi və azadlıq səviyyəsi də bir o qədər yüksək olur. İnsan təfəkkürü çox mürəkkəb fenomendir: burada şüur hadisələri, müşahidələr ilə qeyri-şüuri və intuitiv proseslər, hətta mexaniki və avtomatik proseslər heyrət ediləcək dərəcədə incəliklə bir-birilə qovuşur. Bütün bunlar isə nəticə etibarilə şəxsiyyətin praktiki fəaliyyətinə və təbii ki, onun azadlığının miqyaslarına güclü təsir göstərir.

Qeyd etmək lazımdır ki, şəxsiyyətin azad seçimi və azad fəaliyyəti güclü sövqedici ustanovkalar ilə bağlıdır. Ustanovkalar nəzəriyyəsinin banilərindən olan D.Uznadze onu belə səciyyələndirmişdir:

«Bu və ya digər tələbatların və onu ödəmək üçün sitiusiyanın mövcud olduğu şəraitdə, subyektdə müəyyən fəaliyyət göstərmək üçün spesifik hazırlıq vəziyyəti yaranır ki, onu aktual tələbatı ödəməyə yönəlmiş ustanovka kimi səciyyələndirmək olar» (219, s. 170).

İnsanın fəaliyyətinə sosial psixoloji baxımdan nəzər saldıqda, burada iki səviyyəni ayırmaq olar: birinci səviyyə, impulsiv davranışı, yəni əsasən aktual bioloji tələbatların

ödənilməsini əhatə edir. Bu halda davranış dərk olunmur və qəbul olunmuş qərar mənalandırılmır (belə davranış tərzi təkcə insanda deyil, bütün canlılarda özünü göstərə bilir), ikinci səviyyə bununla əlamətdardır ki, burada fərd tərəfindən xarici şəraitin, onu əhatə edən mühitin dərki, anlaşılması baş verir. Beləliklə bu mərhələdə obyektivləşdirmə aktına (mühitin insanın şüurunda əks olunması) əsaslanan iradi davranış özünü göstərir.

Təfəkkür prosesində informasiyanın qəbulu, işlənilməsi və yeniləşdirilməsi ilə bağlı həm dərk olunmuş, həm də dərk olunmamış tərəflər geniş yer tutur. Ustanovkalar sonuncu tərəfin əsasında durur. Onlar əvvəllərdə analoji vəzifələrin həlli prosesində qazanılmış təcrübə əsasında formalaşır və bir neçə dəfə təkrarlanma gedişində möhkəmlənməklə, eyni bir informasiya sahəsi çərçivəsində insanın axtardığı obrazları və anlayışları tapmaqda mühüm köməklik göstərirlər. Həm də nəzərdə tutulmalıdır ki, bu prosesdə ustanovkaların özü də həlli nəzərdə tutulan vəzifələrin xarakterindən, yaradıcı fəaliyyətin baş verdiyi konkret şəraitdən, habelə şəxsiyyətin özünün yetkinlik səviyyəsindən, inkişaf sürətindən asılı olaraq dəyişilir. Vaxtını keçirmiş və əhəmiyyətini itirmiş ustanovkalar yeni və daha effektivləri ilə əvəz olunur.

İnsan özünü onu əhatə edən mühitdən ayırmaq, öz hərəkətlərini obyektivləşdirmək qabiliyyətinə malik olduğu üçün «aktual-tələbat impulsunun məcburiyyətindən azad olmaq imkanı əldə edir». Beləliklə də o öz gələcək davranışı haqqında məsələni irəli sürür, yəni özünü necə aparmalı olduğunu müstəqil surətdə həll edir» (220, s. 247).

Qeyd olunan fərqliliyinə baxmayaraq  yuxarıda göstərilən iki səviyyə real davranış prosesində bir-birilə sıx qarşılıqlı əlaqədə

və təsirdə çıxış edir. Hətta bəzən onlar sıx culğalaşırlar. Bu vəziyyət daha çox keçmiş təcrübəyə, möhkəmlənmiş ustanovkalara əsaslanan davranış hallarında özünü göstərir (çünki bu halda ustanovka ilə davranış motivləri əsasən üst-üstə düşür).

Fərdin ustanovkaları bəşəriyyətin ictimai-tarixi təcrübəsi və onun öz şəxsi təcrübəsi əsasında yaranır. Onlar bir-birilə və mövcud ətraf, sosial gerçəklik ilə birlikdə fərdin şüurunda özünün müvafiq inikasını tapır. Tez-tez təkrar olunan və şəxsi baxımdan daha çox əhəmiyyət kəsb edən ustanovkalar insanın beynində daha möhkəm yer tutur.

İnsanın idrakı və praktiki fəaliyyətində ustanovkaların xüsusi yeri bundadır ki, onların məzmunu emosional və məna xarakterli şüuraltı formaları əhatə etməklə bir növ şəxsiyyətin aktivliyini hazırlayır. Ustanovkalar həm şüurlu, həm də qeyri-şüuri proseslərdən, habelə insanın praktiki fəaliyyətindən əvvəl gələrək, onun hazırlanmasında mühüm rol oynayır. Görkəmli psixoloq Ş.A.Nadiraşvili göstərirdi ki, «ustanovka təfəkkür prosesinin və ümumiyyətlə hər cür fəaliyyətin məqsədyönlü getməsini təmin edir» (47, s. 117).

Elmi psixoloji ədəbiyyatda ustanovkaların iyerarxiyalı strukturu A.N.Leontyev və A.Q.Asmalov tərəfindən açılıb göstərilmişdir. Onlar burada nisbi müstəqil hərəkətlərin (məqsədlərin) əməliyyatların, vasitələrin və icraçıların olduğunu qeyd edirlər (470, s. 152).

Beləliklə, ustanovkalar subyekt ilə obyektiv gerçəkliyin qarşılıqlı təsirinin psixoloji mexanizmində çox mühüm tərkib hissə kimi çıxış edir. Digər tərəfdən onlar şəxsiyyətin müəyyən istiqamətləndirilməsi və yönümünü bazası hesab olunur. İnsanın obyektivləşmə qabiliyyəti nəticəsində işlənib hazırlanan sabit

ustanovkalar sistemi onun biliklərinə, əqidəsinə, istək və qabiliyyətlərinə, emosiyalarına əsaslanmaqla, şəxsiyyətin öz azad seçimini müəyyən etməsində böyük rol oynayır. Çünki şəxsiyyətin azad və azad fəaliyyəti onunla cəmiyyət arasında qarşılıqlı təsirin özünəməxsus səpkisidir. Şəxsiyyət bütün ömrü boyu tez-tez seçim etməli və qərar qəbul etməli olur. Bu halda o heç vaxt cəmiyyətdən ayrı olmur, əksinə hər dəfə onunla cəmiyyət arasında yeni-yeni əlaqələr meydana gəlir. Deməli, şəxsiyyət azadlığının mühüm bir əsasını ictimai və şəxsi mövqelərin əlaqələndirilməsi təşkil edir.

Yuxarıda deyilənlərdən aydın olur ki, ustanovkalar tələbatlar ilə qidalanaraq, intuisiyanın həm hissi və həm də intellektual mərhələlərinin zəruri əsası kimi çıxış edir. Buna görə də ustanovkaların bütün növləri (şüuraltı, intuitiv, şüurlu, praktiki və s.) şəxsiyyətin davranışının tənzimlənməsinə kömək edir (qeyri-şüuri, intruitiv və şüurlu səviyyələrdə) onun hərəkət və əməllərinə, bütövlükdə həyat fəaliyyətinə və azadlığına güclü stimulaşdırıcı təsir edir.

Ümumilikdə şəxsiyyətin sintetik təfəkkürü onun azadlığının zəruri şərti olmaqla, öz məzmununda şüurlu və qeyri-şüurlu prosesləri, onlarla sıx bağlı olan tələbatları birləşdirir. Bütün bunlar qarşılıqlı təsirdə və vəhdətdə çıxış edərək şəxsiyyətin davranışı və fəaliyyətinin sərt və birbaşa determinasiyasını aradan qaldırır, onun fərdi qabiliyyətlərini və yaradıcılıq üfüqlərini genişləndirir.

Lakin nəzərdə tutmalıdır ki, sintetik təfəkkür şəxsiyyətin azadlığı üçün nə qədər böyük əhəmiyyətli yer tutsa da, o burada yeganə amil deyildir. Onunla yanaşı şəxsiyyətin əqli-psixoloji keyfiyyətləri və fiziki qabiliyyətləri də bu prosesdə mühüm əhəmiyyətə malikdir. Buna görə də müasir şəxsiyyətin azadlığının

təmin edilməsi təkcə onun əqli-psixoloji kamillik dərəcəsindən deyil, həm də fiziki mükəməlliyindən asılıdır. Bəzən sonuncu məqama lazımi əhəmiyyət verilmir ki, ona heç cür bəraət qazandırmaq olmaz. Şəxsiyyətin fiziki cəhətdən qüsurlu olması onun əqli və yaradıcı qabiliyyətlərinin üfüqlərini məhdudlaşdırır, onun nəticələrinin effektivliyinə güclü mənfi təsir göstərir. Bu baxımdan yanaşdıqda ölkəmizdə son dövrlərdə əhalinin cansağlığının və fiziki hazırlığının yüksəlməsinə xidmət edən tədbirlərin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Həmin istiqamətdə görülən işlər arasında gənclərin və bütövlükdə də əhalinin bədən tərbiyəsi və idmanla məşğul olması üçün şərait yaradılması daha önəmlidir. Respublikamızda bu sahənin inkişafına göstərilən hərtərəfli qayğı nəticəsində hazırda idman kütləvi forma alır.

Əlbəttə, şəxsiyyətin yaradıcılıq və azadlığının inkişafında fiziki amilin rolunu şişirtmək doğru olmazdı. Bəşər tarixində elə hallar olmuşdur ki, fiziki cəhətdən mükəmməl olmayan, sağlamlığında qüsurlara malik şəxsiyyətlər çox qiymətli elmi nəzəriyyələr, ədəbiyyat və incəsənət nümunələri yaratmışlar. Lakin onlar fiziki cəhətdən sağlam olsaydılar, təbiidir ki, onların yaradıcılığı daha geniş və hərtərəfli olar, bəşəriyyəti daha böyük elm və sənət şedevrləri ilə zənginləşdirərdilər. Fiziki qüsurluluq onların fəaliyyətində (xüsusən də ahıl yaşlarda) kədərli və küskün notları daha çox üzə çıxarır. Əgər əksinə olsaydı, şübhəsiz ki, onların elmi və ya bədii yaradıcılığı bütün ömrü boyu şən və optimist notlar üstə köklənərdi. Yaxşı fiziki hazırlığa malik olmaq insanın gizli və dərin yaradıcılıq potensialını tam dolğunluğu ilə üzə çıxarmaq imkanı verir. Belə imkanların onların reallaşması

zərurəti olduğu halda həyata keçirilməsi şəxsiyyətin azadlığına gücləndiricisi təsir göstərir.

Fiziki cəhətdən tam sağlam olmamaq insanın psixiasına da müəyyən mənfi təsir edir. Belə ki, şəxsiyyətin iradəsini başqasının iradəsinə tabe vəziyyətə salır, bu isə nəticə etibarilə bütövlükdə iradə azadlığını məhdudlaşdırır. Fiziki amillərin bu cür təsiri azad hərəkətin həm nəzəri, həm də praktiki növlərində özünü göstərir. Fiziki kamillik insanda güc, dözümlülük, çeviklik, möhkəm iradə və müdlik kimi keyfiyyətlər formalaşdırır ki, onlar şəxsiyyətin azad əməllərinə genişləndirici təsir göstərir. Əslində o insanın möhkəm maddi və mənəvi özül üzərində inkişafını təmin edir. Lakin onun əhəmiyyəti bununla bitmir. Fiziki yetkinlik insanlar arasında münasibətlərdə psixiki gərginliyi azaldır və beləliklə də şəxsiyyətin azadlığını daha dolğun edir fiziki cəhətdən sağlam şəxsiyyətdə fəa0l yaradıcılıq, yaşamaq və yaratmaq həvəsi tükənməz şəkildə özünü biruzə verir. Bütün bunlar isə şəxsiyyətin fəaliyyətinin müxtəlif sahələrində (birinci növbədə isə iqtisadi fəaliyyətdə) daha yüksək səmərəliliyə gətirib çıxarır. Təsadüfi deyildir ki, hazırda dünyanın ən inkişaf etmiş ölkəsi lan ABŞ-da insanların fiziki sağlamlığı məsələlərinə bütün vəzifələrə keçirilən seçkilərdə xüsusi diqqət yetirilir. Hətta ölkənin prezidenti seçilmək üçün müəyyən fiziki tələblər irəli sürülür. Bu iddiada olan şəxslər yüksək boylu, qamətli, yaxşı görmə qabiliyyətinə malik olmalı, təbəssümlü olmalı, kosmetik əməliyyatlar keçirməməli, mühakimə olunmamış, ailəli olmalı və spirtli içkilərə meyl göstərməməlidir. Görünür ki, amerikalılar bəşəriyyətin tarixi sınağından çıxmış belə bir prinsipi əldə rəhbər tuturlar: «...sağlam bədəndə sağlam ruh olar». Bu qəbildən olan baxışlar aşağıdakı müddəaya arxalanır: Əgər insanın özü sağlamdırsa, onun psixikası

başqalarının fiziki kamilliyinə və gözəlliyinə paxıllıq etmir. Əlbəttə, bəzən bu ümumi prinsipdən kənara çıxma halları da özünü göstərə bilir, yəni sağlam bədəndə sağlam deyil, zərərli və qeyri-sağlam ruh da ola bilir. Lakin bu necə deyərlər ayrı-ayrı istisna halları bu ümumi müddəanın doğruluğunu təkzib etmir.

Şəxsiyyətin şüurlu seçimi onun mövcud şəraitdə obyektiv əsaslardan çıxış edərək, qərar qəbul etməsi və onu yerinə yetirməsi deməkdir. Bu halda o sanki xarici aləmdən davranış nümunəsi əldə edir və həmin nümunə şəxsiyyətin öz qüvvə və tələbatlarından çıxış edərək nəyi istəməsi ilə deyil, şərait haqqında biliyi ilə müəyyən olunur (157, s. 117).

Deməli şəxsiyyətin sərbəst seçiminin əsasında onun iradəsi və zəkası durur. Bu məqamı xüsusi qeyd edərək vaxtilə Aristotel göstərirdi ki, şüurlu seçim əqldən, təfəkkürdən və mənəvi keyfiyyətlərdən kənarda qeyri-mümkündür (32, s. 174).

Qeyd edək ki, iradə mürəkkəb məzmuna malik psixiki fenomendir. Onun tərkibində insanın ehtirasları, arzuları və istəkləri əlaqəli şəkildə çıxış edir. Şəxsiyyətin genetik mənşəli hissi–şüuri qabiliyyətini ifadə edən bu anlayış zəkaya tabe vəziyyətdə olur. Zəkaya tabe olması, tabeçilik, iradənin məhdudlaşdırılması deyil, onun zəka ilə əlaqə və vəhdənin artması ifadə edir. Məhz bunun sayəsində iradə zəkalılıq keyfiyyətinə malik olur və həqiqi azad surətdə çıxış edə bilir. Odur ki, şəxsiyyətin məhz zəka ilə zənginləşmiş iradəsi onun həyat fəaliyyətinin bütün sahələrində azad hərəkət etməsinə köməklik göstərir. Digər tərəfdən, iradə ilə birləşmək zəka üçün də mühüm fayda gətirir. Belə ki, iradədən ayrılıqda götürülən zəka, möhkəm nəzəri bazaya malik olsa da, fəal deyildir, çünki ruhun və hissin coşğunluğundan, həyatilikdən məhrumdur. Zəkalılıq həm də insanın etik keyfiyyətlərini inkişaf

etdirir. Sonunculara malik olan şəxsiyyət isə öz mahiyyətini, təbii, emprik və cismani xassələrini anlayışlar vasitəsilə dərk olunmuş şəkildə və buna görə də ictimai həyat qanunlarına tabe şəkildə ifadə edir. (157, s. 164).

İradə öz təbiətinə görə şüur aktlarını, həm də şüura qədərki mərhələyə xas olan hadisələri (impulsiv istək, meyillilik, avtomatik hərəkətlər, vərdişlər və s.) əhatə edir. Buna görə də o zəka ilə əlaqələndikdə şəxsiyyət daha səmərəli fəaliyyət göstərir. Əks halda, şəxsiyyətin sırf iradi hərəkətləri onun obyektiv tələbatlarını və məqsədini düzgün əks etdirməyə bilir. Belə hallarda həm də şəxsiyyətin təfəkkürü, zəkası köməkçi yer tutur və onun hərəkətlərinə fəal təsir edə bilmir.

Beləliklə iradə sırf nəzəri səviyyə ilə hissi pilə arasında aralıq mövqe tutur. Əgər onda motivlər üstünlük təşkil edirsə, onda o özbaşınalığa yol verir, əks halda, yəni iradə zəka ilə əlaqələndirdikdə daha fəali və azad çıxış edə bilir.

Azadlıq ilə iradə arasında əlaqələr o qədər sıxdır ki, onları obrazlı şəkildə insanın fiziki bədəni ilə onun ağırlığı arasındakı əlaqələrə bənzətmək olar. İnsanın ağırlığı bir növ onun bədəni demək olduğu kimi, iradə də bir növ azadlıq deməkdir. Azadlıq olmayan iradə boş söz yığınına çevrilir, digər tərəfdən azadlıq özü də yalnız iradi keyfiyyət kimi özünü göstərdikdə öz həqiqi formasını alır (65, s. 32).

İradə ilə təfəkkür ruhun nəzəri və praktiki tərəfləri kimi qarşılıqlı surətdə bir-birinə nüfuz edir və bir-birini tamamlayır. Əgər təfəkkür ətraf dünyanı, daha adekvat dərk etməyə kömək edirsə, iradə isə onu dəyişdirməyə cəhd göstərir (156, s. 48-49).

İradə azadlığının təfəkkür və biliklə sıx əlaqəliliyini qeyd edən F.Engels yazırdı:

«İradə azadlığı işi bilmək əsasında qərar qəbul etmək qabiliyyəti deməkdir. Beləliklə insanın müəyyən məsələ barəsində mühakimələri nə qədər çox azad olursa, bu mühakimənin məzmunu da bir o qədər artıq dərəcədə zərurət ilə müəyyən olunur» (8, s. 112).

İradə azadlığının üç fazası (hərəkət azadlığı, seçim azadlığı və istək azadlığı) içərisində V.Vindenbad birincisinə üstün yer verirdi. O yazırdı: «Bizim hərəkət azadlığımız hər yerdə sıx fiziki mexanizmdən istifadə edir, lakin məhz buna görə onun bu mexanizminin öz sərhəddi vardır ki, o həmişə sərhəddi keçə bilməz. Bu mexanizmin normal və ya qeyri-normal olmasından asılı olmayaraq imtina etdiyi yerdə arzudan irəli gələn hərəkəti etmək qabiliyyətinin sonu çatır. İstəyin mümkün və ya qeyri-mümkün olması insanın fiziki vəziyyətindən asılıdır. Bu da məlumdur ki, bizim iradəmizin qəbul etdiyi qərarın həyata keçməsi müəyyən dərəcədə bizim sağlamlığımızın vəziyyətindən asılıdır (55, s. 18-19).

Qeyd etmək lazımdır ki, azad hərəkəti seçib ayırmaq və onun iradi impulslardan, sağlamlıqdan və insanın fiziki vəziyyətindən asılı olduğunu göstərmək məntiqidir. Lakin azad hərəkətin iradə azadlığının fazalarından biri hesab edilməsi fikri ilə razılaşmaq çətindir. Çünki azad hərəkət iradə azadlığının müəyyən bir fazası olmaqdan daha çox bütün fazaların sintezi kimi çıxış edir. Azad təfəkkür, azad seçim və azad iradə kimi pillələrin nəticələri məhz onda birləşir.

Ustanovkalar və iradə tələbatlar ilə ayrılmaz əlaqədə çıxış edir. Elmi-fəlsəfi ədəbiyyata tələbat anlayışı maddi və mənəvi istehsal ilə münasibətdə götürülür. Məsələyə bu cür yanaşmaqla, haqlı olaraq göstərilir ki, onlar bir-birilə qarşılıqlı surətdə

şərtlənmişdir. Məsələn, N.N.Mixaylov yazırdı ki, «Yüksək tələbatlar yüksək istehsalın nəticəsidirsə, yüksək istehsalda yüksək tələbatların nəticəsidir» (148, s. 120).

Ümumiyyətlə götürdükdə tələbatlar ilə istehsal arasında (maddi və mənəvi) dialektik əlaqə mövcuddur. Buna görə də onların hansının əvvəl gəldiyini söyləmək çətindir. Doğrudan da tələbata fikir aktı, təfəkkür aktı kimi yanaşdıqda görünür ki, o istehsaldan əvvəl gəlib, onu şərtləndirir. Lakin məsələnin digər cəhətini də unutmaq olmaz. Yəni fikir aktı kimi götürülən tələbatın özü müəyyən istehsalın məhsulu kimi, onun nəticəsində yaranır. Deyilənlər sübut edir ki, tələbatlar ilə istehsal arasında çox mürəkkəb xarakterli əlaqələr vardır. Ümumilikdə götürdükdə qeyd olunmalıdır ki, tələbat nəinki təkcə istehsalın mühüm sövqedici qüvvəsi kimi çıxş edir, həm də istehsalın baş verməsi üçün subyektiv zəmin hazırlayır. O, istehsalın gedişinə məqsədyönlülük verir və onu qabaqlayır.

Bəzən elmi ədəbiyatda və adi danışıqda tələbat və ehtiyac anlayışları bir-birilə eyniləşdirilir. Nəzərdə tutulmalıdır ki, bu anlayışlar bir-birilə çox yaxın olsalar da, onların hər birinin məna yükündə özünəməxsus çalarlar və deməli fərqlilik də mövcuddur. Belə ki, ehtiyac anlayışında sözügedən məsələnin zəruriliyi və təxirəsalınmazlığı vurğulanır. Digər tərəfdən, bu anlayış istər-istəməz obyektiv maddi tərəfi ön plana çəkir. Bundan fərqli olaraq tələbat anlayışı əvvəla təkcə obyektiv deyil, həm də və daha çox subyektiv məqamı ehtiva edir. Digər tərəfdən, tələbat anlayışının məna çalarında əmredici məqam daha üstün yer tutur. Bu anlayışlar arasında fərqlər fəlsəfi ədəbiyyatda da öz əksini tapır. Məsələn, N.B.İvançuk bu münasibətlə yazır: «Ehtiyac vacibliyin ən son həddini ifadə edir, o obyektiv ilə daha sərt qaydada

şərtlənir. Tələbatlar isə daha harmonikdir, onlarda təkcə obyektiv məqam deyil, həm də subyektiv tərəf inkişaf edir» (94, s. 46).

Tələbatlar maddi və mənəvi növlərə ayrılır ki, onların hər biri şüurla sıx bağlı olub, onun vasitəsilə ifadə olunur. Bu baxımdan onlar insanın dünyagörüşünü təfəkkürünü, mənəviyyatını, özünə və başqalarına yaradıcı münasibətini əks etdirir. Təbiidir ki, tələbatlarda obyektiv, maddi tərəf də çox mühüm yer tutur. Başqa sözlə deyilsə, tələbatlarda obyektiv və subyektiv tərəflər vəhdət təşkil edir. fikrimizcə bu məqam N.N.Mixaylov tərəfindən doğru qeyd olunur: «Tələbat vəziyyətin obyektiv və subyektiv tərəflərin qarşılıqlı təsirinin nəticəsi kimi çıxış edir. Lakin insan, tələbatların passiv daşıyıcısı deyildir. O ətraf mühitə fəal təsir göstərməklə, obyektiv surətdə qərarlaşan tələbatları özünəməxsus şəkildə reallaşdırmaq imkanları arayır, bunun üçün obyektlər seçir, vasitələr müəyyənləşdirir və onları həyata keçirmək üçün üsullar axtarır» (148, s. 30-32).

Hər bir tarixi mərhələdə olduğu kimi müasir dövrdə də sosial zərurət birinci növbədə insanların tələbatları şəklində təzahür edir. Sosial tələbatlar həm cəmiyyətin, həm də buradakı şəxsiyyətlərin davranışı və fəaliyyətinin əsasında durur. Onlar həm də şəxsiyyətin reallığının mühüm mənbəyi və hərəkətverici qüvvəsidir. Əslində insanın hər cür seçimi və fəaliyyəti öz mahiyyətinə görə onun tələbatlarının ödənilməsi deməkdir. İnsanlar məhz öz tələbatlarını ödəmək naminə sosial reallığı dəyişdirirlər. Lakin hər bir konkret halda tələbatların ödənilməsi, məzmun etibarilə yeni tələbatların yaradılması ilə müşayiət olunur. Bu tarixi prosesin məğzini təşkil edir. İctimai həyatın bütün sferalarının (siyasi, iqtisadi, sosial və mənəvi) təkmilləşməsində şüurlu surətdə iştirak edən hər bir fərd (digər

sosial subyektlərlə yanaşı) tarixin subyekti kimi çıxış edir. O, öz fəaliyyəti və davranışında ümumi maraqlar ilə yanaşı özünün spesifik maraqlarını da yerinə yetirməyə çalışır.

Müasir şəxsiyyətin tələbatları onun sosial mövcudluğu üçün zəruri olan çox müxtəlif tərəfləri əhatə edir və müxtəlif növlərə (maddi, fizioloji, mənəvi, sosial və s.) ayrılır. Onlar bütövlükdə şəxsiyyətin sosial mühitə və digər insanlara münasibətini ifadə edir. Tələbatlar şəxsiyyətin davranışının, azad seçiminin və fəaliyyətinin sözügedən amilləri sırasında ilkin yeri tutur. Lakin nəzərdə tutulmalıdır ki, tələbatlar öz-özlüyündə deyil, yalnız şəxsiyyət tərəfindən dərk olunduqda öz adekvat rolunu oynayır. Belə tələbatlarda obyektiv ilə subyektiv tərəf vəhdətdə çıxış edir (sonuncu dərk olunmuş tələbatın məqsədə çevrilməsi məqamı ilə daha çox bağlıdır).

İnsan sosial mahiyyətli varlıq kimi öz tələbat və qabiliyyətlərinin sonsuz olması və onları fasiləsiz olaraq genişləndirə bilməsi ilə səciyyələnir. Tələbatların miqyasının genişlənməsi və keyfiyyətinin təkmilləşməsi, yəni onların eninə və dərininə inkişafı, insanın şüurunun və fəaliyyətinin sonsuz dərəcədə rəngarəngliliyi ilə izah olunur. Bu onu sübut edir ki, insan müəyyən qəliblərə və standartlara sığmayan, qeyri-məhdud fəaliyyət göstərməyə qadir olan azad və yaradıcı mövcudatdır.

Tarixi prosesdə tələbatların artması qanuni özünü göstərir. Bu qanunun fəaliyyəti insanların məqsədyönlü təfəkkürü ilə sıx əlaqədə baş verir. Bu o deməkdir ki, məhz insanın məqsədyönlü mahiyyəti tələbatların formalaşmasına müəyyən istiqamətlilik və dəqiqlik verir. Bu mənada demək olar ki, insanın sözügedən keyfiyyəti tələbatların təkrar istehsalı prosesində əvəzolunmaz yer tutur. Çünki qarşıya qoyulmuş məqsədin əldə olunması, təkcə

əvvəlki tələbatın ödənilməsi demək deyildir, o həm də yeni tələbatların təşəkkülünün zəruri amilidir. Beləliklə bir-biri ilə sıx qarşılıqlı təsirdə və ayrılmaz vəhdətdə həm tələbat, həm də məqsəd inkişaf edir və təkmilləşir. Ümumi və vahid prosesin bu iki istiqamətinin inkişafı həm də şəxsiyyət azadlığının genişləndirməsini ifadə edir.

Yuxarıda söylənilən nəzəri müddəalar müasir cəmiyyət həyatına tətbiq edildikdə özünü tamamilə doğruldur. Elə götürək, radikal iqtisadi islahatları və bazar istehsalının formalaşması proseslərini. Bazar qanunlarına əsaslanan istehsalın, iqtisadiyyatın və bütövlükdə sosial münasibətlərin yaradılması hər şeydən əvvəl bunlara olan tələbatın nəticəsidir. Başqa sözlə deyilsə, bu, açıq cəmiyyətin iqtisadi və sosial əsaslarını yaratmağa olan tələbat kimi çıxış edir. Digər tərəfdən, həmin tələbatların reallaşması nəticəsi olan bazar istehsalı öz növbəsində yeni-yeni tələbatların yaranmasını şərtləndirir. Beləliklə də tələbatlar ilə istehsal prosesi qarşılıqlı surətdə təsir edərək biri digərini inkişaf etdirir və qarşılıqlı surətdə zənginləşdirir. Onların hər ikisinin ayrı-ayrılıqda və birlikdə inkişafı şəxsiyyətin fəaliyyətinə daha geniş və rəngarəng xarakter verir. Beləliklə də şəxsiyyət azadlığının inkişafı göstəricisi rolunu oynayır. Öz növbəsində azadlıq həm tələbatların, həm də istehsalın müxtəlif növlərinin bilavasitə şərti kimi çıxış edir.

Cəmiyyət inkişaf etdikcə tələbatların həcminin artım sürəti və keyfiyyəti də yeniləşir. Müasir cəmiyyətin yeniləşmə xarakteri burada tələbatların və məqsədin formalaşması prosesinə spesifiklik gətirir. Belə ki, burada köhnə tələbatlar ilə yeni tələbatlar arasında mübarizə daha aydın üzə çıxır. Sözügedən məqam tələbatların ümumi inkişafı prosesinə müəyyən ləngidici təsir göstərməyə bilməz. Ümumiyyətlə götürdükdə isə müasir

cəmiyyətdə əsaslı yeniləşmələr, keyfiyyət diyişiklikləri tələbatların formalaşmasını prinsipcə yeni sosial zəmin üzərinə keçirir. Müasir cəmiyyətin siyasi, sosial, iqtisadi və mənəvi dayaqlarının möhkəmlənməsi gedişində şəxsiyyətin tələbatları təkcə kəmiyyət və miqdar baxımından deyil, həm də keyfiyyətinə görə ciddi dəyişikliklərə məruz qalır. Heç şübhəsiz ki, bu proses şəxsiyyətin azadlığının genişlənməsinə və inkişafına öz müsbət təsirini göstərir.

Şəxsiyyət iradəyə malik olan mövcudat kimi öz hərəkətlərini seçərkən tələbatlarına üstünlük verməyə çalışır, hətta lazım gəldikdə başqalarının tələbatlarını ikinci plana keçirir. İnsanın bu xüsusiyyəti onun davranış və fəaliyyət motivləri ilə daha sıx bağlı olur. Belə ki, motiv (latınca hərəkət etdirmək deməkdir) şəxsiyytin məqsədini müəyyən edən və onu müvafiq fəaliyyətə sövq edən çox güclü amil olmaqla, nəticə etibarilə tələbatların ödənilməsinə yönəlir. Motiv şəxsiyyətin iradi hərəkətlərinin əsaslandırılması deməkdir. O, həm də şəxsiyyət tərəfindən cəmiyyətin ona verdiyi tələblərə münasibətini əks etdirir. Motivlər insanın fəaliyyətində o dərəcədə böyük rol oynayır ki, yalnız onları araşdırmaqla, fəaliyyəti düzgün qiymətləndirmək olur. Motivi öyrənməklə insanın öz hərəkətlərinə verdiyi subyekt mənasını da müəyyən etmək mümkündür. Görkəmli psixoloq A.N.Leontyev motivin şəxsiyyətin davranışında rolunu belə qiymətləndirirdi: «Motiv elə bir obyektdir ki, o subyekt tərəfindən bu və ya digər formada inikas etdirilərək, onun fəaliyyətinə rəhbərlik edir» (132, s. 5).

Şəxsiyyətin hər cür fəaliyyəti, xüsusilə də iradə azadlığına əsaslanan fəaliyyəti motivsiz, yəni özbaşına və təsadüfi olmur. Motiv, subyektin nəyə görə məhz bu məqsədi seçdiyini və ona uyğun fəaliyyət göstərildiyini izah edir. Əlbəttə, motivləri

mütləqləşdirmək olmaz, onlar nisbidir, çünki real məqsədlə və konkret şərait ilə şərtlənir. Ümumilikdə şəxsiyyətin bu və ya digər hərəkətinin əsasında duran motivlər, onun ümumi inkişafının və birinci növbədə mənəvi yetkinlik dərəcəsinin çox mühüm göstəricisidir. Belə ki, biz fərdin bu və ya digər davranışında hansı maraq olduğunu, onun eqoist yoxsa, ümumi mənafelər güddüyünü onun motivlərinə görə müəyyənləşdirə bilirik.

Muasir şəxsiyyətin azad seçim və fəaliyyətində məqsəd də çox mühüm yer tutur. Məqsəd dedikdə fəaliyyətin əsas ideal sövqedicilərindən biri başa düşülür. O özündə obyektiv imkanlar ilə subyektin bu imkanlarını dərk etməkdə fəal dəyişdirici hərəkətlərini ehtiva edir. Şəxsiyyətin fəaliyyətini şərtləndirən məqsədin özü ictimai inkişafın obyektiv qanunları ilə sıx bağlıdır. N.V.Pilipenko haqlı olaraq qeyd edir ki, insanların fəaliyyəti məqsəddən kənarda olan maddi səbəblərə şərtlənmir. Məhz insanın tələbatı əsasında əmələ gələn məqsədlilik prosesində insan dünyanı, gələcəyi, ideal formada, dünya haqqında təsəvvürlər formasında yaradır (170, s. 198).

Şəxsiyyətin tələbatlarının ödənilməsi onun məqsədlərindən ayrılmazdır. Məhz məqsəd subyekt tərəfindən tələbatın dərk olunduğunu göstərməklə, onun reallaşmasına bir növ start verir. İnsanı şəxsiyyət kimi səciyyələndirən mühüm cəhətlərdən birini, onun öz qarşısında ağıllı tələbatlar irəli sürməsi təşkil edir. Öz növbəsində sonuncular müvafiq tipli məqsədlərin formalaşmasını şərtləndirir. Məhz ağıllı tələbatlar və onlara uyğun müəyyənləşdirilən rasional məqsədlər cəmiyyətin tərəqqisinə xidmət edir. Onlar həm də şəxsiyyətin azadlıq səviyyəsinin çox mühüm meyarları rolunu oynayır.

Tarixi prosesin gedişində bir qrup tələbatların və məqsədlərin ödənilməsi, yeni tələbatları və məqsədləri əmələ gətirir. Sonuncular da öz növbəsində daha yeni tələbatları və məqsədləri şərtləndirir.

Şəxsiyyətin məqsədi onun tələbat və mənafelərini bir növ tamamlayır. Digər tərəfdən şəxsiyyət müəyyən məqsəd irəli sürdükdə, o burada gələcək fəaliyyətinin modelini yaradır, onun törədə biləcəyi nəticələri irəlicədən müəyyən edir. Buna görə də məqsəd fəaliyyətin mühüm stimulu olmaqla, tələbatları, mənafeləri, habelə cəhdləri, istəkləri və iradəni də özündə birləşdirir.

Müasir şəxsiyyətin azad seçimi və fəaliyyətinin çox mühüm istiqamətvericilərindən biri mənafedir. Mənafe subyekt üçün obyektiv əhəmiyyət kəsb edən çox vacib tərəfi ifadə edir. Bu anlayışın məzmunu sosial mühitdən, obyektiv şəraitdən irəli gəlir. Mənafelərin azad seçimdə və fəaliyyətdə böyük rolu bununla şərtlənir ki, onlar subyektin iradə və hərəkətlərini müəyyən istiqamətə-məqsədə yönəldir. Mənafeyə verilən çoxlu təriflər sırasında A.Q.Zdravomislovun tərifi diqqəti cəlb edir. O göstərirdi ki, mənafe özündə obyektiv məzmun ilə subyektiv formanın vəhdətini ifadə edən ictimai hadisədir, insan fəaliyyətinin aktiv stimuludur (91, s. 18).

Bəzən fəlsəfi ədəbiyyatda mənafeni iradə və şüur sferasına aid edən baxışlara da rast gəlinir. Bizim fikrimizcə mənafeləri təkcə obyektiv və ya sırf subyektiv şüur hadisəsi hesab etmək doğru deyildir, çünki bu anlayışın məzmununda həm obyektiv, həm də subyektiv tərəflər sıx qarşılıqlı təsirdə və ayrılmaz vəhdətdə çıxış edir. Şəxsiyyətin mənafeyi onun tələbatı və mövcud ictimai münasibətlər ilə sıx bağlıdır. O fərdin mövcudluğunun obyektiv

şəraitini əks etdirir. Bununla yanaşı mənafe dərk olunmuş xarakter daşıyır və bu andan fəaliyətin bir növ məqsədinə çevrilir. Yalnız şüurda əks olunduqda və ideal fəaliyyət, motiv kimi çıxış etdikdə mənafeyinin obyektiv məzmunu fəaliyyətin həqiqi stimulu rolunu oynayır. Çünki obyektiv ictimai münasibətlərin inikası onun tam və ya natamamlığından asılı olmayaraq bu prosesdə obyektiv tələbatlar müxtəlif növlü mənafelər kimi özünü göstərir. (36, s. 5)

Əgər mənafeyin obyektiv tərəfi tələbatları ifadə edirsə, subyektiv tərəfi bir vəhdətdə birləşdirir. Buradan da şəxsiyyətin fəaliyyət və davranışında mənafelərin müstəsna dərəcədə böyük rolu irəli gəlir. O, azad fəaliyyətin əsas sövqedici səbəbidir. Bununla yanaşı o fərdin gerçəkliyə seçimli münasibətini şərtləndirir. Onun məhz hansı variantı seçərək hərəkət etməsi, mənafeyindən asılıdır. Deyilənlərdən əlavə şəxsiyyətin mənafeyinin məzmunu onun sosial yetkinlik dərəcəsinin, cəmiyyət qarşısında məsuliyyətinin necə dərk etdiyinin çox mühüm göstəricisidir. Mənafelər öz məzmununa görə əsas mənafelərə və müvəqqəti, keçici mənafelərə ayrılır. Şəxsiyyətin mənafeləri kompleks xarakter daşıyır, yəni burada onun özünün şəxsi maraqları ilə yanaşı mənsub olduğu sosial birlik formasının və millətin maraqları spesifik tərzdə qovuşur və qarşılıqlı təsirdə çıxış edir. Bütövlukdə şəxsiyyətin mənafeləri ilə ümumi ictimai mənafelər vəhdət təşkil edir, bu vəhdət daxilində ikinci tərəf bir qayda olaraq aparıcı rol oynayır. Lakin onlar arasındakı münasibətlərdə bu vəhdətin pozulması və ziddiyyətlərin yaranması da mümkündür. Bu vəziyyət daha çox o vaxt baş verir ki, şəxsiyyət ümumi mənafeləri adekvat dərk etmir. Özünün dar və məhdud

mənafelərini, eqoist ehtiyaclarının ödənilməsini fəaliyyətinin əsas məqsədinə çevirir.

Mənafelər tələbatlar ilə sıx əlaqəli olsalar da, onları eyniləşdirmək olmaz, çünki aralarında oxşar cəhətlər ilə yanaşı müəyyən fərqlər də vardır. Başlıca oxşar cəhət budur ki, mənafelər tələbatların əsasında yaranır. Sonra, onların hər ikisində obyektiv məqamlar mühüm yer tutur. Nəhayət, onlar vahid davranış və fəaliyyət prosesinin başlıca istiqamətvericiləri kimi, bir-birilə vəhdətdə çıxış edirlər. Bununla yanaşı mənafeləri tələbatlara müncər etmək doğru olmazdı. Belə ki, mənafelərdə tələbatları ödəməyin üsulları, həm də mövcud şərait üçün ən rasional əhəmiyyət kəsb edən yollar və vasitələr ifadə olunur. Bu baxımdan yanaşdıqda müasir şəxsiyyətin mənafeləri daha səciyyəvidir. Belə ki, indiki şəraitdə onun tələbatlarını ödəmək üçün çoxlu yollar və vasitələr vardır. Lakin onlardan dövrün tələblərinə cavab verən, yəni ən rasional olanlar aşağıdakılardır: a) iqtisadi tələbatlar sahəsində bazar iqtisadiyyatının formalaşması, azad sahibkarlığın inkişaf etdirilməsi, sərbəst rəqabətə geniş meydan verilməsi, xüsusi mülkiyyətin rolu və təsir dairəsinin artırılması və s. Bütün bunlar müasir şəxsiyyətin iqtisadi maraqlarının əsasını təşkil edir: b) siyasi sferada şəxsiyyətin əsas mənafeləri demokratiyanın, söz, mətbuat azadlığının, digər azadlıqların inkişaf etdirilməsi, çoxpartiyalılığa, fikir plüralizminin sərbəst siyasi fəaliyyətə şərait yaradılmasında ifadə olunur: c) mənafelər sırasında aşağıdakılar əsas yer tutur: təhsilin yüksəldilməsi, mədəniyyətin inkişafı, mənəvitəkmilləşməyə şərait yaradılması və s.

Nəzərdə tutulmalıdır ki, digər sosial subyektlərdə olduğu kimi şəxsiyyətin də maraqları (mənafeləri) fəaliyyət prosesində

özünü göstərir. Onların şəxsiyyətin azad seçiminin mühüm istiqamətverici amil olması bu məqam ilə sıx bağlıdır.

Şəxsiyyətin azad seçimi və fəaliyyətində iqtisadi və digər tərəflərin rolu məsələsi də diqqəti cəlb edir. Marksist fəlsəfənin təsiri altında aparılmış tədqiqatlarda bir qayda olaraq göstərilir ki, iqtisadi tərəf şəxsiyyətin əsl azadlığının dayağı rolunu oynayır. Bizim fikrimizcə başqa məsələlərdə olduğu kimi, şəxsiyyət azadlığı problemində də iqtisadi amillərin rolunu şişirtmək doğru deyildir. Əlbəttə, deyilənlərdən belə nəticə çıxarılmamalıdır ki, şəxsiyyətin azadlığı üçün bir çox şərtlər yaratdığını inkar etmək olmaz. Söhbət bundan gedir ki, iqtisadiyyatı şəxsiyyət azadlığının yeganə müəyyən edicisi hesab etmək doğru deyildir. Belə ki, şəxsiyyət azadlığının bütün tərəfləri, hətta iqtisadi göstəricilərin özü də insanın çoxtərəfli bilikləri və fiziki kamilliyinə əsaslanan, şüur və qeyri-şüur hadisələrinin məcmusu üzərində qurulur. Məhz onlar şəxsiyyətin həyat fəaliyyətinin bütün sahələrində əsl azadlığı təmin etməyin əsas şərtləri kimi çıxış edir.

Müasir şəxsiyyətin azadlığının istiqamətvericisi olan motivləri izah edərkən göstərilməlidir ki, insanın daxili təbiətində müsbət və mənfi motivasiyalar ola bilir. Buna görə onlardan hər hansı birinə üstünlük verməsinə tələbat yaranır. Bu tələbat da müsbət və mənfi yönümlü ola bilir. Onların bu yerdəyişməsi konkret şəraitdən və şəxsiyyətin daxili yetkinlik səviyyəsindən asılıdır. Lakin onların hansı istiqamətliliyindən asılı olmayaraq, bütövlükdə hər cür sosial şəraitdə şəxsiyyətin fəallığını təmin edir (həmin fəallığın neqativ istiqamətə yönələ bilməsi də nəzərə alınır). Onların güclü təsiri altında şəxsiyyət öz qarşısında geniş sosial məzmunlu məqsədlər işləyib hazırlayır və həyata keçirir.

Beləliklə yuxarıda aparılan təhlil sübut edir ki, müasir şəxsiyyətin həyat fəaliyyətinin bütün sahələrində və davranışında seçim azadlığı  onun müxtəlif istiqamətverici amillərinin birgə təsiri altında həyata keçirilir.

## 4.3. Şəxsiyyətin azadlığı və məsuliyyətinin vəhdəti

Şəxsiyyətin azadlığı bütün dövrlərdə onun məsuliyyətindən ayrılmazdır. Bu iki tərəfin sıx vəhdəti müasir dövr üçün daha çox səciyyəvidir. Hazırda azadlıq və məsuliyyət bir-birilə sıx qarşılıqlı təsirdə çıxış edərək demokratikləşmənin genişlənməsində, fərd ilə cəmiyyət arasında münasibətlərin tənzim olunmasında, şəxsiyyətin formalaşması və inkişafı prosesində böyük rol oynayır. Müasir cəmiyyətdə bu anlayışların vəhdəti daha da möhkəmlənir. Belə ki, insanın öz hərəkətləri üçün məsuliyyət daşıması onun azadlığının reallaşmasının zəruri şərtidir, o eyni zamanda başqa adamların da azadlıqlarının həyata keçirilməsi deməkdir. (168, s. 68).

Şəxsiyyətin azadlıq və məsuliyyəti bir çox cəhətdən mövcud sosial mühit ilə şərtlənir, lakin burada onun öztəşkili və ozintizamı həlledici yer tutur. Fərd sosiallaşma prosesi ilə irəlilədikcə, onun azadlığı genişlənir və məsuliyyəti artır. Onlar bir-birilə qarşılıqlı asılılıqda çıxış edərək, şəxsiyyətin mənəvi simasının zənginlik dərəcəsinin əsas göstəricisi rolunu oynayırlar.

İndi belə bir həqiqət hamıya aydın olmaqdadır ki, təkcə şəxsiyyətin inkişafı cəmiyyətdən asılı deyildir, həm də bir çox cəhətdən cəmiyyətin tərəqqisi şəxsiyyətin azad yaradıcı fəallığı və yüksək məsuliyyətindən asılıdır. Təsadüf deyildir ki, K.Popper şəxsiyyətin azadlıq və məsuliyyətinin qarşılıqlı əlaqəli inkişafını açıq cəmiyyət qurmağın zəruri şərti kimi qiymətləndirir. (179, s. 488).

Müasir cəmiyyətdə baş verən əsaslı və hərtərəfli dəyişikliklər gedişində azadlıq və məsuliyyət ideyaları kütləvi şüura və ictimai psixologiyaya dərindən nüfuz etməkdədir. Bu onunla izah edilir ki, sosial məsuliyyət hər bir cəmiyyətin və eləcə də onun hər bir üzvünün ayrılmaz keyfiyyət səciyyəsini təşkil edir. O, cəmiyyətin

təşəkkülünün ilk dövrlərində yaranmış, sonralar ictimai həyatın təkamülü gedişində siyasi, mədəni, mənəvi və digər ictimai münasibətlərin yetkinlik səviyyəsinin çox mühüm göstəricisinə çevrilmişdir. (13, s. 115).

Müasir dövrdə şəxsiyyətin sosial məsuliyyəti onun insanlıq mahiyyətinin ən mühüm əlamətlərindən birinin özünəməxsus şəkildə təzahürüdür. Məsuliyyətlilik şəxsiyyətin strukturunun həlledici elementi olmaqla, onun azadlıq səviyyəsinin və davranışının əsas istiqamətini müəyyən edir. (123, s. 63).

Bəzən məsuliyyəti təkcə etik kateqoriya hesab edirlər, bu fikirlə razılaşmaq olmaz. Çünki məsuliyyət geniş mənada götürüldükdə, sosial fəlsəfənin kateqoriyasıdır. Etik mənada anlaşılan məsuliyyət bu ümumi sosial məsuliyyətin konkret formasıdır. Son dərəcə mürəkkəb məzmunlu sosial hadisə olan sosial məsuliyyət şəxsiyyət ilə cəmiyyət arasında münasibətlərin spesifik en kəsiyini təşkil edir. O, şəxsiyyətin həyatında o dərəcədə mühüm rol oynayır ki, bəzi müəlliflər haqlı olaraq «məsuliyyəti şəxsiyyətin başlıca əlaməti, onun formalaşmasını isə tərbiyə və özünü tərbiyənin əsas vəzifəsi» hesab edirlər. (239, s. 41).

Şəxsiyyətin sosial məsuliyyətinin məzmununda aşağıdakı əsas tərəfləri seçib ayırmaq olar: a) şəxsiyyətin sosial əhəmiyyət kəsb edən davranışı: b) iradə azadlığı: c) şəxsiyyətə göstərilən ictimai təsirin ölçüsü.

Onların hər biri ayrılıqda, eləcə də hər üçü birlikdə şəxsiyyət-cəmiyyət sisteminin universal qarşılıqlı təsirini ifadə edir. Bu tərəflərin hər biri şəxsiyyətin azadlığından ayrılmazdır. Belə ki, birinci onu ifadə edir ki, şəxsiyyətin hər cür davranışı deyil, məhz sosial əhəmiyyət kəsb edən davranışı sosial məsuliyyətin predmetidir. Həmin növdən olan davranış isə ümumilikdə

cəmiyyətdə, habelə hər bir fərdə münasibətdə qərarlaşmış olan azadlıq səviyyəsi ilə sıx bağlıdır. Məsuliyyətin ikinci elementi-iradə azadlığı, həm də şəxsiyyət azadlığının çox mühüm tərkib hissəsi olmaqla, özündə fərdin iradəsi ilə ümumilikdə cəmiyyətin iradəsinin qarşılıqlı təsirini ifadə edir. Bu halda cəmiyyətin iradəsi ayrı-ayrı fərdlərin iradəsində sanki ümumi meylin rəngarəng təzahür formaları kimi çıxış edir. Eyni fikri sosial məsuliyyətin üçüncü elementi haqqında da söyləmək olar: şəxsiyyətə göstərilən ictimai təsirin ölçüsü, onun azadlıq səviyyəsi ilə bilavasitə bağlıdır.

Sosial məsuliyyətin şəxsiyyət-cəmiyyət qarşılıqlı təsirinin universal forması olmasından görünür ki, o ictimai münasibətlərin bütün növlərində (siyasi, iqtisadi və mənəvi) özünü göstərir. Şəxsiyyətin sosial məsuliyyətinin təzahür formalarının son dərəcə müxtəlif olması bununla izah edilir ki, o özünün praktiki fəaliyyətində çoxsaylı rollar və funksiyalar yerinə yetirir. Bunların hər birinə spesifik məsuliyyt forması məxsusdur. Sosial məsuliyyət şəxsiyyətin öz hərəkətlərinin törədə biləcəyi nəticələri irəlicədən görmək məharəti və onlar üçün cəmiyyət qarşısında cavabdehliyini başa düşmək deməkdir. O həm də fərdin psixiki funksiyalarından (emosional-hissi, idrakı və davranış) ayrılmazdır. Şəxsiyyətin çox mühüm sosial atributu olan məsuliyyət, onun aşağıdakı keyfiyyətlərinin göstəricisi rolunu oynayır (başqalarının halına acımaq, həssaslıq, qayğıkeşlik, təkidlilik, səbirlik, dözümlülük, mütəşəkkillik və s).

Şəxsiyyətin məsuliyyətinin əsasında onun tələbatları, fəaliyyət motivləri və mənafeələri durur. Bunlarla yanaşı o aşağıdakıları da əhatə edir: fəaliyyətin məqsədi və obyektiv şərtliliyi, onun uğur qazanacağına inam, sosial mahiyyətinin dərk olunma dərəcəsi, ictimai nəticələri üçün qürur hissi, ona şəxsiyyət

tərəfindən özünüreallaşdırma və özünütəsdiq vasitəsi kimi yanaşılması. Məsuliyyətin məzmununun mürəkkəbliyi öz ifadəsini həm də onun ictimai münasibətlərin növləri üzrə təsnifatında tapır. Bu meyardan yanaşdıqda məsuliyyətin aşağıdakı formaları vardır: siyasi və hüquqi, iqtisadi, mənəvi (əxlaqi), peşə məsuliyyəti və ekoloji məsuliyyət. Bu formaların hər birində sosial mahiyyəti müəyyən özünəməxsusluqla ifadə olunsa da, onların hər biri müvafiq azadlıq növləri ilə sıx qarşılıqlı təsirdə və vəhdətdə çıxış edir. Onların ayrılmaz əlaqəsi bununla şərtlənir ki, şəxsiyyətin həm azadlığı, həm də məsuliyyəti onun maraqları ilə bütövlükdə cəmiyyətin maraqlarını əlaqələndirməyin özünəməxsus səpkisidir. Həm də nəzərdə tutulmalıdır ki, cəmiyyət inkişaf etdikcə, fərdin sosial fəallığı və şüurluluğu yüksəldikcə, şəxsiyyətin azadlıq ilə məsuliyyətinin vəhdəti daha da möhkəmlənir. Bu baxımdan yanaşdıqda, müasir keçid dövrü xüsusi əhəmiyyət kəsb edir. Belə ki, demokratikləşmə şəraitində şəxsiyyətin azadlıq və məsuliyyətinin artması ilə yanaşı həm də onların qarşılıqlı surətdə yaxınlaşması və bir-birinə nüfuz etməsi baş verir. Bu, demokratikləşmənin mahiyyətindən irəli gəlir. Belə ki, cəmiyyət totalitarizmin qalıqlarından azad olaraq açıq tipli quruluşu getdikcə, şəxsiyyətin müsbət keyfiyyətləri (özintizam, özününəzarət, daxildən gələn mütəşəkkil hissi, özünütəşkiletmə və s.) daha da inkişaf edir. Başlıcası isə budur ki, həmin keyfiyyətlərin mənbəyi və motivləri əsaslı surətdə yeniləşir, burada xarici təsirin gücü, məcburiyyət orqanlarının müdaxiləsi getdikcə azalır, bunların yerinə şəxsiyyətin daxili yetkinliyi və mənəvi inkişafı ilə bağlı amillərin xüsusi çəkisi durmadan çoxalır. Sonuncu meyl isə şəxsiyyətin əsl mənada anlaşılan azadlığı və məsuliyyətin mahiyyətini ifadə edir. Belə ki, şəxsiyyətin daxili,

mənəvi tərəqqisi, onun öz davranışı və fəaliyyətində mümkün olan ilə olmalı olanın, iradə azadlığı ilə zərurətin daha dolğun və adekvat əlaqələndirilməsi deməkdir. Məsələyə geniş planda yanaşdıqda göstərilməlidir ki, sözügedən meyl təkcə mövcud vəziyyəti, qazanılmış olanları qiymətləndirməklə məhdudlaşmır, həm də onların gələcək prespektivlərini əhatə edir.

Sözün ümumi mənasında götürdükdə şəxsiyyətin sosial məsuliyyətinin nüvəsini onun malik olduğu mənəvi-əxlaqi və sosial-psixoloji keyfiyyətlərinin məcmusu təşkil edir. Bunlar isə onun tərəfindən daxili və xarici zərurəti (təbii ki, həm də daxili və xarici azadlığı) başa düşülməsinin, əməlləri üçün cəmiyyət və öz vicdanı qarşısında cavabdehlik hissinin əsl göstəricisidir. Bu keyfiyyətlər onun həm xarici təsirlər nəticəsində yaranan iradə azadlığını və məsuliyyətini, həm də öz daxilində formalaşan iradə azadlığı və məsuliyyətini bir-birilə qovuşdurur.

Müasir şəxsiyyət də obyektiv aləmi və cəmiyyətdə gedən prosesləri hər şeydən əvvəl öz fərdi həyat şəraiti prizmasından əks etdirir. Buna uyğun olaraq müstəqil və azad fəaliyyət göstərir və deməli öz hərəkət və əməlləri üçün cavabdehlik, məsuliyyət daşıyır. Əlbəttə, o, müəyyən hərəkət və davranışı seçməkdə azaddır. Bu onu yaradıcı subyekt kimi səciyyələndirir və aşağıdakı cəhətlərini ifadə edir: seçimin şüurlu və könüllülüyü; qarşıya məqsəd qoyub, müəyyən nəticələri əldə etmək niyyəti; onu hərəkətə yönəldən istiqamətverici motivlərin başa düşülməsi; öz əməllərinin nəticələrinin dərk olunması və s. Bütün bunlar, yəni onun azadlıq göstəriciləri eyni zamanda şəxsiyyətin məsuliyyətinin müəyyən olunmasında çox mühüm rol oynayır. Əgər şəxsiyyət öz hərəkətlərini azad seçirsə, bu onu məsuliyyətdən azad etmir, çünki azad seçim olmayan yerdə məsuliyyətdən danışmaq əbəsdir.

Buradan aydın olur ki, şəxsiyyətin azadlığı və məsuliyyəti onun formalaşması və inkişafı prosesində bir-birilə sıx bağlı iki çox mühüm tərəfdir. Bu münasibətdə E.M.Penkovun aşağıdakı fikri ilə razılaşmaq olar: «Müasir cəmiyyətdə insanın öz hərəkətləri üçün məsuliyyəti onun azadlığının reallaşdırılmasının zəruri şərtidir.... Buradan o irəli gəlir ki, hər bir konkret halda azadlığın səviyyəsi məhz onun tərəfindən obyektiv sosial şəraitin başa düşülməsi dərəcəsi, onun öz şəxsi mənəvi borcu və şəxsi məsuliyyətini anlaması səviyyəsi ilə müəyyən olunur» (168, s. 68).

Muasir şəxsiyyətin azadlığı və məsuliyyətinin qarşılıqlı münasibətləri donuq və sabit xarakter daşımır, əksinə daim yeniləşir və inkişaf edir. Bu proses öz təbiətinə görə dialektik xarakter daşıyır, yəni asan və rəvan getmir, müxtəlif istiqamətləri, çətinlikləri və ziddiyyətləri də əhatə edir.

Şəxsiyyətin azadlığı və məsuliyyətinin əlaqəli olduğunu qeyd etməklə məsələ bitmir. Əsas vəzifə müasir şəraitdə onların qarşılıqlı təsir mexanimini açmaqdır. Məsələyə bu istiqamətdə yanaşdıqda ilk öncə qeyd olunmalıdır ki, məsuliyyətin bütün formaları (siyasi, hüquqi, mənəvi, peşə, ekoloji və s) iradə azadlığının zəruri olaraq müəyyən qədər məhdudlaşdırılmasının vasitəsi kimi çıxış edir. Sonra, müəyyən davranış xətti seçmək azadlı ilə həmin hərəkət üçün məsuliyyət daşımağın qarşılıqlı əlaqəsinin xarakteri, bu və ya digər situasiyada şəxsiyyətin malik olduğu seçim variantlarının (imkanlarının) genişliyi dərəcəsindən asılı olaraq müxtəlif şəkildə təzahür edir. Daha dəqiq desək, şəxsiyyətə təqdim olunan seçim imkanlarının sayı nə qədər çox olursa, onun məsuliyyəti də bir o qədər yüksək olur. Bu münasibətdə göstərilməlidir ki, açıq cəmiyyətin əsaslarının formalaşmaqda olduğu indiki dövrdə şəxsiyyətin seçim imkanları

özünün durmadan genişlənməsi ilə səciyyələnir. Buradan isə məntiqi olaraq belə bir nəticə hasil olur: deməli onun məsuliyyəti də daim yüksəlməkdədir. Bu tamamilə təbii və qanunauyğun hesab edilməlidir, çünki dərindən nəzər saldıqda şəxsiyyətin azadlığı bu deməkdir ki, o öz hərəkətlərini və şəxsi keyfiyyətlərini dərketmə obyektinə çevirir və bu yönümdə olan fəaliyyəti nəticəsində təbiətin və mövcud ictimai münasibətlər sisteminin onun qarşısında açdığı imkanlara yaradıcı yanaşaraq, onları daha da genişləndirir. Qeyd olunmalıdır ki, bu proses birdən-birə baş vermir, cəmiyyətin inkişafı boyu davam edir və təkamül edir, yəni cəmiyyətin tarixi, əslində insanın azadlığının sonsuz olan təkmilləşməsi prosesinin həyata keçirilməsi yolunda ayrı-ayrı mərhələlər deməkdir. Sözügedən prosesdə məsuliyyətin əsas rolu şəxsiyyət-cəmiyyət münasibətlərinin dinamikasına uyğun olaraq şəxsiyyətin davranışını sosial baxımdan tənzim etməkdir. Sonuncunun səviyyəsi mövcud ictimai münasibətlərin yetkinlik dərəcəsindən və şəxsiyyətin subyektiv göstəricilərinin inkişafından asılıdır. Ümumiyyətlə «şəxsiyyətin azadlığı və məsuliyyətinin dialektikası, insanların fəaliyyət prosesində bir-birilə qarşılıqlı asılılıqda olmasının dərinliklərindən irəli gələn üzvü proses deməkdir». (168, s. 57).

Bu proses bir-birilə əlaqəli olan aşağıdakı iki tərəfi əhatə edir. Bir tərəfdən şəxsiyyət müəyyən inkişaf səviyyəsində olan sosial mühitə və mövcud ictimai münasibətlər sisteminə zərurən daxil olur və ondan kənarda fəaliyyət göstərə bilməz. Digər tərəfdən, hər bir şəxsiyyət konkret şəraitdə mövcud situasiyada müxtəlif seçim əsasında reaksiya verə bilir (əlbəttə, bu müəyyən hüdudlar daxilində olur). Məsuliyyət də iki məqamın nəticəsini ifadə edir: a) vacib və zəruri olanın yerinə yetirilməsi, b) seçim

yollarının müəyyənləşdirilməsi və ona çatmağın vasitələrinin işlənilib hazırlanması. Göründüyü kimi, sonuncu tərəf öz mahiyyətinə görə subyektivin (yəni mümkün olanın) obyektivə, yəni vacib olana münasibəti deməkdir. Başqa sözlə deyilsə, bu azadlığın səviyyəsi və hüdudları məsələsidir.

Deyilənlərdən aydın olur ki, şəxsiyyətin azadlığı və məsuliyyətinin dərin əlaqəliliyi onların öz təbiətindən və şəxsiyyətin sosial mahiyyətinin bütövlüyündən irəli gəlir.

Müasir şəxsiyyətin sosial rolu, onun sosial fəaliyyətinin müxtəlif tərəflərində yerinə yetirdiyi funksiyalar təkcə obyektiv tələbatlar ilə deyil, həm də bu tələbatların inikası olan mənəvi amillər ilə şərtlənir. Sonuncu tərəf çox böyük əhəmiyyətə malikdir. Belə ki, o bir tərəfdən şəxsiyyətin yaradıcı mahiyyəti və azadlığı ilə sıx bağlıdır. Digər tərəfdən şəxsiyyətin fəaliyyətində mənəvi amillərin artan rolu sübut edir ki, o mövcud normalara sadəcə uyğunlaşmaqla məhdudlaşmır. Fəal subyekt kimi çıxış edərək praktiki, münasibətləri və fəaliyyət formalarını yeniləşdirir və bunun əsasında, həm də ona qarşı irəli sürülmüş normalara da sözün müəyyən mənasında dəyişdirici təsir göstərir. Şəxsiyyət hansı sosial fəaliyyət növü ilə məşğul olmasından asılı olmayaraq, iştirak etdiyi sosial prosesə öz subyektlilik möhrünü vurur, yəni həm də məsuliyyətli varlıq kimi çıxış edir. Bu məsuliyyətin xarakteri onun konkret sosial roluna müvafiq surətdə formalaşır. Deyilənlərdən aydın olur ki, şəxsiyyət öz sosial rolunu yaradıcı və azad surətdə yerinə yetirdiyi üçün, həm də məsuliyyt daşıyan subyekt kimi çıxış edir. Özü də bu məsuliyətlilik təkcə cəmiyyətə münasibətdə deyil, şəxsiyyətin özünün özünə münasibətində cavabdehliyində də göstərir. Odur ki, şəxsiyyətin azad hərəkətləri onun cəmiyyət qarşısında və özü qarşısında məsuliyyətindən

ayrılmasıdır. Bu anlayışlar öz mənalarına görə bir-birilə o qədər yaxındırlar ki, onları şəxsiyyətin vahid şüurlu fəaliyyətinin iki tərəfi kimi səciyyələndirmək olar. Buna görə də fəlsəfi ədəbiyyatda haqlı olaraq göstərilir ki, azadlıq məqsədyönlü fəaliyyətin həyata keçirilməsi imkanı, seçilmiş məqsəd naminə işi bilməklə hərəkət etmək qabiliyyəti deməkdir. Subyektin obyektiv şərait haqqında biliyi nə qədər yaxşıdırsa, öz azadlığını bir o qədər dolğun reallaşdırır, eynilə də seçilmiş məqsəd və ona nail olmağın yolları obyektiv şəraitə, fəaliyyətin ictimai inkişafının qanunauyğun meyillərinə bir o qədər çox uyğun gəlir. Məsuliyət isə obyektiv şərait, onun dərk olunması və subyektiv müəyyənləşdirilmiş məqsəd ilə şərtlənən hərəkət üsulu seçmək zərurətidir, bu məqsədi həyata keçirmək üçün aktiv fəaliyyəti seçimi zərurəti deməkdir. Azadlıq məsuliyyəti doğurur, məsuliyyət isə azadlığı istiqamətləndirir. (123, s. 72).

Şəxsiyyətin azadlığı ilə məsuliyyətinin qarşılıqlı əlaqələrinin elmi izahı onların obyektiv şərtləndiyinin, yəni determinizm prinsipinin qəbul edilməsi ilə sıx bağlıdır. Şəxsiyyət mövcud zərurəti dərk etməklə bu və ya digər konkret davranış xəttini seçərkən, eyni zamanda özündə edəcəyi hərəkət üçün məsuliyyət hissini formalaşdırmağa başlayır. Həmin məsuliyyətin səviyyəsi isə sosial münasibətlərin və sosial institutların təkmilləşməsi dərəcəsi və ictimai şüurun inkişafı səviyyəsi ilə müəyyən olunur. Hətta şəxsiyyətin öz vicdanı qarşısında daşıdığı şəxsi məsuliyyətdən söhbət getdikdə belə, bu amillərin güclü rolu danılmazdır.

Qeyd edilməlidir ki, müasir şəxsiyyətin azadlığı və məsuliyyəti onun fərdiliyi (individuallığı) ilə sıx bağlıdır. Belə ki, şəxsiyyətin fərdi qərarlar qəbul etməsi və şəxsi məsuliyyəti onun azadlığının zəruri şərtidir, çünki yalnız fərdi, individual

keyfiyyətlərə malik olan şəxs azad və məsuliyyətli hərəkət etməyə qadirdir.

Əks halda, yəni şəxsiyyət individuallıqdan məhrum olduqda, o konformist mövqedə durur. Əslində bu etinasızlıq psixologiyasını, öz fəaliyyəti üçün məsuliyyəti başqalarının üzərinə yıxmaq cəhdlərini ifadə edir. Belə ki, şəxsi məsuliyyətdən boyun qaçırmağa çalışan şəxsiyyət, həm də öz azadlığını və individuallığını inkar edir, çünki azadlığın dərəcəsi həm də məsuliyyətin ölçüsü, səviyyəsi deməkdir. Buna görə də konformizm, şəxsiyyətin individuallığını və fərdiliyini inkar etməklə, həm də onun məsuliyyətini əlindən alır. Doğrudan da məsuliyyət insanın öz fərdiliyini, «individuallığını» dərk etməsi və başa düşməsi, öz ləyaqətini anlaması ilə bir başa əlaqədardır.

Deyilənlər sübut edir ki, müasir cəmiyyət öz şəxsiyyətlərinin fərdiliyinin, individual rəngarəngliyinin artırılması qayğısına qalmalıdır. Əsaslı və hərtərəfli demokratikləşmə xətti həyata keçirildiyi indiki şəraitdə insan fərdiliyinə geniş meydan verilməsi xüsusilə vacibdir. Yalnız belə olduqda cəmiyyətimizin qarşısında duran əsas vəzifəni hər bir insanın açıq demokratik cəmiyyət quruculuğunun fəal və şüurlu subyektinə çevirmək vəzifəsini uğurla həyata keçirmək olar. Məhz şəxsiyyətlərin individual rəngarəngliyi onlar tərəfindən ictimai vəzifələrin öz daxili «Mən»inə verilməsində misilsiz əhəmiyyət kəsb edir. Qarşıda duran əsas ictimai vəzifələri adekvat dərk edən və özününkü kimi qəbul edən şəxsiyyət tarixi prosesin fəal subyektinə çevrilir. Belə şəxsiyyət ictimai mühitin, xarici təsirin obyekti və yaxud cəmiyyətdə yaradılmış nemətlərin sadə istehlakçısı kimi çıxış etmir. O, özünü sosial həyatın fəal yaradıcısı hesab edir və təbii ki, cəmiyyətin ümumi yüksəlişi üçün onun məsuliyyəti də çoxalır. Bu

qəbildən olan şəxsiyyətlər öz davranış və fəaliyyət xəttini sərbəst və azad seçdikləri üçün, onların məsuliyyəti də yüksək olur. Əlbəttə, bu müddəa şəxsiyyətin fəaliyyət və davranışının tənzimlənməsində ümumi sosial normaların rolunu əsla azaltmır. Söhbət ondan gedir ki, həmin normalar şəxsi azadlığın təzahür sferasını məhdudlaşdırmamalı, əksinə onun daha dolğun reallaşmasına şərait yaratmalıdır. Çünki şəxsiyyətin azad hərəkəti onun nəyəsə məcbur edilməsi ilə bir araya sığmır, o yalnız öz daxilindən irəli gələn, öz xarakteri və qabiliyyətləri ilə şərtlənən hərəkətləri etdikdə məsuliyyət hissinə malik olur. Əsl məsuliyyət o deməkdir ki, o şəxsiyyətin öz davranışına şüurlu münasibəti ilə şərtlənir, xarici amillərin, institutların və normaların təzyiqi altında formalaşmır. Beləliklə, məsuliyyət şəxsiyətin öz azadlığının və cəmiyyət üçün dəyərliliyinin anlaşılması şüurunun nəticəsi kimi yaranır. Buna görə də şəxsiyyətin azadlığı və məsuliyyəti bir-birilə sıx çulğalaşmış halda çıxış edir. Onları yalnız abstraksiyada bir-birindən ayırmaq olar. Şəxsiyyətin azadlığı və məsuliyyəti öz mahiyyətinə görə aşağıdakılar deməkdir: onun tərəfindən zəruri olan və eyni zamanda arzu olunan məqsədə yönəlmiş fəaliyyət istiqamətinin axtarılıb tapılması; onlara nail olmaq üçün real imkanların müəyyənləşdirilməsi; irəli sürülmüş məqsədləri reallaşdırmaq üçün fəaliyyət üsullarının seçilməsi və bu fəaliyyətin özü. Bu mənada V.E.Davidoviçin aşağıdakı fikri çox haqlı səslənir:

«İnsan seçim imkanına malik olduğu və bu seçimin onun özündən asılı olduğu, yəni onun tutduğu mövqe ilə müəyyən olunduğu bütün hallarda azaddır. Öz hərəkətini obyektiv seçmək imkanı, öz iradəsinə uyğun olaraq davranış aktı həyata keçirmək, sosial məsuliyyətin bütün növlərinin əsasını təşkil edir. Azadlıq və

məsuliyyət bir-birindən ayrılıqda mövcud deyildir. Bundan əlavə azadlıq sferasının genişlənməsi, həm də hamının və hər kəsin öz işi üçün məsuliyyətinin yüksəlməsi deməkdir». (80, s. 18).

Müasir şəxsiyyətin həyat fəaliyyətinin bütün sahələrində azadlıq ilə məsuliyyətin vəhdəti daha da möhkəmlənir. Onlar demokratik ictimai quruluşun iki mühüm təməlini təşkil edir. Açıq cəmiyyətdə onların sıx bağlılığını ifadə edərək K.Popper yazırdı: «......hər gün öz məsuliyyətini bir qədər artır! Bu sənin azadlıq naminə edə biləcəyin hər şeydən yaxşıdır» (179, s. 190).

Məsuliyyəti, əldə olunmuş azadlığın meyarı kimi səciyyələndirərkən, aşağıdakı məqama da diqqət yetirmək tələb olunur. Söhbət ondan gedir ki, məsuliyyətin özü də elə azadlıqı deməkdir, lakin o müəyyən ölçü çərçivəsində normalaşmış azadlıqdır. Buna görə də azadlıq və məsuliyyətin inkişaf mərhələləri öz mahiyyəti etibarilə zəkanın inkişafı, ictimai həyatın aqilli təşkilinin inkişafı pillələri dməkdir.

Azadlıq və məsuliyyəti müasir şəxsiyyətin bir-birilə qarşılıqlı asılılıqda olan tərəfləri kimi araşdırarkən, onlar arsındakı müəyyən fərqləri və ziddiyyətləri də qeyd etmək vacibdir. Əks halda onların tamamilə eyni məzmunlu anlayışlar olduğu haqqında yanlış təsəvvür formalaşır. Azadlıq və məsuliyyətin sıx vəhdətdə olması, onların eyniliyi demək deyildir. Bu anlayışların qarşılıqlı fərqlər, tərəflərin birləşməsi və eyni zamanda bir-birindən ayrılması kimi səciyyələndirilməlidir. Bununla birlikdə onlar o dərəcədə yaxındırlar ki, ictimai şüurda az qala çox vaxt eyniləşdirilir.

Müasir şəraitdə, ictimai həyatın bütün sahələrində demokratikləşmənin genişlənməsi prosesində şəxsiyyətin daim artmaqda olan məsuliyyəti hər şeydən əvvəl həll edilən vəzifələrin

genişmiqyaslılığı və mürəkkəbliyi ilə izah olunmalıdır. Onları reallaşdırmaq üçün təkcə maddi, iqtisadi texniki, texnoloji amillərin təkmilləşdirilməsi kifayət deyildir. Cəmiyyətin hər bir üzvündə dərin şəxsi məsuliyyət şüurunu formalaşdırmaq onlardan heç də az əhəmiyyət kəsb etmir. Bu dövrdə şəxsiyyətin sosial məsuliyyəti onun fəallığının əsas göstəricilərindən biri rolunu oynayır. Təbiidir ki, söhbət hər cür fəallıqdan deyil, cəmiyyətin və şəxsiyyətin strateji məqsədlərini reallaşdırmağa yönəlmiş və onların tərəqqisinə xidmət edən pozitiv fəallıqdan gedir. Müasir şəxsiyyətin məzmununu və sosial mahiyyətini, burada azadlıq və məsuliyyətin qarşılıqlı əlaqəliliyi baxımından təhlil edərkən, onun arxalandığı oriyentirlər sisteminə də nəzər salmaq zəruridir. Sonuncu, şəxsiyyətin şüurluluq səviyyəsi, dünyagörüşü və mənəviyyatı ilə ayrılmaz surətdə bağlıdır.

İnsanda intellektual-mənəvi və iradi keyfiyyətlər nə qədər çox inkişaf edirsə, onun malik olduğu həyat oriyentirləri də bir o qədər ümumibəşəri standartlara və səviyyəyə yaxın olur və onlara müəyyən mənada zənginləşdirici təsir göstərir. Bu səviyyəyə yüksəlmiş şəxsiyyət aşağıdakı keyfiyyətləri ilə səciyyələnir: iradə və xarakterin möhkəmliyi, ruh yüksəkliyi və optimizm, azad fəaliyyət göstərmək əzmi, yaradıcılıq, xeyirxahlıq, humanizm, ədalətlilik və s. Həm də bu keyfiyyətlər təkcə sözdə deyil, real praktikada, gündəlik fəaliyyət prosesində özünü göstərməlidir. Sonuncu məqamda şəxsiyyətin azadlığı ilə məsuliyyətinin qarşılıqlı əlaqələri daha bariz şəkildə aşkara çıxır. Bu təsadüfü olmayıb, onunla izah edilir ki, məhz real həyat proseslərində şəxsiyyətin iradəsi ilə cəmiyyətin onun davranışına verdiyi tələbləri müqayisə gedişində bu iradənin həqiqi azadlıq imkanlarını müəyyənləşdirmək mümkündür. Çünki akademik T.İ.Oyzermanın haqlı olaraq qeyd

etdiyi kimi: «sosial məsuliyyətin qəbul edilməsi faktı mütləq azadlığa yol verilməsini tələb etmir. Sosial məsuliyyət şüuru ictimai inkişafı ilə o cümlədən şəxsiyyətin özünün inkişafı ilə şərtlənir». (160, s. 60).

Deyilənlərdən aydın olur ki, azadlıq və məsuliyyət müasir şəxsiyyətin formalaşması və inkişafının iki qarşılıqlı asılılıqlı və qarşılıqlı surətdə bir-birini tamamlayan tərəfləridir. Demokratikləşmə prosesi genişləndikcə, onların rolu və əhəmiyyəti də durmadan artır, vəhdəti daha da möhkəmlənir. Demokratik proseslərə adekvat şəxsiyyətin formalaşması yalnız azadlıq şəraitdə mümkün ola bilər. Yalnız azad insanlar məsuliyyətli ola bilərlər və azadlığın olmadığı yerdə əsl məsuliyyət də qeyri-mümkündür. (182, s. 12).

Beləliklə yüksək azadlıq və məsuliyyət şüuruna malik olmaq müasir dövrde şəxsiyyətin çox mühüm keyfiyyəti, onun formalaşması isə tərbiyənin və özünütərbiyənin başlıca məqsədi kimi çıxış edir.

Şəxsiyyətin azadlıq və məsuliyyətinin qarşılıqlı münasibətlərini zərurətdən kənarda təhlil etmək labüd olaraq birtərəfliliklə nəticələnir. Zərurətin dərk olunması həm iradə azadlığına malik olmağın, həm də real azad fəaliyyət göstərməyin başlıca komponentlərindən biridir. Zərurət obyektin inkişaf qurumlarının tələbləri ilə üst-üstə düşür. Lakin nəzərdə tutulmalıdır ki, zərurət, xüsusilə də onun ictimai forması – sosial zərurət, özünə təsadüflər vasitəsilə yol açır. Azadlıq həm zərurət və həm də təsadüflər ilə sıx bağlı şəkildə fəaliyyət göstərir. Daha dəqiq deyilsə, azadlıq zərurətin və təsadüflərin təzahür formalarına subyektivlik keyfiyyəti verir. Özü də azadlıq, o

cümlədən də seçim azadlığı ictimai inkişafın əsas meyillərinə, onları ifadə edən təsadüflərə daha çox arxalanır. (159, s. 49).

Sosial həyatda zərurət əlaqələri daha yüksək variantlılığa malik olması ilə seçilir. Belə ki, hər bir zəruri sosial proses çoxlu imkanlar spektri kimi çıxış edir. Bu cür çox imkanlıq və variantlar rəngarəngliyi şəxsiyyətin iradə azadlığının geniş təzahürü üçün şərait yaradır.

Tarixi zərurəti dərk edən şəxsiyyət buradakı mütərəqqi və konservativ meyilləri bir-birindən dəqiq fərqləndirməyi bacarır, öz fəaliyyətini daha çox birinci istiqamətə yönəldir. Şəxsiyyət tərəfindən zərurətin dərk olunması səviyyəsi nəinki təkcə onun azadlıq səviyyəsini müəyyən edir, həm də onun məsuliyyətinin obyektiv məzmununun mühüm göstəricisi rolunu oynayır. Bu məzmun çox geniş olub, şəxsiyyətin davranış və fəaliyyətinə, bütövlükdə obyektiv zərurətin və o cümlədən də onun konkret həyat şəraitinin şərtləndirdiyi tələblərin məcmusunu əhatə edir. Məsuliyyətli hərəkət etmək tarixi zərurətin (obyektiv qanunauyğunluqların) tələblərinə müvafiq hərəkət etmək, habelə cəmiyyətin öz üzvlərinə verdiyi tələblərə uyğun hərəkət etmək və deməli azad hərəkət etmək deməkdir. Məsuliyyətli hərəkət mövcud konkret situasiyada obyektiv tələblərə cavab verən imkanlar arasından seçim etməkdə ifadə olunur. Belə seçim nə qədər çox zəruri olursa, bir o qədər də azad xarakter daşıyır. Beləliklə aydın olur ki, fərdin azad subyektiv seçimi eyni zamanda obyektiv proseslərin zəruri momenti kimi təzahür edir. Subyektiv amilin çox mühüm məqamı olan seçim azadlığının ontoloji əsası obyektin xarakterli ictimai qanunauyğunluqlarda özünü göstərir. (159, s. 49).

Şəxsiyyətin azadlığı və məsuliyyəti ilə zərurət arasındakı qarşılıqlı əlaqələr müasir şəraitdə eyni mahiyyət kəsb edir. Bu yeni keyfiyyət bir tərfdən onların hər birinin yeni məzmunla tamamlanmasında, digər tərəfdən isə onların qarşılıqlı əlaqələrinin əvvəlki dövrlərlə müqayisədə daha möhkəm olmasında ifadə olunur. Həmin qarşılıqlı əlaqələrin mexanizmi başlıca olaraq aşağıdakı sxem üzrə gedir. Zərurət, azad hərəkətin bilavasitə ilkin müqəddən şərti kimi təzahür edir, məsuliyyət isə azadlığın ölçüsü kimi və zərurətin aşkara çıxmış forması kimi özünü göstərir.

Müasir şəraitdə ölkəmizdə sosial zərurət totalitarizmin qalıqlarını qətiyyətlə aradan qaldırmaqda və açıq cəmiyyətin əsaslarını yaratmaqda ifadə olunur. Bu zərurətin reallaşması gedişində insanların fəaliyyəti obyektiv qanunauyğunluqlara daha çox uyğun gəlir. İctimai həyatın bütün sferalarında həyata keçirilən əsaslı islahatlar insanların azad yaradıcı fəaliyyətinə və yüksək məsuliyyət şüuruna arxalanır. Açıq, demokratik cəmiyyət yaratmaqdan ibarət olan müasir tarixi zərurətin subyekt tərəfindən dərk olunması zərurət, azadlıq və məsuliyyət arasında qarşılıqlı əlaqələrin müasir anlamının özəyini təşkil edir.

Müasir şəxsiyyətin azadlığı və məsuliyyətinin vəhdətinin güclənməsində formalaşmaqda olan vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatı böyük rol oynayır. Əslində müasir dövrdə ictimai həyatda inkişaf etməkdə olan üç başlıca vəzifə (demokratikləşmə, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının yaradılması) bir-birindən ayrılmazdır. R.Darendorf onların vəhdətini belə ifadə edir: «Faktiki olaraq vətəndaş cəmiyyəti, həqiqi demokratiyanın və effektiv bazar iqtisadiyyatının ümumi məxrəci deməkdir» (81, s. 72).

Demokratikləşmə şəraitində ölkə vətəndaşları arasındakı

münasibətlər bazar qanunları əsasında qurulur. Bu qanunlar sərbəst rəqabət və azad istehsalçılar tərəfindən öz fəaliyyətinin məhsullarını maneəsiz mübadilə etməyi nəzərdə tutur. Buradan görünür ki, ümumidemokratik prosesdə şəxsiyyətin azadlığı, məsuliyyəti və hüquqları durmadan genişlənir, digər tərəfdən onların qarşılıqlı təsiri və əlaqələri daha da möhkəmlənir. Buna görə də «hüquq, azadlıq qarşısında hamının bərabərliyi və məsuliyyəti ölçüsünün yuridik ifadəsi kimi, demokratiya isə bərabərhüquqlu və avtonom vətəndaşların öz hakimiyyət funksiyalarının yerinə yetirilməsi prosesində qanuni bəhsləşməsi olmaq etibarilə yalnız inkişaf etmiş bazar münasibətləri şəraitində fəaliyyət göstərə bilər. (182, s. 12)

Demokratiya insanları ictimai proseslərdə fəal iştirak etməyə cəlb etməklə, onların hüquq və vəzifələrini təmin edir, həm də azad fəalliyyətini və bu fəaliyyət üçün məsuliyyətlərini artırır. Demokratik şəraitdə yaşayan şəxsiyyət geniş hüquq, imtiyazlar və azadlıqlara malik olmaqla yanaşı, həm də yüksək məsuliyyət daşıyır. Sözügedən tərəflər arasında bu əlaqələr təsadüfi və zahiri olmayıb, onların daxili məntiqindən irəli gəlir. Belə ki, demokratiya ümumilikdə şəxsiyyət-cəmiyyət münasibətlərinin mahiyyətini dəyişir, burada qarşılıqlı surətdə mənafelərin əlaqələndirilməsini və məsuliyyətin çoxalmasını şərtləndirir.

Demokratikləşmə ictimai həyatın bütün sferalarını və sahələrini əhatə edən proses olduğu üçün, onun hər bir sahədə inkişaf etdirilməsi, müvafiq surətdə burada şəxsiyyətin hüquq, azadlıq və məsuliyyətinin vəhdətini möhkəmləndirir. Məsələn, siyasi həyatda demokratikləşmənin əsas götəriciləri (siyasi sferanın əsaslı yeniləşdirilməsi, siyasi qüvvələrin və partiyaların sərbəst dialoqunun təşkili, hakimiyyət bölgüsü prinsipinin

təkmilləşdirilmiəsi, seçkili institutların və orqanların normal fəaliyyəti və s) avtoritar rejimdən fərqli olaraq təkcə sözdə deyil, real işdə şəxsiyyətin siyasi hüquq və azadlıqlarını təmin edir, onları müvafiq beynəlxalq standartlara yaxınlaşdırmağa çalışır. Bu münasibətdə müstəqil Azərbaycan Respublikası Konstitusiyasının bir çox maddələri şəxsiyyət azadlığı üçün hüquqi təminat verir. Belə ki, 58-ci maddədə deyilir:

«Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüquqna malikdir. Bütün biliklərin sərbəst fəaliyyətinə təminat verilir».

Müstəqil dövlətimizin Konstitusiyası təsbit edir ki, dövlət insanın azad fəaliyyətinin qorumağı öz öhdəsinə göstərir. Əsas Qanunun 12-ci maddəsində deyilir:

«İnsanın və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir».

Demokratiya şəxsiyyətin siyasi fəaliyyətinin azad təşkili üçün normal şərait yaratmaqla yanaşı, eyni zamanda onun siyasi məsuliyyətini də yüksəldir. Bu müddəa da qanunvericilikdə təsbit olunmuşdur. Konstitusiyanın 24-cü maddəsində deyilir:

«Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir».

Deyilənlər sübut edir ki, şəxsiyyətin siyasi hüqüq və azadlıqlarının inkişafı, onun siyasi məsuliyyətinin artırılmasından ayrılmazdır. Hüquqi dövlət quruculuğu prosesində onların bu vəhdəti daha da möhkəmlənməkdədir.

Demokratikləşmə təkcə siyasi həyatda deyil, eynilə də iqtisadi sahədə şəxsiyyətin hüquq, azadlıq və məsuliyyətinin qarşılıqlı əlaqələrinin möhkəmlənməsini şərtləndirir. Bu təsadüfi

deyildir. Yuxarıda göstərildiyi kimi, bazar münasibətlərinə əsaslanan səmərəli iqtisadiyyatın yaradılması azadlıq və demokratiyadan kənarda qeyri-mümküdür. Hazırda ölkəmizdə həyata keçirilən əsaslı iqtisadi islahatlar (mülkiyyət üzərində dövlətin inhisarının aradan qaldırılması, mülkiyyətin müxtəlif və bərabərhüquqlu formalarına, o cümlədən, xüsusi mülkiyyətə geniş meydan verilməsi, sosial-iqtisadi münasibətlərdə inzibati-amirlik metodlarının yerinə demokratik metodların qərarlaşması, sərbəst rəqabətin genişləndirilməsi və azad sahibkarlığın inkişaf etdirilməsi və s) şəxsiyyətin iqtisadi azadlığı və təşəbbüskarlığını prinsipcə yeni səviyyəyə yüksəldir. Bununla yanaşı, həm də şəxsiyyətin iqtisadi məsuliyyətinin (bir vətəndaş kimi öz üzərinə düşən vəzifələrin vaxtında və keyfiyyətli səviyyədə yerinə yetirməsi, xammal və məhsul təminatına cavabdeh olması, maliyə öhdəliklərini yerinə yetirməsi və s) güclənməsi ilə müşayət olunur.

Eyni fikri mənəvi həyatın timsalında da əsaslandırmaq olar. Mənəvi həyatın demokratikləşməsi fəaliyyətin bu sahəsində uzun illər ərzində kök salmış deformasiya və böhran hallarının aradan qaldırılmasına, təhsilin, elmin və mədəniyyətin inkişaf etdirilməsinə, mənəvi sərvətlərin zənginləşdirilməsinə, bir sözlə, mənəvi tərəqqini təmin edən bütün amillərin inkişafına yönəlmişdir. Onların həyata keçirilməsi gedişində şəxsiyyətin mənəvi azadlıqlarının sferası durmadan genişlənir, ictimai şüurda sərbəst düşüngə tərzi qərarlaşır, ideyaların və rəylərin sərbəst ifadə olunmasına, şəxsiyyətin idrakı azadlığına, özünüifadə və özünütəsdiq azadlığına şərait yaranır. Lakin bu məsələnin bir tərəflidir, digər və çox vacib tərəf bundan ibarətdir ki, şəxsiyyətin mənəvi azadlığının üfüqləri genişləndikcə, onun cəmiyyət və digər

insanlar qarşısında mənəvi baxımdan borcu və məsuliyyəti də artır.

Yuxarıda deyilənlər sübut edir ki, müasir dövrdə şəxsiyyətin həyat fəaliyyətinin bütün sahələrində hüquq və azadlıqların artması ilə yanaşı onun məsuliyyətinin çoxalması meyli də müşahidə olunur. Bu üç tərəfin möhkəmlənməkdə olan vəhdəti ölkə daxilində həyata keçirilən əsaslı transformasiya prosesləri ilə şərtlənir. Lakin o, təkcə bununla məhdudlaşmır. Belə ki, müasir dünyada gedən ümumi qloballaşma prosesləri bəşəriyyətin həyatında ümumi cəhətlərin çoxalması, dünya birliyi ölkələrinin qarşılıqlı asılılığının artması, qlobal problemləri həll etmək üçün xalqların və dövlətlərin əməkdaşlığı zərurəti, bütövlükdə götürdükdə sosial tərəqqinin hümanistləşməsi meyli bu prosesə öz güclü təsirini göstərir.

# NƏTİCƏ

Müasir şəxsiyyət tipinin təhlili hər şeydən əvvəl belə bir ümumfəlsəfi müddəanın doğruluğunu sübut edir ki, şəxsiyyət çoxölçülü, çoxtərəfli və son dərəcə mürəkkəb sosial fenomendir. Müasir dövrdə açıq cəmiyyətin formalaşması prosesi şəxsiyyətin həyat və davranışını prinsipcə yeni sosial zəmin üzərinə keçirir, yəni onun mahiyyətində, cəmiyyət ilə qarşılıqlı münasibətlərində, ictimai rolunda, fəallığında, mədəniyyəti və şüurluluğunda əvvəlki dövrlər ilə müqayisə olunmayacaq dərəcədə böyük irəliləyişlər yaradır.

«Fərd», «fərdiyyət» və «şəxsiyyət» anlayışları bir-birilə ayrılmaz vəhdətdə olub, vahid insan bioloji növünün müxtəlif ifadə formalarını və ya üsullarını təşkil edir. Onların hər biri həm də spesifik məzmuna malikdir. Bu anlayışların qarşılıqlı münasibətləri mexaniki qaydada deyil, sadədən mürəkkəbə doğru yönələn çoxpilləlik prinsipi üzrə qurulmuşdur. Ən yüksək səviyyəni təşkil edən şəxsiyyət əvvəlkilərin də bir sıra əsas cəhətlərini özündə ehtiva edən əsl sosial mahiyyət daşıyır.

Müasir sosial idrak və insanşünaslıq elmi şəxsiyyətə mürəkkəb struktura malik bütöv bir sistem halında yanaşmaqla, onun başlıca komponentləri kimi fəaliyyəti və ünsiyyəti seçib ayırır. Özündə obyektiv və subyektiv tərəflərin sıx vəhdətini və özünəməxsus şəkildə çulğalaşmasını əhatə edən fəaliyyət prosesində təkcə təbii və sosial reallıq deyil, həm də şəxsiyyətin özü dəyişilir, təkmilləşir və inkişaf edir. Digər sistemyaradıcı əlamət – ünsiyyət mürəkkəb daxili məzmuna malikdir. O, mənəvi proses olmaqla yanaşı, həm də insanların fəaliyyəti nəticələrinin, vərdiş və bacarıqlarının, biliklərinin və dəyərlərinin mübadiləsini əhatə edən çoxtərəfli sosial fenomendir.

Totalitar recimdən imtina, demokratik cəmiyyətə, formalaşması mərhələsi ictimai həyatın bütün sferalarında baş verən əsaslı transformasiya prosesləri həm də şəxsiyyətin həyat fəaliyyətində və davranışında hərtərəfli və dərin irəliləyişlər yaradır. Bu dəyişkiliklərin məzmunu, əhatə dairəsi və miqyası o qədər böyükdür ki, onlara əsaslanmaqla şəxsiyyətin yeni tarixi tipi – «müasir şəxsiyyətin» formalaşdığı haqqında nəzəri müddəa irəli sürmək olar.

Milli müstəqillik yolu ilə irəliləyən müasir Azərbaycanda cəmiyyətin siyasi təşkili və sistemində baş verən əsaslı dəyişikliklər, hərtərəfli və ardıcıl demokratikləşdirmə xətti müasir beynəlxalq aləmdə baş verən qloballaşma və kütləvi siyasiləşmə meyilləri ilə vəhdətdə çıxış edərək şəxsiyyəti siyasi həyatın və siyasi fəaliyyətin əsl subyektinə çevirmişdir. Faktiki materialların təhlili sübut edir ki, bu prosesdə şəxsiyyətin siyasi fəallığı misli görünməmiş səviyyəyə yüksəlmiş, onun məzmunu və mahiyyəti, reallaşma istiqamətləri, həyata keçirilmə üsulları və vasitələri genişlənmiş və təkmilləşmişdir.

Eyni ilə də şəxsiyyətin siyasi davranışı, şüur səviyyəsi (həm adi həm də nəzəri pillədə) və siyasi mədəniyyəti prinsipcə yeni miqyaslar kəsb edir. Bununla əlaqədar olaraq dövlətimizin siyasi strateci maraqlarını, müasir dünya miqyasında yaranan siyasi qüvvələr nisbətində baş verən dəyişiklikləri (onların perspektivi də nəzərə almaqla) ölkəmizin çoxəsrlik siyasi dövlətçilik təcrübəsi və Azərbaycan xalqının siyasi və milli mentaliteti və dəyərləri ilə üzvü surətdə birləşdirən siyasi milli ideoloqiyanın yaradılması həyati zərurət və tələbatdır.

Müasir dövrdə şəxsiyyətin həyat fəaliyyəti və davranışında özünü göstərən mühüm yeniliklər cəmiyyətimizin iqtisadi

sferasında həyata keçirilən radikal islahatlar ilə ayrılmaz əlaqədə və onların güclü təsiri altında baş verir. Hazırda iqtisadi münasibətlər sisteminin demokratik cəmiyyətin tələbləri üzrə dəyişdirilməsini ifadə edən tədbirlər (geniş özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi, mülkiyyətin müxtəlif bərabər hüquqlu formalarının bərqərar olması, xüsusi mülkiyyətin rolunun artırılması, iqtisadiyyatın bazar mexanizmlərinin təşəkkülü və s.) şəxsiyyətin iqtisadi tələbatlarını, mənafelərini, onların ödənilməsi üsulları və formalarını bazar qanunları məcrasına salır. Bu prosesdə şəxsiyyətin iqtisadi bilikləri çoxalır və iqtisadi təfəkkürü yüksəlir, onda idarəçilik vərdişləri inkişaf edir. Formalaşmaqda olan bazar iqtisadiyatı, azad sahibkarlığa şərait yaradılması, xüsusi mülkiyyətin inkişaf etdirilməsi, şəxsiyyətin iqtisadi fəallığının artması və təşəbbüskarlığının qeyri-adi səviyyəyə yüksəlməsinə, bütövlükdə mahiyyət qüvvələrinin daha dolğun reallaşdırılmasına gətirib çıxarır. Digər tərəfdən bazarın sərt qanunları şəxsiyyətin formalaşması və inkişafına mənfi, pozucu təsir göstərir.

Bazar iqtisadiyyatının müasir şəxsiyyət üçün törətdiyi probelmlər sırasında işsizliyin artması, əhalinin həyat səviyyəsinə görə kəskin qütbləşməsi meyli, yoxsulluğun artması, sosial dəyərlərə laqeyd münasibət və sair başlıca yer tutur. Sonra, «bazar orientasiyalı şəxsiyyət» (E.From) üçün daha çox iqtisadi fayda götürmək və maksimum qazanc əldə etmək başlıca həyat prinsipinə çevrilir və onun təkidilə şəxsiyyətin mənəvi cəhətdən kasadlaşması meyli özünü göstərir, onun fəaliyyətində və davranış motivlərində mənəvi dəyərlərin itirilməsi təhlükəsi yaranır. Ona yol verməmək üçün ölkəmizdə dövlət tərəfindən tənzim olunan,

sosial yönümlü bazar iqtisadiyyatının formalaşdırılması öz müsbət mahiyyətini göstərməkdədir.

Müasir şəxsiyyətin formalaşmasını və inkişafın şərtləndirən sosial proseslər sırasında hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin əsaslarının yaradılması çox mühüm yer tutur. Şəxsiyyətin bu kontekstdə təhlili sübut edir ki, sözügedən proseslər onun həyat fəaliyyəti və davranışını daha məzmunlu və zəngin edir, özünü reallaşdıra bilməsi üçün real şərait və imkanlar yaradır.

Müasir şəxsiyyətin sosial siması özündə həm də milli-etnik münasibətlərin müasir səviyyəsini, onda baş verən meyilləri güclü şəkildə əks etdirir. Son dövrdə milli münasibətlərdə özünü göstərən ciddi yeniliklər marksist fəlsəfənin guya milli həyatın sosial-sinfi göstəricilərə tabe olduğu haqqındakı müddəasının əsassızlığını aşkara çıxarır. Müstəqillik dövründə ölkəmizdə düzgün və elmi əsaslandırılmış milli siyasət yeridilməsi, demokratik prinsiplərin milli münasibətlər sferasına geniş tətbiqi, əhalinin əksəriyyətini təşkil edən millət ilə azlıqda qalan etniki qruplar arasında normal və ədalətli münasibətlərin bərqərar edilməsi, sonuncuların dilinə, adət-ənənələrinə və mədəniyyətinin inkişafına qayğı göstərilməsi, şəxsiyyətin millimənlik şüurunun düzgün istiqamətdə formalaşmasını təmin edən mühüm şərtlərdir. Yüksək milli mənlik şüuruna malik şəxsiyyət milli həyatın bütün dərinliklərinə və incəliklərinə nüfuz edə bilir, onda milli müəyyənlik haqqında dəqiq təsəvvür yaranır. O, həm də demokratik həddini açmış millətçilik hisslərindən və şovinizimdən azad olur.

Bütün tarixi mərhələlərdə şəxsiyyət ilə mədəniyyətin ayrılmaz olmasına baxmayaraq, müasir dövrün reallıqları onların

münasibətində də ciddi yeniliklər yaradır. Şəxsiyyət müasir mədəniyyət sistemində getdikgə artmaqda olan rol oynayır, onun mövcüdluğunun bütün təzahür formaları daha çox mədəni mahiyyət və məzmun kəsb edir. Müasir şəxsiyyətin mədəniyyət sistemində təhlil onun belə bir yeni keyfiyyətini aşkara çıxarır: indi şəxsiyyət əvvəllərdə olduğundan daha artıq dərəcədə Qərb və ya Şərq sivilizasiyalarını, mədəniyyətlərini seçmək kimi mürəkkəb dilemma qarşısında qalır. Hər iki mədəniyyət tipinin qovuşuğunda yerləşən Azərbaycan üçün bu problem daha mürəkkəb səciyyə daşıyır. Odur ki, hazırda ölkəmizdə şəxsiyyətin inkişafı mənafeləri bu mədəniyyətlərin hər birinə xas olan müsbət cəhətləri əxz etmək və onları xalqımızın tarixi, milli dəyərləri ilə üvzi şəkildə əlaqələndirməyi tələb edir.

Şəxsiyyətin özgələşməsi ümumisosioloji qanunu müasir müasir dövrdə özünəməxsus şəkildə təzahür edir. Burada onun fəaliyyətinin spesifikliyi ondadır ki, hazırda həyata keçirilməkdə olan əsaslı və hərtərəfli demokratikləşmə prosesləri şəxsiyyət ilə mövcüd sosial strukturlar arasındakı münasibətlərdə yaxınlıq yaradır və bunu durmadan artırır. Bunun nəticəsində şəxsiyyətin özgələşməsi nisbətən yumşaq şəkildə özünü göstərir.

Müasir şəxsiyyəti səciyyələndirən başlıca keyfiyyətlərdən birini onun artmaqda olan humanizmi təşkil edir. Hazırda ölkə daxilində və dünya miqyasında gedən dərin proseslər şəxsiyyətin humanizminə yeni məzmun gətirir və onu daha də zənginləşdirir. Bu təsadüfü olmayıb, onunla izah edilir ki, ictimai və fərdi həyata həqiqi demokratik prinsiplərin tətbiqi humanizm anlayışını ifadə edən keyfiyyətlərdən ayrılmazdır. Buna görə də milli özünüdərkə və ümumbəşəri dəyərlərə əsaslanan demokratiya genişləndikcə,

həmin şəraitdə yaşayıb fəaliyyət göstərən şəxsiyyətin hərtərəfli humanistləşməsi meyli də surətlənir.

Müasir şəxsiyyətin kompleks sosial-fəlsəfi təhlilinin çox mühüm bir tərəfini ona aksioloji mövqedən yanaşılması təşkil edir. Sözügedən istiqamət həm də buna görə önəmlidir ki, o yaxın keçmişə qədər diqqət mərkəzindən kənarda qalmışdır. İndi isə getdikcə daha çox aydın olur ki, o insanın, şəxsiyyətin dünyanı və özünü dərk etməyə, dəyişdirməyə və sözün əsl mənasında insanilәşdirməyə yönələn fəaliyyətinin aparıcı istiqamətlərindən birini ifadə edir. Ölkə daxilində və beynəlxalq aləmdə gedən əsaslı yeniləşmələrin təsiri altında dəyərlərin yenidən mənalandırılması adlanan çoxtərəfli və mürəkkəb proses baş verməkdədir. Onun mahiyyəti bundadır ki, müasir dövrün reallıqları şəxsiyyətdən ənənəvi formalaşmış dəyərlər sisteminə yeni tərzdə yanaşmağı tələb edir. Digər tərəfdən müasir şəxsiyyətin malik olduğu dəyərlər yeni siyasi, sosial-qnesoloji, etik xarakterli predmet və subyekt dəyərləri ilə zənginləşir. Müasir həyatın dinamizmi digər amillər ilə vəhdətdə çıxış edərək, şəxsiyyətin aksioloji təşkilində və strukturunda, dəyərlər oriyentasiyasında ciddi irəliləyişlər yaradır, bütövlükdə şəxsiyyətin sosiallaşması prosesində dəyərlərin rolunu və əhəmiyyətini durmadan artırır.

Müasir dövr şəxsiyyətin azad seçimi və fəaliyyətinin inkişafında keyfiyyətcə yeni mərhələ deməkdir. Açıq cəmiyyətin əsaslarının yaradılması prosesində şəxsiyyət azadlığının ontoloji, qnesoloji və sosioloji cəhətlərinin mahiyyəti və həyata keçirilməsində çox mühüm irəliləyişlər baş verir ki, bunlara misal olaraq onun sosial dəyərlər ilə getdikcə daha sıx vəhdətdə çıxış etməsini, hazırda azadlığın hisslər və emosiyalardan daha çox şüurun rasional, intellektual səviyyəsinə arxalanmasını,

azadlığın daxili cəhətinin sürətli inkişafını və onun xüsusi mülkiyyətlə əlaqəli olmasını və sair göstərmək olar. Siyasi, iqtisadi və mənəvi sferalarda demokratikləşmənin dərinləşməsi, fikir pluralizminin və sərbəst yaradıcılıq mühitinin bərqərar olması, bu sahələrin hər birində şəxsiyyətin azad yaradıcı potensialının dərin qatlarının üzə çıxarılaraq, dolğun şəkildə reallaşdırılmasına şərait yaradır. Müasir şəxsiyyətin azad seçimi və fəaliyyəti mexanizmində onun intuisiyası, iradəsi, ustanovkaları, tələbatları, maraq və məqsədləri getdikcə mühüm və həlledici rol oynayır. Hazırda şəxsiyyət azadlığının bütün istiqamətləri və tərəfləri ilə onun məsuliyyəti bir-birinə daha dərindən nüfuz edir, eyni zamanda şəxsiyyətin hüquqları çoxalır və vəzifələri daha mürəkkəb xarakter alır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

### Azərbaycan dilində


1. Heydər Əliyev. Türkdilli dövlət başçılarının İstanbul zirvə toplantısında nitqi. «Müstəqilliyimiz əbədidir», II cild. Bakı, Azərnəşr, 1997
2. Heydər Əliyev. Gənclərin I Respublika Forumunda nitqi. «Azərbaycanın gələcəyi etibarlı əllərdədir». Bakı, Azərnəşr, 1999
3. İlham Əliyev. İnkişaf məqsədimizdir. 15-18-ci cildlər. Bakı: Azərnəşr, 2014
4. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Bakı: Ayna Mətbu evi. 2001
5. Abbasov Ə.F. Milli maraqlar və milli ideologiya. Bakı: Təknur, 2012
6. Abbasov Ə.F. Əsgərov İ. Keçid dövrü və yeni iqtisadi təfəkkür. Bakı: Nurlan, 2002
7. Azərbaycan XXI əsrin astanasında. Bakı: Elm, 1997
8. Azərbaycan iqtisadiyyatı. Bakı: Elm, 1999
9. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981
10. Cəfərova V. Azərbaycan müstəqillik yollarında: problemlər, mülahizələr. Bakı: Elm, 2003
11. Davıdoviç E. Azadlıq. Bakı: Gənclik, 2003
12. Engels F. Anti-Dürinq. Bakı: 1988
13. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı: Araz, 2000
14. Əlizadə H. İnsan fəlsəfəsi. Bakı: Nurlan 2003
15. Əfəndiyev M. Siyasi elmin problemləri. Bakı: Siyasət, 1998

16. Əfəndiyev M. Siyasi elmin əsasları. Bakı: Siyasət, 2004
17. Əfəndiyev M. Şirinov A. Sosiologiyanın nəzəri problemləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 2001
18. Kərimov Ə. Demokratiya: bəşəriyyətin bu günü və gələcəyi. Bakı: Elm, 2009
19. Fəlsəfə. Dərslik (F.Ramazanovun redaktəsi ilə). Bakı: Azərnəşr, 1997
20. Hacıyev İ. Heydər Əliyev və milli tarixi yaddaşın bərpası. Bakı: Elm, 2003
21. Hacıyev Z. Fəlsəfə. Bakı: Adiloğlu, 2000
22. Hacıyev Z. Keçid dövrü və sosial dəyərlər // Bakı Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası. 2002, №3-4
23. Həsənov R. Şəxsiyyətin sosial məsuliyyəti və onun növləri // «Fəlsəfə. Ekoloqiya. Mədəniyyət» 13-cü buraxılış. Bakı: Adiloğlu, 1993
24. Xəlilov S. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı, Azərbaycan Universiteti, 2002
25. Xəlilov S. Elmi-texniki tərəqqi və onun sosial iqtisadi Nəticələri. Bakı, Elm, 1996
26. Xəlilov S. Fəlsəfədən siyasətə. Bakı: Elm, 1998
27. İsmayılov Ə., Əliyev Q. Heydər Əliyev və milli ləyaqət fəlsəfəsi. Bakı. Təbib, 1998
28. İsmayılov F. Müasir Qərb fəlsəfəsi. Bakı, Azərnəşr, 1991
29. İsmayılov İ. Azərbaycan xalqının siyasi mədəniyyəti, Bakı, «Zaman», 2002
30. İqtisadi nəzəriyyə (T.Vəliyevin redaktəsi ilə). Bakı: Çaşıoğlu, 1999
31. Qasımzadə F.F. Şəxsiyyət: formalaşması və inkişafı // Azərbaycan məktəbi, 1989, №10

32. Qafarov Ş. Şəxsiyyətin ictimai-siyasi fəallığının sosioloji təhlili. Sosial elm. nam. diss. avtoref. Bakı, APRDƏU, 1996
33. Marks K. və Engels F. Seçilmiş əsərləri 3 cilddə, 3-cü cild. Bakı: Azərnəşr, 1982
34. Məmmədəliyev V. İslam dinində kamil insan konsepsiyası. // Dirçəliş – XXI əsr, №7-8, 2000
35. Məmmədova S. Şərq-Qərb problemi tarix və müasirlik // «Fəlsəfə. Ekologiya. Mədəniyyət». 18-ci buraxılış. Bakı, 1993
36. Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meyilləri. Bakı: Elm ,1999
37. Məmməzadə. İ. R. Bir daha fəlsəfə haqqında. Bakı: Təknur, 2012
38. Mehdiyev A., Mehdiyev R. İrsiyyət və şəxsiyyət probleminin yaradıcılıq aspektləri, Naxçıvan, Əcəmi, 2003
39. Məmmədova S. Keçid dövründə şəxsiyyət problemləri. Sosial. elm. nam. diss. avtoref. Bakı, Elm, 2004
40. Məmmədov Ə., İbrahimov İ. İnsan haqqında fəlsəfi düşüncələr. Bakı: Renesans, 2000
41. Nigar Cərulla qızı. Fəlsəfi-bədii fikir tarixində şəxsiyyət konsepsiyası. Bakı: Günəş, 2000
42. Rüstəmov İ. Fəlsəfənin əsasları. Bakı: Elm, 2004
43. Rzayev M. Müasir fəlsəfədə şəxsiyyət. Bakı: Nurlan, 2003
44. Rzayev M. Şəxsiyyətin fəlsəfəsi. Bakı: ADPU, 2004
45. Rzayev M. Fəlsəfədə şəxsiyyət problemi. Bakı: Elm, 2004
46. Səttarov M. İnsan və cəmiyyət haqqında düşüncələr. Bakı: Elm, 2000
47. Sosial-siyasi problemlər. XI buraxılış (İ.Rüstəmovun redaktəsi ilə). Bakı, ADPU, 2004
48. Şükürov A. Fəlsəfə. Bakı: Elm, 1987

49. Şükürov A. Fəlsəfə və zaman. Bakı: Elm, 1998
50. Şirəliyev H., Vahidov F. Ahəngdar inkişaf etmiş şəxsiyyətin formalaşması. Bakı: Azərnəşr, 1987
51. Tağıyev Ə. İnsan və şəxsiyyət. Bakı: MBM, 2005
52. Talışlı M. Şəxsiyyətin həyati özünümüəyyənetməsinin dialektikası. Fəl. elm. nam. diss. avtoref. Bakı: Elm, 1995
53. Vəliyev T.S., Məmmədov H.M. İqtisadiyyat. Bakı: Çaşıoğlu, 1998

**Rus dilində**

54. Абдуллаев Я.А. Проблема человека в социокультурном контексте (Переходный период). Баку: 2002
55. Абишев К.А. Человек. Индивид. Личность. Алма-Ата: 1988
56. Абульханова-Славская К.А. Деятельность и психология личности. М.: 1980
57. Абульханова-Славская К.А. Стратегия жизни. М.: 1991
58. Абульханова-Славская К.А. Соотношение индивидуального и общественного как методологический принцип психологии личности / Теоретические проблемы психологии личности. М., 1974
59. Авторитаризм и модернизация в странах Азии и Африки. Реферативный сборник. М., ИНИОН 1994
60. Аллахверанов А.К. Развитие общественного сектора как фактор становления гражданского общества. Автореф. дисс. канд. филос. наук. Баку, 2002
61. Ананьев Б.Г. Человек как предмет познания. Л.: 1987
62. Ананьев Б.Г. О проблемах современного человекознания. М.: 1977

63. Ануфриев Е.А. Социальный статус и активность личности. М.: Изд-во Моск. ун-та 1984
64. Аристотель Сочинения в 4 т. Т.4 М.: Мысль, 1984
65. Арон Р. Демократия и тоталитаризм. М.: 1993
66. Арсеньев А.С. Философские основания понимания личности. М.: 2001
67. Арефьева Г.А. Социальная активность. М.: Мысль, 1974
68. Архангельский Л.М. Общество, интерес, личность. / В сб. «Общественный интерес и личность». Свердловск ,1967
69. Асмолов А.С. Психология личности. М.: 2002
70. Афанасьев В.Г. Системность и общество. М.: Политиздат 1980
71. Ахмедли Дж. Т. Свобода и необходимость. Баку: 1960
72. Ахмедли Дж.Т., Рагимов А.А. Личность и труд. Баку: Азернешр, 1980
73. Баликов В.З. Общая экономическая теория. Новосибирск: 1996
74. Биттем Девид. Демократия. Вопросы и ответы. М.: 1995
75. Борисов Л.П. Политология. М.: 1966
76. Бородкин Ф.М. Третий сектор в социальном государстве и местное самоуправление. Новосибирск: 1998
77. Брейм Р., Майерс С. Принципы корпоративных финансов. М.: 1997
78. Буева Л.П. Социальная среда и сознание личности. М.: Наука 1978
79. Буева Л.П. Человек: деятельность и общение. М.: МГУ, 1988
80. Бессознательное: природа, функции, методы исследования. т.1. Тбилиси: Мецниерава, 1978

81. Бессознательное: природа, функции, методы исследования. т.2. Тбилиси: 1978
82. Бессознательное: природа, функции, методы исследования. т.3. Тбилиси: 1985
83. Бессознательное: природа, функции, методы исследования. т.4. Тбилиси: 1988
84. Быстрицкий Е.К. Личность в мире культуры: философско-онтологический аспект. Автореф. дисс. докт. филос. наук. Киев, Науково думка, 1992
85. Василенко Н.А. Современные политические доктрины. М.: 1992
86. Васильев Л.С. История востока в 2-х т. М.: Наука, 1993, т.1
87. Введение в философию. Под ред. И.Т. Фролова. Ч.2 М.: Политиздат, 1989
88. Виндельбанд В. О свободе воли. М.: СПБ, 1992
89. Витюк В.В. Становление идеи гражданского общества и ее историческая эволюция. М.: 1995
90. Вегун И.Ф. Бытие человека: деятельность и смысл. Рига :1987
91. Вебер М. Избранные произведения. М.: Прогресс, 1990
92. Велиханлы Н. Один из самых выдающихся представителей нашего народа в XX веке. «Бакинский рабочий», 2003, 21 февраля
93. Восток-Запад. Исследования. Переводы. Публикации. М.: 1988
94. Гаджиев К.С. Политическая наука. М.: 1994
95. Гаджиев К.С. и др. Введение в политологию. М.: 1995
96. Гак Г.М. Диалектика коллективности и индивидуальности. М.: 1967

97. Ганелл Дж. Г. Политическая теория: эволюция отрасли // Вестник Москов. Универс. Сер.12 Социально-политические исследования ,1993 № 2
98. Гегель Г.Ф. Сочинения т.7, М-Л.: 1934
99. Гегель Г.Ф. Сочинения т.4, М.: 1959
100. Гегель Г.Ф. Сочинения т.8. М-Л.: 1936
101. Гегель Г.Ф. Энциклопедия философских наук. т.3 М.: Мысль, 1977
102. Гегель Г.Ф. Работы разных лет. М.: 1972
103. Гегель Г.Ф. Философия права. М.: Мысль, 1990
104. Гегель Г.Ф. Политические произведения. М.: 1975
105. Гельбрейт Дж. Новое индустриальное общество. М.: Политиздат 1969
106. Гершензон М., Гольфстрем И. Лики культуры. Альманах. М.: 1995, т.1
107. Гидденс Э Социология. М.: 1999
108. Григорьев С.И. Основы построения социологической теории жизненных сил человека / Социология на пороге XXI века. Новые направления исследований. М.: 1998
109. Григорьев С., Немировский В. В поисках смысла жизни и справедливости. Красноярск: 1995
110. Гозман Л.Я., Эткинд А.М. Люди и власть: от тоталитаризма к демократии. М.: Прогресс 1991
111. Гулыга А.В. Немецкая классическая философия. М.: Мысль, 1986
112. Гумилев Л.Н. Ритмы Евразии. М.: 1993
113. Давидович В.Е. Проблемы человеческой свободы. Из-во Львовского Ун-та 1967

114. Дарендорф Р. Дорога к свободе: демократизация и ее проблемы в Восточной Европе // Вопросы философии. 1990, № 9
115. Двадцать шесть основных понятий политического анализа. // Полис. М., 1993, № 1
116. Дегтярев А.А. Основы политической теории. М.: 1998
117. Демидов А.А. Ценностное измерение власти // Полис, 1996, № 3
118. Джиоев О. Смысл культуры. М.: 1990
119. Диалог цивилизаций: Восток. Запад. Материалы Международного симпозиума // Вопросы философии, 1998, № 2
120. Дилигенский Г.Г. В защиту человеческой индивидуальности // Вопросы философии, 1990, № 3
121. Дубинин Н.П. Философские и социологические аспекты генетики человека // Вопросы философии, 1971, № 1
122. Дюи Дж. Введение в философию воспитания. М.: 1981 Евразийство: за и против, вчера и сегодня. Материалы круглого стола // Вопросы философии. 1995, № 6
123. Здравомыслов А.Г. Интерес как социологическая категория // Вестник ЛГУ. 1959, № 17
124. Зеркин Д.П. Основы политологии. Ростов – на – Дону: 1977
125. Зиммель Г. Избранные произведения. Т.2. Созерцание жизни. М.: 1996
126. Иванчук И.В. Общественно-политические потребности, интересы, их специфика и социальная роль. Свердловск: 1988
127. Иванов В.П. Человеческая деятельность – познание – искусство. Киев: Наукова думка, 1987
128. Иванов А.В. Сознание и мышление. М.: 1994

129. Иванцевич Д.М., Лобанов А.А. Человеческие ресурсы управления. М.: 1989
130. Игнатьев А. «Евразийство» и поиск новой русской культурной идентичности // Вопросы философии 1995, № 6
131. Иленков Э.В. Что же такое личность. – С чего начинается личность. М.: 1983
132. Ильин В.В. Философия. Часть I, М.: 1999
133. Ильин В.В. Философия. Часть II, М.: 1999
134. Ильин И.А. О сущности правосознания. М.: 1993
135. Ильин И.А. Собрание сочинений в 10 томах. Т.1, М.: 1993
136. Илин М.В. Политика как предмет изучения, состав политологии и методы основных политических дисциплин. М.: 1994
137. Иноземцев В.П. Собственность в постиндустриальном обществе // Вопросы философии. 2000, № 12
138. Каган Л.М. Мир общения. М.: 1989
139. Каган Л.М. Человеческая деятельность. М.: Мысль, 1988
140. Какабадзе З. Проблема человеческого бытия. Тбилиси: 1985
141. Камю А. Бунтующий человек // Философские науки, 1989
142. Канке А.Е. Философия. М.: 1999
143. Кант И. Сочинения в 6 т. Т.3, М.: 1966
144. Кант И. Собрание сочинений т.4, М.: 1959
145. Кант И. Сочинения т.5, М.: 1966
146. Кант И. Сочинения в 6 т. Т.6, М.: 1966
147. Каутский К. Демократия и социализм: фрагменты разных лет. М.: 1991
148. Кветной М.С. Человеческая деятельность: сущность, структура, типы. М.:1987

149. Кемеров В.Е. Проблема личности: методология исследования и жизненный смысл. М.: Политиздат 1987
150. Климов Е.А. Индивидуальный стиль деятельности. Казань: 1989
151. Коваленко А.И. Правовое государство: концепции и реальность. М.: 1993
152. Козел А.А. Политическая активность личности как обжект научного управления. Автореферат дисс. канд. филос. наук. Минск, 1988
153. Концепция разделения властей: история и современность. Научно-аналитический обзор. М.: ИНИОН РАН, 1992
154. Коршунов А. Диалектика обжекта и субжекта в познании. М.: 1982
155. Косолапов А.И., Марков В.И. Свобода и ответственность. М.: 1969
156. Кравченко И.И. Концепции гражданского общества в философском развитии // Политические исследования, 1991, № 5
157. Крапивенский С.Е. Социальная философия. М.: 1998
158. Кулиев Т.А. Регулируемая рыночная экономика. Баку: 2000
159. Курс экономической теории. Под ред. В.М.Чепурина. М.: 1999
160. Лабиринты одиночества. Под ред. Н.Покровского. М.: Прогресс, 1989
161. Левин Г.Д. Свобода и покинутость. Методологический анализ // Вопросы философии, 1997, № 1
162. Левин В.М. Системные исследования и символическая концепция человека / Системные исследования. М.: 1985,

163. Лекторский В.В. Деятельностный подход: смерть или возрождение? // Вопросы философии, 2001, № 2
164. Леонтьев А.Н. Потребности, мотивы, сознание. / Мотивы и сознание в поведении человека. М., Наука, 1966
165. Леонтьев А.Н. Психика. Деятельность. Сознание. М.: 1985
166. Лисина М.И. Проблемы онтогенеза общения. Л.: 1989
167. Личность впроцессе демократизации общества. Баку, Элм, 2000
168. Мальцев В.А. Основы политологии. М.: 1997
169. Мамедзаде И.Р. Гражданское общество и национальная идеология. Б.: 1945
170. Маркс К., Энгельс Ф. Сочинения. Т.25, Часть II
171. Маркс К., Энгельс Ф. Сочинения. Т.1
172. Маркс К., Энгельс Ф. Сочинения. Т.20
173. Маркс К., Энгельс Ф. Сочинения. Т.42
174. Маркс К., Энгельс Ф. Сочинения. Т.27
175. Маслоу А. Самоактуализация. «Психология личности». М.: 1982
176. Матюшкин А.М. Классификация проблемных ситуаций. М.: 1988
177. Мерлик В.С. Очерк психологии личности. Пермь: 1989
178. Мехтиев Р.Э. Межнациональные отношения: проблемы теории и политики. Автореф. дисс. докт. филос. наук. Баку, 1993
179. Мехтиев Р.Э. Философия. Баку: 2003
180. Мехтиев Р.Э. Политическое будущее Азербайджана за активными сторонниками и последователями Г. Алиева. Бакинский рабочий. 2002, 25 сентября

181. Михайлов Н.К. Социализм и разумные потребности личности. М.: Политиздат 1982
182. Михин В. Соотношение общества и личности при социализме. Автореф. дисс. докт. филос. наук. М., 1975
183. Монтескье Ш. Избранные произведения. М.: 1965
184. Мусабеков Р. Национализм: иллюзии и реальность // Возрождение – XXI век. 1999 № 20
185. Нарский И.С. Диалектическое противоречие и логика познания. М.: 1969
186. Нахчиванлы А. Этика и политика: история и современность. Б.: 2000
187. Нахчиванлы А. Политические и ценностные основания государственной власти. Автореф. дисс. докт. полит. наук. Баку, 2004
188. Некоторые вопросы психологии педагогики социогенных потребностей. Тбилиси: 1974
189. Новиков К.А. Свобода воли и марксистский детерминизм. М.: Политиздат 1981
190. Ноговицын О.М. Ступени свободы. Логико-исторический анализ категории свободы. Л.: Изд-во Ленингр. ун-та 1990
191. Нурманбетова Д.Н. Человеческая индивидуальность как социально-философская проблема. Автореф. дисс. докт. филос. наук. Алма-Ата, 1999
192. Общественная практика и общественные отношения. М.: Мысль 1982
193. Ойзерман Т.И. Марксистско-ленинское понимание свободы. М.: 1967

194. Ойзерман Т.И. Размышления о реальном гуманизме, отчуждении, утопизме и «позитивизме» // Вопросы философии, 1989, № 20
195. Ойзерман Т.И. Материалистическое понимание истории: плюсы и минусы. // Вопросы философии, 2001, № 2
196. Основы философии (под ред. Попова). М.: 1998
197. Панарин Л.С. Политология. М.: 1998
198. Панин В.П., Алексеев А.А. Философия. М.: 1997
199. Парыгин Б.Д. Основы социально-психологической теории. М.: 1971
200. Пелипенко А.А., Яковенко И.Т. Культура как система // Человек, 1997, № 5
201. Пеньков Е.М. Социальные нормы: управление, воспитание, поведение. М.: Высшая школа.
202. Перестройка и нравственность // Вопросы философии, 1990, № 7
203. Пилипенко Н.В. Диалектика необходимости и случайности. М.: 1980
204. Платон. Собрание сочинений в 4-х т. Т.1, М.: Мысль, 1990
205. Плеханов В.Г. Избранные философские произведения в 5-ти т. Т. 1, М.: 1956
206. Политология. Под ред. Полуниной А.С. М.: 1996
207. Политология. Энциклопедический словарь. М.: 1993.
208. Политическая система: вопросы демократии и самоуправления. М.: 1988
209. Политическая элита. М.: 2003
210. Полякова Н.В. Экономическое поведение. Иркутск: 1988
211. Поппер К. Открытое общество и его враги. М.: 1992. т.1
212. Поппер К. Открытое общество и его враги. М.: 1992. т.2

213. Почта Ю.М. Возникновение ислама и мусульманского общества (философско-методологический анализ). М.: 1993

214. Пугачев В.Н., Соловьев А.И. Введение в политологию. М.: 1995

215. Право, свобода, демократия. Материалы круглого стола // Вопросы философии, 1990, № 6

216. Пригожин И.Р., Стенгерс И. Порядок из хаоса. М.: 1986

217. Проблема целостности в современной биологии. М.: 19

218. Проблемы государства и демократии. М.: 1992

219. Радаев В.В. Экономические и социологические концепции хозяйственного поведения человека. Автореф. дисс. докт. эконом. наук. М., Ин-т Экономики РАН 1997

220. Резвицкий И.И. Личность. Индивидуальность. Общество. М.: Политиздат 1984

221. Розин В.М. Ценностные основания концепции деятельности в психологии и современной методологии // Вопросы философии, 2001, № 2

222. Рубинштейн С.Л. Основы общей психологии. М.: 1957

223. Рывкина Р.В. Экономическая социология переходного периода. Люди и реформы. М.: 1998

224. Свобода и ее содержание. Волгоград: 1982

225. Сев Л. Марксизм и теория личности. М.: Прогресс, 1972

226. Симоношвили К.А. Демократия в Грузии. М.: 2001

227. Ситарам К., Когделл Г. Основы межкультурной коммуникации // Человек, 1992, № 4

228. Скворцов Л.Н. Культура самосознания. М.: Политиздат, 1989

229. Скотт Дж. Моральная экономика крестьянства как этика выживания. / Крестьяне и фермеры в современном мире. Под ред. Т. Шанина. М., 1998
230. Словарь иностранных слов. М.: Русский язык, 1988, 608 с.
231. Слободников В.И. Деятельность как антропологическая проблема // Вопросы философии, 2001, № 1
232. Смирнов Г.Л. Революционная суть перестройки. М.: 1987
233. Смирнов Г.Л. Советский человек. М.: Политиздат, 1989
234. Смирнов П.И. Метаморфозы индивидуализма в западном обществе / Социология и социальная антропология. М., 1997
235. Спиркин А.Г. Основы философии. М.: 1988
236. Спиркин А.Г. Философия. М.: Гардарики, 2000
237. Старшинова А.В. Социально-политическая активность личности (сборник трудов). Свердловск, 1988
238. Степин В.С., Горохов В.Г., Розов М.А. Философия науки и техники. М.: 1996
239. Столович Л.Н. Жизнь - творчество – человек. Функции художественной деятельности. М.: Политиздат, 1985
240. Современная западная философия. Словарь. М.: Политиздат, 1991
241. Современное государство и право. Вопросы теории и истории. Владивосток: 1992
242. Соловьев А.И. Политика и мораль. Грани очеловеченного дискурса // Вестник МГУ. Сер. соц. полит. исследований. 1996, № 1
243. Сорос Дж. Кризис мирового капитализма. Открытое общество в опасности. М.: 1999
244. Социальный менеджмент. Под ред. С.Д.Ильенковой. М.: 1998

245. Теплов Б.М. Психология. М.: 1982

246. Титаренко М.Л. Древнекитайский философ Мо Ду, его школа и учение. М.: Наука, 1985

247. Тишков В.А. Социальное и национальное в историко-антропологической перспективе // Вопросы философии. 1990, № 12

248. Токвил А. Демократия в Америке. М.: 1992

249. Тугаринов В.П. Личность и общество. Л.: 1962

250. Тугаринов В.П. Теория ценностей в марксизме. Л.: 1968

251. Уайтхед А.Н. Избранные работы по философии. М.: 1990

252. Узнадзе Д.Н. Основные положения теории установки. Тбилиси: 1967

253. Узнадзе Д.Н. Труды в 6-ти т. Т.6, М.: 1977

254. Уледов А.К. Духовное обновление общества. М.: Мысль, 1990

255. Фарукшин М.Х. Политическая культура общества // Социально-политические исследования. 1991, № 4

256. Федотова В.Г. Судьба России в зеркале методологии // Вопросы философии, 1996, № 3

257. Фейербах Л. Избранные философские произведения. В 2-х т. Т.1, М.: 1955

258. Философия. Под ред. В.А. Губина. М.: 1998

259. Философия. Под ред. В.Н. Лавриненко. М.: 1996

260. Философская энциклопедия в 5 т. Т.3

261. Философская энциклопедия в 5 т. Т.4, М.: Сов. энцик. 1967

262. Философская энциклопедия. Т.5, М.: 1970

263. Философский энциклопедический словарь (под ред. И.Т. Фролова). М.: Политиздат, 1986

264. Франкл В. Человек в поисках смысла. М.: Республика, 1990

265. Фрейд З. Человек по имени Моисей и монотеистическая религия. М.: 1993
266. Фролов И.Т., Юдин Б.Г. Этика науки. Проблемы и дискуссии. М.: 1986
267. Фром Э. Адольф Гитлер: клинический случай некрофилии. М.: Республика, 1992
268. Фром Э. Психоанализ и этика. М., Наука, 1993
269. Фром Э. Характер и социальный процесс. – Психология личности. М.: 1982, Прогресс
270. Фром Э. Душа человека. М.: Республика, 1992
271. Фром Э. Иметь или быть. М.: Прогресс, 1990
272. Формирование духовного мира человека и НТР. М.: 1972
273. Фукуяма Ф. Конец истории и последний человек. М.: 1999
274. Человек. Границы философской рефлексии. М.: 1996
275. Четвернин В.А. Демократическое конституционное государство: введение в теорию. М.: 1996
276. Чижевский А.Л. Земное эхо солнечных бурь. М.: 1976
277. Шанин А.И., Тавадов Г.Т. Личность в системе национальных отношений // Вестник МГУ. Сер. соц-полит. исслед. 1992, № 2
278. Шаталова Н.И. Трудовой потенциал работника: пробемы функционирования и развития. Екатеринбург: 1998
279. Швейцер А. Благоговение перед жизнью. М.: Прогресс 1992
280. Швейцер А. Культура и этика. М.: 1979
281. Шнирельман В.А. Евразийская идея и теория культуры // Этнографическое обозрение, 1996, № 4
282. Шмитт К. Понятие политического // Вопросы социологии 1992, № 1

283. Этика. Под ред. А.А. Гусейнова и Е.Л. Дубко. М.: Гардарики 1999
284. Этнический ренессанс – парадокс XX века. // Диалог, 1999, № 15
285. Этнические стереотипы поведения. (под ред. А.К.Байбурина). М.: 1995
286. Ярошевский Т. Размышления о человеке. М.: Политиздат
287. Ясперс К. Смысл и назначение истории. М.: Республика, 1991
288. Янаев М.Г. Ценностные предпосылки в структуре научного познания. М.: 1990

**İngilis dilində**

289. Bareft W. Trational Man. A. Study in existensial Philosophu N.V. 1989
290. Bergman H. Auf dem Weg zur Personlichkeyt. Wessen Wert und Recht der Individualitat. Zimburg, 1984
291. Buren E. Situation et probalite cher Saint Thomas Aguin Bevue philosophique de Zaubain. t.64 № 84, 1986
**292.** Jaspers K. Philosophie. Berlin 1982. Bd II.

### *Müəllif haqqında*

Məmməd Hüseyn oğlu Rzayev 1952-ci il may ayının 8-də Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində anadan olmuşdur.

O, 1958-ci il sentyabrın 1-də Naxçıvan şəhərindəki 4 №-li 8 illik məktəbə daxil olmuş, sonra şəhər 1 №-li orta məktəbində təhsilini davam etdirərək, 1968-ci ildə həmin məktəbi bitirmişdir.

M.H.Rzayev 1968-ci ilin avqust ayında Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialına qəbul olunmuş və 1972-ci ildə həmin institutun Tarix-filologiya fakultəsinin tarix ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir. 1972-ci ilin sentyabr ayından 1973-cü ilin may ayınadək Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində metodist işləmiş, 1973-cü ilin may ayından 1974-cü ilin may ayınadək Almaniyada hərbi xidmətdə olmuşdur.

1974-cü ilin iyul ayından 1997-ci ilin yanvarınadək Naxçıvan Dövlət Universitetinin «Fəlsəfə» kafedrasında müəllim, baş müəllim və dosent vəzifələrində işləmişdir. Azərbaycan Respublikası Təhsil Nazirinin 1997-ci il 6 yanvar taxirli əmri ilə Naxçıvan Dövlət Universitetinin tərbiyə işləri üzrə prorektoru vəzifəsinə təyin olunmuşdur. Haliyədə həmin vəzifədə çalışır. Yeni Azərbaycan Partiyasının üzvüdür. 1984-cü ildə namizədlik, 2005-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Fəlsəfə elmləri doktoru, professordur.

Moskva, Rostov, Voronej, Novosibirsk (Rusiya), Alma-Ata (Qazaxıstan), Bışkek (Qırğızıstan), Aşqabat (Türkmənistan), Tehran, Təbriz, Marağa (İran), İstanbul, Qars, Sakarya, Ərzurum (Türkiyə) Priston (İngiltərə), Vorms (Almaniya) şəhərlərində keçirilən beynəlxalq elmi konfransların iştirakçısıdır.

21 kitabın, 220 elmi məqalənin müəllifidir.

M.H.Rzayev III və IV çağırış Naxçıvan MR Ali Məclisinin deputatıdır. Azərbaycan Respublikasının əməkdar müəllimidir. Dəfələrlə Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəxri fərmanları ilə təltif edilmişdir. O, 2012-ci ildə "Qabaqcıl ali təhsil işçisi" döş nişanı ilə təltif olunmuşdur.

2004-cü ildə əsərlərində ümummilli lider Heydər Əliyevin ideyalarını və siyasi kursunu yüksək səviyyədə təbliğ etdiyinə görə Heydər Əliyev fondunun (Novorosibirsk şəhəri, Rusiya) mükafatını almış, 2008-ci ildə isə «Yeni Azərbaycan» qəzetinin ulu öndərə həsr edilmiş ən yaxşı məqalə müsabiqəsində birinci yeri tutaraq mükafata layiq görülmüşdür.

Ailəlidir, bir qızı, iki oğlu, dörd nəvəsi var.

## FƏLSƏFƏ ELMLƏRİ DOKTORU, PROFESSOR RZAYEV MƏMMƏD HÜSEYN OĞLUNUN DƏRC OLUNMUŞ KİTABLARININ SİYAHISI

1. Müasir fəlsəfədə şəxsiyyət. Bakı, Nurlan, 2003
2. Şəxsiyyət və zaman. Bakı, Elm, 2004
3. Fəlsəfədə şəxsiyyət problemi. Bakı, Elm, 2004
4. Şəxsiyyətin fəlsəfəsi. Bakı, ADPU, 2004
5. Müasir şəxsiyyət: azadlıq və məsuliyyət.Bakı,ADPU, 2005
6. Şəxsiyyət və dəyərlər. Bakı, ADPU, 2005
7. Təhsildə gender bərabərliyi. Bakı, 2006
8. Şəxsiyyətin sosial-fəlsəfi təhlilinin metodoloji əsasları. Bakı, MMC, 2007
9. Şəxsiyyət müasir transformasiya şəraitində. Bakı,MMC, 2007
10. Keçid dövrü və şəxsiyyət (sosial- fəlsəfi təhlil), Bakı, Yurd, 2007
11. Zamanı qabaqlayan dahi . Bakı, «Vektor», 2008
12. Vətənə sədaqət andı. Novosibirsk, 2008
13. Fəlsəfənin tədrisində şəxsiyyət probleminin təhlili metodikası. Bakı, ATU, 2009
14. Şəxsiyyət: azadlıq və milli şüur. Bakı, ATU, 2009
15. Fəlsəfədə dəyər kateqoriyası. Bakı, ATU, 2009
16. Qloballaşma və şəxsiyyət. Bakı, Sabah, 2010
17. Xarici ölkələrin fəlsəfə tarixi. Bakı, ATU, 2010
18. Fəlsəfə tarixi. Bakı, ATU, 2010
19. Туризм и современность. Новосибирск, 2011
20. Şəxsiyyət haqqında düşüncələr. Bakı, ATU, 2011
21. Fəlsəfə tarixi (təkmilləşdirilmiş ikinci nəşri). Bakı, 201

*Kompüterdə yığdı:* **Taleh Xəlilov**